**Zaur Əliyev**

# DÜNYA DİASPORALARI

2305

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

Bakı-2005

63.3(0=...)
Ə 64

Kod 664107

Məsləhətçilər: **Mahmud Kərimov** - akademik, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının İdarə Heyətinin sədri;

**Qulamrza Səbri Təbrizi** - Böyük Britaniyanın Edinburq Universitetinin professoru, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının İdarə Heyətinin sədr müavini.

Rəyçilər: **Məryəm Seyidbəyli** - tarix elmləri namizədi, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun "Azərbaycan diasporu şöbəsinin müdiri;

**Mirzə Ənsərli** - "Diaspor və Lobbi Elmi Araşdırmalar Mərkəzinin prezidenti.

Elmi redaktoru: **Əlikram Tağıyev** - fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Siyasi Hüquqi Tədqiqatlar İnstitutunun "Politologiya şöbəsinin müdiri.

Redaktor: **Eliza İsmayılova** - Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının Mərkəzi Ofisinin icraçı katibi

Texniki redaktor: **Vahid Məmmədrzayev**

Əliyev Zaur. Dünya diasporları (nəzəriyyə və təcrübə), Bakı, "Qismət, 2005, səh

***Kitab Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının təşəbbüsü və Azərbaycan MEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun "Politologiya" şöbəsinin 02 fevral 2004-cü il tarixli iclasında müzakirə olunub və çapa məsləhət görülüb.***

Təqdim edilən bu kitab dünyanın aparıcı diasporlarının nəzəri və təcrübi məlumatlarını özündə birləşdirir. Kitabda diaspor nəzəriyyəsi ilə yanaşı Azərbaycan, Yəhudi, Türk, Çin, Ərəb, Erməni və digər diasporlar barədə geniş araşdırma aparılıb. Kitab yazarkən tədqiq edilən diasporlar ilə əlaqələr qurulması nəticəsində toplanan məlumatlardan istifadə edilib.

Kitab geniş oxucu kütləsi ilə yanaşı bu sahədə tədqiqat aparan ali və elmi müəssisələrin tələbə və əməkdaşları üçün nəzərdə tutulub.

**ISBN 5-86774-213-7** **© "Z. Əliyev", 2005**



**MüstəqilAzərbaycan Respublikası bütün dünyada yaşayan azərbaycanlıların tarixi və doğma vətənidir.**

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub. Biz həmişə azərbaycançılıq ideyası ətrafında birləşməliyik.

İndi azərbaycanlıların bir müstəqil dövləti mövcud olduğu halda, dünyanın müxtəlif bölgələrində yaşayan azərbaycanlıların bir-biri ilə daha da sıx əlaqə qurması, öz həmrəyliklərini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqələr yaratması tarixin bu mərhələsində çox əhəmiyyətli bir vəzifə kimi meydana çıxır.

Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir. Müstəqil Azərbaycan dövləti gənc olduğu kimi, Azərbaycanın milli həmrəyliyi, dünya azərbaycanlılarının birliyi də, müxtəlif ölkələrdəki Azərbaycan icmaları da gənclərdir. Bizim müstəqilliyimiz möhkəmlənir, xarici ölkələrdə yaşayan azərbaycanlılar daha sürətlə təşkilatlanırlar.

Azərbaycan xalqına eşq olsun! Yaşasın Müstəqil Azərbaycan!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının ümummilli lideri**
Dünya Azərbaycanlılarının Birinci Qurultayı
10 noyabr-2001. Bakı

## DÜNYA AZƏRBAYCANLILARININ ƏLAQƏLƏNDİRMƏ ŞURASI

Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası (DAƏŞ) dünyanın müxtəlif bölgələrində məskunlaşmış azərbaycanlıların təşkilatlanması, onların hüquqlarının müdafiəsi, milli-mənəvi dəyərlərin birgə qorunması məqsədilə yaradılmış xüsusi əlaqələndirmə mərkəzidir. Vacib və komponent bir qurum olan DAƏŞ 2001-ci ildə Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında yaradılmışdır.

Əlaqələndirmə Şurasının mərkəzi ofisi qurumun İdarə Heyətinin sədr müavini, Edinburq Universitetinin professoru ***Qulamrza Səbri Təbrizinin*** rəhbərliyi altında yaradılıb. DAƏŞ-in emblemi «iki əlin ürək formasında birləşməsi»ölkə daxilində və xaricində yaşayan soydaşlarımızın ANA VƏTƏN AZƏRBAYCAN ətrafında birləşərək vahid ürək təşkil etməsi mənasını ifadə edir. Ana öz övladını necə sevir, onun üçün darıxırsa Vətənimiz olan Azərbaycan da öz balaları-vətəndaşları üçün o cür darıxır, həyacan keçirir və sevir.

Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası dünya azərbaycanlılarının ümumi məqsədlər ətrafında birləşməsi, təşkilatlanması, məskunlaşdıqları ölkələrdə icmalar, qurumlar vəcəmiyyətlər şəkilində bir-biri ilə sıx əlaqədə olması, həmin ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etməsi istiqamətində işlər görməyi qarşısına məqsəd qoyub. DAƏŞ-in yaranmasından sonra dünya azərbaycanlıları və onların milli birliyi, soydaşlarımızın qüvvəsinin və diqqətinin Azərbaycan dövlətinə yönəldilməsi kimi vacib problemlərin həm nəzəri, həm də əməli tərəfləri ilə bağlı bir çox məsələlər həll edildi

DAƏŞ-in əsas məqsəd və vəzifələri aşağdakı kimi sıralanır:

### 1. MİLLİ-MƏDƏNİ DƏYƏRLƏRİMİZİN QORUNMASI:

- Azərbaycan mədəniyyət, musiqisi və incəsənətini dünya azərbaycanlıları və digər millətlər arasında təbliğ etmək;
- Dünya azərbaycanlıları arsında Azərbaycan dilinin qorunub saxlanması və təbliğiməqsədi ilə diaspor təşkilatları və xarici ölkələrdəki digər nümayəndəliklərimizin nəzdində dil kurslarının açılması;
- Azərbaycan mədəni irsininqorunub saxlanılması məqsədi ilə bədii, publistik gecələrin keçirilməsi, mühacirət tarixinin öyrənilməsi;
- Azərbaycan tarixini, ədəbiyyatını və azərbaycançılıq ideologiyasını təbliğ etmək;



- Azərbaycanla bağlı dolğun, dəqiq və obyektiv xəbərlərin dünyaya çatdırılması üçün internet səhifələrinin hazırlanması, əlaqələrin qurulması, qəzet, jurnal və kitabların nəşri;
- Xaricdə yaşayan soydaşlarımız içərisində Azərbaycanda təhsil almaq istəyənlər üçün şəraitin yaradılması.

### 2. İQTİSADİYYATIN İNKİŞAF ETDİRİLMƏSİ:

- Azərbaycan iqtisadiyyatının güclənməsi məqsədilə ölkəyə investisiya qoyulması üçün Respublikanın iqtisadi rayon və şəhərləri barədə onlara məsləhət və məlumatların verilməsi

### 3. LOBBİÇİLİK İSTİQAMƏTİNDƏ:

- Torpaqlarımızın 20%-ni işğal etmiş Ermənistan təcavüzkarlığının beynəlxalq aləmdə tanınmasına çalışmaq, erməni terrorizminin ifşa edilməsi, müharibə həqiqətlərinin və ermənilərin tarix boyu ölkəmizə qarşı törətdikləri soyqırımların dünya ictimaiyyətinə çatdırılması;
- Azərbaycan icmaları vasitəsilə xarici ölkələrdə ölkəmizi daha yaxından tanıtmaq üçün müxtəlif tədbirlər görmək;
- Azərbaycan diasporunun təşkilatlanması istiqamətində bu sahədə təcrübəsi olan başqa diasporlar ilə əlaqə yaratmaq, onarla dövlətimiz naminə əməkdaşlıq etmək.
- Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası bu günə qədər çoxsaylı tədbirlər həyata keçirib.Onlar içərisində mühüm əhəmiyyətli sayılanlardan aşağdakıları qeyd etmək olar:
- Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının təşkilatçılığı ilə hər il Belçikanın Brüssel, İsveçin Stokholm,Danimarkanın Kopenhagenvə digər Avropa şəhərlərində əsrin faciəsi XOCALI SOYQRIMI ilə bağlı tədbirlər keçirilir.
- 2003-cü ilin iyul ayının 2-də DAƏŞ-in təşkilatçılığı ilə Kıbrıs, Balkanlar və Avrasiya Türk Ədəbiyyatları Qurumunun (KİBATEK) həmin il üçün Uluslararası Ödülün təqdimatı keçirilib,Edinburq Universitetinin professoru Qulamrza Səbri Təbrizi və professor Vaqif Sultanlı mükafatlandırılıb.
- 2003-cü ilin iyul ayının 2-də DAƏŞ-in təşkilatçılığı ilə AMEA-nın Əlyazmalar İnstitutunda «Türk dünyasınınmədəniyyət strategiyası» mövzusundabeynəlxalq forum keçirilib.
- 2003-cü ilin iyun ayının 30-da DAƏŞ-in mərkəzi ofisində «Diaspor təşkilatlarının birgə fəaliyyəti» başlıqlı konfrans təşkil edilib.
- DAƏŞ-inmaliyyəsi ilə Avropanın bir çox ölkəsinə tədris və elmi kitablar göndərilib.
- Diasporda Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinindəstəklənməsi ilə bağlı DAƏŞ-in rəhbərliyi altında təbliğat-lobbiçilik işi aparılıb.

- 2004-cü il aprel ayının 28-də DAƏŞ-in mərkəzi ofisində «Azərbaycan Respublikasınınxaricdə yaşayanazərbaycanlılarla bağlı dil və təhsil siyasəti» mövzusundakonfrans keçirilib.
- DAƏŞ-in təşkilatçılığı ilə2004-cü il iyul ayının 16-17 tarixindəBöyük Britaniyanın paytaxtı Londonda «Azərbaycan dili və mədəniyyətinin inkişafı» mövzusunda konfrans keçirilib.
- 2004-cü il noyabr ayının 30-da DAƏŞ-in mərkəzində dahi bəstəkar Üzeyir Hacıbəyova həsr edilmiş ədəbi-bədii gecə keçirilib.
- 2005-ci il mart ayının-31-də DAƏŞ-in mərkəzində «31 Mart azərbaycanlıların soyqırımı» gününə həsr edilən konfrans keçirilib.





## DİASROR NƏZƏRİYYƏSİ

Beynəlxalq münasibətlər sistemində xüsusi çəkiyə malik olan diaspor anlayışınason 10 il ərzində Azərbaycanda müxtəlif yanaşmalar var . İcma, mühacirət, lobbiçilik, ictimai təşkilatlar, sürgünvə digər anlayışlarla diaspor termininineyniləşdirilməsi faktına elmi ədəbiyyatlarlayanaşı kütləvi informAsiya vasitələrində yayılan məlumatlarda da rast gəlinir. Bu cür hallar təbii ki, yalnış olmaqla problemin mahiyyətini dərk edib anlamağa, "diaspor" dedikdə məhz nəyin nəzərdə tutulduğunu aydınlaşdırmağa mane olur. Öncə diaspor probleminə baxış və münasibətlər sistemində ciddi məlumatsızlığın olması, tərəddüd halları, məsələyə birtərəfli, sxolastik, mexaniki yanaşma meylləri özünü göstərir.

Ümumilikdə götürdükdə "diaspor" mövzusunu tədqiq edən zaman onun hansı mənanı ifadə etdiyi barədə fikir ayrılığı, baxış fərqləri mövcud olduğunu görə bilərik.

Diaspor Yunan dilində "diaspora" - terminindən götürülüb. Bu termin "diasreikein"-səpələnmə, dağılma, yayılma, parçalanma felindən alınıb. Dia-söz önü ilə Speirein - səpmə, dağıtma, parçalanma, yayma felinin birləşməsindən yaranan "diaspeira" - termini antik Yunan əsatirlərində, filosofların, tarixçilərin əsərlərində, dini ədəbiyyatlarda səpələmək, dağıtmaq (pulu) və yaymaq, səpələmək (ordunu) mənasında işlədilib. Heredot və Sofoklun əsərlərində rast gəlinən bu termin sonradan daha geniş mənalarda işlənib. "Diaspora" - termini isə ilk dəfə İncilin (Bibliya) Yunan dilinə tərcümə olunan variantı *"Septugainte"*-də insanların, etnik qrupların səpələnməsi, yənibizim bildiyimiz diaspor anlayışında işlədilib. Burada "yəhudilərin, bütpərəstlər içərisinə səpələnməsi"-mənasını ifadə edən diaspor termini sonradan Plutarx, Filon İskəndəriyyəli vəbaşqa xristian müəlliflərin əsərlərində etnik qrupların səpələnməsi, yayılması kimi istifadə edilməyə başlanıb.

Buradan məlum olur ki, yunan termini olan diasporun digər tarixi situasiyalara, millətlərə xas edilməsi onun geniş mənada tədqiq və izah edilməsinə imkan verir. Diaspor termininin yəhudilərə şamil edilməsi və bu terminin yəhudi milləti ilə yaranması fikri kökündən yalnışdır. Yunan müəlliflərinin əsərlərinə nəzər salsaq diaspor termininineramızdan əvvəl VI əsrdə Anadolu və Ağdəniz ərazilərində yaşayan yunanların iqtisadi səbəblərlə bu ərazilərdən köç edib müasir Yunanıstan ərazisinə məskunlaşması ilə əlaqələndirildiyini görərik.

Son 10 ilə qədər tədqiqatçılar arasında diaspor termininin öz başlanğıcını bu dövrdən götürməsi əsas fikir idi. Lakin məşhur səyyah- alim Tur Heyerdalın Azərbaycana səfəri zamanıonun Qobustan və digər qədim ərazilərdə tədqiqat aparmasından sonraelmə yeni fikir gətirdiyi bir çox tədqiqatçılar tərfəindən söylənilir. Məşhur səyyahın bildirdiyinə görə yunan termini nə yunanlara,

nə dəyəhudilərə şamil olunmalıdır. Dünya tarixində geniş surətdə səpələnmə, yayılma prosesi öz tarixini türklərdən götürür. Məhşur rus alim Qumilyovun passionarlıq nəzəriyyəsinə əsaslanaraq türk millətinin böyük bir geosiyasi məkanda kök etməsinin şahidi oluruq. Bu tayfalar Qərbdən Şərqə və sonra da əks istiqamətdə köç edərək dünya xalqlarının mədəniyyət, dil, ənənə və musiqilərinin formalaşmasında əhəmiyyətli rol oynayıblar.

Hələlik tarixi və din ədəbiyyatlardasəpələnmə faktı yəhudilərlə əlaqələndirilir.

Mənbələrdən məlum olur ki, e.ə VIII əsrdə Assuriya çarı II Şarqon İsrail çarlığının paytaxtı Samariyanı işğal etdikdən sonra yahudi xalqı zorla və könüllü olaraq doğma torpaqlarından köçərək qonşu ərazilərə səpələnmişlər. Başqa ərazilərdə məskunlaşmağa məcbur olan yəhudilər buralarda da icmalarını formalaşdırıblar. Yəhudi xalqının diaspor yaratmasına səbəb isə e.ə 576-cı ildə Babilistan çarı IINavudahonsor tərəfindən İudeya çarlığının paytaxtı Qüdsün işğal edilməsi oldu. Babilistana və digər ərazilərə köçürülən və könüllü mühacirətedən yəhudilər diaspor yaratmağa məcbur olaraq, öz milli kimliklərini qoruyub saxlamağa çalışıblar.

Diaspor yaratmalarına baxmayaraq bu termini özlərinə yaxın buraxmayaraq sıx əlaqələr quran yəhudilər diaspor həyatını **Qalut**-sürgün kimi qəbul edib və vətənə dönmək üçün əsrlər boyu dini qaydalara riayət etməyə çalışırlar *(Bax: Yəhudi diasporu)*.

Yəhudiliyə aid olan İncilin Əhdi-Ətiq (qədim yəhudi dini olan ibrani dilində yazılıb) hissəsidə İsrail (yəhudi) xalqının tarixindən bəhs edir vəburada diaspor termini mənasını verən səpələnmə, dağılma, yayılma, parçalanma sözünün15 dəfə işlədilməsinə rast gəlinir.

"...Sənin böyüklüyün sayəsində tayfalar səpələndi", ".. Və sonra dedi ki, mən gördüm ki, xalq qaçır, dağılır", "Bu üç nəfər Nuhun oğullarıdır ki, onlardan bütün dünya xalqları yaranmış, səpələnmişdir", "Gəlin özümüzə şəhər və qüllə tikək və onun boyunu səmaya tərəf uzadaraq özümüzə ad qazanaq ki, sonradan bütün dünyaya səpələnməyək", "Və Allah onları oradan bütün dünya üzərinə səpələdi", ".. Və misirliləri xalqlar arasından yayacam", ".. Və İsraildə və İudada səpələnən və qovulan yəhudiləri bütün dünyanın dörd tərəfindən toplayacaq" və.s sözlər İncilin Əhdi-Ətiq hissəsində diaspor mənasını ifadə edən mənalarda işlədilib.

Bütün deyilənləri nəzərə alaraq diaspor terminin aşağıdakı kimi izah etmək olar:

«Xalqın və ya etnik birliyin müəyyən hissələrinin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşaması diaspor anlayışının meydana çıxması deməkdir.»





Bu anlayışın yaranmasında isə yunan termini olan **diaspora**-səpələnmə, dağılma, parçalanma, yayılma anlayışı mühüm rol oynayır. Semaitik baxımdan bənzər anlayış kimi diaspor termininə diaspersiya (yayılma, səpələnmə) sinonimi misal olaraq göstərmək olar. "Diaspersiya" hər hansı bir səbəbdən yurd-yuvasından qovulmuş və ya sürgün edilmiş insanlar anlayışı ilə diaspor termininin elmi nöqteyi nəzərincə təyin etdikdə bir-birindən fərqləndirmək lazımdır.

**Diaspersiya**-dan fərqli olaraq diaspor anlayışı daha geniş mənanı ifadə etməklə, siyasi, iqtisadi, sosial cəhətlərlə, inkişafla, fəaliyyətlə sıx bağlıdır. Diaspor fenomenini izah etmək üçün diaspersiya ilə yanaşı bu və digər oxşar anlayışları da fərqləndirmək lazımdır. Rusiya Elmlər Akademiyasının üzvləri V.A.Kolosov, T.A.Qalkina və M.V.Kuybuşev diaspor termininə oxşar anlayışları aşağdakı kimi sıralayırlar:

**1. Mühacirət - İnsanların könüllü olaraq bir ölkədən başqa bir ölkəyə köçməsi və ya məcburən köçürülməsi. Əsasən iqtisadi və sosial səbəblərlə əlaqəli olan mühacirət son zamanlar siyasi xarakter almağa da başlayıb.**

**2. Koloniya - Bir dövlətin vətəndaşlarının digər ölkədə yaşaması.**

**3. İcma - Xüsusi mənada təbii və qan qohumluğu əlaqələri əsasında yaradılmış sosial təsisatın ilkin forması.**

**4. Dövlət sərhədləri ilə iki hissəyə bölünmüş xalq.**

**5. Dövlət quruluşuna malik olmayan xalq.**

**6. Səpələnmə halında yaşayaraq qarşılarında dövlət qurmaq məqsədi qoymayan xalq (qaraçılar)**

**7. Öz tarixi vətənləri ilə təmamilə əlaqələrini itirən xalq və ya etnik qrup (*məs. ABŞ-ın qara dərili əhalisi*)**

Göstərilən bu oxşar anlayışların çoxunu diaspor termininə sinonim olaraq götürmək olar. Lakin bu anlayışlarla diaspor arasında sərhədlər tam olaraq müəyyənləşdirilməlidir. Diaspor Kaloniya nəticəsində yarana da bilər. Lakin bu uzun müddətli proses olaraq göstərilir. Bu proses zamanı digər gözlənilməz nəticələrlə də üzləşmək olar. Kaloniya sahibləri özləri zamanla yerli xalqa qaynayıb-qarışa bilər ki, artıq burada diaspordan danışmaq düzgün olmazdı. Misal üçün Əlcəzair fransızları tarixi proseslər səbəbi ilə artıq millət olaraq öz adlarını saxlamalarına baxmayaraq, öz milli kimliklərini, mentalitetlərini, mədəniyyətlərini, dinlərini, ənənələrini, mətbəxlərini itirmişlər və tamamilə assimliyasiya olunmuşlar. Bu isə diasporun formalaşması prosesində başlıca və ən əsas tələbatlardır ki, onların itirilməsi diaspor yaranmasına heç bir səbəb vermir. İcma anlayışını diaspora oxşar olması fikrini söyləyən bəzi tədqiqatçılar diasporun ilkin forması kimi icma kateqoriyasını göstərirlər. Bu fikirlə razılaşmamaq olmur. Digər bir ərazidə yaşayan etnik qrup və ya xalqın ilkin bir-

ləşməsi möhkəmlənməsi icma kateqoriyasından başlayır. Lakin icma diaspor demək deyil, ən əsası isə fikrimizin doğruluğunu isbatlamaq üçün diaspor anlayışının məna tutumuna baxmaq kifayətdir. Diasporun yaranması və formalaşması üçün mütləq etnik qrupun və xalqın tarixi vətənləri olması vacib şərtlərdən hesab olunur. Əgər hər hansı bir xalqın və ya etnik qrupun tarixi vətənləri yoxdursa və bununla əlaqəli mifik siyasi dünya görüşləri formalaşmayıbsa, onda burada diasporadan söhbət gedə bilməz. Bu halda mövcud etnik qrup və ya xalq məskunlaşdığı ərazini və ölkəni özlərinə vətən hesab edə bilərlər ki, bu da diaspor anlayışına zidd olan bir prosesdir. Bunun kimi qarşılarına dövlət yaratmaq məqsədi qoymayan kateqoriyanı təhlil etsək eyni fikri buna aid etmək olar. Diasporun formalaşması prosesinin əsas tələbatlarından biri vətən və dövlət anlayışlarının mütləq üst-üstə düşməsidir.

Digər bir kateqoriya olan dövlət sərhədləri ilə 2 hissəyə bölünən xalq və ya etnik qrupu diaspor hesab etmək kökündən yalnışdır. Bu anlayışları diaspor termininə sinonim kimi götürməklə, belə proseslə üz-üzə qalan xalqın və ya etnik qrupun tarixinin ən spesefik cəhətlərini nəzərə almamaq kimi qəbul edilir. Buna bənzər halla qarşılaşdığımız misal elə Azərbaycan xalqı timsalında görə bilərik. Bu gün Cənubi Azərbaycan, Dağıstan, Borçalıdayaşayan soydaşlarımızı diaspor hesab etmək yalnışdır. Dövlət sərhədləri ilə iki və ya daha çox hissəyə bölünən xalq və ya etnik qrup öz tarixi dədə-baba torpaqlarında yaşayırlar və onları diaspor kateqoriyasına aid etmək anlayışları düzgün hesab olunmur.

Diasporun formalaşmasında və yaranmasında iki əsas amil: *Birincisi* hər hansı bir xalqın nümayəndələrini öz ölkəsinin etnik torpaqlarından kənara, xaricə mühacirət etməsi və *ikincisi* artıq onun xaricdə qürbətdə olan hissəsini təbii-bioloji yolla artıb çoxalmasından da göründüyü kimi mühacirət anlayışı əsas olaraq götürür. Diasporun formalaşması və mövcudolma tarixi öz başlanğıcını mühacirət prosesinin baş verməsindən götürür. Bir sıra tədqiqatçılar hesab edirlər ki, diasporu formalaşdıra biləcək səviyyəsində mühacirət prosesi baş verməsə, burada diaspordan söhbət gedə bilməz. Mühacirət hallarının kütləvi xarakter alması isə öz növbəsində diasporun istər-istəməz yaranıb ortaya çıxmasını zəruri və qaçılmaz edir. Mühacirətin daha geniş və sosial mənalı və diasporun siyasi mənaya daha yaxın olmasını nəzərə alsaq mühacirətlə diaspor anlayışlarını eyniləşdirmək yanlış fikirdir. Bütün tərəfləri ilə oxşar və sinonim olmalarına baxmayaraq mühacirət prosesi diaspor demək deyil.

Diaspor mövzusunu araşdıran tədqiqatçılardan biri olan Robin Kohen hesab edir ki, diaspor anlayışı özündə 9 xüsusi özəlliyi birləşdirir.

**1. Tarixi ana vətəndən könüllü və ya zorla bir və ya daha çox əcnəbi ölkəyə mühacirət.**





**2. Bir sıra səbəblərlə, əsasən iş və ya kolonist məqsədlərlə ana vətənlərindən kənara səpələnmək, dağılmaq.**

**3. Uğurları, tarixi müasir durumu, tarixi vətənləri ilə əlaqəli mifik və ya kollektiv xatirənin, hafizənin qalması.**

**4. Mövcud tarixi vətənlərinin siyasi, iqtisadi, sosial inkişafı üçün birgə fəaliyyət.**

**5. Məskunlaşdığı ölkədə kollektivlə fəaliyyət və əməkdaşlıq.**

**6. Birgə görüləcək işlər, ümumi fikir prinsiplərinə söykənən əməkdaşlıq.**

**7. Məskunlaşdıqları ölkələrin ictimai-siyasi-iqtisadi həyatına adaptasiya**

**8. Başqa ölkələrlə yaşayan həmvətənlərlə qarşılıqlı əməkdaşlıq və bağlılıq.**

**9. Yaşadıqları ölkələrdə milli kimliyin qorunub saxlanılması və təbliği ilə paralel olaraq inkişaf.**

Kohen və digər tədqiqatçılar göstərilən bu prinsiplərin qorunub saxlanılması üçün diasporların assimilisasiya olunmaları faktını əsas götürürlər. Latınca "Assimilate" - uyğunlaşma, oxşatma sözündən əmələ gələn assimliyasiya bir xalqın öz daxilini, mədəniyyətini, dilini, dinini, milli şüurunu itirərək başqa xalqa qarışmasına deyilir.

Diasporun həyatında assimliyasiya prosesi başlıca rol oynayır. Həlledici əhəmiyyətə malik olan assimliyasiya prosesi etnik qrup və ya xalqın adaptasiya və məşğullaşma tempini nizamlayır. Assimliyasiya prosesinin öyrənilməsi əsasən qarışıq nigah barədə statistik göstəricilərdə diasporların say dinamikası və onların tarixi vətənlərinə bağlılığı ilə həyata keçirilir. Bir sıra tədqiqatçılar qeyd edirlər ki, assimliyasiya bir siyasət kimi iri dövlətlər tərəfindən azsaylı xalq və ya etnik qruplara qarşı yeridilən əsas siyasi fəaliyyətdir ki, dövlət bununla öz milli və dini maraqlarını təmin etmiş olur. Kiçik və azsaylı xalq və etnik qruplar üçün qanun xarakteri daşıyan assimliyasiya prosesi ikitərəfli xarakterə malikdir. Burada assimliyasiya edən xalqla assimliyasiya olunan xalqlar və ya etnik qrupların spesefik milli və tarixi xüsusiyyətlərindən çox şey asılıdır. Elə etnik qrup və xalqlar var ki, sayla azlıq təşkil etmələrinə baxmayaraq dini, tarixi, mədəni xüsusiyyətlərinə görə onları assimliyasiya etmək qeyri mümkündür. Yəhudi və çinlilər çətin assimilasiya olunan xalqlardan hesab edilir ki, onların diasporları əksinə,onlarmənskunlaşdıqları ölkələrdə assimliyasiya siyasəti yeritmək iqtidarındadırlar. " Assimliyasiya dözümü olan belə xalqlar"-dan iri dövlətlər çəkinir və onların milli spesefikliyinə hörmətlə yanaşaraq, öz xalqlarının milli xüsusiyyətlərini qoruyub saxlamağa çalışırlar.

BMT-nin diskriminasiya ilə əlaqəli xüsusi komissiyasısiyasi etnik qrup və xalqların zamanla sıradan çıxması və başqa cür xalqlar tərəfindən assimliy-

asiya olunması ilə əlaqəli hesabatında assimliyasiya ilə paralel olaraq aşağıdakı prosesləri etnik qrup və xalqlar üçün problem hesab edir:

1. Assimliyasiya prosesi
2. İnteqrasiya prosesi - Bir etnik qrup və ya tamamilə bir xalq tərəfindən inkişaf etmiş güclü xalqa qaynayıb-qarışmaq istəyindən irəli gəlir. Assimliyasiyadan fərqli olaraq Akkulturasiya adlanan bu proses iki mədəniyyətli, iki dinli və harmonik olaraq iki xalqlı kimi anlayışın yaranmasına şərait yaradır.
3. Fuziya (birləşmə) - Bu proses özlüyündə maraqlı tərəfləri özündə əks etdirir. Burada iki xalq və iki mədəniyyət birləşərək yeni mədəniyyət və xalq yaradırlar ki, politoloqlar bu halı müasirlik ilə yanaşı yox olmağın qarşısının alınması kimi qiymətləndirirlər.
4. Plüralizm prosesi - Bu proses qüdrətli xalqlar tərəfindən yeridilən bir siyasi kursdur ki, nəticədə bir neçə azsaylı etnik qrup və ya xalqların milli mənəvi dəyərləri qorunmaqla onların birləşdirilməsi baş verir.
5. Seqradiyasiya prosesi - burada hakim qüvvəyə malik olan qüdrətli xalq onlarla qonşu yaşayan etnik qrup və xalqları zəifləmiş və passiv halda iyerarxik mövqedə yaşaması prosesi baş verir.

Diaspor termininə aid olan "milli azlıq" - anlayışı R.İ Spektor tərəfindən "təqdimolunmayan xalqlar" - kimi qiymətləndirilir. Əslində "milli azlıqların" diaspor hesab edilməməsi mübahisəli məqamlarla doludur. Bəziləri hər hansı bir dövlətin tabeçiliyində tarix boyu yaşayan "milli azlıqları" diaspor hesab edir və əsas kimi onların siyasi, mədəni və təşkilatı işini göstərirlər. "Milli azlığın" diaspor hesab edilməsi üçün ilk növbədə həmin qrupun mədəni, milli, tarixi xüsusiyyətləri diqqətə alınmaqla yanaşı onların vətən və dövlət anlayışlarının üst-üstə düşməsi məsələsi diqqətlə incələnməlidir. Biz Azərbaycanda, Rusiyada, ABŞ-da və başqaölkələrdə yaşayan yəhudiləri milli azlıq kimi qəbul edə bilərik, lakin bu yanaşma bütün dünya yəhudilərinə şamil oluna bilməz. Çünki yəhudilər bir diaspor xalqı kimi bütün dünya tərəfindən tanınırlar. Ancaq Azərbaycanda yaşayan talış, kürd və ləzgiləri, Türkiyədə yaşayan lazları, kürdləri və digərlərinin diaspor hesab edilməsi kökündən yalnış olmaqla elmi ədəbiyyatda çaşqınlıq yaradır. Azərbaycanda yaşayan talışlar, kürdlər, ləzgilər, tatlar, buduxlar və digər "azsaylı xalqlar"- bu ölkənin vətəndaşı olmaqla burada ən azı bir neçə yüz illik tarixə malikdilər və onların vətən və dövlət anlayışları diaspor üçün tələb olunan vətən və dövlət anlayışı ilə üst-üstə düşmür. Bu səbəbdən də milli azlıq deyiləndə konkret bir etnik qrup nəzərdə tutulur. Lakin bəzi cəhətlərinə görə milli azlıq anlayışı ilə diaspor anlayışı arasında oxşarlıqların olması faktını danmaq da olmaz.

Ümumilikdə götürəndə "diaspor" - anlayışını izah edərkən bu mövzunun görkəmli tədqiqatçılarından sayılan Robin Kohen, Vilyam Sofran, Konstantin Zatulin, Tatyana Poloskova, S.Vişnevskiy, Kevin Korley, Ceyms Klifford.





Martin Kliduff və digərləri "millət və xalq" anlayışına ciddi fikir verilməsini xüsusilə qeyd edirlər. Bu barədə kitabında geniş izah verən rus tədqiqatçısı Tatyana Poloskova etnos və millət anlayışları arasında sərhədlərin müəyyənləşdirməsi fikrini irəli sürür. Burada düzgün olaraq göstərilən problemlə bizlər tez-tez rastlaşırıq. Qanunvericilikdə, elmi ədəbiyyatda, siyasətdə, etnik kateqoriyası millət anlayışı ilə eyniləşdirilir və hətta sinonim sözlər kimi istifadə edilir. Siyasətşünaslıq elmində millət anlayışının izahı aşağıdakı kimi verilir.

Millət - Latınca tayfa, xalq kimi izah edilən millət tarixi sosial - iqtisadi və dini əsaslarla yaranan və özünə məxsus psixoloji və özünütanıma xüsusiyyətlərə malik olan etnos tipidir.

Millət anlayışı bir çox tədqiqatçılar tərəfindən dəfələrlə araşdırılmışdır. Bu barədə fikirlərin haçalanması ilə qarşılaşmaq olar, lakin yekdil bir yanaşma, «***Millət heç bir zaman parçalanmır***» onların əsərlərinin başlıca şüarlarındandır.

Etnos - ümumi bir dilə əsaslanan və eyni bir mədəniyyətə sahib olan insan birliyidir və müəyyən bir kökə və nəsilə malikdir. Bundan irəli gələrək etnosların irq olmadığını qətiyyətlə bildirmək olar. Etnoslarda başlıca cəhətləri ictimai amillər şərtləndiyi halda, irqləri bioloji amillər yaratmışdır. Eyni bir irq daxilində müxtəlif etnoslar yaşayıb yaradır.

Etnosdan fərqli olaraq isə millət başqa xüsusiyyətlərə malikdir ki, onun yaranmasında dövlətmühüm rola malikdir. Buna görə də diaspor terminini təhlil edərkən etnos və millət anlayışları arasında sərhədlər tam olaraq müəyyən edildikdən sonra geniş tədqiqat aparmaq olar.

Diaspor probleminə yəhudilərin həyat təcrübəsinə bənzərxüsusiyyətləri tədqiqatçılar öz əsərlərində analiz edirlər. Nəticədə tək yəhudi diasporuna deyil, digər diasporlara xas xüsusiyyətlər ortaya qoyulur ki, onları aşağıdakı kimi sıralamaq olar:

1. Əhalinin azlıq hissəsinə aid olmaq.
2. Koporativlik
3. Əmək sferasındamüəyyən çətinliklər.
4. Hüquqlarda bəzi anlaşılmamazlıqlar.
5. Sosial statusun müəyyən edilməsinə qadağa və bəzi sıxışdırmaların mövcudluğu.
6. Digər etnik qrup və xalqlardan izolə olmaq.
7. Assimliyasiya tendensiylarının olması.
8. Diaspor anlayışının olması, hansı ki, buna əsasən aşağıdakılar daxildir.

8.A. Yaranmaq təsəvvürü.
8.B. Mədəni tarix təsəvvürü.
8.C. Ana vətən barədə təsəvvür.
8.Ç. Ana dilində danışmaq və ona bağlılıq.
8.D. Səpələnmək halında yaşamağa vərdiş etməmək.

8.E. Ana vətənlərilə daim əlaqə yaratmaq.

Adları sadalanan bu xüsusiyyətlər dünyanın bütün diasporlarına xas olması barədə fikirlər bildirən tədqiqatçılar diaspor araşdırmalarında onun başqa mövzularla əlaqəsini axtarmağa çalışırlar. Onların fikrincə hər bir diaspor üç əsas mərhələ keçir:

1. Formalaşma və yaranma dövrü.
2. Şəxsi diasporal inkişaf dövrü.
3. Transformasiya dövrü.

Bu dövrlərin hər biri dünyanın bütün diasporlarına aid edilir ki, Çin, Yunan, Yəhudi, Rus, Hind, Koreya, Türk, Erməni və digərləri bu prosesləri artıq keçiblər.

Diaspor ictimai-siyasi-iqtisadi səbələrlə bağlı olmaqla yanaşı digər önəmli mövzu və problemlərlə qarşılıqlı əlaqədədir. Diaspor terminimə geosiyasət, din, dil, mədəniyyət, siyasət, lobbiçilik, və s. ilə eyniləşdirmək formalarına elmi ədəbiyyatda tez-tez rast gəlinir.

***DİASPOR VƏ "VƏTƏN" ANLAYIŞI:*** Amerikanın məhşur etnik məsələlər üzrə tədqiqatçısı Uolker Konnor diaspor anlayışına belə izah verir:-*Ana vətənlərindən kənarda yaşayan əhali kütləsi* - Bu izahdan irəli gələn vətən anlayışı hər bir diasporun həyatında və mövcudolmasında başlıca əhəmiyyət daşıyır.

Ana vətənlə mifik, ortaq baxış və fikirlərin olması diasporların birləşməsi, həmrəyliyi məsələsində müstəsna rol oynayır. Tarixi vətənləri olan diasporlar fəaliyyət və yaşamlarıda məskunlaşdıqları ölkələrdə onu layiqincə təmsil etməyə çalışırlar. Qüdrətli diaspora xas olan iki əsas cəhət:

**Milli kökünə bələd olub, milli varlığına milli sərvətlərinə sahibolmaq.*

**Tarixi vətənlərini başqalarına tanıtmaqla onu xarici ölkələrdə təbliğ etmək* - diasporları vətən və dövlətləriylə qarşılıqlı əməkdaşlıqda prioritet mövqeyə malikdir. Buəməkdaşlıq əsasən aşağıdakı proseslər üzərində qurulub:

1. Hər bir dövlət yarandığı ilk gündən təkcə öz vətəndaşlarının deyil, ümumiyyətlə vətəndən kənarda məskunlaşan xalqınmilli varlıq simvolu, etibarlıhimayədarı və milli siyasi mövcudluğun vasitəsi kimi çıxış edir. Dövlətlərin öz diasporları ilə rəsmi iş aparan qeyri hökumət və dövlət qrumları mövcuddur ki, belə münasibətdən hər iki tərəf udmuş olur.
2. Xaricdə müəyyən saya malik vətəndaş olan hər bir dövlət onlarla qarşılıqlı və faydalı əməkdaşlıq qurmaqda maraqlıdır. Bu istiqamətdə isə diasporun xatirində ana vətən, tarixi torpaqlar barədə ortaq təsəvvürlərin olması amili başlıca rola malik olur.





3. Necə inkişaf etməsindən asılı olmayaraq hər bir dövlətin öz daxili problemləri var vəbunların çözülməsində diasporların rolu danılmazdır. Hər bir dövlət digər inkişaf etmiş dövlətlərdən problemlərin həlli üçün humanitar, texniki, siyasi və iqtisadi yardımı məhz xarici ölkələrdəki diasporları vasitəsilə əldə edir.
4. Diasporlar məskunlaşdıqlarıölkələr ilətarixi vətənləri arasındaikitərəfəli əilaqələrin qurulmasındaəhəmiyyətli rol oynayırlar
5. Diasporlar tarixi vətənləriuğrundatəbliğatçılıq və siyasiiş apararaq Lobbi yaradılmasıda«QIZIL AÇAR» rolunuüzərlərinə götürürlər
6. Belə əlaqələrin mövcudluğudiaspolarıngüclənməsinə, təşkilatlanmasına , monolitləşməsinəvə milliləşməsinə böyük təkan verir.

Çox zaman dövlətlərin özləri tarixi Vətən-Ana yurd nəzəriyyələri işləyirlər ki, diasporları ilə əmkdaşlıq daha asanlıqla qurulsun. Bəzi dövlətlərdə isə«Vətən anlayışı» siyasi kursun başlıcaamilidir.

**DİASPOR VƏ GEOSİYASƏT:** Bu mövzuya toxunarkənilk olaraq coğrafi amil önə çəkilir. Bəşər tarixinin ilk çağlarındaninsanlar coğrafi mühütlə qarşılıqlı əlaqədədirlər. Coğrafiya insanlarınfəaliyyətində və onların formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Geosiyasət elmində başlıca yer tutan coğrafiya elmi siyasətlə sıx bağlıdr. Yunanca«Geo»- yer, torpaqsözü ilə siyasət sözünün birləşməsindən yaranan Geosiyasət elmində diaspor mövzusucoğrafi amilləşərtləndirilir. Burada region dövlətdaxili fenomen hesab olunursadiasporlar transmilli fenomen kimi qəbul edilir. İqtisadi səbəbləyaranan-bəzi diasporlar sonradan siyasi qüvvəyə çevrilərək beynəlxalq münasibətlər sisteminə aid olurlar.

Diasporun coğrafi öyrənilməsiisə aşağıdakı prinsiplər üzərində qurulub:

1. Diasporların səpələndiyi kənd, qəsəbə, rayon və şəhərlərdəki ərazilərdə onların sosial-professional strukturunu öyrənmək. Analiz edilən hər bir diasporun sayı demoqrafiq göstəricilərin öyrənilməsinə yardımçı olur.
2. Diaspor elə bir şəbəkədir ki, coğrafiyaşünaslar onu qlobal əhəmiyyət daşımaq iqtidarında olduğunu bildirirlər. Bu şəbəkələr arasında əlaqə dünyada baş verən ictimai-siyasi proseslərdən və dövlətlərarası münasibətdən asılı vəziyyətdədir.

Diasporların geosiyasi proseslərdə fəal iştirakı xüsusi olaraq tədqiqatçılar tərəfindən vurğulanır. Bəzi qüdrətli dövlətlər öz milli maraqlarını diasporlar vasitəsi ilə həyata keçirirlər. Misal üçün Çin, Tayvan və digər ASEAN ölkələrində nüfuz əldə etmək üçün Çin diasporunun gücündən məharətlə istifadə edir. Çindən başqa Hindistan Birləşmiş Ştatlarda Kəşmir məsələsində öz geosiyasi kursuna lazımı dəstəyi almaq üçün Hind diasporunun xidmətlərinə müraciət edir. Ermənistan Türkiyəyə qarşı torpaq tələblərini Türkiyədəki və dünyadakı diasporu vasitəsilə ödəməyə çalışır. Bundan əlavə regionda nüfuz

əldə etmək istəyən qüdrətli dövlətlər diaspor faktoruna böyük diqqət verirlər. Qafqaz, Orta Asiya, Yaxın Şərq və Uzaq Şərq kimi regionların dövlətlərarası münasibətlərə nəzarət üstündə rəqabətdə diasporlar əlaqələndirici kimi istifadə olunur.

Bundan irəli gələn fikir və mövqeləri təhlil edərək, belə bir nəticəyə gəlmək olar:

«Diaspor problemi sosioloji, iqtisadi və kimlik təhlillərinin qovşuğunda yerləşir. Qeyd etmək lazımdır ki, bir çox diasporlar geosiyasi amil olmaqla yanaşı dünyada gedən proseslərin fəal iştirakçılarıdır.»

**DİASPOR VƏ LOBBİÇİLİK:** Çox zaman bu iki termin arasında oxşarlıqlar axtarılaraqbəzən onları bir-birlərinə sinonim kimi işlətmək faktoları ilə KİV və elmi ədəbiyyatda rastlaşmalı oluruq. Bir tərəfdən baxanda bu iki struktur və onların fəaliyyətlərinin məzmunu və xarakteri arasında bütün oxşarlıqlar olmasına baxmayaraq qətiyyətlə bildirmək olar ki, lobbi diaspor demək deyil. Onlar arasında oxşarlıqlar qədər xeyli fərqlər də var. Çünki lobbi bilavasitə öz dövlətinin daha yüksək səviyyəli siyasi elitasına, diaspor isə ən yaxşı halda məhz lobbinin özünə təsir göstərib onu yönəldir.

İngilis dilindən tərcümədə "dəhliz, üstüörtülü gəzinti meydançası, vestibül, səhnəarxası" - mənasını verən lobbi anlayışı 1553-cü ildə İngiltərə monastrlarında "gözətçi meydançası" kimi işlədilirdi. 100 il sonra parlamentdə icmalar palatasının nümayəndələrinin dəhlizdə və vestibüldə qeyri-rəsmi görüşlərilə siyasi xarakter alan lobbi termini 1829-cu ildən etibarənBirləşmiş Ştatlarda geniş vüsət aldı.

İlk zamanlar ABŞ-da müxtəlif maraqların "müdafiəçisi" olan maliyyə və siyasət kuluarlarında siyasi mənada işlədilməyə başlanan lobbi termini konqresin dəhlizində pulla səs almağı bildirirdi.

Amerikada lobbiçiliyin gündəmə gəlməsi Birləşmiş Ştatların XVIII prezidenti Uliss Qrantın dövrünə təsadüf edir. Ölkə prezidenti Qrant işdən sonra iqamətgahı ilə üz-üzəyerləşən qəlyanaltıya düşərək onun vestibülündə dincəlməklə qeyri-rəsmi görüşlər keçirirdi. Amerika prezidentinin əyləncəyə meyilli olmasından xəbər tutan ictimaiyyətin nümayəndələri otelin nəzdində yerləşən qəlyanaltıya gələrək öz problemlərindən, çətinliklərindən danışmaqla prezidentdən kömək umurdular. Bu işdən xaric qeyri-rəsmi görüşlər siyasi xadimlər arasında əlaqə xarakteri olmaqla yanaşı siyasət tarixində mürəkkəb taleli siyasi hadisə olan lobbizmin bünövrəsinin qoyulması idi.

1864-cü ildən etibarən Konqresin dəhlizində «Pul ilə səs almağı»bildirən lobbiçilik xeyli müddət qeyri-peşəkar siyasət kimi qiymətləndirilirdi. Lobbiçilik yalnız XX əsrdən başlayaraq siyasi təsir vasitəsi kimi istifadə olunmağa başlanır.





Daha sonradan lobbiçilik siyasətdə müəyyən şəraitdə münaqişələri azaltmaq, digər hallarda isə mənafelərini həyata keçirdiyi tərəfin mövqeyindən münaqişə yaratmaq üçün siyasi alət kimi başqa dövlətlərdə də istifadə olunmağa başlandı.

Lobbiçilik 1946-cı ildə Birləşmiş Ştatların Ədliyyə Nazirliyində rəsmən qeydiyyata alınır və qanunvericilik əsasında maliyyə nəzarətinə keçir. Federal lobbi qanununda lobbiçilik fəaliyyətinə aşağıdakı öhdəliklər qoyur:

*Amerika Konqresində qanunlara təsir göstərən və ya qanunun qəbulunavə əngəllənməsinəçalışan birbaşa və dolayı pul və qiymətli əşyaları alan və ya toplayan, ya da əsas məqsədi bu olan şəxslər hər 3 aydan bir xərcləmələrinə aid olan qeydləri müəyyən idarəyə təqdim etməlidir.

Qanundan irəli gələn maddələri incələdikdən sonra lobbiçiliyə bu cür izah vermək olar:

«Lobbiçilik bir qrup və ya topluluq adına hərəkət edərək hökumət qərarlarına təsir göstərmək məqsədi ilə planlanan və bu məqsədlə vətəndaşlarla qərar verənlər arasında qruplaşmağa çalışan bir iş əlaqə və münasibət olaraq tanınır.»

ABŞ-ın qanunvericiliyinə uyğun olaraq lobbi fəaliyyəti iki yolla həyata keçirilir.

1. ***Birbaşa lobbiçilik***

Bu fəaliyyət açıq-aşkar, birbaşa lobbisi ilə qərar verən qurumun səlahiyyətli nümayəndəsi arasında aparılan danışıqlar və görülən işə deyilir. Bu zaman görüləcəkişdən ətrafdakı şəxslər və qruplar xəbərdar olmaqla, bu məsələdə öz mövqeyini bildirmək və bildirməmək hüququna malik olurlar.

2. ***Dolayı lobbiçilik***

Bu iş artıq professional lobbi şirkətləri vasitəsilə aparılan fəaliyyət növü olmaqla onları siyasi reklamçılıq adlandırmaq olar.

Lobbiçilik bütün sosial-siyasi strukturlar üçün xarakterikdir və sosial konstruktiv aktları arqumentlərlə əsaslandırma, hazırlamaq mexanizmidir. Göründüyü kimi sadə bir mexanizmə malik olmayan lobbi sisteminin strukturu aşağıdakı kimi formalaşır.

1. Müəyyən məsələnin həll edilməsini irəli sürən siyasətçi yaxud siyasətçilər qrupu;

2. Analitiklər, ekspertlər, məsləhətçilər, icraçılar və işçi qrupları.

Peşəkar hüquqşünaslar, ictimai rəyçilər, sabiq və hazırki dövlət məmurlarını əhatə edən bu insanları bir məqsəd ətrafında toplamaq isə güclü maliyyə tələb olunur.

1995-ci ildə ABŞ Konqresi lobbiçilik fəaliyyəti barədə qanunun təkmilləşmiş formasını qəbul etdi. Bu qanuna əsasən lobbistlərBirləşmiş Ştatların Konqresi tərəfindən hər hansı qanunvericilik aktının qəbuluna və rədd edilməsinə təsir göstərmək məqsədilə fəaliyyətə başlamazdan öncə Nümayəndə-



2305
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

lər Palatası klerkinin və Senatın katibinin yanında qeydiyyatdan keçdikdən sonra and içməlivə yazılı ərizə təqdim etməlidir. Ərizədə aşağıdakılar göstərilməlidir:

1. Şəxsin soyadı və qeydiyyatdan keçirilən müəssisənin ünvanı.
2. Onu kirayə edən vəkilin mənafeyi naminə çıxış edən şəxsin soyadı və ünvanı.
3. Kirayəçinin müddətləri, mükafatın məbləği və məsarif olunan vəsaitlərin ayrılması məqsədləri

Qeydə alınmış lobbist hər rüb üçün klerkə və katibə hər hansı bir qanun layihəsinin lehinə və əleyhinə apardığı təbliğatla bərabər mətbuatda dərc etdiyi yazılara görə ətraflı şəkildə hesabat verir. Klerk və katib bu məlumatları "Konqresin Hesabatı"nda dərc edirlər. Bu normaların pozulması 3 illiyə lobbi fəaliyyətilə məşğul olmağı qadağan edən cinayət məsuliyyəti yaradır.

Ənənəyə görə lobbistlər öz müştəriləri adından xüsusi təkliflə konqresə müraciət edir və onlar üçün konkret məlumatlar toplayırlar. Lobbistlər qanun layihəsini müdafiə edən, neytrallaşdıran və yaxud qanunlara əlavə etmək məqsədi ilə siyasi strategiya və taktika işləyib hazırlayırlar. Çox zaman qarşıya çıxan problemləri onların özləri müəyyənləşdirir və qanun layihəsinin mətnini işləyib hazırlayır, bununla nə vaxtsa qanun olacağına ümidin itirmirlər.

Professional lobbistlər yüksək dərəcəli texniki məsələlərə üstünlük verməklə, hər bir məqsədin həyata keçirilməsi müddətini, onun yerinə yetirilməsi imkanlarını götür-qoy edir.

ABŞ-dalobbistlərin fəaliyyətini tənzimləyən qanunlar içərisindən, 1938-ci il «Xarici Nümayəndələrin Qeydiyyatı Haqqında», 1946 və 1995-ci illərdə«Lobbiçiliyin Açıq Xarakteri haqqında» sənədlərinadlarını sadalamaq olar.

Bu gün Amerika siyasi sisteminin mühüm qolu olan lobbiçilik fəaliyyəti Qanunverici-İcraedici-Məhkəmə hakimiyətilə yanaşı digər sahələrdə müxtəlif formalarda aparılır. İri transmilli korparasiyalar, keçmiş və hazırkı konqresmenlər, bankirlər, hüquqşünaslar, siyasi-ictimai xadimlər, qeyri-hökumət təşkilatları, fermerlər, iş adamları, etnik diasporlar və digər peşə sahibləri imkanları çərçivəsində lobbi fəaliyyəti ilə məşğul olurlar. Amerikadan kənarda lobbi fəaliyyəti axtarmaq bir çox aspektlərdən məntiqsiz görünə bilər. Avropa-Asiya ölkələrinin dövlətçilik əlaqələri, siyasi idarəetmə institutları, ondakı mövcud siyasi əxlaq və mədəniyyət, demokratik dəyərlər sistemi Birləşmiş Ştatlardan analoji şəkildə fərqlidir.

Ümumilikdə götürəndə fəaliyyət məzmununa və xarakterinə görə diaspor və lobbi arasında olan bütün oxşarlıqlara baxmayaraq, diasporu lobbi hesab etmək yalnış olardı. Çünki lobbi bilavasitə dövlətin daha yüksək elitasına, diaspor isə ən yaxşı halda lobbinin özünə təsir göstərib onu yönəldir.





Lobbiçiliyin əsas funksiyası diasporun qarşısında duran vəzifələrlə prinsip etibarı ilə üst-üstə düşür və demək olar ki, kəsişir. Belə ki, lobbiçiliyin fəaliyyəti və missiyası diasporunku kimidir; ictimai vəkili və müdafiəçisi olduğu xalq-dövlət haqqında məskunlaşdığı ölkələrdə müsbət rəy qazanmaq. Öz ölkəsilə müdafiəçisi olduğu xalqın ölkəsi arasında hərtərəfli normal əlaqələrin yaradılmasına və mövcud əlaqələrin inkişaf etdirilərək genişləndirilməsinə çalışmaq, ölkəsinin torpaqlarına zorbə vurmadan başqa cür də milli mənafelərini müdafiə etməkdir.

Diaspor və lobbi arasında oxşar fərqlərin biri də hər iki sistemin aparıcı qüvvəsini iş adamları, ziyalılar, yuxarı və orta təbəqənin nümayəndələri, hüquqşünaslar, mədəniyyət və incəsənət xadimləri, KİV işçiləri və digər peşə sahiblərinin təşkil etməsidir.

Lakin lobbi diasporun iştirakı olmadan da yarana bilər. Bu halda bütün ağırlıq hər iki tərəflin,maraqlı dövlətin və işin icraçısı olan lobbi şirkətlərinin üzərinə düşür. Bu halda maddi maraq önə çəkilir. Maliyyə vəsaiti əldə etmək üçün lobbi şirkətləri müştəri axtarışına çıxaraq öz xidmətlərini təklif edirlər. Varlı dövlətlərdən fərqli olaraq yenicə müstəqillik əldə edən və yaxud inkişaf etməkdə olan dövlət kifayət qədər imkanlı olmadığından özlərinin siyasi reklamı ilə məşğul olmağa çalışırlar. Bu işdə isə müəyyən miqdar həcmində razılıq əsasında lobbi şirkətləri siyasi reklam işinə əl ataraq, populist və uzun-uzadı çıxış və reklamlarla məşğul olurlar.

Bu fəaliyyət növünü proffesional lobbistlər qeyri-peşəkar adlandırırlar. Digər bir prinsipial fərq güclü diaspor və lobbilərin öz maraqları naminə başqa dövləti müdafiə etməsindədir. Bu gün ABŞ konqresində yəhudilər türklər ilə azərbaycanlıları, yunanlarErmənistanı və s. müdafiə edirsə, bu siyasi məna ilə paralel olaraq diaspor və lobbi arasında fərq kimi də yozulmalıdır.Bu iki anlayış arasında başqa bir fərq lobbi nümayəndələrinin bir qayda olaraq, əslində isə mütləq başqa millətlərdən ibarət olmasıdır.

**DİASPORLAR VƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI:** Məşhur fransız geosiyasətçisiJan Gellek dövlətləri qüdrət prinsipi üzrə bölür. Onun fikrinə görə qüdrət ölçülməməkdən daha çox sınaqdan keçirilən çoxformalı konsepsiya olaraq qalır. Dünya müxtəlif ölçülü dövlətlər yığımına bənzəyir.

**Gellek aşağıdakı təsnifatla dövlətləri qüdrətlərinə görə belə bölür:**

- Super qüdrət - ABŞ
- Yarımdünya, yarımhegemon qüdrətlər
- Çoxşaxəli: böyük (Fransa, Böyük Britaniya) və ya kiçik qüdrətlər (Avstraliya)
- İqtsadi: Çox böyük (Yaponiya), böyük, (Almaniya) kiçik (Cənub Koreya)

- Strateji: ikiregionlu Avrasiya böyük qüdrət:Rusiya
- Regional qüdrətlər:
- Kütləvi: Çin, Hindistan
- Orta: Argentina, İran, İndoneziya
- Adi qüdrətlər: Venesuella, Malaziya
- Artıq öz ərazisinə nəzarət etməyən qüdrətlər

Bu geosiyasi yanaşmadan irəli gələrək ABŞ-ın böyük və super dövlət olması, beynəlxalq siyasi-iqtisadi proseslərə təsirinin inkaredilməz olması bu dövlətlərdə məskunlaşan diasporlar tərəfindən tarixi vətənlərinin müdafiəsi və mənafeyi uğrunda mübarizə aparmasına geniş imkanlar var.

Bir çox tədqiqatçılar ABŞ-da diasporların bu cür aktiv və geniş fəaliyyətini bu ölkənin mühacirlər, yəni diasporlar tərəfindən inkişaf etdirilməsi ilə əlaqələndrirlər. Məcazi mənada diaspor dövləti olan Amerikada etnik diasporlar hakimiyyətdən öz vətənləri üçün iqtisadi, siyasi, hüquqi, hərbi və digər yardımların alınmasına çalışırlar.

ABŞ-ın dəstəyin almaq üçün diasporlar üçüntəmsiliçisi olduğu dövlətin bir çox beynəlxalq təşkilatlarda işlərinin yaxşı gedəcəyinə işarədir. Dünyanın bütün dövlətləri, varlı və kasıblar daxil olmaqla ABŞ-dan dəstək almaq üçün müxtəlif istiqamətlərdə çalışırlar. Bir diasporun təsirinin güclü olması, artıq onun ətrafında digər etnik diasporların cəmlənməsini labüd edir. Bu gün üçün yəhudi diasporu ətrafında bir çox diasporlar birləşib ki, onlar yəhudiləri, yəhudilərsə onların dəstəkləyir.

Amerikada, daxili siyasətin müəyyən olunmasında seçicinin nə qədər təsiri varsa, xarici siyasətin müəyyən olunmasında diasporun o qədər rolu var. Burada güclü diasporu olmayan dövlət onun sədaqətini və dəstəyini görə bilməz. Ölkə rəhbərliyi özü isə daxildə fəaliyyət göstərən və məskunlaşan diasporların inkişafı üçün hər cür şərait yaradıb.

Diasporların üzərinə düşən mühüm işlərdən biri öz ölkəsinin mədəniyyətini, dilini, ənənələrini, musiqisini və mətbəxini ABŞ-da geniş surətdə təbliğ etməklə yanaşı özlərinə Qanunverici-İcraedici- Məhkəmə sistemində tərəfdarlar və dostlar qazanmaqdır. Məskunlaşdıqları ölkələrdə səsvermə hüququ əldə edən diasporlar çalışırlar ki, bu üç əsas sistemdə onların nümayəndəsi də təmsil olunsun ki, buna da ABŞ qanunları imkan yaradır.

Amerikanın tanınan yazarlarından olan Freik Qriv «Etnik qrupların konqresə təsiri» məqaləisndə yazır:

*«Praktik olaraq diqqəti çəkməyən bu qruplar formalaşaraq, bəzən Amerika üçün böyük əhəmiyyət kəsb edən qərarlara təsir edərək, onun dəyişdirilməsinə nail ola bilirlər»*

1996-cı ildə Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr Komitəsinin azlıqlar lideri olanLi Hamilton bu barədə geniş açıqlama vermişdir:





*«Baş verən proseslər etink qrupların Amerikanın siyasi həyatındakı fəaliyyətlərində partlayışdan başqa heç nə deyil. Yapon, Tayvan, Kuba, Ermənistan, Şərqi Avropa əsilli amerikalıların və digər etnik qrupların yəhudi icmasından ruhlanaraq ABŞ-ın xarici siyasətə təsir göstərməsi adi haldır.»*

Məşhur tədqiqatçı Kohen Birləşmiş Ştatlarda yəhudi diasporuna bənzər 4 əsas diaspor olduğunu qeyd edir:

1. XIX əsrin ortalarında zəncilərin qul ticarət məqsədilə Amerika qitəsinə gətirilən Afrika diasporu
2. 1848-52-ci illərdə İngilis siyasəti nəticəsində İrlandların ABŞ-a mühacirəti
3. 1915-16-cı illərdən sonra Amerikaya axını gücləndirən erməni diasporu
4. 1948-ci ildə İsrail dövləti elan edildikdən sonra Amerikaya köçən ərəb diasporu.

Son zamanlar isə Amerika rəsmi dairələrində etnik diasporların regional etnosiyasi münaqişə məsələlərinin həllinin özləri deyil, Amerikanın həll etməsi üçün mübarizəsini müsbət qarşılamırlar və onların fikrinə görə «Amerikanın özünün başqa problemləri var»

**DİASPOR VƏ DİN**: Din amilinin millətlərin, dövlətlərin və imperiyaların formalaşmasında, təşəkkülündə və yayılmasında böyük və mühüm rolu danılmazdır. Bəşər tarixi öz başlanğıcından; ilk insanlar yaranan zamandan, onların fövqəlqüvvə, ilahi varlıq, dünyanı idarə edəcək şəxsə və şəxslərə inam gətirməyi, sitayiş etməyi təbii haldır. Din insanların birləşməsi, fəaliyyəti və idarə olunmasında güclü ideologiya olmaqla yanaşı svilizasiyanın formalaşmasında böyük təsir qüvvəsinə malikdir.

Müasir dövr üçün bir çox dinlər mövcud olmasına baxmayaraq 4 əsas din ətrafında çoxsaylı insan toplayaraq, onların mədəniyyətlərinin, mənəviyyatlarının formalaşması və idarə edilməsinə nəzarət edirlər.

Milyonlarla insan öz vətənlərilə yanaşı, mühacirət etdikləri, diaspor yaratdıqları ölkələrdə sitayiş etdiyi, mənsub olduğu dini qaydalara rayət etməklə milli kimliyini, varlığını qoruyub saxlamağa nail olurlar.

Böyük tarixə malik olan yəhudi diasporundaəsrlər boyu dini liderlər, rahiblər, ravvinlər Allah tərəfindən onların qarğandıqlarını nəsildən-nəslə ötürərək, Ulu tanrının qaydalarından kənara çıxmamağı vəsiyyət etmişlər. Yəhudilər hesab edirlər ki, onların gündəlik duaları Allahın qəzəbini yumşaldacaq və onlar müqəddəs torpaqlara qayıdacaqlar.

Ermənilərin də assimliyasiya olmasının qarşısını din amili almışdır. Erməni kilsəsi digər xristian kilsələrdən fərqli olaraq öz millətini sülhə, barışa, mehribançılığa və ibadətə cəlb etmək əvəzinə onların işğalçı, terrorçu, şovinist, qəddar və yalançı millət kimi formalaşmasına çalışıb və çalışmaqdadır.

Hind diasporunun monolitliyini, milli kimliyinin qorunub saxlanmasında dini amil mühüm rol oynayıb. Dünyanın müxtəlif ölkələrinə səpələnən hindlilər, sitayiş etdikləri Krişna, Rama və digər allahlara ibadəti dayandırmamış və ildə bir dəfə həmin allahların şərəfinə böyük və kütləvi tədbirlər düzəldərək xarici ölkələrdə yaşayan hindliləri bir yerə toplayaraq milli kimliyini qorumaq üçün tədbirlər həyata keçirirlər. Bunun kimi biz Çin, Koreya, Yunan, İrland və digər diasporların yaşamında dini amilin rolu barəsində geniş danışa bilərik. İrlandiyanın dini və milli bayramı olan "Müqəddəs Patrink günü" tədbiri isə hər il ABŞ başda olmaqla bütün dünyada təntənə ilə qeyd edilir.

Hazırda yeni dünya düzənində iki əsas sivilizasiya və din qarşı-qarşıya durmaqla, milyonlarla insanı siyasi vəideoloji vasitələrlə idarə edirlər.Samuel Hantiqtonun məşhur «Svilizasiyaların toqquşması» əsərində iki svilizasiyanıngələcək dünyanın taleyini həll edəcəyi bildirilir.

Hantiqatona görə Qərb svilizasiyasının iki əsas variantı mövcuddur: Avropa və Şimali Amerika mədəniyyətləri sistemi. İslam svilizasiyası isə ərəb, türk və Malaziya mədəniyyətlərindən ibarətdir.

Bu iki əsas svilizasiya məxsus insanların qlobal miqyaslı problemləri birbaşa dini amillə sıx bağlıdır. Qərb svilizasiyasında yaşayan İslâm dininə sitayiş edən insanlar və və İslam ölkələrində yaşayan xristianlar uzun əsrlər boyu dini amillə əlaqəli anlaşılmaz vəziyyətindən mehriban münasibətə qədər yaşam tarixi keçiblər. Lakin son 20 ildə dünyanın nizamı dinlər arasında olan münaqişələrin geniş xarakter alması ilə pozulmuş və svilizasiyaların toqquşması, qarşı-qarşıya gəlməsi təhlükəsi yaranmışdır ki, bu da şərti olaraq diasporların yaşamlarına, həyat tərzinə təsir etməyə bilməz.

Qərb mədəniyyəti islam svilizasiyasına məxsus diasporları assimliyasiya edərək, qərbləşmə prosesini gücləndirməyə çalışır. Bir müddət ABŞ kimi nəhəng ölkədə dini amilin təzyiqlərə məruz qalması, konfusi, buddizm, induslar və müsəlmanların qərb mədəniyyəti tərəfindən həzm edilməməsi etnik diasporların tarixində acı xatirələr kimi yadda qalmışdır. Lakin sonradan öz milliliyini qoruyub saxlayan islam svilizasiyasına məxsus diasporlar ötən əsrin əvvəllərindən geniş aparıcı missiyası kimi əks istiqamətdə aparmağa başlayıblar. İslam dininə sitayiş edən diasporlarla geniş bağlılığı olan qərb svilizasiyasının nümayəndələrinin islam dininə sitayiş etməyə başlaması qərb dünyasını düşündürən məsələdir.

Diasporların dini amildən istifadə etməsi zəruri və qaçınılmaz işlərdən biridir. Əks təqdirdə diasporların assimliyasiya olaraq, diaspor faktorunun itməsinə gətirib çıxara bilər. Hər bir din ona sitayiş edən milləti, xalqı və ya etnik qrupun monolitliyini, bütövlüyünü və milli kimliyini saxlamaqda əsas rol oynayar.





**DİASPORLAR VƏ REGİONAL MÜNAQİŞƏLƏR:** Tarixdə ilk münaqişənin guyaAdəm peyğəmbərin oğulları Habil və Qabil arasında baş verməsini çoxlarımız bilirik. Sonradan insanlar, tayfalar, qəbilələr, dövlətlər, imperiyalar və respublikalar arasında forma və məzmununu dəyişən münaqişələr artıq həlledilməz səviyyəyə gəlib çatıb. Əvvəlki illərdən fərqli olaraq yeni növ silahlar, ixtiralar insanların ölümünə və dünyanın ekoloji-iqtisadi və siyasi həyatında sağalmaz zərbələr vurur.

Kanadalı tədqiqatçı Kərim N.Kərim bu mövzuya toxunaraq bildirir ki, dünyanın yeni-yeni formalaşdığı zamanlar buranın sakinləri olan köçəri tayfalar oturaq həyat keçirməyə başlayandan sonra yeni torpaqlar, ərazilər və insan qüvvəsi əldə edərək hakimlik etmək iddialarının təzahürü, münaqişələrin kütləvi şəkil almasına gətirib çıxartdı. Asiya və Avropa, sonradan Afrika və Amerikanın inkişaf etməsi, Avstraliyanın kəşf edilməsi qüdrət əldə etmək istəyən millət və dövlətlərin iddialarının çoxalmasına şərait yaratdı və nəticədə dünyada milyonlarla insanın ölümünə səbəb olan münaqişələr baş verdi.

Diasporların regional münaqişələrin həll edilməsində xüsusi rolu var, desək bəlkə də yanılmarıq. Öz milləti, dövlətinin xarici dövlətdə təmsilçi olan diasporlar öz vətənləri üçün iqtisadi və siyasi yardımdan başqa hərbi dəstək almaq üçün çalışır. Bir növ diplomat funksiyasını yerinə yetirən diasporlar məskunlaşdıqları dövlətin hərtərəfli dəstəyini vətənləri üçün almağa çalışırlar.

Tarixdə bir neçə analoji hadisənin baş verməsi, diasporların regional münaqişələrin həll edilməsində və aparılmasında rolunu tam olaraq təsdiqləyib.

Ərəb-İsrail münaqişəsi başlanan zamandan ərəb dövlətlərilə İsrail arasında başlanan silahlı toqquşmalarda, münaqişənin əsas ağırlığı yəhudi diasporunun çiyninə düşmüşdür. Xarici ölkələrin siyasi dairələrində iş aparan yəhudi diasporu 1979-cu ilin 26 martında İsrail və Misirlə, 1994-cü ilin 25 iyulunda İordaniya və İsrail arasında sülh müqaviləsinin imzalanmasında rolunu danmaq qeyri-mümkündür. Digər bir misalı İrlandiya və İngiltərə arasında Olster probleminin çözülməsində İrland diasporunun fəaliyyətindəçəkə bilərik. İrland diasporunun «nə qədər ki, Oltser problemi İrlandiya üçün müsbət istiqamətdə həll edilməyib, bu mübarizəni davam etdirəcəyik», açıqlaması münaqişədə diasporun rolunun açıq-aşkar nümunəsidir.

Yaxud yunan diasporu ilə türk diasporunun Kipr məsələsi ətrafında mübarizəsini misal göstərə bilərik. Bu cür hallar diasporların vətənlərində baş verən proseslərlə sıx bağlığın göstərir.

Diasporların bu istiqamətlərdə üzərlərinə düşən işlərdə ilkin vəzifəməskunlaşdığı dövlətin dəstəyini əldə etməkdir. Daha sonra bu fəaliyyətlər aşağıdakı kimi sıralanır:

1. Lobbiçilik: bununla öz dövlətləri üçün müvafiq qərarların qəbul edilməsinə çalışmaqla, əks tərəfə zərər vurmağa nail olmaq.

2. İnformasiya mübarizəsi: Münaqişə barəsində ətraflı məlumat verməklə, özlərinə uyğun məlumatların beynəlxalq aləmə çıxışını təmin etmək. İnformasiya qələbəsi ilə artıq münaqişəni udmaq deməkdir.

3. Etiraz çıxışları: Bu yoxlanaraq müsbət nəticə verən prosedura olduğundan diasporlar münaqişənin tezliklə öz xeyirlərinə həll edilməsi üçün müvafiq uğurlar əldə edə bilər.

4. Maliyyə vəsaiti: diasporlar öz nümayəndələri içərisində pul yığımının toplanmasını təşkil etməklə öz dövlətləri üçün silah, ərzaq və tibb ləvazimatları alıb göndərmək və s.

Tarixdə elə hadisələr baş verib ki, dövlətlərarası münaqişələr xarici dövlətlərin ərazisinə keçərək diasporlar arasında qanlı toqquşmalarla nəticələnib. ABŞ və Almaniyada türk və yunanlar, ABŞ-da yapon və amerikalılar, irland və ingilislər arasında toqquşmalar zamanı diasporlarda ölən və yaralanan insanların sayı yüzlərlə ölçülüb.

**DİASPOR VƏ İNFORMASİYA İŞİ:** İnformasiya müasir dövrün əsas atributlarından biri olmaqla diasporların təbliğat və vətənlə əlaqə saxlamaq işində əhəmiyyətli rol oynayır. Dünyanın müxtəlif ölkələrinə səpələnən diasporlar ilk vaxtlar ana vətənlə əlaqə saxlamaq üçün zamanın tələbatına uyğun olaraq məktub istifadə edirdilər. Zaman keçdikcə elmi-texnoloji inkişaf dövrü elə mərhələyə çatır ki, telefon, faks, teleqraf, internet və video məktub ixtirası insanlar arasında əlaqənin yaradılması və gücləndirilməsində müsbət təsirini göstərdi.

Xaricdə yaşayan hər kəsə bəllidir ki, vətəndən konarda informasiya aclığı nə deməkdir. Hər bir kəs dövləti, qohum əqrabaları ilə əlaqə saxlayaraq məlmat əldə etmək üçün müxtəlif üsullara əl atır. Bəşər tarixinin ən böyük nəaliyyətlərindən olan İnternetin kəşf olunması diasporlara böyük köməyini göstərdi. Lakin informasiyanın işi tək Vətənlə, qohum-əqraba ilə əlaqə qurmaqdan ibarət deyil. İnformasiya eyni zamanda öz milləti, dövləti və milli maraqlarının müdafiə edilməsi və tələblərinin ödənilməsində böyük rol oynayır.

Güclü yəhudi, yunan, irland, çin, yapon və digər diasporlar ABŞ, Fransa, Böyük Britaniya, İtaliya, İspaniya və digər dövlətlərdə çoxsaylı media orqanlarına və 24 saat yayımlanan televiziya və radio kanallarına malikdilər. İnternet saytlarının sayı isə olduqca çoxluq təşkil etməklə diasporların nümayəndələri arasında məlumat boşluğunun aradan qaldırılmasına xidmət edir.

Müasir dövr üçün yəhudi diasporu dünyanın ən nüfuzlu və məşhur tele kanallarına, qəzet , jurnal və radiolarına nəzarə edir. Ondan sonra digər diasporlar müəyyən sayda informasiya şəbəkəsinə malikdirlər. Fikrimcə informasiya sarıdan güclü olan diasporun bütün prinsipial məsələlərdə qələbəsi təmin olunması labüd haldır. İnformasiya üstünlüyü müasir tələbin şərtlərindəndir.





Psixoloji, ideoloji, mədəni təbliğatın yayılmasında da informasiyanın rolu təkzibedilməzdir.

Bir sıra dövlətlərin xarici siyasətində diasporla əməkdaşlıqla yanaşı, milli maraqların təmin olunmasında informasiya işi prioritet mövqe tutur. Rusiya, Çin, Hindistan, Macarıstan, Yunan, Türkiyə, Ermənistan və digər ölkələrin xarici siyasətini incələdikcə bunun şahidi olmaq olar. Etnik diasporların isə informasiya işi müasir dünyanın siyasi həyatında əhəmiyyət və rolunu gücləndirir. Siyasi və təbliğat maraqları üzərində qurulan iqtisadi maraqların daxil olması onlara verilən diqqəti artırıb.

ABŞ-da hazırda ən güclü ispan dili şəbəkə sistemi 11 stansiya və 19 regional filialla malikdir. Bu isə reklam işinin bahalı kanallardan qoparaq etnik diasporlar içərisində onlarla məxsus kanallar və media ilə təbliğ olunması məsələsini ortaya çıxarır ki, burada milyonlarla puldövriyyəsi gündəmə gəlir. Bu isə öz növbəsində dövlət və onun KİV orqanlarının haqlı narazılığına səbəb olur. Bu səbəbdən də bəzi diasporlara məxsus KİV-lər müxtəlif təzyiqlərə məruz qalırlar.

Dövlətin digər maraqlandıran mühüm məsələ etnik KİV-lərin ideoloji və psixoloji təbliğatıdır ki, müasir zamanın tələbi onların nəzarətə alınmasını tələb edir.

**DİASPOR, MİLLİ ŞÜUR VƏ MİLLƏTÇİLİK:**XIX əsrin sonundan və bütün XX əsr ərzində geniş vüsət alan özünəməxsus kollektiv təsəvvür forması milli fenomenlərə aiddir. Milli şüur və millətçilik sənaye cəmiyyəti üçün səciyyəvi xarakter daşıyır. Feodal dövlət və cəmiyyət formasının dağılması, başqa kollektiv forması olan milli şüurun meydanaçıxması üçün zəmin yaratdı.

Diasporların formalaşmasında və fəaliyyətində milli şüur və millətçilik anlayışların rolu əhəmiyyətli olmaqla yanaşı həmrəyliyin, dövlətlə əlaqənin saxlanmasında və milli maraqların təmin edilməsində onların zəruri olduğunu qeyd etmək olar.

Milli şüur əsasən kollektiv mifik təsəvvürlər və Ana torpaqxatirələriilə sıx bağlıdır. Milli hisslərini qoruyub saxlanması üçün milli şüurun inkişaf etdirilməsi bir çox dövlətlərin xarici siyasət kurslarının prioritet istiqamətlərindədir. Milli şüur romantik hisslər nəticəsində formalaşa bilər ki, diasporların vətənləri barədə təsəvvürlərində onların sonda qayıda biləcəyi torpaq olması barədə fikrin formalaşmasına zəmin yaradır.

Diasporların millətçilik təsəvvürləri iki istiqamətdə inkişaf edir ki, tarix bu prosesləri özündə hiss etməli olub:

1. Milli kimliyin təbliğ olunaraq, həmrəyliyə nail olmaq və assimlyasiyaya məruz qalmamaq üçün istifadə edilən millətçilik.
2. İfrat şovinizm və millətçilik

Birinci halda hər bir dövlət fəaliyyət üçün geniş imkanlar yaradıb ki, tarixdə yunanlar, irlandlar, çinlilər, hindlilər, türklər, meksikalılar və digərləri bundan bəhrələniblər. Lakin ikinci halda millətçiliklə Yapon, Çin, Koreya, Meksika, Ərəb və bəzi etnik diasporlar üzləşiblər ki, bu onların tarixində yadda qalan iz qoyub.

Bir müddət Amerikada millətçiliyin ifrat forması sayəsində yaponlar düşərgələrdə qalmalı olublar. Çinlilər, irlandlar ictimai yerlərdə görünə bilməyiblər. Koreyalılar, meksikalılar kütləvi təyziqlərə məruz qalıblar. Qaradərili əhali isə tamamilə kölə vəziyyətdə yaşamağa məcbur qalıb.

Son zamanlar isə milli şüur və millətçilik anlayışların daha neqativ formada diasporlarda yayılması politoloqlar tərəfindən birmənalı qarşılanmır. Şovinist millətçilik təcrübəsini bir daha təkrarlanmamasıüçün onlar adekvat tədbirlər görərək, svilizasiyalar, xalqlar və millətlər arasında bərabərlik, qardaşlıq və dostluq ideologiyasının geniş təbliğ olunmasını zoruri və qaçılmaz addım hesab edirlər.

Sadaladığımız cəhətlər diasporla əsas olan xüsusiyyətlər olmaqla bir sıra cəhətləri də özündə birləşdirir. Ümumilikdə götürsək diaspor konsepsiyası məsələsinətoxunsaq bəzi qaranlıq məqamların aşkar edilməsinə nail ola bilərik.

Rus tədqiqatçısı Tatyana Poloskova diaspor konsepsiyası məsələsinə toxunaraq aşağıdakı əlamətləri diasporlar üçün səciyyəvi hal hesab edir.

i. Etnik identilik.
ii. Mədəni dəyərlər.
iii. Sosial-mədəni antitezanın etnik və mədəni kimliyin qorunmasında əks olunması
iv. Təqdimat, əsasən öz tarixi vətənləri ilə əlaqəli olur.

Fikrimcə bu əlamətlərin hər biri özü-özlüyündə geniş tədqiqat obyekti ola bilər ki, bunun nəticəsində diaspor nəzəriyyəsi məsələsində yeni konsepsiya işlənib hazırlanması daha asan ola bilər. Diaspor konsepsiyası üçün zoruri olanlardan biri də diasporların genezisi faktorlarının təhlil edilməsidir. Buradan ilə belə nəticə əldə etmək olar: "Diaspor mədəni fenomen kimi şəxsiyyət və sosioloji mövqeydən yaranır".Deməli diaspor probleminə bu nəticədən irəli gələrək iki istiqamətdənbaxa bilərik.

1. Xüsusi tarixi fenomen kimi.
2. Düşünülmüş həyat tərzinin seçimi kimi.

Lakin burada fərqləri unutmaq lazım deyil. Təcrübədə endo diaspor və ekzo diaspor anlayışları mövcuddur. Bu iki anlayışları təhlil edərək bildirmək olar ki, endo diaspor ölkədən köç etmiş insanları bildirir. Ekzo diaspor isə heç bir zaman vətənində yaşamayan insanlar anlayışı deməkdir. Endo diaspor ilk vaxtlar mühacirət edən və ölkəsilə əlaqəni itirməyin insanların nəvə-nəticələridir. Bu fərqlər isə hər iki endo və ekzo diasporlar arasında olan qurumlar və təşkilatlar arasında da özünü büruzə verir.





## ƏDƏBİYYAT


1. Журнал"Диаспора" N-1. Москва 1999.
2. Zaur Əliyev "Beynəlxalq münasibətlərdə diasporların rolu". Bakı.2001
3. «Большая Советская Енциклопедия»М.1957.
4. «İncil (Bibliya)» Minsk .1995.
5. «Uşaq Bibliyası» Stokholm .1995.
6. "Azərbaycan diasporu" jurnalı N-1. Bakı 2002.
7. «Azərbaycan sovet ensiklopediyası» VII cild. Bakı 1963,I cild, Bakı 1976, V cild, Bakı 1967
8. Cohen Robin "Diasporas and the Nation State. From Vicitims to Challangers". International Afairs, c 72, N-1, S 507 520.
9. "UN spesial study on racial discrimination in he political, social and cultural spheres" UN publications N- 71, XIV 2.
10. "Енциклопедический словарь пољолитологии"Москва.1994
11. "Qanun" jurnalı N-8 64 Bakı.1999
12. Fuad Həsənoğlu "Geopolitika" Bakı .2001
13. "Yeni Azərbaycan" qəzeti 1 mart2003
14. "Qanun " jurnalı, N-6 Bakı 1997
15. Q.Əliyev, H.Dayızadə "Konfliktalogiyaya giriş" Bakı 1998
16. Tayyar ARI "Amerikanın siyasal yapısı: Lobiler ve Dış politika" Istanbul.1997
17. "Dünya Azərbaycanlılarının I Qurultayı" Məruzə. Bakı 2001
18. Kay Lehman Schiran "Organized interest and American Democracy" New-York.1999
19. "Müxalifət" qəzeti 15 noyabr 1992
20. "Ekspress" qəzeti 26 yanvar 1999
21. William M.Lunch "The Nationalization of American Politics" New-York 1992
22. "Knight-Ridder" Newspaper 17 August 1995
23. "Панарома" газета 10 февраля 1996
24. Journal "Managmant" Vol 2 N-1 1999
25. "Миграции и мигранты в мирс капитала" Киев.1990
26. "Qlobal diasporas"-www.2hauaii.edu
27. Т.Полоскова "Современная диаспоры: Внутрополитечские и международные аспекти". Москва. 1999
28. «Lexique de эеоэгапщіс щumainet ecunomique» Paris.1996
29. Armand Colin "Dictionore de la science politiэues" Monaco.1996.

# AZƏRBAYCAN DİASPORU

## *QƏDİM DÖVR AZƏRBAYCAN MÜHACİRƏTİ VƏ DİASPORU*

*I HİSSƏ:* Azərbaycan vətəndaşlarının mühacirəti və diaspor formalaşdırması tarixi bu günə qədər az öyrənilmiş, onun gerçəklikləri tarixin qaranlıq dumanları içərisində itib-batmışdır. Bu xalqın keçmişindən, soy-kökü və milli özülündən uzaq salıb ayırmaq üçün tarixi təhriflərə uğradılmış, adına saxta, qondarma bir tarix yazılmışdır.

Azərbaycanın etnik tarixi Azərbaycan xalqının formalaşması tarixindən də qədimdir. Bu isə o deməkdir ki, Azərbaycan xalqının formalaşma prosesi başlayana qədər Azərbaycanda (və həm hüdüd regionlarda) kifayət qədər mürəkkəb etnik hadisələr baş vermişdir. Bunun bir səbəbi, haqqında söhbət gedən *coğrafiyanın* yaşayış üçün münasib təbii şəraitə malik olması, digər çox mühüm səbəbi müxtəlif istiqamətlərdə gedən yollar üzərində yerləşməsi, etnik, sosial-siyasi fəallığı, qaynarlığıdır.

Çox qədim tarixi və ənənələri olan Azərbaycanda insan, onun varlığı, yaşayışı, həyat şəraiti, sevgisi, təbiətə və cəmiyyətə, başqalarına münasibəti - əxlaqi davranışları, elmi-intellektual vəziyyəti, məişət mədəniyyəti, əmək və yemək ənənələri və s. zəngin tarixi zəmin üzərində qurulmuşdur. Qədim Azərbaycan da insan, onun yaranması, tarixi, ictimai fəaliyyəti barədə çoxlu mifik düşüncələr olmuş və onun birinci izləri folklorda, sonrakı yazılı ədəbiyyatda, Qobustan daş yazılarında, arxeoloji qazıntılarda və s. əks etdirilmişdir.

Tarix boyunca millətlərin axın və köçlərinə keçid olan Qafqaz regionu və Azərbyean başqa xalqlarınyerləşməsi, məskunlaşması, yaşayışı üçün əlverişli bir bölgə olmuşdur. Burada məskunlaşmış xalqlar minilliklər boyu Qafqaz sərhədləri içərisində, xüsusilə Azərbaycanda milli kimliklərinqoruyub saxlamış, mədəniyyət və ənənələrin inkişaf etdirmişlər. Ölkəmiz ərazisində aparılan elmi tədqiqatlar nəticəsində 4 arxeoloji mədəniyyət: olduyev (ən qədim dövr), qədim aşen, aşen və mustye mədəniyyət abidələri tapılıb. Azıx, Tağlar, Daşsalahlı, Qazma Buzeyir və digər ərazilərlə yanaşı ən qədim dövr adlandırılan çəmənliyi adlandırılan Quruçay mədəniyyəti dövrlərinə təsadüf edən qalıqlar aşkar olunub. Elmi əsaslarla isbat olunub ki, iki milyon il əvvəlki illərə aid olan Quruçay mədəniyyəti zamanı tarixdə insana bənzər canlının 4 deyil iki ayaqları üstündə yeriməsi, buranın qədimliyinin bariz nümunəsidir.

Fizuli rayonu ərazisində yerləşən Azıx mağarasında ən qədim insan, Azıxantrop adlandırılan insanın alt çənə sümüyünün tapılması Azərbaycanın qədim tarixi inkişaf dövrü keçməsi faktın təsdiqləyir.





Türk xalqları qrupuna daxil olan azərbaycanlıları müxtəlif dillərin işlənmə texnikasın nəzərə alaraq müxtəlif cür adlandırıblar. Adarbaqadan, alban, atropatan, azər, aser, oser,az, sovir, türk, Azərbaycan türkü, aderbicanlı, qaşqay, qızılban, kazax tatarı, hun, və yüzlərlə adları sadalamaq olar.

Türk mənbələrində bizi Azərbaycan türkləri, Fars mənbələrində, türk, azəri, assur və ərəb mənbələrində azəris, Rus mənbələrində tatar adlandırıblar.

Lakin bir şeyi unutmaq lazım deyil ki, biz türk xalqları qrupuna daxil olsaq da digər türk xalqları kimi, biz azərbaycan türklərinin özünəməxsus fərdi xüsusi səciyyəli mədəniyyəti inkişaf edib. Şərq mədəniyyəti çərçivəsində azərbaycan türklərinin öz renesansı var ki, adət-ənənə, mətbəx, musiqi, və digər sahələrdə fərqli xüsusiyyətlər var. Türk sözünün etnik mənşəyinə nəzər salaq.

Adətən Türk etnomininin qədim formasını, "Turuk", "turukku", kimi bərpa edirlər. Erkən orta əsr yaddilli qaynaqlarda "Türk", adı ilə yanaşı "Turukka" (hindqaynaqları) trukki (xotan mətnləri), "Druq-druqu" (Tibet qaynaqlarında) turexu (Cənubi Amerika və bəzi Okeaniya ölkələri mənbələrində) formalarında işlənmişdir. E.Ə. II minillikdə Akkad-mixi yazıları etnominin erkən turukki,Turiki - formasını saxlamışdır. Bu dəlillər onu göstərir ki, e.ə. III-II minilliklərdə və daha qədimdən də Azərbaycan ərazisində türk etnosları yaşayırdılar. Onlar o dövrün siyasi proseslərində yaxından iştirak etmişlər. Azərbaycan xalqının tarixən məskunlaşdığı (superetnos olaraq formalaşdığı!) Coğrafiya müxtəlif dövrlərdə müxtəlif adlarla adlandırılıb. Bu barədə professor M.Seyidovun fikri olduqca maraqlıdır Professorun fikrincə Azərbaycanuğurlu, yaxşı istər (Az) yaxşı istər qırmızı, yəni günəş (Azar/Azər), varlı ata (qan) deməkdir. O, vaxtilə yaxşı istər qırmızı, yəni günəş antropomorfik tanrısının adı imiş. Sonralar Az qəbiləsindən olan Xan, İnsan mənasında işlənmişdir.

Son zamanlar bu sahədə aparılan elmi tədqiqatlar zamanı professorun fikrini təsdiqləyən faktlar ortaya çıxır. "Toranın şifrələrinin açılması", "Azərbaycanın tarixi" və digər kitabların müəllifi Firidun Gilarbəylinin tədqiqatları da diqqəti cəlb edir. Firidun bəyin fikrinə görə Qafqazda (bu barədə məşhur Hegel də bir sıra fikirlər bildirib) - Azər adlı Allah olub. Məhz onun ağıllı, ədalətli, iradəçiliyi dövründə geniş ərazili müəssisə yaranıb.

Danil Andreyevin "Dünyanın mərkəzi" kitabında ruhani yüksəlişin və inkişafın piramidasında "Azur" sözləri ilə tutuşdursaq professor Seyidovun, Gilarbəylinin nəzəriyyələri maraq doğurur.

Yurdumuzun qədim sakinləri olan azərbaycanlılarmezolit dövründə (e.ə XIII-IX əsrlər) insan kollektivlərin mühacirət dövrünün fəaliştirakçıları olublar. Bu mühacirətlə, köçləəlaqədar mədəni yeniliklər mezolit oykumenanın müxtəlif ərazilərə yayırdılar. Bu dövrdə başlanan azərbaycanlıların mühacirə-

ti, köçü tarixən zamanla aktiv, zamanla passiv formalarda davam edib. Məşhur tədqiqatçı Qumilyovun "passionarlıq" anlayışına nəzər salsaq görərik ki, türk tayfaları böyük bir geosiyasi mənada daim köç ediblər. Onlar ilk əvvəl Qərbdən Şərqə və sonradan geriyə bütün məkanı, enerjiləri, mədəniyyətləri, ruhları və nəfəsləri ilə çalxalayıblar. Beləliklə türk əsrlər boyu Qərblə Şərqi "çalxalaya-çalxalaya" öz "passionarlıqlarını" bir qismi oturaqlara verdi, başqa sözlə onlara həyat bəxş elədi. Bu oturaqlardan olan türklərin bir hissəsi Qərbdə və Şərqdə assimliyasiyaoldular. Onların mühacirətini davamiyyətli olması, bioloji artım zamanı nəsil dəyişməsinə yerlilər tərəfindən olan böyük təsir onların barəsində ətraflı məlumatların yaranmasına mane oldu.

Azərbaycan diasporunun əsasını təşkil edən azərbaycanlılarınmühacirətinin çoxəsirlik tarixi var. Son dərəcə geosiyasi mövqeyi, təbiəti, zənginlikləri və insan ehtiyatları azərbaycanlıların könüllü mühacirəti ilə yanaşı müxtəlif səbəbin toqquşmalar, münaqişələr səbəbilə həm vətənlərimiz öz doğma torpaqlarından zorla köçürülürlər, yad ölkələrə aparılıbar. Bir çox tarixi mənbələrdə qeydolunan qədim Azərbaycan mühacirləri məlum səbəblərə görə tam diaspor formalaşdırmamalarına baxmayaraq, alimlərimiz, musiqiçilərimiz, memarlarımız və digər peşə sahibləri olan azərbaycanlıların səsi İran, Ərəbistan, Hindistan, Avropa və digər Asiya Amerika ölkələrindən gəlmişdir. Azərbaycanlılar dünyanın hansı ölkəsində məskunlaşmalarına baxmayaraq vətənlə bağlılıqlarını birbaşa olmasa damədəniyyət və incəsənət vasitəsilə gələcək nəsillərə çatırıblar. Burada bəzən yerli mədəniyyətin təsirləri hiss olunması isə təbii qarşılanmalıdır. Bu danılmaz bir prosesdir ki, azərbaycanlılar məskunu olduqları, yaşadıqları mühitlə təmasda olublar. Nəticədə ədəbi mədəni, mənəvi və dini əlaqələr bu bağlılıqların mahiyyətinə və xarakterinə təsirsiz qalmamışdır. Bu mənada Azərbaycan mühacirəti və diasporu ədəbi, mədəni irsi olduqca mürəkkəb, ziddiyyətli və çoxşaxəlidir.

Azərbaycan dastanlarını, şifahi və yazılı xalq ədəbiyyatı folklorunda qürbət mövzusunun yeni olmadığı hamıya bəllidir. Biz azərbaycanlıların dünya səpələnməsi, diaspor formalaşdırılması barədə Azərbaycan alimləri ilə yanaşı Rusiya, İngiltərə, Türkiyə, İsveç, Norveç və digər ölkələrin alimləri, tədqiqatçıları da çox sayda kitablar yazıblar. Bu istiqamətdə aparılan tədqiqat işlərində Horveçli səyyah alim Tur Heyerdalın nəzəriyyələrinin xüsusi yeri var. Əsərlərilə tarixin qaranlıq səhifələrini işıqlandıranTur Heyerdalın fikirlərindənsonra bizdə Azərbaycan diasporunun, mühacirətin qədim tarixini araşdırmaq üçün şərait yarandı.

İlk dəfə 1981-ci ildə Azərbaycanda olan səyyah ölkə ərazisində tarixi abidələrlə yaxından tanış olduqdan sonra Dünya tarixində 3 əsas svilizasiyadan birinin Azərbaycan ərazisində olması barədə mülahizə irəli sürdü. Bu 3





svilizasiya məskunləri inkişaf etmiş ərazilərlə malik olmaqla yanaşı sakinləri mədəni, incəsənət və memarlığı ilə seçilmişlər.

Tur Heyerdalın bu nəzəriyyə ilə bağlı bir fikri olduqca maraqlıdır. Özünün *"Challenging euro-centrik theories of migration"*- adlı məqaləsində aşağdakı sözlərlə o, bütün dünya alimlərinə müraciət etmişdir.

*«Bir alim kimi Avropada biz tərəfindən öz həmvətənlərimizin dünyanın bir çox yerlərini kəşf edilməsi barədə dərc olunan əsrlərdən bizə gələn tarixi sənədləri yenidən təhlil edək. Burada olanların əksinə olaraq görürük ki, Avropalılar, Yeni Dünyalar kəşf edən tarixdən əvvəl Afrikadn olan dənizçilər Kanar adalarına yol açmışlar. Amerika, Hind okeanı və sakit okean Asiyadan elə Amerikadan olan qədim sakinlər tərəfindən öyrənilib. Avropa deyil Azərbaycan inkişaf etmiş svilizasiyasının qaynayıb daşan mərkəzi olmuşdur. Geniş ticari və uzaq əlaqələri olan ticari və mədəni impulsun naviqatoru olan Azərbaycan ərazisini tədqiq etmək vacibdir. Biz tarixi qumda və dənizdə axtarmalıyıq. Müasir Azərbaycanın qədim və xarici əlaqəlirn araşdırmaq üçün alimlər səy göstərməli və buranın tarixi mənbələrini təyin etməlidir».*

Bu nəzəriyyəni inkişaf etdirən səyyah-alim Skandinav xalqları ilə yanaşı Meksika, Peru, Amerika, Asiya və Afrika xalqlarının həyatında azərbaycanlıların oynadıqları rolu sənədlərlə isbat etməyə çalışır.

Tur Heyerdal "Yeni fikir" qəzetində dərc olunan "Azərbaycan Qafqazlıların yayım mərkəzidir"- məqaləsində bu nəzəriyyəni daha da inkişaf etdirib:

*«Qədim azərbaycanlıların gəmiləri Xəzər dənizində və rus çaylarında aşağı-yuxarı gedib-gəlirdi. Və onların qayalarda çəkdikləri gəmi rəsmlərilə vikinqlərin min il sonra Norveçdə çəkdikləri rəsmlər arasında oxşarlıq təsadüfi ola bilməz. Skandinaviyada, xüsusilə Norveçdə iki müxtəlif növ gəmi rəsmlərinə rast gəlmək olar. Bunlardan biri Qobustandakı rəsmlərə bənzəyir: üfiqi çəkilmiş xətt gəminin əsasını, şaquli xəttlər isə gəminin həyətini və yuxarı qaldırılmış avarları əks etdirir. Digər gəmi növü "dəri gəmi"sindən ibarətdir. Bu cür gəminin qısa və geniş burnu olur və içərisi ağacla (qamışla) - örtülürdü. Qaya rəsmləri bu cür gəminin çöldən görünüşünü əks etdirir»*

1241-ci ildə İslandiyalı Snor Sturlasonun «Norveç vikinqləri krallarının saqası»-nıəsas göstərən Tur Heyerdal norveçlilərin ulu babalarının adınınOdin olmasını bildirirvə qeyd edir ki, Odin Skithbalanthner (skidblandenr) adlı gəmilə bu ərazilərəgəlib. Odin qatlama gəmisi ilə saqada qeyd olunduğu kimi yerlilərin qəlbini fəth etmişdir. Saqaya görə Odin "Aser" adlı məmləkətdən gəldiyindən çox zaman onu "Asa-Odin", "Aser Odin", "Odinsan" adlandırırdılar və Snor dəqiq olaraq, Aser-in Qafqazdan, Qara dənizdən cənubda yerləşən ərazilərdən gəldiyin göstərir.

1987-ci ildə Y.M.Stenrsens Forlaqın Osloda ingilis dilinə tərcümə etdiyi saqada adları çəkilən "Aser" və "Odin" barədə bir qədər ətraflı tədqiqat aparaq. Azərbaycanın görkəmli tədqiqatçısı Mahmud İsmayılov qeyd edir.

*«Aslar qədim çox qədim, dilləri bizim dilimizin kökkündə dayanan soy, xalq olmuşdur. Asları tədqiqatçılar türkdilli sayların ən ulu əcdadlarından biri sanırlar. Ehtimal var ki, yurdumuzda məskunlaşan asların adı ilə bu yer aslar diyarı aslar məskəni asların yurdu as ərlərin as kimilərin yurdu, Asər yurdu adlandırmışlar. Asların adına qədim Orxon-Yenisey yazılı abidələrində də rast gəlinir. Dünya tarixi ilə məşğul olan təqdiratçıların bir qismi Asiya qitəsini - qitənin ən böyüyünün adını bu ərazinin ən qədim məskunlarının, asların adı ilə bağlayırlar. Tədqiqatçıların söylədiklərinə görə asların bir qolu eramızdan xox-xox əvvəl Azərbaycanda məskunlaşıblar».*

Odin - azərbaycanca səslənir və **od** və "yaşayış məskəni", ya da "ruh, can" mənaların verən **in** sözündən ibarət olub. "Od canlı", "od ruhlu", ya da "od məskəni" obrazlı desək "od saçan", kimi açıqlanır. İslamdan öncə azərbaycanlıların oda sitayişi etməsini nəzərə alsaq Odin adının bu cürə izaholunmasına inanmaq olur.

Snor Sturlasonun saqasındkıfikirləri Tur Heyerdal inkişaf etdirərək bildirir.

*«Norveç tarixçiləri Asar Odin, onun gəmisi və səfəri barədə saqanı orta əsrlərin əfsanəsi hesab edirlər. Hərçənd onlar norveçlilərin Qafqazlı olduqlarını qəbul edirlər. Yəqin ki, Odinin gəmisi aserlərin (asları) torpaqlarının Qafqazın şərqində, Xəzər dənizi sahilində yerləşdiyin göstərir. Bizim eradan əvvəl V əsrdə Yunan tarixçisi Heredot qatlanan gəmilərdən yazır və onlar Asar Odin saqasında təsvir olunduğu kimi aserlərin yaşadığı ərazidə istifadə edildiyini göstərir.»*

Heredot, Diogen, Plutarx, Strabon da ön Asiya və Azərbaycan da yaşayan tayfalardan ətraflı söhbət açaraq. Heyerdalın qeyd etdiyi gəmilər barəsində də fikirlər söyləyiblər.

Snorun saqasında qeyd olunan Aser Odinin nəslini araşdıraq. Bu istiqamətdə Nazim Rizvanın tədqiqatları olduqca maraq doğurur. «Azərbaycan diasporası tarixindən» - kitabının müəllifi olan Nazim Rizvan Snor və Tur HeyerdalınAser Odin və onun ailəsi barədə açıqladığı fikirlərlə dəstək verir:

*«Odinin oğlu, güclü pəhlivan, şimşək allahı Tor, torpaq ilahəsi Torun anası Yord (Yurd) başqa oğlu Moqni, bahar allahı Valdır. Tir həqiqət ilahəsi Vor, iki qardan, Foylar, Qoylar, eləcədə mani qoca dayə elmi, siqurd, oyun, Ağnar, Qunnar və başqaları da bu qəbilədəndir. Dastanlarda atillanın adına Atil şəklində rast gəlirik.»*

Tək Norveç deyil, İrlandiya, Danimarka, İsveç, İslandiya xalqlarının inkişafında mühüm rol oynayan yurdumuzun qədim sakinləri olan aslar barədə çoxlu tarixi faktlar var. XVIII əsr və müasir İrland tarixçiləri qeyd edirdilər - «Biz Aser torpağının davamçıları və nəsliyik.»





İrlandıya və Şotlandıya arasında kiçik "Azer" adasının olması bu faktı təsdiqləyən faktdır.

Skandinav adasının ən qədim adı Tula-dır. Qədim türk sözü olan Tulanın izahın müxtəlif cür yozmaq olar. Bunu Skandinaviyanın xəritədə olan görünüşü ilə də və yaxud başqa bir anlayışla oxşadan fikirlər qeyd olunur. Hər halda bu nəzəriyyəni Skandinav alimlərinin kəşf etdiyi kimyəvi elementlər cədvəlində 69-cü yeri tutan tulium (tm) elementində də görmək olar.Bütün bunlar təsadüf deyil. Bir faktı da dastanlarda qeyd edilən fikirlə «Aser Odin Qunqnır nizəsin tutub Sleypnir atında dünyanı səyahətə çıxaraq insanlara nəzarət edir» əsaslandırmaq olar. Adı çəkilən Qunqnır nizəsi hun tayfalarının malik olduqları nizə ilə oxşarlığı da təsadüf deyil. İsveçdə Avesta şəhərinin olması da hər halda təsadüf ola bilməz. Kon - Tiki insanı«Qədim Skandinav tarixi» məqaləsində qeyd edir.

*«Biz Danimarka, İsveç və Norveçin kral ailələri xətti ilə tarixi öyrənirik. Biz bunu bu cürə götürməklə hesab edirdik ki, bu mifologiyadır, xəyali təsəvvürləridir. Lakın zamanlı biz bunların həqiqət olduğun tədqiqatlar zamanı görə bilərik. Mən uşaqlıqdan xatırlayıram ki, bizim mifalogiya Odin adlı allahdan başlanğıc götürür. Odindən isə 31 nəsil sonrası lazımdır ki, ilk tarixi kral barədə mənbəyə çataq. Odin barədə məlumatda qeyd olunur ki,o şimali Avropaya Aser adlanan torpaqlardan gəlib və bunlar isə mifalogiya deyil. Bu faktiki tarix və coğrafiyadır.»*

Tur Heyerdal məhşur tarixçi Heredotun qədim azərbaycanlıların istifadə etdikləri qatlanan gəmilərdən yazdığını və onun da aserlərin vətəninin olmasını qeyd etdiyini bildirib. Aserlərin ərazilərinin olduqca böyük idi və burada təbiət çox gözəl idi. Odinin nəvə-nəticələrinin sitayiş etdiyi dini yerlilər və tarixçilər Odinə adlandırıblar. Bu faktı görkəmli türkoloqMurad Acının «Qıpcaq çölünün yovşanı» kitabında da qeyd edilir. Murad Acı rusları İsveç mənşəli varyaqlar adlandırır. Acıya görə yunanlar, romanlılar, qıpcaqlar, farslar və bütün dünya IX-XII əsrlərdə rus sözünü eyni mənada başa düşürdülər. Bu sözlə Rusiyada varyaqlar - adı ilə məhşur olan xalqı tanıyırdılar. O vaxtın tarixi sənədlərində belə yazıldığını araşdıran Acı Skandinavların dəniz cəngavərləri kimi dünya da tanıdığın göstərərək onların çaylardan magistral yol kimi istifadə edərək digər ərazilərdə məskunlaşdıqların qeyd edir.

Rus kimi tanınan varyaqların Odinə deyilən dini inam sahibi olması barədə vurğulayan Murad Acı onların slavyanlarla heç bir bağlılığı olmadığını yazır. Buradan isə məntiqi nəticəyə gəlmək çətin deyil. Skandinavların ulu babalarının azərbaycanlıların olması faktını təsdiq edən sənədlər və məlumatlar odinin varlığı, odinə dini varyaqların skandinav mənşəli olması faktının təsdiqlənməsi indi özlərini rus adlandıran xalqın əsl kökünü ortaya çıxarır.

Rusların və skandinavların antropolojioxşarlığı da tarix boyu rus imperatorlarının skandinavlar ilə qohumluluq əlaqələri qurmaq istiqamətində apar-

dıqları siyasət, elmi faktları təsdiqləməklə azərbaycanlıların skandinavlarla yanaşı, rus adlanan varyaqların ulu babaları olması barədə ehtimal yaradır. İngilis tarixçisi Devil Uilson Skandinaviyanın sakinləri olan vikinqlər barəsində tədqiqatlarında qeyd edir.

*«Vikinqlər çaylar və dəniz vasitəsilə Skandinaviyaya gəliblər. Şərq və Qərb arasında ticari və mədəniyyət münasibətlərinin əlaqələndiricisi olublar. Böyük İpək yolu üzərində yerləşən Vikinqlərin qədim əcdadları Çin, Polşa, Rusiya və İran arasında yerləşən dəniz vasitəsilə mərkəsi Asiyaya çıxış yolu açıblar. Vikinqlər böyük dənizçilər idilər. Onların hesabında bir çox dəniz qəhrəmanlıqları var. Vikinqlərin Skandinaviya gəlməsindən öncə təbiətə malik əraziləri və inkişaf etmiş mədəniyyətləri var idi».*

Tur Heyerdal Uilsonun fikirlərini davam etdirərək,Vikinqlərin qeyd olunan vətənlərinin Qafqazdan, əsasən Azərbaycan olduğunu təsdiqləmişdir.

İslandiya, İrlandiya, İsveç, Norveç, Danimarka vəBöyük Britaniyada Azərbaycan mənşəli abidələrin şəhər və kəndlərin olması faktını təsdiqləyən Tur Heyerdal azərbaycanlıların qədim zamanlarda Çində, indiki Uyğurstanda yaşayan xalqların formalaşmasında və inkişafında da rol oynamasını qeyd edir. «Azerbaijan international» jurnalında dərc olunan «Acestrytracing roots to Azerbaijan» - məqaləsindəsəyyah yazır.

*«Biz kommunist Çini ilə əlaqələr qurduğumuz illərdə, çinlilər çox təəccüblü bir arxeoloji qazıntı aşkar etmişlər. Çinin mərkəz hissəsində Kərim səhrasında ağbəniz saçlı mumiya tapmışlar və mumiya duzlu ərazidə soyuq hava kütləsinin sayəsində öz görkəmini saxlamışdır. Maraqlı fakt idi ki, mumiya monqoloid tipli deyil idi. Çin arxeoloqları mumiyanı tədqiq edəndə təəcüblə onun çinli deyil, vikinq olması ehtimalını irəli sürüblər.»*

*Bu məndə heç bir ciddi fikir yaratmadı. Axı vikinqlər uzaq Çinə necə gəlib çıxa bilərdilər. Ancaq çinlilərin e.ə. 1,800-1,500 il tarixə mumiyanın malik olmasın bildirəndə məlum oldu ki, bu vikinq deyilmiş.Tarixi rəqəmlər isə Qafqazı yenə diqqət mərkəzinə çıxarır.*

*Bu isə tarixin sonu deyil. Bu mumiyaların geyiminin parça tipi Amerika və Çin ekspertləri tərəfindən İrland keltləri ilə oxşar olduğun bildirirlər. Lakin bu da heç bir məntiqə uyğun gəlimirdi. Biz irlandiyaya müraciət etdik və bizə yazılı saqa göndərdilər. Yazılı saqada inlandların babalarının aser torpaqlarından olmasın təsdiqləməsi Qafqazın əsasən Azərbaycanın dünya mərkəzi olmasını sübut edir. Əlimizdə olan sənədlər faktlar bunun bariz nümunəsidir».*

Son zamanların elmi tədqiqatlarında müzakirə obyektinə çevrilən şumerlərin böyük svilizasiya malik olması qeyd edilir. Tarixdə türk xalqları kimi adlandırılan şumerlərin Azərbaycan ərazisində yaşamaları barədə fikirlərsöy-





lənməkdədir. Şumerlərin azərbaycan türkləri olması fikri də səslənməsi bu istiqamətdə yeni tədqiqat işləri üçün zəmin yaradıb.

İslam xristian və yəhudilik dinində böyük peyğəmbər olan İbrahim peyğəmbərin Ur şəhərində anadan olması və onun atasının adının Azər (Aser) olması barədə Kramer və Heyerdal kimi alimlərin araşdırmalarında qeyd olunur ki, Azər oğlu İbrahim e.ə II minillikdə Şumer şəhəri olan Urdan ailəsi ilə birgə çıxaraq Aralıq dəniz ətrafına yola düşürlər.

Tarixçi Nazim Rizvanın tədqiqatlarına görə azərbaycanlıların Mərakeş, Mavritaniya ilə yanaşı bəzi Afrika xalqlarının formalaşmasında rolu olub. Müəllif Roma tarixçisi Hay Sallyusti Kripsin təxminən 2040 il əvvəl qələmə aldığı «Yuqurta müharibəsi» əsərinə istinadək yazır.

*«Pun mənbələrinə əsaslanan Krips bizə çox qiymətli iki məlumat verir. Əvvəla, Pun çarı II Giyempaslın yazdığına görə yunanların əfsanəfi döyüşçüsü və yarım allahı Herkules qoşunlarında azərbaycanlılarda olub.»*

Qədim dövrlərdə azərbaycanlıların yayılma coğrafiyanın Afrika, Avropa və Asiyanın müxtəlif bölgələri ilə məhdudlaşmamasında qeyd etmək lazımdır. Amerika qitəsi və Okeaniya adaları azərbaycanlılar tərəfindən kəşf olunmuş və burada svilizasiyalı inkişaf da mühüm rol oynayıblar. Bu barədə yenə Tur Heyerdalın tədqiqatlarına müraciət etməli olacağıq. Tur Heyerdala görə Amerika Avropalıların iddiasına görə ilk dəfə 1497-ci ildə Xristafor Kolumb tərəfindən kəşf olunanda artıq burada yerli əhali ovçuluqla məşğul olur, balıq tutur, müəyyən adət-ənənələrə malik idilər.

Bu istiqamətdə Tur Heyerdalın qiymətli tədqiqat işləri var. Uzun müddət Cənubi Amerikada, Polneziyada tədqiqatlar aparan Tur Heyerdalın yazılarını oxuduqca olduqca maraqlı faktlar ortaya çıxır.

Meksika və Peruda astek, maya, ink kimi böyük qüdrətli hindu tayfalarını (Amerika qitəsinin sakinlərinin hindu adlandırılması ilk dəfə Xristafor Kolumbun adı ilə bağlayırlar. Hindistana dəniz yolu ilə yol atxaran kalumb yeni dünyaya ayaq basanda buranın Hindistan olduğun zənn etmiş və yerli sakinləri hindli, hindu adlandırmışdır) adət-ənənələrini yaşam tərzini tədqiq edər Heyerdal buranın sakinlərinin kökünü Avrasiyada yaşayan hun, şumer, assuriya, almenlərlə bağlayırdı. Lakin Azərbaycana gəldikdən sonra ölkəmizin tarixi abidələri milli ənənələrimiz və qədim inanclarımızla yaxından tanış olduqdan sonra Azərbaycanın qədim sakinlərininbu ərazilərə gedib çıxması fikrinə gəlmişdir. Adları sadalanan tayfaların inancları ənənələri mətbəxi musiqisi ilə azərbaycanın qədim sakinlərinin arasında oxşarlıq tapan Heyerdal bunu elmi faktlarla sübut edib. Heyerdalın fikrinə qüvvət olaraq Peru Meksikanı kəşf edən Pissaro və Kortes kimi şəxsiyyətlərin onlar barədə «buranın yerli əhalisi döyüşkən, günəşə sitayiş edən odpərəst cəsur insanlardır» sözlərini qeyd etmək olar.

Maya tayfaları barəsində Heyerdalın əsərlərində Kukul-Kan adlı şəxsin adını çəkir. Maya tayfalarının allah hesab etdikləri Kukul-Kan qatlanan qayıqlarda bu ərazilərə gəlməsi barədə tarixi məlumatlar var.

Kan, Xan, Kaan, Qan sözləri Azərbaycan sözündəki can, Atropatakan sözündəki kan kanponentinin təkamülü nəticəsində yaranmış və yüksək hörmətli şöhrətli şöhrət sahibi mənasındadır. Bu nəzəriyyədən yanaşsaq Maya tayfalarının allahı hesab olunan Kukul-Kanın yol-yoldaşldarından Nopaliya adı ilə yanaşı tula it cinsinin adı da çəkilir.

Bununla yanaşı Maya, İnk, Astek, Skandinav, Polneziya, Avropa, Asiya və Amerika tarixi sənəd və məlumatlarında Azərbaycan türklərinin antropoloji görkəmi və geyimi barəsində fikirlərə rast gəlinir. Hündürboylu, ağ üzlü, qara saqal, möhkəm ayaqlı, uzun xalatlı təsvir olunan Azərbaycan türkləri barəsində Strobonun "Coğrafiya" kitabında, Romalı Qoy Plini Sekundi böyük Plinin əsərində də məlumat verilir. Onlar Azərbaycan türklərinin ala gözlü, hündür boylu, gözəl üzlü, qara saqalı, sarışın olmasını bildirirlər. Bütün tarixi mənbələrdə eyni fiziki görünüş verilir.

Bu keyfiyyətlərə malik olan Kukul-Kan (xan) Maya tayfalarına ox atmağı, qayıq düzəltməyi, ev tikməyi, yazı yazmağı, şəkil çəkməyi öyrətmişdir. Maya şəhərinin əsası qoyan Kukul-Kan (xan) zamanında mayalar sakit və rahat yaşayır, qanunu pozmur və mədəniyyətlərin inkişaf etdirirdilər. Kukul-Kan (xan) ondan əvvəl okeanın o tayından qatlama qayıqla gələn İsamanu və onun yoldaşları ilə eyni xalqa mənsubdur. İlk dəfə olaraq İsamanu və dostları maya svilizasiyanın inkişaf etməsi vəyaranmasının təməlin qoymuşdlur. Maya əlifbasını və mədəniyyətini yaradan İsamanu və onun ardıcılı Kukul Kan (xan) işlərini sona çatdırdıqdan sonra qatlama qayıqlarına oturaraq başqa ərazilərə gediblər.

Meksikanın Tabako və Çiapasa meşələrində yaşayan tayfaların mifologiyası da olduqca maraqlıdır. Burada Yolum-Uotan -Votan kimi adlandırılan, vətəni Şərq olan peyğəmbər Votan barədə məlumatlar var. Bu ərazidəki əhalinin bərabər həyatına son qoyan Votan oda sitayiş edir, daş və qaya üzərində gözəl rəsm çəkirdi. Votan yerlilərə ov etməyi balıq tutmağı, heroqlifləyazmağı, ov qabağı ovlanacaq heyvanların rəsmlərini çəkməyi, xüsusi rəqs oynamağı öyrətmişdir. Burada tapılan məbəd, daş, qaya üzərindəki ov səhnələri, Qobustan qayaüstü rəsmlərlə oxşardır, desək yanılmarıq.

Qvatamella, Peru, Meksika, Salvador, Braziliya mifologiyasında bu cür faktlarla yanaşı türk sözlərinə də rast gəlmək olar. İlk zamanlar ərəb-semit mədəniyyəti kimi qəbul edilən abidələr, rəsmlər sonradan məşhur alimlər tərəfindən Qafqaz xalqlarına, əsasən də azərbaycanlılaraməxsus olmasını bildiriblər. Azərbaycanda tapılan, ox, yay, dəmir silah, saxsı qab, musiqi alətləri daş abidələr, rəsmlərin Meksika və digər Cənubi Amerika ölkələrində tapılan





qədim tapıntılarla eyni olduğunu qeyd edən Tur Heyerdal Mərakeş və Polneziyada da oxşar tapıntıların olmasını bildirir. Bu dövlətlərə səfər edən Heyerdal Malaylar və Polneziyaların inkişafında, svilizasiyalarının yaranmasında azərbaycanlıların rolunu xüsusilə vurğulayır.

Polneziya və malay xalqlarının etnik mənsubiyyətini, ənənələrini vəantropoloji görünüşünü tədqiqedən Heyerdal bu xalqların əcdadlarının Qafqazdan gəldiyini qeyd edir. Polneziya və malayalılar üzümdən şərab almasını, milli xörəklərini vəmusiqilərini əsas götürən Heyerdalfikrini bununla əsaslandırır. Polneziyalarının əcdadlarının Azərbaycanın qədim sakinləri olmasını fiziki və antropoloji görünüşdə olmasıylaəsaslandıranHeyerdal boyu 180-dən uca, saqqalı, ala gözlü azərbaycanlılarınAmerikanın Şimal-Qərb, Yeni Zellandiya, Okeaniya vəHavayda Menxun və ya Manaxan adlandırıldığını qeyd edir.

"Yeni fikir" qəzetində dərc olunan, Amerikanın yerli sakinləri olan hinduların nümayəndəsi, Nyu-Yorklu Cek Rassinqin Bakıya göndərdiyi məktub maraq doğurur.Öz tayfası mohavaklar barəsində söz açan Con Rassinq məktubda qeyd edir:

*"Mənim tayfam olan mohavaklar barədə mövcud rəvayətlərə əsaslanaraq bildirmək isərdim ki, tayfamızın mənşəyi "Yer kürəsinin o biri tərəfindən" gəlmədir. Antropoloji dəlillərə əsaslanaraq ehtimal etmək olar ki, biz bura əlli min əvvəl Azərbaycandan Berinq boğazı yanından köçüb gəlmişik. onlar Xəzər sahillərindən köçə başlayaraq Sibir, Qazaxstan və Özbəkistan ərazilərindən keçərək indiki ərazilərdə məskunlaşıblar. İndi də bizdə Azərbaycan xalqının adətləri və sözləri ilə oxşarlıqlar qalmaqdadır və bizim aramızda müəyyən etnik uyğunluq var".* Bu fikrin davamı olaraq Nazım Rizvan tədqiqat əsərində yazır:

*«Hindu hüquqşünasının dediklərinə dəstəkolaraq Cənubi Amerikada And dağ silsiləsini, Ataqam səhrasını, Oqayo ştatındaki Sevil şəhərin, İlliyanis ştatında, Onarqa (on arxa), Kanada da Manitoba gölü və Alyaskada Qaltaq şəhərini və başqa yer adlarını, hindu tayfalarının adların adət ənənələrin, mifologiyasını misal göstərmək olar. Məgər Qədim Astek mədəniyyəti Az-tək-dən, xəbər vermirmi?»*

Filologiya elmləri doktoru professor Qara Namazovun da bu nəzəriyyə ətrafında tədqiqatları olduqca maraqlıdır. Professorun "Yeni fikir" qəzetində dərc olunan məqaləsində deyilən odlu torpaq adlarında yaşayan bir tayfa 24 qəbildən ibarətdir. Dilləri türk dilinə uyğunluğu onlarla oğuzlar arasında yaxınlıq olması barədə fikir doğurur.

AzərbaycanlılarınAmerika qitəsində qədim tarixi barəsində zəngin məlumat, tanınmış ədib, məhşur jurnalist Əlibəy Hüseynzadənin 1905-ci il "Həyat" qəzetinni 129-cusayında nəşr olunan "Kristof Kolumbu, yoxsa türklərmi?" məqaləsidir:

*«Məlumdur ki, Amerikanın kəşfi tərəfi Kristof Kolumba aiddir. Bir neçə millət vardır ki, bu tərəfə iştirak iddiasında bulunuyorlar. İtaliyanlar bilxassə Cenevrə şəhəri xalqı duyorlar ki, Kalumb bizlərdən olduğu üçün, bizim şəhərimizdə təvəllüd etdiyi üçün tərəf bizimkidir, ispaniyalılar duyorlar ki, xayır! Kalumba gəmiləri biz verən olduğumuz üçün o tərəfə kimsənin haqqı olmaz. Osmanlı türkləri diyorlar ki, biz İstanbulu fəth etməsə idik, avropalılar Hindistana ayrı yollar arayıb Amerika kəşfilə müvəffəq olamaz idilər. Skandinovaya xalqı isə diyor ki, Kalumbda çox əvvəl biz İspaniyada vəzifəsindən Amerikanın Şimal cəhətlərinə getmiş idik. Ancaq bu hadisə bixəbərə yaddan çıxdı. Lakin axirən fransızca, "Fiqaro" qəzetinin verdiyi xəbərə baxılır isə türklərin Kalumbdan öncə Amerikaya getmiş olduqları anlaşılıyor.*

*Bu qəzetdə oxunduğuna görə "Amerika Cümhuriyyətindən olan Meksikanın üləmi-lissaniyyuni Meksikanın vəsatətlərindən bəzi qəbilələri və əşirətlərin türkcə danışılıb söylədiklərini kəşf edib fövqəladə düçari heyrət olmuşlardır. Bunun üzərində üləmayi-münşileyhəm. ticarət qəsdilə Meksika şəhərində iqamət etməkdə olan bir istambullu ruma müraciət edərək məsələyi həll etmək üçün özləri ilə bərabər türkcə danışan qəbilələrin xristian dininə getməsini təklif etmişlər. Rum taciri dəxi təklifi qəbul edib falları üləmanın rəfaqətində ixtiyari qədər etmiş və qəbilə əfradi tərəfindən sözləri söyləmək tamamilə türkcəyə müşabe olduğunu müşahidə eyləmiş və bi az qəbilənin şivəsilə təkallümə başlayıb Kəmalisüh ulətə təatnü-əfkar söyləmişlər". Bu hadisəyə Meksikalar nəhayət məktəbə heyrət ediyorlar.*

*"Türklər kimdir və kimlərldən ibarətdir" ünvanı məqaləmizdə zikr olunduğu vəchlə, Baykal civarında orxun şəhri kənarlarında tukyu, yaxud türkoğuz türklərinə dair fövqəladə kəşfiyyat mühümmədə bulunan Peterburq və Helsinq-fars türkoloqlarının heyət elmiyyələrinin Meksikaya dəxi bərayi şəhəriyati-Ciddiyyə adamlar göndərəcəklərii ümid ediyoruz. İstambulda hənuz böylə şeylərin qədrini biləcən dərəcədə hazırlıq yoxdur!...»*

Çox böyük əhəmiyyətiolan bu məqalə Amerika qitəsilə azərbaycanlılarınqədim bağlılığını sübut edir. Nazim Rizvan Peterburqlu alim Boris Lukinin "Kuba xalq poeziyası mədəniyyətinin qaynaqları" kitabını araşdıraraqqeyd edir ki, orta əsrlər Kuba aşıqlarının antroloji qurluşları, qopuzları, geyimləri, gənc aşığın belindəki xəncər, başlarındakı çalma və papaq onların türk soyköklü aşkarlayır. Kuba aşıqlarıorta əsrlərdə "huqlar" adlandırılırdı. Onlar milli ədəbiyyatdan qidalanaraq xalq maarif və informasiyasında görkəmli rol oynamışlar. Xalq şairləri və musiqiçiləri öz biliklərini şagirdə ötürmüşlər. Çili müğənniləri və Braziliyanın el şairləri Azərbaycan aşıqları kimi sənət birliklərinə ehtiyac baxımından öz qurultaylarını çağırırlar. Peşəkar xalq müğənnilərdən bir çox salnaməçi şair və təbliğatçı şair kimi fəaliyyət göstərərək vətənlərinin istiqlalı uğrunda mübarizələrdə iştirak edirlər".





Bundan əlavə Afrika və Asiya, Avropa qitəsində də azərbaycanlınəfəsi izi görünməkdədir. Bu istiqamətdə isə ilk işlər Azərbaycanın arxeoloji qazıntıları, ərazilərini tədqiq etməklə başlanmalıdır. Xüsusilə Ordubad rayon ərazisindəki Gəmi qaya adlı dağlıq zonada və Qobustan qayalarında aşkarlanan qayaüstü rəsmlər, qədim əşyalar, alətlərini demək olar ki, dünyada tayıbərabəri yoxdur. Azərbaycan mühacirətinin, mədəniyyətinin qədim köklərini araşdırmaq baxımından misilsiz əhəmiyyət daşıyan Gəmiqaya, Qobustan və digər arxeoloji mərkəzlərimiz Azərbaycanın qədim və zəngin tarixində xəbər verir. Azərbaycan tarixi ciddi tədqiqat işlərinə ehtiyac var. Çünki Avropa, Asiya. Afrika. Amerikavə Okeaniya kimi qitələrdə Azərbaycan tarixilə bağlılığıehtimal olan faktlar bu gün də qalmaqdadır. XIX əsrin əvvəllərində Azərbaycan tarixinitədqiq edən Rəşid bəy İsmayıl oğlu yazırdı:

*«Asiyadan Avropaya vaqe olmuş olan mühacirlərin cərəyanları başlıca Qafqazdan, dəxi Azərbaycandan mühür evləşmiş olması Azərbaycan irqinin Rusiya və Avropa irqi ilə dəxi münasibətlərdədirlər".*

Bütün yuxarıda deyilən sözlərini çox hissəsi elmi əsaslarla isbat olunmuşdur. Azərbaycanlıların bütün qitələrə səpələnməsi tarixi proseslərin bir və başlıca qoludur. Azərbaycanlıların mühacirət tarixinin başlanğıcı hələlik tam dürüstləşməyib. Tez-tez bu istiqamətdə aparılan işlərin müsbət nəticəsin mediada nəşr olunan məqalələrdə görmək olar. 1994-cü ildə "Səhər" qəzetində nəşr olunan bir məqalə maraqdoğurmaya bilməz.Məqalədə qeyd edilir: «Qədim Azərbaycan ərazisindən Yunanıstana gedən ilk filosof Anaxarsis olub. O eramızdan əvvəl 539-cu ildə Afina şəhərindəki akademiyada dərs deyirmiş. Yunanlar dünyanın 7 məşhur filosofu arasında Anaxarisi birinci hesab ediblər". Bu məşhur filosof Azərbaycan mühacirətinin nümayəndəsi kimi tarixə düşüb».

Bütün deyilənlər, yazılanlar, faktlar Azərbaycan diasporunun formalaşmasında mühüm rol oynayan mühacirət tarixinin qədimliyinin bariz nümunəsidir.

## ORTA ƏSRLƏR VƏ XX ƏSRİN SONLARINA QƏDƏR AZƏRBAYCAN DİASPORU.

***II HİSSƏ:*** Azərbaycan diasporuna dair tədqiqatlarda İslam dininə qədərki dövr barədə məlumatlara rast gəlmək olmur. Bu tarixdə ehtimal olunur ki, azərbaycanlılar tək-tək və ya kiçik qruplarla Asiya və Avropa ölkələrinə mühacirət etmişlər və burada onlar yerli əhali tərəfindən assimilyasiyaya uğraması onlar barəsində məlumatsızlıq boşluğunun əsas səbəbidir. Eramızın I əsrində Albaniya və Roma imperiyası arasında dostluq və ticarət əlaqələri saxlanılırdı. Bu əlaqələr sayəsində Alban tacirləri və sənətkarları Roma və onun nəzarətində olan ərazilərə sərbəst gedə bilirdilər.

Albaniya və Azərbaycanda yerləşən digər dövlətlər beynəlxalq ticarətə qoşulmuşlar. Azərbaycanlı tacirlər Avropa və Asiya ölkələrinə tez-tez səfərlər edirdilər. Çox zaman isə bu ölkələrdə qalaraq geri qayıtmırdılar. Sasanilərin hakimiyyət illərində və islamaqədərki dövrdə azərbaycanlılar Roma, Çin, Hindistan, Parfiya kimi ölkələrlə əlaqədə idilər. Bu əsrdə baş verən müharibələr zamanı əsir düşən azərbaycanlılar zorla doğma yurd-yuvalarından köçürülərək digər məmləkətlərə aparılmışdır. Bu illərdə bir-birinin ardınca axışan türk tayfaları özlərilə əsrlər boyu yaşamış olduqları, yaxud Azərbaycandan Türküstana qədər keçib gəldikləri yerlərin həyat tərzini, etnoqrafiyasını,az-çox fərqli məhdudiyyətlərini, dünya görüşlərini, toponimiyasını gətirirdilər. Və onlar yeni coğrafi şəraitə nə qədər sürətlə uyğunlaşsalar da, özlərinə məxsusluqlarını da qoruyub saxlamağa çalışırdılar. Belə bir vəziyyətdə yerli sakinlərin müəyyən hissəsi mühacirət etməyə məcbur olublar. Bu ərəfədə əsasən tərəkəmə, digər yerli sakinlərin ölkəmizin ərazisindən bir yerdən başqa yerə köçməsi, Sasanilər dövründə və sonrakı illərdə Azərbaycandan mühacirət prosesləri barədə tarixi sənədlər araşdırılmaqdadır. Bu səbəbdən də Azərbaycan diasporunun formalaşma və təşəkkül tarixini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

### *1. İslam dininin qəbulu ilə əlaqədar azərbaycanın ərəbdilli elm və mədəniyyətin inkişafı və bununla bağlı olaraq yüzlərlə azərbaycanlı şair, alim, mütəfəkkir, sənət xadimlərini islam dinli dövlətlərin və digər ərazilərə mühacirəti*

VII əsrin sonundan etibarən Azərbaycanda İslam dininin yayılması prosesi başlandı. Yerli atəşpərəstlərin çox hissəsi islam dinini qəbul etməyərək Hindistan, Çin kimi dövlətlərə mühacirət etməli oldular.

Baş verən hadisələr nəticəsində Azərbaycan ərazisində islam dini yayılmış, ərəb dilli elm və ədəbiyyatı yayılmağa başlandı. Azərbaycanın Məkkə, Bağdad, Mədinə vədigər ərəb şəhərlərilə ticarət, mədəni, elmi əlaqələr yaranması nəticəsindəsoydaşlarımızın çox hissəsi bu şəhərlərə köçməli olublar.

Bağdad, Kufə, Bəsrə, Hələb, Dəməşq, Qahirə və başqa şəhərlərin mədəni və iqtisadi inkişafında mühüm rolu olan soydaşlarımız həyatın və mədəniyyətin bütün sahələrində özlərinə layiqli yer tutmağa çalışır, ümumi mədəni xəzinəyə öz payını verirdilər.

Tədqiq etdiyimiz ərəb mənbələrində Azərbaycanınelm, ticarət və müxtəlif peşə sahiblərinin ərəb ölkələrinə getməsi, oralarda yaşaması, həyat fəaliyyətləri barədə məlumatlara rast gəlmək olar.





Bəsrədə yaradılan "Saflıq Qardaşları" cəmiyyəti barəsində bir mənbədə qeyd edilirki, cəmiyyəti yaradanlardan biri azərbaycanlı idi. Bu cəmiyyətdə çoxsaylı azərbaycanlılar fəaliyyət göstərirdi. "Saflıq Qardaşlarının və vəfa munislərinin traktatları" - adlı geniş məzmunlu ensiklopediyanın 5 müəllifdən biri də Əbülhəsən Əli ibn Harun əz Zəncani idi.

Elm, ədəbiyyat sahələri ilə parelel olaraq Azərbaycandan mühacirət edənlər ərəb ordusunda daxidmət göstərirdilər. Xüsusilə Xəlifə əl Mötəsim ibn Harun ər Rəşidin zamanında azərbaycanlıların Bağdad və Bağdad ətrafı ərazilərdə yerləşdirilməsi başlandı. 735-ci ildə Bağdadda azərbaycanlılar məhəlləsi yarandı. Samarra-Surra Man Ra (onu görən sevinir) - Samirə şəhərinin salınması ilə İraqda azərbaycanlılar da daxil olmaqla digər türkdilli xalqların ilk böyük koloniyası yarandı.

Bu dövrdə artıq azərbaycanlı elm və ədəbiyyat xadimləri ətraf regionlarda da tanınırdı. İbn Qüteybənin "Kitab əş-şer və şüara", Əbdülfərəc İsfahaninin "Kitab əl-acani" və 1875-1940-cı illərdə yaşayıb-yaratmış azərbaycanlı ədib Mirzə Məhəmmədəli Tərbiyyətin "Danişməndane-Azərbaycan" kitablarında xəlifəlik dövründə tanınmışazərbaycanlıların adları çəkilir. VII-VIII əsrlərdə böyük nüfuz sahibi olan azərbaycanlılardan yalnız beşinin adı xüsusi hörmətlə çəkilir. Musa Şəhavət, Əbül Abbas əl-Əma, İsmayıl ibn Yasar eləcə də, onun oğlu İbrahim və qardaşı Məhəmməd. Düzdür o dövrdə bir çox iri islam şəhərlərində azərbaycanlılar yaşayıb-yaratmışlar.

Musa ibn Şəhavat barəsində ərəb mənbələrində ətraflı yazılıb. Orta əsrlər ümumi ərəb poeziyasında nüfuz sahibi olan Musa ibn Şəhavatın şerləri xilafətdə və sarayda sevilmiş və dillərdə dolaşırmış. Əbül Fərəcin "Nəğmələr kitabı"nda Musa ibn Şəhavat barəsində deyilir:

*«Musa əslən Azərbaycandandır.O tez-tez Azərbaycana gedir, oradan qənd və digər şirniyyat alıb gətirirdi.»*

Şirniyyata olan meylinə görə Şəhavat ləqəbi (Şirin) olan Musa xilafətdə vəzifəli şəxslərlə oturub-dururdu. 686-687-ci illərdə İraq valisi Həmzə ibn Abdullaha həsr etdiyi mədhiyyə Mədinə qazisi Əbubəkr ibn Əbdürrəhman barəsində yazdığı həcv, hikmətli sözləri; şerləri günümüzə qədər gəlib çıxan Musa ibn Şəhavat eyni zamanda ticarətlə məşğul olurdu.

İsmayıl ibn Yəsar, onun oğlu İbrahim və qardaşı Məhəmməd də azərbaycanlı idilər. Onlar Mədinə və Şam şəhərlərində yaşayıblar. Qazandığı nüfuz və tutduğu mövqe səbəbilə İsmayıl ibn Yəsar vətəni ilə əlaqəli məsələlərdə Azərbaycanın mövqeyini müdafiə edirdi. Bu səbəbdən ətrafında olan ərəb şairləri onu hədələyərək vətənpərvər olduğu üçün onu sıxışdırdılar. Şüubiyyə hərəkatının fəal üzvü olan ibn Yəsar ərəb mənbələrinin yazdığına görə «əcəmilərlə (azərbaycanlılar) - fəxr etmək xəstəsi idi.»

VII-VIII əsrlərdə Məkkədə yaşayan, bir sıra mərsiyə, mədh və həcvlər müəllifi şair və alimlərdən də biri Əbdül-Abbas əl-Ərma idi. Xilafətdə uş əl-Ərma sənətinə görə hamı tərəfindən sevilirdi.

Bu dövrün azərbaycanlıları barəsində geniş tətqiqat aparan Nazim Rizvan ərəblərə məxsus şəhərlərdə yaşayıb-yaratmış Əbu Bəkir Əhməd ibn Harun ibn Ruh əl-Bərdici, Əbusəid Əhməd Hüseynoğlu Bərdəi, Əbülhəsən Kəsxini, Hüseyn ibn Fərəc ibn Mühəmməd Abdullah ibn Səlmasi, Əbu ən-Məcid əl Urməvi, Əbdül-Qasım Bərdai, Əbu-Abdulla ibn Səlmasın qardaşı Əbu Tahir ibn Səlması, Yəhya Əli oğlu Xətib Təbrizi, Əbülhəsən Əli ibn Həsən Miyanəci, Əbuhəfis Ömər ibn Əli Zəncani, Əbu Ömər Osman Səfbəndi, Əbu-Fədc Məhəmməd ibn Ömər ibn Yusif ibn Məhəmməd əl-Urməvi və digər Azərbaycan mühacirətinin görkəmli nümayəndələri barədə ətraflı məlumat verir. Bunlar içərisində "Xulasə" və "Oçcrklər" - əsərlərinin müəllifi olan Əbülhəsən Bərdaşinin adını xüsusilə qeyd etmək olar. Ərəb Şərqində onlardan sonra XV-əsrə qədər tanınmış azərbaycanlılardan bir neçəsinin də adını çəkmək olar. Bunlar Şəmsəddin Xoylu (1187 anadan olub), onun oğlu Şihabəddin Xoylu (1229-1294), Siracəddin Urməvi (1198-1283), Əfzələddin Hunəidci (1193-1248), Səfiəddin Urməvi (1246-1316), Tacəddin Təbrizi (1277-1346), Şərəfəddin Marağı (1327-1388) daha tanınmış Azərbaycan diasporunun görkəmli nümayəndələri idilər. Bu cür tanınmış azərbaycanlılarımızın sayı yüzlərlədir. Ancaq məlumatsızlıq boşluğu onların hamısının adını çəkməkdə çətinliklər törədir. Bəlkə gələcəkdə ərəb arxivləri üzərində olan bəzi qadağalar götürüləcəyi təqdirdə islam hakimiyyəti illərində Azərbaycan diasporu barədə geniş məlumatlar əldə etmək olacaq.

### 2. *Yaxın Şərqin elm və mədəniyyət mərkəzlərində Azərbaycanlıların çalışması, ticarət, mədəni əlaqələrin inkişafı Azərbaycan milli təfəkkürünün region xalqlarının intibahında rolu. Cəmiyyətlər və təriqətlər, dövlətlərarası münasibətlər, diplomatik əlaqələr dövrü*

X əsrdən başlayan bu dövr XIX əsrə qədər müxtəlif tarixi hadisələrin inkişafı ilə müşayiət olunur. Bu dövrdə Azərbaycan, Asiya və Avropanın bir sıra dövlətləri ilə hərtərəfli əlaqələri var idi. XII əsrdən başlayaraq, Azərbaycanda ictimai-siyasi həyatda müxtəlif təriqətlər vədini qruplar yaranmışdır ki, onların fəaliyyətində tək Azərbaycanda deyil, başqaşəhərlərdə yaşayan azərbaycanlılar da fəal iştirak edirdilər. Xüsusilə «Əxi Qardaşları Birliyi» adlanan, müasir dildə desək masson təşkilatı olan "Azad bənnalar" birliyinin üzvləri sırasına xaricdə və daxildə yaşayan tanınan şəxslər daxil idi. Kiçik Asiya, İran, Zaqafqaziya, Türkiyə, Yaxın Şərqdə ardıcılları və filialları olan "Əxi Qardaşları Birliyi" azərbaycanlıların feodal zülmünə qarşı mübarizəsini





dəstəkləyir, azərbaycanlı gənclərin elm və mədəniyyət mərkəzlərində çalışmasına yardımçı olurdu.

Sufi təriqətinə məxsus cəmiyyətlər barəsində də elmi ədəbiyyatda məlumatlara rast gəlinir. Beləcəmiyyətlərdə fəal olan azərbaycanlılar bir çox şəhərlərdə tanınmış sufilərdən olublar.

Bu dövrdə Azərbaycan ərazisi Əmir Teymur, Qızıl Orda və digər ordularınhücumuna məruz qalmışdı. Bir çox şəhərlər yerlə-yeksan edilmiş, əhalisinin bir hissəsi qətl edilmiş, sənətkarlar, elm və mədəniyyət xadimləri əsir götürülərək aparılmışdır. Əsir azərbaycanlılar zorla aparıldıqları dövlətlərdə icmalarını yaratmış, zamanla yerli icmalara adaptasiya olmuşlar.

Bu proseslərə baxmayaraq, azərbaycanlıların tarixdə qoyduqları izlər silinməmişdir. Azərbaycan memarları, ixtiraçıları, ədəbiyyatşünasları, tacirləri elm xadimləri, musiqiçiləri vəhərbçiləri yaşadıqları ölkələrdə mühüm rol oynayıblar. Bəhmənyar ibn Mərzaban və Nəsrəddin Tusi kimi azərbaycanlı alimlərin adları bütün dünyada məşhur idi. Hətta Avropada Nəsrəddin Tusi vəBəhmənyarın əsərləri ilə tanış idilər. Xristafor Kolumbun Amerikaya üzərkən əlində Nəsrəddin Tusinin çəkdiyi xəritə, onun ixtirası olan astronomik cihazların olması barədə məlumatlar mənbələrdə qeyd olunur.

Azərbaycan memarlıq məktəbinin nümayəndələri Orta Asiya və Yaxın Şərqin Səmərqənd, Ürgənc, Buxara, Hələb, Məşhəd, İsfahan, Bağdad kimi zəngin şəhərlərində əzəmətli abidələri tikintisində də iştirak edirdilər. "Kinosəyahətlər klubu" verilişinin aparıcısı Sinkeviçin belə bir məlumatı ilgincdi: *"Adalardan ibarət Maldiv adası müsəlman dinindədir. Buraya ilk dəfə müsəlmanlığı 1153-cü ildə Məhəmməd Təbrizi adlı bir şərqli gətirib".*

Bu fakt onu göstərir ki, azərbaycanlıların yayılma coğrafiyası daha geniş masştablı olub. Azərbaycanlılar məskunlaşdıqları ölkələrin ictimai-mədəni həyatında aktiv rol oynayır, yerli əhali ilə qaynayıb-qarışırdılar. Belə azərbaycanlılar barəsində Qərb mənbələrində də informasiyalar verilir.

Mənbələrdə xüsusilə azərbaycanlı memarların yaratdıqları möhtəşəm tikililərdən geniş söhbət açılır. Bu sahədə geniş tədqiqat aparan Cəfər Qiyasi "Yaxın-uzaq ellərdə" kitabında azərbaycanlı memarların adlarını çəkir və onların tikdiyi abidələrdən yazır. Qiyasinin tədqiqatlarına görə Xəlifə Ömərin hakimiyyət illərində Kufə şəhərində tikdirdiyi məscidin tikilişi üçün azərbaycanlı memarları dəvət eləmişdi. Səmərqənd də böyük tikintilərdə iştirak edən memarlardan Məhəmməd Yusif Təbrizi, Fəxxar Zeynəddin Şəms Təbrizinin, Heratda Mahmud Məğşun Nəqqaş Təbrizi, Əli Memar, Yusif Qutqaşınlı, Hacı Əli Hafiz Təbrizi, Hindistanda rəssam Mir Seyid Əli Təbrizi və Ağa Mirək Qiyas, Bağdadda Əhmədov əl-Xəqani Zəriiqələm Təbrizi, Xocə Əlişah, Təbrizi, Xətta Mübəranşah Zəriqələm, Türkiyədə Əsir Əli, Həsən Firuz oğlu, Məhəmməd Mahmud oğlu Ərazi, Bədrəddin Təbrizi və digərlərinin

adlarını çəkmək olar. Bütün adları sadalanan memarlar, rəssam və xəttatların əl işləri indi də bir çox şəhərlərdə qalmaqdadır.

Orta əsrlərdə Azərbaycanın diplomatik əlaqələri inkişaf edirdi. Əsasən Avropa ölkələrilə geniş əlaqələrə diqqət verilirdi. 1599-cu ildə I şah Abbas İspaniyaya Hüseyn Əli bəyin başçılığı ilə Əliqulu bəy, Bünyad bəy və Oruc bəy Bayatdan ibarət nümayəndə heyətin konsulluq xidmətinə göndərmişir. Diplomatik heyət missiyalarınıbitirdikdən sonra geri qayıtmamış, İspaniya vətəndaşlığın qəbul etmişlər. Əliqulu bəy - Don Fillip, Bünyad bəy - Don Dieqo, Oruc bəy isə sonradan onu məşhur edəcək Don Juan adınıalaraq burada yaşayıblar.

Oruc bəy Rusiya, Rumınya, Çexoslovakiya, İtaliya, Fransa və Portuqaliyanı gəzmiş, Səfəvi dövlətinə tarixi-coğrafi əsər həsr etmişdir.

XIX əsrə qədər davam edən bu dövr Azərbaycan mədəniyyəti, incəsənəti, elmi, memarlığı, ədəbiyyatının inkişafı kimi tarixdə xüsusilə qeyd olunur. Bu dövrdə azərbaycanlıların köçürülməsi prosesi nəticəsində Səmərqənd Hindistan, İraq, Orta Asiya, Türkiyə, İran kimi ərazidə çoxsaylı azərbaycanlılar məskunlaşıblar.

### *III dövr: Azərbaycanın Rusiya tərəfindən işğalı illərində azərbaycanlıların Rusiya, Türkiyə, Avropa və Asiya ölkələrində məskunlaşması*

1918-ci ilə qədər davam edən bu dövr Rusiya işğalı illərinin I dövrünə təsadüf edir. Bu illərdə Azərbaycan diasporunun Rusiya, Türkiyə, Avropa və Asiya ölkələrində formalaşma prosesi başlandı. Rusiya əsilzadələri və tacirlərinin mənafeyi keşiyində duran Çar Rusiyası yeni torpaqlar tutmaqlaimperiyanın sərhədlərini genişləndirmək istəyirdi. Qafqazın işğalı strateji və iqtisadi önəm daşıyırdı. 1801-ci ildən başlanan geniş masştablı əməliyyatlar, Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi və Qafqazın taməlo keçməsi planının ilk mərhələsi idi.

Tədqiqatçı Xaləddin İbrahimli Rusiya işğalı illərində Avropa və Asiya bölgələrində baş verən Azərbaycan mühacirətini üç dövrə bölür. Bu mühacirət prosesi Azərbaycan diasporunun formalaşmasına təkan verməsilə, diasporda ziyalı təbəqəsinin nüfuzunun artmasına səbəb oldu.

1) I dövr 1813-cü il Gülüstan sülhündən başlayır. Bu mühacirət zəif, pərakəndə olsa da, ruslara qarşı ölkə xaricində və daxilində müqavimət hərəkatı formalaşdırmaqla itirilmiş xanlıq statuslarının bərpasına çalışırdı.

2) 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra II dövr başlayır. Bu müqavilənin imzalanmasından sonra yüzlərlə azərbaycanlı vətəni tərk edərək xarici ölkələrdə məskunlaşmış və Azərbaycan diasporunun nümayəndələrinə çevrilmişlər. Artıq ikiyə parçalanmış Azərbaycan diasporunda Şimali və Cənubi azərbaycanlılar termininin yaranmasına səbəb olan Türkmənçay müqaviləsi diasporda psixoloji-mənəvi dəyişiklik yaratmağa, dünyagörüşdə müəyyən fərqlərin meydana gəlməsinə səbəb oldu.





3) 1853-56-cı illər Krım, 1877-1878-ci illər Rus-Türk müharibələri azərbaycanlıların digər ölkələrinə mühacirət etməsinə səbəb olmaqla, artıq xaricdə formalaşmış diasporun həyatında da xeyli dəyişikliklər yaratdı. Rusların azərbaycanlılara qarşı törətdikləri amansızlığa Türkiyədə, Avropada yaşayan azərbaycanlılar etiraz səslərini bildirməklə kifayətlənirdi.

4) 1908-1918-ci illəri əhatə edən bu dövrü Azərbaycan diasporunun fəaliyyətində təşkilati və mətbuat işinin aktivləşməsinin başlanması kimi qeyd etmək olar. Türkiyə, İran, Rusiya və Avropa ölkələrində siyasi mübarizəyə başlayan azərbaycanlılar təşkilatlar yaradaraq, diasporumuzun birləşməsi, həmrəyliyi istiqamətində çalışırdılar. Əli bəy Hüseynzadə, M. Ə. Rəsulzadə, Ə. Ağaoğlu kimi tanınmış azərbaycanlılar diasporda aktiv siyasi-ictimai fəaliyyətinin başlanmasında mühüm rol oynamışlar.

Bu dövrdə Cənubi Azərbaycandan Avropa ölkələrinə köçən soydaşlarımızelm və ədəbiyyat sahəsində yadda qalan izlər qoyublar. Xüsusilə Məhəmmədəli Tərbiyətin adını çəkmək olar ki, "Danişməndani-Azərbaycan" adlı sanballı bir əsər nəşr etmişdir.

Bu dövrün görkəmli Azərbaycan diasporunun nümayəndələrindən Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov, Abuturab Vəzirov, Mirzə Məhəmməd Şəfi, Sadıq bəy Cəfərov, Mirzə Abdulla Vəzirov, Mirzə Həsən Tahirov, Məhəmməd Əliyev, Mirzə Cəfər Rzayev, Mirzə Abdulla Qafarov kimi şərqşünaslarla yanaşı, həkim İbrahim Mehmandarov, elm xadimi Nəcəfqulu oğlu Şahtaxtinski, hərbçi İbrahim bəy Aslanbəyov, Zeynalabdin Məşədi Əli oğlu ticarətçi və digər şəxslər Rusiya Gürcüstan, Polşa kimi ölkələrdə yaşamış və tanınmışlar. Bu dövrdə Azərbaycan diasporunun fəaliyyəti əvvəlki illərə nisbətən daha aktiv olmuşdur. İmkanlı təbəqənin bir çoxu Fransa, Almaniya, Polşa, Finlandiya, Türkiyə, İsveçrə, İsveç kimi ölkələrdə malikanələr alıbvə sonradan bura köçərək daimi yaşayıblar. Avropa ölkələrilə təhsil olmaq məqsədilə gələn azərbaycanlı gənclərin çoxu tarixi-siyasi hadisələr səbəbilə vətənə geri dönə bilməmiş və Azərbaycan diasporunun nümayəndələrinə çevrilməli olublar.

### *IV Dövr: Azərbaycan Demokratik Respublikasının süqutundan sonra (1918-1920) Avropa, Asiya və Amerikada Azərbaycan diasporunun fəaliyyəti*

Azərbaycan diasporunun fəaliyyətində ciddi dönüş cəmi 23 ay ömrü olan Şərqdə ilk demokratik dövlətolan Azərbaycan Demokratik Respublikasının süqutundan sonra baş verdi. İlk dəfə olaraq geniş masştablı mühacirətprosesi nəticəsində minlərlə azərbaycanlı vətəni tərk edərək Asiya, Avropa və Ame-

rika ölkələrinə səpələndilər. Aprel işğalı Azərbaycan siyasi mühacirətini ictimai milli hadisə səciyyəsi olmasına səbəb yaratdı. Sosial tərkibi genişlənən *Azərbaycan diasporu Türkiyə, Şimali Azərbaycan və Cənubi Azərbaycandan* gələn azərbaycanlılar hesabına güclənərək aktiv siyasi fəaliyyətə qoşuldu. Azərbaycan diasporunun tərkibi varlı sinfin nümayəndələri, siyasi baxışlarına görə ölkəni tərk edənlər, ziyalı təbəqə, iqtisadi səbəbdən başqa dövlətlərə köçən orta və aşağı sinfin nümayəndələrindən təşkil olunmuşdur.

Azərbaycan diasporunun bir hissəsi assimilyasiya olunaraq başqa xalqlar içərisində əriməyə meyilli olsalar da, 20-ci illərin mühacirlərinin çox hissəsi Vətənə dönmək ümidini itirməmiş, fəal siyasi-ictimai mübarizəyə qoşulmuş, dərnəklər, cəmiyyətlər yaratmış, mətbuat təsis etmiş, Azərbaycanın hər iki hissəsində gedən prosesləri izləmiş, hətta proseslərə təsir göstərməyə çalışıblar.

1908-1918-ci illər mühacirəti dövründə Azərbaycan diasporunun Qafqazdan və Rusiyadan olan digər türkdilli diasporlarla yaranmış olduğu iş birliyi *yeni gələn azərbaycanlıları yardımçı olmağa* çalışmaqla Qafqaz konfederasiyası ideyasını, onun ideoloji-nəzəri əsaslarını təbliğ edirdilər. Xaləddin İbrahimlinin fikrincə aprel işğalından sonra baş verən mühacirət prosesi 1917-ci ilin oktyabr inqilabından sonra başlanan «ağ mühacirətin» 1919-1921-ci illərdə Milli Respublikaların Qızıl ordu tərəfindən işğal olunması ilə yaranan, nisbətən kiçik ikinci dalğası idi.

Azərbaycan diasporu 1921-ci ilin oktyabr ayında Sovet hakimiyyətinin fərmanı ilə bütün mühacirlərin milliyyətindən məhrum edilməsi faktına öz ciddi etirazlarını bildirib.

*Azərbaycanın işğalı ilə barışmayan Azərbaycan diasporu hələ də bu illərdə* Müstəqil Azərbaycanın xaricdə olan rəsmi nümayəndəliklərinə və ilk növbə olaraq sülh nümayəndə heyətinə öz işinin davam etdirməsinə yardımçı olublar. Azərbaycan diasporununvasitəsilə bir çox beynəlxalq təşkilatlara çıxış yolu tapan Azərbaycan nümayəndə heyəti Sovetlər tərəfindən Azərbaycanın işğalına kəskin etiraz səslərin bildiriblər. Əlimərdan bəy Topçubaşovun bu istiqamətdə işi daha fəal olub. 1920-ci ilin iyulunda keçirilən Beynəlxalq San-Remo konfransında Əlimərdan bəy işğal faktını pisləmiş, Azərbaycanın bolşeviklərdən təmizlənməsini tələb etmişdir. Həmin ilin noyabr ayında Cenevrədə Millətlər Cəmiyyətinin iclasında da iştirak edən Əlimərdan bəy dısporumuzun yardımı ilə başçılıq etdiyi heyətlə birgə 1922-ci il London və Genuya, 1923-cü il Lozanna konfranslarına gedərək Azərbaycanın milli mənafeyinin müdafiəsində durmuşlar. Məhz belə fəallığın müsbət nəticəsi olaraq Genuya konfransı *bolşeviklərin Azərbaycan adından danışmağa* səlahiyyətləri olmadığı haqqında qərar qəbul etmişdi.





Bu dövrdə Cənubi Azərbaycandan da başlanan siyasi mühacirət diasporumuzun tərkibini genişləndirdi. İşğal altında olmasına baxmayaraq, Azərbaycan diasporu ilə Vətən arasında sıx əlaqə var idi. Azərbaycanda baş verən hadisələri diqqət altında saxlayan Azərbaycan diasporu mətbuat vasitəsilə digər azərbaycanlıları məlumatlandırırdılar. Qafqaz və türkdilli diasporla əlaqədə olan Azərbaycan diasporu Qafqaz və türklərin yaşadıqları sovetlərin işğalı altında olan torpaqların azadlığı uğrunda mübarizəyə qoşuldular. Azərbaycanlılar Fransa, Almaniya, Türkiyə, ABŞ, Skandinaviya ölkələrindəmilli kimliklərini qorumağa çalışırdılar vəbu istiqamətdə tədbirlər həyata keçirirdilər. Xüsusilə1925-ci ildə Paris şəhərində Ceyhun Hacıbəylinin tərcüməsi ilə "Arşın mal alan" musiqili komediyasının Fransada səhnələşdirilməsiAzərbaycan mədəniyyətinin, incəsənətinin unutulmaması iləyanaşı təbliği məqsədi güdürdü.

Azərbaycan diasporu 1926-cı ildə Berlində təsis olunan Prometey-rus olmayan millətlərinin siyasi mübarizə komitəsində də təmsil olunurdu. Azərbaycanlılar digər Sovet işğalı altında olan xalqların nümayəndələrilə birgə fəaliyyətlərində yalnız *Azərbaycanın müstəqilliyinin yenidən* bərpa edilməsini tələb edirdi. Lakin xaricdə yaşayanların, azərbaycanlılar da daxil olmaqla hüquqları beynəlxalq dövlətlər tərəfindən tanınmırdı.

1922-ci ildə "Nansen pasportu" - şəxsi vərəqə layihəsinin Millətlər Cəmiyyəti tərəfindən qəbul olunmasından sonra qaçqın kimi qəbul olunan şəxslər Millətlər Cəmiyyətinin himayəsinə keçirdilər. Ancaq bunun mənfi cəhəti milli mühacirlərə; xüsusən müsəlmanlara şamil olunmaması idi. Yenə də bu qanundan yaralanan bir çox azərbaycanlı Qərb dövlətlərilə köçə bildilər.

Azərbaycan Demokratik Respublikası, az vaxtda tarixi əhəmiyyətə malik bir iş görə bildi. Tarixən Şərq dünyasında yeniliklərdə birinci olan Azərbaycan ilk dəfə olaraq Dünyəvi-Demokratik Respublikanı Şərqdə qura bildi. Azərbaycan Avropa ailləsinə daxil olmaqla beynəlxalq münasibətlər sistemində 23 ay müstəqil sözün dedi. M. Ə. Rəsulzadənin Stalinin «bu bir il yarımlıq hakimiyyətiniz ərzində xalqa nə verə bildiniz» - sualına «Çox şey verə bilmədik... Amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da milli istiqlal dadızdırdıq». - cavabı xaricdə yaşayan azərbaycanlılar arasında rəğbətlə qarşılandı.

"Bir kərə yüksələn bayraq bir daha enməz" sözləri Azərbaycan diasporunun əsas şüarı idi. Ancaq onların bütün cəhdləri, fəaliyyəti nəticəsiz qalırdı. Artıq siyasi mövqeyini bərkitmiş Sovetlər Birliyi ilə dünya dövlətləri hesablaşmalı olurdu. Bu səbəbdən də Azərbaycan diasporunun bir hissəsi fəaliyyətlərini dondurараq Amerika qitəsinə mühacirət etməli oldular. Bir hissə mübarizədən kənara çəkildi. Lakin bir hissə, başda M. Ə. Rəsulzadə, Ə. Topçubaşov olmaqla istiqlal mübarizəsini xaricdə davam etdirirdi.

1930-37-ci illərdə Azərbaycanda bolşeviklərin "xalq düşməni" - axtarışlarının kəndlərdə və rayonlarda aparılması səbəbilə ilkböyük mühacirət başlandı. İrana, Türkiyəyə qaçan bəylər, qaçaqlar, varlı kəndlilər sonradan Avropa və Amerika qitəsinə, Asiya ölkələrinə daimi yaşamağa köçürdülər. Rusiya, Orta Asiya ərazilərində kütləvi sürgün edilənlər hesabına bu ərazilərdə Azərbaycan diasporunun formalaşmasının təməlini qoydu. Azərbaycanın tanınmış şəxsləri, Hüseyn Cavid, Böyükağa Talıblı, Əhməd Cavad, Mikayıl Müşviq, Ömər Faiq Nemanzadə, Salman Mümtaz, Ruhulla Axundov və yüzlərlə insanın "xalq düşməni" - adı altında qətlə yetirilməsi Azərbaycan diasporunda kədər hissilə qarşılandı. Ermənilərin fitvası ilə xalqımızın şərəfli oğullarının öldürülməsini böyük faciə və itki hesab edən Azərbaycan diasporu Vətəndə qalan qohum-əqrabalarının taleyinə biganə qala bilmirdi. Ceyhun bəy Hacıbəyli qardaşı Üzeyir Hacıbəyliyə yazdığı məktublarda hadisələrdən təəssüfləndiyini bildirirdi.

1937-38-ci ilin repressiyaları Azərbaycan xalqına qarşı düşünülmüş siyasət idi və onun ziyalıları, intellektual ehtiyatına çox böyük zərbələr vurub.

Azərbaycan vətəndaşları istər ölkə daxilində, istərsə də kənarda yaşamalarından asılı olmayaraq, müstəqillik illərindən sonra çox böyük acılar çəkən yeganə xalq idi. Bütün acılara baxmayaraq, xaricdəki azərbaycanlılar milli müqavimət hərakatını saxlanır, mübarizəni davam etdirirdilər. Azərbaycanlıların Avropa ölkələrində nəşr etdirdikləri mətbuat orqanlarında Vətəndən xəbərlər diasporda diqqətlə izlənirdi. Müxtəlif Azərbaycan cəmiyyətləri, dərnəkləri təsis olunurdu.

1934-cü ildə təsis olunan Qafqaz Konfederasiya Şurasında təmsil olunan Azərbaycan diasporu Qafqaz siyasi mühacirətilə iş birliyində idi. Azərbaycan diasporunun fəaliyyəti II Dünya müharibəsi illərində də xeyli fəal idi.

### *VDövr: 1939-1945-ci illərdə davam edən II Dünya müharibəsində azərbaycanlıların iştirakı. Əsir düşərən bir daha vətənə dönmək istəməyənlər və Azərbaycan diasporunun fəaliyyəti*

1939-cu ildə Adolf Hitlerin "ali irq və yeni ərazilərə" hakim olmaq üçün başladığı müharibədə Azərbaycan və azərbaycanlılar kənarda qalmadılar. Müharibədə azərbaycanlılar Sovet ordusu tərkibində xidmət edib və öz igidliyi, rəşadəti, cəsurluğu ilə tarixə qızıl hərflərlə düşüblər. Mehdi Hüseynzadə, Həzi Aslanov, Gəray Əsədov, İsrafil Məmmədov və yüzlərlə qəhrəmanlarımızın adı bu gün də sevinc və qürurla xatırlanır.

Ancaq müharibənin öz qanunları var. Bu müharibənin qanunlarındanbiri də hərbi əsirlər, onlarla rəftar vəonların sonrakı taleyidir. II Dünya müharibəsində Almaniya hərbi qüvvələrində azərbaycanlı legionerlərin yeri, Azərbaycan diasporunun Azərbaycan istiqlalı istiqamətində fəaliyyəti, müharibə zamanı əsir düşən azərbaycanlıların geri qayıtmaması barədə tədqiqat işləri bu gündə davam etdirilir. Bu istiqamətdə Nəsiman Yaqublunun dəyərli araşdırmaları var. Xaləddin İbrahimli, Cəmil Həsənli və bir neçə tədqiqatçıların əsərlərində II Dünya müharibəsi illərində azərbaycanlıların fəaliyyətilə bağlı məlumatlara rast gəlinir.





Nəsiman Yaqublu tədqiqatlarında Hitlerin "müsəlmanlardan istifadə" - alman imperatorlarının ənənəvi taktikasından məharətlə istifadə etdiyini qeyd edir.

1941-ci ildə artıq almanlar 2 milyondan çox sovet əsgərini əsir götürmüşdülər və onların iki yüz minə yaxını azərbaycanlı idi. Onlar digər etniklər kimi başqa bir qrupa bölünmüşlər. İlk zamanlar asiyalılara qarşı nifrət bəsləyən alman hərbçiləri azərbaycanlıları və digər türkdilli xalqlar slavyanlardan sonra "düşük" dəyərli asiyalılar kimi aşağıda dayanırdılar. Bu səbəbdən də əsirlər içərisində ən çox qətl edilən asiyalı hesab olunanlar idi. SD tərəfindən verilən xüsusi təlimat əsasında görülən işlər alman yüksək zabitləri tərəfindən pis qarşılanırdı.

İlk dəfə olaraq Nuru Paşa və general Amilat türk-tatar əsrlərindən milli legionerlər yaradaraq müharibədə almanlar tərəfindən döyüşməsi fikrin Almaniya Xarici İşlər Nazirliyində bildiriblər. İlk zamanlar bu təklif bəzi səbəblərə görə qəbul olunmadı. Sonradan almanlar Şərq nazirliyinin tərkibində müvafiq komissiyalar yaratmağa başladılar.

Bir faktı qeyd edək ki, Bakı və Batumi almanlar üçün istisna təşkil edirdi. Bu əraziləri heç kimə güzəştə getməyəcəklərini bildirən alman rəhbərliyi əsasən Bakını ələ keçirməyə çalışırdı.

Almaniya Hərbi Hava Qüvvələrinin Baş Komandanlığı Batumi-Bakı neft kəməri, Ucar, Poylu və Yevlax üzərində gizli kəşfiyyat uçuşları keçirirdi. 1942-ci il oktyabrın 1-də Şportpamestdakı çıxışında Hitler düşmənin neft mənbələrinin ələ keçirməsi və ya mənbələrlə əlaqənin kəsilməsi tapşırığını vermişdi.

Bununla əlaqəli olaraq Azərbaycan legionerlərinin yaradılması prosesi sürətlə aparılırdı və azərbaycanlılar imperiya təhlükəsizliyinin baş idarəsi RSXA-da və digər kəşfiyyat orqanlarına cəlb olunur, onlara bu istiqamətdə aparılan hərbi əməliyyatlarda iştirak etmək tapşırığı verilirdi.

Şərq Nazirliyinin tabeçiliyində komissiyaların yaradılması işinə Almaniyada və Avropada yaşayan azərbaycanlılar cəlb olunurdu.M. Ə. Rəsulzadə Azərbaycan komissiyasına rəhbərlik edirdi.

İlk azərbaycanlı əsirlər digər xalqlardan olanlarla birgə ober-leytenant Baron fon Qouberin başçılığı ilə Zaporojeye yaxınlığındakı, 444 saylı təhlükəsizlik dviziyasına birləşdirildi. Əsasən Polşada yaradılan azərbaycanlı legionerlər sonradan cəbhə bölgələrinə göndərirdilər. Onu da qeyd edək ki, 804,

805, 806, 807 saylı Azərbaycan taburlarında tək əsirlər deyil, Azərbaycan diasporunun nümayəndələri də xidmət edirdilər.

1942-ci ildə artıq alman ordusunda Azərbaycan legionerlərini sayı 70-100 min arası idi. Lakin Azərbaycan diasporu alman rəsmilərilə Azərbaycanın sonrakı taleyilə əlaqəli məsələlərdə razılığa gələ bilmirdi. M. Ə. Rəsulzadənin rəhbəri olduğu "Azərbaycan komitəsi" Almaniya xarici işlər nazirliyilə görüşündə müharibədən sonra Azərbaycanın müstəqilliyini tanımasını istədi. Lakin almanlar konkret cavab verməndiklərindən Berlini tərk edən Rəsulzadə ilə birgə Azərbaycan diasporunun bəzi hissəsi Almaniyanı dəstəkləməkdən imtina etdilər.

Almaniyanın Ankara səfirliyi vasitəsilə Frans fon Papen Türkiyədəki Azərbaycan və digər türkdilli diasporlar ilə əlaqə qurdu. Onun təklifinə etiraz olunduqdan sonra Türkiyəyə qayıdan Rəsulzadə yenə Azərbaycanın istiqlalına çalışırdı. Türkiyədə çıxışında "Azərbaycanın milli maraqlarının qorunması vətənin xilası və istiqlalı üçün mübarizə aparmaq" - sözlərini işlətmişdir.

1943-cü il noyabrın 6-da Berlində və Almaniyada milli Azərbaycan qurultayı, "ABO" adı ilə tanınan Əbdürrəhman bəy Fətəlibəyli Düdənginskinin təşəbbüsü və rəhbərliyilə keçirildi. Mühüm tarixi əhəmiyyəti kəsb edən Qurultay Almaniya ilə paralel olaraq Avropa ölkələrində yaşayan azərbaycanlıların fəaliyyətində xeyli dəyişikliklər yaratdı. Düdənginskinin rəhbər olduğu "Azərbaycan Milli Birliyi Məclisi" - diasporda və legionlarda aktiv iş aparırdı. Azərbaycanlılar AlmanTəbliğat Nazirliyinin "Vineta" - təbliğat şöbəsinin Azərbaycan radiosu vasitəsilə "Anaya məktub", "Novruzgülü", "Milli müstəqillik", "Azərbaycan uğrunda döyüşürük" - verilişlərindən ilham alırdılar. Azərbaycan "hücum", "Milli Birlik", "Azərbaycan dilli", və "Siqnal" rusdilli qəzet və jurnallar azərbaycanlı legionerlər arasında fəal təbliğat işi aparırdı.

Azərbaycan diasporunun fəaliyyəti II Dünya Müharibəsi illərində azərbaycanlı hərbi əsirlərin qətlə yetirilməsinin qarşısın almaqla yanaşı, Avropa azərbaycanlılarını Vətənin istiqlalı amalı ətrafında birləşməsinə nail oldu. Böyük uğurlardan biri də müharibədə məğlub olmasına baxmayaraq, 1945-ci ilin martın 17-də Azərbaycan dövlət müstəqilliyinin tanınması idi.

II Dünya müharibəsində müttəfiqlərin Antanta Birliyinin qələbəsi, Almaniyanın məğlubiyyəti azərbaycanlı legionerlərinin pərakəndə və tam nizamsız halda parçalanmasına səbəb oldu. Sovet əks-kəşfiyyat idarəsinin qorxusu, Vətənə qayıtdıqdan sonra keçmiş hərbi əsirlərə qarşı onların iş, amansız rəftar onların geri qayıtmamasının başlıca səbəbi idi. ABŞ-ın əsir düşərgələrində saxlanılan əsirlərin bir qismi Sovetlər Birliyinə təhvil verildi, qalanları Avstriya, Fransa, Türkiyə, İordaniya, İraq, Avstraliya, İsveçrə, İtaliya, İspaniya, Argentina, Çin, Cənubi Amerika və Birləşmiş Ştatlara pərakəndə halda mühacirət etməli oldular. Bu şəxslərin cüzi bir hissəsini istisnaetməklə, qalanları tamamilə qapalı bir həyat yaşamağa, gizlətməyə və passiv fəaliyyət aparmağa məcbur olmuşlar. Bu səbəbdən də onlar özlərindən sonra yeni bir azərbaycanlı mühacir nəslin yarada bilmədilər.





### *VI Dövr: II Dünya müharibəsindən sonra 1988-ci ilə qədərki dövrdə Azərbaycan diasporu*

İlk zamanlar azərbaycanlılar Avropa ölkələrində ciddi problemlərlə üzüzə qalmalı olurdular. Çox zaman onlara təzyiqlər edilir, çalışdıqları, yaşadıqları yerlərdə sıxışdırırdılar. Onların hüquqları 1951-ci il 8 fevral ABŞ-da yaradılan Amerika Komitəsi (sonradan Amerikada Rusiya xalqlarının Qurtuluş Komitəsi) tərəfindən qorunmağa başlandı. Stalin rejiminin alman əsirliyində olanlara qarşı kəskin münasibət, sərt mövqeyi səbəbilə Vətənlə əlaqə saxlamaqdan çəkinən azərbaycanlıların çox hissəsi Vətən həsrəti, ailələrindən uzaq yaşamaları səbəbilə özlərindən sonra azərbaycançılıq dəyərlərinin və milli əlaqələrin saxlayıb inkişaf etdirməli olan fiziki, cismani mənada milli sərvətlər qoya bilmədilər.

1952-ci il sentyabrın 12-19-u arası Almaniyanın Ştarnberq və Münhen şəhərlərində Azərbaycan konfransında Türkiyə, İran, Fransa, Avstriya və Almaniyadan olan azərbaycanlılar «Azərbaycanlıların Milli Məclisi» adlanan milli birlik yaratdılar.

Visabeden konfransı Amerika komitəsinin razılığı və Karenskinin diktəsi ilə keçirilməsində əsas məqsədi milli iqtisadiyyət məsələlərinə beynəlxalq aləmdə xələl gətirmək idi. Azərbaycan diasporunun nümayəndələri təşkilatları bəyanat verərək Visabeden konfransının qanuniliyini və qərarların tanınmadığını bildirməsi disporumuzun uğurlarından biri kimi tarixə düşüb. Azərbaycan disporu prinsipial məsələlərdə sərt və düzgün mövqeyilə seçilirdi.

Azərbaycanlıların həmrəyliyi və ruh yüksəkliyinin qaldırılmasında 1953-cü il mayın 6-da Münhendə «Azadlıq» radiosunun «Azərbaycan şöbəsi»nin fəaliyyətə başlaması mühüm rol oynayırdı. Fətəlibəyli Düdənginsiknin ilk redaktoru olduğu radionun «Azərbaycan şöbəsi» - Avropada və Amerikada yaşayan azərbaycanlılar arasında böyük ruh yüksəkliyi yaratdı. Sovetlər Birliyindən xəbərlər verən radio Azərbaycan musiqiləri xəbərləri, ədəbi-mədəni proqramları ilə qısa zaman ərzində Azərbaycan diasporunda sevildi.

Radioda Fətəlibəylinin *«Azərbaycanı əsrlər boyu azərbaycanlılar idarə etmişlər və bundan sonra da idarə etməlidirlər. Ana torpağı rus imperiyasının boyunduruğundan azad etmək lazımdır»* - sözləri təkrar-təkrar verilirdi.

Sovet Təhlükəsizlik Orqanları tərəfindən Fətəlibəylinin qətl etdirilməsi Azərbaycan diasporuna vurulan ağır zərbə idi. Bu qətldən sonra Azərbaycan diasporu zamanla siyasi fəaliyyəti passivləşdirərək mədəni-ədəbi tədbirlərə başladı. Mətbuata Azərbaycanın elm və mədəniyyətinin təbliğat işinə diqqət

artdı. Xüsusilə Türkiyə və Cənubi Azərbaycandan olan soydaşlarımızın mühacirəti hesabına Azərbaycan diasporunun Avropa və Amerikadakı tərkibi genişlənirdi.

Azərbaycanın özündə də yaşayan azərbaycanlılarla əlaqələr müxtəlif vasitələrlə qurulurdu. «Azadlıq» radiosunun «Azərbaycan şöbəsi»-nın arxivlərində müharibədən sonra bura gələn onlarla məktub saxlanılır. Ancaqsovet üsul-idarəsinin qayda-qanunlarının sərtliyi səbəbilə bu məktubsahiblərinin təhlükəsizliyi səbəbilə adları dəyişdirilmiş və çoxlarının adları silinmişdir.

1946-cı ildə isə Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti təsis olundu. 1960-cı ildə «Vətən səsi» adlı qəzet nəşr edən cəmiyyət qəzeti sonradan ərəb, kirill və latın əlifbası ilə 1982-ci ildən, «Odlar yurdu» adlı ilə çap etməyə başladı. «Odlar yurdu» -xarici ölkələrdə yerləşən Azərbaycan cəmiyyətlərinə göndərilirdi. DTK- nın nəzarətialtında həyata keçirilən bu işlərin siyasi təbliğat səpkili olmasına baxmayaraq, müəyyən mənada Azərbaycan diasporunun karına gəlirdi. «Bakı» və «Baku» qəzetləri redaksiyasının nəzdində buraxılan «Vətənin qəzeti» sonradan «Odlar Yurdu» - Sovet təsiri hiss olunmasına baxmayaraq, diasporumuzun müəyyən hissəsiləəlaqədar yarana bilinmişdi. Bunun sayəsində onlarlasoydaşımız Vətənə geri dönmə bildilər.

Bu dövrdə hazırda Rusiya və keçmiş Sovetlər Birliyi dövlətlərində diasporumuzun təməlini qoyan mühacirət prosesi başlandı. Qazaxıstanda xam torpaqların istifadəyə verilməsi Baykal-Amur magistralının çəkilişi, Volqaboyu, Tümen və digər ərazilərdə neft yataqlarının istismarı və sair səbəblərlə bağlı olan azərbaycanlılarınmühacirəti II Bakı, III Bakı, IV Bakı kimi anlayışların yaranmasına səbəb olub.

Bu işlərə-paralel olaraq xaricdəki Azərbaycandiasporu ilə əlaqələr qurulması işi aparılırdı. 1974-75 -ci illərdə Fransa, İtaliya, Danimarka, Portuqaliyada Azərbaycan Mədəniyyət Günləri keçirən Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti«Sovet Azərbaycanı bu gün» adlıbülleteni rus, ingilis, ərəb, fars dillərində nəşr edərək yayırdı. Azərbaycan mədəni əlaqələri Şərq ölkələri ilə də qurulurdu. Xüsusən İraqda 1973- cü ildə Bağdad yarmarkasında Sovetlər BirliyiniAzərbaycanın təmsiletməsi burada yaşayan minlərlə soydaşımızın həyatında yaddaqalan iz qoydu.

Bu illərdə Türkiyə, Almaniya, Fransa, Amerika və s. ölkələrdəkiAzərbaycanlılar mədəni və əbədi irsimizi layiqincə təbliğ edir. Mətbuat orqanlarında tez-tez çıxışlar edirdilər. 1960-70-ci illərdə Cənubi Azərbaycandan gənc intellektual nəslin təhsil və təkmilləşmə və Türkiyədəki azərbaycanlılarıniqtisadi vəziyyətlə əlaqəsi mühacirət prosesi Azərbaycan diasporunun fəaliyyətinə təsirini göstərirdi. 1979-cu ilİran islam inqilabından sonra kütləvi şəkil alan azərbaycanlıların mühacirəti diasporda müzakirə olunan əsas məsələlərdən





idi. Türkiyə, Almaniya, İsveç, Amerika kimi ölkələrdə çoxsaylı məskunlaşan cənubi mühacirlər İslam rejimi tərəfindən onların pozulan hüquqlarının müdafiəsi və tanınmasını beynəlxalq birlikdən tələb edirdilər. 80-ci illərin əvvəllərindən başlayaraqAzərbaycan diasporu ilə əlaqələrini gücləndirən «Vətən» Cəmiyyəti, eyni zamanda tanınmış azərbaycanşünaslarlaintensiv münasibətdə idi. Xaricdəki soydaşlarımızla Azərbaycanın tanınmış alimləri mədəniyyətvə incəsənət xadimləri,ədəbiyyatşünaslar və şairlərlə görüşlərini təşkil edən «Vətən» Cəmiyyəti xaricdəkilərləAzərbaycanda yaşayan qohumlar arasında körpü rolunu oynayırdı.

1986-1992-ci illərdə «Vətən» Cəmiyyəti müxtəlif xarici ölkələrdə 50-dək Azərbaycan mədəniyyətmərkəzi, dərnək, ocaq, əncümən və cəmiyyətləryaratmışdır. Bu sahədə «Yurddaş», «Bakılı», «Sodrujestvo», iş aparıb.

Adları çəkilən qurumlar fəaliyyətimüddətində ciddi olmasada müəyyən informasiya və mədəni xarakterli məlumatlar toplamış, qarşılıqlı əlaqələrin yaranmasında köməklikgöstərmişdi. Artıq bu dövrdə Sovetlər Birliyində yenidənqurma siyasətinin uğursuzluğusəbəbilə Azərbaycan diasporu ilə münasibətində yeni mərhələ başlandı. 80-ci illərin ortalarından başlayaraq dünyanın «qüdrətli dövləti» hesab olunan Sovetlər Birliyi dərin ictimai-siyasi böhrana düçar oldu. Birliyi daxil olan respublikalarda, Azərbaycan daxil olmaqla müstəqilik uğrunda mübarizəyə başladı.

1987-ci il 2 noyabr Parisdə erməni institutunda «akademik» Abel Aqanbekyanın «torpağın ermənilərə verilməsi» çıxışı, Azərbaycana qarşı işğalçı siyasətin, Ermənistan tərəfindən yeridilməsinə təkan verdi. Sovet rəhbərliyinin ermənipərəst mövqeyi Qanlı müharibənin erməni diaspor və lobbisinin həm döyüşbölgəsində, həm də siyasi arenada cəbhə açmasınasəbəb oldu.

Bu cür proseslərin başlanması20 Yanvarhadisələrinin təşkilatçısı olan ermənilər və rusların törətdiyi qanlı olay Azərbaycan diasporunda nifrət və kədər hissi ilə qarşılandı. Vətənə əlaqələrini gücləndirən dünya azərbaycanlıları ölkəmizə humanitar yardımlar göstərməyə başladılar.

1990-cı ilin iyun ayında, Çexo-Savakiyanın paytaxtı Praqada və ondan bir ay sonra Londonda«Cəmiyyət və Zaqafqaziya tarixi»beynəlxalq konfranslarda iştirak edənAzərbaycan nümayəndə heyətləri ilə görüşən Azərbaycan diasporunun nümayəndələri öz köməklərin əsirgəməyiblər.

1987- ci ildən başlanan Azərbaycanın düçar olduğubəlaların 1988, 1989, 1990-cı il hadisələri xaricdə yaşayan azərbaycanlıları böyük narahatçılıq hissi doğurmuş, onların fəaliyyətində canlanmayaratmışdır. Azərbaycanın haqq işinin dəstəklənməsi işində fəallıqlarını artıran soydaşlarımız qismən də olsa lobbiçilik etməyə başlamış, dərnəklər, təşkilatların fəaliyyətprinsiplərində dəyişikliklər etməli olublar.

1989-cu ilin 31 dekabrda İstanbulda ilk dəfə keçirilən Ümumdünya Azərbaycanlılar Konqresi və 1990-cı ildə Türk DünyasıAraşdırmalar Vəqfinin

təşəbbüsüylə Kayseridə I Millətlərarası Böyük Azərbaycan Konqresi azərbaycanlıların həmrəyliyi istiqamətində mühüm addım idi. Ancaq təbliğat işinin zəif olması səbəbilə bu iki mühüm barədə çox az məlumatlar var. Buna baxmayaraqtədbir iştirakçılarıbir sıra beynəlxalq birliklərə müraciətlər qəbul etmişdir. Tədbirlərdə işin hər hansı bir günün həmrəylikgünü kimi keçirilməsi məsələsi müzakirə olunmuşdur və çoxgüman ki, ilk tədbirin 31 dekabr 1989-cu ildə keçirilməsinin də böyük rolu gələcək həmrəylikgünü kimi məhz bu günün keçirilməsinə səbəb olub.

Dünya azərbaycanlıların həmrəylik tarixində digər mühüm bir hadisə İstanbuldakı «AzərbaycanKültür və Dayanışma Dərnəyinin» sədri Nihat Çətinqayanın təşkilatçılığı ilə 1990-cı ilnoyabr 3-dən 6-dək bu şəhərdə Azərbaycan Mədəniyyət Mərkəzlərinin Birinci Qurultayınınkeçirilməsidi. İngiltərə, Fransa, İsveç, Norveç, İspaniya, Estoniya, Almaniya, Azərbaycan və digərölkələrdən olan nümayəndələrinin iştirakı ilə Qurultay yüksək səviyyədə keçirildi. Qurultayın mühüm işlərindən biri respublikada baş verən hadisələrin obyektiv və operativ surətdə dünyaya çatdırmaq, azərbaycanlılar arasında əlaqənin gücləndirilməsi məqsədilə əlaqələndirmə şurası «Dünya Azərbaycan-Türk Dərnəkləri Birliyi» nin nizamnaməsinin qəbul olunması oldu. Qurultaynümayəndələri Ayaz Mütəllibov, Azərbaycan SSRİ-nin Ali Soveti, İran prezidenti Haşimi Rəfsəncaniyə, SSRİ Mk katibi M.S. Qorbaçova, Beynəlxalq Səhiyyə və Yardım QurumlarınaBeynəlxalq Əf Komitəsi, BMT -nin baş katibi Perez de Siaseriyə, Dünya Azərbaycanlılarına və Türkiyə Cümhurbaşkanı Yıldırım Akbuluta müraciət etmişdir.

Qurultayın gəldiyi qərarlar içərisinə Bakıda «Həmvətənlərimiz» adlanan muzeyin yaradılması, informasiya işinin gücləndirilməsi, Azərbaycan təşkilatlarının bir mərkəz ətrafında birləşdirilməsi, konqresin işçi qrupunun yaradılaraq azərbaycanlılar və təşkilatlar barədə sorğu kitabının hazırlanması, Qarabağ məsələsində lobbiçilik etmək, beynəlxalq təşkilatlara mütəmadi müraciətlər edilməsi,Azərbaycandakıbacı və qardaşlara humanitar yardım göstərilməsi və s. məsələlər daxil idi.

İstanbul QurultayıDünya diaspor formalaşdıraraq təşkilatlanması və siyasi iş aparmalarına təkan oldu.

1991-ci ilin yanvarında Azərbaycan Respublikası NazirlərKabinenti ayrı-ayrı respublikalarda formalaşaran azərbaycanlılarla əlaqələri möhkəmləndirmək, millimədəniyyətin, doğma dilin və ənənələrin inkişafında onlarakömək göstərməkləri haqqında qərar qəbul etmişdir. Bunun ardınca həminil mart ayının 28-dən 30-dək Bakışəhərində Mədəniyyət Nazirliyinin xəttilə Azərbaycan Mədəni Cəmiyyətlərin sədrlərinin iştirakı iləseminar-müşavirə keçirilməsi Dövlət-Diaspor münasibəti istiqamətində ciddi addımlar idi.





Artıq bu dövrdə Avropa və Amerikanınbir sıra şəhərlərində azərbaycanlıların qurultayı, beynəlxalq konfranslar, mədəni və ədəbi tədbirlər keçirilmişdir.

Belə şəraitdə yeni dünya düzəniuğrunda aparılan işlərin məntiqi sonluğu olan cahanşümul hadisə baş verdi. Sovetlər Birliyikimi nəhəng imperiya daxilindən və xaricdən edilən təsirlərin nəticəsində dağıldı. Dünya birliyi yeni müstəqil olan dövlətlər hesabınazənginləşdi. Müasir tarixin böyük və önəmli hadisələrindən biri olan imperyanın dağılması beynəlxalq münasibətlə sistemində təsirsiz qalmamış, dövlətlərarası münasibətlərə yeni məzmum və forma gətirmişdir.

### *VII Dövr: Müsətqillik əldə edildikdən sonra Azərbaycan diasporunun fəaliyəti*

1991-ci il 18oktyabr Azərbaycan Dövlət Müstəqilliyinin elan edilməsi bütün dünyaazərbaycanlılarının böyük sevincinə səbəb oldu. Azərbaycanın istiqlalı, Respublikanı dünyanın bərabərhüquqlu üzvü etdi. Yenicə müsətəqillik əldə edən dövlətAzərbaycan diasporu iləciddi, sıx və qarşılıqlı faydalı əlaqələr qurmaq istiqamətində mühümolan addımlar atmağa başladı. Müasir beynəlxalqmünasibətlər sisteminin tərkib hissəsi kimi Azərbaycan Respublikası busistemdə mövcud siyasi dəyərləriqavramaqla müxtəlif istiqamətlərdə fəal işə qoşuldu.

Xüsusən, Azərbaycan diasporuna dövlət və ictimai səviyyədə diqqət artdı. Xaricdəyaşayan soydaşlarımızın problemləri, hüquqi müdafiəsi, təşkilatlanması barədə KİV orqanlarında dərc olunan məqalələr, kitablar, TV verilişlərin sayı çoxaldı. Azərbaycan diasporunun ali və elmi müəssisələrdədərindən öyrənilməsi prosesi başlandı. Lobbiçilik anlayışı yarandı. Respublikada həyatda keçirilən iqtisadi və dövlət quruculuğu işində ölkə daxilində yaşayan Azərbaycanlılarla paralel olaraq xaricdə yaşayan soydaşlarımızın yaxından iştirakı üçün zəmin yarandı. 1991-ci ilin 16 dekabrında Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə hər ilin 31 dekabrtarixini Dünya Azərbaycanlılarının həmrəylikgünü kimi keçirilməsi fərmanının dekabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının təstiqlənməsi Dünya azərbaycanlıları ilə qurulan körpək əlaqələr istiqamətində mühüm addım oldu.

Bu fərmanın qəbul olunması Azərbaycan diasporu tərəfindən rəğbətlə qarşılanmasını biz ildən-ilə 31 dekabrın böyük təntənə ilə dünyanın müxtəlif bölgələrində keçirilməsində görə bilərik.

Dünya azərbaycanlılarının həmrəylik günün 31 dekabra təyin olunmasının ilin son günündəazərbaycanlıların toplanması gələcək iş və perspektivlər barədə müzakirəaparılması gələcək işlərin planlaşdırılması, köhnə işlərin hesabatının verilməsi və digər məqsədlər daşıyır. Milli maraqlar Azərbaycan

diasporunun birləşməsi, təşkilatlanması, beynəlxalq birlikdə mövqeyin möhkəmləndirilməsi dövlətçilik baxımından tarixiəhəmiyyətə malik olan fərman Dünya azərbaycanlılarınınpərakəndəvə dağınıq, bir-birindən xəbərsizyaşamaları kimi problemləri oradan aradan götürülməsində mühüm rol oynayırdı.

Diasporla iş istiqamətində, onun təşəkkülü və formalaşması üçün müxtəlif tədbirlər planı hazırlandı. Ancaq müəyyən problemlər, Ermənistanın təcavüzkar siyasəti, ölkə daxili siyasi-iqtisadi proseslər səbəbilə tədbirlər planı ləng halda həyata keçirilirdi. Xarici ölkələrə səfərlər edən mərhumprezident Heydər Əliyev vaxtının müəyyən hissəsinin həmin dövlətlərdə yaşayan soydaşlarla görüşə ayırırdı. Fransa, ABŞ, İsveç, Rusiya, Türkiyə, Ukrayna, Böyük Britaniya, Almaniya, Orta Asiya Respublikaları və digər dövlətlərdə yaşayan azərbaycanlılarla apardığı danışıqlar, keçirdiyigörüşlərdə onların Vətənlə intensivvə daimi əlaqə saxlamağı tövsiyə edən ümumilli lider Heydər Əliyev cənabları milli köklərimizin, milli mənsubiyyətimizin qorunub saxlanmasını vəzifə kimi onların qarşısında qoyub.

Zamanla aparılan işlər öz bəhrəsini verirdi. Vətənə mütamadigəlməyəbaşlayan azərbaycanlılarölkənin iqtisadi inkişafındarolllarını artırmağa başladılar. Ali təhsil müəssisələrində oxuyan diaspor nümayəndələrimizin sayı artı. Ölkəiqtisadiyyatınainvestisiyaaxını başlanmaqla, lobbiçilik strukturunu xaricdəformalaşdırmağabaşlandı.

31 dekabr eyni zamanda dünya azərbaycanlılarının malik olduğu güclü milli enerjinin realizə edilməsinə stimul verdi. Azərbaycançılıq ideologiyasının təbliğ olunmasınageniş imaknlar yarandı.

1993-1994 cü ildən sonra Azərbaycanda diaspor mövzusu prioritet mövqeyə qalxırdı. Artıq Birləşmiş Ştatlar, Fransa, Almaniya, Rusiya, Belçika, Böyük Biritaniya, Skandinav, ölkələri və digər bölgələrdə yaşayan azərbaycanlılartəşkilatlanma prosesin keçərkən ölkənin xarici siyasi kursunun həyata keçirilməsində müəyyən rol oynayırdılar. Etiraz aksiyaları, piket, mitinqlər keçirilir, məktub və informasiyatəbliğatı işində canlama hiss olunurdu. Təşkilatı strukturamalik olan birliklərin yaranması zəruri ortaya çıxdı. Bu dövrdən etibarən diasporla məşğul olan müxtəlifqeyri- hökumət təşkilatları, dostluq cəmiyyətlir, mədəni qurumlar yaranması prosesi gücləndi. İşlər pərakəndə və kortəbii olsada aparılırdı. Xariciölkələrdəki daimi nümayəndələrimizin də diasporla intensiv əlaqələr qurur, əldə etdiyi məlumatlarla Azərbaycanda olan informasiyaboşluğunu doldurmağa səy göstərirdi.

1996- cı ildən isə xaricdəki diaspor təşkilatının pərakəndəliyinin ortadan götürülməsi istiqamətində uğurlu addım atıldı. 1997-ci ilin iyun ayının 27- dən 29 -dək ABŞ -da keçirilən Dünya Azərbaycanlılarının Konqresimühüm tarixiəhəmiyyətə malik idi. Birinci konqres dünya azərbaycanlılarının birləşməsi təşkilatların vahid mərkəzdən idarəolunması üçün təşkilatı struktur kimi formalaşdı. Konqresin idarəheyəti rəhbəri, müxtəlif dövlətlərdə təşkilatı struktur kimi formalaşdı. Konqresin idarə heyəti rəhbəri, müxtəlif dövlətlərdə nümayəndəlikləri təyin olundu. Konqresdə Şimali və Cənubi Azərbaycanın problemləri bərabər səviyyədə götürüldü. Konqresin keçirilməsinə əngəllik törətmək istəyən erməni və fars diasporları məqsədlərinə nail ola bilmədilər. Bütün problemlərə baxmayaraq 660-dən çox nümayəndənin iştirakı ilə keçirilən konqres siyasifəaliyyətin mühüm qolu olan lobbiçilik mexanizminin işlənib hazırlanmasını məqsəd kimi qarşıya qoydu.





Bu dövrdən ənənəvi xarakter alan dünya azərbaycanlılarının tədbirləri hər il keçirilməyə başlandı. Qurulduğu ilk gündən aktiv fəaliyyətilə seçilən DAK imkanı çərçivəsində BMT, ATƏT,Avropa Şurası, Avropa Birliyi, nüfuzlu dövlətləri parlamentlərinə, xarici işlər nazirlikləriIə tanınmış ictimai-siyasi xidmətlərə və beynəlxalq ictimaiyyətə çatdırmağa başladı. İlk işlərdən biz «Azadlığı Müdafiə Aktı və ona 907-ci əlavənin» ədalətsizliyi, Dağlıq Qarabağ və Cənubi Azərbaycanda gedən proseslər tarixi və kütləvi informasiya vasitələrində qorua daxil olan şəxslərin yazılarını və çıxışlarında, keçirilən etiraz tədbirlərində görə bilərik.

1998-ci il mayın 30-31-də Vaşinqton, 1999-cu ilin 2-3 oktyabrında Almaniyanın Köln, 2000-ci ilin 21-22 oktyabr Fransanın Strasburq və 2001-ci ilin 10-12 avqustunda İsveçin Malmö şəhərlərində keçirilən DAK-ın növbəti konqresləri ildən-ilə iştirakçılarının sayı, ictimai-siyasi fəaliyyət baxımdan seçilirdi. Azərbaycanın rəsmi dairələrinin də iştirakı ilə keçirilən DAK-ın 2001-di ilə qədər konqreslərdə Dağlıq Qarabağ məsələsi, Bütöv Azərabycan, Azərbaycanın haqq işini dəstəklənməsi və digər məsələlər müzakirə olunmuşdur.

DAK-ın fəaliyyətində diqqət çəkən məqam üzvülər arasında intensiv əlaqənin müasir texnoloji vasitələrlə aparılmasıdır. Üzvlər arasında əlaqə qurmaq üçün elektron poçt qrupu yaradan DAK rəhbərliyi www.azerbaijanis congress.com - saytı yaratmışdır. Bu saytın Azərbaycan disporunun barəsində təhqiqat aparmaq və yeni əlaqələr qurmaq üçün rolu böyükdür.

DAK-ın beynəlxalq ictimai qurum kimi fəaliyyəti, Azərbaycan diasporunun inkişafında müəyyən rolu danılmazdır. Ancaq bütün bunlara baxmayaraq, DAK-da fikir ayrılıqları konqreslərin gedişində də hiss olunmuşdur. Müxalifət, iqtidar, İran meylli, müstəqil fəaliyyət tərəfdarları tendensiyaları DAK-da özünü göstərməkdədir. DAK-ın antidemokratik və bütünlükdə Azərbaycan disporu adından danışmaqla ittiham edən fikirlər səbəbilə konqresin görüşlərin də bir sıra diaspor təşkilatları iştirakdan imtina etmişdilər.

Bu fikir dəstəkləyən şəxslər DAK adının böyük və beynəlxalq əhəmiyyət daşıdığını qeyd edərək, "Dünya Azərbaycanlıları Ocağı" və "Ürəyi Yanan Azərbaycanlılar" adının daha məntiqli olduğunu bildirirlər. DAK-ın lazımı səviyyədə dünya azərbaycanlılarını təmsil etməməkdə günahlandıran fikirlər DAK-da dəyişikliklər edilməsini tələb edirlər.

Dünya Azərbaycanlıları Konqresi Əsasnaməsində qurumun təşkilatı quruluşu, məqsəd və vəzifələri qeyd olunur. Əsasnamədə diqqəti çəkən əsas məsələlər aşağıdakılardır.

1. **Ümumi müddəalar:**

- Dünya Azərbaycanlıları Konqresi Ana Vətən Azərbaycanda və ondan kənarda yaşayan 40 milyon Azərbaycan türkünün toplum haqlarını və insan haqlarını qorumaq uğrunda mübarizə aparan müstəqil beynəlxalq ictimai təşkilatdır.
- DAK öz fəaliyyətin güneyli-güzeyli Ana Vətən Azərbaycanda, həmçinin azərbaycanlıların yaşadığı digər ölkələrdə həyata keçirir və onun işində dünyanın bütün azərbaycanlalır iştirak edir.

2. **Məqsəd və və vəzifələri:**

- Güney Azərbaycana gönəli: İnsan haqlarının aliliyi prinsipindən çıxış edərək İranın müstəmləkə əsarəti altında yaşayan otuz milyondan artıq Güney Azərbaycan türkünün beynəlxalq norma və prinsiplərinə uyğun mədəni, iqtisadi, ictimai və siyasi haqları uğrunda mübarizə aparmaq, Güney Azərbaycanda bu mübarizəni aparan insanlarla, təşkilatlarla həmrəy olub, onları dəstəkləmək;
- Quzey Azərbaycana yönəli: Azərbaycana Cümhuriyyətinin dövlət müstəqilliyini və milli dövlət quruculuğunu dəstəkləmək;
- Azərbaycana Cümhuriyyətinin hərtərəfli inkişafı yüksəlişi və qüdrətlənməsi üçün əldən gələn yardımı göstərmək;
- Xaricdə yaşayan azərbaycanlılara yönəli: - siyasi, iqtisadi və digər səbəblərdən Avropanın, Asiyanın, Amerikanın çeşidli ölkələrinə və ayrı-ayrı şəhərlərinə səpələnmiş soydaşlarımızın Azərbaycan naminə fəallaşmalarına və yaşadıqları hər bir şəhərdə, hər bir ölkədə təşkilatlanmalarına çalışmaq;
- Yaşadıqları ölkələrlə Ana Vətən Azərbaycan arasında körpü rolu oynamaq və onun mədəniyyətini xarici ölkələrlə tanıtmaq, həmçinin bu ölkələrin mədəniyyətini Azərbaycanda tanıtmaq və s.

Əsasnamədən göründüyü kimi DAK-ın fəaliyyət prinsipləri və təşkilatın strukturu qurumun geniş miqyaslı iş aparılmasına zəmin yaradır.

1991-2001-ci illər arası Azərbaycan diasporunun fəaliyyətinə baxsaq müsbət işlərin aparılmasını görə bilərik. Mühüm strateji əhəmiyyətə malik olan diaspor probleminin həlli yolları dövlətin daimi maraq altında olmasını rəsmi şəxslərin konfrans, seminar və müxtəlif səpkili görüşlərində etdiyi çıxışlar, verdiyi müsahibələrdə şahidi oluruq. Dövlət səviyyəsində tarixi əhmiyyətə malik olan 23 may 2001-ci il fərmanını imzalanması Dövlət-Dispor münasibətələrinin inkişafı və möhkəmləndirilməsi istiqamətində mühüm addım idi.





23 may 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 724 saylı sərəncamının imzalanması Azərbaycan dövlətinin qarşısında disporun mühüm rolunun olduğunu göstərən bariz nümunədir.

Xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyi və həmrəyliyi təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsilə bağlı məsələlərin müzakirə edilməsi zərurətindən irəli gələn Sərəncama uyğun olaraq 9-10 noyabı 2001-ci ildə Bakı şəhərində Dünya azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultay Azərbaycan tarixində bu səbəbdən müstəsna əhəmiyyətə malik olan bir hadisədir.

Qurultayın gedişində «Dünya Azərbaycanlılarının I qurultayının qətnaməsi», «Dünya azərbaycanlılarının I Qurultayı nümayəndələrinin Azərbaycan Respublikası prezidenti cənab Heydər Əliyevə müraciəti», «Dünya azərbaycanlılarının I Qurultayı nümayəndələrinin Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ problemi ilə əlaqədar Dünya ictimaiyyətilə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parametrlərinə müraciəti», «Dünya Azərbaycanlılarının I Qurultayı nümayəndələrinin 2001-ci il sentyabrın 11-də. Amerika Birləşmiş Ştatlarında törədilmiş qanlı terror hadisələrilə bağlı Amerika xalqına müraciəti» adlı sənədlər qəbul edir. Qurultay 102 nəfərdən ibarət Dünya azərbaycanlılarının əlaqələndirmə şurasının və onun 23 nəfərdən ibarət idarə heyətini, idarə heyətinin sədrini seçdi.

Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan diasporunun keyfiyyətcə yeni mərhələyə çıxartdı. Bu tədbir sözdən işəkeçilməsi işi kimi daha əhəmiyyətlidir. Burada Azərbaycan diasporu, Azərbaycan Dövlət əlaqələri Dünya azərbaycanlıları və onların milli birliyi, soydaşlarımızın qüvvəsinin və diqqətinin Azərbaycan dövlətinə yönəldilməsi kimi vacib problemlərin həm nəzəri, həm də əməli tərəfləri ilə bağlı bir çox məsələlər həll edildi. Dünya azərbaycanlıları özlərinin I Qurultayı ilə böyük bir işin bünövrəsini qoydu. Bu tədbir milli birlik forumunun bütün detallarını işləyib hazırladı:

102 nəfərdən ibarət Əlaqələndirmə Şurasının yaradılması da Qurultayın mühüm nəticələrindən biri idi. 56 nəfəri Azərbaycan Respublikasını elm, dövlət, siyasət və mədəniyyət xadimləri, 46 nəfər isə 31 ölkənin nümayəndəsidir. Diasporumuzun bütün təbəqələrini əhatə edən 46 nəfər Avropa, Asiya, Amerika və Avstraliyadan Qurultayda iştirak edən şəxslərdi. Əlaqələndirmə Şurasının nizamnaməsinəuyğun olaraqqurum qarşısında əsasən aşağıdakı məqsəd və vəzifələr qoyulub.

1. **Ümumi müddəalar:**

- Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası hüquqi və fiziki şəxslərin bütün formasında təsis edilmiş beynəlxalq ictimai birlikdir;

- Şura nəzərdə tutulan fəaliyyətin Azərbaycan Respublikasında və azərbaycanlıların məskunlaşdıqları müxtəlif ölkələrdə həyata keçirir və bu istiqamətdə görülən işlərdə bütün Dünya azərbaycanlılarının iştirakını təmin edir.

2. **Məqsəd və vəzifələr:**

- Xaricdə yaşayan azərbaycanlıların məskunlaşdıqları ölkələrdə onların hüquqlarının müdafiəsi və hüquqi maariflənməsi istiqamətində tədbirlər görmək;
- Xaricdə yaşayan azərbaycanlılar arasında azərbaycançılıq ideologiyasını təbliğ etmək, onların doğma vətənlə əlaqələrini hərtərəfli inkişaf etdirmək;
- Ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən Azərbaycan icmalarının təşkilatlanması, səmərəliyinin birləşdirilməsi, onların fəaliyyətinə məqsədyönlü xarakter verilməsi yolunda iş aparmaq və s.

Əlaqələndirmə Şurasının nizamnaməsindən göründüyü kimi qurumun səlahiyyətlərinə diasporumuzla intensiv əlaqə yaratmaq daxildir. Qurultaydan sonra Azərbaycan diasporunda fəaliyyət canlanması artmağa başladı. Artıq diasporumuz beynəlxalq ictimaiyyətdə öz sözün inamla deməyi qarşısına məqsəd kimi qoyurdu. Amerika,Belçika,İngiltərə, Rusiya, Türkiyə və digər ölkələrdə soydaşlarımız Azərbaycanın haqq səsini KİV orqanları ilə yanaşıqanunverici orqanlarda müdafiə etməklə dəstəkləməyə ciddi fikir verməyə başladılar.

Bu istiqamətdə işlərin daha yüksək səviyyədə aparılmasının məntiqi davamı olaraq Azərbaycan Respublikasının prezidentinin 2002-ci il 5 iyun tarixli 730 saylı fərmanına uyğun olaraq Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi yaradıldı. Dövlət Komitəsinin yaradılması Azərbaycan dövləti ilə xaricdə yaşayan azərbaycanlılar arasında münasibətlər, əməkdaşlıqda yeni mərhələ başlandı. Komponent bir qurum olan Dövlət Komtəsi yarandığı gündən fəal işə başlaması bir sıra tədbirlərin və işlərin həyata keçirilməsi ilə müşahidə olundu.

Dövlət Komitəsi Belarusiya və Özbəkistandakı diaspor təşkilatlarını federasiya, konqres və assosiasiyalar halında birləşdirilməsinə nail olduqdan sonra bu istiqamətdə işi azərbaycanlılarınməskunlaşdıqları başqa ölkələrdə davam etdirir. Komitənin əsasnaməsində nəzərdə tutulan işlər və qurumun səlahiyyətlərinə əsasən aşağıdakılar aiddir:

1. **Ümumi müddəalar**.

- Komitə xaricdə yaşayan azərbaycanlılarla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini, onlarla əlaqələrin genişləndirilməsini və inkişaf etdirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır;





- Komitə öz fəaliyyətinin digər mərkəzi və yerli icra hakimiyyəti orqanları, bələdiyyə orqanları, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri, xaricdə yaşayan azərbaycanlılarla iş aparmaq qeyri-hökumət təşkilatları, eləcə dəfiziki şəxslərlə əlaqəli şəkildə həyata keçirir;

2.**Məqsəd və vəzifələr:**

- Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına Azərbaycan Respublikasının tərfdar çıxdığı benəlxaq müqavilələrə və Azərbaycan Respublikasının qanunvericiliyən uyğun olaraq, habelə müvafiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının qorunmasına onların öz milli varlığını yaşatmasına və inkişaf etdirilməsinə, ana dilinin öyrənilməsinə və tətbiqinin genişləndirilməsinə göməklik göstərmək;
- Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının dövlət orqanları, eləcə də qeyri-hökumət təşkilatları ilə sıx əlaqələr qurmasına və inkişaf etdirilməsinə, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatında həqiqi informasiya alınmasına şərait yaratmaq;
- Xaricdə yaşayan azərbaycanlıların bir-birilə əlaqə yaratmasına, təşkilatlanması işinə dəstək vermək, yaradılan ictimai-mədəni və digər birliklərin Azərbaycan Respublikası ilə əlaqələrinə köməklik göstərmək;
- Azərbaycan Respublikasının beynəlxalq aləmdə təbliğ olunması və mənafelərinin müdafiəsi işində Azərbaycana ənənəvi müsbət münasibəti olan diasporların imkanlarından istifadə etmək və s.

Dövlət Komitəsinin əsasnaməsindən göründüyü kimi, Azərbaycan diasporu ilə münasibət dövlət səviyyəsində beynəlxalq hüquq normaları çərçivəsində aparılır.

Bütün keçilən tədbirlər, görülən işlər, nəzərdə tutulan məqsədlər Azərbaycan diasporunun təkmilləşməsilə, güclənməsilə, lobbiçi cəmiyyətin dəstəklənməsi işləri daha yüksək və hüquqi səviyyədə aparılması istiqamətində, xüsusi dövlət qanununun qəbul edilməsi mühüm tarixi sənəd oldu.

Azərbaycan Respublikasının mərhum prezidenti Heydər Əliyevin 21 fevral 2003-cü il fərmanı ilə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının ***(Qanunu qüvvəyə mindi. Qanun tam olaraq kitabın sonundaverib)***

Qanunun tətbiq olunması ilə Azərbaycan Dövləti və diasporu arasında olan bütün əlaqələr və fəaliyyət istiqamətləri müəyyən edildi. Bununla dövlətimiz Azərbaycan diasporu ilə olan əlaqələri nəzarətə götürdü.

Artıq Azərbaycan diasporu öz hüquqlarının müdafiəsini dövlətin qəbul etdiyi hüquq normaları çərçivəsində bilir və Ana Vətənlə əlaqələri daha da sıx olaraq bağlayır.

## *MÜASİR DÖVR AZƏRBAYCAN DİASPORU PROBLEMLƏR, QAYĞILAR, PERSPEKTİVLƏR*

***III HİSSƏ***: Bu gün Azərbaycan diasporu anlayışı özünün mürəkkəbliyi, çoxmərkəzliyi, daxili problemləri, müxtəlif siyasi sosial baxışları, xarakterik xüsusiyyətinə görə seçilir.

İlk növbə olaraq onu qeyd etmək lazımdır ki, bu gün Azərbaycan diasporunda "Vətən" və "Dövlət" anlayışı heç də onların təsəvvüründə eyni deyil və onların baxışları bir-birini tamamlamır. Bunun başlıca səbəbi Ana Vətən Azərbaycanın tarixinin ziddiyyətli və qarışıq məsələlərlə zəngin olması bir dövlət olaraq parçalanmış halda olmasıdır. Buna görə də xaricdəki azərbaycanlılar parçalanmış, iki hissəyə bölünmüş bir xalqın təmsilçisi olmaqla, onlar arasında hüquqi-siyasi status, vətəndaşlıq mənsubiyyəti, fərqli sosial-siyasi anlayış və baxışlar baxımından fərqlər var. Düzdür azərbaycanlıların bir xalq olaraq din, tarix, mədəniyyət, ədəbiyyat folklor, milli varlıq, adət-ənənələr, soykök, milli psixoloji xüsusiyyətlər baxımdan eynimi, bərabərmi, oxşarlıq olsa da, vətəndaşlıq mənsubiyyətində irəli gələn düşüncə və etnopsixoloji istiqamətdən fərqlər bu gün də hiss olunur.

Azərbaycan diasporunun problemlərini tədqiq edən gənc tədqiqatçı Famil Cəfərli qeyd edir ki, Azərbaycan diasporu anlayışına müraciət edib ondan istifadə edən ziyalılar, mütəxəssislər, siyasətçilərin əksəriyyəti xalqımızı spesifik cəhətlərini nəzərə almır və ya ala bilmir.

Son iki yüz ildə Azərbaycan diasporunun yaranmasında 3 müxtəlif ölkənin vətəndaşı olan azərbaycanlılar - Şimali və Cənubi Azərbaycandan və Türkiyədən olan soydaşlarımız iştirak ediblər. Buna görə etinomədəni və sosial siyasi hüquqi dəyərlər baxımından 3 müxtəlif formanı öz varlığında daşıyırlar.

Azərbaycan Respublikası, İran və Türkiyə dövlətləri ilə vətəndaşlıq mənsubiyyəti, sosial siyasi institut və tədqiqatlardan asılılıq bağlılığı olan Azərbaycan diasporunun nümayəndələri arasında fərqli mövqe və ümumi problemlərə müxtəlif yanaşma meylləri var.

Onu da qeyd edək ki, bəzən Gürcüstan, Dağıstan və Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar Azərbaycan diasporunun tərkib hissəsi kimi verilir. Bu fikirlər və yanaşmalar kifayət qədər yanlışdır. Bu ərazilərdə yaşayan azərbaycanlılar öz dədə-baba, etnik torpaqlarında yaşamaqla diaspor hesab





edilə bilməz. Baxmayaraq ki, Gürcüstan, Rusiya və İran müstəqil dövlətdirlər, oradakı ərazilər Azərbaycan xalqının tarixi torpaqlarıdır.

Bu gün üçmərkəzçilik - Şimali Azərbaycan, İran, Türkiyə əsasında formalaşmış diasporumuz bu üç dövlət bir-birindən sosial iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni inkişaf səviyyəsinə görə fərqləndiyindən, bu Azərbaycan diasporuna öz təsirini göstərir. Şimaldan olan azərbaycanlılarla Türkiyə və İrandan olan soydaşlarımız arasında fərqli baxışların dünyagörüşünün olması, Azərbaycan diaspor probleminə müxtəlif maraqlar mövqeyindən yanaşılması halını qaçılmaz edir. Azərbaycan diasporunun əsas qanadını təmin edən cənublular şimallıları əsl azərbaycanlı kimi çox zaman qəbul etmir, Türkiyədən olan soydaşlarımız isə ümumilikdə bir çox istiqamətlərdə ümumazərbaycan işində iştirak etməkdən çəkinirlər.

***<u>ŞİMALİ AZƏRBAYCANLILAR:</u>*** Müasir dövr diasporunuzunŞimali Azərbaycan qanadını XX əsrin əvvəllərindən ölkəni tərk edən şəxslərin nəvə-nəticələri, II Dünya müharibəsində əsir düşərək geri qayıtmayan və 1990-cı ildən sonra ölkədənmühacirət edən şəxslər təşkil edir.

Birinci qrupdan olan soydaşlarımız ümumi Azərbaycan işində ikinci və üçüncü qrupdan fərqli olaraq bir qədər aktivdirlər. Lakin onların bu məsələyə nostalji və ata-babalarının işinin davamçısı kimi yanaşmasımövqeyini nəzərə alsaq, onların çoxunun başqa mühütün, yaşadığı ölkələrin sosial-mədəni xüsusiyyətlərinə malik olduğunu görərik. Birinci qrupun nəsli hesab olunan şəxslərin müəyyən hissəsi artıq amerikalı, ingilis, fransız, rus və ya başqa millətlərin təsiri altına düşərək, fərqli sosial mədəni-mənəvi inkişaf səviyyəsi keçiblər. Şimali Azərbaycan qanadının ikinci qrupu olan soydaşlarımızın çoxu özlərindən sonra yeni bir azərbaycanlı icmasını, nəslini formalaşdıra bilməyiblər. Demək olar ki, ikinci qrupun çox hissəsi sadəcə olaraq sıradan çıxıblar. Hazırda yaşayanlar uzun illər sovet əks kəşfiyyatının qorxusundan tamam qapalı və gizli həyat yaşadıqlarından indinin özündə onlarda "KKB" xofu qalmaqdadır.

II Dünya müharibəsindən sonra məskunlaşdıqları ölkələrdəpassiv mövqedə durmaqla gizli yaşamasımahiyyət etibarı ilə onlarıbəhrəsiz - sonsuz bir nəslə çevrmiş, özlərindən sonra azərbaycançılıq dəyərlərini, və əlaqələrini qoruyub saxlayaraq inkişaf etdirə bilən fiziki cismani mənada milli sərvətlər qoya bilməyən qrupa döndərib.

İkinci qrupun müəyyən hissəsi ailə həyatı qurmamış və Vətəndə qoyduqları ailələrin xiffətini çəkə-çəkə ixtiyarlaşmış, çox hissəsi isə həyatdan köçüb getmişdir. Onların yaşadıqları evlər Azərbaycanı hərtərəfli xatırlatsa da, ömrü "KKB" xofunun təsirindən digər millətlər içərisində təbliğat işindən uzaq qaçmış, onlarla ünsiyyətə girməmişlər. Bu şəxslər Azərbaycanda gedən prosesləri diqqət mərkəzində saxlamış, yaşadıqları ölkəyə Azərbaycandan gələn olanda onlarla əlaqə yaradaraq Vətənlə maraqlanmış, lakin özlərinin harada tapmaq lazım olduğunu bildirməyiblər. Bu şəxslərin bir çoxu ürək xəs-

təliyinə tutulmuş, sakit, qapalı və maddi-iqtisadi maraqlar güdmədən yaşamış və yaşamaqdadırlar. İkinci qrupun müəyyən hissəsi isə türk, rus, ingilis, alman və başqa xalqlarla qarışıq nikaha girmişlər. Lakin bu ailələrdən "yeni azərbaycanlı" - nəslinin meydana çıxması baş vermədi. Cüzi hissəni çıxmaq şərtilə azərbaycanlıların övladları türk, alman və başqa xalqların təsiri altında böyümüş, assimilyasiya olunmuş və demək olar ki, Ana dil, Ana Vətən baxışından uzaq olmuşlar. Bunların əsasında isə ideoloji işin zəif olması bu gün onların itirilməsi təhlükəsini yaradıb və onların əldən çıxaraq, azərbaycanla bağlılığının qopması məqbul sayılmadığından, onlarla xüsusi proqram çərçivəsində iş aparmaq zəruri və vacibdir.

İkinci qrupun nümayəndələri olan soydaşlarımızın müəyyən hissəsi intellektual və maddi cəhətdən yaşadıqları ölkələrdə güclü mövqeyə və nüfuza malikdirlər. Onların sosial-mədəni xüsusiyyətlərini, Azərbaycana birtərəfli yanaşma nöqteyi-nəzəri diqqətlə və ciddi araşdırmağa ehtiyacı var. Çünki bu insanlar artıq məskunlaşdıqları ölkəni vətəndaşlarıdır və demək olar ki, Azərbaycana onların bağlılığı yoxdur.

Onlarla iş aparmaq üçün mütləq azərbaycançılıq ideologiyası diqqətlə işlənib hazırlanmalı vəümumazərbaycan işində onların iştirakını təmin etmək vacibdir.

Şimali azərbaycanlıların üçüncü qanadını 90-cı illərdən başlayaraq bu günün özündə də intensiv şəkildə davam edən azərbaycanlı mühacirlər təşkil edir. Bu qrup digərlərindən xeyli fərqlənməklə, onların çoxunda Vətənə münasibət anlayışı başqa-başqa istiqamətlərdə inkişaf edir.

Üçüncü qrupun nümayəndələri təhsil, siyasi-iqtisadi səbəblərdən Azərbaycanı tərk edən şəxslərdir. Təhsil və elmdalınca başqa ölkələrə mühacirət edən azərbaycanlıların 60%-i Vətənə qayıtmaq barəsində düşünsələrdə 20% qayıtmayacaqlarına tam əmindirlər. Yerdə qalan 20% isəVətənə geri qayıtmaq, yoxsa qalıb burada yaşamaq arasında çıxan yolu tapa bilmirlər. Təhsil məqsədilə ölkəni tərk edib gedən azərbaycanlıların ideoloji düşüncəsi zəif olduqlarındanonlar daha tez təsir altına düşürlər. Məsələn; Türkiyə, İran, Misir, Malaziya və digər ölkələrdə təhsil alan tələbələrimizin çox hissəsi dindar və dinlə bağlılığı olan şəxsləri kimi geri dönürlər. Azərbaycanda dini təhsilin passiv olmasını səbəb göstərən gənclərimizin panislamizm, pantürkizm, vəhabi və digər təsirlər altına düşməsi olduqca təhlükəli və qorxuludur.

Avropa və Amerika ölkələrində təhsil alan gənclərimizin əksəriyyəti kosmopolit ideoloji təsiri altına düşürlər. Qərb mədəniyyəti, adət-ənənələrin, geyimin və mətbəxinə aludə olan belə gənclərimizin dinə münasibəti, Ümumazərbaycan işinə birtərəfli yanaşma meyilləri Azərbaycan diasporu fəaliyyətində hiss olunur.





Qərb dövlətlərində təhsil almaq istəyən gənclərimiz Vətənə qayıdandan sonra belə artıq doğma yerlərdə yaşamaq istəmirlər. Qərb təsiri yenidən Azərbaycan gənclərinin bu ölkələrə kütləvi axın etməsinə səbəb olur. Tək azərbaycanlılar deyil, keçmiş Sovetlər Birliyindən hazırda kütləvi mühacirət axını sayəsində Qərbə axın intensiv şəkildə davam edir. Qərb təsirinə düşmələrinə baxmayaraq, Şimali Azərbaycan qanadının 3-cü qrupunun bir hissəsi olan bu şəxslər ilk ikiqrupundan fərqli olaraq diaspor işində xeyliaktivdilər.

Şimali Azərbaycan qanadının 3-cü qrupunun bir hissəsində sosial-iqtisadi səbəblərlə Azərbaycanı tərk edən şəxslər təşkil edir. Bu isə öz-özlüyündə aydındır - bu şəxslər Azərbaycanda malik olduqları işdən, qazancdan daha gəlirli olan Qərbdə işləmək, yaşamaq məqsədilə Vətəni tərk edirlər, onların müəyyən hissəsinin artıq xarici ölkələrdə qohumlarının olması səbəbilə bu şəxslər köçdükləri ölkələr də çətinliklə qarşılaşmır. Qohumu olmayan şəxslər isə yəhudi, rus, gürcü və başqa millətlərlə qohum olaraq onların yanına köçürlər. Sosial səbəbli mühacirət nəticəsində Azərbaycan diasporunun nümayəndələrinə çevrilən bu şəxslərin çox hissəsi passiv mövqedə durmağa üstünlük verir və ümumi Azərbaycan işindən kənarda duraraq, adlarının hallanmasını istəyirlər. Diaspor təşkilatlarının təşkiletdikləri tədbirlərdə, yığıncaqlarda və etiraz aksiyalarında görünməyən bu şəxslər təşkilatlara üzv olmaqlarına, pul ödəmələrinə baxmayaraq, qapalı və gizli yaşamaq istəyirlər. Ancaq işlə məşğul olmaq mövqeyini bildirən bu şəxslərdə ideoloji iş olduqca zəifdir. Bəzən onlar içərisində " Vətən mənə nə verdi ki, mən də Vətən üçün burada çalışım" - şüarların, fikirlərin eşitmək olar. Onların bu cürə mövqeyi gələcəkdə Azərbaycan diasporunun güclənməsinisual altına alır.

Sosial-iqtisadi səbəblə Qərb ölkələrinə axın edən şəxslər özlərinə normal şərait düzəldib, Vətəndə qalan ailələrini bura gətirərkən, avropalı, amerikalı xüsusiyyətlərini mənimsəyirlər. Bu qrupu çox zaman məhəlli mühacirət - yəni bir neçə ölkədən keçməklə mühacirət edirlər və bu səbəbdən də onlar barəsində statistik araşdırma aparmaq çox çətindir. Siyasi səbəbilə mühacirət edən bir hissə Şimali Azərbaycan qanadının üçüncü qrupunun ayrılmaz tərkib hissəsidir. İctimai-siyasi fəaliyyətinə görə, xeyli aktiv olan bu qrup Vətənlə bağlılığın başqa vasitələrlə büruzə verməyə çalışırlar. Siyasi motivli mühacirlərin əksəriyyəti Vətəndə gedən prosesləri diqqətlə izləyir və buradakı proseslərə təsir göstərməyə çalışırlar.

Şimali azərbaycanlılar qanadı göründüyü kimi çox şaxəli və ziddiyyətli qruplardan ibarətdir. Son zamanlar isə bəzi neqativ cəhətlər şimal qanadında hiss olunur. Regionluq anlayışı artan Azərbaycan diasporunun Şimali azərbaycanlılar qanadında büruzə verilməsi məqbul sayıla bilməz. Bu gün Azərbaycan diasporunda bəzən qarabağlı, şamaxılı, naxçıvanlı, bakılı faktorları görünməkdədir. Amerika Birləşmiş Ştatları, Kanada, Almaniya, Rusiya, Ukraynada bu faktorlar daha çox nəzərə çarpır.

Bu problemlər zamanla həll olunmalıdır. Əks təqdirdə biz Azərbaycan diasporunun tam nəzarətdən çıxması və itirilməsilə üz-üzə qala bilərik.

***CƏNUBİ AZƏRBAYCANLILAR:*** Azərbaycan diasporunun ən böyük qanadını təşkil edən cənublu soydaşlarımız XX əsrdə 5 əsas dalğa ilə xarici ölkələrə mühacirət ediblər. Cənubi Azərbaycanlılar termini 1873-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra yaranıb. Bu tarixlərə qədər yalnız bir: *Bütöv Azərbaycan var idi ki, onun sərhədləri geniş idi və burada yaşayan millətlərin bir dili, Azərbaycan dili və bir vətəni Azərbaycan idi.*

Lakin Gülüstan və Türkmənçay müqavilələrindən sonra ikiyə parçalanan Azərbaycana Rusiya tabeçiliyində Şimali, İran əsarəti altında olan hissəsi isə Cənubi Azərbaycan adlandırılmağa başlandı.

XX əsrin əvvəllərinə qədər Cənubi Azərbaycan Qərb və Şərq ölkələrinə mühacirət prosesləri baş verib. Lakin Cənubi Azərbaycan mühacirət tarixi bizdə lazımi səviyyədə tədqiq edilməyib. Tədqiqat çalarımızın XX əsrdən etibarən Cənubi Azərbaycandan başlanan mühacirət prosesin siyasi və iqtisadi səbəblərlə bağlayırlar. Famil Cəfərliyə görə Cənubi Azərbaycanı tarixi dövrlərə görə aşağıdakı qruplara bölmək olar:

1. 1920-ci illər - Bu mühacirət əsasən siyasi səbəblərlə baş verib.
2. 1930-40-cı illər - Sosial (təhsil və elmi məqsədi), iqtisadi (iş qurmaq, səylərini artırmaq) - səbəbli mühacirət prosesi.
3. 1950-ci illər - bu dövrdə İranda mürtəce hərbi diktatura rejimi idi və buna etiraz edən azərbaycanlıların siyasi mühacirəti.
4. 1960-cı illər - İranda təhsil səviyyəsinin aşağı olması səbəbilə soydaşlarımızın inkişaf etmiş dövlətlərə təhsil və təkmilləşdirmə məqsədli mühacirəti.
5. 1978/1979-cu illər - Bu tarixdə artıq İranda İslam hökuməti quruldu. İran İslam İnqilabı adlanan çevrilişdən sonra, cənublu qardaşlarımızın yeni rejimlə barışmaz mövqedən irəli gələn siyasi motivli mühacirəti.

Qeyd olunan hadisələr və proseslər səbəbilə Azərbaycan diasporunun mühüm qanadını təşkil edən cənublular, əsasən ziyalılar və biznesmenlərdən ibarətdir. Mühəndis, inşaatçı, həkim, texnoloq, nəqliyyatçı və s. peşələrdə çalışan soydaşlarımız öz peşələrində mütəxəssislər hesab olunurlar. Akademik təhsilə cənublular içərisində maraq böyük olduğundan, hazırda diasporumuzda ziyalılar təbəqəsi çoxluq təşkil edir. Ədəbiyyat, riyaziyyat, din, tarix, biologiya, iqtisadi elmlər sahəsində daha çox uğurlar əldə edən cənublu ziyalılar Qərb və Şərq ölkələrinin nüfuzlu ali və orta məktəblərində dərs deyir, elm dairələrində tanınırlar. Cənublu ziyalılarımızın elmi-bədii əsərləri Qərb və Şərqdə sevilən, oxunulan əsərlər olmaqla elmi araşdırmalar məqsədilə də istifadə olunur.





Cənubi azərbaycanlıların böyük bir hissəsi də ticarət sahəsində çalışırlar və əminliklə söyləmək olar ki, kifayət qədər güclü mövqeyə və nəhəng kapital mənbələrinə malikdirlər. Güclü investisiya imkanları olan cənubluların sahib olduqları firmalar, şirkətlər, müəssisələr bir çox ölkələrin iqtisadiyyatına xeyir verir. Güclü iqtisadçı və biznesmenlərdən sayılan cənublu soydaşlarımız məskunlaşdıqları ölkələrin yüksək dövlət xadimləri və imkanlı biznesmenləri tərəfindən hörmətlə tutulur, bəzən onlardan məsləhət və kömək istənilir. Birləşmiş Ştatlar, Kanada, Böyük Britaniya, Fransa, Danimarka, İsveç, Avstraliya və digər ölkələrdə cənublular böyük imkanlara malikdirlər.

Kifayət qədər maddi və intellektual imkanlara malik olan Cənubi azərbaycanlılar diasporumuzda öz daxili problemləri, çoxşaxəli və ziddiyyətli tərəfi ilə seçilir. İlk olaraq cənubluların Azərbaycan dövləti azərbaycançılıq ideologiyası, Ümumazərbaycan işi, Azərbaycan dilinə mövqeyi və münasibəti eyni deyil və demək olar ki, onlar hələ də gözləmə mövqeyi tuturlar.

Cənubluların Türkiyədən və Şimaldan olan azərbaycanlılarla əlaqələri, münasibəti, Azərbaycan dövləti faktoruna çoxmənalı münasibəti ilə diasporda tanınırlar. Cənubluların bu cürə pozitiv münasibəti onların mövqeyindən araşdırdıqda aşağıdakı nəticəyə gəlmək olar:

İlk olaraq Cənubi azərbaycanlılar başqa mənəvi-psixoloji sosial institutları Şimaldan və Türkiyədən xeyli fərqlənir. Bunu cənublular belə izah edirlər:

*«Biz əsrlər boyu Cənubda rassizimlə üzləşdik, tarixi və milli köklərimiz assimilyasiya olunub. Mənəvi, mədəni və linqivist cəhətdən biz daha çox zədələnmişik. Uzun illər fars rejimi bizim tarixi keçmişimizi və milli varlığımızı unutdurmaq üçün müxtəlif vasitə və metodlardan istifadə edib. Bizim tarixi torpaqlarımızdan, doğma ev-eşiklərimizdən qovub, incidib və bizləri öz yerimizdə qonaq kimi qəbul ediblər. Şimallılar və türkiyəlilər bizdən fərqli olaraq, daha mülayim və az repressiv üsullu idarədə yaşayırlar. Amma Azərbaycan dilini, tarixini, folklorunu, musiqisini və sosial-mədəni kimliyini qoruyub saxlaya və inkişaf etdirməkdə az çətinlik görüblər. Bizlər çətinlik olsa da, farslaşdırma siyasətindən çıxa bilir, türk kimliyimizin təhqir olunmasına bir şey edə bilmir, öz milli varlığımızı qoruyub saxlamaqdan ötrü əziyyətlər çəkirik. Bu səbəbdən də biz Azərbaycan diasporunun əsl siyasi qanadıyıq.»*

Düzdür, Cənublu soydaşlarımızın dediklərində həqiqətlər də var. Lakin çox zaman cənublular arasında mövqe və siyasi sosial baxışlar səbəbindən idarəolunmaz kütlə təsiri bağışlayırlar.

Cənubluları hazırda da İranda türk kimi rəsmi dairələrdə çağırırlar. Lakin soydaşlarımız onların milliyyətinin yalnız azərbaycanlı olduğunu bildirirlər və özlərinin azərbaycanlı olduqları ilə fəxr edirlər. Onları azəri adlandırmağına etiraz edən soydaşlarımız farsların icadı olan bu terminin yalnış olduğunu bildi-

rir və onları azərbaycanlı, azərbaycan türkü olduqlarını farsların qəbul etməsinə çalışırlar.

Lakin Azərbaycan diasporunun əsas qanadı olmasına baxmayaraq, Cənubi azərbaycanlılar arasında Ümumazərbaycan işinə müxtəlif münasibətlər var:

1. Birinci qrupdan olan baxışlar bütöv Azərbaycan uğrunda mübarizə apardıqlarını bildirir və Azərbaycan xalqının belə olacağı təqdirdə birləşəcəyinə,milli kimliyini qorunub saxlanacağına nail olacaqlarını iddia edirlər. Bu qrup fars rejiminə barışmaz mövqeyi ilə seçilir və tarixən onların başına gətirilən hadisələr də farsları kəskin ittiham edir. Otuz milyondan çox Cənubi azərbaycanlılara sayca az olan farsların rəhbərlik etməsini həzm edən bilməyən, bu qrup Azərbaycan xalqının öz müqəddəratını öz təyin etmək hüququna malik olduğunu bildirərək, çıxış yolunu bütöv Azərbaycanın bərpa olunmasında görürlər.

2. İkinci qrupdan olan baxışlar isə Cənubi Azərbaycanın müstəqil dövlət olmasına çalışırlar. Bu qrup İran əsarətindən qurtarmış, vacibliyini qeyd etsə də, Şimali Azərbaycanla birləşməyi zəruri hesab etmirlər. Alibi kimi Cənubla Şimal arasında fərqli sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni inkişaf səviyyəsinin olduğunu göstərirlər. Cənubi Azərbaycan müstəqillik əldə etdikdən sonra Şimali Azərbaycan, İranla və digər ölkələrlə mehriban dostluq və qardaşlıq münasibətləri quracağını bildirən bu qrup zamanla bütöv Azərbaycan ideyasının reallaşacağına nikbin baxırlar.

3. Üçüncü qrupdan olan baxışlar isə İran tabeçiliyində qalmaqlaCənubi Azərbaycana muxtariyyət verilməsinin tərəfdarıdır. Bunu iqtisadi, dini və siyasi səbəblərlə izah edən bu qrup hazırda İranın iqtisadi inkişafının yüksək səviyyədə olmasını göstərərək, onların belə dövlətdən ayrılacağı təqdirdə ac qalacaqlarını bildirirlər. Siyasi cəhəti isə onlar İranın beynəlxalq aləmdə nüfuz əldə edə bilməsi ilə əlaqələndirərək, Şimali Azərbaycanın hələ yetərincə onların hüquqlarının müdafiə etmək iqtidarında olmadığı ilə əsaslandırırlar. Özlərinin müsəlman olduğunu göstərən cənubluların bu qrupu İslam rejimindən çıxdıqan sonra din və imanın "əldən gedəcəyini" qeyd edirlər. İslam dini "Nicat yolu" olduğunu bildirən bu qrup, hətta Şimali Azərbaycanı da İrana birləşdirmək kimi fikirlər söyləyirlər. Tamamilə fars ideologiyası altında fəaliyyət göstərən bu qrup şimallıları, dindən, imandan və Azərbaycanın milli kimliyindən döndüyünü iddia edirlər.

Bu qrupların mövcudluğu Azərbaycan diasporunun Cənubi azərbaycanlılar qanadının həddən artıq ziddiyyətli və çoxproblemli olduğunun bariz nümunəsidir.

Cənublu soydaşlarımız Azərbaycana nostalji və gözləmə mövqeyindən yanaşırlar. Tərkibində kommunist, monarxist, demokrat, islamçı, liberal, müstəqil siyasi baxışları olan Cənubi Azərbaycan qanadında iqtisadi maraqlar,





sosial-siyasi baxışlar və fikir cərəyanları toqquşur, üst-üstə düşmür. Onlar Azərbaycanı tarixi Ana Vətən olaraq qəbul edirlər. Lakin siyasi və hüquqi cəhətdən Ana Vətənin dəstəklənməsi işində onlar siyasi və iqtisadi maraqlar güdürlər. Əsas məqsədləri iqtisadi maraqlarının təmin olunması olan çox sayda cənublular hazırda Azərbaycan diasporunda mühüm mövqe tuturlar. Vətən, dövlət anlayışına folkloru, ədəbi və linqivistik mövqedən yanaşsaq belə azərbaycanlılar siyasi işlərdə çox passivdirlər. Yalnız adamlar musiqi, ədəbiyyat və dil nöqteyi-nəzərindən diasporumuzun əsas qanadında fəaliyyət göstərən çox sayda cənublular mühüm, prinsipial məsələlərə girişmirlər.

Bir çox Avropa və Amerikada yaşayan soydaşlarımızın ailəvi məişət dili fars dili hələ də qalmaqdadır. Farslarla bioloji qohumluğu olan şəxslər prinsipial məsələlərdə İranın tərəfini saxlayırlar.

Əksəriyyəti siyasi fəaliyyətdə passiv olan Cənublu soydaşlarımız ikinci, üçüncü, dördüncü nəsildən olan yeni azərbaycanlı diaspor təbəqəsi - gənc və proqressiv bir təbəqədə formalaşma imkanlarına malikdilər. Eyni zamanda yayılma və soy göstəriciləri baxımdan Şimal və Türkiyə azərbaycanlılardan fərqlənən Cənubi Azərbaycan qanadının ciddi olaraq ideoloji-psixoloji dəyişikliyə ehtiyac var ki, bu da yalnız və yalnız azərbaycançılıq ideologiyası üzərində tərtib olunmalıdır.

***TÜRKİYƏ AZƏRBAYCANLILARI:*** Coğrafi baxımdan din, dil, soykök ümumiliyi nöqteyi-nəzərindən Azərbaycan və Türkiyəni bağlayan tellər uzun əsrlərə gedib çıxır. Bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə arasında münasibətlər, əlaqələr tarixi zaman kəsiyində dəyişməmiş dostluq bağları daha da bərkimiş, möhkəmlənmişdir.

Tarixi hadisələr səbəbilə əsrlər öncə Şimali Azərbaycanın müxtəlif bölgələrindən - Naxçıvandan, Zəngəzurdan, Gəncədən, Qarabağdan soydaşlarımız qardaş ölkəyə mühacirət etmiş və burada məskunlaşaraq təbii-bioloji yolla artmışlar. Bu səbəbdən də Azərbaycan diasporunun üçüncü qanadı Türkiyəli azərbaycanlıları təşkil edir. Əsasən İğdır vilayətində məskunlaşan soydaşlarımız digər Türkiyə şəhərlərində və bölgələrində yaşayırlar. Ancaq İğdır azərbaycanlıları yaşadıqları ən sıx bölgədir. Buna görə də İğdırdan olan azərbaycanlılar diasporumuzun türkiyəli azərbayanlılar qanadının əsas nümayəndələridir.

Türkiyəli azərbaycanlıları Avropa ölkələrində çoxluq təşkil edir. Hazırda Almaniya, Belçika, Danimarka, Hollandiya, İsveç, Finlandiya, Norveç, İngiltərədə Türkiyəli azərbaycanlılar çox sayda məskunlaşıblar. Onların bu ölkələrə köçməsi 1950-ci illərdən başlayaraq, Türkiyədən Avropaya kütləvi mühacirətindən başlayır. Türkiyə vətəndaşları, Şimali azərbaycanlılar da sosial-iqtisadi səbəbin mühacirət prosesinə qoşulublar.

Türkiyəli azərbaycanlıların Avropa ölkələrinə mühacirəti razılaşdırılmış, normallaşdırılmış, məqsədli və kvotalı mühacirət idi. Türkiyənin Avropa və

digər ölkələrilə imzaladığı, əmək müqavilələrindən irəli gələn şərtlər əsasında türkiyəli azərbaycanlılar bu ölkələrə işləməyə və daha çox pul qazanmağa axışırdılar.

Köçdükləri ölkələrdə maddi və sosial vəziyyətlərini normallaşdıran türkiyəli azərbaycanlılar sonradan ailələrini, qohum-əqrəbalarını öz yanlarına gətirirdilər. Ailələrin birləşdirilməsi adlanan bu proses türkiyəli azərbaycanlıların yaşadıqları ölkələrdəki sosial, yaş, cinsi, peşə, soy-demoqrafik strukturunu kəmiyyət və keyfiyyət baxımından dəyişilməsinə və zənginləşməsinə gətirib çıxartdı.

Türkiyəli azərbaycanlıların Avropa ölkələrinə mühacirəti diasporumuzun bir qədər cavanlaşmasına və diasporumuzun keyfiyyət göstəricilərinin dəyişməsinə xeyli kömək etdi. Türkiyəli gənclər menecment, bilgisayar mütəxəssisi, texniki xidmət sahələri, tükrizm kimi ali ixtisas istiqamətləri seçərək, zamanla özlərinə özəl iqtisadi sahibkara çevrilirdilər.

Eyni zamanda azərbaycanlı gənclərin bir-birlərilə ailə qurmaları, sayəsində avropalı azərbaycanlı ailələrinin təməli qoyan türkiyəli soydaşlarımız bir çox müsbət keyfiyyətlərə malikdirlər.

Türkiyəli soydaşlarımız dindar, Ulu Tanrının kəramətinə inanan insanlardır. Bu səbəbdən də türkiyəli azərbaycanlıların çoxu hacı, məşədi, kərbəlayidirlər. Vətənə nostalji hisslərlə bağlı olan türkiyəli soydaşlarımız ailədə, övladlarının milli ruhda böyüdülməsi, milli dəyərlərə münasibəti, azərbaycan dili, mətbəxi, musiqisi, ədəbiyyatı və folkloru məsələlərində mühafizəkardılar. Bununla paralel olaraq onlarda türkiyəçilik faktoru, türkçülük ideologiyası hələ də aparıcı yerdədir. Gənclər milli ruhda böyüdülməsinə baxmayaraq, Avropa və Qərb modeli təsiri altındadılar. Əsasən ticari işlərlə məşğul olan Türkiyəli soydaşlarımız siyasi fəaliyyətdə əvvəllər passiv olsalar da, son zamanlar bir qədər fəallaşıblar. Türkçülük ideologiyası təsiri altında olması cənublu və şimallı azərbaycanlılarla onlar arasında müxtəlif qütblər yaradıb, Türkiyəni azərbaycanlılar içərisində Azərbaycan dövlətinə münasibət fərqləri də var. Bu qanada daxil olan bəzi azərbaycanlıların Ana Vətən anlayışı çox zaman üst-üstə düşmür. Bu şəxslər Azərbaycan dövlətini deyil, Türkiyəni özlərinin vətəni hesab edirlər. Təəssüf ki, bu cür yanaşma meylləri türkiyəli soydaşlarımızın əksəriyyəti tərəfindən qəbul edilib. Sevindirici haldır ki, son zamanlar türkiyəli azərbaycanlılar Azərbaycana münasibətinin müsbət istiqamətdə dəyişərək Ana Vətən kimi məhz Azərbaycanı görürlər.

Göründüyü kimi Azərbaycan diasporu özünün çox çalarlı və çoxşaxəli tərəfləri ilə seçilir. Azərbaycan diasporunda belə neqativ problemlərin aradan götürülməsi üçün isə mütləq azərbaycançılıq ideologiyasında geniş surətdə tətbiq etmək lazımdır. Dünya azərbaycanlılarının həmrəyliyi, birliyi, Azərbaycan dövləti faktoru ətrafında birləşməsi üçün azərbaycançılıq ideologiyası zəruri və qaçılmaz işlərdən biridir.





**AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI:** *«Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərləri sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişaf olunması deməkdir.»*

***HEYDƏR ƏLİYEV***
***Azərbaycanınümümmili lideri***

Tarixi təcrübə göstərir ki, milli birliyə nail olmuş xalqlar ən çətin sınaqlardan keçərək öz milli kimliklərini qoruyub saxlaya biliblər. Dövlətin, millətin həmrəyliyi, birliyi naminə müxtəlif millətlər öz tarixi, sosial-siyasi durumu və milli mentalitetinə əsaslanan milli ideologiyalar işləyib hazırlamışvə onu millətı içərisində geniş təbliğ etmişlər.

Milli ideologiyanın olmaması və yaxud zəif təbliği acınacaqlı nəticələr verə bilər. Millət ya tamamilə məhv ya da qüdrətli xalqlar tərəfindən assimilyasiya oluna bilər.

Azərbaycançılıq ideologiyasının tarixi daha qədim dövrlərə təsadüf edir. Azərbaycan folklorunda, şifahi və yazılı xalq ədəbiyyatında azərbaycançılıqla əlaqəli bir çox sayda məlumata rast gələ bilərik. Bizim bayatılar, atalar sözləri, dastanlarımız, xalq mahnılarımız, nağıllarımızda azərbaycançılıq əsas məzmun kimi götürülür.

Lakin bir ardıcıl sistem kim, azərbaycançılıq ideologiyası XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərindən formalaşmağa başlayıb. İlk zamanlar maarifçilik hərəkatı daxilində təşəkkül tapan ideologiya sonradan milli oyanış, özünüdərk hərəkatında daha açıq şəkildə ifadə olunmaqla başlandı.

Azərbyacançılıq ideologiyasınınyaranması və təbliğində M.Ə.Rəsulzadə, Əlimərdan bəy Topçubaşov,Əli bəy Hüseynzadəkimi ictimai-siyasi xadimlərlə yanaşıdəyərli alimlərimizƏlikram Tağıyev, Ramiz Mehdiyev, Əfrand Daşdəmirov, Yadigar Türkelli, Vaqiv Arzumanlı, Vəli Həbiboğlu və başqaları qiymətli əsərlər yazıblar.

Milli ideologiya-Azərbaycançılıq xalqımızın öz əxlaqi mentaliteti və bütün bunları ümumbəşəri dünya dəyərləri ilə sintezi əsasında formalaşdırılması kimi təməl prinsipləri artıq maarifçilər tərəfindən irəli sürülmüş və böyük səylə həyata keçirilirdi.

Zamanla tarixi hadisələr səbəbilə azərbaycançılıq ideologiyasının təbliği, Azərbaycandan kənarda zəif şəkildə aparılırdı. İlk olaraq azərbaycançılıq ideologiyası ətrafında diasporumuzun açıq milli ictimai fəaliyyətinin başlanğıcı 80-ci illərin ortalarına təsadüf edir. Bu tarixdən etibarən Avropa, Ame-

rika və Asiya ölkələrində müxtəlif milli mədəniyyət mərkəzləri, kültür və dostluq cəmiyyətləri, eləcə də müxtəlif Azərbaycan dilli nəşrlər təsis edilmiş, birgə fəaliyyət göstərmək təcrübəsi həyata keçirilməyə başlanmışdır. Özünü tanıtmaq, milli kökünə və varlığına bələd olub, buna sahib olmaq, Azərbaycan məfkurəsini mənimsəmək, Azərbaycanı başqalarına tanıtmaq və onu xaricdə təbliğ etmək kimi məqsədlərə xidmət edən fəaliyyət və təşəbbüslərsoydaşlarımız arasında güclənirdi.

Azərbaycan dövlət müstəqilliyi elan edildikdən sonra, azərbaycançılıq ideologiyasının geniş surətdə təbliğ olunması üçün zəmin yarandı.

Bu istiqamətdə bir çox əsərlər yazılmaqla ideologiyanın təbliğ olunması üçün müxtəlif tədbirlər proqramı işlənib hazırlandı. Bu barədə görülən işlər yalnız bir şeyə bütün dünya azərbaycanlılarının Ana Vətən ətrafında birləşdirilməsinə, xalqımızın güclənməsinə xidmət etmək məqsədi güdür. Azərbaycançılıq ideologiyası barədə məntiqi fikirləri aşağıdakı kimidir:

*«Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarının Ümumazərbaycan ideyalarının məqsədləri xalqımızın mənəvi ruhunun qaldırılmasına, dilimizin, dinimizin, mentalitetimizin saxlanılmasına, milli varlığımızın, milli dəyərlərimizin inkişaf etməsinə xidmət edir. Bir çox tədqiqatçılar Azərbaycan ideologiyasiyanın pantürküzm, panislamizim ideologiyalarından imtina etmək kimi qəbul edilir. Bu yanlış bir fikirdir. Azərbaycançılıq ideologiyası özü türkçülük vəz islamçılıq mövqeyindən, nəzəriyyəsindən tərtib olunan bir nəzəriyyədir. Bununla biz türkçülük və islamçılığımızdan imtina etmirik. Əksinə, bu bütün dünyaya səpələnmiş azərbaycanlıların öz milli kimliyini, dinini və dilini qoruyub saxlamasına kömək göstərir. Bir millət öz tarixi keçmişi, milli kimliyini dinini, dilini qoruyub saxlayırsa, deməli həmin millət dünyada var olmaq hüququna malikdir. Biz azərbaycanlılar türk xalqları qruplarının və bizim Azərbaycan dilimiz türk dili sisteminə daxildir. Biz islam dininə sitayiş edirik və müsəlmanıq. Bu kimliyimizi dərk edə-edə azərbaycançılığımızın qorunub saxlanılması və təbliği indiki zamanda böyük əhəmiyyətə malikdir».*

Yuxarıda izah etdiyimizkimi, azərbaycanlılar arasında sosial-siyasi və psixoloji problemlər mövcuddur və bunun aradan götürülməsi üçün azərbaycançılıq ideologiyasının təbliği türkçülük və islamçılıqdan daha önəmli və vacibdir. Bizim mentalitetimiz Vətən məhəbbətini Ana məhəbbəti ilə eyni tutur. Vətən bizim anamızdır,güc mənbəyimizdir.Bizim harada yaşamağımızdan asılı olmayaraq, doğma ocağımız, qibləgahımız, nəzər yerimiz, anamız, atamız Vətəndir. Ana Vətənimiz Azərbaycanının şərəfi, bütövlüyü, qayğısı bizim şərəfimiz, qeyrətimiz və qayğımızdır.

Biz azərbaycanlıyıq. Bizim çox qədim tariximiz var. Biz bir millət, xalq olaraq bütün xalqlarla, millətlərlə eyni hüquqa malikik və bərabər olaraq dünyada mehriban dostluq prinsipləri əsasında yaşamağa üstünlük veririk. Bir





çox səbəblərdən Azərbaycan dünyanın mənəvi intellektual, hətta coğrafi mərkəzi olmaq kimi üstünlüklərimiz var.

Bütün deyilənləri nəzərə alaraq, azərbaycançılıq ideologiyasının əsas prinsiplərini aşağıdakı kimi sadalamaq olar:

**Ana Vətən Azərbaycan - bütün dünya azərbaycanlılarının tarixi torpağı, Anası, istinad mərkəzi, qibləgahıdır.**

**Azərbaycan dili bütün dünya azərbaycanlılarının doğma dilidir və məişətdə, elmi və ictimai səviyyədə dilimizin qorunub saxlanması, təbliği mühüm əhəmiyyət kəsb edir.**

**Azərbaycan dövlətinin bütövlüyü, təhlükəsizliyi, şərəfi bütün dünya azərbaycanlılarının əsas qayəsi, məqsədidir.**

**Dünyanın harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının hüquqları Azərbaycan respublikasının vətəndaşlarını hüquqları ilə eynidir**

Bu və digər prinsiplər Azərbaycan millətinin güclənməsinə, assimliyasiya olunmamasına, digər xalqlar kimi beynəlxalq hüquqi normalarına əsaslanan bərabər hüquqlar və s. kimi imtiyazlara malikdir. Azərbaycançılıq ideologiyasının geniş surətdə təbliğ olunması azərbaycanlıların məskunlaşdıqları ölkələrdə fəaliyyətlərini aktivləşdirilməsinə, Azərbaycanın maraqlarını müdafiə etməyə, milli kimliyə sahib çıxmağa təkan verir. Azərbaycançılıqideologiyası bir məsələni açıqlayır:

*«Azərbaycanlıların tarixi vətəni yalnız Azərbaycan şimaldan ibarət deyil, artıq deyildiyi kimi, həm nüfuz regionları - Gürcüstan, Dağıstan vəCənubi Azərbaycan da tarixi vətənimzdir».*

Bu dəyərlərin təbliğ edilməsi və siyasi-hüquqi müdafiəsi üçün isə mütləq Azərbaycan lobbisinin tam olaraq gücləndirməsininəhəmiyyətini artırır. İlk fəsildə qeyd etdiyimiz kimi lobbi siyasi fəaliyyət kimi bütün dövlətlərdə mövcuddur. Lobbiçilik isə göründüyü qədər sadə bir struktur deyil. Lakın bir şeyi əminliklə söyləmək olar ki, bu gün xaricdə, əsasən Amerika Birləşmiş Ştatlarında Azərbaycan lobbisi mövcuddur.

***AZƏRBAYCAN LOBBİSİ:***Lobbi Qərb sisteminin ən mühüm institutlarından olub, qanunların və digər dövlət əhəmiyyətli qərarların qəbul edilməsi məqsədilə qanun çərçivəsində hüquqi fəaliyyətdir. Bu cür fəaliyyət hər bir dövlətin xarici siyasətinin əsas istiqamətlərindən biridir. Əlbəttə, biz Azərbaycan lobbisini güclü lobbilərlə bir səviyyədə tutmuruq. Çünki yəhudi, erməni, yunan, italyan, Çin, irland və digər lobbilər əsrlər boyu formalaşmış və onların yaşadıqları ölkələrin Qanunverici-İcraedici-Məhkəmə hakimiyyətində

yaratdıqları sistem qısa zamanın işi deyil. Son dövrlərin proseslərinə nəzər salsaq Azərbaycan lobbisi mövcudluğun söyləmək olar. Görülən işlər demək olar ki,güclü lobbilərin əldə etdikləri nəticələrdən geri qalmır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra bir müddət Azərbaycan lobbisi deyilən məfhumda boşluq yarandı. Çoxları Azərbaycan lobbisi deyiləndə məhz, müstəqillikdən sonrakı dövrü əsas götürürlər. Lakin tarixi sənədlər və faktlar lobbimizin hələ ötən əsrin əvvəllərindən formalaşmasını inamla söyləmək olar. 1920-cü ildə Azərbaycan Demokratik Respublikasının süqutundan sonra, xarici ölkələrə səpələnən soydaşlarımızın siyasi fəaliyyətini lobbi adlandırmaqolar. Əlimərdan bəy Topçubaşovun 1922-ci ildə Genuya və London, 1923-cü ildə Lozanna konfransındakı fəaliyyət işi M. Ə. Rəsulzadə, C. Hacıbəylinin, sonradan "Azadlıq" radiosunda çalışan azərbaycanlıların siyasi fəaliyyətin lobbiçilik kimi qiymətləndirmək olar.

Ancaq hələ o zamanlar lobbiçilik qanunla tənzimlənmirdi və lobbiçilik termini elmi və hüquqi sənədlərdə qeyd edilmirdi.

1991-ci ildən sonra qeyd etdiyim kimi lobbi anlayışında dərin boşluq var idi və qeyri-peşəkarların lobbi yaratmaq cəhdləri uğursuz nəticələnirdi.

Bu hadisələrin gedişində Azərbaycan iləBirləşmiş Ştatlar arasındaolan anlaşılmaz və ziddiyyətlərdən məharətlə istifadə edən erməni lobbisi 1992-ci ildə oktyabrın 24-də konqresin 102-ci sessiyasının qəbul etdiyi və keçmiş Sovetlər Birliyi Respublikalarından Azərbaycandan savayı digər 12 respublikasına (Ermənistan, Ukrayna və s.) demokratiyanın inkişafı və bazar iqtisadiyyatına keçid məqsədilə 460 milyon dollar həcmində yardım nəzərdə tutan "Azadlığı Müdafiə Aktı" və ona 907-ci əlavənin (Kerri düzəlişi) qəbul edilməsi oldu. Ölkə prezidenti Corc Buş Senatın ona təqdim etdiyi *"Freedom Support ACT-S2532; P.L. 102-SN23"* saylı qanun layihəsini tərəddüd etmədən imzalaması Azərbaycan lobbisinin zəifliyinin nəticəsi idi.

Massaçuçest ştatından seçilən Con Kerrinin təqdim etdiyi layihənin qəbul olunmasına Kapitoli zirvəsində 535 nümayəndədən Mak Konnel, Luçar xanım Ksembium, Skenford və bir neçə şəxs etiraz bildirsə də, onların sayının az olması öz işini gördü.

Əlbəttə ki, real Azərbaycan həqiqətləri barədə məlumatlandırılmayan Amerika ictimaiyyətini yanlış informasiya ilə təmin edən ermənilərin güclü fəaliyyəti dövründə pərakəndə halda adda-budda fəaliyyət göstərən, tərkibi əsasən cənublu soydaşlarımızdan ibarət olan və ən başlıcası isə, Azərbaycan respublikası ilə sabit əlaqəyə malik olmayan və özü də mərkəzdən heç bir real dəstək almayan Azərbaycan diaspor təşkilatlarının lobbiləşdirmə kompaniyası barədə danışmağa dəymәz.

Bu proseslər Azərbaycanı beynəlxalq ictimaiyyətdən ayırdı. Cəmiyyətin fikrilə böyük təsir qüvvəsi olan 907-ci əlavənin qüvvədə qalması, Azərbayca-





nın müharibə şəraitində olması, daxili çəkişmələr Qərbdə ölkənin dəstəklənməsi işində boşluq yaratdı. Amerika Dövlət Departamentinin əleyhdarı olduğu 907-ci əlavənin yumşaldılmasında maraqlı olduğundan qeyri-rəsmi olaraq geosiyasi torpaqlar baxımından Azərbaycanı dəstəkləyir. 1993-cü ilin məlum hadisələri, hakimiyyət dəyişikliyi, Atəşkəs imzalaması, hərbi əməliyyatları dayandırmaq, diplomatik münasibətlərə yer verilməsi səbəbi ilə ciddi nöqsanların aradan qaldırılması istiqamətində satrateji xətt çəkildi.

Bu strateji xəttin özəlliklərindən birini dünya siyasətində böyük çəkiyə malik olan ölkələrdə Azərbaycan icmalarını formalaşdıraraq dövlət strukturlarına müsbət istiqamətdə təsir göstərə biləcək kütləvi təşviqat kompaniyasının Azərbaycan lobbisinin formalaşdırılması daxil idi. Bu isə xaricdə güclü Azərbaycan diasporunun yaradılmasından sonra mümkün ola bilər.

Bu dövrdə Azərbaycan artıq neft ehtiyatları ilə Qərb ölkələrinin maraqlarına daxil olurdu. Dövlət Departamentinin Azərbaycana münasibətlərinin normallaşdırılması istiqamətində apardığı işlər çərçivəsində özəl Amerika neft şirkətləri Xəzərin Neft ehtiyatlarını kəşf etməkdə idi. Xəzər neftinin əhəmiyyətinin artması Azərbaycan regionunun geosiyasi cəhətdən nüfuzunu artırdı. Azərbaycan neft istehsalçısı olmaqla yanaşı, regiondan - Qazaxıstan və Türkmənistandan Transqafqaz neft kəmərilə neft və qazın Qərbə daşınması üçün əlverişli coğrafi şəraitə malik olması Azərbaycan neft lobbisinin formalaşmasına təkan verdi. Xüsusilə, 1994-cü il 20 sentyabr "Əsrin müqaviləsi" - adlandırılan neft kontraktlarının ABŞ, Rusiya, Türkiyə, İran, Avropa dövlətləri, Yaxın Şərq və Yaponiyanın transmilli korporasiyaları ilə imzalanması bu prosesləri gücləndirdi.

Bunun səbəbidir ki,ABŞ siyasi və ictimai xadimlərinin çıxışlarında "neft strateji məhsuldur, Amerika Azərbaycanın neft yataqlarının kəmiyyətini, Küveytin və ABŞ-ın ehtiyatlarına bərabər sayır". "Amerika milli mənafeləri və neft maraqları erməni lobbisindən üstündür" şüarları səsləndirməklə, Azərbaycan naminə lobbiləşmə işinə qoşulurdular.

Breit Skanurfort və ZbiqnevBjezinski kimi ABŞ-ın Milli Təhlükəsizlik üzrə keçmiş müşavirləri, Ağ Ev aparatının keçmiş rəhbəri Con Ayn, keçmiş müdafiə naziri Riçard Çeyni, Ceyms Beyker, Lloyd Beitçi, Riçard Armitac eləcə də, Vaşinqtonun nisbətən aşağı səviyyəli bir sıra digər nümayəndələrilə yanaşı"Texas oyl", "Şevron", "Amoko", "Ekson", "Mobil" kimi neft nəhəngləri Azərbaycanın mənafeyinin qorunması işinə qoşuldular. Bununla paralel maraq Kapitolizirvəsində ABŞ-ın Qafqaz siyasətini idarə edən konqresmenlər və senatorlar arasında balans yaratdı. Li Hamilton, Sem Braunbek, Qordon Smit kimi əvvəllər ermənipərəst konqresmenlərin Azərbaycan lobbiçilərinə çevrilməsi Azərbaycan lobbisinin formalaşmasının bariz nümunəsi idi. Xüsusilə, dövlət başçısı, mərhum Heydər Əliyevin Amerika, Fransa, Rusiya, İngiltərə və s. ölkələrə rəsmi səfərləri zamanı Azərbaycan diasporunun nümayəndələ-

rinin keçirdiyi görüşlər soydaşlarımızın lobbiçilik fəaliyyətinə qoşulmasındamühüm rol oynadı. Azərbaycanın neft strategiyasının dəstəklənməsi işində fəaliyyətini aktivləşdirən diasporumuzun lobbiçilik işi dünya azərbaycanlılarını ətrafında birləşdirən qurumların məqsəd və vəzifələrinə daxil edildi.

Hazırda Dünya Azərbaycanlıları Konqresi, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası, Ümumrusiya Azərbaycanlılar Konqresi, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi, Amerika Azərbaycanlıları Cəmiyyəti və başqadiaspor birlikləri və dövlət qurumları lobbiçilik işini başlıca məqsədlərdən hesab edirlər.

Güclü yəhudi lobbisinin Azərbaycan maraqlarını müdafiə etməsi erməni lobbisi və diasporunun neytrallaşdırılması işində böyük əhəmiyyət kəsb edir. Türk, yəhudi lobbisinin dəstəyi olan Azərbaycanın yeni-yeni formalaşan lobbisi bəzi prinsipial məsələlərdə uğurlar əldə etməyə başlayıb.

2000-ci il sentyabrın 8-də ABŞ-da səfərdə olan ölkə başçısı, mərhum Heydər Əliyevin Amerikanın nüfuzlu yəhudi təşkilatları, Yəhudi Komitəsi, Prezidentlər Konfransının, Yəhudi Konqresinin, Sovet Yəhudiləri Komitəsinin rəhbərlərilə görüşü də Azərbaycan haqq işinin dəstəklənməsi prosesində güclü yəhudi lobbisinin yerini müəyyənləşdirməsində mühüm görüş idi.

Xüsusən, Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin dəstəklənməsi və Xocalı soyqırımının tanıdılması istiqamətində Azərbaycan lobbisinin fəaliyyətini müsbət adlandırmaq olar. Əsasən, Böyük Britaniyada fəaliyyəti ilə seçilən Azərbaycan lobbisi 2003-cü ilin 17 martında Qarabağ münaqişəsi və Bakı-Tbilisi-Ceyhan enerji dəhlizi və digər məsələlərə həsr olunan tədbir tarixi əhəmiyyət daşıyır.Lordlar toplantısının üzvü Lord Əhməd,ABŞ-ın Harvard universitetindəfəaliyyət göstərən Xəzər Tədqiqatlar Mərkəzinin direktoru Brenda Şeffer, Baronessa Keralayn Koks, Vətən Cəmiyyəti, Azərbaycan diasporunun nümayəndələri, DAK və digər rəsmi qonaqların iştirak etdiyi tədbir formalşmaqda olan Azərbaycan lobbisinin gələcək perspektivlərindən xəbər verir. Bu tədbirin ardınca Böyük Britaniya parlamentində Xocalı soyqırımı ilə əlaqəli sənədinqəbul olunmasıtarixi hadisə hesab olunur.

Son zamanların prosesləri ABŞ administrasiyasının Qafqaz siyasəti Azərbaycan amilinə uyğunlaşmasını göstərir. Bu isə Azərbaycan diasporu və lobbisinin rəsmi səviyyədə dəstəklənməsi deməkdir.

ABŞ Konqresinin Məsləhət Şurasında Azərbaycanın əvvəllər hüquqi cəhətdən lobbiçiliyini edən "Lohn Vafai and Associates" - hüquq firmasının sədri Con Vəfai bir sıra muhim işlər görüb. Bütün bunlarartıq Birləşmiş Ştatlarda Azərbaycan lobbisinin fəaliyyətini daha da aktivləşdirirdi. Xüsusən neft lobbisinin fəaliyyəti daha diqqətə layiqdir.

Azərbaycan lobbisinin fəaliyyəti eyni zamanda diasporlarımızın həyatında zəruri bir məqam olmalıdır və bu məsələ dövlət səviyyəsində həyata keçi-





rilməlidir ki, son dövrlərin hadisələri artıq bu istiqamətdə bir sıra addımlar atıldığını göstərir. 1993-cü ildə907-ci əlavənin qüvvədə olmasına baxmayaraqondansonra 3 il ərzində Azərbaycana maliyyə yardımı artmış və Qafqaz respublikalarına edilən humanitar yardım demək olar ki, eyni bərabər səviyyəyə qaldırılmışdır. ABŞ-ın qeyri-hökumət təşkilatları vasitəsilə ölkədə demokratiyanın inkişafı və digər sahələrdə işlərin aparılması üçün əvəzsiz yardımlar - qrantlar yerli QHT-lərə ayrılmışdır. "Eksson", "Mobil", "Amoko", "Şevron", "Yunokal", "Penizoli" kimi şirkətlər Azərbaycan iqtisadiyyatına iri həcmdə uzunmüddətli investisiya qoymağa başlamışlar.

Tibb, sənaye, kənd təsərrüfatı rabitə, tibb və digər sahələrə investisiya qoyuluşu Azərbaycanın geosiyasi mövqeyini və iqtisadi vəziyyətini gücləndirir. Azərbaycan lobbisinin fəaliyyəti Amerika kütləvi informasiya vasitələrində tanınmış politoloqlar və şərhçilər tərəfindən müsbət görmək olar.

Azərbaycan lobbisinin hələ gənc olmasını da nəzərə almaq lazımdır. Digər güclü lobbilərlə nisbətdə qısa müddətdə aparılan işləri uğurlu hesab etmək olar. Zamanla təcrübənin artması, professional mütəxəssislərin lobbiçilik istiqamətində məsləhətləri və planları, dövlət səviyyəsində dəstəyin artması hesabına Azərbaycan lobbisini güclü lobbilər sırasında görmək olar. Fikrimizcə aşağıda qeyd olunan işlər görülsə daha yaxşı olar.

1. İlk növbə olaraq Dağlıq Qarabağ problemini gündəmə gətirmək. Bu istiqamətdə 11 sentyabrdan sonra güclənən antiterror əməliyyatlarının Qarabağda erməni terrorçularına yönəlməsinə çalışmaq. Ermənistanın terrorçu dövlət olması və Qarabağda "Əl-Qayda", "PKK", "ASALA" kimi beynəlxalq terror təşkilatlarına yer verdiyi barəsində ictimaiyyətə çatdırmaq. BMT-nin 884 (1993), 774 (1995), 872 (1999), 853 (1993) saylı qətnamələrinin dərhal icra edilməsinə çalışmaq və bunun üçün Qarabağ həqiqətlərindən bəhs edən dosyeləri hazırlanaraq beynəlxalq ictimaiyyətə yaymaq.

2. "Xocalı", "20 Yanvar" və1918-20-ci illərdə "31 mart"Azərbaycan xalqına ermənilər tərəfindən törədilən soyqırımların beynəlxalq status olmasına nail olmaq. Bu istiqamətdə piket etiraz çıxışları, məktub kompaniyaları, anma günləri, sərgilər təşkil etmək, KİV orqanlarında çıxışlar etmək, rəsmi dövlət səviyyəsində bu günlərin dünya ölkələrində keçirmək.

3. Azərbaycanın neft strategiyasının dəstəklənməsi və bu istiqamətdə görüşlər keçirmək, tədbirlər təşkil etmək, jurnal və bülletenlər, kitablar çap etdirmək. Təbliğat kompaniyası aparmaq və müxtəlif səpkili görüşlər həyata keçirtmək.

4. Yəhudi, türk və digər dost diaspor və lobbilər ilə qarşılıqlı razılaşma əsasında əməkdaşlıq etmək və onların köməyindən istifadə edərək təcrübə toplamaq və qarşıya qoyulan məqsədləri reallaşdırmaq.

5. Azərbaycana humanitar yardım təşkil etmək, Bakı-Vaşinqton, Bakı-Oslo, Bakı-Paris, Bakı-London, Bakı-Tokio, Bakı-Amerika, Bakı-

Moskvaəlaqələrini bütün parametrlər üzrə tərəqqisini genişləndirmək, bu münasibətlərdə sezilən boşluğu doldurmaq və ikitərəfli əlaqələr qurmaq və s.

**AZƏRBAYCAN DİASPORU VƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI:**

Müasir şəraitdə cəmiyyətin ən əsas inkişaf istiqamətlərindən biri cəmiyyət həyatının bütün sahələrinin kompüterləşdirilməsi və informasiyalaşdırılmasıdır. Bu istiqamətdə bütün inkişaf etmiş və etməkdə olan dövlət və ölkələrdə sürətli işlər aparmaqdadır. Dünya ölkələri və dövlətləri *ilə hər sahədə* inteqrasiyaya meylli olan Azərbaycan Respublikasında da oxşar sahədə ciddi tədbirlər həyata keçirilməkdədir. Təkə onu qeyd etmək kifayətdir ki, 2002-ci *ci ilin fevral* ayında Azərbaycan Respublikası *ilə BMT İP* arasında imzalanmış uzunmddətli proqram-layihəyə müvafiq olaraq hazırlanmış "Azərbaycan Respublikasının inkişafı naminə İKT üzrə Milli strategiyasının (2003-2012-ci illər) Azərbaycan Respublikası Prezidenti tərəfindən 17 fevral 2003-cü ildə imzalanmış və qarşıdakı minillik dövr üçün hökumət proqramı statusu almışdır.

"İnformatika" bir elm sahəsi kimi əsasən *son onilliklərdə formalaşmışdır.* İnformasiya və avtomatika sözlərindən yaranmış informatika (ingiliscə informatiks) terminini ilk dəfə fransızlar (1960-cı il) avtomatdaşdırılmış informa*siya emalı sahəsini* adalndırmaq üçün istifadə etmişlər. "İnformatika" termini bəzi hallarda "Kompüter elmi" (Kompüter science) termini ilə uyğunlaşdırılır. Hazırda "İnformatika" informasiya proseslərinin (informasiyanın toplanması, ötürülməsi, saxlanması və emalı) kompüter texniksı vasitələri ilə avtomatlaşdırılmasından bəhs edən elm sahəsi kimi formalaşmışdır. İnformasiya (latınca informatio) öyrənilən və hadisələr haqqında olan bilikləri göstərir. Həmin biliklər müəyyən faktlar və onlar arasındakı asılılıq şəklində ifadə olunur. İnformatikada fakt, məlumat, xəbər çox vaxt "verilənlər" sözü ilə ifadə olunur.

Məhz yuxarıda deyilənləri nəzərə alaraq qlobal əhəmiyyətli və dünyanın istənilən yerindən məlumat alınması və ötürülməsi prosesində informasiya-telekommunikasiya texnologiyalarının rolu və yeri danılmazdır. Son zamanlar isə Azərbaycan diasporuna məxsus sayt və elektron poçt adreslərinin sayının durmadan artması sevindirici hal olmaqla yanaşı, Azərbaycan barədə real həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına böyük təkan verir. İnanırıq ki, belə saytların sayı artdıqca və xaricdə yaşayan azərbaycanlıların informasiya-telekommunikasiya texnologiylarından istifadəyə geniş yer verdikcə bizə *düşmən olan* qüvvələrin neytrallaşdırılmasına və məğlub edilməsinə nail olmaq olar.

Bunların içərisində informasiya-telekommunikasiya texnologiyaları da özünəməxsus yerə malikdir. Onlar özlərində geniş potensial gizlədir. Bu texnologiyaların içərisində internet xüsusi fərqlənir. O, geniş yayılmaqla bərabər, özü ilə telefon, radio və televiziyadan fərqli üstünlüklər gətirir. Səsli və birbaşa danışmaq imkanı yaratmaqla o, telefonu, videofayllar nümayişi ilə televiziyanı, daim yeniləşən publisistik mətnlərlə isə dövri mətbuatı özündə birləşdirir. Bir-biri ilə eyni zamanda yazışmaqla dialoq qurmaq imkanı, saytlar internetin digər vasitələrində olmayan üstün cəhətləridir. Saytlar həm də diaspor üzvlərinin az xərc çəkməklə, öz həmvətənləri ilə gündəlik birbaşa ünsiyyət yaratma vasitəsidir.





İnternet dünyanın istənilən yerindən insanlara zəngin informasiya mənbələrinə çıxış yaradan yeganə vasitədir. Ondan müxtəlif qruplar, dövlətlər, o cümlədən diasporlar da öz məqsədləri üçün istifadə edirlər. Bütün bunlara görə qeyd etmək olar ki, informasiya-telekommunikasiya texnologiyaları diasporla əlaqələr üçün mühüm əhəmiyyətə malikdir. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan diasporu ilə əlaqələrdə *onun rolu bu günə qədər də tam* aydınlığı ilə dərk olunmur. Azərbaycan diasporu da texniki nailiyyətdən istifadə edir. Diaspor icmalarının müxtəlif saytlar var. Bəri başdan qeyd edək ki, ümumiyyətlə, saytların məzmun və dizaynı tez-tez dəyişdirilə bilər. Bunun ən bariz nümunəsi, məzmunu gündəlik yeniləşən xəbər saytlarıdır. Odur ki, burada saytlar haqqında verilən məlumatların hansı tarixdə olduğunun qeyd edilməsi də vacibdir.

***DİASPOR SAYTLARINA ÖTƏRİ BAXIŞ VƏ MƏLUMATLARIN AXTARILMA ÜSULLARI, FORMALARI VƏ NƏTİCƏLƏRİ.***

İlk öncə onu qeyd edək ki, saytlar müxtəlif məqsədlidir. Bunlardan ilk öncə olaraq dövlət tərəfindən yaradılan saytları göstərmək olar. Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin www.diaspora.az, www.diaspora.gov.azsaytları Azərbaycanda baş verən xəbərləri 3 dildə xaricdə yaşayan həmvətənlərimizə verməklə yanaşı diaspora xəbərlərin də ölkə əhalisi üçün çatdırır. Onların arasında neytral informasiya verməyə çalışan saytlardan tutmuş, siyasi məqsədlərə xidmət edərək, birtərəfli, informasiya verən saytlar da vardır; www.diaspora-az.comsaytı Belçikada həmvətənlərimizin saytıdır. O, Azərbaycan haqqında o qədər geniş məlumat verməsə də, vətənimizin aktual problemləri haqqında, milli mentalitet kimi məsələlərə həsr olunmuş publisistik məqalələrə malikdir, Azərbaycanda baş verən siyasi problemlərə münasibətdə isə neytraldır. www.virtualmonitor.orgsaytı RF-də yaşayan bir qrup həmvətənimizə məxsus olub məhz təbliğat xarakterli saytdır. Burada başlıca məqsəd ölkədaxili siyasi hadisələrin analizidir və informasiyada siyasi məqsədlərə xidmət edir. Saytda Azərbaycan, Dağlıq Qarabağ konflikti haqqında məlumat da verilir. Daha bir sayt - www.camah.orgsaytı isə ancaq Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatının saytıdır və yalnız onun haqqında informasiya verir. Bu sayt Azərbaycan haqqında müxtəlif sahələr üzrə ensiklopedik məlumatlar verir. Etnoqrafiya, tarix, mədəniyyət, mətbəx, Dağlıq Qarabağ konflikti haqqında məlumatlar versə də, yuxarıda adı çəkilən

saytdan fərqli olaraq, ölkəmizdə baş verən hadisələrin siyasi analizi və onlara hər hansı aspektdən qiymət verilməsi yoxdur. Bu kimi məsələlərə münasibətdə sayt neytraldır.

Saytların, demək olar ki, hamısında Azərbaycanda nəşr olunan elektron versiyalı qəzetlərin müvafiq versiyalarına istinadlar var. Saytların informasiya zənginliyi və məzmun istiqaməti də eyni deyil. Bu aspektdə onlar bir-birindən kəskin fərqlənir. Ümumrusiya azərbaycanlıları Konqresinin saytı belədir: www.rosazcongress.ru.Bu sayt Vətən haqqında müəyyən məlumatlar verdiyi halda, www. australia-azerbaiyan.hyremart.net saytı Azərbaycan haqqında adından başqa heç bir məlumat vermir: www.gunay.orgsaytı əsasən Güney Azərbaycan problemlərinə diqqət yetirir və informasiya daha çox bu barədədir və ya başqa misal: www.azeri.rusaytının mədəniyyət səhifəsində yalnız vətənimizin görkəmli şəxsiyyətlərindən məlumat verildiyi halda, www.az.eesaytının eyni adlı səhifəsində əsasən Bakıdakı abidələrin fotoqalereyası və cəmi ikicə şəxs - M. Şəhriyar, V. Arzumanlı barədə məlumat var.

Əksər saytlar bir neçə dildədir. Yönəldiyi auditoriyadan və diaspor icmasının yerləşdiyi ölkədən asılı olaraq onların hansı dillərdə olması da dəyişilir. Estoniyada yaşayan azərbaycanlıların saytı www. azeri.ecingilis, rus, azərbaycan dilindən əlavə, həm də eston dilindədir. Azərbaycan dilində saytlara da rast gəlmək mümkündür; məs.: www.azeri.ru,www.rosazcongress.ru saytı yalnız rus və ingilis dillərindədir. Bu, xüsusilə də RF-də yaşayan icmalar üçün doğrudur. www.azerbaijan.rusaytı isə yalnız ana dilimizdədir. Güney azərbaycanlı diaspor icmalarının yaratdıqları saytların bəzən farsdilli variantına da rast gəlmək olar. www.tribun.com saytı belələrindəndir. Haşiyə çıxaraq qeyd edək ki, bu saytda həmçinin audioformatlı fayllar da var. Başqa sözlə desək, saytda əks olunan bir çox informasiyanı səs kimi də qavramaq olar. Bu formaya, ümumiyyətlə, diaspor saytlarında o qədər də rast gəlinmir.

Diasporun internet resursları arasında birbaşa xaricdəki soydaşlarımızın müxtəlif qruplarına yönələn saytlara da rast gəlmək olar. Bu cür saytlardanhttp//www.azerbaijan.rubirbaşa xaricdə, xüsusilə də Rusiyada təhsil alan tələbələrə yönəlib. Burada tələbələr haqqında məlumatlar da sistemləşdirilir. www.azerbaijanis-congress.com saytının bir səhifəsi xüsusi olaraq uşaqlara həsr olunub və maarifləndirici, əyləndirici xarakter daşıyır. Saytların içərisində bəzən vətənpərvərlik hisslərindən qaynaqlanan öyrədici informasiyalara da rast gəlinir. Adı çəkilən saytda uşaqlara məhz latın və ərəb əlifbası, www.azeridilli.kurumui.com saytında isə ana dilimizin qrammatikasını öyrənmək imkanı var. www.azerivoice.org saytı da olduqca maraqlıdır. Burada diaspora xəbərləri ilə yanaşı forum və lobbiçilik məqsədi ilə məktub kompaniyalarına geniş yer verilir. Saytı Amerika Birləşmiş Ştatlarında əvvəllər dərc olunan "Azerivoice" jurnalının internet versiyasıdır.





Rusiyada daha bir diasporumuza məxsus saytlardan biri də www.azerros.ru saytıdır. Rusiya Azərbaycanlılarının Milli Mədəni Muxtariyyəti Federasiyasının eyni adlı qəzeti və onun firtal variantı diasporumuz barədə ətraflı məlumat əldə etməyə imkan yaradır. Saytda Azərbaycan tarixi, mədəniyyəti, musiqisi və digər məlumatlar əks olunmaqla Azərbaycan müğənnilərinin Auidio-Video kasset və disklərinin satışı da həyata keçirilir. Sayt yalnız rus dilindədir və geniş ictimaiyyət üçün nəzərdə tutulub.

Amerika Birləşmiş Ştatlarında isə Amerika azərbaycanlılar Cəmiyyətinin http://usa.azeris.orgsaytı da diasporumuzun bu ölkədə informasiya işinin pis təşkil olunmadığını göstərir. Saytda eyni zamanda burada nəşr olunan "Azerbaijan International" jurnalı ilə də tanış olmaq olar. www.azer.comsaytında yerləşən jurnalı əsas link kimi ön səhifədə yerləşdirilib.

Hollandiyada Azərbaycan diasporuna məxsus www.xazar.netsaytı, www.indyandrerradio.dkDanimarkadakı Azərbaycan Mədəniyyət Ocağı və Danimarkadakı Azərbaycan saytı, Çexiyada www.diasrora.cz , Almaniyadakı www.asav.orgvə digər saytları misal olaraq göstərə bilərik.

Ana dilimizdə olan və ya Azərbaycan dili variantlı saytların böyük əksəriyyətində şrift problemi var.

Azərbaycan Respublikasının özündə şrift problemi artıq standartların yaradılması yolu ilə həll olunmuşdur (Nazirlər Kabinetinin 141 saylı sərəncamı). Lakin diaspor icmalarına məxsus saytlarda müxtəlif şriftlərdən istifadə olunduğu üçün bəzən bir sıra hərflər oxunmur (xüsusən də, "ə" tərfi). Bəzi saytlarda isə "ə" tərfi yerinə "e" hərfi, üstü nöqtəli "a" hərfi və ya "s" əvəzinə "sh" hərf birləşməsi, "ı" hərfi yerinə isə "i", "g" hərfi əvəzinə isə "q" istifadə olunur. Əlavə olaraq bu saytlarda düzgün yazı qaydalarının və ədəbi dil normalarının pozulması halları da mövcuddur. Bütün bunların hamısına birgə www.guney.orgsaytında rast gəlmək olar.

Saytların azərbaycandilli variantlarında güneyli və qüzeyli tərəfindən yaradılmasından asılı olaraq bəzən söz fərqləri hiss edilir; məs.: Güney Azərbaycan mənşəli diaspor icmalarının yaratdıqları saytların fars mənşəli "şomare" (nömrə) sözünə, türk mənşəli "bilyard" (universitet) sözünə və s. rast gəlmək olar. İnternet resursları Azərbaycan diasporunun aktiv informasiya mübadiləsi üçün effektiv vasitədir. Onların nöqsanlarının aradan qaldırılması, məsələn, heç olmasa şriftlərinin standartlaşdırılması saytlarının oxunaqlığını artırar və diaspor üzvləri arasında informasiya mübadiləsini yaxşılaşdırar. Saytlar Azərbaycan diasporunun on azından internetlə məşğul hissəsinin maraqlarının bir qismini müəyyən etməyə, məqsədyönlü təbliğat aparmağa imkan verir. Saytlar vasitəsilə virtual məkanda təbliğat sferası yaratmaqla diasporun vətən haqqında informasiya tələbatını ödəmək olar. Bundan başqa, ondan

maarifləndirici məqsədlərlə istifadə etməklə diaspor üzvlərinin ana dilini, vətənin tarixini öyrənməsinə imkan yaratmaq mümkündür.

Bütün bunların və daha neçə-neçə effektiv işin reallaşdırılması üçün dəqiq və məqsədyönlü layihələr tələb olunur. Düşünürük ki, diasporla əlaqələrin təşkilində məsul dövlət orqanları internetin geniş tikanlarından öz fəaliyyətlərində yararlanacaqlar və virtual diasporu real diaspora qədər vacib amilə çevrilə biləcəklər.

***Qeyd: Azərbaycan diasporunun KİV sahəsində fəaliyyəti gənc tədqiqatçı Rövşən Məmmədovun «Azərbaycan diasporu və mətbuat» kitabında geniş araşdırma aparılıb.***

## AZƏRBAYCAN DİASPORUNUN YAYILMA COĞRAFİYASI:

İlk növbədə onu qeyd etmək vacibdir ki, Azərbaycan diasporunun yayılma coğr afiyası və kon kret sayını m üəyyənləşdirməkdən ötrü say-statistika problemi düzgün həll edilməlidir. Hazırda bu istiqamətdə konkret təqdimat və statistik göstəricilər olmadığından ümumi mülahizələr əsasında Azərbaycan diasporunun yayılma coğrafiyası və təqribi sayını bilmək olar.

Bu istiqamətdə konkret bilgilərin olmaması tarixi, ictimai-siyasi hadisələrlə əlaqəlidir. Hələ ötən əsrin əvvəllərinə, konkret olaraq, Azərbaycan Demokratik Respublikası qurulana qədər ölkədən xaricə mühacirət edən soydaşlarımızın şəxsiyyət vəsiqələrində "rus təbəəsi" yazılması onların millətinin rus kimi qəbul edilməsilə nəticələnirdi. Təəssüf ki, Sovet dövründə də soydaşlarımızın "sovet vətəndaşı" kimi ümumi halda təqdim olunmaları da bu tendensiyanın davamı idi. Sadə bir misal göstərək. Qonşu Rusiyaya köçən azərbaycanlılar tatar, Türkiyəyə köçənlər türk, Azərbaycan türkü kimi qəubl olunur və qeydə alınırdı. Bununla paralel olaraq, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın "İran təbəəsi" - iranlı kimi qəbul olunması prosesi gedirdi.

Demək olar ki, 1918-ci ilə qədər və 1920-ci ildən 1991-ci ilə qədər Şimali və Cənubi Azərbaycandan, Türkiyədən xarici ölkələrə mühacirət edən azərbaycanlıların təxminən 50 faizinin milli mənsubiyyəti bu cür yanlışlıqlara məruz qalıb. Bu hal isə onların rus, türk və İran (fars) diasporlarının tərkib hissəsi kimi götürülməsinə rəvac verirdi. Belə şəraitdə soydaşlarımız adları çəkilən diasporlar içərisində assimilyasiya olunmaq təhlükəsilə üzləşirdilər. Bu cür neqativ durum hazırda Azərbaycan diasporunun yayılma coğrafiyası və konkret sayını dəqiqləşdirmək istəyənləri çətinliyə salır.

Yuxarıda qeyd etdiyimiz kimi, azərbaycanlılar dünyanın 5 qitəsində, müxtəlif ölkələrdə məskunlaşıblar. Şimali və Cənubi Azərbaycandan, Türkiyədən olan soydaşlarımızın fəaliyyəti və diaspor formalaşdırma səviyyəsi müxtəliflik təşkil edir. İlk növbədə Amerika qitəsinə nəzər salaq:





Azərbaycanlılar Amerika qitəsinin Şimal, Mərkəz və Cənub hissəsində çoxlu sayda məskunlaşıblar. Onların sayı Birləşmiş Ştatlarla 800 min 1 milyon arası, Argentinada 12 min, Braziliyada 75 min, Kanadaya 170 min, Meksikada 27 min olaraq göstərilir. Amerika qitəsi ölkələrindən, Honduras, Qvatemala, Peru və digərlərində də soydaşlarımız məskunlaşıblar ki, onların sayını tam olaraq söyləmək çox çətindir. Amerika qitəsində məskunlaşan azərbaycanlıların əksəriyyəti Cənubi Azərbaycandan olan soydaşlarımızdır. 1970-ci ildən başlayaraq Türkiyədəki soydaşlarımızın, 1991-ci ildən etibarən isə şimal azərbaycanlılarının bu qitəyə intensiv mühacirəti nəticəsində oradakı diasporumuzun tərkibinə və sosial-iqtisadi fəaliyyətinə öz təsirini göstərdi. Amerika qitəsində yaşayan azərbaycanlılar arasında köhnə nəslin nümayəndələri yeni nəsil arasında bəzi anlaşılmazlıqların olması Azərbaycan diasporunun formalaşması və təşkilatlanmasına müəyyən qədər maneçilik törədir. Köhnə nəslin nümayəndələrinin çox hissəsi cənublu azərbaycanlılardan ibarətdir və onların madi durumu yüksək səviyyədədir. Uzun illər bu ölkələrdə yaşayan cənublu soydaşlarımız ictimai-siyasi dairələrdə böyük nüfuz əldə ediblər. Yaşadıqları ölkələrin ictimai-siyasi fikrinə təsir etmək iqtidarında olan cənublular, təəssüf ki, Ümumazərbaycan işində passiv mövqedədirlər.

Amerika qitəsinin iki əsas ölkəsi - Birləşmiş Ştatlar və Kanadada ictimai-siyasi fəaliyyətinə görə aktiv olan azərbaycanlıların təşkilatları və KİV-i fəallıq göstərir. Kanada azərbaycanlıları ABŞ-dakı soydaşlarımızdan ictimai-siyasi işlərdə daha fəal və həmrəydirlər. Kanadada köhnə nəsildən olan azərbaycanlılarla yeni nəsil arasındakı anlaşılmazlıqlar aradan qaldırılmaqdadır. Yeni nəslə mənsub azərbaycanlılar bir-birilə intensiv əlaqə saxlayır, milli bayramları birgə keçirir, adət-ənənələrimizi qoruyub saxlamağa çalışırlar.

Bu hal digər Amerika ölkələrində yaşayan azərbaycanlılara da xas olmasına baxmayaraq, onlar adlarının hallanmasını və diqqət mərkəzinə çıxmağı xoşlamırlar.

Azərbaycan diasporunun yayılma coğrafiyası və say tərkibinə görə geniş olduğu ikinci qitə Avropadır. Son zamanların statistik göstəriciləri Avropa azərbaycanlılarının daha fəal, həmrəy olduqlarının göstərir. Avropa azərbaycanlılarının sayı Türkiyədə 3 milyon, Rusiyada 3 milyon, Ukraynada 500 min, Norveçdə 50, Almaniyada 300-500 min arası, Böyük Britaniyada 170, Danimarkada 60, Macarıstanda 27, Fransada 70, İtalıyada 33, Polşada 12, İspaniyada 14, Albaniyada 12, Avstriyada 10, Yunanıstanda 13, Finlandiyada 12, Portuqaliyada 7 min göstərilir. Digər Avropa ölkələrində də azərbaycanlılar məskunlaşıblar və onların sayı müvafiq olaraq hər bir ölkədə 2-10 min arasıdır.

Hollandiya, Belçika, Danimarka, İsveçrə, Almaniyada məskunlaşan soydaşlarımızın əksəriyyəti Türkiyə azərbaycanlılarıdır. Böyük Britaniya, Çexiya, Slovakiya, Polşa, Avstriya, Türkiyə, Estoniya, Belarus, Rusiya, Ukrayna,

Moldova, Litva, Latviya, Gürcüstan, Fransadakı soydaşlarımızın çox hissəsi *şimal azərbaycanlıları, qalan Avropa ölkələrindəkilərin əksəriyyəti isə cənub*lulardır. Türkiyəli azərbaycanlılar ticari, cənubi azərbaycanlılar iqtisadi-elmi, şimallılar isə müxtəlif peşə sahələrində böyük nailiyyətlər əldə ediblər.

Təşkilatlanma baxımından Avropada seçilən azərbaycanlıların maddi və intellektual durumunu kifayət qədər yüksək hesab etmək olar. Türkiyə və cənub azərbaycanlılarından fərqli olaraq, şimallılar hələ də öz mövqelərini Avropada tam şəkildə müəyyənləşdirə bilməyiblər.

Son zamanlar Avropa azərbaycanlılarının ictimai-siyasi fəaliyyətində bir canlanma yaranıb ki, bunun əsas səbəbi Azərbaycan dövlətinin diaspor siyasətinin güclənməsi, müvafiq dövlət qurumunun apardığı səmərəli işlərdir.

Azərbaycan diasporunun üçüncü böyük hissəsi Asiya qitəsindədir. Azərbaycanlıların sayı Banqladeşdə 175 *min*, Birmada 8, Əfqanıstan 450, Hindistanda 300, İndoneziyada 44, İordaniyada 450 min, İraqda 1 milyon, Yəmən Ərəb Respublikasında 35 min, Yəmən Demokratik Respublikasında 22, Küveytdə 18, Monqolustanda 5, Çində 30, Birləşmiş Ərəb Əmirliklərində 55, Omanda 19, Pakistanda 650, Səudiyyə Ərəbistanında 40, Suriyada 95, Orta Asiyada 230 min nəfər göstərir. Asiya qitəsindəki azərbaycanlıların ictimai-siyasi fəaliyyəti çox aşağı səviyyədədir. Bu isə ilk növbədə Asiya ölkələrində mövcud olan ictimai-dövlətçilik quruluşu ilə əlaqələndirilir. Amma son zamanların statistik göstəriciləri azərbaycanlı mühacirlərin üstünlük verdikləri ölkələr içərisində Asiya qitəsindəki məmləkətlərin öndə dayandığından xəbər verir.

Afrika qitəsində də azərbaycanlılar *məskunlaşıblar və onların sayının* Misirdə 900 min, Əlcəzairdə 260, Sudanda 17 min nəfər olduğu bildirilir. Ümumiliklə son zamanların məlumatları Afrikanın digər dövlətləri olan Cənubi Afrika Respublikası, Zair və başqalarında da azərbaycanlıların yaşadıqları faktını ortaya çıxarır.

Avstraliya qitəsində təxminən 8 min azərbaycanlının yaşadığı barədə bilgilər var. Bu qitədə bir neçə Azərbaycan diasporu təşkilatı təsis edilib və onlar əsasən mədəni-kütləvi tədbirlər keçirməklə məşğuldurlar.

***AVSTRİYA:*** Azərbaycan və Avstriya əlaqələrinin tarixi orta əsrlərə təsadüf edir. Əsasən ticarətüzərində qurulan ikitərəfli əlaqələr nəticəsində Azərbaycan xalçaları, zərgərlik məmulatları, ipəyi Bizans və Rusiyadan keçməklə Avropanın bu dövlətinə də gəlib çıxmışdır.

Hələ 1473-cü ildə Azərbaycan, Ağqoyunlular dövlətinin banisi Uzun Həsən Avstriya-Macarıstandan Azərbaycana gələn nümayəndə heyətilə görüşmüş, sonra venesiyalı Katerino Zena vasitəsilə Avropa monarxları, o cümlədən Milan, Avstriya və Macarıstan krallarına məktub göndərmişdir. Sonradan Vyanaya Uzun Həsənin başqa səfiri, venesiyalı Nikolo Qrolo gəlmiş, ikitərəfli əlaqələrin inkişafına çalışmışdır.





Avstriya ilə münasibətlər tarixin sonrakı illərində də davam etmişdir. 1599-cu ildə Səfəvi hökmdarı Şah Abbas başdal Hüseynəli bəy olmaqla digər şəxsləri Avropaya, o cümlədən Avstriyaya səfirliyə göndərmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində də Bakıda Avstriya-Macarıstan konsulluğu fəaliyyət göstərirdi. I Dünya müharibəsindən sonra bu ölkəyə azərbaycanlıların passiv mühacirəti başlayır. Əsasən *iqtisadi və sosial* səbəbli mühacirəti bolşevik işğalından sonra siyasi xarakter alır. Avropanın bir çox ölkələri kimi Avstriyada Azərbaycan siyasi mühacirlərini qəbul edir.

Azərbaycanlıların Avstriyada məskunlaşmasının ikinci böyük dalğasınaII Dünya müharibəsindən sonra əsir düşmüş azərbaycanlıların Vətənə geri qayıtmayaraq, Avstriya ilə paralel digər ölkələrdə məskunlaşmasını aid etmək olar. Təqribən 5 minə yaxınAvstriyada məskunlaşan Sovet vətəndaşlarının müəyyən hissəsi soydaşlarımızidi. Sonradan bu şəxslərə Cənublu və Türkiyəli soydaşlarımızın qoşulması Avstriyada Azərbaycan diasporunun formalaşmasına səbəb yaratmışdır.

Hal-hazırda Avstriyada azərbaycanlıların sayı 9-10 min arası göstərilir. Buradakı soydaşlarımızın siyasi-ictimai fəaliyyəti passivdir. 1994-cü ildə buradakı soydaşlarımızın təşəbbüsü ilə Rəşid Behbudov adına mahnı teatrının konserti təşkil olunmuş, 2000-ci ildə "Qarabağın göz yaşları" adlı tədbir təşkil olunmasına , hər il 28 may müstəqillik günü və Novruz bayramı keçirilməsinə baxmayaraq, belə tədbirlər sırf mədəni-kütləvi səviyyəsindən kənara çıxara bilmir.

Azərbaycan diasporununAvstriyahökuməti yanında Azərbaycan naminə lobbiçilik etməsin istiqamətində də bir sıra cəhdlər olmuş, sonradan maliyyə çətinliyini səbəbilə məqsədlrər tam olaraq çatmaq mümkün olmamışdır. Azərbaycanlılardan fərqli olaraq buradakı erməni diasporu mütəşəkkil təşkil olunaraq ictimaiyyət və hökumətilə iş apara bilirlər. Təəssüf ki, bu sözləri Azərbaycan diasporuna şamil etmək olmaz. Buradakı azərbaycanlılar arasında həm birinci dalğa, həm Cənub-Şimal və Türkiyə qanadları, həm də yeni mühacirətlər arasında fikir ayrılığı var.

Son zamanlar Dövlət-Diaspor münasibətləri istiqamətindəciddi işlərin aparılmaına diqqətin artmasısoydaşlarımızın canlanmasına şərait yaratmışdır. Türk diasporu ilə münasibətləri normallaşdıran Azərbaycan diasporu "Azərbaycan-Türkiyə-Avstriya" ictimai birliyini yaratmağa çalışır. Bu dövlətdə Azərbaycan mətbuatı demək olar ki,:yoxdur. Bu isə informasiya texnologiyalarının yüksək inkişaf etmiş Avropa ölkələrində bizimkilərin passivliyinin bariz nümunəsidir.

Passiv fəaliyyətə baxmayaraq, Avstriyada Azərbaycan diasporuna məxsus bir neçə ictimai-birlik fəaliyyət göstərir.

1. **Azərbaycan Mədəniyyəti Cəmiyyəti** - 1990-cı ildə Vyanada təsis olunub. Əsasən mədəni-kütləvi tədbirlər keçirməklə məşğuldur. İnformasiya təbliğatı sahəsində bəzi işləri var.

2. **Azərbaycan Mədəniyyət Cəmiyyəti** - Qrats şəhərində fəaliyyət göstərən təşkilat adından göründüyü kimi sırf mədəni işlərin təşkili və təbliğatı ilə məşğul olur.

3. **Avstriya-Azərbaycan Ticarət Cəmiyyəti (ASAV)** - Qrats şəhərində təsis edilən Cəmiyyətin əsas fəaliyyət istiqaməti iqtisadi-sosial münasibətləri Avstriya və Azərbaycan arasında inkişaf etməsidir.

5. **Əli bəy Məcidi və Mədəniyyət Cəmiyyəti** - Zalsburq şəhərində mövcud olan bu Cəmiyyət dini-mədəni tədbirlər keçirir, Azərbaycan milli-mənəvi dəyərlərini təbliğ edir.

6. **Yeni Bakı və Vyana Cəmiyyəti** - 1999-cu ildə təsis olunub. Əsasən Qarabağ probleminin təbliğ olunması və mədəni-kütləvi tədbirlərin keçirilməsilə məşğul olur.

*AVSTRALİYA* Dünyanın 5-ci qitəsiAvstraliyada8 minə yaxın soydaşımız məskunlaşıb. Əsasən türkiyəli və cənublu azərbaycanlılardan ibarət olan Azərbaycan diasporunu tərkibi son 10 ildə şimaldan bura iqtisadi mühacirətin artması səbəbi ilə gnü-gündən genişlənir. Avstraliyaya azərbaycanlıların mühacirəti 1950-ci illərdən başlayır. İlk olaraq Türkiyə ilə Avstraliya arasında əmək müqaviləsinin nizamlanması səbəbi ilə buraya Türk mühacirəti içərisində türkiyəli azərbaycanlıların daxil olduğu kütləvi mühacirət başlandı. Əsasən orta sinfin nümayəndələrin içərisində olan azərbaycanlılara ziyalıların çoxluq təşkil etdiyi Cənubi Azərbaycan mühacirlərinində qoşulması burada diasporumuzun formalaşmasına şərait yaradırdı. Müstəqillik əldə edildikdən sonra Avstraliyada fəaliyyətini aktivləşdirən soydaşlarımız bura Azərbaycandan musiqiçilər, alimlər, yazıçılar, incəsənət ustaları bir neçə dəfə dəvət ediblər. Sidneydə Azərbaycanla əlaqəli də müxtəlif tədbirlər həyata keçirilib.

Hazırda türk diasporu ilə mehriban münasibətləri olan Azərbaycan diasporu Avstraliyada siyasi-ictimai işlərdə passivdilər. Burada azərbaycanlıların təbliğat sahəsində ciddi bir iş yoxdur. Düzdür maddi və intellektual cəhətdən normal təmin olunmuş soydaşlarımızın belə passivliyi qənaətbəxş hesab oluna bilməz. Avstraliyada azərbaycanlıları ümumazərbaycan işi naminə ciddi fikir vermirlər. Burada azərbaycanlıların KİV orqanına malik olmaması digər bir ciddi problemdir. Bir neçə Azərbaycan təşkilatıAvstraliyada fəaliyyət göstərməsinə baxmayaraq, onların işi mədəni tədbirlər səviyyəsindən kənara çıxa bilmir.





2. **Azərbaycanlılar Cəmiyyəti** - 1992-ci ildə Sidney şəhərində təsis olunub. Təbliğat, mədəni işlər, lobbiçilik, yerli əhali ilə mehriban münasibətlər qurmaqla məşğul olur.

2. **Azərbaycan Türkləri Birliyi** - Sidney şəhərində fəaliyyət göstərən qurum "Azərbaycanın səsi" radio-stansiyası yaratmağa nail olmuşdur. Hazırda radionun fəaliyyəti dayanıb.

3. **Azərbaycan Mədəniyyət Mərkəzi** - Sidney şəhərində fəaliyyət göstərir. Mədəni, incəsənət tədbirləri həyata keçirən qurum Azərbaycanla əlaqə saxlayır.

*ALMANİYA*: İqtisadi potensialına, zəngin mədəniyyətinə, yüksək həyat tərzinə və digər xüsusiyyətlərinə görə Avropanın mərkəzi hesab olunan Almaniya ilə Azərbaycanın mədəni-iqtisadi-ticari əlaqələrinin tarixi çox qədimdir. Hələ 1473-cü ildə Ağqoyunlu hökmdarı Uzun Həsənin alman imperatoru Fridrix Habsburqa göndərdiyi məktub iki dövlət arasında münasibətlərin qədimliyinin bariz nümunəsidir.

Bu istiqamətdə münasibətlər inkişaf etdikcə, Almaniyanın Azərbaycana marağı artdıqca, almanların Bakıvə digər rayonlara mühacirəti başlayır və eyni proses Almaniyaya Azərbaycandan gedirdi.

Xüsusilə, Almaniyadan Azərbaycana köçənlərdən Yun-Ştillinqin banisi olduğu ***"Xristin Qafqazda zühur etməsi"*** - dini ideologiyanın ardıcılları çoxluq təşkiledirdi. Artıq 1815-ci ildən başlayaraq, Azərbaycanda Ellendorf və Dineşfeld koloniyalarında almanlar məsuknlaşmağa başlamışlar.Forer qardaşlarına məxsus şirkət şərab istehsalına, Simens qardaşlarına məxsus şirkət isə mis və qiymətlifilizləraxtarışlara kapital qoyurdular. Bunlarla yanaşıdigər sahələrdə almanlara məxsus firma və müəssisələr Azərbaycanda fəal çalışırdılar.

Almanların Azərbaycan iqtisadiyyatı ilə yanaşı ədəbiyyatı, mədəniyyəti, incəsənətinə marağı olduqca böyük idi. Bunun nəticəsində Azərbaycana məxsus qədim əlyazmalar, sənət əsərləri zərgərlik məmulatları,xalçalar, saxsı və mis qab-qacaq qədim məişət və ov alətləri Almaniyaya aparılmış və bu günə qədər dəgeri qaytarılmayıb.

1844-cü ildə Mirzə Şəfi Vazehin əsərlərini Almaniyada böyük maraqla qarşılanmasındaFridrix Bodenştedin zəhməti böyükdür. Azərbaycana səfər edən Bodenştedt buranı gəzmiş, söz sərraflığını öyrəndikdən sonra 1851-ci ildə "Mirzə Şəfinin nəğmələri" adlanan kitabı nəşr edir. Sonradan Şəfi şerinə artan marağı nəzərə alaraq buna əlavə bir neçə şer də əlavə edir.

1881-ci ildə isə Almaniyada Fridrix Vilhelm teatrında "Mirzə Şəfinin nəğmələri" adlanan operetda noyabrın 5-də səhnəyə qoyulur. Emil Pol Korxvə Luiz Rotun birgə işi olan operetta burada böyük maraq doğurmuşdur.

Mirzə Şəfi poeziyası ilə paralel olaraq Azərbaycan şifahi və yazılı ədəbiyyatı Almaniyanı fəth etməkdə idi. 1813-cü ildə Almaniyanın tanınmış şairi Hötc 12 fəsildən ibarət "Qərb-Şərq" divanında dahi şairimiz Nizami Gəncəviyə "Oxu kitab" adlanan Şer həsr edib. Bundan əlavə Reman Dits1813-cü ildə «Kitabi-Dədə Qorqud da atalar sözləri, və məsəllər» - mövzusunda kitab çap edib. 1815-ci ildə isə "Basatın Təpəgözü öldürməsi boyu" - alman dilində oxuculara təqdim olunur.

Bu əlaqələr XX əsrin əvvəllərində də intensiv şəkildə davam edib. Almaniyanın Avropada qüdrətli dövlət olması azərbaycanlıların, bu ölkəyə mühacirətinə əsas yaradırdı. Almaniyada artıq 1913-cü ildən etibarən alman kitabxanalarında Azərbaycan bölgəsindən bəhs edən müxtəlif səpkili kitablar mövcud idi ki, onların bəziləri buraköçən ziyalı azərbaycanlılar aparmış idi.

İlk Demokratik Respublikası qurulandan sonra Azərbaycan Almaniyaya50 nəfər tələbə Frayberq, dağ-mədən Akademiyası, Münhen, Dertştad, Leypsiq, Rena, Hamburq universitetlərində təhsil almağa göndərilmiş və onların çox hissəsi burada daimi qalaraq geri dönməmiyiblər.

Şərqdə ilk dəfə qurulan ADR-in süqutundan sonra azərbaycanlıların çoxsaylı köçdükləri ölkələr içərisində Almaniya üstünlük təşkil edirdi. Burada məskunlaşan soydaşlarımız Azərbaycan istiqlalının bərpa olunması istiqamətində fəal iş aparırdılar. Lakin onların fəaliyyətinin ciddi bir nəticəsi olmurdu.

Almaniyada Azərbaycan diasporunun formalaşması və burada yaşayan azərbaycanlıların aktiv fəaliyyəti II Dünya müharibəsi işlərinə təsadüf edir. Sovetlər Birliyinə qarşı müharibədə alman ordularının tərkibində fəaliyyət göstərən Azərbaycan legionerlərinin müəyyən hissəsi artıq Almaniyada çoxdan məskunlaşan soydaşlarımız təşkil edirdi.

Azərbaycanlı legionerləri ruhlandırmaq məqsədilə "Hücum", "Azər", "Milli Birlik" kimi qəzetlərlə yanaşı "Vineta" - adlanan təbliğat şöbəsini radioverilişlər şöbəsində Azərbaycan dilində verilişlər aparılırdı və burada 'Anama məktub", "Novruzgülü", "Milli müstəqillik", "Azərbaycan nə uğrunda döyüşür" - proqramlarının böyük köməyi var idi.

1943-cü isə Berlin şəhərində keçirilən Milli Azərbaycan Qurultayı Ə. F. Düdənginskinin təşəbbüsü ilə keçirilmişdi. Qurultay Almaniyada fəaliyyət göstərən Azərbaycan dəməklərinin vahid orqanının yaradılması işində mühüm rol oynadı. Üçrəngli Azərbaycan milli bayrağının altında keçirilən Qurultayın 5 maddədən ibarət olan qərarlarına; Azərbaycan Demokratik Respublikasının uğurları fəaliyyət dövrü, alman Azərbaycan Dostluğu və türkdilli diasporla mehriban əlaqələr qrulmasından bəhs edən müddəalar daxil idi.

Bu tarixdə Berlin şhərində "Azərbaycan parlamenti" və hökuməti, alman rəhbərliyi tərəfindən rəsmən tanınan "Mühacir Azərbaycan hökuməti" - Azərbaycan diasporunun fəallığı üçün təkan vermişdir.





Azərbaycanlıların lideri M. Ə. Rəsulzadəni alman hökumətinə müharibədən sonra Azərbaycanın taleyi məsələsində razılığın əldə olunmaması bir sıra ziyalı soydaşlarımızın bu ölkəni tərk etməsinə səbəb oldu.

II Dünya müharibəsinin Almaniyanın məğlubiyyəti ilə bitməsi buradakı azərbaycanlıların fəaliyyətinə təsir göstərdi. İctimai fəaliyyətlərini aktivləşdirən soydaşlarımızın çox hissəsinin digər ölkələrə səpələnməsinə baxmayaraq, 1952-ci il sentyabrın 12-dən 19-dək Almaniyanın Ştranberq və Münhen şəhərlərində keçirilən konfransda həvəslə iştirak etdilər. Konransın gedişində İtaliya, Fransa, Almaniya, İran, Türkiyə və Avstriyadan gələn soydaşlarımız "Azərbaycan Milli Məclisi", "Milli Birlik" adlandırılan qurumda birləşərək birgə fəaliyyət göstərmək böarədə müzakirə ediblər.

Lakin zamanla Almaniyada iqtisadi islahatlar aparılması, ölkənin dirçəlməsi yolunda görülən işlər diasporların siyasi fəaliyyətini bir qədər passivləşdirdi. 1980-ci illərin əvvəllərindən yenidən Azərbaycan diasporu burada öz fəaliyyətini genişləndirməyə başladı. Azərbaycan mədəniyyət təşkilatları müxtəlif alman şəhərlərində təsis olunurdu.

XX əsrin son onilliyi və XXI əsrin əvvəlləri bəşər tarixinə bir çox hadisələrlə düşmüşdür ki, bunlara 1989-cu ildə iki Almaniyanın məşhur Berlin sədlərini sökərək birləşməsi Sovetlər Birliyinin çökməsi və Azərbaycanın müstəqillik əldə etməsi Almaniya-Azərbaycan münasibətlərində yeni mərhələ başlamaqla, buradakı azərbaycanlıların fəaliyyətinə təsirini göstərdi. Müstəqil Azərbaycanla hərtərəfli əlaqələr quran Almaniya dövlətimizin ilk poçt markasını pulsuz olaraq hazırlamaqla, digər işləri həyata keçirdi. Təhsil proqramı əsasında azərbaycanlı tələbələrin Almaniyaya oxumağa göndərilməsi, azərbaycanlı həkim, mühəndis, inşaatçı, texnoloqlar və digər peşə sahibləri bu ölkəyə işləmək üçün mühacirəti müstəqillik illərininəsas hadisələrindən idi. Azərbaycanlıların hazırda da kütləvi köçdükləri ölkələr içərisində Almaniya üstünlk təşkil edir.

Almaniyada yaşayan soydaşlarımızın say tərkibinin artması prosesi bu ölkəyə Azərbaycandan kütləvi mühacirəti nəticəsində daha da gücləndi. İqtisadi, tibbi, inşaat, ticari, elmi və digər sahələrdə ikitərəfli əlaqələrin inkişaf etməsinə xidmət edir.

Almaniya diasporumuz Şimallı, Cənub və Türkiyə qanadları arasında ümumi fikir ayrılığına baxmayaraq, bu üç qanad arasında birləşməyə doğru addım müstəqillik illərindən sonra daha da canlandı. Azərbaycanın işğalı Ermənistan tərəfindən müharibəyə sövq edilən, torpaqlarımızın 20%-ni olunan, 20 Yanvar və Xocalı soyqırımları və xalqımızın başına gətirilən digər faciələr Almaniyadakı azərbaycanlılar tərəfindən biganə qarşılanmırdı. Onlar Vətənə, qaçqınlara yardım məqsədilə bir sıra tədbirlər həyata keçirdilər və işdə türk diasporunun rolunu da xüsusi qeyd etmək lazımdır.

Ana dilimiz, milli ənənələrimiz, musiqimiz, mətbəximiz, Almaniyada Azərbaycan diasporu tərəfindən təbliğ olunması işi də sürətləndi. Türk, ərəb, latın və kiril əlifbaları ilə Azərbaycanın tarixi ədəbiyyatına, folkloruna, mədəniyyətinə aid kitabının çapı daha da artmaqla, qəzet və jurnalların sayı nəzərə çarpacaq dərəcədə çoxaldı. Almaniya yeganə dövlətdi ki, burada soydaşlarımız Azərbaycanla bağlı çoxsaylı kitablar nəşr ediblər və hazırda da edirlər.

Almaniya və azərbaycanlıları arasında da problemlər mövcuddur. Azərbaycanlılar Almaniyada əsasən 3 qrupa bölünürlər:

- Rus dilli Azərbaycan vətəndaşları;
- Anadilli azərbaycanlıları;
- İran vətəndaşlığı olan azərbaycanlılar.

Bu qruplar arasında da prinsipial fərqlər görünməkdədir. Rusdilli Azərbaycan vətəndaşı ilə İran vətəndaşı olan soydaşlarımız ictimai-siyasi fəaliyyətləri və təşkilatlanma işinə görə anadilli azərbaycanlılardan seçilirlər. Anadilli soydaşlarımız sosial cəhətdən az inkişaf etmiş təbəqəyə aid olduqlarından gündəlik çörəkpulu və qazanc dalınca qaçırlar. Bu isə görülən işləri əngəllədən əsas amildir. 1 və 2 qrupa aid olan azərbaycanımızın ictimai-siyasi fəaliyyəti passiv də olsa davam edir. Düzünə qalsa Almaniyanın ictimai-siyasi fikrinə təsir etmək iqtidarında olmayan azərbaycanlılar arasında 1992-ci ildə gənc tədqiqatçı Famil Cəfərli sosioloji sorğu aparmışdır və sorğunun nəticələri olduqca maraq doğurur.

***DİASPORUMUZ HAQQINDA NƏ BİLİRİK?*** Almaniyada yşayan azərbaycanlılar arasında keçirilmiş rəy sorğusunun nəticələrinə dair sorğu Almaniyanın Köln, Bonn, Hannover, Böləfeld, Hamburq, Berlin, Kassel, Maynts, Russelshaym, Essen və Münster şəhərlərində yaşayan, mənşə etibarı ilə İran (Cənubi Azərbaycan), Türkiyə və Şimali Azərbaycanı təmsil edən 100 nəfər azərbaycanlı arasında keçirilib.

Rəyi soruşulan mühacirlərin orta yaş göstəricisi 43,4 ilə bərabərdir. Onların 61%-i şəhərlərdə, 39%-i isə kəndlərdə doğulub. Sonuncu qəbildən olanların 90%-dən çoxunu Türkiyənin geridə qalmış kənd təsərrfatı rayonlarından buraya işləməyə gələn azərbaycanlılar təşkil edir.

Azərbaycanlıların hansı səviyyədə təmsil olmalarını aydınlaşdırmaq məqsədilə verilən suala respondentləhin 47%-i ali, 53%-i isə orta təhsili olduqlarını bildirən cavablar yazıblar. Orta təhsilli mühacirlərin 60%-dən çoxunu Türkiyə azərbaycanlıları, 30%-ə qədərini isə cənublu tacirlər, sənətkarlar və təhsil almağa vaxt tapa bilməyən inqilabçılar təşkil edir.

Rəyi soruşlanların 25%-i mühacirətə gələnə qədər vətəndə kənd təsərrüfatı sahəsində çalışıb, 20%-i təhsil almaqla məşğul olub, 10%-i tacir, 10%-i müəllim, 8%-i dövlət məmuru, 5%-i müxtəlif sahələrdə fəhlə olub, qalanları isə jurnalist, həkim, rəssam, xəttat, sürücü, sənətkar, xalçaçı və s. kimi çalışıb. "Vətəndəki həyatınızdan razı idinizmi" sualına onların 36%-i müsbət, 24%-i isə mənfi cavab verib. Vətəndəki həyatından o qədər də razı olmayanlar 38%, tərəddüd edənlər isə 2% təşkil edir.





Sorğu nəticəsində məlum olubki, rəyi soruşulan mühacirlərin 74%-i evli, 23%-i subay, yalnız 3%-i boşananlardır. Məqsədli mühacirətdə olan Türkiyə azərbaycanlıları həm maddi cəhətdən, həm də dövlət himayədarlığı baxımından təmin olunduqları üçün, eləcə də milli adət-ənənələrə hətta Almaniyada da sadiq qaldıqlarına görə, onların arasında evlilik halları başqa qruplara nisbətən daha çoxdur və 90%-dən də artıq təşkil edir. Subay azərbaycanlıların 90%-dən də çoxu isə cənublularin payına düşür. Yeri gəlmişkən, bütün subay cənubluların 75%-i yaşı 35 və daha artıq olanlardır. Bu da öz növbəsində ciddi sosial problemdir. Onlar indiyə qədər evlənməmələrinin səbəbini ya təhsil almaqla məşğul olmaları, ya maddi imkanlarının çatışmazlığı, ya müvafiq gələn azərbaycanlı qızların olmaması, ya da gi, Almaniyada daha çox populyar olan qızlarla dostluğu üstünlük verməlori ilə izah edirlər.

Bütün bu meyllərə baxmayaraq, bütövlükdə rəyi soruşulan azərbaycanlıların 65%-nin uşaqları var və bu ailələrin hər birində orta hesabla 3 uşaq böyüyür. Türkiyədən olan azərbaycanlı ailələrinin payına isə orta hesabla 4 uşaq düşür.

Sorğuda iştirak edən azərbaycanlıların mühacirət etməsindən orta hesabla 15 il keçir. Bu rəqəm Türkiyə mənşəli azərbaycanlılarda 17,3 ilə, İran azərbaycanlılarında 15 ilə, şimallı azərbaycanlılarda isə 4 ilə bərabərdir.

"Mühacirətinizin səbəbi nədir" sualına cavab verən respondentlərin 40%-i işləmək üçün, 40%-i siyasi mühacir kimi, 10%-i təhsil, 7%-i təm siyasi olaraq, həm də təhsil almaq üçün (iui səbəb göstərmişlər), yalnız 3%-i başqa səbəblərə görə gəldiyini söyləyib.

Yeri gəlmişkən qeyd edək ki, Türkiyə mənşəli azərbaycanlıların istisnasız olaraq hamısı Almaniyaya yalnız işləmək üçün gəldiyini bildirib. Siyasi mühacirlərin 90%-i İranın, 10%-i isə Şimali Azərbaycanın payına düşür. Təhsil almaq məqsədilə Almaniyaya gələnlərin isə hasısı cənubludur.

Rəyi soruşulan azərbaycanlıların 23%-i Almaniyanın müxtəlif sənaye müəssisələrində fəhlə kimi çalışır, 7%-i sürücüdür, 11%-i işsizdir, 10%-i tələbədir, 14%-i ticarət və bizneslə məşğuldur. Onlarrın 12%-ni həkimlər və mühəndislər, qalan 23%-ni isə müxtəlif xidmət sahələrində çalışanlar, şirkət və firma işçiləri, rəssamlar, jurnalistlər, təqaüdçülə və b. təşkil edir. Sorğunun nətixələrindən məlum olubki, azərbaycanlı mühacirlərin 56%-i almaniyadakı həyatlarından razıdır. Buradakı həyatlarından bir o qədər də razı olmayanlar 36%, qətiyyən razı olmayanlar isə cəmisi 8% təşkil edir.

Respondentlərin 37%-i alman dilini yaxşı, 56%-i orta, 7%-i isə pis bildiyini söyləyib. Qeyd edək ki, alman dilini yaxşı bilənlərin əksəriyyəti burada təhsil almış mühacirlərdir.

Azərbaycanlı mühacirlərin milli şüurunun və milli özünüdərkinin səviyyəsini öyrənmək baxımından "Özünüzü milliyyətcə necə adlandırırsınız" sualının xüsusi əhəmiyyəti var. Sorğuda iştirak edən mühacirlərin 58%-i bu suala cavab verərkən özünü azərbaycanlı, 23%-i türk, 13%-i azəri türkü, 4%-i iranlı, yalnız 2%-i iranlı azəri kimi tanıdığını bildirib.

"Din ilə siyasətin bir aradan olmasına münasibətiniz necədır" sualının cavabında sorğu iştirakçılarının 86%-i buna mənfi münasibət bəsləyib, 6%-i bitərəf qalaraq "deyə bilmərəm" cavabını verib, yalnız 8%-i bunun müsbət olduğunu vurğulayıb. İslam rejiminin hakim olduğu İrandan mühacirət edən cənubluların heç biri bu suala müsbət cavab verməyib.

"Azərbaycan dilinin hansı əlifbada yazılmasına üstünlük verirsiniz" sualına alınan cavablardan bəlli olub ki, respondentlərin 89%-i latın, 6%-i ərəb, cəmisi 1%-i Kirill əlifbasına tərəfdar olduğunu bildirib, qalan 4%-i isə Kiril və latın, eləcə də ərəb və latın əlifbalarının birgə işlədilməsini istəyib. Türkiyə azərbaycanlılarının istisnasız olaraq hamısının latın əlifbasına üstünlk verməsinin səbəbi öz-özlüyündə aydındır. İran azərbaycanlılarına gəlincə isə, onlar Kirill və ərəb əlifbalarını müvafiq olaraq bu əlifbalardan istifadə edən şimallılarla cənubluların anlaşması yolunda ciddi maneə hesab edir və Şimali Azərbaycanın btünlüklə latın qrafikasına keçəcəyi təqdirdə buradakı zəngin elmi, tarixi, ədəbi və s. informasiyanı daha asan mənimsəyəcəklərinə ümid edirlər.

Sorğunun nəticələrindən məlum olub ki, rəyi soruşulan azərbaycanlı mühacirlərin yalnız 48%-i Şimali Azərbaycanda ən azı bir dəfə olub. Onların 52%-i isə indiyədək öz tarixi vətənlərinin şimal tərəfini görə bilməyiblər. Yeri gəlmişkən, cənublular bu dəfə də özlərinin daha fəal və təşəbbüskar olduqlarını göstəriblər. Belə ki, bütün cənubluların 50%-i, Türkiyə azərbaycanlılarının isə cəmisi 33%-i Şimali Azərbaycanla daha yaxından tanış ola bilib. Vətənlə tanışlığın və birbaşa əlaqələrin o qədər də qənaətbəxş olmamasının nəticəsidir ki, Şimali Azərbaycanda demokratiyanın qələbəsinə inanırsınızmı" sualının cavabında tərəddüdlər, yəni "deyə bilmərəm" cavabı burada 31% təşkil edib. Respondentlərin 55%-i burada demokratiyanın qələbəsinə inandıqlarını, yalnız 14%-i pessimist möqedə durduqlarını bildiriblər.

Almaniyadakı azərbaycanlıların ümumi əhval-ruhiyyəsini öyrənmək baxımından "İki Azərbaycanın nə zamansa birləşəcəyinə inanırsınızmı" sualının da xüsusi əhəmiyyəti var. Belə ki, ikiyə bölünən və bununla da vahid mədəniyyət, vahid psixologiya, vahid tərəqqi məkanından zorla departasiya edilən Azərbaycan xalqının taleyi bu gün xaricdə yaşayan azərbaycanlı mühacirlər





arasında ən aktual mövzu hesab olunur. Rəyi soruşulanların böyük əksəriyyəti 82%-i belə birliyə inandığını deyib, cəmisi 6%-i bu suala mənfi cavab verib, qalan 12%-i isə bu barədə qəti bir söz deyə bilməyərək tərəddüd edib. Sorğuda iştirak edən cənubluların 75%-nin iki Azərbaycanın gələcəyinə münasibətdə daha nikbin mövqedə durması aydın olub.

Məlum olduğu kimi, mühacirət əhalinin sosial, iqtisadi, siyasi və digər səbəblər üzündən baş verən miqrasiyası olmaq etibarı ilə btn dövrlərdə özünə əks olan başqa bir proseslə reemiqrasiya (vətənə dönmə) ilə müşayiət olunub. Azərbaycan mühacirətinin reemiqrasiyaya nə dərəcədə meylli olub-olmamasını aydınlaşdırmaq məqsədilə respondentlərə verilən "Nə zamansa vətənə qayıtmaq fikriniz varmı" sualına alınan cavablar bu baxımdan xüsusilə böyük maraq doğurur. Rəyi soruşulan azərbaycanlı mühacirlərin 65%-i nə zamansa vətənə qayıtmağı planlaşdırır, 14%-i qəti şəkildə geri qayıtmayacaqlarını bildirir, 21%-i isə bu suala konkret cavab verə bilməyərək tərəddüd edir. Yeri gəlmişəkn qeyd edək ki, məqsədli mühacirətə gedən Türkiyə azərbaycanlılarının 90%-ı, cənublularınsa 50%-ə qədəri nə zamansa geri dönmək haqqında düşünür. Almaniyada birdəaolik qalmağa qərar verənlərin əksəriyyəti burada olanlarla ailə quran, uzun mddətdən bəri burada təhsil alıb işləyən "köhnə" mühacirlərdir. Tərəddüd edənlərin 90-95%-ni isə İrandakı mövcud rejimə münasibətdə əsasən gözləmə mövqeyi tutan cənublu siyasi mühacirlər təşkil edir.

"Övladlarınızın məmişəlik olaraq Almaniyada yaşamasına razısınızmı" sualına verilən cavablar remiqrasiya ilə bağlı mülahizələrə bir qədər də aydınlıq gətirib. Mühacirlərin yalnız 11%-i bu suala müsbət cavab verib, 62%-i övladlarının ömrlük olaraq mhacirətdə qalmasına razı olmadığını bildirib, 27%-i isə bu suala heç də konkret olmayan "deyə bilmərəm" cavabını yazıb. Tərəddüd edən respondentlər bu fikirdədirlər ki, Almaniyada həmişəlik qalıb-qalmamaq məsələsi onların uşaqlarının şəxsi işidir və valideynlər övladlarının bu qəbildən olan problemlərinə müdaxilə etməməli, bunların həllini gənclərin öz öhdələrinə buraxmalıdırlar. Övladlarının həmişəlik Almaniyada, mühacirətdə qalmasını istəməyən valideynlər isə belə bir mülahizəni əsas götürürlər ki, mühacirət hər bir adamı ciddi psixoloji, mənəvi sarsıntı və sınaqlarla, eləcə də sərt sosial-iqtisadi problemlərlə üz-üzə qoyur, onu öz milli xüsusiyyətlərindən, adət-ənənələrindən, kültüründən təcrid edərək yabançı cəmiyyətin ikinci, üçüncü dərəcəli üzvünə, bir növ "artıq adama" çevirir. Övladlarının həmişəlik Almaniyada yaşamasına razılıq verən azərbaycanlıların çoxunu almanlarla qarışıq nikahda olanlar təşkil edir ki, onlar da öz uşaqlarının gələcəyi üçün Almaybyada heç bir təhlükənin olmadığına əmindirlər.

Fikrimizcə, xaricdə yaşayan azərbaycanlıların milli-mədəni fəaliyyətinin araşdırılması baxımından, eləcə də bütövlükdə Azərbaycan diasporunu öyrənmək nöqteyi-nəzərindən belə sorğuların nəticələrinin mütləq mənada

olmasa da, hər halda məyyən dərəcədə əhəmiyyətli və hətta əvəzolunmaz rolu ola bilər. Yekun olaraq belə bir faktı da qeyd etmək lazım gəlir ki, əgər sorğunun nəticələrini əsas götürsək, bu gün Almaniyada yaşayan azərbaycanlıların böyük əksəriyyətini daha proqressiv, daha vətənpərvər və daha demokratik olan mühacirlər təşkil edir.

Bu mühacirlər Almaniyada yerli ictimaiyət tərəfindən rəğbətlə qarşılanır. Almaniyada Azərbaycan diasporunun informasiya sahəsindək fəaliyyəti digər ölkələrə nisbətdə daha qənaətbəxş hesab oluna bilər.

Soydaşlarımız Almaniyada "Ana dili" qəzeti, "Savalan", "Xəzər", "21 Azər","Körpü"və s. jurnalları nəşr edirlər. Bundan əlavə Almaniya radio kanallarında bir daha çox saat ANA dilində proqram aparmaq hüququ əldə edən azərbaycanlıların bu işi müsbət haldır. KİV sahəsindən başqa hazırda çoxsaylı təşkilat və mərkəzlər də fəaliyyət göstərir ki, onlar arasında anlaşılmazlıq, fikir ayrılığı və siyasi baxışların xeyli fərqli olmasına baxmayaraq, fəaliyyət göstərirlər:

1. **Azərbaycan Cəmiyyətləri Federasiyası** - 1996-cı ildə Almaniyada fəaliyyət göstərən cəmiyyətlərin əlaqələndirici quruluşu kimi təsis olunur. Berlin şəhərində fəaliyyət göstərən cəmiyyət mədəni, təbliğat istiqamətində iş aparır.

2. **"Bakılı" Cəmiyyəti** - 1992-ci ilin iyun ayının 2-də Maynts şəhərində təsis olunur. Təbliğat informasiya mədəni və kütləvi tədbirlər keçirməklə məşğul olur.

3. **Azərbaycan-Türk Mədəniyyəti Mərkəzi** - 2000-ci ilin noyabr ayında Berlin şəhərində təsis edilən cəmiyyət, Almaniyada yaşayan azərbaycanlılar və digər türkdilli xalqlar arasında iş aparmağı qarşısına məqsəd qoyub.

4. **Azərbaycan-Almaniya Birliyi** - 1986-cı ildə Berlin şəhərində təsis olunan qurum bir sıra istiqamətlərdə artıq iş aparır. Xüsusilə Azərbaycan dili, mədəniyyəti, tarixinin təbliğ olunmasını məqsəd qoyub.

5. **"Ocaq" Cəmiyyəti** - 1968-ci ildə Berlində təsis olunan qurum mədəni-kütləvi-ədəbi-təbliğat və tədbirlər keçirməklə məşğuldur.

6. **"Azərbaycan Dostları Birliyi" Cəmiyyəti** - Frankfurt şəhərində 2003-cü ilin avqust ayında təsis olunur. Azərbaycanlılar, türklər, almanlar, İraq türkmanları, fransızlardan təşkil olunan cəmiyyət Azərbaycan barədə informasiya blokadasını aradan qaldırmaqla, ölkəmizi beynəlxalq aləmdə tanıtdırmaqdır.

7. **"Odlar yurdu" Mədəniyyət və Təhsil Cəmiyyəti** - 2003-cü ilin avqust-sentyabr ayında təsis olunaraq, Berlin şəhərində yerləşən qurumun təbliği azərbaycanlılar arasında həmrəyliyə nail olmaq, mədəni tədbirlər və s. işlərin əsas fəaliyyət istiqaməti kimi önünə qoyub.





8. **"Nizami Gəncəvi" adına Mədəniyyət İnstitutu** - 2003-cü ilin oktyabr ayında yaradılıb. Dil kursları, tərcümə, alman-azərbaycan dostluğu, dövlətlərarası münasibətlərin normallaşdırılması, mədəni və informasiya işi və s. məqsəd kimi İnstitut rəhbərliyi tərəfindən götürülüb.

9. **"Xəzər" cəmiyyəti** - 1990-cı ildə Bankover şəhərində təsis edilən cəmiyyət digər qurumlar kimi dini, mədəni-kütləvi tədbirlər və işlər görməyi məqsəd kimi qarşısına qoyub.

10. **Azərbaycan Türklərinin Mədəniyyət Mərkəzi** - 1997-ci ildə Frankfurt-Maynts şəhərində təsis edilən qurum adından göründüyü kimi sırf mədəni işlərlə məşğul olur.

11. **Maynts-Azərbaycan Cəmiyyəti** - 1993-cü ildə Maynts şəhərində yaradılan Cəmiyyətin əsas fəaliyyətiazərbaycanlıların həmrəyliyinə nail olmaq və türk kültürünü, dilini, mədəniyyətini, folklorunu təbliğ etməkdir.

12. **Azərbaycan Kültür Cəmiyyəti** - 1990-cıldə Ştutqart şəhərində təsis olunan qurum Azərbaycan dili, mədəniyyəti, folkloru, tarixi, tətbiqi sənəti inkişaf etdirməyə çalışır.

13. **Azərbaycan Kültür və Dayanışma Cəmiyyəti** - 1990-cı ildə Bonn şəhərində yaradılan qurumun fəaliyyəti də digərlərindən fərqlənmir.

Bu təşkilatlardan başqa «Azərbaycan Kültür Ocağı», "Qarabağ Təşəbbüsü", "Alman-Azərbaycan Cəmiyyəti", "Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti", "Üfüq Mədəniyyət Ocağı", "Maynts-Azərbaycan-Türk-Alman Mədəniyyəti və ostluğu Cəmiyyəti", "Azərbaycan Kültür Dərnəyi", "Almaniya-Azərbaycan Qadınlar Birliyi", "Azərbaycan", "21 Azəri", "Təbriz ocağı", "Azəri Cəmiyyəti", "Azərbaycan Türk Cəmiyyəti", "Azərbaycan Türk Cəmiyyəti", "Təbriz Müdafiə Komitəsi", "Azərbaycana Yardım Cəmiyyəti", "Azərbaycan Təşkilatları Federasiyası", "İran Azərbaycanlılar Cəmiyyəti", "Azərbaycan Təşkilatları Federasiyası", "İran Azərbaycanı Kültür Dərnəyi" adları çəkilən təşkilatların çox hissəsi sadəcə kağız üzərində olan təşkilatlardan hesab olunur. Bu qurumların bəziləri bütün Azərbaycanı işlə, bəzilərim İran meyilli, bəziləri Türkiyə meyillidirlər. Bəzi təşkilatlar isə ümumilikdə heç bir tərəf saxlamır və bir neçə qohumun ətrafında toplayıb fəaliyyət göstərir. Alman qanunlarına əsasən 7 nəfər birləşib qurum yarada bilər.Bu hüquqdan istifadə edən azərbaycanlılar öz qohum-əqrəba və tanışlarından ibarət olan təşkilat yaradıblar. Bu təşkilatlardan da nə isə ciddi bir iş tələb etmək qeyri-mümkündür. Almaniyadan azərbaycanlıların bəziləriAzərbaycan işinə xidmət etmək istəmirlər və özlərini Vətəndən kənarda yaşayanbu şəxsləri başa düşmək də qeyri-mümkndür. Gizli, qapalı mövqedə qalmağa üstünlük verən bəzi soydaşlarımızisə tamamilə "KKB", "DTK", xofu altında yaşayır ki, onların mövqeyi də başadüşülməzdir. Yalnız mədəni-kütləvi tədbirlərdə iştirak edən Almaniyaazərbaycanlıları siyasi işlərə maraqgöstərmirlər. Bunun əsas səbəbi soydaşlarımızın siyasi baxışları və milliideologiyasınınzəif olmasıdır.

***AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI:*** Dünyanın qüdrətli dövləti olan Amerika tarixi qaranlıq faktlarla doludur. Amerikanın nə zaman və kimlər tərəfindən kəşf olunması, yerli əhalinin milli və etnik kimliyi tədqiqatçılar arasında mübahisə doğuran məsələdir. Bugünkü Amerika isə mühacirlər ölkəsidir. İlk mühacirlər tarix boyu baş verən proseslər səbəbilə həm assimilyasiyaya məruz qalmış, həm də məhv olmuşdur. Son məlumatlara görə Amerika torpaqlarının yerli əhalisi sayılan insanlarınrəsmisayı 100 min 300 min arası göstərilir.

Amerikanın əhalinin siyahıyaalma Bürosunun (US Gensus Bureu): 2001-2002-ci illər arası yaydığı məlumatda hazırda ölkəəhalisinin 12,2% -i qaradərilər, 4% -i Asiya mənşəlilər, 70% -i ağdərililər, 2,7% - i aborigenlər (hindular, eskimolar) təşkil edir ki, bunlar içərisində sayı 800 min - 1 milyon arası göstərilən azərbaycanlılar da var.

Azərbaycanlıların Amerikaya mühacirəti barədə dəqiq tarixi məlumat yoxdur. Bəzi mənbələrdə XVII əsrdə Rusiyadan, Osmanlı Türkiyəsindən və Azərbaycanın özündə bu dövlətə mühacirlərin getməsi barədə fikir söylənir, lakin bu fikirlər rəsmən təsdiqlənmir. Bu səbəblə Birləşmiş Ştatlara azərbaycanlıların mühacirət tarixi XIX əsrin sonu XX əsrin əvvəlindən götürülür ki, buradan köçən həmvətənlərimiz azərbaycanlı kimi qeydiyyata məhz bu tarixdən düşməyə başlayıblar. İlk Amerikaya köçən soydaşlarımız əsasən tacirlər və ziyalı təbəqəsi idi. Şərti olaraq Birləşmiş Ştatlara Azərbaycan mühacirətini 4 dövrə bölmək olar:

1. *XIX əsrin sonu XX əsrin 20-ci illəri:* Bu dövrə Amerikaya köçən mühacirlərin tərkibi yəhudilər, ermənilər və Azərbaycan türklərindən ibarət idi. Azərbaycanlıların bəziləri yəhudi və ermənilərlə nigah bağlayaraq burayaköçürdülər və onların geri qayıtmaq barədə fikirləri yox idi. İran təbəəsi, Rus təbəəsi kimi qeydiyyata düşən azərbaycanlıların milli kimliyi rus və iranlı olaraqgöstərilirdi. Bu dövrün mühacirləri sayca az olmaları və onların fikirlərinin Vətən, millət anlayışları ilə üst-üstə düşməmələri səbəbilə Azərbaycan diasporunun təməlinin qoyuluşu bu dövrə təsadüf etməmədi. Buna həm də bəzi sosial-siyasi aspektlər mane olurdu. Hadisələrin sonrakı gedişi göstərib ki,bu dövrün mühacirlərinin çox hissəsi kölgədə qalmağa üstünlük veriblər.

2. *1920-1940-cı illər:* Bu illər arası Birləşmiş Ştatlara axını güclənən azərbaycanlıların burada məskunlaşma səbəbi siyasi mühacirət idi. 1920-ci ildə bolşeviklərin Azərbaycan Demokratik Respublikasının süquta uğramasından sonra Avropa və Asiya ölkələri ilə yanaşı olaraq Amerikayaçoxsaylı köçən azərbaycanlıların bu işlərdə siyasi fəaliyyəti bir qədər aktiv idi. Lakin onların burada nə sosial bazası, nə də formalaşmış icması yox idi. Amerikaya bu illər köçən azərbaycanlılar pərakəndə halda bir neçə ştatda məskunlaşmış-





lar. Zamanla Azərbaycan icması formalaşmağa başladı ki, bunun təşkilatçısı ziyalı təbəqəsi idi. Cənubi Azərbaycandan və Şimaldan gələnlər arasında əlaqələr çətin qurulurdu. Cənublluların çox hissəsi iqtisadi səbəblə mühacirət etdiklərindən, yalnız maddi imkanların normallaşdırılması ilə məşğul olurdular. Bu səbəbdən də bu illər arası Azərbaycan diasporunun formalaşması, təşkilatlanması işi demək olar ki, getməmişdir.

3. *1945-1990-cı illər:* Bu illər arası Amerikaya köçən azərbaycanlıların əksər hissəsini II Dünya müharibəsində əsir düşmüş azərbaycanlı əsgərlərlə yanaşıCənubi Azərbaycandan mürtəce hərbi diktatura rəsmilərinə etiraz edənlər, təhsil almaq məqsədilə Cənubdan köçənlər və 79-cu ildə İran rejimindən qaçan soydaşlarımız təşkil edirdi.

II Dünya müharibəsindən sonra ABŞ-daAzərbaycan diasporununtəşkilatlanma işigüclənməklə siyasi aktivlik dövrü başlandı. Türkiyədən, Cənubdan və Şimaldan köçən azərbaycanlılar pərakəndə halda olsalar da, siyasi işlərlə məşğul idilər və ilk dəfə olaraq 1947-ci ildə TürkiyədənABŞ-a köçən soydaşlarımızın"Azərbaycan" cəmiyyətini yaratmasımühüm tarixi hadisə idi. Saleh bəy Şeyxzamanovun rəhbərliyi ilə fəaliyyətə başlayan «Azərbaycan» cəmiyyəti Nyu-York şəhərində yerləşməklə, ictimai-siyasi fəaliyyəti diqqətəlayiq idi. «Zəbt olunmuş millətlər» adlı keçmiş Sovet Respublikalarının təşkilatlarınınbirləşdiyi birliyin üzvü olan "Azərbaycan" cəmiyyəti Amerika hökumətinin maddi və mənəvi yardımı ilə fəaliyyət göstərib.

II Dünya müharibəsindən sonra azərbaycanlıların fəaliyyətinə baxmayaraq, diaspordaxiliproblemlər çox idi. Bu dövrdə soydaşlarımızın əsas problemiAmerikada yaşamaq hüququ əldə etmək üçün naturallaşdırma haqqında sertifikat əldə edən zaman onların əksəriyyətinin milliyyətininrus və ya iranlı yazılması idi. Azərbaycanlılar ilk illər ABŞ-da çox təzyiqlərə məruz qalmalarına baxmayaraq, 1940-cı ildən sonra yaradılan«Amerika Komitəsi» onlarıqorumağa başlamasından sonra vəziyyət dəyişilməyə başladı. Soydaşlarımız öz haqq səslərini dünya birliyinə çatırmaqla parelel olaraqSovetlərdə işğal altında olan Azərbaycanın müstəqilliyinin bərpası istiqamətində işlərini fəallaşdırdılar. İlk dəfə olaraq 1954-cü ildə Azərbaycan mühacirətinin tanınmış nümayəndəsi Zahid xan Xoyski 1984-cü ildə Amerikanın ali qanunvericiorqanında çıxış etdi. KonqresdəSovetlər Birliyinin Milli Respublikaları haqqında məsələnin müzakirəsi zamanı Azərbaycan təmsilçisi kimi Zahid xan Xoyski bura dəvət olunmuşdur. Konqresdə Zahid xan Azərbaycan müstəqilliyinin bərpası barədə çıxış etmiş və Vətənmizbarədə ətraflı məlumat vermişdir.

Zahid xanla paralel olaraq digər azərbaycanlılar Azərbaycan müstəqilliyi uğrunda iş aparırdılar. 1942-ci ildə açılan "Amerikanın səsi" radiostansiyası vasitəsilə Azərbaycan və azərbaycanlılar barədə informasiyalar səslənir, milli kimliyimizi, musiqimizi, ədəbiyyatımızı, dilimizi, mətbəximizi və digər ənə-

nələrimizinqorunub saxlanılması və təbliği istiqamətində işlər görülməsi başlandı.

Avropada yaşayan soydaşlarımız 1990-cı ilə qədər zamanla ABŞ-a köçdükcə diasporumuz daha da qüvvətlənir və say tərkibi genişlənirdi. Azərbaycan təşkilatlarının sayı artırdı. Burada məskunlaşan soydaşlarımız yəhudi, rus, türk və digər xalqlarla qarışıq nigaha girirdilər. Bu səbəbdən də onlardan sonra gələn yeni, saf azərbaycanlı ictimasını yarada bilmədilər. Diasporumuzun müəyyən hissəsi,yeni azərbaycanlı nəsli deyil, amerikalı kimi yetişirdi və onların dünyagörüşü, baxışları siyasi fikirləri kosmopolit ideyaya daha çox yaxındır. İlk zamanlar yaşlı nəsil bir-birlərilə müxtəlif klub və cəmiyyətlər vasitəsilə əlaqə qururdursa, zaman öz işini görürdü. İnsanlar qocaldıqca gedişgəliş çətinləşir, ailə problemləri onların ənənəvi görüşlərinə mane olurdular. Yaşlı nəsildən fərqli olaraq isə gənc nəsil bu cürə klublara maraq göstərmir, amerikalı gənclərdən fərqlənmək istəmirdilər.

Amerika azərbaycanlıları yaşadıqları ölkənin layiqli vətəndaşı olmaq üçün bütün hüquqlardan istifadə ediblər. Vyetnam müharibəsi, Körfəz savaş, digər bölgələrdə Amerika hərbi qüvvələri tərkibində xidmət edən azərbaycanlılar vətəndaşlıq borclarını yerinə layiqincə yetiriblər və yetirməkdədirlər.

Amerikanın ali məktəblərdə hüquq, iqtisadiyyat, texniki elmlər üzrə ixtisaslaşıb öz sahələri üzrə məşhurlaşan soydaşlarımız da az olmayıb və onların çoxu bu gün də yaşayırlar.

Amerikanın neft, texnika, iqtisadiyyat,kosmik tədqiqatlar, hüquq sovetlərində nüfuz əldə eldən soydaşlarımızdan: NASA-da k osmonavtika sahəsi üzrə Cavad Herti, dünya şöhrətli alim Lütfizadə; qaz lazerini kəşf edərək 1993-cü ildə Albert Eynşteyn mükafatına layiq görülənƏli Cavan; neft sənayesi üzrə məşhur alim Bican Fəzullahi; neft biznesmeni və neft sənayesi üzrə mütəxəssis Firudin Əminzadə və onlarla şəxsləri misal göstərmək olar.

*4. 1991-və müasir dövr:* Azərbaycan Respublikası 1991-ci il 18 oktyabr dövlət müstəqilliyini əldə etdikdən sonra iqtisadi-sosial səbəbli mühacirət Qərb ölkələrinə, xüsusən ABŞ-abaşlandı. Nəzarətsiz halda baş verən mühacirət prosesinin iştirakıları ; Amerikanın ölkəmizdəki səfirliyinin "Green Card" sistemindən yaralanan, bu ölkədəki qohumlarının vasitəsilə buraya köçənlər , təhsil, işləmək və digər vasitələrlə vətəni tərk edən insanlar idilər.

Azərbaycanda başlanan yeni kütləvi mühacirət axını ilə yanaşıölkədəbaşverən ictimai-siyasi proseslər əlbəttə ki, Amerikadakı Azərbaycan diasporunun fəaliyyətinə təsir göstərdi. Diasporumuz ilk növbə olaraq Bakıda 1990-cı ildə ruslar tərəfindən həyata keçirilən Qanlı Yanvar hadisəsinə etiraz səslərini ucaltdılar. Bunun ardınca 1997-ci ildə lobbimizin olmaması səbəbilə Azərbaycana qarşı qəbul edilənədalətsiz 907-ci düzəlişə qarşıAmerika azərbaycanlılarının çıxışı başlandı. Dağlıq Qarabağ ətrafında Ermənistanın təcavüzkarlıq siyasəti və BMT-nin 1992-ci ildə qəbul etdiyi qətnamələrə əməl edilməməsi və 1992-ci il 26 fevral ***Əsrin faciəsi Xocalı soyqırımının*** baş verməsi Amerikada Azərbaycan diasporu tərəfindən qəzəblə qarşılandı. Azərbaycan diasporununABŞ-dactiraz səslərin ucaltmasına baxmayaraq say azlığı vəsiyasi passivlikonun yüksək dairələr çatmasına maneçilik törədirdi.





Birləşmiş Ştatlarda 1999 və 2002-ci illərdə Azərbaycan diasporu barədə statistik göstəricilərin əldə edilməsi bir-birindən fərqlənməklə irəliləyişlərin olduğunun bariz nümunəsidir. 1994-cü il "Səhər" qəzetində dərc olunan göstəricilər aşağıdakı kimi sıralanır:

- Amerikada yaşayan Azərbaycanlıların 91%-i özlərini cənublu, 9%-i şimaldan olanlardır.
- Amerikalı azərbaycanlıların 55%-i demokrat, 40%-i isə respublikaçıdır.
- Amerikada yaşayan azərbaycanlıların 82%-i 4 illik kollec və universitet təhsili var.
- Orta amerikalı azərbaycanlıların ailəsi 4 nəfərdən ibarətdir. Belə ailələrin illik gəliri 49.000 dolları əhatə edir.
- Amerikan azərbaycanlıları orta ömür həddi qadınlar üçün 82, kişilər üçün 76 ildir.

Bu statistikadan göründüyü kimi amerikalı soydaşlarımızın çox hissəsi Cənubi Azərbaycandan olanlardır. Lakin burada bəzi məqamlar var ki, şimallılar özləri barədə məlumat verməkdən çəkiniblər.

2002-ci il statistikası isəAzərbaycan diasporunun Şimal qanadının faizinin çoxalması ilə paralel olaraq azərbaycanlıların sosial-iqtismadi durumunun gücləndiyini göstərir.

Azərbaycanlılar kompakt halda Nyu-York, Los-Anjelos, Batton-Ruj, Miçiqan, Nyu-Cersi, Vaşinqton vədigər şəhərlərdəməskunlaşıblar. Azərbaycanlılar ən çox biznes və xidmət sferasında üstünlük təşkil edirlər.

Azərbaycan diasporunun siyasi və ictimai passivliyini aşağıdakı səbəblərlə əlaqələndirirlər: Azərbaycan diasporu ABŞ-da azsaylı və gəncdir.

**ABŞ-dakı azərbaycanlıların 60%-i cənublu, 35%-i şimallı, 5%-i Türkiyədə olanlardır.**

**Azərbaycanlıların 23% - orta sinfə, 21% - orta sinifdən aşağı təbəqəyə, 16%-i isə aylıq gəliri 400 minə yaxından çox olan zəngillər təbəqəsinə aiddirlər.**

**Birləşmiş Ştatlarda azərbaycanlılar arasında aylıq gəliri 200 min 1 milyon dollar olan 13 nəfər və hər ay qazandığı pulun məbləğinin 1 milyon dollardan çox olan 38 milyonçu var.**

Dıasporumuz daxili konsolidasiya mərhələsidir və eyni zamanda azərbaycanlıların Amerika ictimaiyyətinə arentasiya inteqrasiyası gedir.

Azərbaycan diasporu Amerikada hələ öz yerini tam olaraq müəyyən etməyib.

Azərbaycan diasporunun tərkibi bir dövləti deyil, yəni üstünlüyü türkiyəli və cənublular təşkil edir.

Bu üç diaspor qanadı arasında ümumi fikir yoxdur və onlar çox məsələdə ümumi dil tapa bilmirlər.

Azərbaycan diasporunun son zamanlar fəallaşması və Amerika hökuməti tərəfindən dəstəklənməsitəşkilatlarımızın fəaliyyətində və lobbiçilik fəaliyyətində özünü göstərir. Bunu aşağıdakı səbəblə amerikalı təşkilatlar bağlayırlar:

**Ağ evin geosiyasivə dünyəvi strateji maraqlarının reallaşması.**

**Azərbaycanın əlverişli coğrafi məkanda yerləşməsi və zəngin təbii resurslarının olması.**

**Dünyanın mühüm yeri olan Asiya - Sakit okean regionunda Azərbaycanın rolunun artması.**

**Azərbaycanın reallaşdırdığı iqtisadi kontraktlar və Amerika kapitalının reallığında üstünlük təşkil etməsi**

Göründüyü kimi Azərbaycanın beynəlxalq ölkədə nüfuzunun artması Azərbaycan diasporunun fəaliyyətində ciddi təsir göstərir. Lakin hər şey göründüyü kimi daha asan deyil. Amerikada Azərbaycan diasporu içərisindəbir çox problemlər var ki, onların həlli hələ uzun müddət tələb edir.

İlk böyük problem diasporumuzda dağınıqlıq və pərakəndəlikdir. Onların Vətənlə əlaqələri hələ də yarıtmaz səviyyədədir. Güclü maddi və intellektual imkanlara malik olan bir çox azərbaycanlılar kölgədə qalmağa üstünlük verir və Azərbaycana investisiya qoymaq barədə fikirləşmir və keçirilən tədbirlərə nə maddi, nə də mənəvi köməklik göstərirlər. Amerikalı Azərbaycanlılar hələ də Azərbaycanın müstəqil dövlət olmasına baxmayaraq, «DTK» və «KKB» xofun üzərlərindən atmayıblar. Onlarla əlaqəquran şəxslərlə çox ehtiyatlı davranan azərbaycanlılar mütləq kiminsə onların tanıdığı şəxsin zamin durmasını tələb edirlər.

Cənublu soydaşlarımızın əksər hissəsi azərbaycanlı olduğunu danırlarvə özlərini iranlı kimi göstərirlər. İrançılıq mövqeyi hətta bir-iki dəfə rəsmi görüşlərdə özünü açıq-aşkar büruzə verib. Dünya Azərbaycanlıları Konqresinin I və II Qurultaylarında baş üzərindəİran yoxsa Azərbaycan bayrağı olması məsələsi çox qızğın müzakirələrə səbəb olmuşdur. Onlarlasöhbət etdiyim zaman azərbaycanlı kəlməsini ehtiyatla işlətməsi halları ilə dəfələrlə qarşılaşmışam





və məni təəssüfləndirənhələ də fars diliiinAmerikadakı Cənub qanadının əsas ünsiyyət dili kimi qalmasıdır.

Amerikalı azərbaycanlıları Vətənlə bağlayan onların musiqiyə, ədəbiyyatımıza, mətbəximizə olan nostalji hisslərdir desək, bəlkə də yanılmarıq. Düzdür, bu hissləri yaşayıb siyasi işlə məşğul olan şəxslər də var, ancaq onların sayı 1 milyonluq azərbaycanlılar içərisində gözəgörünməzdir.

Azərbaycan diasporu arasında olan böyük problemlərdən biri də əlifba ANA DİLməsələsidir. Amerikalı soydaşlarımızın bir hissəsi kiril əlifbası, bir hissəsi ərəb əlifbası, bir hissəsi latın əlifbasından istifadə edirlər. Bir hissəsi isə ümumilikdə ana dildən vərəlifbadan uzaqdırlar. Əlifba dil probelmiAzərbaycan diasporunun fəaliyyətinə ciddi təsir göstərir. Şimali və Cənubi azərbaycanlılar arasında əlaqələr də passiv vəziyyətdə davam edir. Rus, fars, türk və azərbaycan dili diasporumuzun əsas məişət dilləridir. Amerikada Azərbaycan dili və bazar günü məktəbləri vədil kursları olsada onların fəaliyyəti çox da qənaətbəxş deyil.

Amerikada Azərbaycan diasporunun nümayəndələri kimi özlərini hesab edənBakılı yəhudilərin fəaliyyətisə daha diqqətəlayiqdir. Azərbaycan naminə gördüyü işləri müsbət qiymətləndirən Azərbaycan yəhudiləri, "Evreyskiy mir", "Veçnıy Nö-York", "Russkaə reklama", "Nevstay", "New Vorker" mətbuat orqanlarında çıxış edərkən Azərbaycanı dəstəkləyirlər. YəhudilərinNyu-York, Los-Anjelos, Vaşinqton və digər iri şəhərdəki ofis və ticari mənbələri azərbaycandan olan şəxslərin yığıldığı yerlərdən biridir.

Bu gün "Tehranseles", "Bakı-Kalambus", "Təbrizfiya" məhəllələri Los-Anjelos, Pitt Kalambus, Vest-Delfiya şəhərlərində formalaşıb. Pitt Kambusda ingilis vəispan dillərilə yanaşı Azərbaycan dilində reklam və elanlara da rast gəlmək olar. 2001-ci ildə isə Vest-Delfiyada merazərbaycanlı olan Mehmet Azəri seçilmişdir. San-Fransisko, Los-Anjelos, Vaşinqton da Azərbaycan dilini radio-dalğalarda eşitmək olar. Azərbaycan və Türklərin yaxınlaşması prosesi sürətlənməkdədir və türk dilli mediada Azərbaycan müəlliflərinin yazıları və çıxışlarına çox yer verilir.

Türkiyə və Azərbaycana qarşı erməni, yunan diasporlarının fəaliyyətinə layiqli cavablar verilməsi faktı ilə də qarşılaşmaq olar. Uydurma "Erməni soyqırımı", 907-ci düzəliş, Kipr, "kürd" məsələləri gündəmə gələndə türk diasporu ilə Azərbaycan diasporu da müraciətlər qəbul edir, etiraz səslərini bildirirlər. Azərbaycanı təbliğ edilən sərgilər, konfranslar və digər tədbirlər Birləşmiş Ştatlarda son zamanlar daha çox keçirilməkdədir.

ABŞ-dapopulyar qəzetlərin səhifələrindədə Azərbaycan və Azərbaycan diasporu barədə müsbət yazılara rast gəlmək olar.

Amerikada Ümumtürk diasporu yaradılması təklifilə ilk dəfə çıxış edən Azərbaycan diasporu bu istiqamətdə işlər aparacaqları barədə fikirlər bildirmişlər.

Son zamanlar Amerika azərbaycanlıları ABŞ hökumətinə"907-düzəliş", "DağlıqQarabağ problemi","Cənubi Azərbaycanda insan haqqları " və s. barədə bəyanatlar göndərirlər. Amerika ali məktəblərində, diaspor təşkilatlarında Vətənlə əlaqələr qurulması istiqamətində canlanma hiss olunur. "20 Yanvar", "Xocalı soyqırımı" kimi faciəli guşələrimizi anma tədbirləriilə yanaşı "Novruz bayramı", "28 May istiqlal günü", "31 dekabr Dünya azərbaycanlılarının həmrəyliyi günü" və digər milli bayramlarımız böyük və təntənəli halda keçirilir.

Azərbaycanlılar məktub kompaniyasına da diqqət verməyə başlayıblar. Bu işdə onlar türk diasporu ilə həmrəyliyini göstərir. Əvvəllər ideoloji iş istiqamətdə cənub və şimallılar arasında fikirayrılığı hiss olunurdusa, belə neqativ hallar öz pozitiv həllini zamanlatapmaqdadır.

1997-ci il 7 avqust tarixdə Azərbaycan RespublikasınınPrezidenti Heydər Əliyevlə ABŞ Prezidenti Bill Klinton arasında "Ağ evdə" keçiriləngörüşdənsonra "Amerika-Azərbaycan münasibətləri haqqında" birgə bəyanat izalanmasımühüm siyasi əhəmiyyət kəsb edirdi.

Bu bəyanat Amerikadakı azərbaycanlıların fəaliyyətində ciddimərhələ idi. Azərbaycanlılar Amerika vətəndaşları kimi bəzi xalqlar kimi təzyiqlərə məruz qalmırvə 2001-ci il 11 sentyabr hadisələri zamanı azərbaycanlıların amerikalılar ilə birgə olması diasporumuzun mövqeyini gücləndirirdi. Artıq Amerika siyasi və rəsmi dairələrində Azərbaycan diasporunun dəstəklənməsi Azərbaycanın haqlı olması barədə müsbət çıxışlar edilməyə, fikirlər səslənməyə başlandı. Bu proses indinin özündə də davam edir və Amerikanın Qafqaz siyasətinin çözən konqresmenlər arasında balans yaratmaqla azərbaycanpərəst şəxslərin sayı artmağa başladı.

Amerikaya hər səfərində Azərbaycanın mərhumPrezidenti Heydər Əliyevin azərbaycanlılarla tez-tez görüşlərinin keçirilməsi birləşmyəm və həmrəlyiyə təkan verirdi . Bu cürə görüşlər zamanı mərhum PrezidentDağlıq Qarabağ məsələsini önə çəkərəkazərbaycanlıların bu istiqamətdə işlərini və qüvvələrini səfərbər etmələrini tövsiyyə etmişdir.

Dövlət səviyyəsində diaspora dəstək artdıqca Amerikadakı Azərbaycan diasporunun fəaliyyəti güclənir. Hazırda ABŞ-da Azərbaycan diasporu KİV sahəsində və diaspor təşkilatlarının fəaliyyətində bir sıra irəliləyişlər edirlər.

Son məlumatlara görə Amerikada Azərbaycanlılara məxsus 36 qəzet, 6 jurnal, 4 radiostansiya, 7 telekanal, 2 informasiya agentliyi mövcuddur."Azerbaijan International" jurnalı (www.azer.com) , "Caspian Grossords" jurnalı, "Dirilik" qəzeti və digər mətbuat orqanları ilə yanaşıAzərbaycan diasporunun 17 təşkilatı, 2 assambleyası, 4 fondu, 6 icma şurası var. Birləşmiş Ştatlarda Azərbaycan diaspor təşkilatından aşağıdakıların adlarınısadalamaq olar:





1. **Azərbaycan Amerika Cəmiyyəti**: Əsası 1942-ci ildə Türkiyədən olan soydaşlarımız tərəfindən qoyulan «Azərbaycan Cəmiyyəti» 1996-cı ildə cəmiyyət üzvlərinin yekdil qərarı ilə «Azərbaycan-Amerika Cəmiyyəti» adlanmağa başlanıb.Nyu-Cersi ştatında qərargahı yerləşən cəmiyyət Azərbaycan tarixi, mədəniyyəti və digər ənənlərini təbliğ etməklə, eyni zamanda passiv də olsa lobbiçiliklə məşğul olur. www.usa.azeris.org- saytını yaradan AAC - əvvəllər "Azerbaijan" adlı jurnal da nəşr edirdi. Cəmiyyətin"Azeri voice" - adlı bülleteni ilk əvvəllər ABŞ-da nəşr edilirdisə, hazırda onu www.azerivoice.org- saytı əvəz edir.

Əsasən ətrafında II Dünya müharibəsi vəəsrin əvvəllərində Amerikaya köçən azərbaycanlıların nəvə-nəticələri və Amerikada təhsil alan gəncləri birləşdirən AAC digər təşkilatlara nisbətən daha fəaldır. 2003-cü ildə AAC «Amerika-Türk Dərnəkləri Assosiasiyasının» xüsusi mükafatına layiq görülüb.

2. **"Yeni dostlar" forumu** - Los-Anjelos şəhərində fəaliyyət göstərən assosiasiya, əsasən ətrafında Amerikada təhsil alan tələbə-gəncləri birləşdirib. Əsasən təbliğatçılıq və informasiya işi ilə məşğul olan "Assosiaşiya" "Yeni dostlar" elektron məktub birliyi və forumu yaradıb. Amerikada azərbaycanlılar arasında intensiv əlaqə saxlayır

3. **"Bakinetz"Mədəniyyət Mərkəzi** - 1996-cı ildən fəaliyyətə başladı. Mərkəzin təsisçiləri Bakı yəhudilərdir. Nyu-York şəhərininBruklin hissəsində yerləşən mərkəzinsədri Yakov Abramovdur. Bu mərkəz aktiv fəaliyyət göstərən Azərbaycan təşkilatlarından biridir. Mərkəz rus və ingilis dilli mətbuatda Azərbaycan naminə təbliğat işi aparmaqla eyni zamanda vəkillik və hüquqi xidmətlər göstərir.

4. **Azərbaycan Mədəniyyət Mərkəzi** - 1989-cu ildə San-Fransisko şəhərində təsis olunub. San-Fransiskonun 20 mindən çox azərbaycanlısı ilə əlaqə yaradan mərkəz, yerli radio ilə "Azərbaycanın səsi" - həftəlik musiqi proqram səsləndirir. Mərkəz Azərbaycan barədə həqiqətləri yaymaqla, yalnış informasiyaları təkzib edir. HazırdaMərkəz mədəni, ədəbi, elmi tədbirlər keçirir.

5. **Azərbaycan Mədəniyyət Ocağı** - 1989-cu ildə Vaşinqtonda yaradılıb. 500 nəfərdən çox üzvü olan ocaq Azərbaycan və fars dillərində "Dirilik" adlı qəzet nəşr edir. Aylıq nəşr olunan qəzetdə Azərbaycan ədəbiyyatı, mədəniyyət təbliğ olunur. "Savalan" adlı mahnı və rəqs ansamblına malik olan ocaq mədəni-kütləvi tədbirlər keçirir.

6. **Amerika-Azərbaycan Dostluq Cəmiyyəti** - 1994-cü ildə Rey Bauerın prezidentliyi ilə fəaliyyətə başlayıb. Los-Anjelos şəhərində yerləşən cəmiyyət Amerika-Azərbaycan münasibətlərini normallaşdırmaq, mədəni-kütləvi tədbirlər keçirmək, tarixi, milli əlaqələr və mədəniyyət təbliğ etməklə məşğuldur.

**7. Amerika-Azərbaycan Şurası** - 1994-cü ildə Vaşinqtonda yaradılıb. Azərbaycan-Amerika arasında iqtisadi, mədəni, siyasi əlaqələri qurmaq kimi məqsədləri qarşsına qoyan Cəmiyyət "Caspian Crossords" jurnalını nəşr edir. Lobbiçilik istiqamətində də bəzi işlər aparır. Pol Qobl, Tadeyuş Svyatxovski, David Nisman, Odri Aidşdadt kimi tanınan şəxsləri ətrafında toplayan şura passiv də olsa fəaliyyəti davam etdirir.

Bunlardan əlavə Amerikada azərbaycanlıların bir neçə digər cəmiyyətləri də fəaliyyət göstərir. Fikrimizcə Amerikada Azərbaycan diasporu ilə əlaqələrin qurulması istiqamətində aşağdakı işlər görülsə müsbət nəticələr əldə etmək olar:

1. İdeologiji iş - bu istiqamətdə ilk növbə olaraq cənublular və şimallılar arasında ciddi işlər aparmalıdır. Hər iki qanad arasında mədəni əlaqələrin düzəldilməsinə ciddi fikir vermək lazımdır.

2. Amerikada azərbaycanlılar barədə informasiya toplanması - bu istiqamətdə isə ABŞ-dakı səfirliyimiz yanında diaspor işlərini bilən və Amerikaya yaxşı bələd olan bacarıqlı mütəxəssis təyin edilməlidir. Həmin şəxs azərbaycanlılarla əlaqə qurmalı, tədbirlər təşkil etmək onlara informasiya vermək, onların problemlərini öyrənməlidir. Onlar barəsində məlumatlar əldə etmək, hamısının kontaktlarını toplamalı və Ümumazərbaycan işində azərbaycanlıların işini aktivləşdirməlidi.

***BELORUSİYA:*** Buraya azərbaycanlıların ilkin mühacirəti XX əsrin əvvəllərinə təsadüf edir. II Dünya müharibəsindən sonra xüsusilə 1970-ci illərdə soydaşlarımız Belorusiyaya elm, təhsil almaq məqsədilə köçürdülər. Burada daimi məskunlaşan azərbaycanlı mühacirlər Belorusiyanın sosial-iqtisadi həyatında mühüm rol oynayıblar. 1991-ci ildən sonra Belorusiyada Azərbaycan diasporunun formalaşması prosesi başlandı. Hazırda Belorusiyada 7 minə yaxın azərbaycanlı yaşayır. Onların əsas yaşadıqları şəhərlər Minsk, Tallin, Magilyov və digərləridir. Ziyalı biznesmen və orta səviyyə təbəqəsində müəyyən saya malik olan azərbaycanlılar arasında bəzi anlaşılmaz məsələlər var. İcmadaxili münaqişə və liderlik uğrunda mübarizə Belorusiya azərbaycanlılarından da yan keçməyib, müxtəlif peşələrdə çalışan soydaşlarımızın əksər hissəsi orta və xırda ticarətlə məşğul olanlardır. Etiraf etmək lazımdır ki, burada da Azərbaycan naminə lobbiçilik və informasiya təbliğatı olduqca passivdir. İlk zamanlar siyasi fəaliyyətə Belorusiya azərbaycanlıları fikir verirdilərsə, indi onların başı şəxsi və biznes işlərinə qarışıb.

Bu passivliyə baxmayaraq, burada 2002-ci il noyabrın 23-də Minsk şəhərində burada yaşayan azərbaycanlıların konqresi keçirilib. 150-dən çox nümayəndənin iştirak etdiyi konqresdə Belorusiya Azərbaycan İcmaları Konqresi yaradılıb. Konqresin əsas məqsədlərinə Belorusiyada pərakəndə halında





olan azərbaycanlıların vahid mərkəzdə birləşdirilmək, soydaşlarımızın milli-mədəni hüquqlarını qorumaq və onların ölkənin ictimai-siyasi həyatında iştiraklarını təmin etməkdir. Konqres ətrafında əsasən aşağıdakı diaspor təşkilatları birləşiblər:

1. **"Qobustan" İctimai-mədəni Birliyi** - 1990-cı ilin sentyabrında Minsk şəhərində təsis olunub. Əsasən mədəni-ictimai tədbirlər həyata keçirir. Hər iki ölkə arasında əlaqələrin güclənməsində Birlik yaxından iştirak edir.

2. **"Xəzər" Azərbaycan ictimai Birliyi** - 2001-ci ildə Magilyov şəhərində fəaliyyətə başlayan qurumun məqsədi soydaşlarımız arasında əlaqələrin qurulması və mədəni tədbirlərdir.

**3. Azərbaycan Tarix və Mədəniyyət Cəmiyyəti** 2000-ci ildə Bobruysi şəhərində yaradılan təşkilat elm, təhsil, mədəni əlaqələr və informasiya işləri istiqamətində fəaliyyətini qurub.

4. **"Dostluq" İctimai Birliyi** - 2001-ci ildə Qrodio şəhərində yaradılan birlik əsasən mədəni, ictimai və təbliğatçılıq işlərilə məşğul olur.

Son günlər Belorusiyada işlərin aktivləşməsini nəzərə alsaq, buradakı diasporumuzun işinin genişlənməsini gözləmək olar.

***BELÇİKA:*** Avropanın inkişaf etmiş dövlətlərindən biri olan Belçikada da soydaşlarımız məskunlaşıblar. Son statistik məlumatlara əsaslanaraq Belçikalı azərbaycanlıların sayının 13 minə qədər olduğunu qeyd edə bilərik. Əsasən Türkiyəli azərbaycanlıların üstünlük təşkil etdiyi Belçikaya cənub və şimallıların kütləvi mühacirəti 1970-ci illərdən sonra başlayıb. Türkiyədən Avropa ölkələrinə əmək xarakterli mühacirətdə buradakı azərbaycanlılar intensiv iştirak etmişlər. Türk diasporunun tərkibində ilkin fəaliyyətə başlayan azərbaycanlılar şaxta, dəmir yolu, zavod və digər işlərdə çalışırdılar. Soydaşlarımızın Belçikaya adaptasiyasının sürətlə getməsi onların bir sıra dövlət işlərində çalışmasına şərait yaratdı.

Hazırda adi fəhlədən varlı biznesmenə qədər iş sahələrində tanınan azərbaycanlıların Belçikada nüfuzu var. Yerli xalqla bir sırada azərbaycanlılar da öz sahələrində işgüzarlıq, əməksevərlik göstərirlər. Onlar türk diasporu ilə həmrəylik və mehribanlıq şəraitində yaşayırlar. Türk diasporunun Belçikada nəşr etdirdikləri kütləvi informasiya vasitələrində Azərbaycan diasporuna da xüsusi yer verir. Düzdür soydaşlarımızın Belçikada fəaliyyətinin tam qənaətbəxş hesab etmək olmaz. Buna baxmayaraq, ictimai-siyasi fəaliyyətinə görə bəzi Avropa ölkələrindən daha fəal olan Belçikada siyasi dairələrdə Azərbaycanpərəst şəxslər də vardır.

Hazırda Azərbaycan-Belçika parlamentlərarası dostluq qrupu iki dövlət arasında münasibətlərin normallaşması ilə paralel olaraq buradakı soydaşlarımızın taleyi ilə yaxından maraqlanır. Burada parlamentdə təmsil olunan türk

əsilli senatorlar Belçika qanunvericilik orqanında Azərbaycan naminə lobbiçilik edirlər.

Belçika dövlətini Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olması diasporumuzun fəaliyyətinə müsbət təsir göstərir. Düzdür burada Türkiyəli qanadlar Şimal və Cənub qanadları arasında bəzi anlaşılmaz münasibətlər var. Lakin belə neqativ halların aradan qaldırılması istiqamətində işlər aparılır. Türkiyəli azərbaycanlılar əvvəllər cənubluları siyasi passivlik göstərməkdədə, şimallılar ilə ümumilikdə fəaliyyətsizlikdə ittiham edirdisə, indi belə fikirləri az eşitmək olar,

1980-ci ildənbaşlanan informasiya-təbliğat işlərini digərlərinə nisbətdə götürəndə fəal hesab etmək olar. 1987-ci ildə Belçikada türk dilində nəşr edilən "Qürbət" qəzeti Azərbaycanla əlaqəli məlumatlar dərc edirdi. Hazırda Belçikada "Azərbaycan evi"təşkilatına məxsus www.diaspora-az.com- saytı Belçika azərbaycanlıları barədər xəbərlər yayır. Belçikada bir neçə Azərbaycan təşkilatı fəaliyyət göstərir.

1. **Azərbaycan-Belçika Dostluq Cəmiyyətinin** əvvəllər fəaliyyət göstərmiş "Azərbaycan Kültür və İnformasiya" Mərkəzinin əsasında 1989-cu ilin əvvəllərində Brüsseldə təsis olunub. Əsas fəaliyyət istiqamətləri iki ölkə arasında parlaq münasibətlərin qurulması, informasiya-təbliğat işi və mədəni tədbirlərdir.

2. **Azərbaycan evi** - əvvəllər fəaliyyət göstərən Azərbaycan Mədəniyyət evinin əsasında qurulan təşkilat 2000-ci ildən fəaliyyətə başlayıb. Əsasən lobbiçilik, təbliğat, mədəni tədbirlər ikitərəfli əlaqələrin yaxşılaşması istiqamətində iş aparır.

3. **Şüur** - 2001-2002-ci illər arası təsis edilən qurum Belçikada Azərbaycanıc Avrəpa Birliyi üzrə nümayəndəliyinin himayəsində təsis edilib. Əsasən təbliğat və mədəni tədbirlər keçirməyi qarşısına məqsəd qoyan qurumun fəaliyyəti passivdir.

4.**Avropa Azərbaycanlıları Mərkəzi**-2004-cü ildə təsis edilib Əsas məqsədi Avropada yaşayan soydaşlarımızı bir araya gətirməkdir.

***BÖYÜK BRİTANİYA:*** Böyük Britaniya ilə Azərbaycan münasibətləri XVIII əsrin əvvəllərindən başlayıb. Azərbaycanın neft sənayesinə maraq göstərən ingilislərin məşhur və güclü şirkətləri Cənubi və Şimali Azərbaycanda söz sahibi idilər. Bu səbəbdən də XIX əsrin sonlarından başlayaraq azərbaycanlıların Böyük Britaniyaya mühacirəti başlandı. XX əsrin onilliklərində soydaşlarımız Britaniyada öz icmalarını yaratmağa nail olmuşlar. Lakin kütləvi mühacirət Cənubi Azərbaycana bu ölkəyə 50-60-cı illərdə başladı ki, bunun əsas səbəbi elm, təhsil ilə bağlı idi. II Dünya müharibəsindən sonra artıq Böyük Britaniyada Azərbaycan diasporu formalaşması prosesi başlandı. 1991-





ci il Dövlət müstəqilliyi elan edildikdən sonra Britaniya azərbaycanlıları xeyli fəallaşıblar. Son məlumatlara görə Böyük Britaniya 170-180 min arası azərbaycanlı yaşayır və bu təxmini göstərilən rəqəmlərin 20%-i Şotlandiya, İrlandiya və Uelsin payına düşr. Ümumilikdə götürəndə Britaniya azərbaycanlılarının tərkibi müxtəlifdir. Jurnalist-tədqiqatçı Fazil Rəhmanzadənin araşdırmalarına görə Britaniyada Cənubi və Şimali Azərbaycandan, Türkiyədən bura köçən mühacirlərlə yanaşı Gürcüstandan, Ermənistandan, Orta Asiyadan və Rusiyadan olan azərbaycanlılara da rast gəlmək olar. Passivliyə baxmayaraq, onlar arasında pərakəndəlik yoxdur.

Britaniyada azərbaycanlılar digər türkdilli xalqlarla mehriban münasibətdədirlər. 1990-cı ildə Londonda təsis olunan "Dünya Türkləri" - Komitəsində təmsil olunan azərbaycanlılar bir sıra tədbir və görüşlərdə türkdilli diasporanın nümayəndələrinin iştirakının təmin edirlər. Hazırda türkdilli diasporlarlabirgə fəaliyyət göstərən Azərbaycan diasporu burada mütəşəkkil qruplardan hesab olunur.

Azərbaycan-Böyük Britaniya arasında olan mehriban və ikitərəfli münasibətlər burada yaşayan soydaşlarımızın fəaliyyətinə müsbət təsir göstərir. London, Mançestr, Edinburq, Dublin və digər iri şəhərlərlə yanaşı kiçik şəhərlərdə də çoxsaylı azərbaycanlılar məskunlaşıblar. Soydaşlarımız elm və iqtisadi sahədə xeyli uğurlar əldə ediblər. Böyük Britaniyanın ali və orta məktəblərində, iri şirkətlərində yüzlərlə azərbaycanlı çalışır. Bunlardan əlavə olaraq sürücü, həkim, inşaatçı, mühəndis, aşpaz və digər sahələrdə də azərbaycanlıların bir sıra uğurları var. Bir qədər siyasi cəhətdən aktiv olan Britaniya azərbaycanlıları Azərbaycanı burada təmsil etməyə çalışırlar. Yerli TV və qəzetlərdə soydaşlarımızın çıxışlarına ara-bir rast gəlmək olar.

Burada fəaliyyət göstərən tanınan azərbaycanlılar içərisində Edinburq Universitetinin professoru, ictimai-siyasi xadim Qulamrza Səbri Təbrizinin rolunu xüsusi olaraq qeyd etmək olar. Əslən Cənubi Azərbaycandan olan professor Təbrizi Böyük Britaniyaya köçən zamandan Azərbaycanın mədəniyyətini və ədəbiyyatının təbliğatçısı olub. Edinburq Universitetinin «İslam, Orta Şərq və Azərbaycan Mədəniyyəti Kafedrasının» professoru kimi dünyanın 30-dan çox ölkəsində keçirilən beynəlxalq konfrans və forumlarda iştirak edən Qulamrza Səbri Təbrizi dünyanın aparıcı qəzet və jurnallarında Azərbaycan barədə elmi-ədəbi məqalələr dərc edib. Çıxışlarında vətənpərvərliyin açıq biruzə verən professor Təbrizi nüfuzlu «BBC», «AyTv», «İskayTv» və başqa TV kanalları vasitəsilə 20 Yanvar hadisəsi, Xocalı Faciəsi və torpaqlarımızın işğal edilməsi ilə bağlı çıxışlar edib və bütün dünyanın Azərbaycandakı proseslər barədə həqiqi və dolğun məlumat almasını təmin edib.

Azərbaycanın mərhum prezidenti Heydər Əliyevlə bir neçə dəfə görüşən professor Təbrizi Böyük Britaniyada tələbələrin diaspor işinə qoşulmasında mühüm rol oynayıb.

Böyük Britaniya qanunverici məclisində də azərbaycanlılar aktiv iş aparırlar: Britaniya siyasi xadimlər və azərbaycanlılarının iştirakı ilə ildə bir-iki dəfə müxtəlif səpkili görüşlər keçirməyə başladılar. Britaniya parlamentinə müəyyən layihələr təqdim olunur. Belə tədbirlərdən yaddaqalanı və mühümü 2003-cü ilin 17-21 martında tanınmış ictimai-siyasi xadimlərin, Şimalı və Cənubi azərbaycanlıların birgə iştirakı ilə Qarabağ münaqişəsi, Bakı-Tbilisi-Ceyhun neft kəmərlərinə və İran siyastində Azərbaycan mövzusuna həsr olunan tədbirləri keçirən tədbiri müsbət qiymətləndirmək olar.

"Vətən" Cəmiyyəti təşəbbüsü ilə keçirilən bu tədbirdən başqa Lordlar Palatasında Azərbaycanlılara qarşı ermənilər tərəfindən 26 fevral 1992-ci ildə törənən soyqırımın pislənməsi ilə bağlı sənədin qəbul edilməsi uğurlu addımlardan sayılır.

Britaniya Azərbaycanlıları əksəriyyəti cənubi azərbaycanlılardan ibarətdir. Cənublular burada kifayət qədər maddi və intellektual imkanlar əldə ediblər. Onları böyük nüfuzlu elm və ticari dairələrdə qəbul edirlər. Soydaşlarımız Böyük Britaniyanın iqtisadiyyatının və elmininkişafında müəyyən rol oynayıblar. Azərbaycanlılar Britaniydan dövlət postlarında da çalışırlar. Əsasən iqtisadi və texniki mütəxəssislər kimi dövlət və iri şirkətlər işə dəvət olunan azərbaycanlılar Britaniyada xüsusi hörmətə malik olan diasporlardanbiri hesab olunur.

Soydaşlarımız informasiya sahəsində də bir sıra uğurlar əldə ediblər. Britaniyanın tanınmış TV kanalları və qəzetlərdə Azərbaycanla əlaqəli bir sıra məqalələr və çıxışlar olub və bu proses hazırda da davam etməkdədir. "Times", Herald Tribun of Europa" və digər tanınmış qəzetlərlə yanaşı "BBC" və digər TV kanallar Azərbaycana böyük diqqət verirlər. Britaniyada Azərbaycan diasporuna məxsus təşkilatlar da fəaliyyət göstərirlər.

1. **"Vətən" Cəmiyyəti** - 2000-ci ildə Londonda təhsil olan tələbələr tərəfindən təsis olunub. Ətrafında azərbaycanlılar, ingilislər və digər türkdilli xalqların nümayəndələrini toplayaraq İngiltərə-Azərbaycan münaqişələrini normallaşdırmaq, növbətçi, təbliğat və mədəni işləri həyata keçirir.

2. **Azərbaycan Cəmiyyəti** - Londonda yaranan bu təşkilat ətrafında toplaşmış azərbaycanlıları toplayaraq təbliğat, mədəni və lobbiçilik işləri ilə məşğul olur.

3. **"Humay" Azərbaycan Mədəniyyət Mərkəzi** - adından göründüyü kimi, yalnız mədəni işləri həyata keçirmək üçün yaradılan qurum eyni zamanda təbliğat işi ilə də məşğul olur.

4. **Britaniya-Azərbaycan İcması** - Britaniyada cənublu və şimallı azərbaycanlılar arasında birliyin yaranması üçün təsis edilən qurum ətrafında ziyalı təbəqənin nümayəndələrini toplayıb.





5. **Azərbaycan Türkləri Cəmiyyəti** - Londonda fəaliyyət göstərən soydaşlarımızın birləşməsi, mədəni tədbirlərin keçirilməsi, informasiya işi aparan cəmiyyət aktiv fəaliyyət göstərir. Bunlardan başqa Böyük Britaniya "Azərbaycan Dayaqçıları", "Azərbaycan Mədəniyyət Mərkəzi", "Azərbaycanlılar Komitəsi", "Anqlo Azəri" cəmiyyət, təşkilatlar da fəaliyyət göstərir.

***CƏNUBİ AFRİKA RESPUBLİKASI*** : Ümumilikdə bu dövlətdə nə qədər soydaşlarımızın yaşaması barədə dəqiq məlumatlar yox dərəcəsindədir. Lakin son günlər burada azərbaycanlıların fəallaşması barədə xəbərlər KİV orqanlarında ara-sıra dərc olunur. CAR azərbaycanlıların çox hissəsi Cənubdan olan soydaşlarımız təşkil edir. Əsasən ticari sahədə iş aparan soydaşlarımız CAR-da orta səviyyəli təbəqəyə aiddirlər. Burada şimaldan olan azərbaycanlılar sayca azlıq təşkil edirlər. Onların əksəriyyəti müəyyən işlə bağlı olaraq CAR-da məskunlaşmalı olublar. Burada 2002-ci ilə qədər heç bir azərbaycanlı təşkilat və ya fəaliyyət barədə xəbəri yox idi. Lakin 2002-ci ildə CAR-da Azərbaycan diasporu təşkilatının yaranması xəbəri bizləri olduqca sevindirdi. **Azərbaycan Cəmiyyəti** -Paytaxt Pritoriya şəhərində təsis olunub. Afrikanın cənubunda yaşayan azərbaycanlıları bir araya gətirmək, mədəni tədbirlər və Azərbaycanı layiqincə CAR-da təmsil etmək cəmiyyətin əsas fəaliyyət prinsipləridir.

***DANİMARKA:*** Bu ölkədə soydaşlarımızın sayı 60 minə yaxın göstərilir. Burada azərbaycanlıların mühacirəti üç əsas dövrə bölünür.

1. 1890-1918 - passiv mühacirət dövrü. Bu illərdə cənubdan, şimaldan və əsasən Türkiyədən köçən azərbaycanlılar iri şəhərlərdə məskunlaşırdılar. Əksəriyyəti ziyalılar və ticarətçilər olan azərbaycanlılar Danimarkaya uzun müddət adaptasiya olublar.

2. 1920-1990-cu illər azərbaycanlıların mühacirətinin aktiv dövrüdür. Xüsusən 1941-45-ci və 1960-cı illərdə şimal və Türkiyədən olan soydaşlarımızın çoxsaylı qrupları Danimarkanın paytaxtı Kopenhagendə və digər şəhərlərdə məskunlaşıblar. Bu mühacirlər qapalı və gizli həyat yaşamalarınabaxmayaraq, ticari-iqtisadi sahələrdə xeyli uğurlar əldə ediblər. **Yerli** əhali və türk diasporunun nümayəndələrilə qarışıq nikaha girən azərbaycanlıların bir hissəsimilli kimliklərini qoruyub saxlaya biliblər.

3. 1991-ci ildən hazırki dövr - Müstəqillik əldə olunduqdan sonra şimaldan kütləvi halda başlayan mühacirət nəticəsində Danimarka yüzlərlə təhsil, iş üçün və yaşamaq üçün gələn azərbaycanlıları qəbul etmişdir. Bu proses hazırda davam etməkdədir.

Danimarka azərbaycanlıları bir qədər aktiv hesab olunurlar. Xüsusən Danimarkada azərbaycanlı gənclərin fəaliyyəti olduqca qənaətbəxş hesab oluna bilər. Vətən, azərbaycançılıq hisslərinin daha güclü biruzə verdiyigənclər

yaşlıların passivliyindən şikayətlənirlər. Köhnə nəslin nümayəndələri hələ də qapalı mövqedə durması, buradakı Azərbaycan diasporunun zəif nöqtələrindən biridir.

Azərbaycandakı prosesləri diqqətlə izləyən Danimarkalı azərbaycanlılar Qanlı Yanvar, Xocalı faciəsi və torpaqlarımızın işğal günlərindəetiraz çıxışları edir, milli bayramları bir yerdə keçirirlər. Əsasən mədəni tədbirləri tez-tez həyata keçirildiyi Danimarkada fəaliyyət göstərən "Azərbaycan radiosu"nun işini müsbət qiymətləndirmək olar. Radio Azərbaycan musiqi mədəniyyəti, poeziyası ilə əlaqəli, çoxsaylı proqramlar hazırlayıb. www.indvandlerradio.dk - saytında radio barədə ətraflı məlumat əldə etmək olar. Danimarkada əsasən türkiyəli, xüsusilə iğdırlı azərbaycanlılar üstünlük təşkil edirlər. Onların yaxşı təmin olunan işləri, biznesləri var. Soydaşlarımız Danimarkadamüxtəlif iş sahələrində çalışırlar. Əsas etibarı ilə ilə orta təbəqə sinfinə aid olan danimarkalı azərbaycanlıların bir neçə təşkilatı var.

1. **Danimarka Azərbaycan Mədəniyyəti Mərkəzi** - Urmu - Arhis şəhərində fəaliyyət göstərən cəmiyyət «Azərbaycan radiosunu» himayə edir. Əsasən təbliğat işi ilə məşğul olur.

2. **Danimarka Azərbaycan Cəmiyyəti** - Kopenhagen şəhərində yaradılan cəmiyyətin məqsəd və vəzifələrinə mədəni-ictimai işlər daxildir.

3. **Danimarka-Azərbaycan Dostluq Cəmiyyəti** - Danimarka azərbaycanlıları arasında geniş ictimai-mədəni tədbirlərin keçirilməsilə məşğul olur. "Dədə Qorqud" ansamblının himayəçisi olan cəmiyyətin məşhur üzvlərindən şair-ozan Abbas Eloğlunun adını çəkmək olar.

4. **Azərbaycan Kültür Cəmiyyəti** - əsasən kərküklü azərbaycanlılar (türkmanlar) tərəfindən qorunan cəmiyyət mədən. iqtisadi-təbliğat işi ilə məşğul olur.

5. **Güney Azərbaycan Türklərinin Mərkəzi** - 1999-cu ildə təsis olunub. Ədəbi-musiqili tədbirlər keçirməklə məşğul olur.

*ESTONİYA:*Azərbaycan diasporunun mütəşəkkil fəaliyyətinə, ictimai siyasi aktivliyinə görə Estoniyadakı Azərbaycan diasporu xüsusilə seçilir. Azərbaycanlıların Estoniyada nə zaman gəldiyi barədə dəqiq məlumat yoxdur. Hələ XIX ərin sonlarında Estoniya kitabxanaları və mahal müəssisələrində Azərbaycanın tanınmış şair və ədiblərindən Mirzə Şəfi Vazeh, Molla Pənah Vaqif və Mirzə Fətəli Axundovun alman dillərində tərcümə edilən kitabları barədə məlumat verilir. 1851-ci ildən etibarən Yuxan Kiyv, Qustav Vulf və Anna Haov dahi Vazehin əsərlərini alman dilindən eston dilinə tərcümə etmişdir ki, azərbaycanlı ədib və şairlərin əsərlərinin təsiri altına düşən Eston alimləri və ədəbiyyatçıları onların əsərləri ilə yaxından tanış olmağa başlayırlar. 1978-ci ildə "Skala" qəzetində tanınmış eston yazıçısı F. R. Kreysvald





eston dilinə Molla Pənah Vaqifi müxəmməslərin tərcümələri dərc olunmuşdur.

Azərbaycan ədəbiyyatına artan maraq bu dövrdə Estoniyanın böyük universitetlərindən biri olan Tartu Universitetində təhsil alan soydaşlarımız Azərbaycan tələbələri birliyi yaradırlar ki, onların əsas işi ədəbiyyat klubunda Azərbaycan dahilərinin əsərlərini eston dilinə tərcümə etməklə təbliğ etmək idi. XX əsrin əvvəllərində isə təsis olunan "Bakı Eston Cəmiyyəti"-nin əsas məqsədiəsasən bu istiqamətdə iş aparmaq idi.

XX əsrin 20-ci illərində Estoniya daAzərbaycan kimi bolşevik işğalına məruz qalır. 1991-ci illərə qədər azərbaycanlıların müəyyən ziyalı və ticari təbəqəsi hissə-hissə Estoniyaya köçür və burada daimi məskunlaşırdılar.

1991-ci il Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra xaricdə yaşayan soydaşlarımızdan Estoniyada yaşayanlar qısa zaman ərzində fəal diaspor formalaşdıraraq ətrafında burada yaşayanları toplaya biliblər. Estoniya azərbaycanlıları əsasən ticarətlə məşğul olurlar. Lakin burada ziyalı təbəqəsi də azlıq təşkil etmir. Əsasən Tartu, Tallin, Narva şəhərlərində çoxsaylı məskunlaşan azərbaycanlıların ictimai fəaliyyəti diqqətəlayiqdir. Hüquq, ədəbiyyat, texnika, ticarət və digər sahələr üzrə çalışan azərbaycanlılar içərisində eston dövlət vəzifələrində çalışanlar da var. Burada yaşayan təqribi sayı iki minə qədər olan azərbaycanlılar Estoniyanın ictimai, iqtisadi, siyasi, mədəni həyatında mühüm rol oynayırlar. Eston dövlət və ictimai xadimlərilə isti münasibətləri olan soydaşlarımız bu ölkəyə gələn hər bir azərbaycanlıya kömək əlini sevə-sevə uzadır.

Estoniyada Azərbaycan diasporuna məxsus bir sıra ictimai təşkilatlar və kütləvi informasiya vasitələri var. Onlar aşağıdakılardır:

1. **Ocaq Cəmiyyəti** - 1988-ci ildən fəaliyyətə başlayıb. Cəmiyyət 1996-cı ildə Azərbaycan icması kimi Ədliyyə Nazirliyindən qeydiyyatdan keçmişdir. Estoniya-Azərbaycan əlaqələrinin inkişaf etməsi, kütləvi mədəni tədbirlər keçirmək, Azərbaycan kitablarının eston dilinə tərcümə edilməsi və s. işləri həyata keçirən "Ocaq" - Estoniya rəsmiləri və ictimaiyyəti tərəfindən müsbət qarşılanır. Cəmiyyət "Ocaq" adlı qəzet nəşr edir. Eyni adlı bazar günü məktəbinə hamilik edir. Eston televiziyasında ayrıca proqram hazırlamaq hüquqi alan Cəmiyyət Azərbaycan barədə Tallində ətraflı məlumat verir. Cəmiyyəti və Eston dil fondu tərəfindən birgə fəaliyyətin müsbət işlərindən biri Azəri-Eston lüğət-kitabçası nəşr olunmuşdur. Cəmiyyəti www.azeri.eeinternet saytı fəaliyyət göstərir ki, bunun vasitəsilə Estoniyada Azərbaycan diasporu barədə ətraflı məlumat əldə etmək olar.

2. **Estoniya-Azərbaycan Dostluq Cəmiyyəti** - 2000-ci il 15 fevralında Tallin şəhərində təsis olunub. Cəmiyyətin əsas fəaliyyət istiqamətini - Estoniya azərbaycanlılarının həmrəyliyinə nail olmaq, Azərbaycan Mədəniyyətinin təbliğ etmək, ana dilini qoruyub saxlamaqdır.

3. **Tartu Azərbaycanlıları Cəmiyyəti** - Tartu şəhərində yaşayan soydaşlarımızın təsis etdiyi cəmiyyəti əsasən mədəni, elmi və təbliğat işi ilə məşğul olur. Bu şəhərdə yaşayan azərbaycanlıların birliyini yaradan cəmiyyət Estoniya elm və təhsil müəssisələri ilə sıx əlaqəsi var.

4. **Qürbət Skandinavya Azərbaycanlılarının Mədəniyyət Cəmiyyəti** - ətrafında əsasən biznesmenləri birləşdirən Cəmiyyət kütləvi-mədəni tədbirlər keçirir. Azərbaycanlımusiqiçilərin Estoniyada konsertini təşkil edən cəmiyyət Azərbaycan və Estoniya dövlət rəsmiləriilə sıx əlaqəsi var.

5. **Estoniya-Azərbaycan Cəmiyyəti** - Azərbaycan diasporunun böyük təşkilatlarından biri olan cəmiyyət 1990-cı ildən sonra yaradılmışdır

Hazırda Estoniyada Azərbaycan diasporu öz fəaliyyətinə görə digər ölkələrdəki diasporlardan fərqlənir. Burada yaşayan soydaşlarımız yaxın zamanlarda burada böyük müsəlman məscidi tikməyi planlaşdırıb.Eyni zamanda burada «Bakı klubu»yəaliyyət göstərir ki,onun yaradılması iki dövlət və xalq arasında əlaqələrin möhkəmlənməsinə təkan verir.

***FRANSA:*** Təxminən 70 min soydaşımızın yaşadığı Fransaya azərbaycanlıların mühacirət XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayıb. Lakin FransanınAzərbaycana maraqları XV-XVI əsrlərə təsadüf edir. Hələ 1697-ci ildə Parisdə nəşredilən Bartelemi D. Erblonun "Şərq kitabxanası" - əsəri Azərbaycan ədəbiyyatı, mədəniyyəti və şairləri haqqında ilk yazılı mənbədir.

Fransanın XIX əsrin sonlarından başlayaraq Avropadakı mövqeyin inkişaf səviyyəsinin artmasıazərbaycanlıların bu ölkəyə mühacirətinin əsas səbəbidir. Azərbaycanın imkanlı və ziyalı təbəqəsinin Fransada malik olduqları iş yerləri, mülklər, onların ailələri və qohum-əqrəbalarının buraya köçməsinə şərait yaradırdı. Hacı Zeynallabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev kimi milyonçuların Fransanın iş adamları ilə birgə bizneslərinin olması Fransa-Azərbayean əlaqələrinin səviyyəsini göstərirdi. Şərqdə ilk Demokratık Respublikanın süquta uğramasından sonra azərbaycanlıların kütləvi köçdükləri ölkələr içərisində Fransa ön yerlərdən birini tuturdu. Əlimərdan bəy Topçubaşov; Əli bəy Hüseynzadə, Ceyhun bəy Hacıbəyli, Ümulbanu kimi tanınmış tanınmış azərbaycanlıların Fransada məskunlaşması və fəaliyyəti Azərbaycan diasporu tarixinin şanlı səhifələrindəndir. Fransada aktiv fəaliyyət göstərən azərbaycanlıların dəstəyi ilə Azərbaycan nümayəndə heyətinin başda Əlimərdan bəy Topçubaşov olmaqla Azərbaycanı işğala məruz qalmış beynəlxalq səviyyəyə qaldırmışlar.

Lakin I Dünya müharibəsi, ADR-in süqutu və II Dünya müharibəsindən sonra Fransaya axını güclənən azərbaycanlıların fəaliyyətində heç bir ciddi dönüşəlmadığından zamanla siyasi fəaliyyət arxa plana keçmişdi. Mədəni və ədəbi fəaliyyətə daha çox əhəmiyyət verən azərbaycanlılar elm, incəsənət, musiqi, texniki sahələrdə mütəxəssis olmuş və ölkənin ictimai-iqtisadi həyatında rol oynayıblar. 1991-ci ildə dövlət müstəqilliyi elan ediləndən sonraFransa-Azərbaycan ikitərəfli əlaqələrin qurulması Azərbaycan diasporunun fəaliyyətinə də təsirini göstərdi. Dağlıq Qarabağ ətrafında baş verən proseslərdə Ermənistanı himayə siyasətin aparanFransanın bu addımı soydaşlarımız tərəfindən qəzəblə qarşılandı. Bunun nəticəsi olaraq, Fransada bir-birinin ardınca "Qarabağ tarixi və indiki dövr", "Qarabağ" (məqalələr toplusu), "Dağlıq Qarabağ" "Dağlıq Qarabağın tarixi və ona aid sənədlər" kitabları nəşr olundu. Kitabların Fransada işıq üzü görməsində YUNESKO-da məsul vəzifədə çalışmış Ramiz Abutalıbovun zəhməti böyük olmuşdur. Ramiz müəllim eyni zamanda Fransada azərbaycanlıların məzarlıqlarının qorunub saxlanmasında böyük işlər görüb.

Hazırda Fransada Azərbaycan diasporunun fəaliyyəti bir qədər passivdir. Paris, Strasburq, Kann, Tuluza və digər şəhərdə məskunlaşan azərbaycanlıların siyasi fəaliyyəti yalnız Strasburqda qənaətbəxş hesab oluna bilər. Strasburqda təhsil alan Azərbaycan tələbələri ilədiasporun birgə işi digər Avropa ölkələrindən seçilir. Strasburq Universitetinin nəzdində türk şöbəsi fəaliyyət göstərir. "Türkikə" - adlı jurnalda Azərbaycanla bağlı məlumat və məqalələr dərc olunur. Azərbaycan gənclərinin Strasburqdakı birliyi və həmrəyliyi digər Fransa şəhərlərindən xeyli fərqlənir. İnformasiya sahəsindəaparılanişlər müsbətdir.Fransada Azərbaycan diasporunun təsis etdikləri bir neçə təşkilat və mərkəzlər fəaliyyət göstərir. Bunlar aşağdakılardır:

1. **Azərbaycan Evi** - Parisdə fəaliyyət göstərir və ədəbi,mədəni, təbliğat sahəsində işlər aparır.

2. **Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti** - 1990-cı ildə Strasburqda təsis edilən cəmiyyət Fransada diaspor təşkilatlarından daha fəallığına görə seçilir. Azərbaycanı layiqincə Strasburqda təbliğ edən AMƏC - ətrafında gəncləri, Fransanı yeni və köhnə Azərbaycan mühacirləri birləşdirib. Siyasi, iqtisadi, elmi, mədəni və başqa sahələrdəfəaliyyət göstərən cəmiyyət bir sıra tədbirlər, etiraz aksiyaları, piketlər həyata keçirib.

3. **Azərbaycan Kültür Mərkəzi** - Strasburqda təsis edilən mərkəz adından göründüyü kimi, mədən, ədəbi işləri təbliğ etmək və bu istiqamətdə tədbirlər keçirməklə məşğul olur.

4. **Fransada Azərbaycan Tələbələr Assosiasiyası** - 1999-cu ildə Strasburqda təhsil alan tələbələri ətrafında birləşdirən qurum Azərbaycanın tarixi, dili, mədəniyyəti, folkloru, mədəniyyəti Fransada layiqincə təbliğ edir və bir sıraişlərin dələbbiçilikhesab etmək olar.

5. **Azərbaycan-Fransa Azad Mübadilələr Assosiasiyası**- Qrenobl şəhərində fəaliyyət göstərən cəmiyyət Fransa-Azərbaycan iqtisadi əlaqələrinin inkişaf və təbliğatı ilə məşğul olur.

6. **Təhsil və Tədqiqatların İnkişafı üzrə Fransa-Azərbaycan Tələbə Assosiasiyası** - 2001-ci ildə Qrenobl şəhərində təsis edilən qurum görü ndüyükimi təhsil, kütləvi- mədəni istiqamətdə fəaliyyət göstərir. Təşkilatın təşəbbüsü ilə Fransada Azərbaycan milli bayramları, tarixi faciələri tez-tez anılır və keçirilir. Siyasi cəhətdən passivlik hiss olunan Fransada Azərbaycan diasporu digər türkdilli diasporlarla əlaqələr qurmağa çalışır.

**7.Azəri-Fransız Gənclik Assosasiyası-** 2003-cü ildə Parisdə təsis edilib. Üzvləri bu ölkədə təhsil alan və çalışan azərbaycanlı tələbələr və fransız gəncləridir. Əsas fəaliyyətlərini təbliğat işi istiqamətində quran qurum media orqanları açmağı planlaşdırır.

Fransada Cənublu, Türkiyəlivə Şimali azərbaycanlılar arasında olan fikirdə fərqli siyasi baxışlar var. Bu isə ideoloji işi bu ölkədə zəif təbliğ olunması ilə əlaqədardır. Düzdür Azərbaycan ailələri bir-birlərini soyuq olsa da əlaqə saxlayır. Ancaq bütün bunlar Fransa kimi ölkədə yolverilməzdir. Bu ölkədə mütləq ciddi işlərin aparılması, diasporumuzun aktivləşdirilməsi vahid və zəruri məsələlərdən biridir. Burada kifayət qədər nüfuzlu soydaşlarımız var ki, onların lobbiçi işinə qoşulması təxirəsalınmaz işlərdən biridir.

***GÜRCÜSTAN*** Azərbaycanla sərhəd və tarixi bağlılığı olan Gürcüstanda təxminən 500 minə qədər azərbaycanlı yaşayır. Gürcüstanın Borçalı mahalında yaşayan soydaşlarımızı Azərbaycan diasporunun tərkib hissəsi hesab etmək yalnış olardı. Çünki onlar öz dədə-baba torpaqlarında yaşayırlar və bu şəxslərin burda yüzilliklər boyu tarixi var.

Ümumilikdə götürəndə azərbaycanlıları Gürcüstanda məskunlaşması eramızdan əvvəlki dövrlərdə təsadüf edir. İki dövlət arasında müharibələr və mehriban münasibətlər dövründə yüzlərlə soydaşlarımız Gürcstana ya zorla, ya da könllü olaraq getmişlər. Gürcüstan və Azərbaycanın sərhəd bağlılığı hər iki dövlətin vətəndaşlarının bir-birinin ərazisinə sərbəst keçməsinə şərait yaranmışdır. Qədim dövrlərdən başlayaraq, XIX əsrin yarısına qədər Qarabağdan, Türkiyədən, Ağbaba, Amasiya, İrəvan, Cənubi Azərbaycanda, Dərbənddən, Aşağı Qarayazıda, Qazax, Şıxlı zonasından, Borçalıdan və digər kəndlərdən Yuxarı Qarayazıya mühacirət edən soydaşlarımız burada məskunlaşmışlar. Belə mühacirət prosesinin intensiv xarakter alması Gürcüstanda yeni azərbaycanlı yaşayış məskənlərinin yaranmasını labüd etdi. Müasir Təzəkənd, Birlik, Qaratəpə,Qəhlə, Tağalarvə s. kəndləri daxili emiqrasiya və Azərbaycandan buna köçən gürcülər hesabına yaranmış və genişlənmişdir. Tərəvəzçilik, əkinçilik, bostançılıq, maldarlıqla məşğul olan azərbaycanlılar Gürcüstanın iqtisadi cəhətdən dirçəlməsində mühüm rol oynayıblar. Gürcüstanın iştirak etdiyi tarixi görşlərdə iştirak edən azərbycanlılar qarışıq nikaha girirdilər. Buna baxmayaraq, öz milli kimliklərini, azərbaycanlı mentalitet adət-





ənənələrini, dinlərini burada çox təzyiqlərlə üzləşdirmələrinə baxmayaraq, buraları tərk etməmişlər. Tarixin keşməkeşli gedişatı, Sovetlər Birliyinin yaranması, azərbaycanlıların dədə-baba torpağı olan Borçalı mahalının Gürcüstan ərazisinə qatılmas Azərbaycan dövlətinə və xalqına vurulan növbəti zərbədir. Buna baxmayaraq, Rus imperiyası və Sovet imperiyası tərkibində olmasına baxmayaraqGürcüstan azərbaycanlıları ilə daim əlaqə saxlayın Azərbaycanlıların taleyinə biganə qalmayıb.

Müstəqillik əldə etikdən sonra Gürcüstan və Azərbaycan arasında mehriban münasibətlər öz çərçivəsində qalsa da, buradakı soydaşlarımızın vəziyyəti bir qədər ağırlaşmışdır. Bunu ilk olaraq Gürcstanda azərbaycanlıların yaşadıqları kəndlərin adlarının dəyişməsində görmək olar. Bu məsələnin ciddiliyini nəzərə alsaq Azərbaycan Milli Məclisində bunun müzakirəyə çıxarılmasını xüsusi olaraq qeyd etmək olar. Azərbaycan türk kəndlərindən 33-nün adınındəyişməsi millətin milli psixologiyasına təsir göstərəcəyini bildirmək yerinə düşərdi.

Bununlą paralel olaraq Gürcüstan azərbaycanlıları yaşadıqları kəndlərə ermənı, ləzgi, kürd ailələrini köçürülməsi, burada qanqaraçılıq salmaq məqsədi güdür. Erməni əsilli gürcülərin Azərbaycan kəndlərində idarəçilik vəsifəsinin tapşırılması hər iki: gürcü və Azərbaycan xalqları arasında nifaq salmağa xidmət edən addım olduğunu bildirmək lazımdır. Digər bir məsələ azərbaycanlıların iş yerləri tapması problemidir. Azərbaycan, Gürcüstan və Türkiyədən köçərək Avropa bazarına çıxarılacaq olan Bakı-Tbilisi-Ceyhan - neft kəmərinin tikintisi zamanı azərbaycanlıların burada iştirakının qarşısının alınması da soydaşlarımıza qarşı Gürcüstanda edilən təzyiq kimi qəbul etmək olar.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinini Gürcüstan azərbaycanlılarının yaşadığı ərazilərdən keçməsini nəzərə alaraq, soydaşlarımızı bu istiqamətdə tələblərini haqlı saymaq olar. Gürcüstan azərbaycanlıları onları "Borçalı faktorundan" - siyasi məqsədlər üçün istifadə edilmədiyinin mümkünsüzlüynü bildirərək, özlərini Gürcüstan vətəndaşı hesab etdiklərini və Gürcüstanın daxili işinə qarışmayacaqlarını əminliklə bildirdilər. Sadəcə sosial-iqtisadi durumlarını yaxşılaşdırmağa çalışan Gürcüstan azərbaycanlıları Azərbaycan və Gürcüstan tərəfindən rəsmən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tərəfdarı kimi çıxış edirlər. 2003-cü ilin martın 15-də Marneuli şəhərində toplantı keçirən Gürcüstan Azərbaycanlılarının Milli Assambleyası BTC - kəmərini dəstəkləyəcəkləri barədə fikirlərini bildirərək, BTC-yə dəstək koalisasiyasına qoşulmuşlar.

Soydaşlarımızın siyasi passivliyi burada da hiss olunur. Borçalı regionunda mono-etnik tərkibin siyasi mühitinə, girə bilmir, siyasi proseslərdə iştirak edə bilmir və siyasi hakimiyyətdə təmsil olunmaqda çətinlik çəkir. Bu günə qədər azərbaycanlıların Gürcüstanın siyasi hakimiyyətdə təmsilçilik iddiasında olmamalarını qənaətbəxş hesab etmək olmaz. Təqribi sayı 500 min-

dən çox olan Gürcüstan azərbaycanlılarının siyasi proseslərdə iştirak edərək Gürcüstan hakimiyyətində təmsil olunmaq ambisiyalarının olmaması ən azı "aparılmış" sayıla bilər.

Ümumilikdə götürəndə hazırda Gürcüstan azərbaycanlıları arasında birlik yoxdur. Bəzi soydaşlarımız erməni əsilli gürcülərin təsiri altındadırlar. Qalanları isə bir-birilərilə qarşıdurma vəziyyətində yaşayırlar. Belə desək, mafiyalaşmış Gürcüstan azərbaycanlıları arasında icmadaxili münaqişə və liderlik uğrunda mübarizə kəskin xarakter alınışdır. Onları vahid mərkəzdə birləşdirmək idarə olunması müşkül məsələ hesab olunur.

Bir-birləri erməniləroişləməkdə ittiham edən Gürcüstan azərbaycanlıları parlamentə təmsil olunandeputlarıarasında da, bəzi anlaşılmaz məqamlar var. Lakin buna baxmayaraq, Gürcüstan parlamentində unikal məsələlərdə birlik nümayiş etdirən deputatlar Azərbaycanı və azərbaycanlıların maraqlarının imkanları daxilində təmsil edə bilmirlər. Gürcüstan azərbaycanlıları şərti olaraq 3 təbəqəyə aid etmək olar:

1. Ziyalı təbəqə - Gürcüstanı dövlət qurumlarında elmi-təhsil müəssisələrində KİV orqanlarında çalışan soydaşlarımızın əksəriyyəti Vətənlə bağlı olan adamlardır. Lakin onlar arasında da bəzi anlaşılmaz məqamlar var ki, bunu da onların qarışıq nikaha çox üstünlük verməsindən irəli gəlir.

2. Varlı təbəqə - Gürcüstanda böyük imkanları və geniş ticari şəbəkələri olan bu təbəqələrin Gürcüstanın siyasi və ictimai dairələrdə gürclü əlaqələri var. Lakin onların siyasi fəaliyyətə maraq göstərməsi qənaətbəxş hal hesab oluna bilməz. Bu təbəqəyə aid olan bəzi soydaşlarımızın erməni əsilligürcülərlə əməkdaşlığı da təssüff ki, var.

3. Orta və aşağı təbəqə - Bu təbəqəyə aid olan soydaşlarımız hazırda pərakəndə halında, müəyyən imkanlı şəxslərin ətrafında birləşiblər. Qohumluq və ağsaqqallıq münasibətlərinin güclü təsiri olduğu bu təbəqəyə aid olan soydaşlarımızın çoxu birgəhərəkət edə bilmirlər.

Göründüyü kimi Gürcüstan azərbaycanlıları arasında anlaşılmaz münasibətlər siyasi-ictimai passivliyə gətirib çıxarmışdır. Burada fəaliyyət göstərən təşkilat vəbirliklərin ümumi mərkəzdə birləşdirmək mümkün olmadığından bunu neqativ hal kimi qəbul etmək olar. Ümumigürcüstan Azərbaycanlılar Birliyinin yaradılması istiqamətində bir sıra mühüm addımlar atılmasınabaxmayaraq, hələ də bunun bünövrəsi qoyacaq olaq Tbilisidə Gürcüstan Azərbaycanlılarının I Qurultayı ləngiməkdədir. 2002-ci ilin noyabrın 16-17-də Marneuli şəhərində Qurultayın keçirilməsi ilə bağlıtəşkilat komitəsi yaradılmasınabaxmayaraq, proseslər passivinkişaf edir.

Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi, Dünya Azərbaycanlıları Konqresi və Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası Gürcüstanda yaşayan soydaşlarımızınbirləşməsi və siyasi-ictimai





işlərlə məşğul olma istiqamətində hazırda iş aparırlar. Əsas məqsəd həmrəyliyə nail olmaq missiyasıdır ki, bunun həlli istiqamətində ciddi olaraq nəticələr əldə edilməyib. Gürcüstanda soydaşlarımızın ermənilərə vəşovinist millətçi gürcülərin təsiri altına düşməməsi üçünisə bütün qüvvələr səfərbər olunmuşdur.

Gürcüstanda azərbaycanlıların media sahəsində işləri passiv olsa da gedir. Burada "Qeyrət", "Gürcüstan", «Borçalı mollası» və s.qəzetləri nəşr olunur. Ölkə TV və radio kanallarında ara-bir çıxışlar edən Gürcüstan azərbaycanlıları bu ölkədə çoxsaylı təşkilatları var:

1. **Azərbaycanlıların Tbilisi Mədəniyyət Mərkəzi** - 1996-cı ildə Tbilisi şəhərində təsis edilən qurum əsasən mədəni təbliğat işilə məşğul olur. Bura Gürcüstan azərbaycanlıları müxtəlif təbəqələrindən soydaşlarımız üzvdürlər.

2. **"Qeyrət" - Xalq Hərəkatı** - 1909-cu ildə Marneuli şəhərində yaradılan qurum Gürcüstan azərbaycanlıları hüquqları və milli mənəvi dəyərlərinin qorunması istiqamətində iş aparır.

3. **Gürcüstan Azərbaycanlılarının ziyalılar Birliyi**- 2001-ci ildə Tbilisi şəhərində təsis edilən qurum rəsmi evə ictimai dairələrdə Azərbaycan naminə təbliğat işi aparmaqla Gürcüstan-Azərbaycan əlaqələrinin inkişaf etməsinə çalışır.

4. **Acarıstan Gürcü-Azərbaycan Xeyriyyə Cəmiyyəti** - 1997-ci ildə Batumi şəhərində təsis edilmiş olan cəmiyyət adından göründüyü kimi xeyriyyə işləri ilə paralel olaraq mədəni tədbirlər və təbliğatla da məşğul olur.

5. **Gürcüstan Azərbaycanlılarının Milli Assambleyası**-2002-ci ildə yaradılan qurum əsas etibarı ilə təbliğat, mədəni tədbirlər və lobbiçilik istiqamətində öz işini qurub.

6. **"Yeni yol" Birləşmiş İttifaq** - 2002-ci ildə Tbilisidə yaradılan qurum Gürcüstan-Azərbaycan hökumətləri tərəfindən dəstəklənməklə təbliğat mədəni və ictimai işlərlə məşğul olur.

Bu təşkilatlardan əlavə Gürcüstanda Gürcüstan Azərbaycanlılarının "Birlik","İttifaq","Ozan İtifaqı", "Ümid İttifaqı", "Gürcüstan azərbaycanlıları Qadınlar İttifaqı", "Gürcüstan Azərbaycanlılarının Gənclər Assosiasiyası","Vətən", "Demokratik İnkişaf İttifaqı", "Aşıqlar və el şairləri ittifaqı","Gənclər idman birliyi", "Körpü-Mədəniyyətlərarası Əməkdaşlıq İttifaqı", "Dayaq Assosiasiyası" təşkilatları fəaliyyət göstərir.

Gürcüstan azərbaycanlıları və ümumilikdə Borçalı regionu dövlət üçün mühüm əhəmiyyət kəsb edir. Burada birləşmə və siyasi fəaliyyət üçün diqqətlə və düzgün düşünülmüş iş aparmasına ehtiyac var. Çünki burada yaşayan soydaşlarımız arasında icmadaxili münaqişə başlanması və güclənməsi ehtimalı çoxdur.

***HOLLANDİYA***: Avropanın bu demokratik dövlətində təqribən 5 minə qədər soydaşımız məskunlaşıb. Onların çox hissəsi artıq Hollandiya vətəndaşlığını qəbul edib. Hollandiya azərbaycanlılarının çox hissəsi Türkiyədən olan soydaşlarımızdır. Onlar əsasən ticari sahədə xeyli uğurlar əldə ediblər. Holland azərbaycanlılarının şəxsi dükanları və şirkətləri ölkənin iqtisadiyyatına xeyli miqdarda xeyir verir.

Haaqa, Amsterdam, Antverpen, Rotterdam və digər mərkəzlərdə məskunlaşan azərbaycanlılar içərisində Cənublular və Şimallılar birləşərək Azərbaycan diasporunu formalşdırıblar. Türkiyə qanadının nümayəndələri dinlə bağlı olan şəxslərin yaşam tərzi çox gözəl təşkil olunur. Şimallılar Holland vətəndaşlığını daha çoxcan atır və onlar burada özlərini daha sərbəst hiss edirlər. Cənublular isə iqtisadi sahədə çalışırlar və çox da aktivlik etmirlər.

Son illərdə"siyasi qaçqın" adı ilə mühacirətedən soydaşlarımız Hollandiyaya köçərək vətəndaşlıqəldə etmək istiqamətində iş aparırlar. 2001-ci ildə Niderland krallığının statistik məlumatına görə40 azərbaycanlıya vətəndaşlıq verilib. Bu rəqəm isə özü mühüm əhəmiyyət kəsb edir. 1999, 2000, 2006. 20002-2003-cü il statistikasına baxsaq, bu rəqəmlərin sayı ildən-ilə artmaqdadır.

Soydaşlarımız Hollandiyada hazırdamüxtəlif peşə istiqamətlərində çalışırlar. Demək olar ki, azərbaycanlıların 65%-i holland dilində danışa bilirlər. Bu göstəricilər onların buraya adaptasiya olunmasının bariz nümunəsidir. Buradan Türk, rus, diasporları ilə mehriban münasibətlər quran azərbaycanlıların yerli əhali arasında xüsusi hörməti var. Azərbaycan rəssamlarının əsərləri Hollandiyada daha çox sevilir. Bir-neçə dəfə soydaşlarımız sərgi və digər tədbirlər həyata keçiriblər. Milli bayramlarda bir yerdə olpn soydaşlarımız siyasi işlərə yaxın -durmağa çəkinirlər. Burada azərbaycanlılara - məxsus «Azərbyacan-Niderland xəbərləri»adlı qəzet də dərc olunur. Təşkilatların isə sayı bir neçəyə çatır.

1. **Azərbaycan-Türk Mədəniyyət Mərkəzi** - 1993-cü ildə Haaqa şəhərində təsis olunub. Mədəni-kütləvi tədbirlər keçirən mərkəz Azərbaycanla iqtisadi əlaqə saxlayır.
2. **Türküstan-Azərbaycan Cəmiyyəti** - Orta Asiya türkləri və Azərbaycan türkləri arasında birliyin, dostluğun həmrəyliyin saxlanılmasına xidmət edən qurum mədəni-incəsənət işləri də həyata keçirir.
3. **Hollandiya-Azərbaycan Türk Kültür və Dayantma Dərnəyi** - Amsterdamda fəaliyyət göstərən qurum təbliğat, informasiya, mədəni sahələrdə iş aparır.
4. **"Bakı"-Azərbaycan-Niderland Cəmiyyəti** - 2003-cü ilin avqust ayında Amsterdam şəhərində təsis olunub. Əsas fəaliyyət istiqamətləri Azərbaycan diasporunun təşkilatlanması, birləşməsi və həmrəyliyinə nail olmaqdır. Bunlardan başqa burada "Azərbaycan Kültür Cəmiyyəti", "Orta Asiya və Qafqaz Xalqları ilə Tədqiqat Mərkəzləri" təşkilatlarda fəaliyyət göstərir.
5. **Avropa-Azərbaycan Elm və Mədəniyyət Mərkəzi**-Haaqa şəhərində 2004-cü ildə ğəsis olunan təşkilat azərbaycan barədə həqiqətlərin Avropaya təbliğ etməkdir. Mədəni-elmi sahədə də işlər görməyi qarşısına məqsəd qoyan təşkilat lobbiçilik sahəsində də addımları atmağı planlaşdırır.





Hollandiyada Azərbaycan diasporunun fəaliyyətini proqramlaşdırmaq çətin görünmür. Burada soydaşlarımızla düzgün planlı işlər aparılsa, onların birliyinə həmrəyliyinə nail olmaq olar.

***İRAQ:*** Antik coğrafiyada Mesopotomiya adlanan ərazi VII əsrdə ərəblərin nəzarətinə keçdikdən sonra İraq adlandırıldı. Mühüm geosiayasi və iqtisadi mövqeyə malik olan İraq əhalişinin 91-95%-ni müsəlmalar təşkil edir ki, bunun da 20%-i türkman adlandırılan azərbaycanlılardır:

İraqda yaşayan soydaşlarımız özlərini və bizi türkman adlandırırlar. Elmi ədəbiyyatda "türkman" etnoniminin "tərəkəmə" cözünün cəmi olan "tərəkəmun"-dan meydana gəlməsini, bəzilərində isə "türkmanənd" biçimində işlənməsinə rast gələ bilərik ki, bu da "türkəbənzər" deməkdir. Ərəb mənbələrində türkmanların Türkmənistan, Əfqanıstan və İranda yaşayış türkmən tayfası olduğu qeyd olunur. Bununla tarixi faktları təhrif edən ərəb mənbələri kökündən yanılırlar. "Əsl türk, ulu türk" mənasını verən türkmanlar barəsində İslam Ensiklopediyasında deyilir: "İraq türkmanları, yəni oğuzcanın azəri türkcəsini qonuşan türklər". Bəzən türk mənbələri türkmanların osmanlı türklərinin bir qolu olduğu barədə fikir söyləyirlər, oxşarlıq kimi türkmanların dilində olmasını türklərinin leksikonuna məxsus sözlərin olmasını göstərirlər. Düzdür, bu bilgidə bəzi həqiqətlər var, lakin türkman yazı dilində osmanlı türkcəsinin elementləri özünü göstərməsində baxmayaraq, xalq dilinə olan nüfuzu qüvvətli olmayıb.

Bəzi xırda-para fərqləri nəzərə almasaq, İran türkmanlarının ləhcəsi Azərbaycan dilindən fərqlənmir. Onlarla söhbət zamanı bunun əyani şahidi olmaq olar. Bütün faktlar, dil, ənənə, musiqi, folklor, mətbəx, inanc və digər eynilik türkmanların məhz Azərbaycan türkləri olmasını təsdiq edir.

İraqda azərbaycanlılar ölkənin şimalında - əsasən Kərkük vilayətində: Kərkük şəhəri, Tuz Xurmatu, Altun körpü, Təzə Xurmatu Daquq, Badava, Bəşir, Böyük hasar, Biləvə, Qarabulaq, Qızılyar, İttixar, Yayçı, Yarvərli, Yengicə, Köküz, Cümbədlər, Leylan, Ömər,Məndən, Tərcil, Tisin, Toxmaqlı, Türgələn, Çardaxlı kəndlərində, Kifri, Tərətəppə, Əbud, Birəvçulu, Bostamlı, Talxanlu, Qaranaz, Ənbuhəsən, Ənbusabah, Əmirli, Əski Kifri, Yeşiltəpə,

Kəhriz, Kinkirban, Kötəburun, Laqum, Məftun, Para-para, Pirvaz, Pirəhməd, Səyyad, Süleyman bəy, Hel Mənzil, Üçtəpə, Xasadarlı, Hasarlı, Həlavə, Cəbbarlı, Şirvanə kimi şəhər və qəsəbələrdə məskən salıblar. Bundan başqa, Diyalə vilayətində, Şahraban, Dəlli Abbas, Məndəli Qarağan, Qızlarbat, Qızılçə, Mənzəriyyə, həmçinin Ərbil, Mosul, Bağdad, Samirə kimi iri şəhərlərdə də yaşayırlar.

İraqda Azərbaycan türklərinin məskunlaşması eramızın VII əsrinə təsadüf edir. İlk zamanlar əsgəri bir heyət olaraq Bağdadda xidmət edən azərbaycanlılar sonradan ciddi nüfuz qazanıblar və həmişəlik burada olublar. Xüsusilə də, xəlifə Möhtəsim öz ətrafına xeyli Azərbaycan türkü toplaşmışdı. Onun bu hərəkətinə qarşı ərəblər arasında yaranan etiraz və qalxa biləcək mübarizə dalğasından qorunmaq məqsədilə Bağdaddan 120 kilometrlikdə yerləşən Samarra - "Surra man raa" şəhərini saldıran Möhtəsim paytaxtı oraya köçürür. Beləliklə, İraqda azərbaycanlıların və digər türk xalqlarının ilk böyük koloniası yaradılır. Zilafətin səlcuq türklərinin nüfuzlu altına keçməsindən sonra soydaşlarımızın siyasi, hüquqi və mədəni inkişafı dirçəldi. Mosul (1127-1228), Ərbil (1144-1232) atabəylikləri yarandı, xüsusilə, şimal əyalətlərindən İraqa köçürülən türklərin durumu yaxşılaşdı, Tədricən Bağdad və onun ətrafında yerləşən ərazilər Azərbaycan türklərinin nəzarətinə keçdi. Cəlayirilər, Qaraqovunlular, Ağqoyunlular, Səfəvilər dövründə İraq azərbaycanlıları bütün sahələrdə yüksək dövlət postlarında təmsil olunurdular. Azərbaycanlıların elm, ədəbiyyat, memarlıq, musiqi sahəsində uğurları artimağa başladı. Azərbaycan türkcəsi fars və ərəb dilləri kimi üstün mövqe qazandı. Qaraqoyunluların hakimiyyəti illərində türk dili dövlət səviyyəsində nüfuz qazandıqdan sonra mədrəsələrdə ana dilimizdə tədrisə başlandı. Azərbaycanlılar Bağdadətrafı ərazilərdə sıx-sıx məskunlaşıb, bəzi yerlərdə sayca ərəblərdən üstün olmaqla, doğma mədəniyyəti, musiqi və ədəbiyyatı, ənənləri təbliğ edirdilər. Burada yerləşən dini ziyarətgahlara, ticari məqsədlə İraqa edilən səfərlər azərbaycan türkləri üçün çox rahat və sərbəst idi.

Osmanlı imperiyasının qüvvətlənməsi, yeni ərazilər əldə etmək iddiası 1514-cü ilin məşhur Çaldıran vuruşmasından sonra İraqın bu dövlətin nəzarətinə keçməsinə şərait yaratdı. Şah Abbasın dövründə qısa müddətə geri qaytarılan İraq sultanı VI Murad tərəfindən yenidən Osmanlı imperiyasının tabeliyinə keçirildi. Osmanlı dönəmində İraqa Anadoludan türk ailələri köçürülməyə başladı. XVIII əsrin əvvəllərində isə Qarabağ xanı Pənahəli xan bu ərazidən əvvəllər İraqa köçürülmüş elatları geri qaytarmağa cəhd göstərdi.

I Dünya Müharibəsinə qədər Osmanlı imperiyasının tabeliyində qalan İraqda soydaşlarımızın hüquqları, mövqeyi ingilislər tərəfindən qismən də olsa qorunurdu. 1920-ci ildə onların təsirilə qurulan İraq hökumətində bir Kərkük azərbaycanlısı nazir postuna təyin olundu. 1922-ci ildə İran-İngiltərə





sazişinin 3-cü maddəsinə görə, azərbaycanlılar ana dilində tədris almaq hüququ əldə etdilər. Lakin onlara verilən hüquqlar sonradan İraq hökuməti tərəfindən kobud şəkildə pozuldu.

1958-ci ildə İraqda respublika qurulmasında yaxından iştirak edən Azərbaycan türkləri ilk illər müəyyən hüquqlar əldə etdikdən sonra 1959-cu ilin 1 fevralında Bağdadda Azərbaycan dilində radı açıldı. 1960-cı ildə Bağdadda Türkmən Qardaşlıq Klubu (sonradan Ocaq oldu) yaradıldı. İraq azərbaycanlılarının iradəsilə təşkil olunan klub onların rəsmi nümayəndəliyi kimi sosial-mədəni sahədə fəaliyyət göstərməyə başladı. 1961-ci ildə "Qardaşlıq" jurnalının nəşrə başlaması klubün ilk mühüm işlərindən idi. İraq azərbaycanlılarının tarixini, yaşam tərzini, dünyabıxşlarını əks etdirən jurnal 156 saylı 1977-ci il 6 fevral tarixli qərarla BƏƏS partiyasının nəzarətinə keçdikdən sonra nüfuzunu itirdi.

1968-ci il 17 iyun inqilabından sonra İraq azərbaycanlılarına ana dillərində təhsil almaq, doğma dildə jurnal, qəzet nəşr etmək, Kərkük televiziya və radiosunda verilişlər açmaq vədləri verildi. Lakin BƏƏS partiyası hakimiyyətdə möhkəmləndikdən sonra 1971-ci ildən başlayaraq, "Bağdaddan Kərkükədək hamı ərəbləşməlidir" siyasəti yeridilməyə başlandı. Rəsmi olaraq verilən hüquq və vədlərin çox hissəsi həyata keçmədi. Buna etiraz edən azərbaycanlı tələbələr, ziyalılar həbs olundular, cəzalandırıldılar. İraq azərbaycanlılarının assimilyasiya olunması prosesi sürətləndirildi. Onların malik olduqları torpaq sahələri, mülklər müxtəlif bəhanələrlə, zorla əllərindən alındı.

Azərbaycanlılar, xristianlar, ərəb və kürdlərdən fərqli olaraq, seçkilər zamanı öz namizədliklərini irəli sürə bilməzdilər. Azərbaycan dili ərəb dilinin ağır təsiri altına düşdü. Doğma dildə təhsil almaq hüquqlarını itirən soydaşlarımıza hərb, polis sistemində işləmək, bu hərb, polis sistemində işləmək, bu yöndə təhsil almaq qadağan olundu. Kərkük və digər ərazilərin adları ərəbləşdirildi. Əl-Tammin adı yerləşən Kərkkdə soydaşlarımız ciddi şəkildə sıxışdırıldılar. Tuz Xurmatı və Kifri kimi azərbaycanlıların çoxlu sayda yaşadıqları ərazilər ərəb vilayətlərinə birləşdirildi.

Neftlə zəngin torpaqlarda yaşayan azərbaycanlılar zorla ucqar ərəb kənd və qəsəbələrinə köçürüldülər. Azərbaycan məktəbləri bağlandı. Bu dildə rəsmi dairələrdə danışmaq qadağan edildi. 7 yaşından sonra ərəb düşərgələrinə aparılan azərbaycanlı uşaqlara ərəb dilli, mədəniyyəti və ideologiyası öyrədilirdi. Ərəb oğlanlarını azərbaycanlı qızlarla evləndirməyə həvəsləndirmək üçün hökumət belə gənclərə böyük miqdarda pul vəd edirdi.

Cənubdan yüzlərlə ərəb ailəsi soydaşlarımızın yaşadıqları ərazilərə köçürülərək geniş səlahiyyət və imkanlar qazanırdılar. Azərbaycanlıların alqı-satqı hüquqları əllərindən alındı. 1980-ci ildən sonra soydaşlarımız torpaq, ev, dükan satın ala bilməzdilər. Şəxsiyyət vəsiqəsi alarkən azərbaycanlıların mil-

liyyəti zorla dəyişdirilirdi, onlar ərəb və kürd millətindən olduqlarını yazmağa vadar edilirdilər. Dövlət işlərində azərbaycanlılar çalışa bilməzdilər. Soydaşlarımıza məxsus tariximədəniyyət abidələri dağılırdı. Məsələn, Korkükdəki Daş körpü, Kərkük qalası uçurduldu. Azərbaycanlılar zorla kürd və ərəblərin çox olduqları bölgələrə sürgün edilirdilər. Ərəb bölgələrinə köçənlər ev əşyalarını götürə bilərdilər. Lakin kürdlərin ərazisinə köçənlər üst paltarlarından başqa heç nə apara bilməzdilər. Bu cür haqsızlıqlara dözməyən yüzlərlə soydaşımız Danimarka, İsveç, Türkiyə və digər Avropa ölkələrinə mühacirət etməyə məcbur oldu. Nüfuzlu, cəmiyyətdə mövqe qazanan azərbaycanlılar həbs edilir, gözdən salınırdılar.

Səddam Hüseynin hakimiyyəti illərində İraqdakı soydaşlarımızın durumu daha da pisləşdi. Təzyiqlər yolu ilə azərbaycanlıoarın qonşu ölkələrə köçməsini gücləndirən Səddam Hüseyn rejimi boş qalan ərazilərdə kürdləri və ərəbləri yerləşdirirdi. 8 illik müharibə illərində qardaşı qardaşa silah qaldırmağa vadar edən İraq və İranrejimlərinin amansız, mənfur siyasətinin qurbanları əsasən hər iki ölkədə yaşayan və hər iki səngərdə vuruşan Azərbaycan türkləri idi.

Müharibədən sonra azərbaycanlıların öz hüquqları uğrunda başladıqları bir çıxış xüsusi qəddarlıqla yatırıldı. İraq rəsmiləri azərbaycanlıların sayını qəsdən azaldır, onların 5000 min olması barədə açıqlamalar verdidər.

Amma əslində bu ölkədə 2-2,5 milyon arası saya malik olan soydaşlarımızın 1990-cı ilin İraq konstitusiyasında adları belə, çəkilmir. Konstitusiyada "İraq xalqı yalnız ərəb və kürllərdən ibarətdir" bəndini qeyd etməklə insan hüquqlarını kobudcasına pozan, beynəlxalq hüquq normalarını tapdayan Səddam Hüseynin rejimi, aydındır ki, soydaşlarımızı bu iki xalqın içərisində "əritməyə" çalışıb. Ərəblərdən sonra İraqda ikinci böyük xalq olan soydaşlarının dili, mədəniyyəti son günlərdə, sərt şəkildə sıxışdırılmaqda, folklor abidələri, ənənələri, mətbəx, milli vaplığı yox edilməkdədir. Soydaşlarımızın kütləvi informasiya vasitələrinə çıxışı yox dərəcəsindədir.

Hazırda İraq azərbaycanlıları ölkə daxilində və kənarda müxtəlif biliklər quraraq öz sosial-mədəni hüquqlarının bərpa edilməsinə çalışırlar. Bu sırada İraq Milli Azadlıq Hərəkatı, Şimali İraq Türkmən Cəbhəsi, Türkmən Milli Cəbhəsi, İraq Milli Türkmən Partiyası, Bağımsızlar Partiyası, Qardaşlıq Ocağı, İraq Türkmənlərinin Kültür Dərnəyi, İraq Türkmənlərinin Kültür və Yardımlaşma Dərnəyi, Türkmənistian Elli Gənclik və Öyrənci Birliyi, Türk Milli Vəqfi, Kərcüc Vəqfi kimi qurumlar var. Bu təşkilatlar İraqda başlanan hərbi əməliyyatlar zamanı burada yaşayan soydaşlarımızın zərər görməməsini və tarixi abidələrimizin qorunması üçün müəyyən işlər görüblər, müvafiq dairələrə müraciətlər ediblər. İraqda dini məscidlər, Həzrət Əli, İmam Hüseyn, Həzrət Abbas kimi müqəddəs şəxsiyyətlərlə yanaşı, dahi Füzulinin də qəbri





məqbərəsi yerləşir. Bundan başqa, tarixi abidələr saraylar, döyüşlər zamanı dağılması ehtimalı da gelüdür. Bütün bir tarixi və mədəni varlığımızı qorumaq vəzifəsi isə İraqda və btün dünyada yaşayan soydaşlarımızın çiyninə düşür.

İraqda 1400 illik tarixə malik olan azərbaycanlılap tarixin müxtəlif dövrlərində bütün çətinliklərə baxmayaraq, öz kimliklərini, mənəviyyatını, ana dilini unutmayıb, ulu babalardan qalan, mismilsiz dəyərə məlik ənənələri nəsildən-nəslə ötürərək bu günümüzə çatdırıblar. Bizim isə bu gün öhdəmizə düşən vəzifə qanbir-canbir qardaşlarımızın taleyinə biganə qalmamaqdır.

***İSVEÇ:*** Azərbaycan diasporunun ən fəal olduğu dövlətin İsveç olduğun desək, bəlkədə yanılmarıq. Burada təqribən sayı 50 minə çatan soydaşlarımızın fəaliyyəti olduqca aktivdir.

Azərbaycandanİsveçə mühacirət XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayıb. Əsasən Cənubi Azərbaycandan bu ölkəyə köçən azərbaycanlılar artıq XX əsrin ortalarında burada icmalarını yarada biliblər. Hazırda çoxsaylı media orqanları və təşkilatlarının fəaliyyət göstərdiyi İsveçdə soydaşlarımız fəal lobbiçilik edə bilirlər. İsveçdə Azərbaycanla bağlı bir çox tarixi sənədlərə və məlumatlara rast gəlmək olar. Xüsusilə UpsalaUniversitetində Azərbaycan ədəbiyyatı, folkloru və tarixinə aid onlarla önəmli sənəd və materiallar var.

Skandinaviya adasının ən inkişaf etmiş ölkələrindən olan İsveçin8,9 milyon əhalisinin 10%-ini mühacirlər təşkil edir. Bunlar içərisində xüsusi çəkiyə malik olan azərbaycanlılar İsveçin bir çox şəhərlərində məskunlaşıblar. Ümumi götürəndə 40%-Şimaldan, 10-15%-Cənubdan 50% isə Türkiyədən olan azərbaycanlıların 10-15% işsizdilər və onlar İsveç hökumətindən yardım alırlar. Qalanları isə azad iş yerlərində çalışır, kiçik bir hissə isə burada təhsil alırlar. Bir-birlərilə intensiv əlaqə saxlamasalarda, onların fəaliyyəti olduqca qənaətbəxş hesab olunur.

Bu cür aktivliyə baxmayaraq İsveçli azərbaycanlıların əksər hissəsi Azərbaycan dövlətinə, azərbaycançılıq ideologiyasına, ümumazərbaycan işinə hələ də öz mövqelərini tam olaraq müəyyən edə bilməyiblər. Burada güclü İran təsirin görmək olar ki, bu cənublu soydaşlarımızın fəaliyyətinə maneçilik törədir. Bu fikirlərə misal olaraq İsveçdə 2002-ci ilin oktyabr ayında İran rejiminin "Yeddi gözəl" baletinin "İran baleti" altında səhnələşdirilməsinə və nümayiş etdirilməsinə etiraz edən cənublularının sayının az olmasını göstərə bilərik.

Kiyan Nima adlı şəxsin təşəbbüsü ilə Stokholmda baletin fars adı ilə nümayiş etdirilməsinin qarşısını almaq mümkün olmasa da soydaşlarımız etiraz səslərini İsveç və İran hökumətinə çatdıra biliblər.

Bu problemlərdən başqa İsveçdə Azərbaycan diasporuna zərər vuran digər bir problem İsveçrə azərbaycanlılarının "erməni" - millətikimi mühacirət

etməsidir. Lakin müvafiq qurumların işə qarışması nəticəsində belə neqativ halın qarşısını müəyyən mənadaalmaq mümkün olmuşdur.

Göründüyü kimi İsveçdə vəziyyət müxtəlif aspektlərdə inkişaf edir. İsveç eyni zamanda müasir dövrdə azərbaycanlıların çoxsaylı köçdükləri ölkələrdən biridir. İsveçin "Daglus Nyhyer" ("Gündəlik xəbərlər") - qəzetində bu məsələ araşdırılmış və verilən məlumata görə təkcə 2002-2003-c illərdə İsveç vətəndaşlığına 1000-dən çox azərbaycanlı daxil olmuşdur.

Köhnə və yeni nəsil nümayəndələri arasında baxış və mövqe fərqlərinə İsveçdə tez-tez rast gəlmək olar. Solçu, sağçı, radikal, islamçı,, demokrat mühafizəkarlar liberal, monorxist baxımlı azərbaycanlılar arasında sevindirici haldır ki, ümumazərbaycan işində çox az halda qarşıdurma və fikir ayrılığına rast gəlinir. İsveçli azərbaycanlılar arasında keçirilən sorğu nəticəsində onların Azərbaycan və azərbaycanlılara münasibətinin aşağıdakı kimi formalaşdığının şahidm olmaq olar:

İsveç azərbaycanlıları Azərbaycan Respublikasının bəzi qanunlarından narazıdır. Onların fikrincə bizim polis və vergi sistemini bir qədər yumşaltmağa ehtiyac var. Onlar Azərbaycanda yaşayanşəxslərin müstəqil fikirli olmadığın düşünürlər. Buna baxmayaraq Azərbaycanın dəstyəinə ehtiyacların gizlətməyən İsveç azərbaycanlıları İnformasiya sahəsitndə bir qədər aktivdirlər. «Tribun», «Varlıq», «Azərbaycan», «Araz» və sairə qəzet və jurnallar nəşr edən İsveçli soydaşlarımızın təşkilatı işi3 mərhələdən keçib.

1.İlk yaranan təşkilatlarİran sol meyilli müxalifət qruplarıtərəfindən himayə olunurdu. Mədəni cəmiyyətlər adlanan bu təşkilatlar sonradan siyasi fəaliyyətə qoşulduqlarındanonların işi cəmi bir neçə konsert proqramından ibarət oldu

2. Azərbaycan müstəqillik əldə etdikdən sonra yaranan təşkilatlar bütöv Azərbaycançılar və İrançı (fars yönümlülər) qüvvələr tərəfindən himayə olunurdu. Bir-birlərilə daim rəqabətdə olan bu təşkilatlar konsertlər təşkil edib bir sıra jurnallarıdərc etdikdən sonra öz nüfuzlarını itirməli oldular.

3. İran və Azərbaycan gediş-gəlişinin asanlaşması səbəbilə yaranan təşkilatlar. Belə təşkilatları İsveç azərbaycanlıları "ailə təşkilatları" - adlandırırlar və onların üzvlərinin sayının təqribən 10 nəfərdən ibarət olduğu söylənilir Belə təşkilatlar artıq siyasi işlərə baş qoşmur, yalnız maddi və mənəvi maraqlar güdürdülər.

Göründüyü kimi 1998-ci ilə qədər proseslər 3 mərhələdə baş vermişdir Lakin 1999-cu ilin əvvəilərindən hazırkı dövrə qədər yaranan təşkilatlar Azərbaycan maraqlarını təmsil etməyi qarşılarına məqsəd qoyubiar. Belə təşkilatlardan aşağıdakıların adlarını çəkmək olar:

1. **Azərbaycan-İsveç Komitəsi** - Azərbaycan və İsveçlilərin birləşdiyi bu cəmiyyət İsveçdə fəal təşkilatlardan hesab olunur. Azərbaycan-İsveç





münasibətlərini normallaşdırmaq üçün iş aparan Komitə eyni zamanda lobbiçilik və təbliğat işilə məşğul olur.

2. **Azərbaycan-İsveç Federasiyası** - Bir neçə azərbaycanlı təşkilatının birləşdiyi Federasiya təbliğat, informasiya, mədəni tədbirlər keçirir.

3. **Araz Cəmiyyəti** - Malmö şəhərində təsis edilən cəmiyyət İsveç azərbaycanlılarını birləşdirməsi və mədəni, kütləvi tədbirlərlə məşğul olur.

4. **"Ərk" Cəmiyyəti** - Stokholm şəhərində fəaliyyət göstərən qrumun mədəni ictimai işləri qarşısına məqsəd qoyub.

5. **"Savalan" cəmiyyət** - Göteborq şəhərində təsis olunan təşkilat ədəbi, mədəni, ictimai sahələrdə iş aparır.

6. **Azərbaycan Kültür Cəmiyyəti** - 1990-cı ildə --- şəhərdə təsis olunub. Azərbaycanın siyasi, iqtisadi, coğrafi, mədəni cəhətdən təbliğ olunması istiqamətində çalışır.

7. **Azərbaycan-Skandinav İctimai Birliyi-** Yeni yaradılan qurumun məqsədi Azərbaycanla Danimarka, İsveç, Norveç, İslandiya və Finlandiya arasında iqtisadi-mədəni əlaqələri möhkəmləndirmək, bu ölkələrin iş adamlarının diqqətini ölkəmizə cəlb etməkdir. Birliyin həm Bakıda, həm də İsveçin paytaxtı Stokholmda mərkəzi ofisləri fəaliyyət göstərəcək.

Bu təşkilatlardan başqa İsveçdə "Ulduz" Cəmiyyəti, "Durna Cəmiyyəti", "İran Azərbaycanlılarının Dostluq Cəmiyyəti", "Babək Dərnəyi", "Mişov Dərnəyi", "Günəş Qadınlar Birliyi", "Azer Cəmiyyət", "Azərbaycan Cəmiyyəti", "Varlıq cəmiyyəti", "Sevil Azərbaycanlılar Cəmiyyəti", "Birlik Dərnəyi", 'Azərbaycan İsveç Yazıçılar Birliyi Mərkəzi", "Azərbaycan İsveç Yazıçılar Birliyi", "Azərbaycan kültür ocağı", 'Azərbaycan Mədəniyyəti Cəmiyyəti", "Səhəng Cəmiyyəti", təşkilatları fəaliyyət göstərir.

İsveçdə Azərbaycan diasporunun gün-gündən fəaliyyət sahəsini genişləndirməkdədir və inanmaq olar ki, İsveç Dünya azərbaycanlıların dahi bir mərkəzi rolunu üzərinə alacaq.

***İSVEÇRƏ:*** Azərbaycanlıların təqribisayı 3 minə qədər göstərilən İsveçrəyə soydaşlarımızın mühacirəti XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlayıb. Bu illərdə azərbaycanlıların varlı təbəqəsi İsveçrəyə müalicə və dincəlmək üçün gedirdilər. Azərbaycanlı milyonçularınfin külli miqdarda vəsait qoyduqları İsveçrə banklarında hazırda da hesablar qalmaqdadır. Bu ölkəyə təhsil almaq üçün də soydaşlarımız gəlirdilər və 1920-ci ilin yanvar ayında Rusiya və Avropa ölkələrinə müxtəlif ixtisaslar üzrə təhsil almaq üçün gedən azərbaycanlıların 50 nəfəri İsveçrəyə yola salınmış idi və onlar təhsillərini bitirdikdən sonra geri qayıtmadılar.

II Dünya müharibəsi mllərində də azərbaycanlılar İsveçrədə məskunlaşırdılar və onlar bir müddətdən sonra assimilyasiya olunmalarına baxmayaraq, milli kimlikləri barədə təsəvvürləri itirməyiblər. 1991-ci ildən də sonra İs-

veçrəyə mühacirətə gedən soydaşlarımızın köhnə nəsil nümayəndələri ilə birgə Azərbaycan diasporunun formalaşdırılmasına başlayıblar. Düzdür KİV sahəsində və ictimai-siyasi işlərə isə bir uğurlar olmamasınabaxmayaraq, son zamanların prosesləri buradakı soydaşlarımızın aktivləşəcəyini göstərir.

1993 və 2003-cü ildə Davos şəhərində beynəlxalq konfransda iştirak edən mərhumprezident Heydər Əliyevlə İsveçrə azərbaycanlılarının görüşündə müzakirə olunan məsələlər işlərinmüsbət istiqamətdə getdiyini göstərmişdir. Hazırda İsveçrədə bir neçə Azərbaycan təşkilatı və fondu fəaliyyət göstərir.

1. **İsveçrə-Azərbaycan Cəmiyyəti** - 1992-ci ildə təsis olunan cəmiyyət mədəni təbliğatçılıq, ictimai işlərlə məşğul olur.
2. **Azərbaycan Türklərinin Kültür Dərnəyi** - 1997-ci ildə təsis olunan dərnək ictimai-mədəni işlər həyata keçirir.
3. **İsveçrə Azərbaycan Dostluq Cəmiyyəti (İADC)**- 2004-cü ildəİsveçrənin Surix şəhərində yaradılıb. Avropanın bu regionunda məskunlaşan soydaşlarımızın əsas məqsədi Azərbaycan sevərləri yeni yaranmış cəmiyyətə cəlb etmək, azərbaycançılıq ideyalarını təbliğ etmək, xalqımızın tarixini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini qorumaqdan ibarətdir. Bundan başqa Azərbaycan həqiqətlərini, xalqımızın haqq səsini bütün Avropaya çatdirmaq və sair işlər də cəmiyyətin fəaliyyət proqramına aiddir.

Təşkilatlardan əlavə İsveçrədə "Heydər Əliyev Xeyriyyə Fondu" fəaliyyət götərir. İsveçrədəki soydaşlarımızın çox hissəsini şimal və türkiyəli azərbaycanlılar təşkil edir. Burada cənublular da azlıq təşkil etmir. Buradakı soydaşlarımız fəaliyyətlərini daha da fəallaşdırmaq üçün işlər görürlər.

*İSPANİYA*: Azərbaycanlıların Avropanın müxtəlif dövlətlərinə mühacirəti orta əsrlərə təsadüf edir. Belə dövlətlərdən biri də orta əsrlərdə Avropanın güclü dövlətlərindən olan İspaniyadır. İspanların Azərbaycana və azərbaycanlı alimlərə marağı XII-XIII əsrlərdən başlanıb. Xüsusilə Azərbaycanın görkəmli alimi Nəsrəddin Tusinin ixtiraları, əsərləri ispan səyyahları, alimlərinin böyük marağına səbəb olmuşdur. Xristofor Kolumbun Amerika səfərini maliyyələşdirən İspan kralının xəzinədarı olan milliyyətcə yəhudi olan Qabriel Sanxes onu pul və əşyalarla təmin etmişdir. Qabriel Saxes əldə etdiyi sədəf üçün ləvazimatlar içərisinə müəllifi Nəsrəddin Tusi olan xəritə, masştab (kompasın qədim növü) və digər astronomik cihazlar daxil idi.

XV əsrdən etibarən Azərbaycan dövlətləri (Ağqoyunlu, Səfəvi) Avropa ilə müntəzəm əlaqələr saxlayırdı. İspaniya ilə də diplomatik-ticari münasibətlər qurulmuşdu. Xüsusən Şah Abbasın dövründə münasibətlərin ən mehriban





dövrü olmuş və 1599-cu ildə Hüseynəli bəyin başçılığı ilə İspaniya kralının hüzuruna nümayəndə göndərilmişdir. Nümayəndə heyətinə Əliqulu bəy, Oruc bəy Bayat və Bunyad bəy daxil idi. Türkiyə əleyhinə müqavilə bağlamağa gedən elçilər Xəzər dənizi, Volqa çayı, Rusiya, Skandinavya, Almaniya, İtaliya yolu ilə gedərək İspaniyaya çıxmış və burada hansısa səbəblər üzündən xristianlığı qəbul etmişlər. İspan kralı III Filipp onları xaç suyuna salmış və Əliqulu bəyə don Filipp, Bünyad bəyə - don Dieqo və Oruc bəyə - isə Don Juan adı verilmişdir.

Bu elçilər xristianlığın qəbul etdikdənsonra İspaniya və Avropada öz müsbət keyfiyyətlərinə görə tanınmış və sevilmişlər. Yəqin ki, Don Juanın adını və fəaliyyətini oxumayan, bilməyən az adam tapılar.

1604-cü ildə isə ölkənin o zamankı paytaxtı ValyovildəAzərbaycan, Səfəvi dövlətinə aid kitabın nəşr olunmasında Oruc bəyin rolu böyük idi.

İspaniya ilə Azərbaycan arasında münasibətlər zaman boyu müxtəlif səpkidə inkişaf etmişdir. Bu ölkəyə soydaşlarımızın mühacirəti XIX əsrin sonu XX əsrin əvvəllərində daha kütləvi şəkil almışdır. Avropadan mühacirət edən Şimali və Cənubi azərbaycanlılar İspaniyanın paytaxtı Madriddə və digər şəhərlərdə məskunlaşmışdılar. II Dünya müharibəsindən də sonra çoxsaylı soydaşlarımız İspaniyada məskunlaşmalı olublar. 1991-ci il dövlət müstəqilliyimiz elan edildikdən sonra İspaniya ilə ikitərəfli diplomatik münasibətlər quruldu və hazırda ticari, iqtisadi diplomatik cahədə əlaqələr intensiv halda davam edir.

Hazırda İspaniyadason statistik məlumatlara əsasən azərbaycanlıların təqribi sayı 14 min rəqəmlə göstərilir. Əsasən, cənubdan və Türkiyədən olan azərbaycanlılar siyasi cəhətdən passivdirlər. Burada imkanlı şəxslərin olmasına baxmayaraq, maddi çətinliyi əsas götürən azərbaycanlılar kütləvi informasiya vasitələrinə malik olmamaqla, ispan mediasında çıxışlar etmirlər. Yalnız "El Pais" qəzetində dərc olunan bir neçə məqaləni nəzərə almasaq burada media sahəsində aparılan işi müsbət hesab etmək olmaz. İspaniyada soydaşlarımızın birliyi, həmrəyliyi qənaətbəxş deyil. Əsasən Madrid şəhərində çoxsaylı məskunlaşan azərbaycanlıların az bir qismi ictimai işlərdə fəallıq göstərirlər. Qalanları yalnız öz işlərilə məşğuldurlar.

Burada **«İspan-Azəri Kültür Cəmiyyəti»** kimi tanınan **"Azərbaycanlı Dostlarının Kültür Cəmiyyəti"** fəaliyyət göstərir ki, onun üzvlərinin 60 -80 nəfəri azərbaycanlı, qalanları ispanlardır. Bir müddət "Dədə Qorqud" məcmuəsini nəşr edən cəmiyyət maddi çətinliklər ucbatından nəşr dayandırılıb.

Digər bir təşkilat İspaniyanın Valensiya vilayətinin Toravixi şəhərində fəaliyyət göstərən **«Azəri Cəmiyyəti»**-dir.2002-ci il noyabrında təsis olunub. Əsas fəaliyyəti azərbaycanlılar arasında birlik və həmrəyliyə nail olmaq,təbliğat və mədəni tədbirlərdir.

*KANADA:* Amerika qitəsinin inkişaf etmiş ölkəsi olan Kanadada bir çox etnik diasporlar formalaşıblar. Bunlar içərisində say və fəaliyyətinə görə Azərbaycan diasporu Kanada da xüsusi olaraq seçilir.

Hazırda Kanada da 120 minə qədər azərbaycanlı yaşayır. Onların 50%-ni cənublular, 40%-ni şimallılar kimi 10%-ni isə Türkiyəli azərbaycanlılar təşkil edir. Bu üç qanaddan cənublu soydaşlarımız kifayət qədər güclü maddi intellektual imkanlara malikdirlər. Onların Kanada da böyük nüfuzu və yüksək dairələrə təsir etməsi gücü digər ölkələrdən fərqlənir.

Azərbaycanlıların Kanadaya mühacirəti əsasən XX əsrin əvvəllərindən etibarən başlayıb, Cənubi Azərbaycanda baş verən siyasi-ictimai proseslər, bununla paralel olaraq ADR-in süqutu soydaşlarımızın Kanadaya mühacirəti intensivləşdirmişdir. Lakin kütləvi mühacirət 1940-cı illərdən sonra baş verib ki, bunun nəticəsində soydaşlarımız Ontario, Ottava, Monreal, Kvebek və digər şəhərlərdə məskunlaşıblar.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra Kanada azərbaycanlılarının fəaliyyəti aktivləşmişdir. Hələlik cənub qanadının yüksək vəzifəli və imkanlı üzvlərinin bəziləri Azərbaycan dövləti faktoruna münasibətini tam müəyyənləşdirməyiblər. Buna baxmayaraq ölkəni burada təbliğ etməyə cənublular daha meyillidirlər. Bunu onların fəaliyyətində də görmək olar. 89-90-cı illərdə Şimali Azərbaycandan Kanadaya mühacirət prosesinin güclənməsi buradakı diasporumuzun daha da təkmilləşməsinə şərait yaratdı. Təbliğat işi aparılmağa başlandı. İnformasiya ədəbi gecələrin keçirilməsi ənənəvi xarakter aldı. Son statistik göstəricilərə görə Kanada azərbaycanlıları Azərbaycandan müğənnilər dəvət edərək, onların konsertlərini təşkil etməkdə ilk yerdədirlər.

Azərbaycanlıların Kanadada tədbirlər siyahısınaetiraz çıxışları, lobbiçilik, KİV sahəsində təbliğat, ikitərəfli əlaqələr, Kanada-Azərbaycan münasibətlərinin inkişafı və s. daxildir. İlk zamanlar güclü erməni vəyunan diasporu ilə üzləşən soydaşlarımız birgə fəaliyyəti nəticəsində müəyyən qədər onları neytrallaşdırmaq olub. 1982-1993, 1994-cü illərdə Azərbaycanlıların Kanadadaetiraz çıxışları yerli media orqanlarında işıqlandırılıb. Ümumilikdə götürəndə Kandada da Azərbaycan diasporunun fəaliyyəti ABŞ-dan daha aktivliyinə və təşkilatçılığına görə seçilir. Soydaşlarımızın hazırda durumu köhnə nəsil mühacirlərilə yeni nəsil mühacirləri arasında müəyyən anlaşılmaz münasibətlər səbəbilə görülməsi vacib olan işləri əngəlləyir. Buraya yeni köçən şimallılar bir-birlərilə ailəvi yaxınlıq edir, milli bayramları birgə keçirirlər. Buna baxmayaraq onlar hələ öz mövqelərini Kanada da tam olaraq müəyyən etmədiklərindən siyasi işlərdə fəallıq göstərmirlər. Əsasən yeni nəsil mühacirləri türk diasporu ilə sıx əlaqə saxlayır. Köhnə nəsil nümayəndələri isə Ümumazərbaycan işində müxtəlif baxışlara malikdirlər. Onların bəziləri vətənpərvər





olduqlarını bildirsələr də ehtiyatlı davranırlar. Bir qism də ümumən azərbaycançılıq işinə yaxın durumlar. Kanada azərbaycanlılarının Kütləvi İnformasiya Vasitələrində fəaliyyətin qismən olsada müsbət adlandırmaq olar. Burada 1992-ci ildən başlayaraq, təbliğat işinə diqqət yetirməyə başlayıblar. Əvvəllər Kanada televiziyasında azərbaycanlıların veriliş yayımlanmasından sonra maliyyə və diaspordaxili fikir ayrılıqları səbəbilə buna son qoyuldu. İlk illər Azərbaycana humanitar yardım göndərən Kanada azərbaycanlıları arasında sonradan qarşıdurmaların yaranması, əvvəlki birliyin, həmrəyliyin pozulmasına əsas yaratdı. "La Press", "Teqazet"- kimi Kanadanın tanınmış qəzetlərində əvvəllər azərbaycanlıların çıxışları ara-bir baş verirdi. Lakin sonradan müəyyən passivlik səbəbilə Kanada qəzetlərində çıxış etməyə də son verildi. Hazırda Kanadada "Radio Odlar Yurdu" - yayımlanır ki, onun fəaliyyəti olduqca qənaətbəxşdir. www.radioodlaryurdu.com- saytında yerləşən radio əldə etmək olar. Bundan başqa əvvəllər "Qurtuluş" dərgisi yayımlanırdı. Sonradan onu "İldırım" dərgisi əvəz elədi. İlk zamanlar "Azerbaijan Post" - qəzeti nəşr edilirdi.

KİV orqanlarından başqa Kanadada çoxsaylı diaspor təşkilatları fəaliyyət göstərir.

1. **Azərbaycan Mədəniyyət Mərkəzi** - 1988-ci ildə Monreal şəhərində təsis olunan Mərkəz Kütləvi-Mədəni tədbirlər keçirməklə məşğul olur. Kanada da bir sıra Azərbaycandan gələn ifaçılar konsert proqramları təşkil edib.
2. **Kanadada Azərbaycan Milli Federasiyası** - 1994-cü ildə yaradılan qurum əsasən Kanada-Azərbaycan ticarəi əlaqələrinin inkişaf etməsi, lobbiçilik təbliğat, ticari-iqtisadi, mədəni işlər həyata keçirməyə.
3. **Kanada-Azərbaycan Ticarət Palatası** -adından göründüyü kimi, Kanada Azərbaycan ticari əlaqələrinin inkişaf etməsi istiqamətində Palata bir sıra işlər aparır.
4. **Azərbaycan İcmalar Assosiasiyası** - 1988-ci ildən Ontarioda fəaliyyətə başlayaraq, qurum burada yaşayan azərbaycanlıların birləşməsi, mədəni tədbirlər və informasiya təbliğat işilə məşğul olsun.
5. **Kanada Azərbaycanlıları**- Kanadada şimalı azərbaycanlıları ətrafında toplayan şqurum əsasən milli kimliyini qoruyub saxlaması və mədəni işləri həyata keçirir. Bunlardan başqa Kanadada "Azərbaycan Mədəniyyət Assosiasiyası", "Ontraio Azərilər Cəmiyyəti", "Azəri", "Kanada-Azərbaycan Dostluq Assosiasiyası",Azərbaycan-Kvebek Cəmiyyəti", "Azərbaycan evi", "Gənclər-Tələbələr Birliyi", "Azərbaycan mərkəzi" - təşkilatları fəaliyyət göstərir ki, onların bəzilərinin fəaliyyəti sadəcə kağız üzərində qalıb.

Kanadada Azərbaycan diasporunun fəaliyyəti son zamanlar isə bura köçən mühacirlər hesabına intensiv xarakter almağa başlayıb və bu istiqamətdə dövlətin dəstəyi mütləq lazımdır.

***QAZAXISTAN*** : Qazaxıstanda azərbaycanlılarınformalaşdırdığı diaspor bu ölkədə sayılıb seçilənlərdəndir. Orta Asiyanın aparıcı dövlətlərindən olan Qazaxıstan ilə Azərbaycanın tarixi əlaqələri orta əsrlərə gedib çıxır. Böyük "İpək yolu" dövlətləri olan Qazaxıstan və Azərbaycan arasında əlaqələr ticari və mədəni əsaslarla inkişaf etmişdir.

Hazırda sayı 106-110 min göstərilən Qazaxıstan azərbaycanlılarının bu ölkədə diaspor formalaşdırılması XX əsrin 60-cı illərindən sonrakı dövrə təsadüf edir. 1920-ci illərdə Sovetlər Birliyində başlanan siyasi repressiyaların ən ağır zərbəsi Azərbaycana dəydi. Bunun nəticəsində azərbaycanlıların çox hissəsi Vətəndən didərgin düşənlər Orta Asiya, Sibir kimi yerlərə sürgün edilirdilər. Belə azərbaycanlıların müəyyən hissəsi, təqribən 120 minə qədəri Qazaxıstana sürgün olmuşlar. İlk sürgün edilən soydaşlarımız Canbul, Çimkənd və Almatı vilayətində məskunlaşmışlar. Bu prosesdən sonra 40-50-ci illərdə davam edən repressiya prosesindəazərbaycanlıların bura köçürülməsi ilə nəticələnmişdi. Əsasən onlar Gürcüstan və Azərbaycanın digər bölgələrindən olan deportantlar idilər. 1956-60-cı illərdə isə on beş minə yaxın azərbaycanlı Qazaxıstanın xam torpağının münbitləşdirilməsinə kömək üçün buraya köçmüşlər. 1960-80 və 1991-ci ildən sonra baş verən mühacirət prosesi nəticəsində soydaşlarımızın Qazaxıstanda yayılma coğrafiyası aşağıdakı kimi müəyyənləşdirilib:

| | |
|---|---|
| Anmola vilayəti | 7.000 nəfər |
| Aktyubinsk vilayəti | 1.000 nəfər |
| Almatı vilayəti | 9.000 nəfər |
| Astana vilayəti | 9.000 nəfər |
| Cənubi Qazaxıstan vilayəti | 25.000 nəfər |
| Şimali Qazaxıstan vilayəti | 15.000 nəfər |
| Lavlovar vilayəti | 2.000 nəfər |
| Mari Qistausk vilayəti | 3.500 nəfər |
| Qızılarda vilayəti | 200 nəfər |
| Kostonay vilayəti | 4.000 nəfər |
| Qərbi Qazaxıstan vilayəti | 900 nəfər |
| Karaqanda vilayəti | 4.000 nəfər |
| Cambul vilayəti | 10.500 nəfər |
| Şərqi Qazaxıstan | 1.500 nəfər |
| Atrau vilayəti | 500 nəfər |





Qazaxıstanda aparılan statistik göstəricilər görə Azərbaycan diasporu digər diasporlardan oturacağına və mühacirətə az meylli olmağı ilə seçilir. Demoqrafik cəhətdən seçilən Azərbaycan diasporu mədəni və ictimai fəaliyyətlə məşğul olur. Hüquq, iqtisadiyyat, ictimai işlər, texniki, elmi və digər sahələrdə çalışan soydaşlarımızın müəyyən hissəsiöz peşəsi üzrə xeyli qabağa gedərək, mühüm postları tutublar. Onlar yerli əhali və rus, özbək, türkmən, qırğızla isti əlaqələr quraraq, bir-birlərinin mədəni tədbirlərində fəal iştirak edirlər. Qazaxıstan azərbaycanlılarının çox hissəsi Vətənə gələrək burada ailə həyatı qurmağa üstünlük verirlər. Qazax və ruslarla qarışıq nigaha girən bəzi soydaşlarımız isə ailələrində azərbaycanlı ənənələrini təbliğ edirlər. Düzdür təbliğat işində passiv olan soydaşlarımızın təşkilati işi yaxşı təşkil olunub. Azərbaycan təşkilatları digər diaspor təşkilatları kimi, elə prezident N. Nazarbayevin rəhbərlik etdiyi "Qazaxıstan Xalqları Respublikası" birliyinə daxildilər.

1990-cı illərdən Aktubinsk vilayətində "Birlik", Astana şəhərində "Xəzər", Karaqanda vilayətində "Kamus", Kostonay vilayətlərində "Heydər", "Povladar vilayətində, Vətən və "s. Azərbaycan mədəniyyət mərkəzləri fəaliyyətə başlayaraq öz işlərini hazırda davam etdirirlər.

Qazaxıstan azərbaycanlılarını iqtisadi və siyasi cəhətdən ən böyük təşkilat ***"Turan" Mədəniyyət Mərkəzidir*** ki, 1997-ci ildən fəaliyyətə başlayıb. 1993-cü ilin may ayında Qazaxıstan Ədliyyə Nazirliyində qeydiyyatdan keçən "Turan" ictimai-mədəni fəaliyyətlə məşğul olur. Mərkəzin rəhbərliyilə Almatıda "Ozan" şəhər Mədəniyyət Cəmiyyəti təsis olunmuş və bunun ardınca digər vilayətlərdə proses davam etmişdir.

Türk xalqlarının birliyi, mədəni tədbirlər, Qazaxıstan-Azərbaycan ikitərəfli əlaqələrinin inkişaf etməsi və s. istiqamətlərdə fəal iş aparan "Turan" Mədəniyyət Mərkəzinin analoqu olan Qazaxıstan, Qırğızıstan və Özbəkistandakı Azərbaycan ictimai mədəni cəmiyyətlərinin konqresi "Turan"-nın missiyası daha geniş və fəaliyyət işi böyükdür.

Hazırda Qazaxıstanda "Bazar günü" məktəbi fəaliyyət göstərir və Xoca Əhməd Yəsəvi adına Türküstan Universitetində hər il 10-yerə sahib olan soydaşlarımız ana dillərindən başqa qazax və rus dillərindən məişətdə istifadə edirlər. Qazaxıstan azərbaycanlıları Azərbaycanla intensiv əlaqə saxlayırlar və inanmaq olar ki, kütləvi informasiya sahəsində gələcəkdə xeyli uğurlar əldə olunacaq.

***QIRĞIZISTAN*** : Orta Asiyanın bu dövlətiləAzərbaycan arasında münasibətlər əsasən XX əsrin əvvəllərindən inkişaf etməyə başlayıb.

Təqribən 20-30 minarası soydaşlarımızın yaşadıqları Qırğızıstana azərbaycanlıların mühacirəti 1929-30-cu illərdən başlanır. Bu mühacirət əslində könüllü xarakter deyil, zorən köçürülmə sayəsində baş vermişdir ki, bunun

əsas səbəbi Azərbaycanda baş verən repressiya və təyziqlər idi. Buraya köçürülən azərbaycanlılar inkişaf etməli kənd rayonları olan Çuy vadisi və onun əyaləti Arovan rayonunda yerləşdirirdilər. Burada heç bir yerə köçmək hüququ olmadan çətin şəraitdə yaşayan azərbaycanlılar taxıl,pambıq və digər kənd təsərrüfat sahələrində çalışırdılar. Bu cür ağır şəraitə baxmayaraqsoydaşlarımız Centi-Cer, Centi-Paxta sovxozları, Sonkul rayonunda Qırğızıstan elektrik stansiyasını tikib başa çatdırmışlar.

İlk zamanlar ağır iş şəraiti, aclıq və soyuq hava şəraitinə dözməyən yüzlərlə soydaşımız vəfat edirdi. Yerli əhalinin dostəyi və yerli şəraitə çətinlikləadaptasiya olmaları azərbaycanlıların tamamiləməhvinin qarşısın almışdır.

II Dünya müharibəsindən sonra Qırğızıstan azərbaycanlıları onlara qarşı olan sərt qanunlara baxmayaraq, elm və təhsil almaq üçün ölkənin ali məktəblərinə daxil olurdular. Bunun sayəsində Qırğızıstanda Azərbaycan diasporunun ziyalı təbəqəsi yarandı. Müəllim, zootexnik-veteranlar, mühəndis, həkim və digər peşələr üzrə təhsil alan soydaşlarımız öz sahələri üzrə burada tanınmış şəxslər olublar.

ZamanlaQırğızıstanda yaşayan soydaşlarımızın ölkə ictimai-mədəni həyatında rolu artmağa başlayıb. Bişkek başda olmaqla digər şəhərlərə köçməyə başlayan soydaşlarımız öz milli adət-ənənələrini qoruyub saxlamaqla onutəbliğ etməyə başlayıblar. Rus, qırğızvə digər xalqlardan olanqızlarla nigaha girən azərbaycanlılar öz övladlarını həm qırğız, həm də azərbaycanlı milli ruhunda böyütməyə çalışıblar. Burada öz milli bayramların daim təmtəraqla qeyd edən azərbaycanlılar milli mətbəximizi qırğızlara uğurla təbliğ edirlər. Qırğızıstanın dövlət idarəçilik orqanlarında da çalışan soydaşlarımız öz yerlilərinə köməklik göstərməyə çalışırlar.

Qırğızıstanda Azərbaycan diasporunun ictimai birlikləri azlıq təşkil etsə də, ətrafında burada yaşayan soydaşlarımızın müəyyən hisəsini birləşdiriblər.

1. **Azərbaycanlılar Assosiasiyası:** 1892-ci ildə Bişkek şəhərində təsis olunub. Əsas fəaliyyət istiqaməti Azərbaycan-Qırğızıstan arasında ikitərəfli əlaqələrin inkişafına təkan verməkvə mədəni tədbirlər həyata keçirməkdir.

2.**Azəri Mədəniyyət Mərkəzi**: 1992-ci ildə Bişkek şəhərində yaradılıb.İqtisadi, ictimai, siyasi, mədənivə təbliğat işi ilə məşğul olur.

3. **Xəzər Milli Mədəniyyət Mərkəzi:** 1994-cü ildə Bişkek şəhərində fəaliyyətə başlayıb. Əsas fəaliyyət istiqaməti - azərbaycanlılar arasında maarifləndirmə işi aparmaq, mədəni-kütləvi tədbirlər keçirmək.

Burada da Azərbaycan diasporunu KİV sahəsindəki fəaliyyəti passiv şəkildədir. Say tərkibinəgörəsayılan diasporlardan hesab olunan Azərbaycanlılaraməxsus qəzet və jurnallar bu ölkədə demək olar ki, yox dərəcəsindədir. Siyasi fəaliyyətlə passiv şəkildə məşğul olan azərbaycanlılar içərisində hazırda





Qırğızıstanda tanınan şəxslər olmasına baxmayaraq, onlar lobbiçiliklə məşğul olmurlar. Buradakı soydaşlarımızın əksər hissəsi sadəcə iqtisadi-sosial durumları və fəaliyyəti ilə məşğul olmağa ciddi fikir verirlər.

Zamanla Qırğızıstanda Azərbaycan diasporunun neqativ cəhətlərinin aradan qaldırılaraq güclənməsi dünya azərbaycanlılarınıhəmrəyliyinə təkan verəcək.

*LATVİYA*:Təxminən 4 minə yaxın Azərbaycanlının məskunlaşdığı Latviya ilə Azərbaycan arasında diplomatik və çoxtərəfli əlaqələr inkişaf etməkdədir. Buraya soydaşlarımız Sovetlər Birliyi daxilində "Qardaş respublikalar" - hüququndan yararlanaraq köçürdülər. Əsasən II Dünya müharibəsindən sonra elm, təhsil, sosial-iqtisadi səbəblərlə Latviya dövlətlərinə onlarla azərbaycanlı köçürdülər. Onlar qısa zaman ərzində Latviyaya adaptasiya olaraq burada ailə qurur və daxili yaşayış məqsədilə evlər alırdılar.

1991-ci ildə Sovetlər Birliyinin dağılması Latviyada yaşayan soydaşlarımızın icmalarının diaspor formalaşdırması prosesi başlandı. Təşkilatın strukturlaşmadan sonra soydaşlarımızhəmrəylik istiqamətində işlər görməyə başladılar. Lakin bu proses bir qədər çətinliklə baş verirdi. Təəssüf hissi ilə bildirmək olar ki, digər ölkələrlə yanaşı icmadaxili, liderlik uğrunda mübarizə Latviya azərbaycanlılardan kənarda qalmayıb. Ancaq bütün bu neqativ hallara baxmayaraq Latviyada yaşayan soydaşlarımız milli-mədəni tədbirlərdə bir yerə toplaşır, imkanları daxilində Vətənə kömək və dəstək verməyin yollarını müzakirə edirlər. İlk zamanlar Latviya rəsmilərinin Azərbaycan diasporuna biganəlik müşahidə olunurdusa, son bir neçə ildə artıq ölkənin rəsmi və ictimai fəaliyyətləri soydaşlarımıza münasibətdə mehribaqçılıq göstərirlər, Latviya kütləvi informasiya vasitələrində Azərbaycan və azərbaycanlılar barədə məlumatların yayımlanması ənənəvi xarakter oldu. Latviyada erməni diasporunun ilk illərdə güclü təsiri hiss olunmasına baxmayaraq, azərbaycanlılar öz səslərini müəyyən dairələrə çatdıra bilirdilər. Zamanla Latviya azərbaycanlıları öz fəaliyyətlərində ciddi dəyişikliklər aparacağı görülən işlərdə nəzərə çarpır. Latviyada birləşən Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir ki, onların işləri ancaqkütləvi-mədəni və iqtisadi təbliğat prinsipləri üzərində qurulur.

1. **Azəri Cəmiyyəti** - 1988-ci ildə Riqa şəhərində təsis olunub. Əsas fəaliyyət istiqaməti Azərbaycan barədə həqiqətləri Latviyada təbliğ etməkvə mədəni- kütləvi tədbirlərdir.

2. **"Azəri Vəhdət"-Latviya-Azərbaycan Mədəni Cəmiyyəti** - 2001-ci ildə Riqada yaradılan qurum Bakı Latviyaarasında münasibətlərinin inkişafı, hər iki xalq arasında dostluq və mehribanlıq yaratmaqdır.

3. **Latviya-Azərbaycan Kültür Assosiasiyası** - Riqada fəaliyyət göstərən qurum mədəni-kütləvi tədbirlər keçirir. Təbliğat işi ilə məşğul olur. Azərbaycanlılar ilə əlaqələrin genişləndirilməsinə çalışır.

4. **"Təbriz Cəmiyyəti"** - Riqada təsis olunan bu qurum "Azəri" Cəmiyyəti tərkibində fəaliyyət göstərir. Əvvəllər mədəni-informasiya işləri ilə məşğul olurdu.

***LİTVA:*** Pribaltikanın bu dövlətində bəzi mənbələrə görə min bəzi mənbələrə görə isə2 min azərbaycanlı yaşayır. Soydaşlarımızın bu dövlətə mühacirəti digər Pribaltika ölkələri kimi II Dünya müharibəsindən sonra başlayıb. Litvanın Kaunas, Vilnus başda olmaqla müxtəlif şəhər və rayonlarındaməskunlaşan azərbaycanlılar əsasən ticari sahədə çalışırlar. Buna baxmayaraq dövlət və qeyri-dövlət sahələrdə də azərbaycanlılara rast gəlmək olar. Siyasi fəaliyyətləri passiv olan Litva azərbaycanlıları Vətənlə əlaqələr saxlamalarına baxmayaraq, Azərbaycanı istənilən səviyyədə burada təmsil edə bilmir. Düzdür, milli bayramlarda bir yerə toplanan azərbaycanlılar mədəni tədbirlərdə iştirak etməyə üstünlük verirlər. Onların siyasi passivliyi isə bu ölkədə azərbaycanlılar arasında ideoloji işin zəifliyi ilə əlaqələndirilir. Burada yaşayan azərbaycanlılar arasında birliyin yaradılması üçün heç bir əməli iş görülmür. Bu isə birbaşa Litvadakı azərbaycanlı iş adamları və ziyalılarının passivliyi ilə sıx bağlıdır. Litvada bir neçə Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir ki, onların işini qənaətbəxş hesab etmək olmaz. Bunlar içərisində **Litva Azərbaycanlıları Cəmiyyətinin** adını çəkmək olar ki,1998-ci ildə Vilnüs şəhərində təsis edilib. Buqurum əsasən mədəni işlərlə məşğul olur. Azərbaycanla sıx əlaqəsi asan cəmiyyət passiv də olsa, Litvada siyasi iş istiqamətində çalışır.

***MOLDOVA:*** Bu dövlətdə təxminən 15 mindən çox soydaşlarımızın məskunlaşması digər Sovetlər Birliyi respublikalarında olduğu kimi əsasən XX əsrin ilk onilliyindən başlayıb. Azərbaycanlılar Moldovaya işləmək və təhsil almaq üçün köçürdülər və bu proses xüsusilə XX əsrin 60-80-ci illərində ldaha intensiv xarakter aldı. Moldovanın Kişinyov başda olmaqla digər şəhər və rayonlarına səpələnən azərbaycanlıların əsas iş yerləri ticari obyektlər və elm-təhsil müəssisələri idi. Burada 1993-cü ilə qədər pərakəndəlik və passivlik var idi. Artıq bu tarixdən etibarən təşkilatlanmaq Vətənlə əlaqə qurmaq, birləşmək fikri tez-tez soydaşlarımız arasında səslənməyə başladı. Xırda və orta sahibkarlar yeni azərbaycanlı mühacir dalğalarını öz ətraflarında toplayaraq onları işlə təmin etməyə çalışmağa başladılar.

İlk zamanlar təbliğat sahəsində bir sıra uğurlar əldə edən Moldova azərbaycanlıları "Araz" adlı qəzet nəşr edirdilər. Moldava televiziya kanallarında radio proqramlarına və qəzetlərdə Azərbaycan və azərbaycanlılar barəsində bir sıra məlumatlar da dərc olunmuş və yayımlanmışdı. Sonradan şəxsi və təşkilati işləməticəsində təbliğat sahəsindəki fəallığın passivləşməsinə şərait yaratdı. Hazırda Moldovada bir neçə Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir.

1. **Moldova Azərbaycanlıları Konqresi** - 2001-ci ildə Kişinyovda təsis edilən konqres ətrafında Moldova azərbaycanlılarını toplayaraq ictimai-iqtisadi işlərlə məşğul olur. Mədəni informasiya təbliğatı, ikitərəfli əlaqələr və azərbaycanlıların hüquqlarının qorunması istiqamətində işlər aparır.

2. **"Araz" Cəmiyyəti** - 1991-ci ildə Kişinyov şəhərində fəaliyyətə başlayan qurum Moldova azərbaycanlılarının sosial hüquqlarını müdafiə etmək, Azərbaycanla Moldova arasında əlaqələrin inkişaf etməsi ilə məşğul olur. "Araz" adlı qəzetin nəşrini himayə edir.

3. **"Azəri" Mədəniyyət Mərkəzi** - 1995-ci ildə Kişinyov şəhərində yaradılan mərkəz Moldovada Azərbaycanın mədəniyyətinin, dilini, elmini təbliği istiqamətində işlər görür.

4. **Moldova-Azərbaycan Əməkdaşlıq Cəmiyyəti** - 2000-ci ildə Kişinyov şəhərində təsis edilən qurum iki dövlət arasında hərtərəfli əlaqələrin qurulması və inkişaf etməsi üçün fəaliyyət göstərir.

Son zamanlar Moldova soydaşlarımızın fəaliyyətində bəzi fəallıqlar görünür. İnanmaq olar ki, yaxın gələcəkdə soydaşlarımız lobbiçilik işilə də məşğul olacaqlar.

***MİSİR:*** Dünyanın ən qədim və gözəl dövləti olan Misirlə Azərbaycanın tarixi-iqtisadi əlaqələrinin qədim tarixi var. Əsrlər boyu soydaşlarımızın mühacirət etdikləri ölkələr içərisində Misirin xüsusi yeri olub. ADR-nin süqutundan sonra soydaşlarımız Misirə böyük diqqət yetiriblər. Lakin azərbaycanlıların burada məskunlaşması II Dünya müharibəsindən sonrakı dövrlərə təsadüf edir. Alman ordusunun tərkibində fəaliyyət göstərən azərbaycanlı mühacirlərin bir hissəsi müharibədən sonra köçdükləri ölkələr içərisində Misir də var. Misir hökumətinin II Dünya müharibəsindən sonra əsir düşən azərbaycanlıları ingilis və fransız hərbi qüvvələrindən xilas edilərəkMisirdə yerləşdirilməsi barədə məlumatlar da var. Misir kralı və onun yaxın adamlarının sayəsində xilas olan soydaşlarımız Misirdə evlə, işlə təmin olunmuş və onlar özlərini qorumaq məqsədi ilə pərakəndə və gizli formada yaşamağa məcbur olmuşlar.

Misirdə Cənubi Azərbaycandan da mühacirət prosesinin güclənməsi nəticəsində burada azərbaycanlılar icması yaradıldı. Enerjili, intellektual və sosial baxımdan xeyli fəal və gənc hesab olunan şimallıların Vətən həsrəti onların siyasi-ictimai passiv vəziyyətə düşməsinə səbəb olmuşdur. 1991-ci il Dövlət Müstəqilliyi elan edildikdən sonra isirdə yaşayan diaspor- nümayəndələrinin bəziləri uzun müddətli Vətən həsrətinə son qoyaraq Azərbaycanı ziyarət etmişlər.

Hazırda Misirdə son statistik məlumatlara görə 9 yüz min azərbaycanlı yaşayır. Bu faktın doğruluğunun nə qədər inandırıcı olmasını şübhə altına almaq olar. Düzdür onların çox hissəsi cənublu soydaşlarımızdan ibarət olmasına baxmayaraq, rəqəmlərin dəqiqliyi barədə düşünməyə dəyər.

Misirdə onların fəaliyyətsizliyi və tamamilə assimilyasiyaya məruz qalması səbəbiləgöstərilən rəqəmlərə inamsızlıq yaranır. Buna baxmayaraq, burada təhsil alan gənclərimizin və səfirliyin işi qənaətbəxş hesab etmək olar. Düzdür hələ də Misirdə bir azərbaycanlı təşkilat yoxdur. Lakin proseslərin gedişatı və Misirin daxili ictimai qurumunu nəzərə alsaq yaxın gələcəkdə belə neqativ halın aradan qalxmasını əminliklə söyləmək olar.

Misirdə 60 min erməni özəl kilsəsi, məktəbli və KİV orqanlarının fəaliyyətinə qarşı azərbaycanlıların passivliyi görünür. Lakin 1999-cu ildən başlayaraq, Qahirə radiosunda Azərbaycan xidmətinin yaranması sevindirici haldır. Bakı vaxtı ilə saat 19:30-dan 20:30-dan qısa dalğanın 31 metrində, başqa sözlə 9 min 780 kilometrdə yayımlanan Azərbaycan xidməti iqtisadi siyasi, mədəni və dini proqramlar hazırlayır.

*NORVEÇ* : Burada da təqribən 50 minə yaxın soydaşımız yaşayır. Əsasən XX əsrin əvvəllərindənbu günə qədər bura köçən azərbaycanlı mühacirlərin formalaşdırdıqları diasporumuzun işi passiv hesab olunur. Norveçdə xüsusən son zamanlar köçən Şimali azərbaycanlılar Norveçə məxsus adalarda yaşayırlar. Norveç dövlətinin daxili qanunvericiliyi bura köçən ilk mühacirlərə iri şəhərlərdə yaşamaq imkanı vermir. Norveç- Azərbaycan arasında münasibətlərin günü-gündən inkişaf etməsi, buradakı soydaşlarımızın fəaliyyətinə ciddi təsir göstərir. Norveç Mədəniyyət Nazirliyinin təşəbbüsü isə norveçli musiqiçilər Bakıda, azərbaycanlı müğənnilər isə Oslodakonsert proqramları ilə çıxış edirlər.

İkitərəfli iqtisadi-mədəni əlaqələrdə Norveçdəki Azərbaycan diasporu xüsusi fəallıq göstərir. Düzdür, KİV sahəsin də uğurlar əldə olunmasına baxmayaraq fəal Azərbaycan təşkilatları fəaliyyət göstərir.

1. **Norveç-Azərbaycan Mədəniyyət Mərkəzi** - 1989-cu ildə Oslo şəhərində təsis olunub. Əsasən mədəni-kütləvi tədbirlər keçirən mərkəz Azərbaycanla intensiv əlaqə saxlayır.

2. **"ANA" Azərbaycan-Norveç Assosasiyası** - Oslo şəhərində yaradılan qurum Azərbaycan-Norveç ikitərəfli əlaqələrinin inkişaf etməsi və mədəni-kütləvi tədbirlər keçirməklə məşğul olur.

3. **"Azərbaycan" Assosasiyası** - 1990-cı ildə yaranıb. Əsas etibarilə təşkilat və mədəni işlər keçirməyi qarşısına məqsəd qoyan Asossasiyasının üzərinə norveçlilər, türklər də daxildir.





4. **Azərbaycan Mədəniyyəti Mərkəzi** - 2001-ci ildə Stavalger şəhərində təsis olunan qurumun məqsədlərinə Azərbaycan dili kurslar, açmaq mədəni tədbirlər keçirmək, Norveç azərbaycanlıları arasında həmrəyliyə nail olmaqdır.

5. **Azərbaycan Evi** - 2003-cü ilin noyabrın 5-də Oslo şəhərində təsis olunan diaspor təşkilatının əsas məqsədi Azərbaycan mədəniyyəti, elmi, ədəbiyyatı, musiqisi, dilinin təbliğatı və informasiya işini qurmaqdır.

***ÖZBƏKİSTAN*** . Azərbaycan və Özbəkistan arasında ticari -mədəni əlaqələrin kökü daha qədim dövrlərə təsadüf edir. Tarixən Orta Asiyanın bu respublikasına azərbaycanlılar ya könüllü mühacirət etmiş, ya da zoraн köçürülmüşlər. Xüsusən, Əmir Teymurun Azərbaycana etdiyi yürüşlər nəticəsində yüzlərlə sənətkarlar, elm xadimi və digər peşə sahibləri Səmərqəndə sürgün ediliblər.

Azərbaycanlılar Özbəkistan tarixində və mədəni-incəsənət həyatında tarixən mühüm izlər qoyublar. Qədim Xarəzmin X əsr tikililərindən olan Beleuci yolüstü karvansara binası da Şirvan ustalarının zəhmətinin bəhrəsidir.

Tədqiqatçı Nazım Rizvan göstərir ki, Əmir Teymurun doğma şəhəri Şəhri-Səbzdə 1380-ci ildə tikilən Ağsaray kompleksinin müəllifi də azərbaycanlı memar Məhəmməd Yusif Təbrizi idi. XIV-XV əsrlərdə Səmərqənddə tikilmiş Şahi-zində türbə kompleksi də Fəxsar Zeynəddin Şəms Təbrizi tərəfindən tikilmişdir.

Böyük bir imperiyanın yaradıcısı, bir çox elmlərin bilicisi, xüsusən də Səmərqənddəki nəhəng tikililərin banisi Əmir Teymur azərbaycanlı sənətkarları əvvəl tək-tək, Təbrizi tutduqdan sonra isə kütləvi şəkildə memar, usta, nəqqaş, kaşıçı kimi işə cəlb etməsi XIV əsrin II yarısı, XV əsrin əvvəllərində azərbaycanlıların Öbəkistandakı yayılma arealından və Teymurun yanındakı hörmətdən xəbər verir.

Zamanla baş verən ictimai-siyasi proseslər, dünyanın siyasi xəritəsində yeni dövlətlərin çoxalması, rus işğalı və s. hadisələr Özbəkistandakı azərbaycanlılar barədə ətraflı məlumat əldə etməkdə ciddi əngəlliklər törədir. Bu səbəbdən də tədqiqatçılar Özbəkistanda Azərbaycan diasporunun formalaşmasını XX əsrin əvvəllərindən başlayaraq, bu günə qədər davam edən mühacirət prosesindən götürürlər. Jurnalist-tədqiqatçı Yaşar Qasım Özbəkistanda konkret olaraq Azərbaycan diasporunun formalaşma prosesini aşağıdakı mərhələlərə bölür:

1. 1905-1907-ci illərdə məlum hadisələr zamanı qırğın və qiyamətdən qaçıb, baş götrüb gedənlər.

2. Oktyabr çevrilişi, vətəndaş müharibələri və ümumən 1918-1920-ci illərdəki hadisələr nəticəsində məmləkəti xəm edib, buraya pənah gətirənlər.

3. 30-40-cı illərdəki deportasiya və repressiyaların əlindən qaçıb bura sığınanlar və zorən sürgün edilənlər.

4. 5-60-cı illərin dinc quruculuğu ilə əlaqəli olaraq bura köçürlər.

5. 60-cı illərin axını və 70-ci illərin əvvəlində başlanan qardaş ölkədə qəsəbə və kadrların yerləşməsi ilə xarakterizə olunan yeni dövr.

Yaşar Qasımın göstərdiyi bu mərhələlərdən başqa 1991-ci il Azərbaycan dövlət müstəqilliyinin əldə olunmasından sonra Qərb və Şərq ölkələrinə bağlanan kütləvi mühacirəti də xüsusi olaraq qeyd etmək olar ki, bu proses hazırda intensiv şəkildə davam edir. Müasir dövrdə Azərbaycan diasporunun Özbəkistanda sayı - 55.000-60.000 qədər arası göstərilir. Özbəkistandakı Azərbaycan diasporuna xas əsas xüsusiyyətlərdən biri - öz iş və fəaliyyətində mədəni tədbirlərə üstünlük vermək, diaspor məktəbinin, əsasən ziyalı mütəxəssislərdən və peşəkar kadrlardan ibarət olması, yaşadıqları məmləkətin qanunlarına, mövcud hökumət və hakimiyyətə loyal münasibətdir.

***Özbəkistan azərbaycanlılarının məskunlaşdıqları əsas yaşayış məntəqələri aşağıdakılardır (rəqəmlər yuvarlaqlaşdırılmışdır).***

| | |
|---|---|
| • Daşkənd vilayəti | 20.000 |
| • Səmərqənd vilayəti | 13.000 |
| • Buxara vilayəti | 4.000 |
| • Sırdərya vilayəti | 4.000 |
| • Nəvai vilayəti | 4.000 |
| • Fərqanə vilayəti | 3.000 |
| • Əndican vilayəti | 3.000 |
| • Qaraqalpak vilayəti | 4.000 və s |

Bütün bu cəhətlər Azərbaycan diasporunun Özbəkistanda yaşamalarının və fəaliyyətlərinin fəal olmasını göstərir. Seyid Rza Əlizadə, Maqsud Şeyxzadə kimi görkəmli şəxsiyyətlər yetişdirən Özbəkistanda Azərbaycan diasporu bu ölkənin ictimai-siyasi həyatındaiştirak edir, Vətənlə intensiv əlaqə saxlayır, kütləvi-mədəni tədbirlər həyata keçirirlər. Burada Azərbaycan diasporuna məxsus olmaqdan ictimai-mədəni təşkilatlar fəaliyyət göstərir:

1. **"Azərbaycan-Özbəkistan" Mədəni Əlaqələr Cəmiyyəti** - 1992-ci ildə Səmərqənd şəhərində təsis olunub. Əsasən mədəni-təbliğat işi aparır.





2. **"Qardaşlıq" - Azərbaycan Mədəniyyət Mərkəzi** - 1989-cu ildə Daşkənd şəhərində təsis olunub. Bu təşkilatda mədəni-kütləvi tədbirlər keçirmək, təbliğat işi ilə məşğul olun.

4 noyabr 2002-ci ildə Özbəkistanda ***"Azərbaycanlıların Milli Mədəni Assosiasiyası"*** təsis edilmişdir ki, bu birlik 6 vilayətdə filialların qeydiyyatdan keçirərək geniş fəaliyyət göstərir. 2003-cü ildə Daşkənddə "Azərbaycan evi" və məscidi tikililərinin başa çatdırılması yeniyetmə və gənc soydaşlarımızın milli adət-ənənələr ruhunda tərbiyə olunması, bir sıra məsələlər müzakirə olunaraq gələcək işlərin planları tərtib olunmuşdur.

Özbəkistandan Azərbaycan mədəniyyətinilk illər "Lalə" qızlar ansamblı, indi isə "Mehrican" Qəyyumluq Şurasının adını daşıyan "Mehrican" ansamblı tez-tez təbliğ edir. Hazırda Özbəkistanda yaşayan azərbaycanlılar elm, incəsənət, kənd təsərrüfatı işçi, orta biznes, idman və digər sahələrdə çalışırlar. Buradan soydaşlarımız paralel olaraq digər Orta Asiyada məskunlaşan azərbaycanlılarla intensiv əlaqə saxlayır, gələcəkdə yeni azərbaycanlı nəslinimilli ənənələrə riayət etməsi istiqamətində iş aparırlar. Təəssüf hissi ilə qeyd etsək də, Azərbaycan diasporunun KİV sahəsində fəaliyyəti passivdir.

***POLŞA:*** Azərbaycan ilə Polşanın əlaqələrin başlanğıcıbəzi mənbələrdə X əsrdən götürülür. Polşa yeni-yeni Avropa ailəsinə dövlət kimi daxil olan zaman artıq Azərbaycan ipəyi, zərgərlik məmulatları, xalçaları barədə polşalılarda ümumi məlumat var idi. Polşalı tacirlər Azərbaycana gəlir, azərbaycanlı tacirlər ilə Polşaya mal aparıb satırdılar. Tədqiqatçı jurnalist Fazil Rəhmanzadə qeyd edir ki, XVII-XVIII əsrdə Polşadan dini missiyalar Azərbaycana gəlirdi. Diplomatik münasibətlər XV əsrdən qurulduğundan Polşalı missionerlərin katolik təriqətini yaymaq üçün ölkəmizə azad səfər edə bilirdilər. Azərbaycanlı müğənnilərin və musiqiçilərin Polşada səs yazdırması, elm-təhsil dalınca gəlinməsi, ticari əlaqələr Polşa ilə Azərbaycan münasibətlərinin inkişafında böyük rol oyanıyrdı. XX əsrin əvvəllərindən isə Polşada ilk azərbaycanlı mühacirlər köçməyə başlayırlar ki, onların əksər hissəsini cənublu soydaşlarımız təşkil edirdı. Lakin kütləvi mühacirəti II Dünya müharibəsi illərinin başlaması şimallıların sayının çoxalmasına şərait yaratdı. Təəssüf ki, Polşadaazərbaycanlıların bir hissəsinin milliyyəti rus, türk və iranlı göstərilməsi burada yaşayan azərbaycanlıların təqribi sayını müəyyən etməyə əngəllik törədir.

Polşa azərbaycanlılarının sayı - 12-20 min arası göstərilir ki, onlar Varşava, Qdansk, Plotsk və digər şəhərlərdə məskunlaşıblar. PolşadaAzərbaycanla bağlı bir çox mənbələr və sənədlər var. Abbasqulu ağa Bakıxanovun, M. Rəsulzadə və digər ədiblərimizin əsərlərində Polşa barəsində də məlumat əldə etmək olar. Polyak dillərində Azərbaycan folkloru dastanları, şerləri, nağılları hazırda buranın arxiv və kitabxanalarında saxlanılır.

Polşalı soydaşlarımızın fəaliyyəti passiv hesab olunur. Köhnə nəslin nümayəndələri polyak, rus qızları ilə qarışıq nikaha girdiklərindən onların övladları Vətən və Azərbaycan dili barəsində az məlumatlara malikdirlər. Kişi nəslin nümayəndələri əsasən şimaldan yeni köçən muhacirlərdir ki, onlardan hazırda siyasi-ictimai fəaliyyət gözləmək yersizdir. Əsasən gənc nəslin daha aktiv olduğu Polşada Azərbaycan diasporunun fəaliyyəti hələlik qənaətbəxş hesab oluna bilməz". Polşada əvvəllər "Xudafərin" jurnalı nəşr olunurdu ki, hazırda onun nəşri maliyyə çətinliyi səbəbindən dayandırılıb. Ölkə başçısı, mərhum Heydər Əliyevin Polşaya 1997-ci ilin avqustunda səfəri zamanı burada Azərbaycan diasporu nümayəndələrilə görüşüb, onlara bir sıra tövsiyyələr vermişdir.

Hələlik Polşada azərbaycanlılar ciddi bir aktivlik göstərmirlər. Başları iqtisadi-elmi işlərə qarışdığından onlar Ümumazərbaycan işinə qoşulmuşlar. Burada Novruz və digər milli bayramlarımızın cənublu və şimallı azərbaycanlılarla birgə keçirilməsi, ünsiyyət vasitəsi kimi bəzən doğma dilimizdə danışılması sevindirici bir haldır.

Dəfələrlə burada azərbaycanlıların vahid mərkəzdə toplanması üçün təşəbbüs irəli sürülsə də, bəzi fikir və baxış fərqləri bu işin reallaşmasını əngəlləşdirir. Burada professor Vaqif Arzumanlının məlumatlarına əsasən, bir neçə Azərbaycan təşkilatı fəaliyyət göstərir.

1. **Azəri Cəmiyyəti** - 1992-ci ildə təsis olunan qurum Polşada ilk milli Azərbaycan cəmiyyətildir. Hazırda fəaliyyət passivdir. İlk zamanlar təbliğat və mədəni işlərlə məşğul olub.

2. **Polşada Azərbaycanın Dostları** - 1994-cü ildə təsis olunub. Polşa azərbaycanlıları birgə yaratdıqları qurum təbliğat, mədəni və informasiya sahəsində iş aparır.

3. **Azərbaycan-Polşa Dostluq və Əməkdaşlıq Mərkəzi** - 1991-ci ildə Varşavada yaradılıb. Hazırda fəaliyyəti olduqca passiv hesab olunur.

Təşkilatların passiv fəaliyyəti buradakıdiasporumuzun fəaliyyətində də əks olunur. Əvvəllər "Jizng Varşavı" və "Politika" qəzetlərində bir sıra Azərbaycanla bağlı məlumat dərc etdirən soydaşlarımız hazırda elə bir ciddi siyasi işlə məşğul olmurlar. Polşa-Azərbaycan münasibətlərinin günü-gündən güclənməsi buradakı diasporumuzun aktivləşməsinə şərait yaradacağı barədə fikirlər də söylənilir.

***RUSİYA:***Bu gün Azərbaycan diasporunun ən geniş və intensiv fəaliyyət göstərdiyi ölkələr içərisində Rusiya Federasiyası xüsusilə diqqəti cəlb edir. Hal-hazırda qeyri-rəsmi statistikaya görə Rusiyada 3 milyona yaxın soydaşımız yaşayır ki, onlar Federasiyanın 89 subyektinin hamısında məskunlaşıblar.





Rusiya ilə Azərbaycan tarixi əlaqələri X əsrdən etibarən sərhəd bağlılığı, dəniz bağlılığı və ticari əlaqələr səbəbilə inkişaf edib. Zamanla Rusiyanın güclənməsisəbəbiləimperiya maraqlarına Azərbaycanın daxıl edildı. Xüsusilə, Azərbaycan uğrunda Rusiya-Türkiyə-İran qarşıdurması qanlı nəticələr verirdi və bundan yerli əhali əziyyət çəkirdi. Bu səbəbdən də XIX əsrin əvvəllərindən başlayaraq, Azərbaycanın şimal hissəsində yaşayan soydaşlarımız Rusiya ərazilərinə köçməyə başlayıblar. Dərbənd, Quba, Bakı sakinləri Rusiyaya köç edən mühacirlər içərisində əksəriyyət təşkil edirlər.

Rusiya dövlətinin qüdrətli inkişaf dövrü keçdiyi zaman başqa yerlərdə olduğu kimi, Azərbaycanda da bu dövlətə köçənlər arasında ticarət və elm xadimləri var idi. Tədqiqatçı Nazim Rizvanın araşdırmasına görə 1440-1505 - Böyük Moskva knyazı III Vasili, 1530-1584. İvan Qroznı və1672-1225-ci il I Pyotrın çarlığı illərində Rusiyaya köçən azərbaycanlı sənətkarlar, tacirlər, elm xadimləri Moskva, Sankt-Peterburq, Moskva ətrafı ərazilərdə məskunlaşırdılar. Azərbaycanlılar içərisində Rusiya dövlət idarələrində çalışanların barəsində dəqiq məlumat almasa da, bəziləri barədə arxivlərdə məlumata rast gəlmək olar.

Rusiya Xarici İşlər Nazirliyində tərcüməçi işləmiş Nəsirov və Mirzə əbu Turab Vəzirov XVIII əsr Azərbaycan diasporunun tanınan nümayəndələri olublar. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Rusiyaya təhsil olmaq məqsədilə gedib burada daimi yaşayan soydaşlarımızdan Mirzə Abdulla Vəzirov, Mirzə Cəfər Topçubaşov, Abbasqulu ağa Bakıxanov kimi tanınmış şəxslərin adlarını çəkmək olar.1813-1828-ci illər imzalanan Gülüstan və Türkmənçay sülh müqavilələri Azərbaycanı bir dövlət, azərbaycanlıları bir millət kimi iki hissəyə parçaladı. Rusiya tabeçiliyində qalan Şimali Azərbaycanın vətəndaşları Rus təəbəsi olurdular. Bu səbəbdən də Rusiya ərazisində yaşayan soydaşlarımızın daimi mühacirəti tez-tez baş verdiyindən statistik araşdırmalar tam olaraq aparmaq olduqca çətin olduğundan, Rusiyada Azərbaycan diasporunun formalaşması 1991-ci ildən sonra götürülür.

Buna baxmayraq 1828-1991-ci illər arası Rusiyaya axını güclənən mühacirət prosesini təqribi olaraq aşağıdakı dövrlərə bölmək olar:

1. 1828-1918-ci illər - əsasən elm, sənət və digər işlərləməşğul olan Azərbaycan mühacirləriRusiya ərazisində say etibarı ilə seçilən icmalarını yarada biliblər. Bu illər ərzində bir çox tanınmış azərbaycanlılar imperiyanın sayılıb-seçilən insanlarından olmaqla, Rusiyanın elminə və iqtisadiyyatına yadda qalan töhfələr qoyublar. Rusiya elmində, hərbisində və iqtisadiyyatında danılmaz rolu olan azərbaycanlılardan Əliağa Şıxlinski, Mirzə Məhəmmədəli, Hacı Kazım, Mirzə Kazım bəy, Ağababa Sadıqov, İbrahim ağa Usubov və yüzlərlə insanın adın çəkmək olar.

2. 1922-1960-cı illər - Azərbaycan Demokratik Respublikasının süqutundan sonra bolşevik siyasi ideologiyasının tərəfdarı olan Azərbaycanın kəndli-

fəhlə sinfi Rusiyaya köməyə başlayıblar. Əsasən II Dünya müharibəsi illərində və müharibədən sonrakı dövrdə Rus qadınları ilə ailə qurub burada yaşayan soydaşlarımız Azərbaycan mühacirəti ikinci dalğasınınnümayəndələridir. 1932-ci il repressiyaları zamanı Sibir, Mərkəzi və Orta Asiya, Rusiyanın ucqar əyalətlərinə sürgün edilən azərbaycanlıları əksər hissəsinin, vəfat etməsinə baxmayaraq, sağ qalanlar bu ərazilərdə yaşamağa məcbur olmuş və çox cüzi hissə vətənə qayıda bilmişdir.

3. 1960-80-ci illər - Bu dövrün mühacirəti sosial və iqtisadi səbəblərlə bağlıdır. İlk olaraq Rusiyanın əyalətlərində böyük tikililər - Sibirdə Baykal-Amur magistralı, Volqaboyunda, Tümendə yeni neft yataqlarının istismarı, yeni şəhərlər salınması səbəbilə minlərlə azərbaycanlılar bura köçmüşlər. Bu mühacirət prosesinə müvafiq olaraq II Bakı, III Bakı, IV Bakı kimi anlayışlar yaranmışdı.

1970-ci ildən isə Rusiyaya təhsil almağa gedib geri qayıtmayan azərbaycanlılar da çoxluq təşkil edirlər. Moskva, Leninqrad və digər iri şəhərlərə oxumağa gedən azərbaycanlılar təhsil müddəti bitdikdən sonra öz ixtisasları üzrə işləyərəkAzərbaycan icmasının ziyalı təbəqəsini təşkil ediblər.

4. 1991-ci ildən bu günə qədər davam edən mühacirət prosesi əsasən iqtisadi səbəblərlə əlaqəlidir. Bu tarixdən başlanan mühacirət prosesi barədə tədqiqatçı Etibar Kərimli tədqiqatlarında qeyd edir ki, bu şəxslər Rusiyanın müxtəlif şəhər və rayonlarında məskunlaşdıqdan sonra təşkilatlanma strukturu – diaspor formalaşdırılması zərurəti meydana çıxmışdır. Hal-hazırda sayı 3 milyona çatan Rusiya azərbaycanlılarının əksəriyyəti 1991-ci ildən sonra kütləvi şəkildə bu əraziyə köçənlər təşkil edirlər.

Göründüyü kimi Rusiyada Azərbaycan diasporunun formalaşması bir neçə mərhələdən keçib. Azərbaycan Respublikası müstəqilik əldə etdikdən sonra buradakı soydaşlarımızın diaspor formalaşdırılması prosesi xüsusi intensivliklə başlanmış və hazırda proses davam etməkdədir.

1992-ci il 4 aprel Rusiya-Azərbaycan diplomatik münasibətlərin qurulmasından sonra gündəmdə duran əsas məsələ Rusiyada-Azərbaycan diasporunun durumudur. Rusiya ilə ölkəmiz arasında 1991-2003-cü illər arası münasibətlərdə bəzən soyuqluq, bəzən isə mehriban durumun olması azərbaycanlılara da öz təsirini göstərib. Bütün bunlara baxmayaraq, Rusiyada Azərbaycan diasporunun fəaliyyəti tədqiqatçılar və analitiklərin rəyinə görə nisbətən passivdir. Rusiya azərbaycanlılarının çox hissəsin ticari işlərlə məşğul olan şəxslər tutur. Azərbaycanlılar içərisində tanınmış biznesmenlər, hüquqşünaslar, elm və incəsənət xadimləri olmasına baxmayaraq, birlik yoxdur. Bu hadisələr fonunda Azərbaycan diasporu artıq siyasiləşmiş bir birliyi xatırladır. Rusiyanın ən yüksək vəzifəli şəxslərinə təsir etmək iqtidarda olan şəxslərin bir çoxu passiv mövqedə durmaqdadırlar. Hələ 1987-ci ilin may ayında Rusiyadakı





Azərbaycan cəmiyyətləri arasında birlik yaranması məqsədilə «Azərbaycan Cəmiyyətlərinin Koordinasiya Şurası» yaradıldı. Lakin sonradan cəmiyyətlər *arasında yaranmış müəyyən problemlər səbəbilə* Koordinasiya Şurası sadəcə kağız üzərində qalıb və fəaliyyətini dondurub.

Hazırda Rusiyada Azərbaycan diasporu erməni və gürcülərdən zəif hesab olunur. Azərbaycanlılar Qafqazdan Rusiyaya gedənlər içərisində sayca üstünlük təşkil etmələrinə baxmayaraq, onlar arasında həmrəylik - birlik zəif şəkildə qurulub. Bu gün Qafqazdan olan xalqlar içərisində Rusiya hüquq-mühafizə və yerli kriminal qruplar tərəfindən çox incidilənlər də azərbaycanlılardır.

Bu səbəbdən də Rusiyada bir müddət azərbaycanlılara qarşı başlanan təzyiqlər, bir qrup soydaşımızın vətənə geri göndərilməsi, kriminal zəmində baş verən cinayətlər səbəbilə qətl edilən soydaşlarımız və digər hadisələrin əsas günahın Azərbaycan diasporunun daxilində axtarmaq lazımdır.

Lakin məsələ göründüyü kimi qəliz və mürəkkəb deyil. Xüsusilə son zamanlar Rusiyada Azərbaycan diasporunun bəzi fəaliyyəti diqqətəlayiqdir ki, bunlara Moskva, Sankt-Peterburq kimi şəhərlərdə Azərbaycan günlərinin keçirilməsi azərbaycandilli qəzetlərin nəşrini aid etmək olar.

Həmyerlilərimizin Rusiyadaticarətlə məşğul olmalarından qazanılan maliyyənin Azərbaycanda dövriyyədə olması ölkə iqtisadiyyatının inkişafına bir növ təkan verir. Ticari məqsədli Rusiyaya mühacirət edən soydaşlarımızın pərakəndə fəaliyyət göstərməməsi üçün imkanlı azərbaycanlı sahibkarlar çıxış yolları axtarıb tapmaqdadır. Bu məqsədlə bəzi sahibkarlar Rusiya azərbaycanlılarının ticarət assosiasiyası yaradılması məsələsini gündəmə gətiriblər. Bu iş reallaşacağıtəqdirdə azərbaycanlı iş adamları arasında əlaqələr asanlaşmaqla ticari riski azaldaraq.

Azərbaycan mətbuatının sayının və tirajının artırılması məsələsi Azərbaycan diasporunda müzakirə olunan məsələlər içərisində prioritet mövzu təşkil edir. Dövlət tərəfindən Rusiyada baş verən hadisələrə isə diqqətin son zamanlar artması görünür. Düzdür, ilk əvvəllər Rusiyada yaşayan azərbaycanlılar Azərbaycan səfirliyindən narazılığını bildirsə də, bu anlaşılmaz vəziyyət yoluna qoyulmaqdadır.

Hazırda Rusiyada azərbaycanlıları ətrafında birləşdirməyə çalışan 13 mərkəz fəaliyyət göstərsə də, bunlardan ikisi «Ümumrusiya Azərbaycanlılar Konqresi», «Rusiya Azərbaycanlılarının Federal Milli Mədəniyyət Avtonomiyası» FNKA-Azerros ətrafında Azərbaycan Cəmiyyətləri və təşkilatları toplaşıb və Rusiyanın bir çox bölgəsində filiallarıvar. Rusiyada Azərbaycan diaspor təşkilatları 89 obyektin hamısında fəaliyyət göstərir. Əsasən Moskva ətrafı və Sankt-Peterburqda çoxluq təşkil edirlər.

Rusiyada Azərbaycan təşkilatlarından aşağdakıların adını çəkmək olar:

1. **«Ocaq» Mədəniyyəti Cəmiyyəti** - Rusiyada azərbaycanlıların yaratdıqları ilk təşkilatlardandır. Əsasən ziyalılardan ibarət olan cəmiyyət mədəni-kütləvi tədbirlər keçirir, azərbaycanlıların hüquqlarının müdafiəsilə məşğul olur. 1989-cu ilin oktyabrında Moskva şəhər sovetindən rəsmi qeydiyyat alan cəmiyyətin digər diasporlar ilə mədəni əlaqələr yaranmaqdadır. "Ziya" və "Çıraq" qəzetləri nəşr edib.

2. **Əhli-beyt İslam Cəmiyyəti** - 1995-ci ildə fəaliyyətə başlayan cəmiyyət 2002 ci ili mart ayında Rusiya Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Cəmiyyət əsasən dini işlərlə - azərbaycanlılarla dın qaydalarının öyrədilməsi, ziyarətə gedən soydaşlarımıza yardımçı olması, Azərbaycan-Rusiya arasında hərtərəfli münasibətlərin normallaşması və s.-ilə məşğul olur.

3. **Vətən Cəmiyyəti** - 2000-ci ilin yanvarında təsis olunan Cəmiyyət Moskva və Moskva ətrafında yaşayan azərbaycanlıları ətrafında toplayıb. Əsas fəaliyyət məqsədi - Rusiyada yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi, mədəni-kütləvi tədbirlər keçirməkdədir. Rusiyanın digər vilayətlərində Azərbaycan Cəmiyyətlərinin yaradılmasında yardımçı olur.

4. **Nizami Cəmiyyəti** - 1988-ci il 5 mayında "Odlar Yurdu" kimi Ulyanovsk şəhərində fəaliyyətə başlayan cəmiyyət sonradan Ədliyyə Nazirliyindən Nizami" cəmiyyəti kimi qeydiyyatdan keçib.

Ətrafında 35 min soydaşımızı birləşdirən cəmiyyətin əsas məqsədlərinə Azərbaycan milli kimliyini, dilini, adət-ənənələrinin qorunub saxlanması daxildir. Soydaşlarımıza sosial-iqtisadi və hüquqi köməklik göstərməkdədir. Ulyanovsk şəhərində aktiv fəaliyyət göstərən cəmiyyət "Qolos Azerbaydjana" qəzetini nəşr edir.

5. **Bakılı Cəmiyyəti** - 1992-ci ildə Rusiyada Azərbaycan səfirliyinin təşəbbüsü ilə təsis olunan cəmiyyət "Bakılı Mədəniyyət Cəmiyyəti"nin Moskva şöbəsi kimi fəaliyyət göstərir. Əsas fəaliyyət məqsədlərinə - maarifçilik, mədəni tədbirlər, müxtəlif səpkili sərgilər, görüşlər, seminarlar təşkil etməkdir. Ətrafında əsasən Bakıdan olan azərbaycanlılar, yəhudilər, ruslar və digər millətləri toplayan Bakı Cəmiyyəti Azərbaycan-Rusiya dostluq əlaqələrinin möhkəmləndirilməsinə çalışır.

6. **Azərbaycan Mədəniyyəti Cəmiyyəti** - Sankt-Peterburq şəhərində 1990-cı ildə təsis olunmuşdur. Cəmiyyət mədəni, informasiya, təbliğat işlərilə məşğul olur. Azərbaycan diasporu nümayəndələri arasında fəal iş aparan cəmiyyət 1990-cı il 7 fevralda "Svetlana" adlı qəzet nəşr etmiş və bu xüsusi buraxılış Azərbaycan həqiqətləri barədə məlumatlar Sankt-Peterburqlu soydaşlarımıza çatdırmışdır.

Adları çəkilən təşkilatlardan başqa Rusiya Federasiyasında bir çoxdigər diaspor təşkilatları dafəaliyyət göstərir.





Rusiyada fəaliyyət göstərən azərbaycan diaspor təşkilatları və cəmiyyətlərini ətrafında birləşdirən iri qurumlar aktiv işlə məşğul olur. Belə qurumlardan böyüyü və geniş imkanlara malik olanı Umumrusiya Azərbaycanlıları Konqresidir. ÜAK 2001-ci il martın 5-də Moskva şəhərində təsis olunub. Azərbaycan və Rusiya rəsmi dövlət strukturları tərəfindən tanınan konqresin Rusiyanın 60-dan çox şəhərində strukturu formalaşıb. Rusiyanın demək olar ki, bütün iri şəhərlərində fəaliyyət göstərən Azərbaycan Cəmiyyətləri konqresin kollektiv üzvüləridir.

2001-ci il 4 oktyabrında ÜAK-ın birinci qurultayı keçirildi. Qurulttayın gedişində Rusiyanın bütün şəhərlərindən iştirak edən nümayəndələr konqresin gələcək işləri barədə müzakirə aparmış, məqsəd və vəzifələri qəbul etmişlər. ÜAK-ın məqsəd və vəzifələrinə daxildir.

- **Azərbaycan Respublikasının vətəndaşı olub, Rusiya Federasiyasında yaşayan azərbaycanlıların vətəndaş hüquqlarının müdafiəsi, sosial-mədəni inkişafa yardım etməklə reallaşdırmaq.**
- **Rusiya Federasiyasındakı azərbaycanlıların milli əlaqələrinin, kimliyini və dinini, mədəni irsini qoruyub saxlamaq və inkişaf etdirmək.**
- **Rusiya və Azərbaycan xalqları arasında dostluq münasibətlərini inkişaf etdirmək, milli-mədəni tədbirlərin reallaşdırılmasında iştirak, mədəni və milli əlaqələri müxtəlif formalarda (mədəniyyət mərkəzləri, icmalar, tarixi abidələrin vəməzarların qorunması, milli təhsilin inkişafı) inkişaf etməsinə dəstək.**
- **Rusiya azərbaycanlıların vətəndaş, siyasi-iqtisadi, sosial-mədəni qrupları və azadlığının, azərbaycanlıların şərəf və milli səylərinin qorunub saxlanması və reallaşdırılması**

Hazırda konqres "Konqress Azerbaydjanüev" qəzeti nəşr edir. www.rosazcongress.ru internet saytını yaradıb. ÜAK-ın təşəbbüsü ilə Tümendə yerli televiziyasında Azərbaycan dilində verilişlər yayılır.

ÜAK-dan başqa Rusiyada Azərbaycan diaspor təşkilatlarını ətrafında birləşdirən böyük qrumlardan biri də Rusiya Azərbaycanlılarının Milli Mədəniyyət Avtonomiyası (FNKA-AZERROS) - birliyidir. 1999-cu ildən fəaliyyətə başlayan AZERROS-lə həmin ilin 10 oktyabrında Rusiya Federasiyası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qurum Rusiya hökuməti və Dövlət Duması yanında ölkə prezidenti V. Putinin fərmanı ilə yaradılan Məsləhət Şurasının üzvüdür. Bununla Dövlət Duasında daimılık qaydasında səs hüququ oldə edən AZERROS - ekstremizm, cinayətkarlıq, milli məsələlər və s. məsələlərin müzakirəsi zamanı öz əlavələr və düzəlişlər etməsi, yeni məsələ tə-

şəbbüsü ilə çıxış etmək hüququna malik olmaqla gələcəkdə lobbiçilik missiyası etməyi qarşısına məqsəd qoyub. AZERROS un bu günə qədər keçirdiyi rəsmi tədbirlərə 2000-ci ildə Moskvada "Rusiya-Azərbaycan tarixi və müasirlik" adlı elmi-praktik konfrans, 2001-ci ilin martında "Qarabağ düyünü: həlletmə yollarının axtarışı" mövzusunda dəyirmi masa və digər tədbirləri misal göstərmək olar. Qurum bu günə qədər bir neçə qurultay keçirib.

III Qurultaydan sonra AZERROS-un məqsəd və vəzifələri aşağıdakı kimi qəbul olunub.

- **Rusiyada Azərbaycan mədəniyyətini təbliğ etmək.**
- **Rusiya azərbaycanlıları arasında həmrəyliyə nail olmaq.**
- **Rusiya azərbaycanlılarının hüquqlarının müdafiəsi.**
- **Rusiya azərbaycanlılarının hüquqlarının müdafiəsi.**
- **Rusiya-Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişafı.**
- **Rusiyada informasiya işi qurulması və lobbiçilik.**

Hazırda AZERROS - "AZERROS-Azerbaydjanüı Rossii" qəzetini və www.azerros.ruİnternet saytını himayə edir. AZERROS-un qarşıda duran işlərinə Moskvada Beynəlxalq uşaq yaradıcılıq akademiyası yaratmaq və KİV - orqanlarının sayını artırmaq və lobbiçilikdir.

Adları çəkilən iri qrumlardan digər siyasi qurumlarda fəaliyyət göstərir ki, onların ətrafında müəyyən təşkilatlar toplaşıb.

Rusiyada Azərbaycan diasporuna məxsus KİV orqanlarının fəaliyyəti bir o qədər qənaətbəxş hesab olunmur. Belə mətbu orqanlarının çoxu sayca az tirajla, rus və Azərbaycan dilində kiril və latın qrafikası ilə ilə nəşr olunur. Maliyyə cəhətdən zəif təmin olunan Azərbaycan qəzetləri Rusiyada mətbuat üçün yaradılan əlverişli şəraitdən məharətlə istifadə edə bilir. Son zamanlar isə Rusiya azərbaycanlıları arasında kriminal əyləncə mövzulu "Sarı mətbuat" daha populyardır. Siyasi qəzetlərə marağı olmayan azərbaycanlılar *Azərbaycan və Rusiya xəbərlərinə diqqətsiz yanaşırlar.* Rusiyada alver edən soydaşlarımız isə ümumilikdə siyasi-ictimai işlərdən uzaq olduğu qədər də, bu mövzunu mətbuat orqanlarına yaxın durmurlar. Dizayn cəhətdən və ümumi orfoqrafik cəhətdən xeyli zəif olan Azərbaycan qəzetləri həftəlik, aylıq nəşr olunur. Hal-hazırda Rusiyada Azərbaycan diasporuna məxsus qəzetlər aşağıdakılardır:

"Azərbaycan Konqresi", "Azəri", "AZƏRROS - Rusiya azərbaycanlıları", "Azərbaycanın səsi", "Millətin qəzeti", "Turan", "Son variant", "Rusiya azərbaycanlıları", "Vətən" və s. Rusiyda Azərbaycan diasporunun ana dilində təhsil almaları üçün 157 saylı Azərbaycan dili təmayüllü məktəbi var. Rusiya paytaxtında ümumtəhsil Azərbaycan məktəbi də yaradılıb. Bazar günləri məktəbləri ilə gələcəkdə açılması nəzərdə tutulur. Ancaq bu istiqamətdə də pro-





blemlər var. İlk növbədə olaraq Rusiyada azərbaycanlı şagirdlərə ana dilində dərs deyən müəllimlərin professional səviyyəsi aşağıdır. Dərs vəsaitləri azlıq təşkil edir. Azərbaycan tarixi dili və ədəbiyyatı kitabları rus dilində köhnə nəşrlərdir. Düzdür, Azərbaycan təhsil nazirliyi bir neçə dəfə köməklik göstərməsinə baxmayaraq, bu kömək bütün vilayət və şəhərləri təmin edə bilmir. Rüstəm İbrahimbəyov, Bəşir Səfəroğlu, Nəsibə Zeynalova adlı teatrlarımız fəaliyyət göstərdiyi Rusiyada soydaşlarımız mədəni kütləvi tədbirlərdə fəal iştirak edirlər. Bu neçə dəfə Rusiya şəhərlənndə təşkil olunan etiraz çıxışları ilə iştirakçıların sayı az olmuşdur. Rus polisi ilə toqquşmaq istəməyən leqal və qeyri-leqal şəkildə yaşayan azərbaycanlılar Rusiyanın bütün bazarlarında *fəaliyyət göstərirlər. Gürcülər, ermənilər və çeçenlərdən fərqli olaraq* kriminal işləri daxildə baş verən azərbaycanlılar yalnız ticari maraqlar güdürlər. Kriminal zəmində baş verən hadisələrin əksəriyyəti elə azərbaycanlılar arasında baş verdiyindən rəsmi səviyyədə bu işlə məşğul olmaqda əminlik yaradır. İlk zamanlar şəxsi mənafe Milli mənafelərdən üstün tutulma faktları ilə qarşılaşırdısa, indi bu neqativ cəhətlər olaraq qaldırılmaqdadır.

Azərbaycan diasporu Rusiyanın nüfuzlu siyasi partiyaları ilə əməkdaşlıq edir. Bunlardan "Edinstvo"; «Demokratiçeskaə Partiə Rossii» "Dvijenie Rossii" - partiyaları ilə Azərbaycanın diaspor təşkilatları arasında müqavilələr imzalanıb və əməkdaşlıq yolları işlənib hazırlanıb.

Hazırda Rusiyada yaşayan azərbaycanlıların sayı artmaqdadır. Bunun səbəbi iqtisadi səbəbdən Rusiyaya mühacirət edən Azərbaycan vətəndaşlarıdır. Onlar əsasən əmək xarakterli mühacirəti etsələr də təhsil almaq üçün Rusiyaya köçən gənclərimiz də sayca üstünlük təşkil edir. Rusiyada təhsil alan azərbaycanlı tələbələr siyasi və ictimai fəaliyyətlərinə görə daha fəaldırlar. Onların ictimai fəaliyyəti təhsil aldıqları ali məktəblərdə daha diqqəti cəlb edir. www.azerbaijan.ru- internet səhifəsini yaradan azərbaycanlı tələbələr elektronpoçt ünvanları qrupu yaradaraq, bir-birlərilə intensiv əlaqə saxlayırlar.

Göründüyü kimi Rusiyada Azərbaycan diasporu bütün çətinliklərə baxmayaraq, təşkilatlanmaqda və ictimai fəaliyyəti passiv şəkildəaparmaqdadırlar. Diasporda olan siyasi fikir ayrılıqları olmasına baxmayaraq, bəzi prinsip məsələlərdə soydaşlarımız ümumi dil tapa bilirlər. Bu onu göstərir ki, gələcəkdə Rusiyadakı Azərbaycan diasporu daha güclü və aktiv fəaliyyət göstərəcək.

***TÜRKİYƏ***: Tarixi mənbələrdən məlumdur ki, Azərbaycan mühacirlərinin köçdükləri ölkələr içərisində Türkiyə xüsusi yer tutur. Coğrafi baxımdan dil-din yaxınlığı, soy kök eyniliyi nöqteyi-nəzərindən təbii hesab olunan bu proses nəticəsində tarix boyunca həm Şimali, həm də Cənubi Azərbaycandan Türkiyəyə köçən soydaşlarımızın sayı minlərlə idi. Soydaşlarımızın Türkiyəyə tarixi siyasi-ictimai hadisələr səbəbilə mühacirətləri nəticəsində hələ ötən

əsrin əvvəllərindən Azərbaycan diasporu formalaşmış, təşkilatlanma strukturu təsis edərək informasiya təbliğatı işlə məşğul olublar. Zamanla hər şeyə və dünyada baş verən ictimai-siyasi dəyişikliklər, azərbaycanlıların bu ölkədə siyasi fəaliyyətində xeyli dəyişiklik yarandı.

1820-ci ildə Azərbaycan Demokratik Respublikasının süqutundan sonra çoxsaylı azərbaycanlıların köçdükləri ölkələr içərisində Türkiyə birinci yeri tuturdu. BuradakıAzərbaycan siyasi mühacirəti ölkəni Sovet işğalından qurtarmaq üçün geniş fəaliyyət göstərmiş və bununla paralel olaraq mətbuat təsis edərək Azərbaycan barəsində xəbərləri yerli ictimaiyyət və burada yaşayan soydaşlarımıza çatdırdılar. Lakin Türkiyə Cümhuriyyətinin Sovetlər Birliyi tabeçiliyində qurulan Sovet Azərbaycanını tanıması burada yaşayan soydaşlarımızın fəaliyyətinə vurulan ciddi zərbələrdən biri idi. Sovetlər Birliyinin Türkiyə ilə əlaqələr quraraq ikitərəfli əlaqələri müəyyən çərçivədə aparması burada diasporumuzun formalaşmastrukturun demək olar ki, passiv vəziyyətə salmışdı. Mustafa Kamal Atatürkün bolşevik lideri V. İ. Leninlə münasibət saxlaması öz təsirini burada Azərbaycan siyasi mühacirətinə göstərməyə bilməzdi və 1951-ci ildə azərbaycanlıların lideri M. Ə. Rəsulzadəni Türkiyədən qovulması barədə türk rəsmilərinin qəbul etdiyi sənəd məhz belə yaxınlığın nəticəsi idi.

Bunun sayəsində Azərbaycan diasporunda daxili fikir ayrılığı yaratmış siyasi passivlik yaranmış, ideoloji iş zəifliyi, mətbuat orqanlarının nəşri dayanmış, təhqiqatlararası narazılıqlar və anlaşılmazlıqlar yaranmışdır. Azərbaycanın ziyalı təbəqəsi ilə müsavat yönlü siyasi mühacirləri içərisində Rəsulzadənin Türkiyədən çıxarılması daima birmənalı qarşılanmamışdı. Bəzi soydaşlarımız M. Ə. Rəsulzadəni bolşevik İosif Stalinlə yaxın olmasını dəlil gətirərək onun Türkiyədə yaşamasını istəmirdilər. Müsavatçı azərbaycanlılar isə bunu qəbul etmir, öz ətrafında milli müqavimət hərəkatlarının tərəfdarlarını toplamaqla Rəsulzadəni özlərinə lider hesab edirdilər. Soydaşlarımız arasında siyasi fikir ayrılığı və ictimai passivlik, daxili anlaşılmamazlıq II Dünya müharibəsi illərinə qədər davam etdi. II Dünya müharibəsi Azərbaycan diasporunun fəaliyyətinə ciddi təsiri ilk gündən göstərdi.

Azərbaycanın II Dünya müharibəsindən sonra müstəqillik əldə etməsi istiqamətində işinəTürkiyədə yaşayanlar aktiv fəaliyyətə qoşuldular. Xüsusilə M. Rəsulzadənin Adolf Hitlerlə görüşü, alman dövlət qurumları ilə apardığı danışıqlar və Azərbaycan legionlarının yaradılması Türkiyə azərbaycanlıları tərəfindən rəğbətlə qarşılandı. II Dünya müharibəsi Almaniyanın məğlubiyyətilə nəticələnməsindən sonra Türkiyəyə geri dönən M. Ə. Rəsulzadə ilə bərabər Avropada yaşayan bir sıra Azərbaycan siyasi mühacirətinin görkəmli nümayəndələriTürkiyəyə daxil olma hüququ əldə etməsiburadakı Azərbaycan diasporunun fəaliyyətini aktivləşdirdi. Siyasi ideoloji baxımdan güclənənAzərbaycan diasporunun köhnə və yeni nəslarasında küskünlüyə və fikir ayrılığına can qoyan Rəsulzadə Azərbaycan Milli Mərkəzi təsis edib ətrafında çoxsaylı soydaşlarımızı birləşdirməyə nail oldu.





Türkiyədə demokratik islahatların aparılması, ölkə rəhbərlərinin də azərbaycanlılarının ictimai-siyasi fəaliyyətə əngəlliklər yaradılmaması Azərbaycan diasporunun təşkilati strukturunun genişlənməsinəşərait yaratdı. Türkiyədə Azərbaycan diasporunun fəaliyyəti tədqiq edən Səbahəddin Şəmşir bu dövrü öz kitabında belə səciyyələndirir:

« Türk siyasi sistemi siyasi qurumlara tez-tez müdaxilə etməsi diasporumuzun "dərnək" altında mübarizə aparmasına şərait yaratdı. Azərbaycan kultur dərnəyi və Azərbaycan Mədəniyyət Mərkəzi Azərbaycan diasporunun həyatında mühüm rol oynayırdı.»

Zamanla fəaliyyət dairəsini genişləndirən Azərbaycan diasporu, tanınmış insanlar olan Əhməd Cavad, Almas İldırım, Əhməd Cəfər oğlu, Hüseyn Baykara, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Əbdülvahab Yurdsevər və digər şəxslərin elmi-ictimai fəaliyyəti sayəsində Türkiyədə qüvvətlənməyə başladı. Azərbaycan mədəniyyəti, poeziyası, ədəbiyyat, Türkiyədə təbliğ olunmaqla yerli əhali tərəfindən rəğbətlə və sevinc ilə qarşılanırdı. 1990-cı ildə isə dünyada baş verən ictimai-siyasi proseslər Azərbaycanın dövlət müstəqilliyi diasporumuzun formalaşması və digər azərbaycanlılarının həmrəyliyi məsələlərini gündəmə gətirdi. Bu zaman artıq Türkiyədə güclü mövqeyə və maddi imkana malik olan azərbaycanlılar Azərbaycan müstəqilliyi üçün fikirləri tez-tez səsləndirməyə başladılar. İmkanlı azərbaycanlıların təşəbbüsü ilə Azərbaycan mədəniyyətinə, dövlətçiliyinəhəsr olunan müxtəlif səpkili tədbirlər Türkiyədə keçirilməyə başladı. İlk dəfə olaraq dünya azərbaycanlılarının həmrəyliyilə birliyinə yönələn və ətrafında dünyanın bir çox bölgəsində yaşayan soydaşlarımızı toplayan tədbirlər məhz Türkiyədə keçirilmişdir.

1989-cu ildə Türk Dünyası Ümumdünya Azərbaycanlılar Konqresi 1990-cı ildə Türk Dünyası Araşdırmalar Vəqfinin təşəbbüsü ilə Kayseridə I Millətlərarası Böyük Azərbaycan Konqresinin və 1990-cı il noyabrın 30-dən 6-dək İstanbulda Azərbaycan Mədəniyyət Mərkəzlərinin Birinci Qurultayı həmrəylik istiqamətindəkeçirilən tədbirlərdəndir. Azərbaycan ədəbiyyatının tarixinə aid kitablar Türkiyə türkcəsinə tərcümə olunmaqla, Rəsul Rza, Məmməd Araz, Nigar Rəfibəyli, Elçin və digər ədiblərimizin əsərləri Türkiyədə nəşr olunmağa başlandı. Azərbaycan-Türkiyə arasında tələbə mübadiləsi başlandı. Xüsusilə 1991-ci il 18 oktyabrında dövlət müstəqilliyimiz elan edildikdən sonra 1918-ci ildə olduğu kimi yenə ilk olaraq Türkiyə Azərbaycanın müstəqilliyini tanıdığını bəyan etmişdir. 1991-1993-cü illər arası proseslər öz axını ilə davam edirdi. Lakin 1993-cü ildən sonra Türkiyədəki Azərbaycan diasporunda fikir ayrılığı yarandı. Buna səbəb 1993-cü ildəki Azərbaycandakı hakimiyyət dəyişikliyi idi. Yeni qurulan hökumətə müxalif fikirli olan Azərbaycanlı dias-

porunun bir hissəsi iqtidar yönümlü siyasətə qoşulmaqdan imtina etdilər. Bu isə öz növbəsində Türkiyədəki Azərbaycan diasporunun fəaliyyətinə təsir göstərdi. İlk zamanlar Azərbaycanın dövlət müstəqilliyi üçün çalışan Türkiyəli azərbaycanlıların 1993-cü ildə Atəşkəs elan edilməsi, Azərbaycanda sabitlik yaranmasından sonra onların səlahiyyətlərinə aid olan işləri görmək əvəzinə siyasi passivlik mövqeyi tutması halı ilə müşahidə olunur.

Azərbaycan milli maraqlarını müdafiə etmək, Dağlıq Qarabağ probleminin çözülməsi, istiqamətinə fəallıq və digər sahələrdə aktiv iş aparmaqda passivlik göstərən Azərbaycan diasporu demək olar ki, bu gün də eyni səviyyədə qalmaqdadır.

Bu gün üçün Türkiyədə Azərbaycan diasporu şərti olaraq üç hissəyə bölünür:

- *Ziyalı təbəqə* - Türkiyədə çalışan müəllimlər, iş adamları, mədəniyyət xadimləri, siyasi xadimlər.
- İşçi qrup - əsasən iqtisadi maraqlar güdən, siyasi ictimai fəaliyyət göstərməyən, yalnız iqtisadi vəziyyətlərini normallaşdırmağa çalışanlar. Bu cür şəxslərin sayı olduqca çoxluq təşkil edir.
- Tələbələr - Türkiyənin müxtəlif ali və elmi təhsil müəssisələrində oxuyan gənclərdən ibarət bu qanad, Türkiyədə ilk zamanlar çox fəal idilər. Sonradan onlar arasında dini-ideoloji işin müxtəlif dini təriqətlər tərəfindən aparılması bu qrupun zəifləməsinə səbəb olmuşdur. Zəif də olsa bir neçə tələbə təşkilatı yaradan bu qanad son zamanlar fəaliyyətlərində dəyişiklik etməyə çalışırlar.

Yuxarıda göstərilən 3 qanad arasında hazırdaintensiv əlaqə yoxdur və bundan başqa Türkiyədə yaşayan soydaşlarımızınböyük imkanlara baxmayaraq, siyasi-ictimai passivlik göstərilir. Azərbayan diasporu erməni diasporunun burada da təbliğat və lobbiçilik sahəsində uduzmaqadılar. Baxmayaraq ki, bütün dünya erməniləri Türkiyə əleyhinə iş aparırlar, onların Türkiyədəki azad və geniş fəaliyyətinə qarşı nə Azərbaycan diasporu, nə də Türkiyə rəsmiləri mane ola bilmir. Bu isə milli ideologiyasının zəifliyi, dini təsirin güclü olması və digər səbəblərlə bağlıdır. Dini təsir altında dedikdə Türkiyədə nurçuluq və digər dini təriqətlər təsiri altında olan azərbaycanlı gənclərin nəzərdə tutulduğunu bildirmək istərdik. Bu gün heç kimə gizli deyil ki, Türkiyəyə təhsil almağa gedən azərbaycanlı gənclər ilk növbə olaraq dini təsirlər altına düşür ki, bu təsir fanatizmdən daha çox kosmopolitik fikirlərin onlar arasında güclü olmasına şərait yaradır.

Azərbaycan diasporunun maddi intellektual imkanları hələlik tam olaraq Azərbaycan dövləti naminə istifadə olunmur.

Buradakı azərbaycanlıların lobbiçilik fəaliyyəti də olduqca passivdir. Bu burada Türkiyədə fəaliyyət göstərən ABAD (Azad, Bütöv, Adil, Demokratik)





- Azərbaycan təşkilatının mətbuat və informasiya komitəsinin sədri Ziya Rəcəbovun Türkiyədə «Azərbaycan diasporu və istifadə olunan lobbi metodları»məqaləsində göstərilir:

«Türkiyəli Azərbaycan diasporunun parçalı vəziyyətdə olması onun uzun müddətli strategiyalarının təyin edilməsinə əngəl ibarədir. Hər təşkilatın ayrı-ayrılıqda fəaliyyət göstərməsi fərqli lobbi taktika və metodlarından qeyri-mütəşəkkil istifadə etməsi və sayıqlı olan lobbi materialının bir çox lobbi taktikaları ilə dəstəklənməsi diaspor təşkilatlarımızın ciddi bir nailiyyət əldə etməmələrilə nəticələnir".

Məqaləsində həmçinin Ziya Rəcəbov Türkiyədə Azərbaycan diasporunun lobbi fəaliyyəti üçün aşağıdakı vasitələrin daha məqsədəuyğun olduğunu qeyd edir.

**Üz-üzə ünsiyyət:**
**Media orqanları ilə əlaqə**
**Toplantıların təşkili**
**Birbaşa aksiyalar**

Türkiyədə Azərbaycan diasporunun lobbi fəaliyyətini olduqca passiv olmasının mənfi cəhət kimi qəbul etmək olar. Güclü imkanlara vəTürkiyə hökuməti tərəfindən dəstəklənməsinə baxmayaraq, soydaşlarımız lobbiçilik istiqamətində ciddi səy göstərmir və ya da göstərmək istəmir. Lakin inanmaq olar ki, belə neqativ hallar aradan qaldırılacaq. Türkiyə siyasi partiyalılıq və ictimai xadimlərlə olan əlaqələrdə səmərəli istifadə olunacaq. Çünki, Qardaş Türkiyədə Azərbaycan lobbisinin güclü olması olduqca əhəmiyyətli və vacibdir. Bununla paralel olaraq Türkiyədə Azərbaycan diasporunun kütləvi informasiya vasitələrində işi əvvəlki illərə baxanda olduqca zəif və passivdir. Aşağıda Türkiyədə əsrin əvvəllərindən bu günə qədər nəşr olunan dövrü mətbuatın adları göstərilir:

"Yeni Qafqasiya" (1923-26), "Azəri Türk" (1928), "Odlu Yurd" (1929-31), "Bildiriş" (1930), "Azərbaycan Yurd Bilgisi" (1931-34), "Azərbaycan" (1952) qəzet və jurnallardan əlavə "Yaşıl Yarpaq", "Birlik-Dirilik", "Türkizm", "Koroğlu", "İstiqlal", "Türk Yolu", "Xəzər", "Dəri","Araz", "Hücum", "Turan", "Mücahid" - qəzet və jurnalı müxtəlif illərdə nəşr edilmişdir. Hazırda Türkiyədə Azərbaycan diasporuna məxsus fəaliyyət göstərən KİV-dən "Araz", "Xəzər", "Azərbaycan dünyası", "Azərbaycan"- və s. Adların sadalamaq olar. TRT, TGRT, Kanal D və digər kanallarda Azərbaycanla bağlı məlumatlara kimi yer verilir. TGRT - kanalı bazar günləri 1 saat verilişi Azərbaycan tərəfinin öhdəsinə buraxıb.

Bu KİV orqanlarından başqa Türkiyədə Azərbaycan diaspor təşkilatları zəngin bir tarixə malikdir. Ötən əsrin əvvəllərindən bu günə qədər çoxsaylı Azərbaycan diaspor təşkilatlı qardaş ölkədə fəaliyyət göstərmiş və hazırda da

göstərməkdədir. Aşağıda Azərbaycan diaspor təşkilatlarının XX əsrin əvvəllərindən fəaliyyətə başlamış və ardıcıl olaraq verilir.

"Azərbaycan Kültür Dərnəyi" (1919), "Azərbaycan Müdafiə Hüquq Cəmiyyəti (1948), "Azərbaycan millətçiləri dərnəyi" (1952), "Azərbaycan müharibələr birliyi" (1952), "Azərbaycan millət Partiyası" (1952), "Cəbhəçilər İttifaqı Azərrər" (1952).

Azərbaycan Qarşılıqlı Yardım Cəmiyyəti (1958), "İslam Müsəlman Cəmiyyəti" (1952), "Azərbaycan Gənclik Dərnəyi" (1961) və digərlərinin adını çəkmək olar. Hazırda isə Türkiyədə fəaliyyətdə olan Azərbaycan diaspor təşkilatları aşağıdakıları göstərmək olar.

1. **Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfi (TADİV)** - 1997-ci ildə İstanbulda təsis edilən bu qurumun rəhbəri professor İhsan Doğramacıdır. Türkiyə və Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi istiqamətində iş aparan TADİV - eyni zamanda mədəni-kütləvi tədbirlər təşkil edir.

2. **Azərbaycan Kültür Dərnəyi** - 1919-cu ildə təsis olunub. Bu tarixdən müasir dövrə qədər fəaliyyət göstərən Dərnəyin Türkiyənin bir neçə şəhərində şöbələri mövcuddur. Əsasən elmi-mədəni, ictimai təbliğatla məşğul olan Dərnək kütləvi-musiqili-mədəni tədbirlər keçirir.

3. **Azərbaycan Tanıtım Dərnəyi** - Azərbaycanın haqq səsini,milli faciələrimizi, tariximizi, mədəniyyətimizi, ədəbiyyatımızı, təbliğ edən dərnək "Araz" adlı qəzet nəşr edir. Cəmiyyətin sədri olan Seyfəddin Altaylı Xocalı faciəsinə, Dağlıq Qarabağ problemlərinə və Azərbaycan barədə bir neçə sənədli film çəkib və Türkiyə televiziya kanallarında, baş redaktoru olduğu "Türkiyənin səsi" - radiosu vasitəsilə yayılmayıb. Dərnək hazırda fəal fəaliyyət göstərən təşkilatlardan hesab olunur.

4. **ABAD - (Azad, Bütöv, Adil, Demokratik) Azərbaycan** -- ətrafında əsasən, Türkiyədə təhsil alan gəncləri birləşdirir. Azərbaycanın siyasi və tarixi keçmişi və bugünkü Türkiyədə təbliğ edən ABAD - Azərbaycan Türkiyədə Azərbaycan Türkiyədə Azərbaycan səfirliyi diaspor təşkilatları və yerli ictimaiyyətlə əlaqəsi var. Bundan əlavə olaraq Azərbaycanla əlaqəli müxtəlif səpkili tədbirlər keçilən təşkilat fəaliyyətini genişləndirənlərdir.

5. **ADKADER** - (Azərbaycan Dostluq və Qardaşlıq Dərnəyi) - Azərbaycanda təhsil alan Türkiyəli tələbələr tərəfindən təsis olunan Cəmiyyət hazırda azərbaycanlı gənclərin idarəsi altındadır. Nisbətən fəal təşkilatlardan hesab olunan AKADER - dinamik təşkilatdan daha çox mədəni fəaliyyət göstərən dərnək hesab olunur. Mədəni təbliğat işi ilə məşğul olan AKADER - ədəbiyyatımızın Türkiyədə sevilməsi üçün çalışır.

Bu təşkilatlardan başqa Türkiyədə "Azərbaycanın Dostluq Kültür və Sənət Dərnəyi", "Azərbaycan Türkləri Kültür və Dayanışma Dərnəyi", "Azad Azərbaycan Həmrəylik Qrupu", "Azərbaycanın Təhsil və Mədəniyyət Fondu", "Dünya Azərbaycanlıları Dayanışma və Kültür Dərnəyi", 'Qars-Ərdahan - İğdır Dərnəyi", "İğdır Azərbaycan Türk Kültürünü Tanıtma Dərnəyi", "Türkiyə Azərbaycan Dostluq və Əməkdaşlıq Cəmiyyəti", "Azərbaycan Cəmiyyəti", "Türkiyə Azərbaycan Dostluq Cəmiyyəti" və s. fəaliyyət göstərirlər.





Müasir dövrdə Türkiyədə də Azərbaycan dostluğunun fəaliyyətində xeyli canlanma yaranmaqdadır. Türkiyədə Azərbaycan parkının salınması Azərbaycan evlərinin və təşkilatlarının sayının artması, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin büstünün İzmir şəhərində qoyulması, Türkiyənin çeşidli TV kanallarında, Azərbaycana həsr olunan proqramların sayının çoxalması və s. hadisələr və proseslər bu nəticəyə gəlməyə imkan verir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Türkiyədən keçməsi, dövlətlərarası münasibətlərin inkişaf etməsi, Azərbaycan diasporunun mövqeyi qardaş ölkədə güclənməsinə şərait yaradır. İnanırıq ki, soydaşlarımız Türkiyədə daha aktiv və siyasi gücə malik olan etnik diaspor olmaqla yanaşı, Azərbaycanın haqq səsi və ədalətli mövqeyini müdafiə etməklə Azərbaycanı layiqincə təmsil edəcəklər.

***UKRAYNA***: Ukrayna Azərbaycan diasporunun aktiv fəaliyyət göstərdiyi ölkələrdən birincilərindəndir. Ukrayna-Azərbaycan mühacirəti XIX əsrin sonu XX əsrin əvvəllərində köçməyə başlayıblar. XX əsrin əvvəllərindən buraya təhsil almağa gələn azərbaycanlı tələbələr ictimai fəallıq göstərməyə başlayıblar. Onların aktivliyi sayəsində Kiyev şəhərində milli mədəniyyət mərkəzi yaranmış və burada yığılan azərbaycanlılar Azərbaycan Mədəniyyəti, poeziyası, ədəbiyyatı barəsində müzakirələr aparmış və imkan daxilində adları sadalanan istiqamətdə təbliğat işi aparmışlar. Kiyevdən başqa digər böyük şəhərlər Xarkov və Lvovda da azərbaycanlı gənclər təhsil aldıqları müəssisələrdə eyni istiqamətdə iş aparırdılar. Professor Vaqif Arzumanlının tədqiqatına görə Ukraynada 1917-1918-ci illərdə tanınmış yazıçı Tağı Şahbazi Simurq Xorvak şəhərində məskunlaşaraq "Cənub səsi" adlı qəzet nəşr etmişdir.

Ukraynanın da 1920-ci ildə bolşevik işğalına məruz qalan Azərbaycan-Ukrayna münasibətlərində xeyli irəliləyişlər yaranmışdır. İqtisadi-mədəni əlaqələri Sovetlər Birliyi tərkibində normal olan Ukrayna-Azərbaycan arasında eyni zamanda tələbə-mütəxəssis mübadiləsi də aparılırdı. Müxtəlif sahə üzrə öz peşələrində mütəxəssis hesab olunan yüzlərlə azərbaycanlı Ukraynaya köçərək buranı özlərinə daimi yaşayış məskəni seçmişlər. Bunun nəticəsində Kiyev, Xarkov, Odessa, Lvov, Krım, şəhərində və Valın, Vinnitso, Dnepropetrovsk, Donetsk, Zakarpatye, Zaparodjc, Jitomir, İvano-Frankovsk, Kirovoqrad, Nikolayev, Poltava, Rovina, Ternopol, Suşk, Xerson, Xmelnitski, Çerkask, Çerniqo, Çernovisti vilayətlərində soydaşlarımız məskunlaşmışlar. Məskunlaşdığı şəhər və vilayətlərin ictimai işində aktivlik göstərən azərbaycanlılar Ukrayna dövlət idarələrində də irəli çəkilməyə başlayıblar.Bu cür fəal işlə

paralel olaraq Ukraynın qızları ilə qarışıq nigah burada yaşayan soydaşlarımızın mövqeyinin güclənməsinə şərait yaradırdı.

1991-ci ildə Sovetlər Birliyinin dağılmasından sonra müstəqillik əldə edən Ukrayna və Azərbaycan arasında ikitərəfli diplomatik münasibətlər quruldu. Artıq beynəlxalq birliyin bərabərhüquqlu üzvü olan Ukrayna və Azərbaycan bütün sahələr üzrə münasibətləri inkişaf etdirirlər.

Hazırda Ukraynada 500 min azərbaycanlı yaşayır. Bu şəxslər ötən əsrin əvvəllərindən ta bu günə qədər davam edən intensiv mühacirət nəticəsində buraya gələnlərdir. 500 min azərbaycanlının bir-biri ilə əlaqə saxlaması və ictimai fəaliyyəti bəzi ölkələrdəki azərbaycanlıların fəaliyyətindən nisbətən daha fəaldır. Bu ölkədə onlarla Azərbaycan diaspor təşkilatları, mədəniyyət mərkəzləri, kütləvi informasiya vasitələri olmaqla yanaşı ana dilimiz həm Ukrayna ali məktəblərində, həm də Azərbaycan dilli bazar günü məktəblərində təbliğ olunur və tədris edilir. Azərbaycan folklor ansambllarının yaradılması isə Azərbaycan mədəniyyətinin təbliğatına xidmət edir. Bütün bunlar azərbaycanlı olan hər kəsi sevindirir.

Lakin burada bəzi problemlər də var. İlk növbə olaraq buraya çalışmağagələn azərbaycanlılarla burada əvvəldən yaşayan soydaşlarımız arasında müəyyən mənada fikir ayrılığı var. Ziyalı təbəqəsinə aid olan Azərbaycan diasporunun yüksək təbəqəsi bazarda ticarətlə məşğul olan azərbaycanlılarla passiv əlaqə saxlayır və ortaya çıxan problemlərilə onlar Azərbaycanın Ukraynadakı səfirliyilə ötürməyi məsləhət edirlər. Halbuki bu onların səlahiyyətində olan işlərdən hesab olunur. İkinci bir problem burada Azərbaycanının müxtəlif bölgələrindən olan soydaşlarımız arasında regionçuluq fikirlərinin formalaşmasıdır. Məsəl üçün: Tovuz, Şəmkir, Bakı, Naxçıvan və digər rayon və şəhərlərdən olan azərbaycanlılar ümumi məqsəd üçün birləşə bilmirlər və bunun nəticəsində azərbaycanlılar arasında kriminal zəmində toqquşmalar baş verir. Bu isə öz növbəsində Azərbaycan diasporunun fəaliyyətilə öz ciddi təsirini göstərir.

Göstərilən problemləri bəzi ölkələrdəki soydaşlarımızın problemlərilə müqayisə etdikdə burada məsələ qədər də ciddi deyil. Bu isə buradakı Azərbaycan diasporunun təşkilatçılarında passiv halda özünü göstərir. Hazırda Ukraynada çoxsaylı Azərbaycan diaspor təşkilatları və milli mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Onlardan ən böyüyü bir çox regional diaspor təşkilatları ətrafında birləşdirən Ukrayna Azərbaycanlıları Konqresidir.

1999-cu ilin 21 martında təsis edilən UAK-ın yaranmasında Ukraynadakı Azərbaycan səfirliyi və tanınmış azərbaycanlıların rolu böyük idi. UAK - 1990-cı ildə Kiyevdə yaradılan Azərbaycanlıların İctimai Mədəni Mərkəzinin (1994-cü ildə N. Gəncəvi adına Ümumukrayna Azərbaycan ictimai mədəni mərkəzinə çevrilib) sələfidir. İlk təsis yığıncağında Ukraynanın 15 vilayətində





filialı olan UAK- zamanla bu filialların sayı artmağa başladı. Ölkənin ictimai-siyasi, iqtisadi-mədəni həyatında mühüm rol oynayan UAK-ın 27 inzibati ərazi bölgüsünün demək olar ki, hamısında vilayət təşkilatları fəaliyyət göstərir. UAK-ın əsas fəaliyyət sahələri aşağıdakılardır

**Azərbaycan mədəniyyətini təbliğ etmək.**
**Azərbaycan dilini təbliğ və tədris etmək.**
**Kütləvi-mədəni tədbirlər keçirilməsi.**
**Ölkəni ictimai-siyasi, iqtisadi-mədəni həyatında dəqiq iştirak etmək.**
**Ukrayna-Azərbycan ikitərəfli münasibətləri inkişaf etdirmək**
**İnformasiya-təhqiqat işi ilə məşğul olmaq.**
**Azərbaycan naminə lobbiçilik etmək və s.**

Ukraynada Azərbaycan diasporuna məxsus mətbuat orqanları da fəaliyyət göstərir. Bunlardan "Azərbaycanın səsi" və "Savalan"Kiyevdə, «Qobustan», «Millət»və s. qəzetlər nəşr edilir. Bunlardan başqa Azərbaycan diasporu Ukrayna rəsmi qəzetləri olan "Veçernəə Kiev", "Qolos Ukrainı" qəzetləri ilə əməkdaşlıq edir, şəhər və vilayət radiolarına Azərbaycan dilində proqramlar təşkil edir, arabir dövlət televiziyasında çıxışlar edirlər, bütün bunlarisə aktiv fəaliyyətin nəticəsidir.

## ƏDƏBİYYAT


1. Nizami Cəfərov "Azərbaycanşünaslığa giriş" Bakı, 2002.
2. "Qədimliyimiz - Diriliyimiz". Tədqiqatlar elmi toplusu. Bakı, 1888.
3. İsmayıl Kayabalı, Semender Arslan oğlu "Azərbaycan türkleri: kültür tarihinin ana hatleri " Ankara, 1998.
4. Azərbaycan tarixi I cild (ən qədim - b.e. III əsri) Bakı, 1989.
5. "Tribun" jurnalı - www.tribun.com
6. "Azərbycan tarixi" - (ən qədim zamanlardan XX əsrdən) I cild. Bakı, 1994.
7. "Vətən" qəzeti 10 oktyabr, 2003-ci il.
8. Yunis Oğuz "Qədim Anadolu və Azərbaycan türkləri", Bakı, 2002.
9. Şəlalə Həsənova "Mühacirət irsimizdən səhifələr", Bakı, 1995.
10. Journal "Azerbaijan International" N 3. Spring, 1995.
11. "Yeni fikir" qəzeti, 23 sentyabr, 1995.
12. Mahmud İsmayılov "Azərbaycan tarxi", Bakı, 1992.
13. Taryel Azərtürk "Muğam - Şumer" türkünün milli mənəvi sərvətidir. Sletl-2001.
14. Nazim Rizvan "Azərbaycan diasporası tarixindən", Bakı, 2000.
15. Jurnal "Azerbaijan International" N 8, Summer, 2000.
16. "Rakurs" qəzeti, 5 oktyabr, 2002.
17. Тур Хейрдал". Древный человек и океан", Москва, 1982.
18. Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı, 1989.
19. "Yeni Fikir" qəzeti, 14 dekabr, 1995.
20. Fazil Rəhmanzadə, "Yol", Bakı, 1994.
21. "Vətən" qəzeti, 31 dekabr 2002.
22. Azrbaycan tarixi, II cild (III-XIII əsrlər), Bakı, 1997.
23. Qəzənfər Paşayev. "Altı ilDəclə-Fəratsahilərində» Bakı,1996
24. М. С. Неймат «Корпус эпиграфических памятников Азербайджана» Бакы, 1991.
25. А. С. Сумбатзаде, "Азербайджанцы - этногенез и формирования народов", Бакы, 1990.
26. Z. M. Bünyadov, B. Yusifov "Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək", Bakı, 1994.
27. Cəfər Qiyasi "Yaxın-uzaq ellərdə", Bakı, 1995.
28. Xaləddin İbrahimli "Azərbaycan siyasi mühacirəti (1920-1991). Aftoreferat, Bakı, 2000.
29. İsrafil Məmmədov "Dünya azərbaycanlıları XX əsrdə", Bakı, 1992.
30. Dünya azərbaycanlılarının I Qurultayı. Məruzə. Bakı, 2001.
31. Məryəm Oruclu "Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti" (1911-1992), Bakı, 2001.







32. Azərbaycan Demokratik Respublikası, Azərbaycan hökuməti (1918-1920). Bakı, 1990.
33. "Xalq" qəzeti. 6 iyun, 1992.
34. "525-ci qəzet", 30 noyabr, 2002.
35. "Azərbaycan çekistləri (sənədlər, oçerklər, hekayələr), Bakı, 1983.
36. İximan Yaqublu "Azərbaycan legionerləri", Bakı, 2002.
37. "Altay dünyası" jurnalı N 1-2, 1992.
38. "Milletlerarası Azerbaycan Turu Dernəklərinin I Kurultayının Kurultay nihai beldirisi - 3-6 kasım 1990, İstanbul 1990.
39. Qulu Kəngərli "Erməni lobbisi, Azərbaycan faciəsi", Bakı, 1992.
40. Vaqif Arzumanlı «Azərbaycan diasporu: reallıqlar, qayğılar, problemlər» - Bakı, 2001.
41. "Azərbaycan qəzeti", 31 dekabr, 2002.
42. "Palitra" qəzeti, 29 dekabr. 4 yanvar 2001.
43. Dünya azərbaycanlıları konqresi - www.azerbaiyans-congress.com
44. "Turkistan Bülteni" 25 avqust, 2001.
45. «Xaricdə Azərbaycan diasporunu hansı təşkilat təmsil edir?» - www.525ci.com
46. DAK və diaspora - www.diaspora-az.com
47. "Yeni Azərbaycan" qəzeti, 6 mart 2003.
48. Международный журнал "Мир Азербайджана", октябр, 2002.
49. Dünya Azərbaycanlıları I Qurultayının mətbuat mərkəzinin məlumatı, Bakı, 2001.
50. Dünya Azərbaycanlılarının I Qurultayı işə başladı. Press-reliz, Bakı, 2001.
51. "Dirçəliş XXI əsr" jurnalı, Bakı, 2001.
52. "Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin Əsasnaməsi - www.diaspora-gov.az
53. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 100 5192/4-9, 31/10 - 2001-ci il tarixli məlumatı.
54. "525-ci qəzet", 18 oktyabr, 2002.
55. "Yeni Azərbaycan" qəzeti, 4 aprel, 2003.
56. "Dirçəliş XIX əsr" jurnalılı, N 8-9, 1998.
57. "Dirçəliş XX əsr" jurnalı N 45, 2001.
58. "Ekspress" qəzeti, 26 yanvar, 1999.
59. Zaur Əliyev. "Beynəlxalq münasibətlərdə diasporların rolu", Bakı, 2001.
60. "Xalq" qəzeti, 26 dekabr 1987 - 1 yanvar, 1998.
61. "Azərbaycan" qəzeti. 20 sentyabr, 2000.
62. "Azərbaycan" qəzeti . 17 mart, 2003.
63. Kərimov S. Q. Həbibullayev, S. V. İbrahimzadə, Q. İ. "İnformatika" dərs vəsaiti, Bakı, 2002.

64. "İnformatika" üzrə tədris kursunun proqramı. AMEA (T), Bakı, 2003.
65. "Автоматизированные информации в экономике". Москва, 2001.
66. "525-ci qəzet". 5 iyul, 2003.
67. İlqar Məmmədov «Avstriyanın qısa tarixi və Avstriya-Azərbaycan münasibətləri» Bakı, 2000.
68. Turan Axundova. «Nemüi - Kolonistı Azerbaydjana XIX - naçala XX v» Bakı, 1999.
69. Çingiz Abdullayev. "Almaniya-Azərbaycan əlaqələri". Bakı. 2000.
70. "Azadlıq" qəzeti. 12 iyun, 1992.
71. Manaf Süleymanov. "Eşitdiklərim, oxuduqlarım, gördüklərim", Bakı, 1990.
72. "Yeni Azərbaycan" qəzeti, 4 aprel, 2003
73. "Səhər" qəzeti, 9 aprel, 1994.
74. "Rezonans" qəzeti, 28-31 mart, 1996.
75. Journal "Azerbaijan in the International multilateral intercommunication" 22-23 november. Baku, 1995.
76. Əli Həsənov. Azərbaycan - ABŞ: anlaşmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru, (oktyabr 1991, avqust 1997), Bakı, 1992.
77. Vəli Həbiboğlu. "Heydər Əliyev və Azərbaycan diasporu", Bakı 1999.
78. Azerbaijyan Society of Amerika - www.usa.azeris.org
79. "Yeni Azərbaycan" qəzeti, 29 dekabr, 2002.
80. Etibar Kərimli "Moskvada Azərbaycan diasporu - nəzəriyyə və praktika". Bakı, 2001.
81. Газета " КонгрессАзербайджанцев " N 1, июля, 2002.
82. "Üç nöqtə" qəzeti, 30 iyul, 2002.
83. Газета "Голос Азербайджана", N 1, ноябрь, 2001.
84. Vaqif Arzumanlı, Adil Hüseynov. "Azərbaycan ünvanlı", Bakı, 1994.
85. Газета "АЗЕРРОС" - Азербайджанцы в Росси. N 8(24).
86. Устав Всеросийского Азербайджанского Конгресса.
87. XÖYAİÜDK-nin məlumaitı. - www.diaspora.az
88. Xaricdə yaşayan azərbaycanlılarfın milli-mədəni təşkilatları (sorğu kitabçası), Bakı, 2001.
89. "Azərbaycan qəzeti", 4 aprel, 2002.
90. «Азербайджанцы» (крупный этнокультурный очерки.) www.assambela.kg
91. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir", Bakı 2002. (may 1997 iyun 1997).
92. «Эстонии: Азербайджанская община» - www.azeri.ee
93. Azərbaycan evi - www.diasrpora-az.com





94. Gürcüstanda yaşayan azərbaycanlılar barədə məlumat - www.diaspora.az(22.05.2002).
95. Gürcüstan azərbaycanlılarının milli assambleyasının mətbuat xidmətinin məlumatı N 2003//12.03.
96. İraq Türkmənləri - www.2Egent.gov.tr
97. Türkmənlər - www.kerkuk.com
98. "525-ci qəzet", 16 iyun, 2002.
99. "Ayna qəzeti", 4 oktyabr, 2002.
100. "Şərq" qəzeti 6 avqust, 2002.
101. "Azərbaycan" qəzeti, 22 mart, 2003.
102. The Vatan Society - www.vatan.org
103. "Azərbaycan diasporu" jurnalı, 2002-2003. Bakı, 2003.
104. Türkiyə-Azərbaycan diasporu və istifadə olunan lobbi metodları.www.azerivoice.org
105. Sebahatdin Simsir «Azərbaycanlıların Türkiyədə Siyasi və Kültür Fəaliyyətləri (1920-1991)» Ankara, 2001.
106. "Azərbaycan diasporu" jurnalı. 1dekabr, 2002.
107. Газета "Эхо", 5 февраля, 2002.
108. «Ustav Konqressa Azərbaydjanüev Ukrainı»

## YƏHUDİ DİASPORU

Yəhudilik bir dünya sirri olaraq qalmaqdadır. Tarix boyu dünyanın iqtisadi, siyasi və sosial həyatında lider mövqeyində olan yəhudilik daima tədqiqatçılar tərəfindən öyrənilən prioritet mövzudur. Yer kürəsinin bütün regionlarına səpələnmiş yəhudilər onlara qarşı olan təyziqlərə və sıxışdırmalara baxmayaraq öz milli kimliklərini qoruyub saxlamaqdadırlar. İngiltərədə bu gün də bir fikir mövcuddur. "Yəhudilər dünyanın əsl hakimləridir. Yəhudilər yüksək millət olmaqla, başqa xalqlar üzərində mütləq hakimdir. Qızılın gücü ilə hökmranlıq edən yəhudilər daima kölgədə qalaraq başqa xalqları idarə edirlər".

Qədim bir peyğəmbərlik var;«öz doğma torpaqlarına geri qayıdan yəhudilər başqa xalqlar tərəfindən təzyiqlərdən yaxa qurtarmaqla buradan dünyanı idarə edəcəklər».

Yəhudilərin diaspor formalaşdırma tarixi də qədim dövrlərə təsadüf edir. Dünyanın hər tərəfinə səpələnən yəhudilər qısa zamanda icmalarını quraraq diaspor formalaşdırmış, təşkilatı strukturlarını yaratmışlar. Diaspor – qədim ibranidilində Qalut - sürgün deməkdir.

Bu termin bütün dünya yəhudiləri arasında müxtəlif dillərdə danışmalarına baxmayaraq, eyni mənada işlədilir. Yəhudilər Qalutda-diasporda yaşamağı "ağır, əzabverici həyat və qul vəziyyəti" kimi qəbul edirlər. Bu termin Bibliyanın yəhudilik hissəsində 15 dəfə, aramey hissəsində 4 dəfə və kumran mətnlərində 1 dəfə işlədilir.

Qalut-diaspor halında yaşamaqla yəhudi milli kimliyini, doğma torpağa Eres-İsrailə - (İsrail torpağına) qayıdaraq qədim İsrail dövlətinin yenidən bərpa edilməsi ötən əsrin 50-ci illərinə qədər yəhudilər arasında böyük planqəbul olunmuşdur. Qalut-diasporda yaşayan yəhudilər İsrail dövləti qurmağa qədər bir mifik anlayışa öz aralarında əməl edirdilər.

**Yəhudiləri Allah qarğayıb;**

**Qarğışdan qurtarmaq üçün yəhudilər Allahın qoyduğu qaydalara riayət etməlidirlər;**

**Mükafat əvəzi olaraq Allah onları sonda vətənlərinə geri dönmələrinə şərait yaradacaq.**

Bu anlayışın müəllifi olan Yeremiya peyğəmbərin sözləri diasporda yaşayan yəhudilər üçün müvəqqəti yaşam tərzinin qanunu olmuşdur. Bu gün üçün də yəhudi diasporunda qədim dövrlərdən qoyulmuş "böyük plan-yaşam" qanunları zamanla müəyyən dəyişikliyə uğrasa da hələ də aşağıdakı formada qalmaqdadır.

- Yəhudi ibadət zamanı üzünü Yerusəlimə - Qüdsə tərəf tutmalıdır.
- İbadət anında yəhudilər daim Qalut halında yaşamalarını özlərinə xatırlatmalı və bu səbəbdən də Allaha yalvararaq, sürgünə son verilməsini və sürgün olunanları vətənə geri qaytarmalarını Allahdan xahiş etməlidir.
- Yəhudilər onların qeyri-düzgün yaşam tərzlərini daim onlara xatırladan ailə və icma ənənələri işləyib hazırlamalıdırlar. Toyda mütləq qədəh qırılmalıdır ki, bu onlara Məbədi xatırlatsın, ev tikən zaman divarın bir hissəsini təmir etməməlidirlər. Yəhudi xalq mahnıları kimi bu ənənələr nəsildən-nəsilə keçərək yəhudilərə tərk edilən vətənlərini xatırladacaq.
- Hər bayramı keçirən zaman yəhudilər İsrail torpağı və Məbədi (hansı ki, onlar tərəfindən itirilib və gələcəkdə onlar tərəfindən geri qaytarılacaq) xatırladacaq xüsusi ritual elementləri daxil etməlidirlər. Əvvəllər Məbəddə keçirilən aşağıdakı ənənələr daha sonradan ailə və icma həyatına daxil olub:
-

**1. "Arba minim" - Sykkot bayramında Eres-İsraildə bitən 4 bitki növünü silkələmə ritualı;**

**2. Pesax bayramına qədər qış aylarında yığım üçün oxunan dua;**

**3. Tu bi - ievat: ağaclarının xatırlanması;**

**4. Pesax və Şavuot bayramları arası yeddi həftənin keçirilməsi.**

-

Bu qoyulmuş qanunlar diasporda - Qalutda yaşayan hər bir yəhudi üçün məcburi xarakter daşıyır. Yəhudi əgər öz milli kimliyini və özünün böyük xalqın təmsilçisi hesab edirsə, mütləq bu qanunlara riayət etməlidir. Qoyulan qanunlarla paralel olaraq yəhudilərin vətənlə əlaqələrinin qurulması üçün aşağıdakı işlər də görülür:

* Eres-İsrail torpaqlarını görmək üçün bir çox yəhudi bura ziyarətə gəlməlidir.

* Vətəndə yaşamaq üçün bura gələn yəhudilər - aliyanı bitirir.

* Eres-İsraildəki icmalara yardım və köçmək üçün Qalut yəhudilərə daim pul köməkliyi edir.

Göründüyü kimi, yəhudi xalqının və diasporunun tarixən və bu gün də öz qüvvəsini, həmrəyliyinin, birliyinin qorunması üçün ideoloji iş yüksək səviyyədə aparılıb və aparılmaqdadır. Çox güclü iqtisadi və siyasi qüvvəyə malik olan Yəhudi diasporunun formalaşma tarixi qədim dövrlərə təsadüf edir.

Bir çox səbəblər yəhudi xalqının diasporda yaşamasına səbəb olub və bütün bunlara baxmayaraq, öz qüvvəsini itirməyəcək tarixi ərazilər hesab etdikləri torpaqlarda İsrail dövlətini qurmalarını Yəhudilərin böyük qələbəsi hesab etmək olar. Lakin hələ açıqlanmayası bir çox işlər var ki, yəhudilər onların həyata keçirilməsi istiqamətində fəaliyyətlərini davam etdirirlər. İndi isə Yəhudi diasporunun formalaşması tarixini, səpələnmə coğrafiyasını, iqtisadi və siyasi fəaliyyətini və digər məsələləri geniş surətdə araşdıraq:

Yəhudilər öz tarixlərinin 4000 il bundan əvvəl başladıqlarını qeyd edirlər. Bu tarixin İbrahim peyğəmbər, onun oğlu İshaq və nəvəsi Yəqubla bağlayan yəhudilər qədim sivilizasiyanın nümayəndələri kimi qəbul olunur.

İbrahim "küllü miqdarda xalqlar atası" - mənasını verir. Dinə görə Allah İbrahim peyğəmbərə deyir; «Sənə göstərəcəyim ölkəyə get. Mən səndən böyük xalq yaradıb, səni mübarək qılacam, adını yüksəldəcəm»

Kənan deyilən torpağa gələn İbrahim peyğəmbər "Mamre Palıdı" - adlanan yerdə məskən saldı İbrahim peyğəmbərin nəvəsi Yəqub peyğəmbər ailəsindən uzaq düşüb, daha sonra evinəqayıdan zaman yolda başına gələn bir hadisədən sonra Allah ona "İsrail - Allah və insanlarla döyüşüb qalib gələn"- adını verməsindən sonra yəhudilər bu cür adlanmağa başladı.

Yəhudilərin məskunlaşdıqları ərazilərindən zorla köçürülən digər ərazilərə səpələnməsi barədə iki versiya var. Birinci versiyaya görə Assuriya çarı II Sorqon tərəfindən eramızdan əvvəl 732-ci ildə yəhudilərin zorla Şimali Suriya və Midiya ərazilərinə köçürülməsi qeyd olunur. İkinci versiyaya da Babilistan çarı II Novudhonosar İudeya Çarlığını işğal etdikdən sonra 10 mindən çox yüksək və orta sinfin nümayəndələrin özü ilə Babilistana apararaq, qalanların digər bölgələrə və az qismin öz torpaqlarında qalmasına razlıq verməsi qeyd olunur.

Bu iki versiyanı da tarixi ardıcıllıq üzrə yəhudi diaspor tarixinin başlanğıcı hesab etmək olar. Bu tarixə qədər də yəhudilərin səpələnməsi və qalutda yaşamaları faktları da olub. Ancaq bu barədə hələlik tarixi faktlar azlıq təşkil edir. Bu səbəbdən də, tədqiqatçılar adları çəkilən iki versiyalı diaspor tarixinin başlanğıcı kimi götürürlər.

İslam dini yaranan zamana qədər yəhudi diasporunun yayılma coğrafiyası və tarixi inkişaf dövrü bir çox mərhələlərdən keçib.

* Misir - Bu əraziyə yəhudilərin məskunlaşması və diaspor formalaşdırması bəzi mənbələrdə Babilistan əsirliyindən öncəli dövrə təsadüf edir. Elnfantaniadlanan ərazinin yaxınlığında yəhudilərin Allah evi - fəaliyyət göstərirdi. Yəhudilər Misirin bütün ərazilərində yaşayırdılar. Filosof Filonun "İudey tarixi" kitabına inansaq, qədim Misirdə yəhudilərin sayı 1 milyona çatmış idi.





* Ellin dünyası - Bu ərazilərdə yəhudilərin diaspor formalaşdırması onların yaşam tərzinin ayrılmaz tərkib hissəsi idi. Elminlərə məxsus bütün şəhər və bölgələrdəki yəhudi diasporu idi. Sinaqoqları, qəbiristanlıqları, Cəmiyyətləri var idi. Ticari işlərlə məşğul olan yəhudilər Ellin dünyasının inkişafında mühüm rol oynamışlar.

* Roma imperiyası dövründə - (e.ə. 63 - bizim eranın 313). Bu tarixdə yəhudi diasporuna qarşı xüsusi rəğbət bəsləyən Yuli Sezar və Oktavian Avqust onlara geniş səlahiyyətlər vermişlər. Yəhudilər imperiya ərazilərində şəxsi iş qurmaq, ticari əlaqələr qurmaq, torpaq əldə etmək və digər sahələrdə muxtariyyətə malik idilər. Dini etiqad məsələsində yəhudi diasporu azad idi. Yalnız Kaliqula (e.ə. 37-41) yəhudilərin bir Allah kimi ona sitayiş etmələrini tələb etməsi səbəbilə yəhudilərin Roma tarixində ilk dəfə olaraq kütləvi dağıntılar törətməyə başlamasına digər ərazilərdəki yəhudilər də qoşuldu. İmperator elan edilən Klavdi bu səbəbdən onların hüquqlarını yenidən bərpa etməklə əlavə güzəştlər verdi.

Coğrafiyaşünas-alim, yunan Strabonun e.ə. I əsrdə «yəhudi olmayan elə bir ölkə tapmaq olmaz» fikrinə əsaslanaraq, yəhudilərin yayılma ərazisinin geniş olduğuna əmin olmaq olar. Tarixçi Yosif Flaviy də Antixon, Dəməşq, Amatc və Kiçik Asiyada e.ə. I əsrdə yəhudi diasporunun olması faktını təsdiqləyib.

* Bizans imperiyası dövründə (313-636) - IV əsrin sonuna yaxın xristianlıq dininin qəbul edilməsindən sonra yəhudilərin əraziləri hesab olunan yerlərdə, Viflemey, Yerusəlim, Qalisdə kilsələr tikildi. Yəhudiləri muxtariyyət hüququndan məhrum elədilər. Yəhudilər yalnız ildə bir gün Yerusəlimi ziyarət edə bilərdilər. İctimai vəzifə daşımaq onlara qadağan edildi. Bu səbəbdən də yəhudi diasporu Bizans imperiyası dövrünü ağır işlər hesab edirlər.

* İslam hakimiyyəti dövründə - (622-99) - Bu illərdə yəhudi diasporunun mövqeyi və durumu yaxşı idi. Yerusəlimə köçmək onlara icazə verildi. Qeyri-müsəlman statusu altında yəhudilər əmlakları toxunulmaz və dini azadlıq hüququ var idi. İqtisadi və ticari işlərdə yəhudilər ərəb xilafətində yüksək mövqe tuturdular. Hasday ibn Şaqrul yəhudi diasporunun xilafətində tanınan nümayəndəsi idi. Talmud xilafət işlərində yəhudilərin həyatının istiqamətləndirdi.

XI - əsrdən etibarən dini müharibələr, səlib yürüşləri, nəticəsində Qərbi Avropa Dövlətlərinin siyasi, hərbi və iqtisadi yüksəlişi başlandı. Xristianlar yəhudiləri bir seçilmiş xalq olduğunu İsa peyğəmbər gələnə qədər olduğuna inanırdılar. Onların təsəvvüründə yəhudilər İsanı qəbul etməyib, onu öldürdükdən sonra seçilmiş din xristian dini olubdur.

Zamanla xristian ideoloqlar yəhudilərə nifrət toxumu səpməyə başladılar. Onlar yəhudilərdən İsa peyğəmbərə verdikləri "əzab-əziyyətə" görə intiqam almağa başladılar.

Onlara qarşı təzyiq və nifrət yüksək dərəcəyə çatdı. Yəhudi diasporu məcburən xristianlıqla qəbul etdirilməyə başlandı. Papa İnnokentinin dövründə yəhudi diasporu ən aşağı mövqedə tutulurdular. Yəhudiləri "Bizim tacın qulları" (Kamerknext) adlandıran alman imperatoru II Fridrix onları maddi və mənəvi cəhətdən sıxışdırırdı.

Avropa dövlətlərində yəhudilərə qarşı edilən təzyiqlər diasporun zəifləməsinə səbəb oldu. Burada baş verən bəd hadisələrin günahkarları yəhudilər hesab olunurdu. Avropada çox insanın ölümünə səbəb olan taun xəstəliyinin yaranması səbəbini yəhudilərdə görən xristianlar onları su quyularını zəhərləməkdə ittiham edib, kütləvi qırğınlar törətdilər.

1881-ci ildən başlayaraq yəhudi diasporunda demoqrafiyanın sürətlə inkişaf etməsi kütləvi mühacirət prosesinin başlanmasına təkan verdi. Dünya üzrə sayı 2,5 milyona yaxın olan yəhudilərin siyasi, iqtisadi və sosial durumu qüvvətləndi. Fond birjası, İngiltərə Bankı, Avropa və Amerikada maliyyə qruplarını, veksel və s. ixtira sahibləri olan yəhudi diasporu artıq öz məqsədləri olan Eres-İsrail dövlətinin yaradılmasına başladılar. Beləliklə, yəhudi diasporunda siyasi cərəyan - Sionizm yarandı.

***Sionizm*** - Sion sözündən alınmışdır. Yerusəlim və İsrail torpağının sinonimidir. Bu cərəyanın yaranmasına əsas səbəb Talmudda qeyd olunan hələ iki min il əvvəl vətənə dönmək arzularının reallığa çevrilməsidir. Əslində termin yaranana qədər Eres-İsrailə qayıtmaq hərəkatı 1800-cü ildən güclənməyə başlamışdı. 1810-cu ildə Amerika jurnalisti M. Noax dünya yəhudilərinin müstəqil dövlətlərinin tarixi vətənlərində yaradılması barədə ideya irəli sürdü. ABŞ-da Ararat adlı kaloniya quran Noaxın ilk cəhdi uğursuz alındı. Bundan təəssüflənməyən Noax kitab və məqalələr dərc edərək ideyanı təbliğ eləməyə başladı. 1830-cu ildən isə yəhudi diasporu içərisində onu dəstəkləyən qüvvələr meydana çıxdı. Ortodoksial və islahatçı qanadlar bu ideyanı absurd hesab edirdilər. Lakin buna baxmayaraq, 1881-82-ci illərdə ABŞ, Rusiya, Rumınya və Avropanın digər dövlətlərində dərnəklər, birliklər təsis olunaraq Eres-İsrailə dönmək işi siyasi xarakter aldı.

Xavavey Sion - adlanan hərəkatla paralel olaraq yəhudi diplomatik dünyası, yəhudi maliyyə dünyası və s. terminlər meydana çıxdı. Bu "dünyalar" - içərisində ardıcıl olaraq 3 cərəyan - filantrop, kosmopolit və milli-dini hərəkatın güclənməsini labüd etdi:

Filantroplar - maliyyə dünyasına arxalanaraq yəhudi indivudiallığının və milli hisslərin mədənləşməsinə çalışır və assimlasiya olunmanın qarşısını almağa çalışırdılar.

Kosmopolitlər - diasporda yaşamağın tərəfdarı olmaqla, mühacirət prosesini dəstəkləyir və yəhudilərin başqa xalqlara qaynayıb-qarışmasının tərəfini saxlayırdılar.





Milli-dini hərəkat - Bibliyanın geniş təblig olunmasının zəruriliyini iddia edir və bunun sayəsində dünya xalqlarının yəhudi millətinə müsbət münasibət bəsləmələrinə nail olmağa çalışırdılar.

Sionizmin terminini ilk dəfə 1892-ci ilin 23 yanvarında Vyana müşavirə salonunda Natan Biribaum tərəfindən işlədilib. Siyasi sionizmin tarixi Perselin "Yudenstaat" (Yəhudi dövləti) kitabından başlanır.

Yəhudi milli hərəkatının tarixində yeni mərhələnin başlanğıcının avstriyalı jurnalist Teodor Hertsl ilə bağlıdır ki, bu şəxsiyyət "yəhudi məsələsi" - ideyasının formalaşması və milli məsələ səviyyəsinə gətirməklə tarixdə izin qoymuşdur.

1897-ci ildə Hertsl Bazeldə birinci Sionist konqresinin çağırılmaqla bütün dünyaya sinonizmi nədir və o nəyə doğru səy göstərdi. Konqresdə sionizmin əsas vəzifəsi kimi "Fələstində yəhudi xalqı üçün ictimai hüquqla təmin olunan sığınacaq yaradılmasını müəyyən etdi. Hertsil konqresdə bildirdi; bütün dövlətlərdə diasporun fəaliyyətini gücləndirmək, yəhudi milləti arasında təşkilatlandırılma işi aparmaq, həmin ölkələrdə yəhudi lobbisinin sosial-siyasi, iqtisadi mühitinə təsirini gücləndirmək, hakimiyyət strukturlarına müəyyən təzyiq göstərmək, milli şüurun yüksəldilməsinə və İsrail dövlətinin qurulması mübarizəmizin əsas şərtlərindəndir.

Bazel konqresindən sonra Hertsl elan etdi: "Mən Yəhudi dövlətinin əsasını qoydum".

Yəhudi Milli Fondu (Keren Xa Kayemet - 1901-ci ildə Fələstin torpaqlarının alınması üçün yaradıldı) Yəhudi dövlətinin əsası qoyulduğu zaman Fond tərəfindən alınmış torpaqların ümumi sahəsi 24000 km olur (96000 ha) təşkil edirdi.

I və II Dünya müharibələri arası Avropa və Amerikada yəhudi diasporu demoqrafik inkişaf səviyyəsinə və siyasi-iqtisadi mövqeyinə görə digər xalqlardan seçilirdi. Balfur deklarasiyası 1922, "Ağ kitab" - 1933 və Pittisburq platforması 1937 bu illər arası Yəhudi diasporunun həm qələbəsi həm də məğlubiyyətinin nəticəsi idi.

1938-ci il 9-10 dekabrda Almaniyada Adolf Hitlerinəmri ilə yəhudilərə qarşı törədilən "Büllur gecə" Avropada yəhudi qəzasının başlanğıcı idi. II Dünya müharibəsi zamanı yəhudi millətinə qarşı törədilmiş soyqrım, Holokost (qəza) - kimi beynəlxalq ictimaiyyətdə hüquqi status aldı.

Yəhudi diasporunu dəstəkləyən Amerikada 1941-ci ildə "Baltimor proqramı" qəbul olundu. Proqram yəhudi diasporunun İsrail dövləti yaradılması yolunda apardığı siyasi kurs idi.

1947-ci ilin 29 noyabr yəhudi diasporunun idi və yəhudi xalqının həyatında dönüş yaratdı. BMT-nin 56 üzv dövlətinin iştirakı ilə çağrılan Baş Assambleyanın iclasında 33 səsə qarşı, 13 əleyhinə və 10 bitərəf səs çoxluğu ilə

Fələstin ərazisində yəhudilərə dövlət qurulması üçün 5500 kvadrat kilometr, ərəblərə isə 4500 kv. km ərazi ayrılması üçün qətnamə qəbul edildi.

1948-ci il 15 mayda İsrail medinştinin (dövləti) yaradıldığın ölkənin ilk prezidenti Ben-Qurion tərəfindən beynəlxalq aləmə elan edildi. Dövlətin İsrail və ya İudeya adlandırılması uzun sürən mübahisələrdən sonra birincisini qələbəsilə adlanmağa başlandı. İsrail dövləti elan edildikdən 11 dəqiqə sonra ABŞ prezidenti Harri Trumen bu dövlətin müstəqilliyini tanıyan bəyanat verdi.

Baxmayaraq ki, İsrail dövləti elan edildikdən sonra ərəb dövlətlərilə müharibə döyüş meydanları ilə paralel olaraq iri dövlətlərin qanunverici orqanlarında və beynəlxalq təşkilatlarda aparılırdı, bu hadisə yəhudi diasporunun həyatında dönüş yaratdı.

İsrail dövləti qurulduqdan sonra milli özünü dərk etmə xarakteri də tamamilə dəyişdi. Özlərinin "seçilmiş xalq" olduqlarını bütün xalqlar tərəfindən qəbul olunması üçün fəaliyyət başlandı. Bütün dövlətlərdə yəhudi diasporu sosial və siyasi mövqeləri nəzarətə almağa çalışırdılar. Yəhudilərin yayılma coğrafiyası genişləndi. Yəhudi diasporu XIX əsrdən başlanan yeni mühacirət dalğaları ilə yanaşı qədimdən onların məskunlaşdığı dövlətlərdə fəaliyyətini genişləndirdi. 90-cı illərin əvvəllərindən başlayaraq yəhudi diasporu qüvvətli mövqeyini bərkitdi. Ancaq diasporda müxtəlif fikir ayrılıqları yarandı. Diasporda sionizm tərəfdarı olan qüvvələr diaspor və muxtariyyət tərəfdarı olanlardan yaxa qurtarmağı tələb edirlər. Onlar iddia edirlər ki, yəhudi xalqı səpələnmiş halda bir xalq kimi inkişaf edə bilməz. Əgər yəhudilər qeyrətli dövlət qurmaq və mədəniyyətlərini yüksək mövqedə qalmasını istəyirlərsə, diasporda yaşamaqdan əl çəkib assimilyasiya olunmasınlar. Bir qrup isə diasporda yaşamağı üstün tutaraq, məskunlaşdıqları dövlətlərin İsrail ilə əlaqələrinin güclü qalması üçün diasporun əhəmiyyətli olduqlarını bildirirlər.

Hal-hazırda yəhudi diasporunda dini qaydalar, diasporda yaşamaq konsepsiyası ilə yanaşı 12 müdrik Sion alimlərinin protokolları və Sionizmin 13 tezisinə əməl olunur. Yəhudi diasporu ən güclü lobbi strukturuna malikdir. İstənilən dövlətin xarici və daxili siyasətinə təsir göstərmək iqtidarındadırlar. Ən güclü transmilli şirkətlər KİV orqanları, partiya və ictimai birliklərə sahib olan yəhudi diasporunun yayılma coğrafiyası geniş masştablıdır. Hal-hazırda yəhudilərin sayı 17 milyona yaxındır. Bunların 40% - Şimal və Cənubi Amerikada 30% İsrailə, 35% Avropaya, qalanları isə digər dövlətlərin payına düşür. Bu dövlətlərdə yəhudi diasporunun formalaşma tarixi, yaşam durumu və digər fəaliyyəti diqqət mərkəzindədir. İndi isə əsas yəhudi diasporunun güclü olduqları dövlətləri araşdıraq.

***Almaniya*** - Yəhudilər bura Roma legionerlərilə birgə gəlmişlər. Əsasən legionerlərdən ibarət olan yəhudilər barədə ilk məlumata e.ə. 331-ci ildə imperator Konstantinin qərarında rast gəlinir. İmperatorun razılığı əsasında Köln





şəhərində yəhudilər ticarətlə məşğul idilər. Alman şəhərləri və dövlətlərinin iqtisadi yüksəlişində mühüm rol oynayan yəhudi diasporu geniş güzəştlərə malik idi.

Lakin zamanla yəhudilərəmünasibət dəyişdi. Yəhudilər təzyiqlərə məruz qalmaqla, vergilər ödəməklə tutduqları mövqeni itirməyə başladılar. XIV əsrin 30-cu illərində arşalederlər - adlanan qrup özlərini "yudenşlegerlər" (yəhudilərin qatilləri) kimi qələmə verərək yəhudilərə qarşı təzyiqləri gücləndirdilər. 1348-ci ildə "qara ölüm" adlanan gündə Almaniyada çoxsaylı yəhudi qətlə yetirildi. Absolyutizm dövründə yəhudi diasporunun mövqeyi gücləndi. Bu dövrdə Roma hakimləri yəhudi diasporundan daxili və xarici ticarətin inkişafı üçün kömək istədilər. Yəhudi diasporunda ormodansal, reformist və mumi icmalar yarandı XIX əsrin ortalarından sosial-siyasi durumu güclənən yəhudi diasporuna münasibət XX əsrin ortalarına qədər dəyişilməz qaldı. II Dünya müharibəsi isə tamamilə Almaniyadakı yəhudi diasporunun soyqırıma məruz qalması kimi "Yəhudi qəzası" - Almaniyanın müharibə illərində yəhudi diasporuna qarşı yeritdiyi siyasət idi. Adolf Hitler yəhudi diasporunun əlin də maliyyə mənbəyinin toplanmasını Almaniya və alman xalqı üçün əsas təhlükə hesab edirdi.

II Dünya müharibəsindən sonra Almaniyada yəhudilərin sayı olduqca azaldı. Kütləvi şəkildə Qərbə doğru mühacirət edən yəhudilərin bir qismi Almaniyada qaldı. "Dağılmış körpülər" bərpa illərində yəhudilərin bu ölkədə mövqeyi yenidən gücləndi. Elm, təhsil, siyasət, maliyyə sahəsində yəhudilərin mövqeyi gücləndi. Sinoqoq və yəhudi mərkəzlərinin sayı artdı. Hal-hazırda Almaniyda yəhudçi diasporu hərtərəfli inkişaf mərhələsindədir.

***Rusiya*** - ilk yəhudilərinmüasir Rusiyayanın ərazilərinəköçməsi e.ə. II-I əsrlərə təsadüf edir. Burada Sinoqoq, qəbiristanlıq, cəmiyyət yaradan yəhudilər Şərq-Qərb arasında ticari əlaqələrdə mühüm mövqeyə malik idilər. Rusiya ərazisində X əsrdən etibarən aktivləşən yəhudilər hissə-hissə digər bölgələrə köçürdülər. Ancaq XIV-XV əsrdən başlayaraq yəhudi diasporunun vəziyyəti pisləşdi. İvan Qroznı zamanı yəhudilərə qarşı sərt siyasət aparılırdı.

1797-1801-ci illər I Pavel, 1802-1825-ci illər I Aleksandr və 1855-61-ci illər II Aleksandrın imperatorluqları zamanı yəhudi diasporuna münasibətdə "liberal" siyasət nəzərə alınmasa I Dünya müharibəsi illərinə qədər onların mövqeyi olduqca pis idi. Daim təzyiqlərə məruz qalan yəhudi diasporunun elmi, siyasi sosial sahələrdə inkişafı passiv idi. Yəhudilərin bir yerdən başqa yerə köçməsi qadağan idi.

1915-ci ildən isə Rusiyada yəhudi diasporunun siyasi fəaliyyəti gücləndi. II Dünya müharibəsində yəhudilərin alman faşistləri tərəfindən soyqırıma məruz qaldığı işlərdə Sovetlər birliyində də onların vəziyyəti ürəkaçan deyildi.

1950-ci illərdə isə Rusiyanı tərk edən yəhudilərin sayı 300 min idi. 1991-ci ildən başlayaraq yəhudi diasporu Rusiyanın bütün sahələrində güclü mövqeyi sahib oldular. Diaspor təşkilatları, cəmiyyətlər mətbuat orqanlarının sayı artdı. Hal-hazırda Rusiyada: Yəhudi Elm Mərkəzi, Yəhudi Tarix Cəmiyyəti, Yəhudi məktəbləri, Yəhudi Mədəniyyət Mərkəzləri fəaliyyət göstərir. "Beynəlxalq Yəhudi qəzeti, «İdiş» , «Qas» və s. qəzetləri ibrani və rus dillərində nəşr olunur. Bir çox populyar TV, radio və media orqanlarına nəzarət edən Yəhudi diasporunun Rusiyada mövqeyi olduqca güclüdür.

***Fransa*** - Roma imperiyası dövründən Fransada yaşayan yəhudilər zamanla burada güclənmişlər. Fransa mədəniyyəti və iqtisadi inkişafına böyük kömək olan yəhudi diasporu sinoqoqlara malik idilər. Bordo, Orlean, Lion yəhudiləri çoxluq təşkil etdikləri şəhərlər idi. 1242-ci ildə Parisdə, Talmud üzərində qurulan məhkəmə nəticəsində dini kitabın yandırılması tarixə düşmüşdür. Yəhudilər Fransadan 1254-cü ildə qovulmuşlar. Lakin onların qüvvəsindən istifadə etmək üçün təzədən geri qaytaran Fransa kralı bir müddət sonra çox sayda yəhudini həbs etdi.

Böyük Fransa İnqilabından sonra 1790-cı ildə sefardimlər (İspaniyaya mühacirət edən, yəhudilər) və bundan 6 ay sonra aşkenazlar (idim dilli Qərbi Avropa, Şimali Amerika və Cənubi Fransa yəhudiləri) vətəndaşlıq ala bildilər.

1818-ci ildən isə Mesedən sonra Strasburq, Kalmar və s. şəhərlərdə yəhudi məktəbləri açıldı. Yəhudi diasporu siyasətə qoşuldu. Yəhudilərin ölkədə gün-gündən qüvvətlənməsi antisemit mövqeyinin yayılmasına səbəb oldu. 1894-cü il Dreyfuosun iş, tarixi qalmaqaldan sonra yəhudi diasporunun siyasi fəaliyyəti aktivləşdi. 1891-1914-cü illər arası Fransaya köçən kütləvi yəhudi mühacirləri diasporun daha da qüvvətlənməsinə səbəb oldular.

I və II Dünya müharibələrindən sonra yəhudi diasporu Fransada təbliğat işini gücləndirdilər. 1980-ci ildə isə yəhudi diasporu geniş fəaliyyətlə seçilməyə başladı. Müasir dövrdə Yəhudi diasporunun Fransada 50-yə yaxın KİV orqanı, Cəmiyyətləri və digər birlikləri var. Yəhudilərə məxsus Fransada olan kitabxana Avropada ən böyük kitabxana hesab olunur. Düzdür Fransada ərəbyönlü siyasət çox zaman hiss olunur, buna baxmayaraq Yəhudi diasporu öz güclü mövqeyini qoruyub saxlamaqdadır.

***İngiltərə*** - Yəhudi diasporunun bu ölkədə məskunlaşma tarixi də qədim dövrlərə təsadüf edir. 1967-ci ildə yəhudilər Böyük Britaniya əhalisinin 25%-ni təşkil edirdi. Hal-hazırda London, Mançestr, Lide, Qlazqo, Birminhent, Liverpul və s. şəhərlərdə məskunlaşıblar. Onların mövqeyi və durumu Böyük Britaniyada çox güclüdür. İngiltərə yəhudilər çox sevilir. Onların tarixi bağlılığı qədimdən başlanır. İngiltərə bankını yaradan yəhudilər burada daim hörmət görüblər. Çox sayda yəhudi diaspor KİV-ləri, Cəmiyyətləri və s. mərkəzləri Britaniyada fəaliyyət göstərir.





***Argentina*** - Cənubi Amerikada ən böyük yəhudi diasporu Argentinada yerləşir. 180.000 Buenos-Ayres, 20.000 Rosarno və digər şəhərlərdə yəhudilər məskunlaşıblar. Əsasən aşkenazlar olan Argentina yəhudilərin ən böyük birliyi Argentina Yəhudilər Nümayəndələr Assosiasiyasıdır. Burada yəhudi muzeyi, kitabxanaları, KİV orqanları, 70-ə yaxın cəmiyyət və mərkəzləri fəaliyyət göstərir.

***Avstraliya*** - Burada da yəhudi diasporu ən qüvvətlilərdən biridirlər. Hal-hazırda Avstraliya Yəhudilərinin İcraedici Məclisi ən böyük təşkilatdır. Burada bir neçə KİV orqanı, Fond və digər birliklərə malik olan yəhudilər yaxşı təşkil olunmuş etnik qrup hesab olunur.

***Yaponiya*** - Sirlərlə dolu olan bu ada-dövlətə yəhudi mühacirləri XVIII əsrdən gəliblər. Əsasən Tokioda əmlənən yəhudilər maddi və sosial mövqeyə görə seçilirlər. Burada Sinaqoq, məktəb, KİV orqanları və müxtəlif səpkili birliklərə sahib olan Yəhudi diasporu günü-gündən inkişaf edir. Dini etiqad azadlığına malik olan yəhudi diasporu Yaponiyada milli bayramların təntənə ilə qeyd edirlər.

***Azərbaycan*** - Yəhudilərin ölkəmizə gəlmə tarixi qədim dövrlərə təsadüf edir e.ə. 586-cı ildə Babilistanın işğalı zamanı yəhudilər digər dövlətlərlə yanaşı Azərbaycana köçmüşlər. Əsasən Dərbənd, Şirvan zonasında yerləşən yəhudilərin bir hissəsi cühur adlansa da, yerli xalq onları cühud çağırıblar. Yəhudi tədqiqatçıları Dağ yəhudilərinin birliklərini diasporlarının ən qədim dövrünə aid edirlər.

Uzun illər keçdikcə yəhudilər Azərbaycanın digər ölkələrinə səpələnərək mehriban qonşuluq şəraitində yaşamış, öz dinlərini, mədəniyyətlərini qoruyub saxlamışlar. XVIII əsrdə Quba xanı Hüseynəli xanın qəyyumluğu ilə Quba şəhərinin yaxınlığında Qırmızı qəsəbə adlanan yəhudi qəsəbəsi salındı.

1910-cu ildə Bakıda 1919-cu ildə Şirvanda, Sinaqoq yaradan yəhudi diasporunun intellektual - maddi-sosial mövqeyi güclənməyə başladı. Yəhudi sefard gimnaziyası açıldı. Tora, Talmud və mişnanın öyrənilməsi üçün məktəb də var idi. 1905-1906-cı illərdə Azərbaycandan Poaley Sion - (Sion fəhlələri) adlı partiya fəaliyyət göstərirdi. Azərbaycanın neft sənayesində yəhudilərin rolu da böyük idi. İlk Bakı-Batumi neft kəmərinin sahibi də Rotşild idi. Bolşevik çevrilişindən sonra Bakıda və digər rayonlardakı sinaqoq və məktəblər bağlandı.

Lakin II Dünya müharibəsindən sonra sayca və mövqecə güclənən Yəhudi diasporu Azərbaycanın müstəqillik əldə etdikdən sonra fəaliyyətini gücləndirdi. Yəhudi cəmiyyət və məktəblərinin sayı artdı. Yəhudi diasporu Bakı və Quba şəhərlərində daha aktiv idilər. Bakıda Aşkenaz, gürcü və dağ yəhudilərinin sinaqoqları fəaliyyət göstərir. Yəhudi mədəniyyət də mərkəzləri aktivlik göstərirlər. Azərbaycanda Soxnut, Yəhudi Mədəniyyət Mərkəzi və s. birliklər yəhudi dini, dili mədəniyyətini təbliğ edir. Azərbaycan İsrail Əlaqə-

lərinin inkişaf etməsində Yəhudi diasporu xüsusi rol oynayır. Güclü yəhudi lobbisi ölkəmizi beynəlxalq aləmdə dəstəkləyir. 2000-ci il sentyabrın 8-də Azərbaycan Respublikasınınprezidenti, mərhum Heydər Əliyevlə Amerikanın 6 əsas yəhudi təşkilatının tarixi görüşdə İsraillə olan münasibətlərin tənzimlənməsində mühüm rolu var.

Hal-hazırda yəhudi diasporu Azərbaycanda güclü mövqeyə malik olmaqla yerli əhali arasında sevilən etnik qrupdur. Bakı yəhudiləri Azərbaycan diasporunun mühüm qanadıdır. Və inanıram ki, yəhudilər və azərbaycanlılar arasında dostluq və mehribanlıq daim inkişaf edəcək.

*Amerika Birləşmiş Ştatları* - Yeni Dünya - Amerikanın kəşf edilməsində mühüm rol oynayan yəhudi diasporu hal-hazırda ən qüdrətli və güclü etnik qrup olaraq qalmaqdadır. ABŞ-ın daxili və xarici siyasətinin idarə olunmasında söz sahibi olan yəhudilərin bu dövlətə mühacirəti Xristofor Kolumbla bağlıdır.

İspan sarayında güclü mövqeyə malik olan tacir Luis de Santanel, kral xəzinədarı Qabriel Sainxes və kral kamergeri Xuan Kabrero kraliça İzabellanı Kolumbun səyahətinin əhəmiyyətli olduğuna inandıra bilmişlər. Ekspedisiyanın maliyyəsinin müəyyən hissəsini də üzərlərinə götürmüşlər. Kolumbu səfərdə müşayət edən yəhudilərdən Luis de Tores tərcüməçi, Marko feldşer, Bernol həkim, Allonzo de Kolla və Qabriel Sanxes isə tacir kimi vəzifələrə malik idilər. Amerika qitəsinə ilk ayaq basan yəhudi Luis de Torres, burada anadan olan ilk ağdərili uşaq isə yəhudi İsaaq Minis idi. 1495-ci ildən başlayaraq Yeni Dünyaya köçən yəhudi mühacirlər Yeni Amsterdam ( Nyu-York)da məskunlaşmışlar. Zamanla Amerika qitəsinin bütün dövlətlərinə səpələnən yəhudilər burada diasporları formalaşdıraraq ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayıblar.

Yəhudi diasporunun nüfuzu və mövqeyi XIX əsrin sonlarından etibarən qüvvətlənməyə başladı. Bu tarixdə etnik diasporlara qarşı olan sərt münasibət dövründə yəhudi diasporu diqqətdən kənarda qaldı. Lakin XX əsrin əvvəllərindən sionizmin güclənməsi yəhudilərin sayının Amerikada durmadan artması ölkədə antisemit çıxışların başlanmasına səbəb oldu. Yəhudi diasporunun varlı təbəqəsinin Amerika Maliyyə müəssisələrində nüfuz sahibi olması siyasi dairələr tərəfindən onların dəstəklənməsi müəyyən dairələrdə onlara qarşı münasibətlərin dəyişməsinə səbəb oldu.

XX əsrin əvvəllərindən başlayaraq yəhudi diasporu müxtəlif dini cərəyanlara uyğun olaraq təşkilatlanırdılar. Qatı dini orkodoksal, mühafizəkar və islahatçı (liberal iudaizm) - cərəyanlar diasporun birləşməsi üçün çox işlər görüblər.

Bu istiqamətdə görülən işlər və dünya yəhudilərinin Amerikaya kütləvi axını nəticəsində 1881-1924-cü illər arası ABŞ-da 3 milyon 500 min yəhudi





məskunlaşdı. Ölkə əhalisinin müəyyən hissəsini təşkil edən yəhdilər siyasi, iqtisadi aktivliyinə görə digər diasporlardan xeyli fərqlənir. Burada məskunlaşan yəhudilər öz mədəniyyətlərini, milli ənənələrini sürətlə inkişaf etdirməyə, lobbizmin və iqtisadi yüksəlişin rüşeymlərini gücləndirməyə başladılar.

Amerikanın bütün sahələrində rolu olan yəhudi diasporu Birləşmiş Ştatların hərtərəfli inkişafı üçün çalışırdılar. Say etibarı ilə digər dövlətlərdən fərqli olan Amerikadakı yəhudi diasporu dünya yəhudilərini mərkəzinə çevrildi.

Nyu-York ən böyük yəhudi şəhəri hesab olunur. Bunun isə tarixən onların burada məskən salması və şəhərin quruculuğu işində xüsusi rolu ilə bağlılığı var. Filadelfiya, Çikaqo, Boston, Detroyt və Los-Anjelosda iri yəhudi şəhərləri hesab olunur. Bu şəhərlərdə yəhudi diasporu çox yaxşı təşkilatlanıb. Övladlar, nəvə-nəticələrinin amerikanlaşmasına baxmayaraq, yəhudi dili diasporda əsas aparıcı ünsiyyət vasitəsidir. Yəhudi qaydalarına ciddi riayət edən yəhudilərin formalaşması və assimilyasiya olunması üçün sinaqoqlar çox mühüm işlər görüb.

Ticarət, maliyyə, sənaye sahələrində böyük uğurlar əldə edən yəhudi diasporuna qarşı antisemit çıxışlar I Dünya müharibəsindən sonra daha da qüvvətləndi. Ku-Kluks-klan, "Lobbi azadlığı", "Ağların milli Sosialist Partiyası" və digər irqçi qüvvələrlə birgə tanınmış şəxslər də öz antisemit baxışlarını daim büruzə verirlər. Hələ ötən əsrin əvvəllərində yəhudilərə qarşı fərqli baxışları ilə seçilən avtomobil maqnatı Henri Ford xüsusilə seçilirdi. Ərəb və almanlarla yəhudilərə qarşı iş aparan digər etnik qrupları hamiyə edən Ford antisemit KİV orqanlarının və ədəbiyyatın nəşrlərini maliyyələşdirdi.

Yəhudi dövlətinin qurulmasında Amerikadakı yəhudi diasporunun böyük rolu olmuşdur. Yəhudi diasporunun əldə etdiyi mövqe və nüfuz Amerika siyasətinə təsiretmə qüvvəsinə malikdir. 1941-ci ildə ABŞ-da Amerika-Fələstin Cəmiyyətini quran yəhudi diasporu 6 senator və 143 konqresmenin bura üzv olmasını təmi edə bildi. Elə həmin il qətnamələrinin qəbul olunması yəhudi diasporunun qələbəsi idi. İsrail dövlətinin elan edilməsindən sonra isə Amerika-İsrail münasibətlərinin sürətlə inkişaf etməsinə nail olan yəhudi diasporu İsrailin qüvvətli dövlət olması istiqamətində bütün qüvvəsini səfərbər etdi. İsraili Amerikanın hərbi-siyasi-iqtisadi müttəfiqinə çevrilməsini təmin edən yəhudi diasporu hər il ümumdiaspor fondu və konqresin maliyyə yardımı ilə İsrail dövlətinin iqtisadi-siyasi yüksəlişini dəstəkləyir.

İsrail dövlətinin elan edilməsi isə Yaxın Şərq bölgəsində münaqişə ocağının alovlanması üst-üstə düşür. Güclü, lakin pərakəndə halda müharibəyə qoşulan ərəb dövlətlərinə qarşı işi cəbhədə, həm döyüş meydanında, həm də beynəlxalq aləmdə mübarizə aparan yəhudilər bir çox aspektləri nəzərə almaqla qalib mövqe əldə etmişdir.

Birləşmiş Ştatlarda yəhudi diasporunun mühüm rol oynamasında güclü və yaxşı təşkilatlanmış lobbi mexanizmi əhəmiyyətli iş aparır. Yəhudi lobbisinin üstün cəhətlərindən də biri digər və çox sayda xarici lobbi şirkətlərinin onları dəstəkləməsidir.

Maliyyə gücünə öz lobbilərini hərtərəfli dəstəkləyən yəhudi diasporunun təbliğat kampaniyası da birgə fəaliyyət göstərir. Amerika ictimaiyyətində müsbət imicə sahib olan yəhudi diaspor və lobbisi ərəblərdən üstün durumdadır.

Konqres və Ağ ev üzərində təsir etmə qüvvəsinə sahib olan yəhudi lobbisi bir çox xarici və daxili siyasət məsələlərini öz xeyirlərinə həll edə bilirlər.

Amerikada yəhudi diasporu deyildikdə ictimaiətdə, Birləşmiş Ştatların bütün əyalət və şəhərlərində mükəmməl bir təşkilatları və başda KİV orqanları olmaqla müxtəlif sektorlarda fəaliyyət göstərən şirkətlər, icraedici və qanunverici hakimiyyətin bütün sahələrində çalışan yəhudiləri və bir sözlə Amerikadakı 6 milyondan çox yəhudi birgə düşünürlər.

Yəhudi diaspor və lobbisinin güclü olmasının mühüm səbəblərindən biri də onların II Dünya müharibəsindən sonra mübarizə apardıqları ərəblərin pərakəndəliyi, təşkilatı struktura malik olması ilə yanaşı ictimaiətin onlara qarşı rəğbətinin olmasıdır.

Amerikada yəhudilər bir qurban kimi qəbul edilir, onları dini yaxınlıq birləşdirir və ərəblər terrorçu, ölkə iqtisadiyyatını neft ilə istismar edən qüvvələr kimi qəbul olunur. Ərəblər eyni zamanda etibarsız dostlar imicini qazanıblar.

Yəhudi diasporunun seçkilərdə səsini qazanmaq Amerikada hər siyasi xadimə qismət olmur. Yəhudi diasporu əgər hər hansı bir siyasi xadimin seçki kompaniyasına qoşulursa, həmin şəxs mütləq qalib gəlir. Yəhudi maliyyəsi və yəhudi nüfuzu Amerikada əsas söz sahibi olmaqdadır. İcraedici Qanunverici Məhkəmə sistemində ilk şöbə olaraq yəhudi diasporunun mövqeyi nəzərə alınır. Hətta bəzi ərəb lobbi şirkətləri və diaspor təşkilatları yəhudilərin nəzarəti altındadır. Ərəb dövlətlərinin əksər hissəsində kapital qoyulan müəssisəyə nəzarət etməklə ciddi problemləri anında həll edirlər. Xüsusilə Amerikada iri transmilli şirkətlər vasitəsilə ərəb neftini inhisar edən yəhudi diasporu digər etnik qruplarla sıx əməkdaşlıq edir. Türk, Azərbaycan və digərləri yəhudi diasporu və lobbisinin dəstəyin alır.

Xüsusilə 1968-ci ilin 22 iyunundan XXVII Sionist Konqresində ümumdünya yəhudi diasporunun qəbul etdiyi "Yeni Yerusəlim- proqramın Amerika yəhudi diasporu yerinə yetməsində xüsusi fəallıq göstərir. "Yeni Yerusəlim" proqramı sionizmin və yəhudi diasporunun müasir mərhələdə məsələlərini aşağıdakı kimi formalaşdırır:





1. Dünya yəhudilərinin İsrail dövləti ətrafında birləşməsi
2. Yəhudilərin tarixi vətənlərinə dönməsi
3. İsrail dövlətinin qüvvətlənməsi
4. Özünün müqəddəratını müstəqil təyin etmə hüququna malik olma
5. Yəhudi mədəniyyətinin təbliği

Bu proqramın diaspor tərəfindən xüsusi rəğbətə malik olması, varlı yəhudi kapitalının ümumi dövlət kimi işində bir araya gətirilməsinə səbəb yarandı.

Amerikada yəhudi diasporunun qüvvətli edən iki əsas səbəb: kütləvi informasiya vasitələri üzərində olan nəzarət və nüfuz bir də güclü diaspor və lobbi təşkilatlarıdır. Bu yəhudi diasporu Birləşmiş Ştatlarda formalaşdığı dövrdən bağlayaraq media sahəsində əldə olunan uğur bu gün üçün də öz qüvvəsini saxlamaqdadır. ABŞ-da hal-hazırda populyar KİV orqanlarına sahib olan yəhudi diasporu bu işə küllü miqdarda pul xərcləyir. Birləşmiş Ştatların informasiya işinə nəzarət edən yəhudilər, burada demək olar ki, KİV üzərində hakimdirlər. Tanınan «Bi-Bi-Si», «CNN», «Vaşinqton Times», «Herald Tribun» və başqaları yəhudi diasporunun nəzarəti və müəyyən təsiri altında nəşr olununrlar. Diasporun özünün məxsus olduğu mətbuat isə nəhəng qəzetlərin içərisində nəzərə çarpmaz mövqedə durublar. Bu səbəbdən də adları sadalanan KİV orqanları hazırda yəhudi diasporunun maraqlarının təminatçısı kimi çıxış edir.

ABŞ-da yəhudi diasporunun bu ölkədə və dünya da güclü fəaliyyət göstərən bir neçə iri təşkilatları və cəmiyyətləri də mövcuddur. Bu təşkilat və cəmiyyətlərin vəzifələri dünyada və Amerikada diasporun fəaliyyətini gücləndirmək, yəhudi milləti arasında təşkilatlandırma işi aparmaq, həmin ölkələrdə olan yəhudi icmalarına sionizmin, yəhudi millətçiliyinin əsas məqsəd və məramlarını aşılamaq, müvafiq dövlətin yəhudi diasporunun sosial-siyasi iqtisadi mühitinə təsirini gücləndirmək, həmin dövlətin maliyyə strukturlarından "bərk-bərk yapışmaq", icmalar arasında institutlar təşkil etmək və bu institutlarda milli şüurun yüksəldilməsi, gələcək yəhudi icmaları üçün yeni əsaslar hazırlamaq və bu ideyanı həmin yəhudilər, həm də qeyri-yəhudilər arasında təbliğ etmək və s. bu kimi işlər görmək idi.

Amerikada fəaliyyət göstərən yəhudi diasporunun aşağıdakı təşkilat və cəmiyyətləri qarşılarına qoyduğu məqsəd və vəzifələrin öhdəsindən uğurla gəldilər.

1. **"Birləşmiş Yəhudi Çağrışı" (Yu-Ci-Ey)** 1938-ci ildə

Almaniyada yəhudilərə qarşı tarixdə "Büllur gecə" adı altında qalan törədilən hərəkatdan sonra yaradılmışdır. Bu təşkilatın əsas fəaliyyət istiqaməti İsrailə yardım kompaniyasına rəhbərlik etməkdir. ABŞ-da fəaliyyət göstərən bütün yəhudi diasporu bu təşkilatın kompaniyasında daima iştirak edir və hər il ən azı 700 milyon dollar İsrailə yardım edilir.

2. **"İctimai İşlər Üzrə Amerika-İsrail Komitəsi" (Ey-Ay-Pi-Ey-Si)** - 1940-cı ildə yaradılıb. Bu təşkilatın əsas fəaliyyət istiqamətini İsrail yönlü lobbiçiliklə məşğul olmaqdır. Ağır ev və Konqresdə güclü təsir qüvvəsinə malik olan bu təşkilat İsrailin mənafeyini yetərincə müdafiə edir.

3. **Antidiffamision Liqa" (Ey-Di-Ei)** - Amerika və dünyanın digər ölkələrində antisemit qüvvələrə və birliklərə qarşı mübarizə aparır. Xüsusilə ku-klus-klan və rasist yönümlü qruplara qarşı güclü müdafiə və əks tədbir qüvvəsinə malikdir.

4. **"Bney-Brit (niyyət oğulları)** - 1843-cü ildə yaradılmışdır. Bu cəmiyyətin əsasını Almaniyadan köçmüş yəhudi mühacirləri təşkil edir. Bu cəmiyyətin əsas fəaliyyət istiqaməti yəhudi gəncləri və yəhudi diasporu arasında maarifçilik və elm, mədəni işlərlə məşğul olmaqdır. Eyni zamanda dünyadakı sinaqoq və dini cəmiyyətləri maliyyələşdirməkdir.

5. **"Amerikanın Əsas Yəhudi Təşkilatları Prezidentlərinin Konfederasiyası" (Ci-Pi-Em-Ci-Ou)** - əsas fəaliyyət istiqaməti ümumdünya yəhudi diasporuna rəhbərlik etmək və bu diasporları nəzarətdə saxlamaqdan ibarətdi.

6. **"Şimon Vezental Mərkəzi"** - 1977-ci ildə yaradılıb. Əsas fəaliyyət istiqaməti müsəlman ölkələrində yəhudilərə qarşı antisemit və rasist fikirlərə və hərəkətlərə qarşı mübarizə aparılmaqdır.

Bu təşkilatlardan əlavə "Böhtanlara Qarşı Liqa", "Sovet Yəhudiləri Üzrə Milli Konfrans", "Amerika Yəhudi Konqresi","Yəhudi Milli Araşdırma Mərkəzi və Rəhbərliyi" və s. təşkilat və cəmiyyətlər də fəaliyyət göstərirlər.

Müasir dövrdə ABŞ-da yəhudi diasporu ən seçilən və Qüvvətli diaspordur. Son zamanlar bir çox proseslər səbəbilə bəzi fikir ayrılıqlarının hiss olunmasına baxmayaraq, diasporda bu ciddi narahatçılıq doğurmur. Assimilyasiya olunmalarına baxmayaraq, bir çox yəhudi öz milli kimliklərini unutmurlar. Azad və mübariz İsrail uğrunda diaspor bütün qüvvəsilə fəaliyyət aparır. Amerikada yəhudi görüşən zaman bir-birlərinə "Üzümüzə gələn il Qüdsdə görüşərik" deyirlər. Bu onların vətənlə bağlılığını göstərir. Hər halda Amerikada uzun illər boyu öz gücünü qoruyub saxlamağı bacaran olan yəhudi diasporu öz məqsədlərinə çatacaqlarına əmindirlər.





## ƏDƏBİYYAT


1. Ф.И. Шапиро «Иврит-Русский словарь». М. 1963
2. «Факты об Израиле». Иерусалим. 1995
3. Bibliya: Varlıq-12:1-7 və 32:13-30
4. "International Encylopedia of Communications" New-York.1990
5. «Краткая Еврейская Энциклопедия». Том 3. Иерусалим. 1986
6. «Краткая Еврейская Энциклопедия2. Том 7. Иерусалим. 1982
7. Zaur Əliyev «Beynəlxalq münasibətlərdə diasporların rolu». Bakı. 2001
8. Волтер Лакер «История сионизма». М. 2000
9. Siyonist-Nazi ishbirliginin gizli tarihi-www. Harunyahya.org
10. И.В. Прудин «Сионское лобби в США».Минск. 1994
11. Рабби-Иосиф Телушкин «Еврейский мир». М. 1998
12. Artur Hertzberg "The Zionist idea". Tel-Aviv. 1992
13. «Краткая Еврейская Энциклопедия.» Том 2. Иерусалим. 1982
14. Журнал «ОНС-общественные науки и современности». М.1996
15. The virtual Jewish history -www. Wjc.org.il
16. Jewish Communities in the Great Britain-www.wjc.org
17. « Горские евреи-история, этнография, культура.» М. 1999
18. «Sosial-Siyasi problemlər toplusu». Bakı. 2000
19. Газета «Евразия-новости» №7(12) 16-23 мая.2002
20. Jewish diaspora in the Azerbaijan-www.fjc.ru
21. M. Seltzer "Jewish people, jewish thought" New-York.1980
22. А.А.Баграмов «Иммигранты в США» М. 1956
23. Judaism-www.cdn.freinds.com
24. Teyyar Ari "Amerikanin siyasal yapisi, lobbiler ve dis politika". Istanbul. 1997
25. Allan J. Cigler "Interest group politics". Wasington. 1998
26. «Сионизм-теория и практика». М. 1983
27. Стив Израэль «Концепции: Взаимоотнешения между Израилем и диаспорой». Тел-Авив. 1999
28. Richard L/ Rubenshtein "After auschwits: history theology and comerorary " Baltiomore. 1992

## TÜRK DİASPORU

Türk diasporu dedikdə şərəfli tarixi, dünyanın bütün sahələrində əvəzedilməz izlər qoyançoxşaxəli türk milləti adlanan qocaman ağacın bir qanadı olan Osmanlı türkləri və müasir Türkiyənin əhalisi, vətəndaşları nəzərdə tutulur. Bəşəriyyətin inkişaf tarixində böyük rol oynayan türk milləti barədə növbəti məlumatlar "Türk xalqlarının diasporları" kitabında tədqiq olunacaq. Avstraliya, Amerika, Avropa, Asiya və Afrika qitələrində məskunlaşan, təşkilatlanan və formalaşan türk diasporunun tarixi çox maraqlı və keşməkeşlidir.

| | |
|---|---|
| **ABŞ** | **300.000** |
| **Almaniya** | **2.200.000** |
| **Niderland** | **285.000** |
| **Fransa** | **275.000** |
| **Avstriya** | **150.000** |
| **Belçika** | **85.000** |
| **Danimarka** | **36.000** |
| **Böyük Britaniya** | **80.000** |
| **İsveç** | **36.000** |
| **İsveçrə** | **80.000** |
| **Avstraliya** | **60.000** |
| **Səudiyyə Ərəbistanı** | **130.000** |
| **Liviya** | **6.000** |
| **Küveyt** | **3.500** |
| **Quzey Kıbrıs Türk Cümhuriyyəti** | **6.500** |
| **İsrail** | **20.000** |
| **Cənub-Şərqi Asiya** | **55.000** |
| **Kanada** | **35.000** |
| **İtaliya** | **15.000** |
| **Finlandiya** | **2000** |
| **İspaniya** | **850-1000** |
| **İordaniya** | **1600** |

Türkiyə Xarici İşlər Nazirliyinin 1999-cu ilə aid məlumatına görə, xarici ölkələrdə türklərin sayı 4 milyondan çoxdur. Onlar dünyanın 70-dən çox ölkəsindəməskunlaşıblar Türklərin sayca daha çox olduqları ölkələri bu cədvəldən görmək olur (son zamanların statistikası bu rəqəmlərin bir az da artdığını göstərir)





Türk mühacirətinin tarixi eramızdan əvvəlki dövrlərə təsadüf edir. Bu mühacirət prosesinə baxmayaraq, türk diasporunun formalaşma tarixi başlanğıcını osmanlı imperiyası dövrünə və Türkiyə Respublikasının qurulmasından götürür.

Osmanlı imperiyası o zaman dünyanın ən zəngin dövlətlərindən idi. Bu imperiyanın vətəndaşları, digər dövlətlərdə olduğu kimi səadət ardınca başqa dövlətlərə mühacirət etmirdilər. Avropa, Asiya və Afrika qitələrində böyük ərazilərə malik olan osmanlı imperiyasında türklər nadir halda yaşadıqları əraziləri tərk edirdilər. Başqa dövlətlərdə yaşayan türklər yalnız işlə əlaqəli olaraq buralara gəlmişdilər. Onların çoxu öz səlahiyyət müddəti bitəndən sonra geri köçürdülər. Onların bir qismi isə çalışdıqları dövlətlərdə özlərinə yaxşı şərait yaratdıqlarından buralarda qalmalı oldular. Bu səbəbdən də tədqiqatçıların çoxu türk diasporu tarixini bu dövrdən götürürlər. Zamanla osmanlı imperiyası zəiflədikcə, nəzarət edilən ərazilər əldən çıxmasına baxmayaraq, türklərin bir neçəsi yaşadıqları dövlətləri tərk etməyib öz icmalarını yaradırlar. Bununla da türk diasporunun ilkin təməlini qoydular.

Avropada türk diasporunun formalaşması 1950-ci illərdən başlayır. Bu tarixdən başlayaraq Avropa kütləvi şəkildə türk mühacirlərini qəbul etməyə başlayır. Ailəvi halda ilk mühacirlər məskunlaşdıqları Avropa ailələrində qısa zaman ərazidə özlərinə iş tapdılar. Bu mühacirlər əsasən orta yaş hüdudlarında idilər. Onlar özləri ilə Avropaya türk ənənələrini, mətbəxini, musiqisini gətirmiş, vətənlə sıx əlaqələrinin olmasına baxmayaraq, Avropa mühitinə tez adaptasiya olundular. Bir-birinə əks olan Şərq və Qərb mədəniyyətlərinin ağırlıqlarını çiyinlərində daşıyan türk mühacirləri hər iki tərəfdən təyziqlə üzləşirdilər.

Bir tərəfdən Qərb mədəniyyəti ənənələrinə assimliyasiya olunan türklər digər tərəfdən şərq mədəniyyəti və ənənələrinin Avropada təbliğ edirdi. Bu mühacirlərin əksəriyyəti daim Avropada yaşamaq məqsədi güdmürdü. Onlar çoxumaddi durumlarını yaxşılaşdırdıqdan sonra vətənlərinə geri qayıdırdılar. Lakin onlar vətənə gəldikdə Avropa ənənələrini də özləri ilə gətirdi ki, bu da Türkiyənin Avropaya inteqrasiya olunmasında xüsusi rol oynadı.

1960-cı illərdən sonra başlanan kütləvi türk mühacirəti tərkibinə görə müxtəlif təbəqələri əhatə edirdi. Türkiyənin düşdüyü sosial-iqtisadi durum, işsizlik, inflyasiya, tez-tez hökumət böhranın baş verməsi türklərin bir çox ölkələrə, xüsusən Avropaya mühacirət etməsinə səbəb yaratdı. Kompakt halda bir-birlərinə yaxın ölkələrdə məskunlaşan türklər qısa zamanda öz icmalarını yaratdılar. Avropada türk ənənələrinin təbliğ edilməsi artıq bu ölkələrdə günü-gündən sayı artan restoran, kafe, bərbər, hamam və s. artması ilə görünürdü.

Türklərdə təbii-bioloji yolla artımın güclü olması Avropada demoqrafik durumu dəyişirdi. Türklərin sayının artması diaspor formalaşdırılması proses-

lərini sürətləndirdi. Ucuz işçi qüvvəsi və birgə halda çalışmaları onlara üstünlüklər verirdi. Zavod, fabriklərdə çalışan türklərin çoxu Avropa dillərini öyrənməyə cəhd etmirdi. Türk məhəllələrində yaşayan, həmvətənləri ilə birgə çalışan bu şəxslərin dil öyrənməyə ehtiyacları yox idi.

Avropada müsəlman diasporlar sinfinə aid olunan türklər bir çox cəhətlərinə görə digərlərindən seçilirdilər. Ailə, nikah ənənəsini, milli-ənənələrini qoruyub saxlayan türklər Amerika, Avropa ənənələrinə də riayət edirdilər. Təşkilatlanmanın güclü olduğu türk diasporunda ziyalıların rolu böyükdür.

Avropada əsasən Fransa, Almaniya, Böyük Britaniya, Niderland, Avstriya, Belçika, İsveçrə, İsveç, İtaliya, Norveçdə çoxluq təşkil edən türklərin fəaliyyəti, yaşayış tərzi müxtəliflik təşkil edir. Əsasən aktiv və bacarıqlı işçi kimi tanınan türklər ağır sənaye müəssisələrində tikinti işlərində çalışır, xırda və orta biznеslə məşğul olurlar. Türklərin bu xüsusiyyətləri Avropada müsbət qarşılanır. Onlar çalışqan, namuslu və çılğın olduqlarına görə fabrik, zavod rəhbərləri onları işə götürməyə üstünlük verir.

Avropada türk diasporu türk dilini təbliğ edir, "Türkçülük", Ana Vətən - amillərinə ciddi riayət edirlər. Məişət dili kimi işlənən türk dilini, eyni zamanda Avropanın hər dövlətində, şəhərində eşitmək olar. Türk kafe-çayxanaları, onların toplandıqları, dərdlərinin bölüşdüyü yer kimi bu gün də mövcuddur. Türk mediasının Avropada yayımının güclənməsi onların Türkiyədə gedən prosesləri izləməsinə köməklik edir.

Avropanın sosial-iqtisadi həyatının ayrılmaz tərkib hissəsi olan türk diasporu milli ənənələrə riayət edən etnik diasporlardan hesab olunur. Onların Avropaya daha tez adaptasiya olmaları, işçilərinin çalışqanlığı Avropa dövlətlərini Türkiyə ilə əmək müqavilələrinin imzalanmasına səbəb yaratdı. Bunların imzalanması türk işçilərinin hüquqlarını tənzimləyirdi.

İlk belə müqavilə türklərin üstünlük təşkil etdikləri Almaniya ilə imzalandı. 1961-ci ildə Almaniya, 1964-cü ildə Avstriya, Belçika, Niderland, 1965-ci ildə Fransa ilə imzalanan əmək müqavilələri türklərə dəstək verdi.

Türk diasporunun Avropada ictimai-siyasi fəaliyyəti 1970-ci illərdən başlayır. Almaniyada digərlərindən daha tez başlayan fəaliyyət nəticəsində 1970-80-ci illər arası Avropada türk təşkilatlarının sayı 156-ya çatdı. Bu dövrə qədər yalnız 70 diaspor təşkilatı Avropada fəaliyyət göstərirdi ki, onlar da Almaniyada yaranmışlar.

Bu diaspor təşkilatları mədəni, ədəbi, təbliğatçılıq işləri ilə məşğul olurlar. Günü-gündən sayı artan Avropadakı türk diasporu təşkilatları Kütləvi İnformasiya Vasitələrinin nəşrini və yayımının sayını da çoxaldırdı. 70-ci illərdə Avropada cəmi 34 türk KİV-i fəaliyyət göstərirdi və 1980-ci ilə qədər onların sayı 100-ü keçmiş idi.





Türkiyədə Milliyyətçi Hərəkat Partiyasının yaradılması Avropada türklərin aktivliyini artırdı. Türk KİV-ləri sosial, mədəni, iqtisadi problemlərdə yanaşı siyasi fikirləri də tez-tez dərc etməyə başladı. 1976-cı ildə isə Avropada MHP-nin şöbələrinin 106-ya çatması, türk siyasi fəaliyyətinin Avropada gücləndirməyə başladı. "Boz qurdlar" kimi Avropada tanınan MHP-çilər diasporda xüsusi hörmət sahibləridirlər.

Partiya tərəfdarları Avropada türk kimliyini, türkçülük faktorunu təbliğ etməklə, onların assimilyasiya olunmasının qarşısını almağa çalışır, türklərə qarşı olan bu fikirləri dəyişmək istiqamətində iş aparırlar.

Lakin bu fəaliyyətə baxmayaraq, türk diasporunda icmadaxili çəkişmələr özünü büruzə verir. Diasporda regionçuluq probleminin alman, laz, kürd, çərkəzlərin türk kimi bir sıra anti-türk fəaliyyətini diasporda narazılıqların yaranmasına səbəb olur. Türk diasporunda imkanlı təbəqə ilə kasıb təbəqə arasında gözəgörünməz uçurumlar mövcuddur. Siyasi fəaliyyətdə passiv iştirak türk diasporuna lobbi yaradılmasında çətinliklər yaradır. Türkiyədə partiyalar arasında olan münasibətlər Avropadakı türklər arasında da görünməkdədir. Forum, konfrans və ya digər tədbirlərdə bunlar öz mənfi cəhətlərini göstərməklə, yeni qərarların qəbul edilməsini əngəlləyir.

Müasir dövrdə Avropada türk diasporu müxtəlif sahələrdə çalışırlar. Avropanın sosial-iqtisadi ictimai həyatında xüsusi rol oynayan türk diasporunun maddi durumu orta səviyyəlidir. Türkiyənin inkişaf etməsi, türk idmanının yüksək zirvələrə çatması, Avropada son zamanlar "Ben türküm" - ifadəsi tez-tez səslənir. Avropada ermənilər, kürdlər, yunanların əks təbliğatına baxmayaraq Avropada türklərə sevgi və sayğı ilə yanaşırlar. Türkiyənin Avropaya inteqrasiyası gücləndikcə türk diasporunun fəaliyyəti genişlənir. Türk lobbisi öz gücünü göstərməkdədir.

Türk milli bayramları Avropada xüsusi təntənə ilə qeyd edilir. Türk bayraqlarının bütün Avropada dalğalanması türk diasporunun qüvvəsini artırır. Türk futbolu yüksək zirvəyə qalxdıqca Avropada türklərə olan münasibət dəyişir. 2002-ci ildə Türkiyəni Koreya və Yaponiyada keçirilən Dünya çempionatında 3-cü yerin sahibi olması, dünyanın türklərə olan mövqeyində xeyli dəyişiklik yaratdı. Dünya önündə Türkiyənin güclü mövqe qazanması, türk diasporunun, lobbisinin fəaliyyət sahəsinin genişlənməsinə təkan verir.

Türklərin say etibarı ilə çoxluq təşkil etməsi də Avropanın siyasi partiya və şəxslərinin onlarla əməkdaşlıq etməsinə səbəb yaradır. Avropa türk diasporunun, Türkiyənin böyük qüvvəyə, strateji mövqeyə sahib olmasını anlayır və görür. Bu səbəbdən də Avropa dövlətləri türk-diasporuna geniş şəraitlər yaradırlar.

Türk diasporunun Avropa ölkələri içərisində çoxsaylı olduqları və fəaliyyətlərinə görə güclü olduqları Almaniyanı ayrıca olaraq tədqiqata ehtiyacı

var. Qısa da olsa Almaniyadakı türk diasporunun fəaliyyətini sizlərə təqdim edirik.

Müasir dövrdə Almaniyada 3 milyona yaxın türk yaşayır. Almaniyanın bütün şəhərlərində kompakt halda məskunlaşan türklər ölkənin müxtəlif bölgələrində çalışır, ictimai-siyasi aktivlik göstərirlər. Almaniyadakı türklərin təbəqələri də müxtəlifdir. Adı çəkilən varlı biznesmenə qədər təbəqəyə bölünən türklər Almaniyanın sosial-iqtisadi inkişafında xüsusi rol oynayırlar.

Almaniya ilə Türkiyənin müttəfiq olması ölkədəki türk diasporunun mövqeyinin güclənməsinin əsas səbəbidır. Türkiyə və Almaniya arasında olan müttəfiqlik XVII əsrlərə təsadüf edir. Almanlar isə öz tarixlərini unutmurlar və türklərin tarix boyunca onlara olan münasibətini yüksək qiymətləndirirlər.

## ALMANİYA

İqtisadi potensialına, həm zəngin mədəniyyətinə, həm də yüksək həyat tərzinə görə Avropanın mərkəzi hesab olunan Almaniyada türk diasporunun fəaliyyəti daha diqqətə layiqdir. Avropadakı türk nüfuzunun 70%-nin almaniyada olması türk diasporunun geniş imkanlara malik olmasını göstərir.

Türkiyə və Almaniyanı çox səbəblər bir-birinə bağlayır. Tarixən türklər Almaniya ərazisinə mühacirət ediblər və zahirdə cəmiyyət və keyfiyyət göstəricilərlə seçilən diaspor formalaşdırıblar.

XVI əsrdən etibarən türk mühacirlərinin Almaniyaya köçünün başlanmasına baxmayaraq, burada türk diasporu 1950-ci ildən sonra yaranıb. 1950-ci ildən Almaniyaya köçən türklərə "müvəqqəti qonaq", "əcnəbi işçi gücü", "Almaniyanın müsəlman təəbəsi", "insan haqları uğrunda mübarizə aparan ordu" və digər baxışlar və yanaşmalar mövcud idi. Zamanla türk mühacirlərinin sayının durmadan artması, ölkə ictimai-iqtisadi həyatında rollarının artması ilə onlara münasibət və baxışlarda ciddi dəyişikliklər yarandı.

Almaniyaya ilk köçən mühacirlər burada daimi yaşamaq məqsədi güdmürdülər. Onlar müxtəlif sahələrdə çalışaraq maddi durumlarını yaxşılaşdırdıqdan sonra vətənə geri dönmək barədə fikirləşirdilər. Sonradan çalışdıqları sahədə onlara ehtiyacın artması, bu ölkəyə tamamilə adaptasiya olmaları kimi səbəblərlə əlaqəli olaraq burada daimi məskunlaşan türklər öz diasporlarını formalaşdırmağa başladılar. Bu istiqamətdə Almaniyada ilk dəfə olaraq 1923-cü il 26-27 aprelində Düssendrfe şəhərində yaşayan türklərin birinci konqresi keçirildi. İlk konqresin gedişində iştirak etməkdən ötrü Almaniyanın müxtəlif şəhərlərindən həmkarlar ittifaqlarının nümayəndələri, ziyalılar, iş adamları, təşkilat rəhbərləri, jurnalistlər və digər peşə sahibləri Düssendrfe şəhərinə gəlmişdir. Birinci konqresdə bir çox məsələlər müzakirə olunmuş və sonrakı işlər istiqamətində danışıqlar getmişdir. 1988-ci ildə türk Diasporunun üzvləri və təşkilat rəhbərləri Federasiya formasında birləşərək ümumtürk işi və türk milli kimliyinin qorunub saxlanması istiqamətində birgə fəaliyyət göstərməyə başladılar. Federasiyanın yaranması diaspor təşkilatlarının kortəbii fəaliyyətinə ciddi təsir etməklə Almaniyada türklərin həmrəyliyi və milli birliyi üçün atılan mühüm addım idi. Əlbəttə, bu türklərin Federasiya formasında birləşməsi müsbət hal kimi, həm Türkiyə, həm də Almaniya mediasında qiymətləndirilməyə bilməzdi.





Türk nüfuzunun sayının artmasına və birləşmək uğrunda gördüyü işlərə 1961-ci ildə Almaniya Federativ Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış Əmək müqaviləsinin köməyi böyük idi. Artıq türklərin Almaniyanın ayrılmaz bir hissəsi olduğu ölkə rəhbərliyi və siyasi dairələrində qəbul olunurdu ki, seçkilər zamanı türk diasporu ilə aparılan işlər bunun bariz nümunəsidir.

Hazırda türk nüfuzunun sayı 2 milyon 600 min arası göstərilir ki, bu rəqəm ildən-ilə dəyişməkdədir. 2002-ci il Almaniya Statistik Dairəsinin hesabatında Almaniya türklərinin 32%-ni bu ölkədə anadan olanlar təşkil edir. Türklərin 60 70%-i alman və türk dillərində danışır. 30-35% türk isə ümumilikdə alman dilini bilmirlər və bu dili öyrənməyə cəhd də etmirlər. Əsas türklərin sıx yaşadığı yerdə məskunlaşan, türk dilində danışan və türk mediasını izləyən bu şəxslər ağır işlərdə çalışırlar.

Türklər Almaniyanın bütün şəhər və rayonlarında məskunlaşıblar. Əsasən iri şəhərlər olan Berlin, Bonn, Hamburq, Ştutqart, Frankfurt-Mayn, Köln, Kürunberq, Düssendrfe, Mayis və digərlərində türk nüfuzu üstünlük təşkil edir. Türklər sürücü, fəhlə, restoran işçisi, iqtisadçı, bank işçisi, ticarətçi və s. peşələrdə çalışırlar. Orta səviyyəli təbəqə qrupuna aid olan Almaniya türkləri içərisində imkanlı və varlı şəxslər də var. Bu şəxslər Almaniya iqtisadiyyatının güclənməsində mühüm rol oynayırlar. Almaniya türk iqtisadiyyatı günü-gündən inkişaf etməkdədir. Tək 1982-1993-cü illər arası türklərə məxsus iş yerlərinin 3 mindən 30-minlə qalxması türk biznesinin artımını göstərir.

1999-cu ilin Statistik göstəricilərində 55 min türk firmasının olduğu qeyd edilir və 2010-cu ilə qədər bu firmaların sayı 100 minə çatacağı və burada 650 min insanın çalışdığı xüsusi olaraq bildirilir. İllik gəliri 30 milyard yevrondan çox olan türk firmaları alman iqtisadiyyatına böyük miqdarlarda kapital qoyublar. Bunun nəticəsidir ki, artıq Almaniyanın məşhur firmaları və iri şirkətləri türk iş adamlarını özlərinə ortaq götürür və onların biliyindən, təcrübəsindən istifadə olunur. "Ən böyük əcnəbi kapital qoyan" - etnik qrup imicini qazanan türk iqtisadiyyatı və biznesi Almaniyada çoxsaylı mal-mülk sahibidirlər. Almaniyanı özlərinə ikinci vətən hesab edən Türk diasporunun nümayəndələri tək iqtisadi deyil, idman, media, informasiya-texnologiyaları, bank işi, binaların layihələşdirilməsi və tikintisi, elm və digər sahələrdə Almaniyanın ictimai həyatında mühüm mövqe sahibidirlər.

Əvvəllər Türk diasporu içərisində "Almanlar bizi sevmirlər","Almanlar bizlərlə ünsiyyət qurmaq istəmirlər", "Almanlar Türklərdən uzaq dururlar",

"Almanlarla-türklərin ortaq bir yaxınlığı yoxdur" və s. kimi fikirlər tez-tez səslənirdisə, son zamanlar onların sayı azalmaqdadır". "Biz türkük, türklərlə də nikaha girməliyik" - baxışları isə zamanla aradan qalxmaqdadır. Almanlar hazırda qarışıq nikaha türk gənc qız və oğlanları girməklə, öz övladlarını alman və türk adətində böyütməyə üstünlük verirlər.

Türk diasporu Almaniyada öz milli kimliyini , adət-ənənələrini, mədəniyyətini, mətbəxini və dinini qoruyub saxlayan əsas etnik qrup sayılır. Bu xüsusiyyətlərə baxmayaraq, türklər alman mədəniyyəti və ənənələrini də mənimsəyiblər. Almanlara məxsus bəzi xüsusiyyətləri Türkiyəyə geri qayıdanda belə bürüzə vermələri türk mediasında dərc olunan məlumatlarda görmək olar.

Almaniyada türklər barəsində tez-tez statistik və sosioloji tədqiqatlar aparılır. Sonderauswertunq des statischw Bundesam tesaus dem mikrorensus-ə görə Almaniyada yaşayan türklərin ailələri almanlardan fərqli olaraq daha böyük və çoxuşaqlıdır. Türklərin ən böyük zövqləri televiziya seyr etmək, qəzet oxumaqdır. Türklər pullarını banklarda saxlamağa üstünlük verirlər və "SPARKASSE" bankı türklərin etibar etdikləri əsas bankdır.

Türklər də almanlar kimi ailə başına bir avtomobil sahibidirlər və türklər marketlərdən deyil, türk mağazaları və səyyar ticari köşklərindən bazarlıq edirlər. Türklər almanlardan fərqli olaraq alkoqol içkilərdən az istifadə edirlər, onlar üstünlüyü çay və qəhvəyə verirlər. Almaniyada şokolad alıcıları içərisində türklər birinci yeri tuturlar. Almaniyada ev sahibi olan türklərin sayı azlıq təşkil edir. Türklərin 79%-i kirayədə yaşayır. Türklərin aylıq gəliri 3000-4000 yevro arasıdır.

Göstərilən bu qeydlər Almaniyada Türk diasporuna aid olan göstəricilərdir və hər il bu göstəricilər dəyişməkdədir.

Bir fakt xüsusilə alman rəsmiləri tərəfindən vurğulanır: türklər Almaniyaya sürətlə adaptasiya olurlar. Bu isə onların səs hüquqlarını qazanmaq istəyən siyasi partiyalar və ictimai xadimlərin diqqət mərkəzindədir. Türkiyə Araşdırmalar Mərkəzinin 2002-2003-cü il məlumatına görə, türk seçiciləri arasında liderliyi Sosial-Demokrat Partiyası tutur. Daha sonra Demokratik Sosializm Partiyası, Xristian Demokrat Partiyası və Yaşıllar Partiyası ardıcıl olaraq növbəti yerləri tutur. Türk seçicilərinin səs verdikləri partiyalardan əsas tələbi onların Almaniya vətəndaşlığı məsələsinin bir qədər "yumşaldılması"dır.

"Almaniyada yaşayan bizlərin içində yaşadığımız toplumda daha fəal ola bilməyimiz və siyasi aktivliyimiz üçün Almaniya vətəndaşlığını əldə etməyimiz daha məqsədəuyğundur" - bildirən türk seçicilərinin mövqeyi alman siyasi xadimləri və rəsmi dairələrinin diqqət mərkəzində qalmaqdadır. Almaniyada bəzi hallarda, xüsusən mediada onlara qarşı ayrı-seçkilik məsələsinə burada yaşayan türklərlə söhbətimdə onların münasibətini öyrənməyə çalışdım.





"Biz Almaniyada daimi qalacağıq. Bizlərə burada necə münasibət olursa-olsun, onlar bizim varlığımızı qəbul etməli olacaqlar. Almaniyanın dirçəlməsində və inkişafında bizlərin rolu böyükdür. Bu isə bizlərin burada qalmasının başlıca səbəbidir" - deyən türklər Türkiyə ilə yanaşı, Almaniyanı vətən kimi qəbul edirlər.

Alman ictimaiyyətində türklərə münasibəti qiymətləndirmək olar. Türk mətbəxinə və musiqisinə böyük maraq göstərən Almanlar çox zaman nahar və şam yeməklərini türk restoranlarında edirlər. Düzdür, müəyyən dairə və ictimai yerlərdə türklərə münasibət ayrıseçkiliyə rast gəlinsə də, bu hallar azlıq təşkil edir. Türklərin keçirdikləri kütləvi mədəni tədbirlərdə həvəslə iştirak edən almanlar türk futbolunun qatı azarkeşləridirlər. Türk yığmasının Dünya çempionatında qazandığı qələbələri türk azarkeşlərilə birgə bayram edən almanlar öz klublarında türk oyunçularının cəlb olunmasının tərəfdarıdırlar.

Türklərlə nikah quran alman gənc qız və oğlanları türk adətincə toy etməyi çox sevirlər. Bəzi hallarda isə onların sevdiklərinin xətrinə islam dinin qəbul etməsi halı ilə də qarşılaşmaq mümkündür. 79-70-80-ci illərdə alman gəncləri təhsil müəssisələrində türklərlə yoldaşlıq etməyə səy göstərməsələr də, artıq bu neqativ tal aradan qalxmaqdadır. Təhsil müəssisələrində türk və alman gənclərinin birgə qurduğu cəmiyyətlər, birliklər, klubların sayı artmaqdadır. Alman gəncləri türk tarixini, dövlətçilik quruluşunu bəzən elmi-tədqiqat işi kimi götürürlər.

Türkiyənin Avropa Birliyinə qəbul edilməsi məsələsində narazılıq göstərən bir sıra alman ziyalıları Türkiyənin onsuz da Avropanın bir parçası olduğunu bildirirlər. Əvvəl-axır Avropa Birliyinin geri çəkiləcəyini proqnozlaşdıran ziyalılar Türkiyənin iqtisadi və siyasi rolunun artması ilə bir çox Avropa ölkəsini geridə qoyacağını inamla bildirirlər.

Bütün müsbət göstəricilərə baxmayaraq Türk diasporunun Almaniyada siyasi fəaliyyəti qənaətbəxş hesab oluna bilməz. Kəmiyyət və keyfiyyət baxımından Almaniyada seçilən türk diasporunun siyasi mübarizədə say azlığı təşkil edən erməni diasporuna bir çox hallarda uduzması faktına hazırda da rast gəlmək olar. İki dəfə uydurma "erməni soyqırımı" - məsələsinin federal Almaniya Parlamentinə çıxara bilən erməni diasporu Almaniyanın dövlətçilik maraqları naminə qəbul olunmayıb.

Qəribə görünsə də, erməni diasporunun tərəfində iki türk diaspor təşkilatı da çıxış edir.Türkiyə-Almaniya İnsan Hüquqları və soyqırım qardaşları dərnəklərinin tutduğu mövqe müsbət hal hesab edilə bilməz.

Sevindirici haldır ki, Almaniyada türk diasporu ilə Azərbaycan diasporu arasında mehriban və dostluq münasibətləri var. Bir-birlərilə sıx təmasda olan türklər və azərbaycanlılar Almaniyada bir mövqedə çıxış edirlər. Azərbaycan diaspor təşkilatları və türk diaspor təşkilatları əməkdaşlıq edirlər. "Avropa Türk-İslam Kültür Federasiyası", "Avropa Türk-İslam Kültür Birliyi", "Avro-

pa Türk-İslam Kültür dərnəkləri Birliyi" və digər təşkilatların üzvlərinin əksəriyyətini azərbaycanlılar təşkil edir.

Türk xalqının dilini. milli adət-ənənələrini, ədəbiyyatını, folklorunu. milli kimliyini qoruyub saxlanması və təbliğ olunmasında Türk diasporu ilə çiyin-çiyinə Azərbaycan diasporu yaxından iştirak edir. Azərbaycana humanitar yardım göstərən türk təşkilatları gələcəkdə də bu istiqamətdə işlər görəcəyini bildirirlər.

## AVSTRALİYA

«Yaşıl» qitəyə türklərin mühacirəti XX əsrin əvvəllərindən başlayır.1911-ci ilin statistik məlumatına əsasən bu tarixdə Avtraliyadayaşayan türklərin sayı 332-yə çatırdı. 1954-cü ildə isə bu rəqəmlər 1036-ya qalxmış idi. Avstraliya türklərinin əksər hissəsin Kiprdən olanlar təşkil edirdi.

1960-cı ildən buraya başlanan kütləvi türk mühəacirəti səbəbilə Türkiyə və Avstraliya arasında«Avtraliyada türklərin mövqeyivə fəaliyəti haqqındaTürkiyə Cümurhiyyəti hökuməti və Avstraliya Millətlər Topluluğu hökuməti arasında razılaşma» adlı əmək müqaviləsi imzalandı. Müqavilə Türk mühacirəlrinin Avstraliyaya manesiz köçməsinə şərait yaradırdı. Bunun nəticəsində Avstraliyada türkləirn sayı 1971-ci ildə 8 minə çatdı.

Hazırda Avstraliyada Türklərin formalaşdırdığı diaspor fəaliiyətinə görə bəzi ölkələrdən seçilir. Türklərini müəyyən hissəst öz milli kimliyini qoruyb saxlamaqdan ötrü Türkdilli məktəblərə gedir, öz aralarında ana dilində danışır, türk kafe-resoranlarında nahar edir və türklərə məxsus baqqalardan bazarıq edirlər. Diaspordahəmrəyliyini qorunması məqsədiləbir-birləri ilə tez-tez əlaqə saxlayan türklər Vətənlə əlaqəsini itirmir, Türk kanallarına baxır və öz musiqilərinə qulaq asırlar.

Avstraliyada Türk diasporuna məxsus KİV orqanları də mövcuddur. Onlar içərisində «Darya», «Yeni Vətən», «Zaman» və « Yorum» daha populyardı. Lakini təşkilatı və lobbiçilik baxımdan hələ də zəif olan Turk diasporu Avstraliyada müxtəlif peşələrdə çalışır və onların əksər hissəsi ağır zəhmətə qatlanmalı olublar. Türkiyənini idman və digər sahələrdə uğurları Avstraliyada yaşayan türklər tərəfindən fəxr hissi ilə qarşılanır.

## KANADA

1880-cı ildən Kanadaya köçməyə başlayan Türklər 1950-ci ildən etibarən diasporlarını formalaşdırmağa başladılar. Əsasən mühəndislər, həkimlər və müxtəlif peşə sahələrində mütəxəssis olan Türklərin buraya köçməsində başlıca rol «Türkiyə-Kanada Birliyinin» üzərinə düşürdü. 2003-cü ilin məlumatına görə hazırda Kanadada Türklərin sayı 13 minə yaxındır. Siyasi cəhətdən burada zəif olan türklər çox zaman prinsipial məsələlərin həllində erməni-yunan diasporlarına uduzurlar.





Əsasən ədəbi-mədəni-idman sahəsində fəaliyyət göstərən türk diasporu lobbi strukturunu formalışdırmağa çalışır. Türklərə məxsus bir sıra diaspor təşkilatı: «Türkiyə-Kanada Birliyi», «Kanada Türklərinin Mədəniyyət Cəmiyyəti», « Türk Diaspor Təşkilatları Federasiyası» və başqaları fəaliyyət göstərir.Siyasi cəhətdən passivliyə son qoymaq məqsədi ilə yaranan Federasiya Türk lobbisinin formalaşdırmasına cəhd edir. İnanmaq olar ki, yaxın zamanlarda Kanadada güclü Türklobbisi öz sözünü deyəcək.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

Amerikaya türklərin ilk gəlişi hələ XVI XVII əsrlərə təsadüf etsə də. "Yeni Dünya"ya kütləvi axın 1880-cı ildən başlanır. İqtisadi səbəblərlə izah olunan bu mühacirət prosesinin gedişində yüzlərlə türk cənub sahilləri boyu məskunlaşdı. ABŞ-a köçən türklərin çox hissəsi iqtisadi durumları yaxşılaşdıqdan sonra vətənə geri dönərək öz işlərini qurmaq və sakit ömür sürmək barədə fikirləşirdi.

Qısa zaman ərzində yerli ictimaiyyətlə qaynayıb-qarışan türklər ilk vaxtlar bir-birlərinə yaxın ərazilərdə məskunlaşırdılar. 1924-cü ildə Amerikada etnik diasporlara qarşı başlanan narazılıq hissləri ölkəyə daxil olmaqüzərində sərt qanunların qəbul edilməsinə əsas yaratdı. 1950-ci ildən qanunlarda edilən dəyişikliklər səbəbi ilə digər ölkələr kimi, Türkiyə vətəndaşlarının ABŞ-a daxil olmasına da kvota əsasında icazə verildi. 1965-ci ildə isə tamamilə yeni liberal qanunlar qəbul olundu. Bundan sonra Amerikaya türk mühacirətinin yeni mərhələsi başlandı. Yeni mühacirlərin çox hissəsi Amerika vətəndaşlığını qəbul etdikdən sonra diasporun formalaşma prosesi sürətləndi.

Bu işdə xüsusi fəallıðı ilə seçilən türk ziyalıları və tələbələri ictimai proseslərdə iştiraklarını gücləndirdilər. Düzdür, öncələr siyasi fəallığı passiv olan türk diasporu zaman keçdikcə problemlərini həll edərək işlərini daha planlı şəkildə qururdular. Assimliyasiya olunmağa qarşı mübarizə aparan türklər Amerika vətəndaşı olduqdan sonra türk kimliyinin inkar ediləcəyi barədə psixoloji bir durumla üzləşməli oldular. Bu səbəbdən də onların çoxu ildə iki-üç dəfə vətənə dönərək qohum-əqrəbaları ilə görüşməklə problemin həlli yolunu tapdılar. Birləşmiş Ştatlarda fəaliyyətlərini genişləndirən türk diasporu sayca və maddi cəhətdən onlardan üstün olan erməni və yunan diasporları tərəfindən təzyiqlərlə qarşılaşmışdılar.

Amerikada türklərdən əvvəl məskunlaşmış ermənilər və yunanlar "məzlum", "yazıq xristian bacı-qardaş" imici yaratmaqla iqtisadi durumlarını yaxşılaşdırmış və bunun ardınca isə siyasi fəallıqlarını artırmışlar. Böyük güzəştlərə malik olan ermənilər və yunanlar informasiya üstünlüklərinə əsaslanaraq türklər barədə böhtanlar və yanlış məlumatlar yayırlar. Böyük dövlətlərin ikili siyasətindən istifadə edən

ermənilər və yunanlar müəyyən məsələlərdə türk diasporunu hətta sıxışdıra bilmişdilər. Lakin 1990-cı ilin əvvəlindən Amerika ictimaiyyətində Türkiyə və türk diasporuna olan baxışlar müsbət yöndə dəyişməyə başladı. Onlar artıq yalnış informasiyalara deyil, dünyada baş verən ictimai prosesləri və burada Türkiyənin və türklərin rolunu və yerini aydınca görürdülər. Türklərin ərəb hərfləri ilə deyil, latın qrafikası ilə yazmaları, Türkiyədə siyasi sistemin demokratik mahiyyəti, milli adət-ənənə, musiqi və mətbəxlərinin ekzotik və cəlbediciliyi amerikalıların mövqeyində və münasibətində dəyişiklik yaratdı. Türkiyənin NATO üzvlüyü, ABŞ-la hərbi və siyasi müttəfiqliyi, türklərin islama baxışlarında fanatik olmadığı, türk gənclərinin və elm xadimlərinin uğurları amerikalıların baxışlarının dəyişməsinə ciddi təsir göstərən faktorlar idi. Hələ ötən əsrin əvvəllərindən Türkiyəyə və türk xalqına qarşı uydurma "soyqırım" iftirasını himayə edən erməni və yunan lobbisi 2000-ci illərin əvvəllərinə qədər Kapitoli zirvəsində çox güclü mövqeyə malik idilər. 1970-ci illərdən sonra formalaşmış türk lobbisi qismən də olsa məsələlərin həllinə təsir edə bilirdi.

Türk diasporunun sayca azlığı, seçici hüququndan pərakəndə istifadə edilməsi, diaspordaxili fikir ayrılıqları türk lobbisini zəiflədən faktor idi. Zaman keçdikcə öz hüquqlarının əhəmiyyətini anlayan, lobbiçiliyə artan maraq, Türkiyə - Amerika münasibətlərinin inkişafı türklərin fəaliyyətinə öz təsirini göstərdi. 2000-ci ildən etibarən Türkiyənin geosiyasi mövqeyinin güclənməsi, iqtisadi inkişafı, Amerika ilə hərtərəfli əlaqələrin qurulması türk diasporunun və lobbisinin güclülər sırasına çıxmasını labüd etdi. 2001-ci il 11 Sentyabr hadisəsindən sonra türk xalqının həmrəylik çıxışları amerikalıların gözündə onların mövqeyini möhkəmləndirdi.

Son illər amerikalı ekspertlər, araşdırmaçılar Türkiyə faktoruna mühüm əhəmiyyət verməyə başlayıblar. Hazırda Türkiyə və türk leyhinə elmi-tədqiqat işləri aparılır. Türkiyənin nüfuzu artdıqca, türk lobbisi Kapitoli zirvəsində mövqeyini möhkəmləndirdikcə, konqresmenlər arasında balans yaradıldı. Bunun nəticəsidir ki əvvəllər ermənipərəst kimi tanınan siyasi xadimlər bu güntürk lobbisini və diasporunu dəstəkləyən çıxışlar edirlər.

Birinci Körfəz savaşı və Əfqanıstan əməliyyatları zamanı ABŞ-ın müttəfiqi kimi çıxış edən Türkiyə barədə Nyu-Yorkda fəaliyyət göstərən "Avrasiya qrupu"nun məlumatında bu fikirlər yer alır: "Türkiyənin NATO-da dəyəri artmış, Avropanın təhlükəsizlik və müdafiəsində, Avropa Birliyində fəallığı Amerikada yaşayan türklərin həyatında dəyişiklik yaradacaq. Bu fikirlərin davamı olaraq türkpərəst konqresmenlərin sayının və türk diasporunda siyasi fəallığın artdığını görə bilərik. Hələ





1991-ci ildə uydurma "erməni soyqırımı"nın konqresdə müzakirələri zamanı senator Preslerin çıxışında söylədiyi

"Mən və dostlarım Türkiyə ilə münasibətlərə böyük önəm veririk" sözləri türk lobbisinin güclənməyə başladığının bariz nümunəsidir. Kapitoli zirvəsində "istanbullu konqresmenlər"in sayının artdığı həmin vaxtlarda 2001-ci ildə ermənipərəst konqresmen Adam Şifin özlərinin maddi və əlaqə imkanlarının güclü olmasına baxmayaraq, dediyi "Artıq güclənməkdə olan türk lobbisi ilə Kapitoli zirvəsindəki mübarizə kəskin şəkil alacaq" sözlərinə türk lobbisinin cavabı da orijinal olmuşdu:"Biz mübarizədən qorxmuruq və güclü *olan qalib gələcək*". *2001-ci ildə* konqresdə Respublikaçılar Partiyasının üç üzvü- Robert Uiksler, Edvard Uitfild və Key Qrengerin təşəbbüsü ilə ABŞ - Türkiyə münasibətləri və Amerikadakı türk diasporu məsələləri ilə məşğul olan işçi qrup yaradılmışdır. İlk gündən 17 konqresmenin daxil olduğu işçi qrup üzvlərindən Tom Lentas, Den Barton, Bob Klement və başqalarının adını çəkmək olar. Türkiyəyə və türk diasporuna Amerikanın böyük əhəmiyyət verdiyini bildirən işçi qrupun üzvləri gələcəkdə ABŞ - Türkiyə münasibətlərinin ardıcıl və dinamik şəkildə inkişaf edəcəyini açıqlamışlar.

Hazırda türk lobbisi iki istiqamətdə, diaspor təşkilatları və profes*sional lobbi şirkətləri ilə əməkdaşlıq vasitəsilə iş aparır. Əsasən diaspor* təşkilatlarının işi daha diqqətə layiqdir.Birləşmiş Ştatlarda türk diasporunun ən güclü və böyük təşkilatlarından biri «Türk - Amerikan Dərnəkləri Assambleyasıdır". TADA, Türkiyə Amerika münasibətlərinin inkişafı, Türkiyə maraqlarının icraedici və qanunverici hakimiyyətdə təmin olunması və digər istiqamətlərdə iş aparır. 1929-cu ildə Amerikada yaşayan türklər tərəfindən təsis olunan bu assambleya gəlir məqsədi güdməyən təşkilat kimi Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Ətrafında 55-ə qədər diaspor təşkilatını birləşdirən TADA əsasən aşağıdakı işlərlə məşğul olur:

**ABŞ-da yaşayan türklər arasında əlaqələrin qurulması,**

**Türk tarixini, mədəniyyətini, musiqisini, milli adət-ənənələrini təbliğ etmək,**

**Türkiyə və türklərə qarşı böhtan dolu informasiyalara layiqli cavab vermək,**

**Amerikalı iş adamlarının Türkiyəyə kapital qoyuluşunu təmin etmək.**

"The Turkish Times" qəzeti və "Turkish Panorrama" jurnalını nəşr edən assambleyanın illik büdcəsi 300.000 - 500.000 dollar arasıdır. Assambleya ilə paralel olaraq "Türk Araşdırmaları İnstitutu"diasporda aktiv iş aparmaqla lobbi fəaliyyəti ilə məşğul olur. 1982-ci ildə Vaşinqtonda gəlir

məqsədi güdməyən təşkilat kimi təsis olunan institut əsasən elm və təhsil istiqamətində iş aparır. Amerika ali məktəblərində türk tarixi və dili bölmələrinin açılmasına nail olan TAI özfəaliyyətini genişləndirməkdədir.

Corcstaun, Prinston, Harvard və Portland universitetlərində türk bölmələri açan bu institutun rəhbərliyi ilə Kaliforniya, Kolumbiya, Nyu-York, Pensilvaniya, Texas və Vaşinqton ali məktəblərində türk araşdırmaları mərkəzi fəaliyyət göstərir. Illik büdcəsi 2 milyon dollar olan TAI "Journal of Turkish Studies", "International Journal of Turkish Studies","Turkey in America" və s. qəzet və jurnalların nəşrinə hamilik edir. Fred Haynesin rəhbərliyi ilə "Amerika Türk Şurası", "Türkiyənin Amerikalı Dostları" təşkilatlarının Vaşinqtondakı "Amerikan Türk Mərkəzində" birləşərək qurduqları Şura 1994-cü ildən geniş fəaliyyət göstərir. ABŞ və Türkiyə arasında ticari, hərbi və mədəni əlaqələrin inkişafına xidmət edən şura Orta Asiya və Qafqazdakı türklərlə Türkiyə və Amerika arasında münasibətlərin qurulmasında yardımçı olur. Digər lobbi təşkilatlarından fərqli olaraq lobbiçilik işinə maliyyə buraxmayan Şura bunun üçün əlaqələrindən və nüfuzundan istifadə edir.Adları çəkilən qurumlardan başqa, ABŞ-da 100-dən çox diaspor təşkilatı fəaliyyət göstərir. Bunlarla yanaşı, türk lobbisi professional lobbi şirkətləri ilə əməkdaşlıq edir. Əvvəllər "Gray and Company" şirkətinin xidmətlərindən istifadə edən Türkiyə "Fleishman Hillard Inc" və "Capitoline International Group and Manning, Selvage and Lee" şirkəti ilə iş qurub. Türklərin Amerikanın həyatında rolu və yerigünü-gündən artmaqda və güclənməkdədir. ABŞ-dakı türk dostlarımla söhbət zamanı onların türk olduqlarılə fəxr etdikləri və daha siyasimübarizədə uduzmayacaqları barədə sözləri məndə qürur hissi doðurdu.

"Voice of Anatolia", "ATV NEWS", "Turkish hour" TV kanalları ilə "Turkish Cultural hour", "Turkish music hour", "Voice of Anatolia Radio" və digər radio kanalları aktiv təbliğat işinə qoşulub. 1991-ci ildə yaradılan Dünya Türkləri Konqresinin müsbətdir.Yəhudi və Azərbaycan diasporları ilə yanaşı, digər türkdilli diasporlarla geniş əlaqələr quran türk diasporu erməni və yunanlobbi qruplarını tamamilə neytrallaşdırmaq yönündə iş aparır.Amerikada yaşayan türklər öz milli adət-ənənələrini, tarixini, musiqisini,dilini, mətbəxini unutmayaraq inkişaf etdirən bir etnik diaspor olmaqla yanaşı, bu böyük ölkəyə asanlıqla adaptasiya olunmuşlar. Eyni zamanda öz Ana vətənlərinə bağlılığı itirməmək şərti ilə digər türkdilli diasporlarla geniş əlaqələr qurmaq yolunu tutmuşlar





## ƏDƏBİYYAT


1. "Жournal of Иnternational Affairs" vol V, N-3, 2001
2. К.К.Ксендзый "Турецкаятрудовая иммиграция в Старанах западной Европы" (70-80 гг) Киев. 1991
3. Ural Manzo "Turks in Western Europe" Brussels.1999
4. «Турки живущие за границей» -www.turkisшline.pu
5. "Avropa Gozunden Memleket Menzereleri" - www.turkise.net
6. Turkin Germany- www.wasшington.edu
7. "Йени Азярбайъан" гязети 1 ийун 2003
8. Avstralиyaдakı Turkler-www.austrkщypermarment.нет
9. "Turks in tuе Australia".-www.Australia.net
10. "Radio Merшaba" - www.padiometrшaba.ъom
11. "Turkish Immigration in Canada - www.gencturkler.8m.com
12. "Sevgi Artan Turkler" Ankara 2002
13. «Histrorian Shows US: Shares identity of Turk immigrant for immildiate Relase»August 2002
14. "Yuzyilin baslarindaki turk kocmenleri" - www.kucukcoban. 8m.com
15. "Turkish Times" Newsparer - 15 august 2002
16. "Tayyar Ari" Amerikada Siyasal yapi: lobiler ve dis politika" Ankara 1992
17. "Ayna" qəzeti, 11 aprel 2003
18. Turkish media, (Rodio and Tv Brodcasts in the U.S.A - www.atsads.org
19. Turk dernekleri:www.rehberturk.net.Search/orgnazitons
20. Batl Avrura Turkleri Gocmenlerinyerlesik hayata gecisi" Amstertan 1992

## ERMƏNİ DİASPORU

Ermənilər və onların diasporu barədə tədqiqat aparmaq asan olduğu qədər də çətinliklərlə doludur. Nəməlum, çətin və mübahisəli məsələlərlə zəngin olan bu etnik qrupun milli və mənəvi xüsusiyyətlərini araşdırmaq asan deyil.

Ermənilər barədə bu günə qədər də tədqiqatlar aparılmış və hələ də aparılmaqdadır. Bu işlə məşğul olan bioloqlar, ermənişünaslar, psixiatorlar, onlar barədə aşağıdakı fikrə gəlmişlər;

*"Sirli tayfa", "Zərərli element", "Âloq otu", "Vəhşi tayfa", "Qorxunc insanabənzər" və s.*

Erməni tarixçiləri də öz tarixləri barədə mübahisə doğuran fikirlər irəli sürüblər. Mövses Xorenatsi; V əsr erməni tarixçisi yazır: "Biz hayklar kiçik, azsaylı, zəif və çox zaman özgəsinin hakimiyyəti altında olan xalqıq. "Erməni xalqının kitabında", ermənilər deyildiyi kimi Anadolu və Qafqazda deyil, məhz Dəcla və Fərat çayı ətrafında yaşayıblar. Kevorq Aslan isə ermənilər daima dərəbəylik halında yaşamışlar. Bir-birilərilə yalnız dinləri və dilləri vasitəsilə əlaqə qurublar. Onlarda vətənə bağlılıq yoxdur yazır: "Bu sözləri artırmaq da mümkündür. Ancaq deyilənlərdə kifayət edər.

Erməni tarixi barədə biz yalnız erməni alimlərinin əsərlərində məlumat alırıq. Əsrlərboyu tarixlərini özləri yazan ermənilər əsl həqiqətlərin gizlədərək obyektiv və faktlarla dolu tarixlərini xülya və yalanlarla əvəz ediblər. Ermənistan coğrafi mənadır və bu ərazitdə yaşayan ermənilər adlanır. Lakin qədim Ermənistan sakinlərinin müasir ermənilər arasında heç bir əlaqə yoxdur. Hayk kimi özünü tanıdan ermənilər bununla özləri qədim xalq olduğunu bildirməyə çalışırlar. Hayk Nuh peyğəmbərin övladı olduğundan dünyada baş verən tufandan sonra öz ailəsi ilə birgə başqa diyara köçərək qəbilə yaradaraq nəsil artırıb. Hayk özü semit kökündəndir. Lakin ermənilər semitilərlə bağlılığın danır və Ari millətindən olduqlarını iddia edirlər, elə bundan onların yalanı aşkar görünür.

Tarixi sənədləri də araşdırsaq qədim erməni dilin Qraporda və müasir erməni dili Anixaroparda arasında da oxşarlığın olmadığını görmək olar. Anixaroparda V əsrdən etibarən türk dili və folklorunun mənimsənilməsinin nəticəsində yaranıb. Saxta erməni konsepsiyasına görə tarixdə onların dənizdən-dənizə uzanan "böyük əraziləri" olmuşdur. Onlar dünyanın "ən sivilizasiyası" xalqı olmuşdular. Məhz bu səbəbdən də Samxetiya-hayklanın ölkəsində erasi (gürcü), barbar türklər cücəribsə, bu onların günahı ucbatından olub. Buna görə də erasilər və türklər onlarca "nəyə" sahə tutublar".

Bütün bu sözlər xəstə sayıqlamalarına bənzəyir. H.Haller, M.Parc. T.Lehman, O.Vinoqradova kimi tədqiqatçılar bunu araşdırmış və erməni xəstəliyinin olması barədə qərara gəliblər. Bunun bariz nümunəsinə Rusiyada nəşr edilən «İzvestiia»qəzetində 1990-cı ilin əvvəllərində dərc edilən bir məqaləni xatırlatmaq istərdim.





«Erməni kəndlisi Anand Şahrimanyan 9-cu Qalantikadan gələn Humanəndlə görüşmüşdür. Humanoid ona Şuşanın qədim erməni şəhəri olduğunu bildirmişdir. Və 9-cu qalaqtikada yaşayan and göy erməniləri yerdəki qardaşlarını daima diqqət altında saxlayırlar».

Tarixçi Dmitri Furmanda onlar barədə qeyd edib: "Ermənilər bir diaspor xalqı kimi yəhudilərə yaxındırlar. Amma ermənilərdə tarixi səbəblərdən yaranan ümummilli nevroz vardır. Yəhudilərdə isə belə nevroz yoxdur, onlara bundan qaçmağa dinləri kömək etmişdir".

Erməni diasporunun tarixi formalaşma və mühacirət prosesində onların xristian dinini qəbul etməsi böyük rol oynadı. Buna qədər atəşpərəst olan ermənilər farslar kimi eyni dinə etiqad edir, mədəni baxımdan da onlara bağlı idilər.

Eyni dildə danışan erməni və farslar arasında münaqişələr baş verdiyindən Ərdəşir və Xosrov erməniləri zamanla öz ərazilərindən uzaqlaşdıraraq başqa yerə sürgün etməli oldular. Xristianlığın qəbulundan sonra bizans tərkibində yaşayan ermənilər də məhzəb baxımdan bixanslılarla münaqişədə idilər.

Səlcuqlar tərəfindən ermənilər nəzarətə götürüləndən sonra onlar millət kimi yenidən dirçəldilər. Bizanslılar tərəfindən tam assimliasiya olunan ermənilərin din və dil baxımından özlərini qoruyub saxlamasında səlcuqların rolu böyük olmuşdur. Bundan sonra erməni Apostal kilsəsi (həmçinin erməni ortouoksal kilsəsi kimi də tanınır) erməni milləti arasında milli kimliklərini qorunub saxlanılması ideologiyasını təbliğ etməyə başladı.

Diasporun maliyyə, təbliğat və hərtərəfli dəstəklənməsi işinə baxan kilsə ümumdünya erməni hərəkatına istiqamət verir. Ermənistanın daxili və xarici siyasətinin nəzarətdə saxlamaqla terrorizm, lobbiçilik, ideoloji işləri dəstəkləyir. Diasporun bütün tədbirlərinə kilsə sədrliyi özü edir.

Ermənilərdə diqqətə alınan ikinci böüyk məsələ onların dünyaya səpələnərək yaşamasıdır. Armenlan hay da- "hər yerdə erməni var" yazan Vəhram Mavyanın əsərində ermənilərin məskunlaşdıqları ölkələrdə yaşam tərzinin erməni işinə xidmət etdiyini qeyd edir.

Yəhudi-yəhudidir, qaraçı-qaraçıdır, erməni isə tam erməni deyil. Onlar assimlasiya olunur, başqa millətlərdən xüsusiyyətlər mənimsəyirlər. Əsasən aparıcı xalqlar olan türklər, ərəblər, yunan, yəhudilərlə qarışıq nikaha girən ermənilərin övladları türk, yunan, yəhudi, fransız, ərəb millətləri soyadların, adların daşımalarına, başqa mühitdə böyümələrinə rəğmən öz erməni xislətini unutmurlar. Buna onların beşikdə ikən beyinlərinin doldurulması kömək edir.

Ermənilərdə diqqət çəkən daha bir məqam onların ortaq uğurlar və ortaq əzablar ətrafında sıx birləşməsidir. Ermənilər özləri yaxşı bilirlər ki, onların tarixi yalan üzərində qurulub və erməni mədəniyyəti, ədəbiyyatı, dili və digər xüsusiyyətlər oğurluqdur. Bütün bunlara baxmayaraq, onlar "oğurluqlarını" ustalıqla gizlədir və ümummilli məsələlərdə səfərbər olurlar.

Atəşpərəstlik dövründə farsların, xristianlıq illərində bizanslılar və hal-hazırda digər xristian məzhəbləri tərəfindən yaxına buraxılmayan ermənilər hər vasitə ilə özlərini müdafiə edirlər. 1915-ci il hadisələrini isə ümumerməni işinin ən önəmli məsələsinə çevirən ermənilər uydurma soyqırımı tanıdılması və Türkiyənin təzminat təqdimat ödəməyə məcbur edilməsin ölüm-qalım məsələsinə çevriliblər. Bu gün erməni özünü bu məsələdə erməni kimi hiss edir. Əgər onların bütün tələbləri həyata keçərsə onlar sadəcə olaraq bir millət kimi əriyib digər millətlər içərisində itəcəklər. Məhz bu səbəbdəndə erməni ideoloqları bu məsələdə ehtiyatlı olurlar və prosesləri çox zaman özləri əngəlləyirlər.

"Erməni soyqırımı" onların birliyinin əsas səbəbidir və birliyi qorunması üçün isə bu məsələ daim qüvvədə saxlanılır, lakin tanınması üçün isə qəti addımlar atılmır.

1978-ci ildən başlayaraq Osmanlı imperiyası zəifləməsi nəticəsində ermənilər buradan mühacirət etməyə başladılar. Qalan ermənilər isə rus və ingilis təbliğatının nəticəsi olaraq Osmanlı dövlətdən ərazi tələb etməyə başladılar. Bu işdə isə əsas rolu Rusiyada, İngiltərədə, Fransada yaşayan ermənilər oynayırdılar. Məhz erməni diasporunun fəaliyyəti nəticəsində "xristian bacı və qardaşların köməyinə ehtiyacı olan kiçik qardaş imicini iri dövlətlərdə formalaşdıra bildilər.

1915-ci ildə Tiflisdə toplanan ümumdünya erməniləri Anadoluya "əzab çəkən" qardlaşları üçün pul və silah yardım edilməsi qərarına gəlirlər. Türkiyə hökumətinin həyata keçirdiyi köçürülmə əməliyyatını isə soyqırım kimi təbliğ edən erməni diasporu türklərin xristianları məhv etməsini dünyaya yaymağa başladılar. XX əsrin əvvəllərindən etibarən uydurma"erməni soyqırımı" - erməni məsələsinə çevrilir. Lakin dünyada baş verən ictimai-siyasi proseslər, Sovetlər Birliyin yaradılması, I və II dünya müharibələri bu məsələni ikinci plana keçməsinə səbəb oldu.

II Dünya Müharibəsindən sonra yəhudi soyqırımı bütün dünyada hüquqi status alması uydurma "erməni soyqırımı"nın yenidən gündəmə gəlməsinə təkan verdi. Səbəb kimi də onlar naməlum Lui Loçner adlı bir jurnalistin nürunberq prosesi barədə yanlış məlumat yayması oldu. Loçer 1939-cu ilin avqustunda Hitlerin Polşaya hucum planı barədə apardığı müzakirələr zamanı "ermənilərin məhv edilməsi" məsələsinə toxunduğunu qeyd edir. Obersolzberq çıxışda Adolf Hitler guya bildirib. "Bu gün kimdi ermənilərin məhv edilməsin xatırlayan"?!

Hitlerin bu sözün 40 ilə yaxın öz məqsədləri üçün istifadə edən ermənilərin yalanı 1984-cü ildə ifşa edilmişdir. Alman ordusunun eks ərazi sular donanmasının admiralı, Hermon Böhelin əlyazmaları tapıldıqdan sonra orada NAS (798-PS) və İAS 30 (1014-PS) sənədlərin olması həqiqəti üzə çıxarmışdır. Beləliklə Adolf heç bir zaman bu sözü işləmədiyi faktla sübut olunub.

Bəllidir ki, 1973-cü ildə yeni erməni terrorizminin başlanması ilə Qərbdəki erməni diasporu uydurma və cəfəng "erməni məsələsi"ni yeni bir kəskinliklə gündəmə gətirmiş oldu. 1979-cu ildə ilk dəfə Paris şəhərində "Dünya erməni konqresi" adı altında keçirilən görüşlər ənənəvi xarakter aldı.

Konqreslərin məramnamələrində "ermənilər arasında birlik və bərabərliyin saxlanması" şüarı vurğulansa da, əas məqsəd "erməni terror təşkilatlarını bir mərkəz altında birləşdirərək güc birliyi yaratmaq" idi. Terrorçu Hnçak və Daşnaksutyun partiyaları tərəfindən təşkil edilən bu görüşlər o vaxtdan kilsə tərəfindən və Türkiyəyə qarşı ikili standart siyasəti yenidən dövlət tərəfindən dəstəklənməkdə davam edir.

Bu gün erməni qurumlarının dünya çapında yürütdükləri antiazərbaycan və antitürkiyə fəaliyyətinin kökünə enməkdən ötrü onların bəziləri üzərində dayanaq.

***Paris konqresi***

1979-cu il sentyabrın 3-6-da keçirilmiş birinci konqresdə terrorçu ASALA təşkilatı təşəbbüskar kimi çıxış edirdi. Paris konqresində əsas iştirakçı təşkilatlar ASALA ilə bağlılığı olan terror təşkilatları və terrorizmi dəstəkləyən erməni varlı təbəqəsi idi. Əsas məqsədi dünya ermənilərini bir fikir ətrafında, yəni terrorizm bayrağı altında birləşdirmək olan konqresdə alınan qərarlardan bəzi nümunələr aşağıdakılardır:

**Panermənizm hərəkatını inkişaf etdirmək. Diasporda "ermənilik" ideologiyasını təbliğ etmək.**

**Sovetlər Birliyində yaşayan ermənilərə dəstək və onların "ümumerməni işi"ndə iştirakını təmin etmək.**

**Diasporda erməni kilsəsinin mövqeyini gücləndirmək.**

**Dünya erməni bankını yaratmaq.**

**Türkiyədən torpaq və təzminat tələb etmək.**

**Diasporda təbliğat işinə təkan vermək.**

Konqresin bu və adları sadalanmayan digər qərarlarından sonra dünyada erməni terroru daha da şiddətləndi. ASALA erməni diasporunda aparıcı mövqe əldə etdi. Onun başçılığı ilə diasporda külli miqdarda pul toplanışı kampaniyası keçirildi. Əldə olunan bütün vəsait çirkin niyyətlərin həyata keçirilmə-

sinə sərf edildi. Şantaj, böhtan, terror kütləvi hal idi. Dünya ermənilərinin qorxu və təzyiq altında "ümumerməni işi"ndə birləşməsi prosesi başlandı

**_Lozanna konqresi_**

Beynəlxalq ictimaiyyətin erməni terrorizminin əleyhinə çıxışlara başladığını görən erməni liderləri ikinci görüşü İsveçrənin Lozanna şəhərində - 1982-ci ildə keçirməyi qərara almışdı. Lakin bu konqresin gedişində dünya ermənilərı içərisində terrorizmin kütləvi hal alması səbəbincə narazılıq özünü qabarıq şəkildə göstərdi. Diasporda, xüsusilə də ASALA əleyhinə açıq çıxışlar tez-tez səsləndiyindən təşkilat konqresdə iştirakdan boyun qaçırdı. Terror və şiddət tərəfdarı olanların səs sayı azaldı. Ancaq bunlara baxmayaraq, onların əleyhinə ciddi bir addım atılmadı.

Terror təşkilatlarının siyasi qurumlara çevrilməsi təklif edildi. Daşnaksütyun və ASALA-da xüsusi bölmələr yaradıldı. Konqresin iştirakçıları arasında fikir ayrılıqlarının, fərqli baxışların olmasına baxmayaraq, qərarlar sonda qəbul edildi. Qərarların bir neçə maddəsinə nəzər salaq:

Növbəti erməni konqreslərini dünya yəhudi konqreslərinə bənzər, onun gücünə mlaik bir şəkildə keçirmək.

**"Ümümerməni konstitusiyası"nı işləyib hazırlamaq.**
**Xüsusi bir işçi qrupun yaradılması və qərarların icrasına nəzarət.**
**Dünya ölkələrində lobbi fəaliyyətini gücləndirmək.**
**Adları açıqlanmayan "digər qərarlar" da qəbul olunmuşdu.**

Lozanna konqresi erməni diasporunda fikir ayrılığına son verə bilmədi. Bu səbəbdən konqresin qərarlarının çox hissəsi icra edilmədi. Xüsusilə Qərb və Şərq erməniləri arasındakı narazılıq səbəbilə kilsənin məsləhətlərinə belə əhəmiyyət verilmədi.

**_Sevr konqresi_**

İsveçrənin Sevr şəhərində keçirilən konqres belə bir vəziyyətdə toplaşdı. Bu konqres məhz vəziyyətdən narahat olan erməni kilsəsinin təşəbbüsü ilə keçirilmişdi.

7-13 iyul 1985-ci il tarixdə toplanan bu konqresin başlıca məqsədi dünya erməniləri arasında narazılığı aradan qaldırmaq və "Ümumerməni konstitusiyası"nı qəbul etmək idi. Terror təşkilatlarından yalnız Daşnaksütyunun iştirak etdiyi bu konqresi hədələyən ASALA-nın iştirakçılar arasında tərəfdarı çox idi.

Ancaq "siyasi oyun" səbəbi ilə onlar terrorizmin "əleyhinə" çıxaraq daha "effektli" yollar axtarılması təklifini irəli sürdülər. Konqresin gedişində





mühüm söz sahibi, əlbəttə, erməni kilsəsi idi və onun təklifi ilə qəbul olunan qərarlardan bəzi nümunələr:

**Lozanna konqresinin qərarları ləğv olunur.**
**Türkiyə əleyhinə mübarizə davam etdirilir.**
**Diasporda "Tək ermənilik, tək mübarizə, tək səs!" şüarı təbliğ olunur.**
**Türkiyəyə qarşı ABŞ, Fransa, Böyük Britaniya, Livan və digər dövlətlərdə hərtərəfli təzyiq kampaniyasına başlamaq və bu istiqamətdə həmin dövlətlərin dəstəyini əldə etmək.**
**Erməni soyqırımının tanınması üçün lobbiçilik fəaliyyəti.**
**Sovetlər Birliyinə ermənilərə göstərdiyi kömək və dəstəyə görə təşəkkür elan edilməsi (!).**
**"Ümumerməni konstitusiyası"nın qəbul olunması.**

Sevr konqresində qəbul olunan qərarların bütün sahələri əhatə etməsinə baxmayaraq, erməni diasporu içərisindəki narazılıq aradan götürülmədi. Hətta müəllifi rahib Cames Karizyanın olduğu "konstitusiya" belə diaspordaxili çəkişmələrə son qoymadı.

Sevr konqresində xüsusi olaraq ümumerməni konstitusiyasının qəbul olunması erməni işində mühüm addım atdı. "Konstitusiyada əsas şüar kimi", "Ermənilər arasında birlik və bərabərliyə nail olmaq", "Erməni inqilabçılarını (terrorçularının bir mərkəzdə toplamaq", "İqtisadi, siyasi tələblərin ümummərkəzdən istənilməsi və s. Bu konstitusiyada əlavə olaraq 4 bənd diqqəti cəlb edir. Bəndlər aşağıdakılardır.

a) Dağınıq halında olan ermənilərin birləşdirilməsi.
b) Konqreslərin qərarlarının dünyada həyata keçirilmək.
s) Türkiyə şanslı altında olan erməni torpaqlarını ?!-azad etmək istiqamətində bütün vasitələrdən istifadə.
d) Ermənilərin vətənlərinə dönməsini təmin etmək.

Sovetlər Birliyində yaşayan ermənilər bəzi qərarlara etiraz edərək onların "müstəqillik" fikirlərinin dəstəklənməsini tələb etdilər. Elə bu səbəbdən də 1988-ci ildən başlanan proseslərin davamı olaraq 1991-ci ildə Sovetlər Birliyinin dağılmasında ermənilərin xüsusi rol oynadıqlarını qeyd etməmək olmaz. 1988-ci ildən Azərbaycana qarşı ərazi iddiası sürən işğalçı ermənilərin bizim torpaqlar hesabına 1991-ci ildə müstəqillik elan etməsində erməni diasporu əlindən gələn köməyi göstərmişdi.

Yarandığı gündən Qərb ölkələrindəki erməni diasporunun nəzarəti və təsiri altına düşən Ermənistan qonşu Azərbaycana qarşı işğalçı müharibəyə başlayaraq torpaqlarımızın 20 faizini ələ keçirdi. Hazırda beynəlxalq hüququn bütün normalarını pozan Ermənistanın işğalçı siyasətinə hüquqi don geyindi-

ron erməni diasporunun növbəti konqresi 1999-cu ilin sentyabrında İrəvanda keçirildi.

**_Birinci İrəvan konqresi_**

Ermənistan Xarici İşlər Nazirliyinin Diasporla Əlaqələr Departamentinin təşəbbüsü ilə keçirilən bu konqresdə 53 ölkədən 1200 erməni iştirak edirdi. Siyasi bioqrafiyası dinc insanlara qarşı qanlı terror əməlləri ilə zəngin olan Robert Köçəryanın başçılığı ilə keçirilən bu konqresi təşkil etməklə erməni diasporu Levon Ter-Petrosyan dönəmində Ermənistanla diaspor arasında pozulmuş əlaqələri bərpa etmək məqsədi güdürdü. Petrosyanın "Hər bir ölkədə lobbiçiliyin öz hədd-hüdudu var" sözləri yaxın çoxlarının yadındadır.

**İnformasiya mübadiləsi, erməni diasporunun əsas silahı olan "təbliğat" mübarizəsini gücləndirmək.**
**İqtisadi əməkdaşlıq.**
**Mədəni əməkdaşlıq.**
**Torpaq məsələsi.**

Dünya ermənilərinin inteqrasiyasında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilən konqresdə bir neçə qərar qəbul olunmuşdu:

Bu bənd ətrafında çoxlu çıxışlar edən diaspor nümayəndələrinin sonda qəbul etdikləri iki yekun bəyannamədən biri "Dağlıq Qarabağın gələcəyi" adlanır. İşğal etdikləri torpaqları mənimsəmək sarıdan öz çirkin məqsədlərini həyata keçirmək üçün erməni diasporu arasındakı narazılıqların aradan götürülməsi üçün cəhdlər də edildi. Lakin Qərb və Rusiya erməni diasporu arasındakı narazılığa son qoyulmadı. Ermənistana nəzarət üstündə başlanan çəkişmə ikinci İrəvan konqresində də müzakirə olunmuşdu.

**_İkinci İrəvan konqresi_**

27-28 may 2002-ci ildə keçirilən ikinci İrəvan konqresində 48 ölkədən 3 min nümayəndə iştirak edirdi. Erməni diasporunda olan çəkişmələri dayandırmaq üçün konqresdə iştirak edən erməni katolikosu II Qaregin və Robert Köçəryanın cəhdləri alınmadı. "Ermənistan bütün dünya ermənilərinin vətənidir" başlığı altında keçirilən bu konqresdə bir sıra qərarlar qəbul olundu.

**Ermənistanda məktəblərin kompüterləşməsi.**
**Erməni soyqırım araşdırmaları mərkəzinin yaradılması.**
**Ermənistan "virtual" universitetini yaratmaq.**
**Ermənistan diaspor muzeyini yaratmaq.**
**Diaspor və Ermənistan arasında əlaqələri inkişaf etdirmək.**





Bunlar, əlbəttə, böyük maliyyə vəsaitləri tələb edir və imkanların getgedə daraldığı ucbatından bu göstərilən istiqamətlərdə hələlik ciddi bir iş görülməyib. Amma yaddan çıxarmaq olmaz ki, həmin konqresdə bir sıra erməni diaspor nümayəndələri "yenidən terrorçuluğa başlamağın vacibliyi"ni xüsusi vurğulamışdılar.

Konqresin əsas şüarı ilə "Ermənistan bütün dünya ermənilərinin vətənidir". Bütün keçirilən konqreslər erməni diasporunun hansı istiqamətdə fəaliyyət göstərdiyindən xəbər verir, bütün bunlar isə mütləq diqqət mərkəzində saxlanılmalıdır.

Erməni diasporu 1965-ci ildən etibarən Türkiyə və sonradan Azərbaycan əleyhinə mübarizəni 3 əsas istiqamətdə aparır:

1. Lobbiçilik.
2. Mədəni, elmi və informasiya sahəsində təbliğat
3. Terror və təcavüzkar müharibə

**_1. Lobbiçilik_**

Hələ əsrin əvvəllərindən siyasi fəaliyyətə başlayan ermənilər öz çirkin niyyətlərini həyata keçirmələri üçün qəzet nəşr etmiş, ictimai və dini qurumlar yaratmış, kitabxanalar və erməni dilli məktəblər açmışlar. Zamanla muzey, xəstəxana, kollec, dini cəmiyyətlər, kilsələr, universitetlərdə erməni dili və tarixi kafedraları yaradan erməni diasporu, lobbi fəaliyyətlərinin mexanizmini formalaşdıra biliblər. Birləşmiş Ştatlarda tam olaraq erməni diaspor və lobbi təşkilatları aşağıdakı sxem əsasında fəaliyyət göstərirlər.

Tələbə məzunları Qurumları, Erməni tarixi və fəaliyyətinin Araşdırma Mərkəzləri, İdman Qurumları, İctimai mərkəzlər, Yurddaş Qurumları, Mədəniyyət qurum və ocaqları, Subay erməni kişi və qadınlarının tanış etmə xidməti, təhsil qurumları, ədəbiyyat cəmiyyətləri, fondlar, dəfn-conazə-yas məişət və qəbiristanlıq qurumları, Baxım və xəstəxana qurumları, saxlamlıq mərkəzləri, göstəri-təmsil və bağlısənət qrupları, xeyriyyə qurumları, qaçqın yerləşdirmə qurumları, tələbə qurumları, gənclər təşkilatları, kino və teatr qurumları.

Adları çəkilən bütün qurumlar beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları, dövlət qurumları, kütləvi informasiya vasitəsilə sıx əlaqədə olurlar. Terror, şantaj, təzyiq, rüşvət, böhtan, təbliğat kimi vasitələrlə buqurumlar öz fəaliyyətlərini quraraq onların əleyhinə olan fikirləri dəyişməyə nail olan erməni diasporu və lobbisi maddi cəhətdən yaxşı təmin olunub.

Nau Tahd - "Erməni davası" - uydurma bir məqsəd yolunda əsas iş erməni lobbisinin "çiyninə" düşür. Birləşmiş Ştatlarda erməni lobbisi beş əsas etnik lobbilərdən biri hesab olunur. Erməni lobbisi demək olar ki, dünya ermənilərinin demokratik inkişafını izləyir. Seçicilərin hüquqlarını qoruyur, ermənilərin dövlət və qeyri-dövlət qurumlarında iştirakını, Amerikaya və Amerikadan mühacirət, ermənilərin sosial-iqtisadi durumları ilə yaxından maraqla-

nır. Ümumerməni işinə həsr olunan kitabların dərci, məqalələrinyazılışını, TV və radio proqramların yayımlanmasını maliyyələşdirən erməni lobbisi erməni diasporu nümayəndələrilə yanaşı, qeyri-ermənilərdən təşkil olunub.

Tədqiqatçıların bəziləri erməni lobbisinin fəaliyyətinin başlanğıc tarixini XX-əsrin 15-20-ci illərinə, bəziləri isə ötən əsrin 70-ci illərinə təsadüf etdiyini qeyd edirlər. Lakin araşdırmalar nəticəsində ermənilərin çirkin lobbi fəaliyyətinin daha əvvəl XIX əsrin sonlarında başladığı məlum olur. Erməni lobbi fəaliyyətini dörd tarixi dövrə bölmək olar.

Birinci dövr: 1897-1923-cü illər: 1890-cı ildə ABŞ-da fəaliyyətə başlayan, siyasi məqsədlərinə terror, şantaj, iftira daxil olan Hnçak partiyası və ardınca Daşnak partiyasının rəhbərliyilə ilk lobbiçilik fəaliyyəti nəticəsində Amerika konqresində "erməni məsələsi" gündəmə gəlmişdir. 1894-cü il 3 dekabrda Luizanadan seçilmiş Senator Nevton Blançard Bitlis hadisələrindən sonra ermənilərlə əlaqəli sənəd hazırlayaraq Senata təqdim etməklə ilk erməni lobbisi kimi özünü tanıtmışdır.

1895-ci ilin 9 dekabrında və 1896-cı ilin 22 yanvarında Senatın Xarici Əlaqələr Komitəsində müzakirəyə çıxarılmasına baxmayaraq, geri qaytarılan sənəd sanki ermənilər üçün bir təkan olmuşdur. Amerika erməniləri ölkə prezidenti, dövlət qurumlarına teleqraf, məktub vasitəsilə tez-tez yalan və böhtanladolu müraciətlərə başladılar. 1909-cu ilin 2 mayında Kaliforniya ştatının Fresno şəhərində ermənilər mitinq keçirərək Türkiyə əleyhinə şüarlar bildiriblər. Bu işlərə "Ermənistanın Amerikalı Dostları" və "Amerika Protestant Ermənilər Birliyi" rəhbərlik edirdi ki, bu təşkilatlar kilsə ilə sıx əlaqədə idi.

İkinci dövr: 1923-1965-ci illər - Amerikada bir illər arası etnik diasporla asan münasibət və ölkəyə mühacirələrin daxil olunmasını əngəlləyən qanunların qəbul olunması səbəbilə erməni lobbisinin passiv fəaliyyəti dövrüdür. Lakin passivliyə baxmayaraq 34 diaspor təşkilatı yaradan erməni diasporu lobbi fəaliyyətlərinin təşkilatı strukturunu formalaşdırmaqla məşğul idilər. Türkiyə əleyhinə ali məktəblərdə, elmi müəssisələrdə iş aparan ermənilərin lobbi fəaliyyəti nəticəsində türk tarixini ermənilər və yunanlar tədris ediblər. Amerika-Türkiyə münasibətlərini pozmaq istiqamətində də çalışan erməni lobbisi KİV sahəsində fəaliyyətlərinin genişləndiriblər.

Üçüncü dövr: 1965-1985-ci illər-erməni lobbisinin yunanlarla birgə güclü fəaliyyət illəridir. Xüsusilə bu tarixdən başlayaraq Türkiyəni uydurma "soyqırım"la ittiham edən erməni lobbisi hər il bu məsələni gündəmə gətirirlər. Kipr, Kürd mövqedən çıxış edən erməni lobbisi yunanlar kimi Türkiyəni "işğalçı" siyasət yetirməkdə günahlandırılaraq öz məqsədlərini həyata keçirməyə çalışırdı. Erməniporəst koqresmen Mondale Türkiyədə narkotik bitkilərin becərildiyi barədə böhtanla dolu sənəd hazırlanaraq nümayəndələr Palatasında çıxış etmişdir.

Çıxışında guya narkotik bitkilər becərilən sahələrin xəritəsinin olduğunu qeyd edərək, buranın Amerika Hava Qüvvələri tərəfindən bombalanmasının "zəruriliyini" bildirmişdir. Bu işlərdə erməni lobbisi Türkiyəyə humanitar yardımın dayandırılması, Amerika-Türkiyə ikitərəfli əlaqələrinin pozulması istiqamətlərində iş aparıblar.

Dördüncü dövr: 1985-hazırkı dövr-hal-hazırda erməni lobbisi yaxşı təşkilatı struktura malik olan lobbilərdən biri olmaqla erməni diasporunun seçicilərinin səsinə ehtiyacı olan ictimai-siyasi xadimlərlə işbirliyi qurub. Konqres və Senatda Amerikada təhsil alan erməni gənclərindən yaradılmış erməni işçi qrupu ermənipərəst konqresmen və senatorlarla birgə iş görürlər. İşçi qrupunun səlahiyyətilə kapitoli zirvəsində müzakirəyə çıxarılası planlaşdırılan sənədləri hazırlamaq, KİV orqanları ilə daim əlaqədə olmaq, xərclənən maliyyə vəsaitinin büdcəsini hazırlamaq, konqresmenlər və senatorları ermənipərəst mövqe tutması yollarını axtarmaq, diaspor təşkilatları ilə iş aparmaq və s.daxildir.

Son məlumatlara görə erməni diasporu Türkiyə və Azərbaycan əleyhinə fəaliyyətlərini bir neçə istiqamətdə qurublar. Qeyri-sağlam təsəvvürlər üzərində qurulmuş fəaliyyətlər aşağıdakı sxem kimi tərtib olunub:

**TÜRKİYƏ ƏLEYHİNƏ:**

- Türkiyə dövlətinə 1915-ci illər hadisələri zamanı "ermənilərin soyqırıma məruz qalması faktın"ı qəbul etdirmək.
- Türkiyədən "öldürülmüş ermənilərin"-qanbahası əvəzinə maddi və torpaq təzminatını tələb etmək.
- Türkiyə və ABŞ ikitərəfəli əlaqələrinin pozulması.
- Kürd və yunanları dəstəkləyərək Türkiyənin "işğal etdiyi əraziləri" azad etməyə məcbur etmək.

**AZƏRBAYCAN ƏLEYHİNƏ**

- Dağlıq Qarabağın "Ermənistanın tərkib hissəsi " olması "faktı"na Amerikanı inandırmaq.
- Azərbaycana humanitar yardım edilməsinin qarşısını almaq və 1992-ci il oktyabrın 24-də Konqresin 102-ci çağırışı 2-ci sessiyasında qəbul olunan "Azadlığa müdafiə aktı" və ona 907-ci əlavəsinin qüvvədə qalması.
- Azərbaycanın neft strategiyasını "alt-üst" etmək. Neft kəmərləri layihələrinin reallaşmaması, Azərbaycan iqtisadiyyatını asılı vəziyyətdə saxlamaq.
- Sumqayıt hadisələrini ermənilərə qarşı "soyqırım" kimi qəbul edilməsi. Bu istiqamət uğrunda 2000-ci ildən fəaliyyətə başlayan

ermәni lobbisi hәmin il Kaliforniya parlamentindә mәsәlәni müzakirә etmәk cәhdi edib.

• BTC-neft kәmәrinin maliyyәsinә mane olmaq vә kәmәrin layihәsinin dayandırılması.

Adları çәkilәn fәaliyyәtlәrә ermәni lobbisi öz çirkin işlәrini davam etdirmәkdәdilәr. Ermәni xüslәtinә mәxsus riyakarlıq, ikiüzlük, yaltaqlıq vә yazıqlıq görkәmlәrilә Konqres vә senatda tәbliğat işi aparan ermәni lobbisi qeyri-peşәkarlıq yollarına da әl atırlar. Aldıqları pulun hesabına bәzi konqresmen vә senatorlar ermәni lobbisilә "dostluq" edirlәr. Konqres vә ya senatda ermәni lobbisinin hazırladığı layihә aşağıdakı qaydada müzakirәyә çıxarılır.

İlk növbәdә olaraq layihә sәnәd halına işçi qrupunda salınır. Daha sonra bir neçә nüsxәdә çıxarılaraq professional hüquqşünaslar tәrәfindәn yoxlanılır. Layihә "yaşıl işıq" aldıqdan sonra ermәnipәrәst konqresmenlәr tәrәfindәn bir daha yoxlanılır. Bundan sonra konqresmenlәrin biri layihәnin müәllifi kimi Konqres katibinin stolu üzәrindә yerlәşәn kiçik qutuya sәnәd gәtirilib salınır. Sәnәd digәr layihәlәrlә birgә hökumәt nәşriyyatına möhkәmlәnәrәk çap üçün göndәrilir. Әgәr layihә ilk dәfә hazırlanırsa bir sayı, yox artıq bir neçә dәfә hazırlanıbsa onların sayı ilәindәks nömrәsi alır. Sonra sәnәd Nümayәndәlәr Palatasına gәlәnә qәdәr müvafiq komitәlәrin razılığını alır. Razılıqdan sonra Nümayәndәlәr Palatasının protokoluna salınan sәnәd müzakirәyә çıxarılır.

Müzakirә zamanı layihә müәllifi olan konqresmen bu barәdә әtraflı çıxış edir. Çıxışında layihәnin hazırlanması prosesi vә әhәmiyyәti barәdә mәlumat verәn konqresmen layihә ilә bağlı Amerikanın ermәnimәnşәli seçici hüququna malik şәxslәrdәn mәktub vә zәng aldığını bildirir. Çıxışında layihәdәn kәnara çıxan konqresmen Ermәnistanın demokratik vә insan hüquqlarına hörmәt edәn Respublika olduğunu qeyd etmәklә, Türkiyә vә Azәrbaycan tәrәfindәn "blokada"da saxlanılması xüsusi informasiya ilә konqresmenlәrә deyilir. Bununla "effektiv tәsir etmәk "abı-havası" yaradan hәmin konqresmen sәnәdin qәbul olunmasının vaicb vә әhәmiyyәtli" olduğunu vurğulayaraq son sözlәri bu cür bitirir.

"Ermәnistana nәyin bahasına olursa-olsun mütlәq mәnәvi vә maddi yardım göstәrilmәlidir" - daha sonra digәr ermәnipәrәst konqresmenlәr bu barәdә çıxış edirlәr,. Çıxışlardan sonra sәsvermә keçirilir. Sәnәd qәbul olunmur. Yenidәn işlәnmәsi üçün müvafiq komitәyә geri qaytarılır.

Sizlәrә yuxarıda tәqdim etdiyim bu prosedura 2-3 il әvvәl, Birlәşmiş Ştatların Nümayәndәlәr Palatasında müzakirәyә çıxarılmış "soyqırım sәnәdi" qәbul etdirilmәsi istiqamәtindә ermәni lobbisinin fәaliyyәtidir.

Ermәni lobbisinin fәaliyyәtinin yönәltdiyi iki әsas mәqsәd "uydurma ermәni soyqırımı" dünya dövlәtlәri tәrәfindәn tanınması vә Azәrbaycan humanitar yardımı qadağan edәn 1992-ci ildә qәbul edilәn Azadlığın müdafiә





aktına 907-ci düzәlişi (Freedom Surrork Act: S,2532: PL 102-511) qüvvәdә qalmasıdır. 907 ci düzәlişin son bir neçә ildә dondurulması qismәn dә olsa güclü ermәni lobbisinin neytrallaşdırılmasının nәticәsi idi. Türkiyә әleyhinә yönәlәn "uydurma soyqırımı" tanınması istiqamәtindә isә işlәr daha fәal aparılır.

## *2. Mәdәni, elmi vә informasiya sahәsindә tәbliğat*

"Hәr yerdә ermәni var" şuranı әsas götürәn ermәni tәbliğatı böhtan, yalan vә saxtakarlıqdan ibarәt fәaliyyәti ilә onlarla qonşuluqda yaşayan xalqlarla bәrabәr, digәr xalqların da mәnafelәrinә toxunmaqla onları ixtiraflara vә müharibәlәrә mübtәla edir. Harada yaşamalarından asılı olmayaraq yüz faiz ermәniliyini saxlayan bu millәtin tәmsilçilәri hazırda Türkiyәnin vә Azәrbaycanın әleyhinә güclü tәbliğat işi aparırlar. Kütlәvi informasiya vasitәlәri, incәsәnәt vә digәr vasitәlәrdәn mәharәtlә istifadә edәn ermәni diasporunun tәbliğatı güclü maliyyә dәstәyi var. Türkiyәdә nәşr edilәn "Strateyik analiz" jurnalının mәlumatına görә, tәk tәbliğat işinin illik büdcәsi 100 milyon dolları әhatә edir.

"Ümumdünya statusu" qazanmış olan "ermәni mәsәlәsi"nin tәbliği xristianlığın tәbliği qәdәr mühüm әhәmiyyәt daşıyır. Ermәni kimliyinin qorunub saxlanması, mövcudluğu vә gәlәcәk tarixi mәhz "ermәni mәsәlәsi"nin tәbliği nәticәsindә gündәmdә qalmışdır. Adı çәkilәn mәsәlәni, baş vermiş hadisәlәri bir әfsanә halına gәtirәn ermәni tәbliğatı bir-birlәrindәn fәrqli milyonlarla insanı uydurma ortaq dәyәrlәrlә yaxınlaşdırılaraq bir arada tuturlar. Belәliklә, ermәni ideoloqları öz gәlәcәklәrini öz düşüncәlәrinә "güvәn" altına almış olurlar. Bunun üçün ilk növbәdә uydurma "ermәni mәsәlәsi"nin ermәnilәr, daha sonra mәskunlaşdıqları ölkәlәrin ictimai fikrindә vә son olaraq bütün dünyada tәbliğinә ciddi fikir verirlәr. Bütün dünyanı buna inandırmaq yönündә qurulan fәaliyyәt bir "missiya", hәtta "varolma sәbәbi" kimi görülür.

***İncәsәnәt sahәsindә tәbliğat***

İlk olaraq incәsәnәt sahәsindә ermәni diaspor tәbliğatı diqqәti cәlb edir. Bu istiqamәtdә fәaliyyәt işinә "İlin filmi", "İlin mahnısı", "İlin yazısı", "İlin rәsmi", "İlin kitabı", "İlin teatrı" kimi mükafatlar aiddir. Bu mükafatlar ermәnilәrlә yanaşı, digәr xalqların nümayәndәlәrinә dә tәqdim olunur. Bununla dolayısı yolla öz mәqsәdlәrini tәbliğ edәn ermәni diasporu yerli KİV orqanları ilә sıx әlaqәdә saxlayır.

Hәr hansı bir rәsm sәrgisindә kitab vә film tәqdimatında "ermәni mәsәlәsi" bölümü olmaqla vә yaxud ermәni musiqiçilәrinin konserti zamanı "ermәni mәsәlәsi"nin "qurbanları" alınır vә әtrafdakılara öz mәqsәdlәrini tәbliğ edirlәr. Sırf tәbliğat xarakteri daşıyan sәrgilәr, filmlәr, musiqilәr, mükafatlar, sәhnә әsәrlәri ictimai fikirdә "ermәni işi"ndә dәstәk qazanılmasına xidmәt edir.

Erməni diasporunun kino təbliğatı incəsənət çərçivəsindən çıxaraq siyasi məqsədlərə xidmət edir. Tam olaraq diaspor tərəfindən maliyyələşən filmlər türkçülük, azərbaycançılıq əleyhinə yönəlməklə nifrət, kin və böhtanlarla doludur. Erməni filmlərinin çəkilməsi, yayımı və videokaset satışı bir neçə iri kino şirkəti və fondu vasitəsilə həyata keçirilir. Əsasən Birləşmiş Ştatlarda yerləşən kino şirkətlərinin başında Erməni Film Fondu durur. Mərkəzi Holli-vudda olan bu fondun hesabına bir neçə sənədli və bədii film çəkilib. İki ayrı erməni filmləri festivalı keçirmək səlahiyyətinə malik olan fondla bərabər, aşağıdakı şirkətlərin adını çəkmək olar.

1. Film International - Los-Ancelsdə yerləşən şirkət erməni filmlərinin video və DVD kasetlərlə satışını həyata keçirir.

2. VGN Paradise, Inc-erməni şou dünyasında mühüm yeri olan şirkət Los-Ancekles, Moskva və İrəvanda ofislər açıb. Erməni filmlərinin təqdimatı və yayımı ilə məşğul olur.

3. ARC Film-sənədli və bədii filmlərin çəkilişi və yayımı ilə tanınan şirkətin sahibi rejissor Roger Kupelian-dır.

4. Bars Media-Azərbaycan əleyhinə filmlərin çəkilişi ilə məşğul olan şirkətin xarici TV kanalları ilə sıx əlaqəsi var.

5. NAREK-erməni diasporu arasında video, audiokasetlərin satışı və yayımını həyata keçirir. Əsasən İnternet vasitəsilə satış sistemini qurub.

Demək olar ki, erməni diasporunun hamisi olduğu bütün filmlər uydurma "soyqırım"a həsr olunub. Lakin 1988-ci ildən başlayaraq Azərbaycanı da hədəfə götürən diasporun "Ararat", "Həsrət", "Erməni davası", "Unudulmuş soyqırım", "Tarixi Ermənistan", "Amerika ermənilərı" və digər filmlərin adını çəkmək olar. Azərbaycanla əlaqəli olan filmlər aşağıdakılardır:

1. "Dağlardakı qaranlıq meşə" - Dağlıq Qarabağ hadisələrindən danışan sənədli filmin rejissoru Rocer Kupelyandır. Filmdə baş verən hadisələr açıq-aşkar təhrif olunmaqla tərsinə yozulur. Beynəlxalq hüquq normalarını pozan ermənilərin torpaqlarımızın 20 faizini işğal altında saxlamasını inkar edən bu film erməni yalanlarının bariz nümunəsidir.

2. "Dağlıq Qarabağ: erməni tarixinin üçüncü və dördüncü cildi" - Qarabağda anadan olmuş Don Əsgəryan tərəfindən 1988-ci ildə Almaniyada çəkilən 60 dəqiqəlik sənədli filmdir. Marqarita Voskanyanla birgə baş rolları bölüşən Don Əsgəryan filmi rus və erməni dillərində səsləndirib. İngilis və alman alt yazısı ilə nümayiş etdirilən filmdə Azərbaycan əleyhinə böhtanlar bütün normalara sığmır. Film bir neçə ölkədə "Etnik təmizlik-kirli gerçəyin təsviri" başlığı ilə nümayişə çıxarılıb.

3. "Avetik" - Don Əsgəryanın "Erməni soyqırımı" II Dünya müharibəsi illəri və Dağlıq Qarabağ hadisələrinə aid başqa bir filmdir. Almaniya-Ermənistan müştərək filmi olan "Avetik" 84 dəqiqəlik rəngli ekran "əsəri"dir.





4. Ararat - Kanadalı Atom Eqoyanın uydurma "erməni soyqırımı"na həsr olunan filmi türklərin "qaniçən", "qəddar", "zalım" olduğunu göstərir. Ermənilərin çəkdikləri əzablar filmdə şişirdilmiş halda göstərilir. 50 dəqiqəlik olan "Ararat" Rusiya, Fransa və qəribə olsa da Türkiyədə yayımlanıb.

Sənədli və bədii filmlərlə yanaşı, teatr səhəsində də iş aparılır. ABŞ, Fransa, Kanada, Rusiya, Avstraliya və digər ölkələrdə tez-tez erməni məsələsinə aid teatr tamaşaları göstərilir. Tamaşalar zamanı xeyriyyə günləri təşkil edilir və toplanan məbləğ digər işlərə sərf olunur. Erməni bəstəkarlarının əksər mahnıları, "soyqırım" və "Qarabağ"a həsr olunur. Şair və yazıçılarla bərabər, tarixçilər və jurnalistlər adları çəkilən mövzulara aid tez-tez çıxışlar edir, yazılar yazır, kitablar nəşr etdirirlər.

***Erməni təbliğatında KİV-in yeri***

Erməni diasporunun təbliğat işində KİV orqanlarının xüsusi yeri var. Xarici ölkələrdə, əsasən də Birləşmiş Ştatlarda güclü maliyyə dəstəyinə malik olan erməni KİV-i geniş informasiya şəbəkəsi qurmuşlar. Qərb ölkələrində bu gün ingilis və erməni dillərində çoxlu qəzet və jurnalistlər nəşr edilir, TV və radio proqramları yayımlanır. "Erməni məsələsi"nə həsr olunan yazılara böyük qonarar verməklə erməni qəzet və jurnalları qeyri-erməni jurnalistləri onlarla əməkdaşlığa cəlb etməyə çalışır və çox zaman buna müvəffəq olurlar. TV-də tez-tez erməni filmləri nümayiş etdirilir, radio proqramlarda erməni musiqisi səsləndirilir. Birləşmiş Ştatlarda nəşr edilən qəzet və jurnallardan aşağıda adları sadalananlar, demək olar ki, bütün ştatlara yayılır.

1899-cu ildən nəşr olunan "Nairenik Weekly", "Eritassart Nayastan", "Asbarez Armenian Daily", "Armenian Mirror Srectator", "Armenian Weekly", "California Courier", "Armenian Life Nai", "Massis Armenian Weekly", "Armenian Observer", "Armenian Reroter" və s. qəzetlər diaspor mühitində daha çox oxunan qəzetlərdir.

Amerikada sayı 113-ə çatan bülleten və jurnallar bütün ştatlarda dərc olunur. Bunlardan "Armenian International Magarine", "Navasart", "AMAA News", "Yournal of Armenian Studies", "Diasrora", "Trans Caucasus, A Chronology", "NAASR NEWsletter", "Sevan Newsletter", "Locus U.C.L.A.", "Nyc Syarzhoom" və digərlərinin adını çəkmək olar.

Radio proqram və kanalların sayı Birləşmiş Ştatlarda 22-yə çatır. Bu radio kanalların bir hissəsi 24 saat, bir hissəsi isə müxtəlif saatlarda yayımlanır. Amerikanın bir çox ştatında qulaq asılan radiolardan aşağıdakılar daha populyardır:

ARARAT Ametur Net", "Neritage of Armenian Culture", "Armenian TELE-Radio", "Armenian Culturel Nour", "Voice of America", "Armenian Service", "Armenian Outreach Radio", "Armenian Amerikan Radio Nour" və digər kanallar.

Birləşmiş Ştatlarda təkcə Kaliforniya ştatında erməni diasporuna məxsus 6 TV kanalı yayımlanır. Bunlar "Andre Danik Show", "Armenia Today", "Armenian Teletime", "Tele Armenia", "Norizon Armenian TV NOR Serount"dur.

Politoloq Rövşən Novruzoğlu Amerikanın ştatlarında Erməni informasiya - təbliğat işinin sxematik teonın aşağıdakı qaydada təbliğ edib5

1. Kaliforniya: 27 qəzet, 19 bulleten, 16 jurnal, 4 TV və radio kanal, 9 nəşriyyat, 2 agentlik, 11 video mərkəz.

2. Arizona: 2 qəzet, 4 jurnal, 1 TV və 2 radio kanal, 2 nəşriyyat, ermənilər üçün jurnalistika fakultəsi.

3. TEXAS: 7 qəzet, 5 jurnal, 2 TV və 2 radio kanal, 3 nəşriyyat, 1 agentlik.

4. Lunziana: 3 qəzet, 2 jurnal, ermənilər üçün tarix və jurnalistika fakultəsi, 2 TV və 3 radio kanal, 1 nəşriyyat.

5. Florida: 5 qəzet, 3 jurnal, 7 agentlik, 1 nəşriyyat, 2 TV və 2 radio kanal.

6. Virciniya: 1 qəzet, 2 jurnal, 1 agentlik, 1 nəşriyyat.

7. Vaşinqton: 14 qəzet, 7 jurnal, 8 TV və 4 radio kanal, 6 nəşriyyat, 71 bulleten, 3 agentlik, 14 videostudiya.

8. Pensenvaniya: 3 qəzet, 21 bülleten, 2 TV və 2 radio kanal, 1 agentlik, 2 nəşriyyat.

9. Nyu-York: 12 qəzet, 9 jurnal, 16 bulleten, 4 agentlik, 4 TV və 6 radio kanal, 22 videostudiya.

10. Men: 1 qəzet, 1 jurnal, 1 agentlik, 6 nəşriyyat, 2 videoqeydiyyat, 3 videokanal.

11. Miçiqam: 4 qəzet, 2 TV və 1 radio kanal, 4 nəşriyyat, 2 agentlik.

12. Montana: 2 qəzet, 6 jurnal, 2 TV və radio kanal, 2 nəşriyyat, 2 agentlik.

13. Oriqon: 6 qəzet, 4 jurnal, 3 TV və radio kanal, 1 kinostudiya, 7 agentlik.

14. Nevada: 3 qəzet, 3 bulleten, 4 jurnal, 2 TV və radio kanal, 4 videostudiya, 2 nəşriyyat. Adları çəkilən KİV orqanları mədəni, əbədi və dini proqramlar, yazılar adı altında siyasi iş aparırlar.

***Tələbə-gənclərlə iş***

Erməni diaspor təbliğatında önəmli yerlərdən birini tələbə-gənclər təşkilatları tutur. Tələbə və gənclərdən pul gücünə öz çirkin məqsədlərində istifadə edən erməni diasporu onların çoxunu təşkilati və lobbi işlərinə cəlb edir. Diasporun təkidi və onlar təhsil aldıqları ali və orta məktəblərdə tez-tez "soyqırım"a, "Qarabağ"a aid seminarlar, forumlar və digər tədbirlər təşkil edirlər. Bu yaxınlarda Amerika universitetlərinin birində erməni tələbə qızın özbaşınalığı, müəllimi həddən çıxmağa məcbur etməsi hadisəsini çoxları xatırlayır. *Diasporun təbliğatının digər nəticəsini biz Ermənistanın terroru dəstəkləyən* dövlətlər siyahısından çıxarılmasında görə bilərik.





Bu işdə erməni gəncləri və tələbələrinin "fəallığı"nı erməni KİV orqanları xüsusi qeyd etmişdilər.

Erməni diaspor təbliğatının bu qədər güclü olmasına baxmayaraq, son zamanlar gedən proseslər onların neytrallaşmasına şərait yaradıb. Azərbaycan diasporunda siyasi və təbliğat aktivliyinin artması erməni yalan və böhtanlarının ifşa edilməsinə şərait yaratmaqdadır. İnanırıq ki, Azərbaycan diasporu yaxın zamanlarda bu təbliğat mübarizəsində üstün mövqelər tutmağı bacaracaq.

***3. Terror və təcavüzkar müharibə!***

Erməni təcavüzkarlığının kökləri hələ sasanilər dövründə təsadüf edir. Bu tarixdən ermənilər qonşu kəndlərə basqınlar edir, dinc sakinləri qəti edir, onların mal-dövlətini əllərindən alırdılar. Lakin hüquqi cəhətdən erməni terrorizmin başlanğıcın XIX əsrin sonlarından götürür. 1890-cı il Ərzurum üsyanı, 1894-cü il sasun üsyanı, 1892-93-cü illər arası Kayseri, Yozqat, Merzifon çıxışları erməni terrorunun nəticəsi idi. Bunun qurbanları isə dinc türk və kürd kəndliləri idi. Ermənilər hətta Yunanları belə qətlə yetirməkdən çəkinmirdilər.

1915-ci ildən sonra artıq ermənilər terror aktlarını Avropanın və Amerikanın müxtəlif şəhərlərində həyata keçirdilər. Buna misal olaraq 1921-ci ilin 15 martında Türkiyənin eks daxili işlər naziri Tələt Paşanın Berlində terrorçu Saqomon Taleyran, tərəfindən, 9 ay sonra Romada Türkiyənin eks xarici işlər naziri Səid Səlim Paşanın terrorçu Arşavir Şirakyan, 1922-ci ilin 17 aprelində Berlində Bahəddin Şakir Bəy və Kamal Əzmi bəyin qətlə yetirilməsini göstərmək olar.

Bütün bunlar başlanğıc idi. 1965-ci ildə İrəvanda soyqırım qurbanlarının 50 illiyinə edilən abidə açılışının həyata keçirilməsindən sonra erməni terrorizminin təşkilatı və ən dəhşətli dövr başlandı. İrəvanda tədbirlər zamanı 400 min erməni əllərində "Qərbi Ermənistan (Anadolu) bizim olmalıdır", "Dağlıq Qarabağ bizimdir", "Naxçıvan erməni torpağıdır" şüarların əllərində tutaraq sovet hökumətindən tələblərinin yerinə yetirilməsini istəyirdilər. Sovet dövründə bu cür şüarların səslənməsi və cəzasız qalması erməni diasporunun güclü fəaliyyətinin nəticəsi idi.

1978-ci ildən ABŞ-ın Santa Barbara şəhərində iki türk diplomatı Məhmət Baydar və Bahadur Dəmirin qətlə yetirilməsi isə başlanan Yeni Erməni Terrorunun I mərhələsinin qurbanlarının sayı olduqca çox idi. 24 türk dimplomatı, onlarca türk, vətəndaşı ilə yanaşı fransız, amerikalı və digər terror qurbanı olublar.

Türkiyə, Amerika, Fransa, Belçika, İsveçrə, İtaliya, Bolqarıstan, Lünsemburq, Livan, İspaniya kimi dövlətlərdə törədilən dəhşətli partlayışlar, qətllər ermənilərin heç kimlə hesablaşmadığı göstərirdi. Hətta beynəlxalq terrorçu Karlos ermənilərlə sıx əlaqədə olmasını və onların Münhendə Olimpiya oyunları zamanı İsrailli idmançılara qarşı törədilən terror hadisəsini birgə törətdiklərini etiraf edib.

1984-cü ildən başlayaraq erməni terrorizmi II mərhələsini başlayır. Bu mərhələdə də artıq ermənilər diktəsi altında PKK (KADEK) ərəb terrorçuları və s. terror qrupları onların yanında, onların kürd terror təşkilatı, terrorizmin fəaliyyət dairəsini və məzmununu genişləndirdi.

1992-ci ildən etibarən erməni terroru və təcavüzkarlığını III mərhələsi başlandı. Azərbaycanın 20 faiz torpaqlarının işğal olunması, beynəlxalq terrorçu Səma Bin Ladenin terror antlarında ermənilərin iştirakı, 11 sentyabr hadisəsi erməni terrorunun hansı qüvvəyə malik olduğunu göstərir. Onlar hətta öz soydaşlarını belə qətlə yetirirlər. Erməni terrorizminin şüarı ilə aşağıdakı kimidir. "Mənim adım mübarizə, mənim nəticəm - Qələbə". Bu şüar altında adları aşağıda sadalanan terror qrupları fəaliyyət göstərir:

1. Hnçak 1887-ci ildə İsveçrədə yaradılıb. Təbliğat, terror, şantaj bu partiyanın əsas fəaliyyətidir.

2. Daşnaksütun - 1890-cı ildə Tiflisdə təsis edilib. Terror və şantaj bu partiyanın əsas iş prinsipidir.

3. ASALA - Erməni Azadlığı Üçün Erməni Gizli Ordusu 1975-ci ildə Akon Akopyan tərəfindən yaradılan ən güclü terror təşkilatıdır.

4. Yeni erməni mübarizəsi - Fransada yaradılıb. Paris və digər ölkələrdə partlayışlar törədib.

5. Erməni Azadlıq Cəbhəsi - 1929-cu ildə yaradılan təşkilat Türkiyə və Azərbaycana qarşı terror hadisələri törədir.

6. Erməni Birliyi - 1988-ci ildə Vazgen Sisilyan yaradıb. Əsas mərkəzi Qarabağ və Moskvada yerləşir.

7. 7 oktyabr qrupu - ASALA tərəfindən yaradılıb.

8. 9 iyun qrupu - 1991-ci ildə İsveçrədə yaradılıb.

9. Erməni Azadlıq Hərəkatı - 1991-ci ildə Fransada yaradılıb. Mərkəzi bürosu İrəvanda yerləşir.

10. Erməni Gənclər Birliyi - 1990-cı ildə Fransada yaradılan birlik Qarabağın Ermənistana birləşdirilməsinə çalışır.

11. GEKO (Gizli Erməni Azadlıq Təşkilatı) - 1975-ci ildə Suriya ermənilərı tərəfindən yaradılıb. Türk diplomatların qətlə yetirməkdə əli var.

12. Demokratik Cəbhə - ABŞ, Kanada, Qərbi Avropada terror təşkilatlarını ətrafında birləşdirib.





13. Siyasi Dustaqlara kömək üçün Erməni Komitəsi - İsveçrə hökumətilə mübarizə aparmaq üçün yaradılıb.

14. Özünəqəsd qisasıları - 1981-ci ildə Fransada türk səfirliyə basqın edən qrup.

15. Erməni Mübarizə Təşkilatı - 1992-ci ildə Parisdə yaradılıb.

16. Erməni Gənclərinin Basqın Təşkilatı - Beyrutada fəaliyyət göstərir.

17. Erməni soyqırımının Ədalətli Qisasçıları - 1973-cü ildə Los-Ancelesdə yaradılıb.

18. Erməni İnqilab Ordusu - Beyrutda 1984-cü ildə yaradılıb.

19. Azadlıq pələngləri - 1991-ci ildə Qarabağda terror məqsədilə yaradılıb.

20. Qartal Cəmiyyəti - 1981-ci ildə Fransada yaradılıb.

21. İsveçrə qrupu - Fransa, Yunanıstan və İtaliya filialları olan təşkilatdır.

Hayastan, Avropa, Afrika, Asiya, Amerikada məskunlaşan erməni diasporunun inkişafında və formalaşmasında fəal mövqe tutur.

Bütün adları sadalanan və adları çəkilməyən onlarca erməni terror qrupunun əksər hissəsin diasporun nümayəndələri təşkil edir. Erməni terroru günü-gündən qüvvətlənir və nəzarətdən çıxır. Diasporun artıq öz terrorçularından yaranan qorxusu da görünməkdədir. Yeganə məqsəd olaraq terrorçular türkləri və azərbaycanlıları qətlə yetirməyi qarşılarına qoyublar. Erməni terroru isə öz məkrli siyasətin yeritməkdə dünya ilə susmaqda davam edir.

Lakin rəsmi səviyyədə Fransa hökuməti 2001-ci ilini 18 yanvarında "soyqırım"ı tanınıb. Adları sadalanan dövlətlərdə isə məsələ gündəmə gətirilib və bu istiqamətdə bir sıra qətamələr qəbul olunmuşdur.

1965-1972-ci illər Cənubi Uruqvay Respublikası, 1992-ci ildə Avstraliyanın Yeni Uels ştatı, 1998-ci ildə Argentinada 1998-2001-ci illər arası Kanada, 1997-1998-ci illər Belçika, 2000-ci illərdə İtaliya, 2000-ci ildə Avstriya, 2000-2003-ci illərdə İsveçrə, 1995-2001-ci illərdə Rusiya, 2000-ci ildə Almaniya, Hollandiya 2001-ci ildə, 2001-ci ildə Almaniya, İran İslam Respublikası 2001-ci il Livan, 2000-ci il, 1996-cı ildə Yunanıstan və 1925-ci ildən bu günə qədər. Bunlardan əlavə BMT-nin azlıqda qalan millətlərin hüquqlarının müdafiə komitəsində 1973-cü ildə, 1986-2000-ci illərdə Avropa Parlamenti, 2001-ci ildə Avropa Şurasında da bu məsələ gündəmə gətirilib.

### Erməni diasporunun yayılma coğrafiyası

Ermənilərin məskunlaşdıqları Amerika, Avropa, Asiya, Afrika və Avstraliya qitələrində onların yaşayış tərzi bir-birlərindən fərqlənsə də, onların fəaliyyəti bir istiqamətdə aparılır.

***Şərqi Avropa*** - Burada erməni diasporunun fəaliyyəti passiv hesab olunur. Onların çox hissəsi assimlasiyaya uğrayıblar. Polşa, Macarıstan, Rumıniyada, Bolqarıstanda, onların sayı olduqca azalıb. Ukraynada bir qədər ermə-

nilər çoxluq təşkil edir. Buradan erməni gəncləri zamanla Qərbə doğru mühacirət edirlər.

Təqribən 5 min erməni Rumıniyada 8 minə yaxını Bolqarıstanda isə digər ölkələrdə qalıb.

***Qərbi Avropa*** - XX əsrin sonlarında buradakı erməni diasplrunun fəaliyyəti bir qədər aktivləşib. Xüsusilə Fransada "soyqırımı" tanıdılmasını qeyd etmək olar. İtaliya, Hollandiya, Almaniya, İngiltərədə erməni diasporunun fəaliyyətində də intensivlik hiss olunur. Belçika və Hollandiyada ermənilər mədəni, Fransada hərtərəfli, Avstriya, İngiltərədə ticari sahədə daha aktivdilər. Digər dövlətlərdə onların fəaliyyəti ticari, mədəni və elmi shaədə bir qədər fəaldır.

Qərbi Avropa erməniləri elm, incəsənət və iqtisadi sahələrdə xeyli uğurlar əldə ediblər. Bu isə onların müəyyən məsələlərdə irəlidə olmasına şərait yaradır.

***Yaxın Şərq*** - Bu ərazidə ermənilərin fəaliyyəti olduqca fəaldır. Xüsusilə Livan və Suriyada ermənilərin dayaqları güclüdür. Livan prezidenti M.Kəddafinin yoldaşı erməni qızıdır. Beyrut dünya ermənilərinin əsas mərkəzlərindən biridir. Misir, Sudan, İordaniya, Efiopiya da onlar azlıq təşkil etmələrinə baxmayaraq imkanlı etnik qrup hesab olunurlar. Xartumdakı erməni kilsəsi Yaxın Şərq bölgəsində ən böyük erməni kilsəsidir. Fələstin lideri Yasir Ərəfat ermənilə "qardaş" olması isə çoxlarına məlumdur. İranda da ermənilər az olmalarına baxmayaraq 30 milyon Azərbaycanlıdan qat-qat güzəştlərə malikdirlər.

***Cənubi Asiya və Avtsraliya*** - Kəlkütdə də daha çox fəal olan ermənilər bu bölgədə az saylı məskunlaşıblar. Buranın erməniləri Qərbə daha çox meyllidirlər. Çin, Sinqapur, Maleziya, Fillipində erməniləri varlı qrupa aiddilər.Burada 35.000 erməni yaşayır. Qəzet, jurnal nəşr edir, klub və kitabxanalara malikdirlər.

***Cənubi Amerika*** - XX əsrin əvvəllərindən bu bölgəyə mühacirət edən ermənilər Braziliya, Uruqvay, Argentina, Kolumbiyada çoxluq təşkil edirlər. 1940-cı ildən isə onlar bu bölgənin ictimai-siyasi həyatında iştirak edirlər. Burada erməni kilsələri, məktəbləri, KİV orqanları fəaliyyət göstərir. Braziliya ilə Ermənistan arasında ikitərəfli əlaqələr güclüdür. Kolumbiyada isə Armeniya adlı şəhərdə var.

Bu regionda erməni diasporu 1920-ci ildən sonra formalaşmağa başlayıb. Rusiya və Amerikadan erməni diasporunu isə ayrıca olaraq geniş tədqiqi onların bu dövlətlərdəki fəaliyyətinin daha güclü olması ilə əlaqəlidir. Eyni zamanda hər iki dövlətdəki erməni diasporu arasında gözəgörünməz gərginlik də mövcuddur.





***Rusiya*** - Buradakı erməni diasporunun fəaliyyəti uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalmışdır. 1990-cı illərin əvvəllərindən başlayaraq ermənilərin bu ölkədəki durumu və fəaliyyəti xüsusi olaraq tədqiqat obyektinə çevrildi.

X-XI əsrdən ermənilər Kiev Rus dövlətinə, XIV əsrdən isə Moskvaya mühacirət etməyə başladılar. Bu şəhərlərdə məskunlaşan ermənilər ticarət və tibb sahəsində çalışırdılar. XIII əsrdə artıq Lvov şəhərində erməni məhlələri var idi.

XIV əsrdə Ermənilər Moskvada siyasi mövqe qazanmağa başladılar. Onların Rusiya içərilərinə doğru mühacirəti fəallaşdı. Rusiyada güzəştlərə malik olan ermənilər torpaq sahələri almaq və evlər tikməkdə sərbəst idilər.

1659-cu ildə Zaxar Saqradyan adlı tacir Rusiya çarına qiymətli hədiyyələr verməklə 1607-ci ildən ermənilərin Avropa və Asiya bazarında mövqeyini möhkəmləndirdi. Ermənilərin Osmanlı imperiyasında sayca çox olması I Pyotrun Şərq siyasətində onlara xüsusi diqqət verməsinin əsas səbəbi idi. 1695-ci ildə I Pyotr İran şahına erməni tacirləri üçün əlverişli şərait yaratması üçün 4 məktub göndərmişdir. 1711-ci ildən isə ermənilər Rusiyadan vergi ödəmədən qiymətli daşlar çıxarmaq hüququ əldə etdilər.

İsrail Ori Rusiya çarı ilə görüş zamanı Ermənistan dövləti yaradılması barədə xüsusi razılıq aldı. I Pyotrun ona söz verməsinə baxmayaraq, Qafqaz bglgəsində Rusiyanın müəyyən zaman zəif olması bu razılaşma həyata keçmədi. Erməni diasporu Rusiyada XIX əsrin ortalarında "Uysais" və "Araks" adlı qəzet dərc edirdilər.

Bosofar və Dardanel boğazlarında gözü olan I Pyotr Osmanlı imperiyasını daxildən parçalamaq üçün ilk dəfə olaraq erməni məsələsini ortaya atdı. Plana görə ermənilər üsyanlara başlamalı Rusiya isə Balkan və Qafqaz torpaqlarındakı "xristian bacı və qardaşları xilas üçün" məsələyə qarışırdı.

Gözlənilənlərin əksi olaraq erməni məsələsi beynəlxalq müstəviyə çıxdı. Burada isə Avropadakı ermənilərin rolu çox idi. Ermənilərin ikibaşlı siyasəti İngiltərənin və Avropanın məsələyə qarışmasına şərait yaratdı.

Ərzurumdakı Rusiyanın baş konsulu Moyevski çara göndərdiyi məktubda aşağıdakıları qeyd edirdi.

"Əslində Rusiya hökuməti ermənilər tərəfindən onların dözülməz şəraitdə yaşamaları barədə göndərilən məktublar əsassızdır. Burada onlar hər cür azadlıqdan istifadə edirlər. Erməni kəndlilərinin vəziyyəti Rus kəndlərindən daha yaxşıdır".

1813-cü il Gülüstan və 1828-ci ildə Türkmənçay müqviləsindən sonra Rusiya hökuməti İrandan və Rusiyadan 140 min ermənini zorla İrəvanda yerləşdirdi. Bu addım Asiyadakı erməni diasporu tərəfindən narazılıqla qarşılandı. Buna baxmayaraq 1916-cı ildən sonra Rusiya ərazisindəki ermənilər "qurban" kimi xüsusi imtiyazlar əldə etdilər.

Sovetlər Birliyi qurulduqdan sonra Ermoni diasporu yeni dövlətdə yüksək dövlət postlarında işləyirdilər. Onların fəaliyyəti xüsusilə 1930-40, 1945-1960, 1960-62, 1962-91-ci illər və Sovet Birliyi dağıldıqdan sonrakı dövrdə daha güclü idi.

1930-40-cı illər - Bu dövrdə erməni diasporunun fəaliyyətinin nəticəsi olaraq İrəvandan azərbaycanlılar çıxarılaraq orada ermənilər yerləşdirildi.

1945-1960-cı illər - Erməni diasporu Molotovun rəhbərliyi altında Türkiyədən torpaq tələb etməyə başladılar. 26 min kv2 ərazi iddiasında olan erməni diasporu 20,500 kv2-Ermənistana verilməsini planlaşdırmışdı. Lakin Xruşovun hakimiyyətə gəlməsindən sonra bu plan pozuldu.

1960-1962-cı illər Ermənilərin yenidən İrəvanda yerləşdirilməsi dövrü azərbaycanlılar Kürqırağı ərazilərdə məskunlaşmalı oldular.

1962-1991-ci illər - 1965-ci ildə İrəvanda "soyqırım" hadisəsi 400 min erməninin iştirakı ilə keçirilir. Erməni diasporu bununla Sovetlər Birliyində Milli məsələlərin başlanğıcını qoydular. 1970-ci ildən isə erməni alimləri Zori Balayan, Abel Aqenbekyan kimi nüfuzlu ermənilərin fəaliyyəti 1988-ci ildə Azərbaycana qarşı açıq-aşkar təcavüzəkar müharibənin başlanmasına səbəb oldu. Nəticədə Sovetlər Birliyi parçalandı və Ermənistan Respublikası yaradıldı.

Hazırda Rusiyadakı erməni diasporunda fikir ayrılığı var. diaspor təşkilatları arasında rəqabət mövcuddur. Təbliğat və mədəni sahədə Rusiyada iş aparan ermənilər siyasi cəhətdən fəallıq göstərmirlər.

Rusiya XİN-nin Diplomatik Akademiyasının əməkdaşı T.Poloskova Rusiyadakı erməni diasporunun durumun aşağıdakı kimi izah edir.

1. Rusiyada erməni diasporu sosial və etnomədəni anlamda müxtəlif tərkiblidir. Yenidənqurmaya qədər Rusiyada məskunlaşan ermənilər ictimaiyyətə tam adaptasiya olunublar. Onlar isə 90-cı illərin mühacirlərinə münasibətdə bir qədər ehtiyatlı davranırlar. Eyni zamanda Ermənistandan olan ermənilərlə digər MDB erməniləri arasında icmadaxili münaqişə var. Bakı, Kiev, Moskva erməniləri Ermənistanın hazırkı xarici siyasətini pisləyirlər.

2. Uzun müddət Rusiyada yaşayan və artıq adaptasiya olunan ermənilər ümumerməni məsələsində külli-miqdarda vəsait xərcləməkdən çəkinirlər. Yalnız iqtisadi məsələlərdə onlar lobbiçiliyə əl atırlar.

3. Rusiyada erməniləri birləşdirici diaspor-partiya münasibəti və mübarizəsi yoxdur. Bu rolu öz üzərinə götürən Daşnaksütun, Hnçak, Ramkavar partiyalarının şəbəkə strukturu yoxdur.

Hal-hazırda erməni diasporunda ikili fəaliyyət mövcuddur. Bir qrup passiv, iqtisadi maraqlar güdən və assimlasiya olunmuşdur. Onlar Ermənistanın və ümumerməni işinin apardığı siyasətin əleyhinədir. Türkiyə ilə sıx əlaqələri olan bu qrup "soyqırım" məsələsinin çürüdüyün bildirirlər.





İkinci qrup isə əsasən 90-cı illərin mühacirləri vətənpərvərlik, odlu çıxışlar edir, erməni işinə yeni çalarlar gətirilməsini tələb edirlər. Romantizm hisslərini yersiz hesab edərək, bu qrup yaşlı təbəqənin passivlikdə ittiham edirlər.

Erməni diasporunun Rusiyadakı təşkilatlarından: "Moskva Ermənilər Birliyi", "Erməni Gənclər Mərkəzi", "Beynəxalq Erməni Tələbələr Birliyi", "Rusiya Erməni Əlaqələr Mərkəzi", "Rusiya-Erməni Dostluq Federasiyası" ilə yanaşı "Erməni ailəsi", "Erməni xəbərləri" və digər qəzetləri nəşr olunur. Ermənilər Rusiyanın ziyalı, siyasi və ictimai xadimləri ilə tez-tez görüşləri keçirilir. Bu cür görüşlərdə ermənilərin Rusiyadakı durumu, lobbiçilik fəaliyyəti, uydurma "soyqırım", Qarabağ münaqişəsi və digər məsələlər müzakirə olunur

Kriminal qrupların çoxunu yüksək çinli ermənilər himayə edir. Onların biznesləri güclü inkişaf edir və Moskva erməniləri azərbaycanlılarla əlaqələr qurmaqla müharibə barədə danışmırlar.

***Amerika Birləşmiş Ştatları*** - Dünya ermənilərinin ən güclü dayaqları və fəaliyyətinə görə aktiv hesab olunan diasporu ABŞ-da yerləşir. Hərtərəfli fəaliyyətlərinə görə Amerikadan 10 əsas etnik qrupdan biri və lobbiçiliyə görə 5 əsas lobbi qrupuna malik olan erməni diasporunun keçdiyi yol çox maraqlıdır.

Ermənilərin Amerika ilə tanışlığı 1810-cu ildən başlayır. Amerika ilə Türkiyə əlaqələri inkişaf etdikcə zəngin erməni tacirləri hissə-hissə Amerikaya köçməyə başladılar. Ermənilərin Amerikaya köçməsini isə missioner təşkilatlar təşkil edirdi. İlk əvvəllər ziyalı və varlı təbəqədən sonra erməni gəncləri və uşaqları bu ölkədə yaşamaq, təhsil almaq üçün mühacirət edirlər.

Ermənilərin Amerika vətəndaşlığı alması digər etnik qruplardan daha asan olurdu. 1840-cı ildə Amerikanın nüfuzlu universitetlərində erməni gənclər təhsil alırdılar. Onlar xüsusi olaraq Nay Tah-ümumerməni məsələsi üçün hazırlanırdılar. Məhz bu ermənilər gələcəkdə Türkiyədə və Qafqazdakı qırğınların təşkilatçıları idilər.

1840-1910-cu ildə tərkibi ziyalı, tacir, həkimlrədən ibarət 10 min erməni Amerikada qeydiyyatda idi. 1915-ci ildənc sonra Amerikaya axını güclənən ermənilər onlara yaradılan şəraitdən istifadə edərək diasporların formalaşdıra bildilər.

Bu tarixdə 25 min erməni Amerikanın Qərb sahillərində məskunlaşdı. ölkə prezidenti Vudra Vilsonun ermənlirə xüsusi rəğbəti var idi və bu rəğbət onun anti-türk baxışlarından yaranmışdır.

1924-cü ilə Amerika mühacirlər üçün sərt qoşunları qəbul edən tarixə qədər burada 200 minə yaxın erməni qeydiyyatda idi. 1965-ci ildə isə artıq bu say 400 minə çatmışdır.

1965-ci ildə Liberal mühacirət qanunlarının qəbul olunması ilə digər etnik qruplar kimi ermənilərində bu ölkəyə axını başlandı. Yaxın Şərq və Rusiya bölgəsindən Amerikaya gələn ermənilər burada qüvvətli diaspor tərəfindən qarşılanır, işlə və evlə təmin olunurdu. Bir-birlərilə sıx əlaqə quran ermənilər diasporun qüvvətlənməsi istiqamətində işlərin cəmləşdirdilər. Əlaqələndirici rolunda isə erməni kilsəsi çıxış edir. Kilsə burada ümumerməni fonduna rəhbərlik edir maliyyə toplanmasını təşkil edir, ideoloji iş aparır.

Maccarycentc Armenian Evangelical Churchov martyrs. 1889-cu ildə Rod-Aylender Armenian EUPN Rates Evangelical Church və s. ilə daim əlaqə saxlamaqla lobbiçilik fəaliyyətdə "xeyir-dua" alırlar.

Bura məktəblərin açılması, kitabxanaların qurulmasında daxil etmək olar.

Kilsənin başçılığı altında fəaliyyət göstərən Erməni diasporu istənilən məsələni öz xeyrlərinə dəyişə bilər. Erməni diasporu gücü isə 2003-cü ildə məlum oldu Ədliyə Nazirliyinin Ermənistanı terroru dəstəkləyən dövlətlər sırasına aid etməsi lobbini hərəkətə gətirdi. Nəticədə nazirlik öz qərarını dəyişməli oldu.

Erməni diasporu sayəsində hər il ABŞ Ermənistan üçün külli miqdarda maliyyə yardımı ayırır. Ermənistanın təcavüzkar siyasəti və terrorizmini dəstəkləyən ermənilərin Amerikada aparıcı təşkilatları aşağıdakılardır:

1. **Amerika Erməni Assembleyası** -Non profit organization - gəlir məqsədi güdməyən sosial statuslu təşkilat ən güclü lobbi təşkilatı olaraq əsas fəaliyyət istiqaməti Amerika ictimaiyyətində ermənilər barədə müsbət imic qazandırmaq, ermənilərin hüquqlarının müdafiəsi, təhsil, elm, incəsənət və mədəniyyət sahəsində tədbirlər keçirtmək. AEA - ABŞ konqresində xüsusi bülletinlər yayır ildə 30 tələbəni Amerikaya təhsil almağa göndərir.

2. **Erməni Milli Komitəsi (AMS)** - Amerikada və dünyada filiallara malik olan komitə əsasən Ermənistanın maraqlarını təmin etmək, ikitərəfli dövlət əlaqələrini inkişaf etdirmək, "soyqırımın" tanıdılması və müxtəlif səpgili tədbirlər.

Amerikada erməni diasporunun maraqları hakimiyyətin və digər qurumların orqanlarında təmin olunur. Onların əksər hissəsi Demokrat Partiyasının üzvü olmalarına baxmayaraq, seçkilər zamanı 90 faizi Respublikaçılar Partiyasına səs verirlər. "Kaliforniya ştatında qalib gələk demək ölkə prezidentidir" kəlməsi məhz ermənilərin burada daha aktiv olmasını göstərir. Erməni diasporu çalışır ki, nümayəndələri arasında əlaqə intensiv olsun. Bu məqsədlə hər bir bölgədə pulsuz qaynar xətt - telefon xəttləri fəaliyyət göstərir. Bunun vasitəsilə anti-erməni hadisəsi və ya addımından dərhal xəbər tutan diaspor rəhbərliyi dərhal adekvat tədbirlər görür. Varlı ermənilər öz pulların ümumerməni işinə sərf etməkdən belə çəkinmirlər. 1998-ci ildə Kirk Kirkoryan 85 milyon dollar Ermənistan-İran magistral xəttinin çəkilişilə ayırmışdı.





Ermənilər tez-tez görüşlər keçirirlər. Bu görüşlərin çox zaman qonaqları konqresmenlər, politoloqlar, ictimai xadimlər olur. ONLINE forumlarda ermənilər öz fikirlərini bildirirlər. Tək PAL-TALK adlanan səsli çat otaqlarında ermənilərin 50-dən çox otağı vardı. Burada onlar dil öyrənir, musiqiyə qulaq asır, fikir mübadiləsi aparırlar.

Amerikada erməni diaspor təşkilatlarınınfəaliyyətinin də xüsusi qeyd etmək lazımdır. Diaspor təşkilatların lobbiçilik fəaliyyətilə yanaşı, mədəni, elmi, ictimai, işlərlə məşğul olurlar. Bu təşkilatlar aşağıda adları sadalananlar fəallığa və üzvlərinin sayına görə seçilirlər:

1. **Vaşinqtonda Erməni Kültür Assosasiyası** - 1988-ci ildə təsis olunub. Erməni mədəniyyəti, dili, ədəbiyyatı, musiqisinin təbliği ilə məşğul olur. Assosasiya Vaşinqton ermənilər arasında əlaqələrin saxlanılmasında mühüm rol oynayır.

2. **Koliforniyada Amerika Ermənilərinin Vətəndaş Liqası** - 1931-ci ildə yaradılan liqanındigər ştatlarda filialları var. Əsas fəaliyyət məqsədi Amerika ictimaiətilə erməni mədəniyyətini təbliğ etmək, assimlasiya olunmamış qarşısını almaq, erməni tələbələrinin dəstəkləməkdir.

3. **Erməni Film Fondu** - Kinobiznes sahəsində fəaliyyət göstərən ermənilər və digər aktyorları arasında iş aparır, onların diasporda görüşlərini keçirir. Kino filmlərdə ermənilərin iştirakını təmin edir.

4. **Ararat Fondu** - Erməni tarixinin, musiqisini, incəsənətini təbliğ etməklə məşğulü olur. Dini təbliğatla məşğul olan fond kitabları himayə edir. Qədim erməni əlyazmalarının tədqiq edilməsinin maliyyələşdirir.

5. **Tekayan Mədəni Assosasiyası** - 1964-cü ildə Kanada yaradılıb. Ancaq daha aktiv fəaliyyəti Amerikadır. Müxtəlif səpgili forumlar, seminar, konfranslar keçirir. TV və Radio proqramlarını himayə edir. Erməni məktəbləri, kitabxanaları, araşdırma mərkəzlərinə maliyyə dəstəyi verir.

6. **Amerikada Erməni Missioner Assosiasiyası** - kilsə rəhbərliyi altında göstərən Assosiyanın erməni xristianla bağlı qardaşları devizi altında pul toplanması həyata keçirilir. Dini kitablar, nəşr etmək görüşlər keçirməklə də məşğul olur. Assosasiya dini siyasətləşməkdədir.

Adları çəkilən təşkilatlara "Ararat", "Erməni Evi", "Erməni Assosiasiyası", "Erməni Kültür Assosiasiyası" və s. əlavə etmək olar. Erməni diasporunun Amerikada və dünyadakı fəaliyyətinin tədqiq edilməsi zamanı bir sıra qaranlıq məqamları aşkar edilir. Bu Qərb və Rusiyadakı erməni diasporlarının Ermənistan xarici siyasətinə nəzarət üzərində apardıqları gözəgörünməz mübarizədir. Lakin hələ tədqiq ediləsi tərəfləri çoxdur. Erməni diasporu barədə araşdırma işləri davam edir və onların zəif nöqtələri üzə çıxarılacaq və

onların neytrallaşdırılması nəhayət ki, baş verəcək, hələlik isə Ermənistanın özü çətinliklərlə üzləşməli olub.

Erməni diasporunun təsiri altına düşən Ermənistanın əsas idxalının xarici yardım, ixracının isə terrorizm olduğunu bildirən "Ermənistan: böyük hiylə-terrorçu xristian dövlətlərinin sirləri" kitabının müəllifi, mərhum Samuel Vims bugünkü Ermənistanın xudbin və yanlış hərəkətlər etməkdə olduğunu qeyd edib.

İlk illərdə Ermənistan üzərində güclü təsirə malik olan Qərb erməni diasporu zamanla öz mövqeyini itirərək Rusiya ermənilərinə güzəştə getməli oldu. Bununla da diaspordaxili gizli mübarizəyə başlayan Qərb erməniləri ilə Rusiya erməniləri hətta bəzi prinsipial məsələlərdə ümumi razılığa gələ bilmirlər. Ermənistanın xarici siyasətində diasporun təsiri və nəzarəti məsələsi Levon Ter-Petrosyan və Robert Köçəryan hakimiyyəti dönəmində başqa-başqa istiqamətlərdə özünü göstərib.

***Lev Ter-Petrosyan dövründə erməni diasporu***

Müstəqillik əldə edən Ermənistanın ilk prezidenti olan Levon Ter-Petrosyanın hakimiyyəti illərində diasporun Ermənistanın xarici və daxili siyasətinə az təsiri olduğu məlumdur. Hakimiyyəti illərində Ter-Petrosyan Qərb ermənilərinin namizədi olmasına baxmayaraq, həm onlar, həm də Rusiya erməniləri tərəfindən yetirdiyi siyasətə görə müxtəlif təzyiqlərlə üzləşməli oldu. Rusiyanın mövqeyinin Ermənistanda güclənməsinin əleyhdarı olan Petrosyan Lissabon sammitindən sonra söylədiyi "Bu gün ermənilər anlamalıdırlar ki, Rusiya Qarabağın müstəqilliyini tanımayacaq. Görəsən erməni xalqı Rusiyanın oyuncağı olaraq nə vaxta qədər qalacaq" - fikri onun prezident kürsüsünün tərk etməsinin əsas səbəbi idi.

Petrosyan dönəmində Türkiyə və digər dövlətlərlə münasibətlər qurulması, Dağlıq Qarabağ məsələsində kompromisə gedilməsi, Rusiya ilə münasibətlərin pozulması Qərb və Rusiya ermənilərinin maraqlarına zidd idi. Daşnakların fikrinə görə, Ermənistanın problemlərini həll etməyə Petrosyan hakimiyyətinin yetərincə gücü yox idi. Bu məqsədlə öz namizədlərini irəli sürən daşnaklar Rusiya ermənilərinin güclü müqavimətilə qarşılaşdılar. Petrosyanın hakimiyyətdən getməsi məsələsində Qərb və Rusiya ermənilərinin mövqeyi eyni idi: Levon Ter-Petrosyan "Ümumerməni işi"nə fayda verə bilməcək, şəxs deyil. 1994-cü ilin 28 dekabrında Ter-Petrosyan Ermənistanda daşnakların fəaliyyətini qadağan etməklə ölkəyə Qərb ermənilərinin təsirini azaltdı. Erməni lobbisinin fəaliyyətini qınayan Petrosyan lobbiçiliyin də həddi-hüquqi olduğunu bildirərək, sonda onun Ermənistanın milli maraqlarına zərər verəcəyini qeyd etmişdi. 1997-ci ildə Petrosyanın ATƏT-in Minsk Qrupunun Dağlıq Qarabağ məsələsinin çözülməsi üçün təklif etdiyi layihə ilə razılaşması Qərb





və Rusiya ermənilərinin səbr kasasını dolduran "son damla" oldu. 1998-ci ildə Rusiyanın təzyiqi ilə Levon Ter-Petrosyan istefaya göndərildi.

***Robert Köçəryan dövründə erməni diasporu***

Köçəryanın namizədliyi məsələsində Qərb ermənilərinin güzəştə getməyə məcbur edən Rusiya erməniləri onun prezident seçilməsindən sonra zamanla Ermənistanın daxili və xarici siyasətini öz nəzarəti altına götürdü. Amma Köçəryan həm də ABŞ-dakı daşnakların dəstəyini alan və onlarla sıx bağlılığı olan siyasətçidir. O, diasporun rəğbətini qazanmaq üçün uydurma "erməni soyqırımı" və Dağlıq Qarabağ məsələsində sərt mövqe göstərməli oldu.

Qərb və Rusiya erməniləri arasında münasibətlərin normallaşması məqsədilə Köçəryan Ermənistanın xarici və daxili siyasətini onların hər ikisinin maraqlarına uyğun qurmalı oldu. Köçəryanı Qərb siyasi dairələrinə təqdim edən diaspor onun siyasətçi kimi "bişməsində" - mühüm rol oynamışdı.

1999-cu ilin sentyabrında və 2002-ci ilin mayında İrəvanda Dünya Erməni Konqresinin növbəti toplantısını keçirən Köçəryan Petrosyan dönəmində diasporla Ermənistan hakimiyyətinin pozulmuş münasibətlərini yenidən bərpa etdi. Ancaq bu addımlar Qərb və Rusiya erməni diasporları arasında olan qarşıdurmanı aradan qaldıra bilmədi.

İrəvan konqresində fikir ayrılığı, baxış fərqləri və nəzarət məsələsi üzərində başlanan mübahisələr sonrakı proseslərdə özünü göstərdi. Rusiya Erməniləri İttifaqının prezidenti Ara Abramyanın Birləşmiş Ştatlarda keçirdiyi görüşlər Qərb və Rusiya erməniləri arasında münasibətlərin normallaşması üçün bu ilin oktyabr ayının 5-7-də Moskvada ümumdünya erməni qurultayının keçirilməsi razılığına gəlmişdi. Bu qurultayı eyni zamanda Rusiya erməni diasporunun Qərb ermənilərindən Ermənistana köçürülməsi məqsədilə mənimsədiyi külli miqdarda pulların hesabatı kimi də qiymətləndirmək olar.

Bu gün Köçəryana dəstək verən Qərb və Rusiya erməni diasporlarından ikincisi Ermənistan üzərində güclü təsirə malikdir. Buna baxmayaraq, Qərb ermənilərinin də nəzarətinin olması faktını danmaq olmaz.

Qərb erməniləri Ermənistanın daxili və xarici siyasətinə təsir etmək üçün maddi və lobbiçilik faktorundan istifadə edirlər. Onlar Ermənistanın bir övuc "sakininin" "Ümumerməni işi"nin davamçısı olmayacağına əmindirlər və Rusiya erməni diasporunu erməni ideyalarını passiv təbliğ etməkdə günahlandırırlar. Uydurma "erməni soyqırımı" 907-ci düzəlişi gündəmdə saxlayan Amerika erməni diasporu burada və Avropada yaşayan erməniləri birləşdirməyə çalışır. Bununla Ermənistana dayaq olduqlarını göstərən ermənilər eyni zamanda öz çirkin ideologiyalarını təbliğ edirlər.

Hazırda Ermənistanın xarici siyasəti diasporunun təsiri və nəzarəti altında Türkiyə və Azərbaycan əleyhinə müxtəlif istiqamətlərdə aparılır. Terrorizm və işğalçı müharibə yolu ilə aparılan, Qafqazda Gürcüstan-Azərbaycan

əməkdaşlığının pozulması və regionda Rusiya təsirinin gücləndməsinə yönələn, Azərbaycanın neft siyasətinə əks olan və terror, şantaj, yalanla gerçəkləşdirilən, uydurma erməni soyqırımının tanıdılması və bundan sonra Türkiyə Ermənistan sərhədlərinin açılmasına hesablanan, Xəzər dənizinin enerji resurslarının istifadəsi və Avropaya çıxarılmasında Ermənistanın iştirakını nəzərdə tutan istiqamətlər bu siyasətin əsas tərkib hissələridir.

Hazırda diasporun iqtisadi və siyasi təsirinin Ermənistan üzərinə təsiri və nəzarəti qalmaqdadır. Düzdür, Qərb və Rusiya erməni diasporları bu məsələdə ümumi razılığa gəlməyiblər. Buna baxmayaraq, Ermənistanın xarici və daxili siyasəti onların maraqlarına uyğun olaraq aparılır. Lakin bu vəziyyət Azərbaycan diplomatiyasına erməni diasporunun neytrallaşdırılması üçün müəyyən zəif nöqtələri nişan verir.





## ƏDƏBİYYAT


1. Jurnal "Azerbaydjan i Azerbaydjanüi" N78. 2001.
2. I.Q Çavçavadze "Erməni alimləri və fəryad edən daşlar" Bakı 1995.
3. "Армянский Вестник" - 10 октябр 1990.
4. Салех Бек. "Армянство" Баку. 1994.
5. "Stratejik Analiz" dərgisi, cild 2, sayı 74, Nisan, 2002.
6. "Political Communication and Persuasion" Volume 3. N7. Wasington 1985.
7. "525-ci qəzet" 9 avqust 2003.
8. Газета "Иностранцы N2. 1992.
9. "Səs" qəzeti 9 dekabr 1999.
10. "Elçi" qəzeti 26 sentyabr 07 oktyabr 1999.
11. Diaspora Ermenilerinin dis politikaya Etkisi: www.euaren.org
12. Armenian allegations Myf and Reality" Washington, 1982.
13. Ermənilərin yaptıkları katliyamlar. Ankara 1994.
14. "Diplomatik gözlem"qazetesi - 11 ocak 2002.
15. Armenian Terror orgnaritlons - www.armenianterror.com. www.ermenisorunu.gen.tr
16. "Ayna" qəzeti, 18 mart 2002.
17. Zaur Əliyev "Beynəlxalq münasibətlərdə diasporların rolu". B.2001.
18. George A.Bourntion" A. History ol Armeniam peorle" - Wahington 1999.
19. Ermeni arastirmalari dergisi - say 3, 2001.
20. İsmayıl Musayev "Erməni genosidi, yoxsa türk-müsəlman soyqırımı" B.2000.
21. Армянская диаспора в Росси: www.иън.рьусщ.ру
22. С.В.Лурье "Историчиская этнология" N 1998.
23. "Содуржества НГ" N 6, июнь 1999.
24. Erməni araşdırmaları dergisi - sayı 17, 2001.
25. Journal «The chronicle of higher education» New -York, 22 Yanuary 1999.
26. Erməni araşdırmaları dergisi, sayı 2, 2001.
27. "Yeni Azərbaycan" qəzeti. 12 aprel 2003.
28. U.S. Congressional Record (1985-2000).
29. И.А.Геевский, С.А.Червонная "Национальный вопрос в общественно политечской жизнь США"М. 1985.
30. Təyyar Arı "Amerikanın siyasal yapısı: lobiler ve dış politika" Ankara 1992.
31. "Ekspres" qəzeti. 26 yanvar 1999.
32. Armenian organizations.- www.ours.com
33. "Olaylar" qəzeti, 6 avqust 2003.

## ƏRƏB DİASPORU

Vahid etnik qrupda birləşməyən, məskunlaşdıqları ölkələrdəki icmalarını inkişaf etdirə bilərək diaspor formalaşdıra biləcək təşkilatı strukturu passiv olan ərəblər barədə tədqiqat aparmaq asan deyil. Ərəb diasporu barədə nəzəri danışmaq mümkündür. Praktiki olaraq isə Amerika Birləşmiş Ştatları və Kanadadan başqa digər ölkələrdə dini, etnik və təşkilatı parçalanma formasında fəaliyyət göstərən ərəblər əsasən aşağıdakı 3 səbəblə əlaqəli geniş fəaliyyət göstərə bilmirlər:

1. Yaxın Şərq və Şimali Afrikadan olan ərəblər mühacirət etdikləri ölkələrə çətinliklə adaptasiya olunurlar. Vahid dünyagörüşləri formalaşmadığından ərəblər arasında fikir ayrılıqları var.

2. Ərəblərin çox hissəsin müsəlman və xristianlar təşkil edir. Bu dinlər içərisində də təriqətlər arası xırda toqquşmalar olur. Ərəb dünyasında azlıq təşkil etməsinə baxmayaraq daha aktiv olan xristianlar özlərinin təhsili və maddi durumları səbəbilə özlərinə yüksək mövqedə tuturlar.

3. Ərəblər məskunlaşdıqları ölkələrdə irqi ayrıseçkilik münasibəti ilə tez-tez üzləşirlər. İslam ailələrinin siyasi-ictimai durumu, bəzi ərəb ölkələrinin terror yuvası kimi qələmə verilməsi, Əfqanıstan, İraq və 11 sentyabr hadisələri səbəbilə ərəblərə çox zaman terrorçu kimi yanaşırlar.

Bu kimi səbəblər ərəb dünyasının koordinasiya olunmasında ciddi əngəllikləri törədir. Ərəb dövlətləri arasında olan münasibət onların xarici dövlətlərində formalaşmış icmalarla da özünü göstərir. Köhnə nəsillərdən fərqli olaraq yeni nəslin daha fanatik və barışmaz mövqedə olmasını da səbəb kimi göstərmək olar. Ərəb gəncləri arasında olan "islamın dünya dini" olması barədə fikirlərdə "Cihad" və ya "Cihadsızsivilya" seçimlərinin mövcudluğu diasporda narahatlıq doğurur. Bir qism gəncdə isə "assimilasiya olunaraq" ərəb mənşəyini unutmaq halları da olur.

Ərəblər çoxluq təşkil etdikləri ölkələrdə siyasi fəaliyyət passiv halda aparılır. Təbliğatçılıq sahəsində geri qalan, əlaqələndirici strukturun dayaqsız olması, onların yəhudilərə çox zaman uduzmasının əsas səbəbidir. Amerika və Kanada da ərəblər bir qədər aktivdilər. Buna isə həmin ölkələrin daxili qanunvericiliyində siyasi, lobbiçilik, təbliğatçılıq üçün geniş imkanlar var. Bu dövlətlərdə say etibarı ilə də ərəblər üstünlük təşkil edirlər.

***Kanada*** - Bu ölkəyə ərəblərin ilk mühacirəti XIX əsrin ortalarına təsadüf edir. Kanadaya gələn ərəblər iqtisadi vəziyyətlərini normallaşdırmaq məqsədləri güdürdülər. Onlar öz milli kimliklərini qoruyub saxlamaqdan ötrü





çətinliklərlə üzləşirdilər. Lakin zamanla ölkə ictimaiyyətinə adaptasiya olunanlar, onların assimilyasiya olunmasına şərait yaradırdı.

Kanada ərəblərinin ilk dalğası Livan ərəbləri təşkil edirdi. 1982-ci ildə Livan və Suriyadan olan ərəblər Monrealda məskunlaşdılar. 70%-in xristianlar olan bu ərəblər özlərinin qohum-əqrabalarını da Kanadaya dəvət edirdilər. Bu səbəbdən onların sayının artması 1991-ci ildə Kanada da ərəb icmasının təməlini qoydu.

İlk əvvəllər onlar ciddi çətinliklərlə qarşılaşmırdılar. Lakin Asiya, Cənubi Amerika, Avropadan olan mühacirlərinin Kanadaya axını ərəblərin mövqeyini zəiflətdi. 1909-cu ildə kanada da yaşayan etnik qrupların durumun tədqiq edən Y. S. Woddsworth ərəblər barədə yazırdı:

"Ölkədə məskunlaşan ərəblər xırda tacir və fəhlələrdir. Bunlar içərisində kanadalılar üçün real təhlükə olan infeksion xəstəliklərin daşıyıcıları da var. Bu isə Kanada sakinlərinin buna yoluxmasını labüd edir.

Toronto, Ontario, Vinzor, Ottava ərəblərin 1891-1901-ci illərdə çox sayda məskunlaşdıqları şəhərlər idi, Onlara isə ən böyük zərbə Kanada mühacirət qanunun qəbul olunması vurdu. "Az arzu edilən" - etnik qruplar siyahısına düşən ərəblər öz qohumların Kanadaya gətirilməsində ciddi əngəllə üzləşdilər. Yeni qanuna əsasən Kanadada yaşamaq istəyən şəxsin cibində minimum 200 dollar pul olmaqla müəyyən bir peşə sahibi olmalı idi. Ərəblərin maddi imkanı isə buna yol vermirdi. Bu səbəbdən II Dünya müharibəsinin sonuna qədər onların sayı olduqca azaldı.

Bu proseslərin əleyhinə ərəb icması Kanada hökumətindən onlara münasibətdə daha mülayim olunmasın tələb edirdilər. 1911-51-ci illər arası davam edən etiraz kampaniyası 1946-cı ildə ərəb mediasının, 1912-ci ildə teatrının və s. Kimi fəaliyyətinin müsbət xarakterli olması səbəblərində yardımçı oldu. Eyni zamanda bu 40 il ərzində ərəblərin çox hissəsi artıq assimilyasiyaya uğramışlar.

II Dünya müharibəsindən sonra Kanadaya mühacirət edən Ərəblər əvvəlkilər kimi siyasi passiv deyildilər. Millətçilərin çoxluq təşkil etdiyi yeni dalğada aktiv nəticələrin alınması ərəb təşkilatlarının və mediasının diasporda formalaşan Kanada ərəblərinin ilk böyük təşkilatı Kanada ərəb icması məxsus olundu. Yeni təşkilat artıq bu ölkədə fəaliyyət göstərən təşkilatları və ərəbləri öz ətrafında birləşdirmək istiqamətində yarandığı gündən işlər aparırdı.

Ərəb mədəniyyəti, dili və milli ənənələrini təbliğ edən qurum ilk 10 il ərzində çoxsaylı forum, seminar, konfranslar təşkil etmiş, media vasitələrinin sayların artırmışdı.

1962-ci ildə Kanadada "Yaxın Şərq icması və İnformasiya bülleteni" - adlı toplunun nəşri 10 il ərzində diasporda informasiya boşluğunu aradan götürdü. 1968 -ci ildən isə Kanada Ərəb Federasiyası və Kanada Dostluq Cəmiyyəti "Ərəb inkişafı" adlı qəzet nəşr etməyə başladılar.

70-ci illərin əvvəllərindən başlayaraq Kanada Ərəb Federasiyası və Kanada Ərəbləri Cavanları Federasiyası ölkədə ərəb lobbisini formalaşdırdılar. Kvebekdə aktivləşən ərəb lobbisinin ilk cəhdləri uğursuz nəticələndi. Lakin Fələstin Azadlıq Təşkilatı (FAT) ilə əlaqəli fəaliyyət yəhudi diasporunu onları ciddi qəbul etməsinə səbəb yaratdı. 1972-75-ci ildə ticari və digər əlaqələri boykot etmək kimi çıxışlar edən ərəb lobbisi FAT-ın bir qrupu kimi bütün konfranslarda iştirak etməsini tələb edirdi.

Bu tədbirlərin kəskin xarakter almasını görən yəhudilər ərəb diasporunda parçalanma siyasəti yeritdilər və bu onların istədiyi nəticəni verdi. Livan ərəbləri ilk olaraq diasporda qarşıdurma yaratdılar. Onun ardınca Suriyadan olanlar da qırağa çəkildilər. Beləliklə, Kanada ərəblərinin fəaliyyəti tamamilə zəiflədi.

1946-1990-cı illər arası Kanada da yaşayan ərəblərin sayı 200.000 mini əhatə edirdi. Bunların 49% Livan ərəbləri, qalanları Misir, Suriya, Mərakeş, İraq, Somali, Əlcəzair, Küveyt, Tunis, İordaniya, Səudiyyə Ərəbistanı Birləşmiş Ərəb Əmirlikləri, Oman, Yəmən və s. olanlardan təşkil edir.90-cı illərin əvvəllərindən isə Yaxın Şərqdən və Avropadan Kanadaya köçən ərəblərin mühacirəti nəticəsində onların hazırkı sayını göstərmək olmur. Onların hazırkı durumu digər dövlətlərə münasibətdə normal hesab olunur. Ərəblər öz milli kimliklərini qoruyub saxlayır, dinlə məşğul olur, bayramlarda bir neçə yerə yığışırdılar. Bir-birlərinin problemlərinin həll edilməsi üçün köməklik göstərirlər. Fələstin qaçqınları üçün tez-tez maliyyə yardımı toplanır. Müharibə qurbanlarının ailələri himayə olunur. Kanada da nəşr edilən "Al-Miraat", "Canada and the Arab World", Libokoroma", qəzetləri ərəb dünyasında baş verən prosesləri Kanadada ya'ır. Ərəb diasporuna məxsus internet səhifələrində İsrailin Ərəb dövlətlərinə münasibətdə siyasəti pislənir və Amerikanın xarici siyasətinin yəhudilərin təsiri altında olduğu bildirilir. 11 sentyabr və Əfqanıstan hadisələri zamanı ərəb diasporu bütün ərəblərin ittiham olunmasının əleyhinə çıxırdılar.

Hal-hazırda yəhudi diasporu ilə nisbətdə zəif olan ərəb diasporu Kanada da öz fəaliyyətinin koordinasiya etməlidir. Bu onlara öz məqsədlərinin uğurlu həyata keçməsi üçün lazımdır.

**Amerika Birləşmiş Ştatları** - Dünyanın aparıcı dövlətlərindən olan Amerikada ərəblərin məskunlaşmasının 158-ci ilə yaxın tarixi olduğu bildirilir. Ancaq bir çox sənədlərdə ərəblərin daha öncə Amerikaya gəlməsi göstərilir. Tədqiqatçılar Orofama və O'konnor öz əsərlərində Kolumbun Amerikanı kəşf edən zaman dənizçilərdən birinin ərəb mənşəli ispan olduğunu iddia edirlər. Bu barədə ərəb tarixçisi əl Şərif əl İdris də öz əsərində qeydlər vermişdir.





1539-cu ildə mərakeşli İstefan adlı ərəbin Cənubi Amerikanı tədqiqat edən qrupa daxil olması, bu tarixdə Nəsrəddin adlı bir misirlinin Nyu-Yorkda məskunlaşması kimi mənbələrdə məlumatlarda rast gəlinir.

Bu və digər sənədlər ərəblərin əvvəllər Amerikada olması barədə faktın təsdiqləyir. Ancaq onların sayının tək-tük olması XIX əsrin əvvəllərinə qədər burada ərəb icmasının olması ilə təsdiq etmir. XIX əsrin ortalarından başlayaraq, 1924-cü ilə, mühacirət haqqında AKT qəbul olunana qədər amerikaya ərəb mühacirəti nəticəsində onların sayının 200.000 mindən çox olmasına şərait yaratdı.

İlk mühacirlər Amerikaya sırf iqtisadi maraqlar baxımından gəlirdilər və onların çox hissəsi geri qayıtmaq barədə fikirləşmirdilər. Zamanla onların ictimaiyyətə adaptasiya olunması səbəbilə geri qayıdanların sayı az oldu. Sənaye şəhərlərində məskunlaşan ərəblər maşınqayırma sənayesində çalışmaqla yanaşı tacir, çəkməçi, dülgər kimi də tanınırdılar.

Ərəblərin əksər hissəsi qatı antisemit kimi tanınan avtomobil maqnatı Henri Fordun zavodlarında çalışırdı. Ford onları öz ətrafında toplamaqla yəhudilərə qarşı planlarında istifadə edirdi. Ford yəhudilərə təsir etmək üçün ərəblər vasitəsi ilə onlara qarşı antitəbliğat aparırdı.

Amerikada ərəblər Yaxın Şərq və Şimali Afrikadan olanlardır. Lakin bunlar içərisində 7 ölkədən olanlar söz etibarı və fəaliyyət dairəsinə görə çoxluq və geniş imkanlı hesab olunurlar. Aşağıda onlar ardıcıl olaraq göstərilir:

1. ***Livan ərəbləri***Xristian, müsəlman və druzlardan ibarət ərəblər içərisində Amerikada ən çoxsaylı qrup hesab olunur. İlk əvvəllər Amerikaya köçən zaman livanlılar burada uzun müddət yaşamaq fikirlərində olmayıblar. Sonradan baş verən proseslər səbəbilə onların çox hissəsi amerikalı olmağı qərarın aldılar. Amerika mətbuatına verdiyi açıqlamalarda livanlılar əsas məqsəd kimi iqtisadi maraqlarının olmasını bildiriblər. Livanda Amerikanın geniş imkanları olması barədə eşitdiklərindən buranı ona görə seçdiklərini bildirərək özlərinin ardınca qohumlarının da gələcəyini vurğulamışlar".

Dini baxışlarına görə güzəştlər alan livanlıların sayı 1924-65-ci illər arası azalmışdı.

1965-ci ildən etibarən mühacirətdə liberallıq edən Amerika hökuməti livanlı ərəblərə geniş imkanlar yaratdı. Ancaq livanlıların bu ölkəyə kütləvi axını 1976-cı ildən başlandı. Ərəb-İsrail münaqişəsi zamanı zərər çəkənləri ölkədə qəbul edən Amerika onları yaşayış və iş yerinə təmin edirdi. 1977, 79, 82-ci illər livanlıların Amerikada saylarının çoxalması səbəbilə icmalarını yaratması kimi qeyd olunur.

Hal-hazırda livan ərəbləri və mövqe baxımından yaxşı təmin olunub. Onların fəaliyyəti daha yadda qalandır. Onlar zamanla assimilyasiya olunaraq amerikanlaşmış etnik qruplara çevriliblər.

2. ***Fələstin ərəbləri*** - Bu qrup ərəb diasporunun ikinci böyük qanadını təşkil edir. Şərq sahil boyu məskunlaşan fələstinlilər ilk əvvəllər Amerikada xırda ticarətlə məşğul olurdular. Qara bazar və səyyar ticarət onların məşğuliyyət yeri idi.

1965-ci ilə qədər fələstinlilər bir o qədər də saya malik deyildilər. 1965-92-ci illər arası isə onların kütləvi bu ölkəyə axını nəticəsində fələstinlilər diasporda ikinci qanada çevrildilər.

Yaxın Şərqdə İntifadanın güclənməsi fələstinlilərin Amerikada aktiv qrupa çevirdi. Onlar etiraz çıxışları edir, gəlirlərinin müəyyən qismi FAT-ın hesabına köçürürlər. Zamanla Qərb mədəniyyətinə adaptasiya olunmaları, onların elmə, təhsilə maraq göstərmələrinə baxmayaraq, milli kimliklərini unutmayan fələstinlilər daha barışmaz qüvvə hesab olunur. Fələstinli gənclər müxtəlif sahələrdə mütəxəssis olmağa can atır. Gələcəkdə azadlıq hərəkatında öz sözlərin deməyi məqsədini götürüblər. Amerikalı qızlarla ən çox nikaha girən də fələstinlilər hesab olunur.

3. ***İordan ərəbləri*** - 1950-ci illərdən başlayaraq, Amerikada məskunlaşmağa başlayan iordanlılar digər qruplara nisbətən Amerikaya asanlıqla adaptasiya olunurlar. Əsasən Sali, Karan, Ajladi rayonlarından olan Amerika iordanları özlərinin iqtisadi durumlarını yaxşılaşdırmaqdan ötrü müxtəlif sahələrdə çalışırlar.

Orta səviyyəli yaşayış tərzinə malik olan iordanlar xırda və orta biznesmenlər kimi çalışmaqla, təhsilə fikir verir, fabrik və zavodlarda çalışırlar. Onların fəaliyyəti bir o qədər də aktiv deyil.

4. ***Misir ərəbləri*** - 1965-92-ci illər arası 80.884 min misirlinin Amerikada məskunlaşması onların diasporda 4-cü böyük qrupa çevrilməsinə səbəb oldu. 1967-ci ildən İsrail və Misir arasında başlanan münaqişə zonasından Amerikaya köçən ərəblər həkim, vəkil, elm xadimləri kimi daha çox tanınıblar. Onlar digər ərəblər içərisində bir çox xüsusiyyətlərinə görə seçilirlər. Özlərini qədim sivilizasiyanın davamçıları hesab edən misirlilərə Amerikada xüsusi rəğbət var. Öz işlərinin mütəxəssisləri olan misirlilərin gəliri normaldır.

5. ***Suriya ərəbləri*** - Böyük köç dövründə; XIX əsrin sonu XX əsrin əvvəllərində Amerikaya köçən suriyalılar burada ipəkçi, dülgər, dərzi peşələrində çalışırdılar. İlk dəfə olaraq səyyar ticarətlə məşğul olan suriyalılar ailə biznesi qurublar. Onlar yaşadıqları yerlərdə kiçik dükan açaraq meyvə-tərəvəz alveri ilə məşğul olurlar.

1965-ci ildən başlayaraq, Suriyadan Amerikaya axını güclənən ərəblər təhsillə yanaşı müxtəlif işlərdə çalışırlar. Suriyalı gənclər ailə prinsiplərinə üstünlük verirlər.





6. ***Yəmən ərəbləri*** - Ərəb diasporunda özünəməxsus yeri olan yəmənlilərin Amerikaya ilk köçən dalğası dənizçilər idilər. XIX əsrin sonundan Amerikada məskunlaşaraq fermer təsərrüfatlarında və ağır işlərdə çalışan yəmənlilər maliyyə durumları düzəldəndən sonra vətənlərindən öz ailələrini yanlarına gətirirdilər. 1965-92-ci illər arası, 10.097 yəmənli Amerikada məskunlaşdı.

Sakit ərəblər hesab edilən yəmənlilər çalışdıqları işlərdə aktivlik edirlər. 1990-cı illərdən başlayaraq özlərini biznesdə sınayan yəmənlilər orta tacirlər kimi tanınmağa başlayıblar. Öz qohum əqrəbalarının ətrafında toplayaraq ailə biznesi qurublar.

7. ***İraq ərəbləri*** - iraqlıların da ABŞ-a kütləvi axını 1965-ci ildən sonra başlayıb. İraqlılar ilk günlərdən Amerikaya adaptasiya olmaqla öz icmalarını tezliklə formalaşdırmışlar. İlk əvvəllər ağır işlərdə çalışan iraqlılar zamanla digər sahələrdə bir sıra uğurlar əldə etdilər. Siyasi, hərbi, tibb sahələrinə çox fikir verən iraqlılar hal-hazırda taksi sürücüsü, xırda dükan sahibləri kimi də çalışırlar.

Son zamanlar isə iraqlıların durumu bir qədər çətinləşib. İraqın yeritdiyi xarici siyasətdə xaricdə yaşayan iraqlıların bir hissəsinin iştirak etməsi onların nəzarətdə saxlanmasına səbəb olub.

1924-cü ildə Amerikada mühacirlərin ölkəyə buraxılması rəsmən qadağan olunduqdan sonra ərəb diasporunun formalaşması başlandı. Diasporun formalaşmasında əsas rol tacirlərin idi. Onların maliyyəsi nəticəsində ərəb təşkilatları və fondları yaranırdı. İqtisadi cəhətdən problemləri olan, evləri olmadığından özlərinin tikdiyi şəhərkənarı daxmalarda yaşayan ərəblərin dəstəyə ehtiyacları çox idi. Assimilyasiya olunmasının qarşısın almaq məqsədilə ərəblər kompakt halda yaşamağa başladılar.

II Dünya müharibəsinin nəticələri öz təsirini ərəb diasporuna da göstərdi. İsrail dövlətinin yaranması, Ərəb-İsrail münaqişəsinin kəskin xarakter alması, Fələstin qaçqınlarının sayının artması, itirilən ərazilər yəhudilər onların Amerikada etiraz çıxışlarına başlamasına səbəb yaratdı. Yəhudilər onlarla mübarizədə bütün vasitələrə əl atırdılar. Ərəblər hər tərəfdən təzyiqlərə məruz qalırdılar. Ərəb diasporunda icmadaxili münaqişələrin başlanması, biznes maraqlarını üstün tutan şəxslərin passivləşməsi onların səsini yuxarı dairələrə çatmasında əngəlliklər törədirdi.

1965-92-ci illər arası Amerikaya köçən yeni dalğalar məskunlaşdıqları torpaqlarda dərhal öz geyimləri, xörəkləri, hərəkətləri ilə diqqəti cəlb edirdi. Onların dini vərdişləri, istiyə dözümlülüyü, musiqiləri ekzotik görünüş verir. Bu səbəbdən də Amerikada ərəblər barədə müxtəlif suallar yaranmışdır:

***Amerika ərəbləri kimlərdir?***

Amerika ərəblərinin 82% - ölkə vətəndaşlarıdır. 63% Amerikada anadan olub. 51% məişət dili kimi ərəb dilindən istifadə edir. Onlar öz mədəniyyətlərini unutmurlar.

*Amerika ərəbləri harada yaşayırlar?*

Bütün ştatlarda yaşayan ərəblərin 1/3 - hissəsi Kaliforniya ştatında çoxluq təşkil edirlər. Los-Anjelos, Arizona, Detroyt, Çikaqo ərəblərin kompakt halda yaşadığı şəhərlərdir.

*Amerika ərəblərinin təhsili varmı?*

Əsasən, orta təhsilli olan ərəblər içərisində seçilən şəxslər də var. Tibb, hüquq, texnologiya sahələrində tanınmış ərəblər diasporda nüfuz sahibləridir. 40% ərəblər ali məktəblərdə oxuyaraq diplomlu mütəxəssislərdir.

*Ərəblər harada işləyirlər?*

60% - kommersiya sahəsində çalışan ərəblər normal gəlirli qrup içərisinə daxildir. 40% - ərəb isə müxtəlif peşə sahibləri olmaqla ağır və dövlət işlərində çalışırlar.

*Ərəblərin illik gəliri nə qədərdir?*

1990-99-cu illərin statistikasına görə ərəblərin illik gəliri 39, 530 dollardan, 53, 337 dollar arasıdır. Bu orta təbəqəli ərəblərə aiddir. Daha çox qazanan ərəblər milyonerlər sırasına daxildirlər.

*Ərəblər hansı dildə danışırlar?*

Ərəblərin 75% həm ingilis, həm də ərəb dilində gözəl danışır. 25% başqa dillərdə danışır. Diasporda 60-70% ərəb məişətdə öz dillərindən istifadə edirlər.

*Ərəblər hansı dinə sitayiş edirlər?*

Ərəblərin 65% İslam dininə, 25% xristian, 10% - isə başqa dillərə aiddirlər. Bu dillər arasında təriqətlər arası aşkar ayrılıqları da var.

*Ərəblər niyə irqçi ayrıseçkiliyə məruz qalırlar?*

Digər etik qruplar kimi ərəblərin də milli ənənələrə uyğun geyimləri, musiqiləri, bayramları, xörəkləri Amerikalıların çoxu üçün yaddır. Ərəb dövlətlərində olan durum, onların apardıqları siyasət ərəblərə münasibətdə həyata keçirilir. Ərəblərin Amerikada imici ürəkaçan deyil.

*Ərəblər hansı irqə aiddirlər?*

Şərqli xarici görünüşə malik olan ərəblər qarabuğdayı, boz və qara gözləri ilə seçilirlər. Milli geyimləri, saç düzümü, saqqal saxlayanları, üz görünüşləri əsl şərq insanına məxsusdur.

*Ərəblərin Amerika iqtisadiyyatında rolu varmı?*

Amerikanın sosial-iqtisadi sahələrində çalışan ərəblərdən əlavə bizneslə məşğul olan ərəblər ölkədə vergiləri vaxtında ödəyirlər. Ərəb ölkələri ilə Amerika arasında olan iqtisadi münasibətlərin inkişaf etməsində ərəb diasporunun da xüsusi rolu var.

*Ərəblərin Amerikada siyasi mövqeyi varmı?*

Ərəblər seçkilər zamanı aktivlik göstərirlər. Amerika ərəblərinin 84%-i 2000-ci ilə qədər Respublika partiyasının tərəfdarları idilər. Onlar bu ilə qədər





hər ilki zamanı bu partiyanın seçki marafonuna maliyyə yardımı göstərirlər. Corc Buşun ərəb dünyasına qarşı apardığı siyasət ərəblərin Demokrat Partiyasına keçməsinə zəmin yaratdı.

*Amerikada ərəb lobbisi varmı?*

II Dünya müharibəsindən sonra Yaxın Şərq bölgəsi Amerikanın xarici siyasətində xüsusi əhəmiyyət daşımağa başladı. Bu dövrə qədər Amerikada ərəb ölkələrinin maraqlarını müdafiə edən qrup və ya təşkilat yox idi. Zamanla ərəb dövlətlərinin neft siyasətlərində dəyişikliklərin olması. İri neft partiyalarının ərəblərlə əməkdaşlığa başlamasına səbəb oldu. Transmilli neft kompaniyaları olan "Eksson", "Mobil", "Qolf oil"ərəb neft istehsalında rolunu gücləndirdikcə Amerikada olanların müdafiəsinə çevrildilər.

1946-cı ildə Yaxın Şərq İnstitutunun fəaliyyətə başlaması, Corc-Staun Universitetində müasir ərəb dünyasının tədqiq edilməsi Mərkəzinin 1975-ci ildə təsis edilməsi və s. işlər Amerikanın ərəb ölkələrinə artan marağını göstərirdi. Ərəb lobbisi dedikdə iki əsas faktor və fəaliyyət götürülür.

1. Kirayə edilmiş silahlar - Bu o deməkdir ki, lobbi şirkəti və yaxud konqresmen, senator özləri öz xidmətlərin ərəb dövlətlərinə təklif edirlər. Bunlar öz xidmət dəyərlərini təqdim edir və onların namizədliyi qəbul olunsa müəyyən müddətə onların xidmətindən istifadə olunur.

1970-ci illərdə "Nogan and Nortson" - lobbi şirkəti əsasən ərəblərin maraqları müdafiə edirdi. Sonradan bu kivi şirkətlərinin sayının çox olmasına baxmayaraq işlərin də ciddi nəticələr yoxdur.

2. Ərəb təşkilatlarının lobbi fəaliyyəti - 1972-ci ildən etibarən ərəb diasporuna məxsus təşkilatlar xüsusilə Amerika Ərəblərinin Milli Assosiasiyası (NAAA), Amerika Ərəb İnstitutunu (AAI) və s. vasitəsilə lobbiçilik fəaliyyəti də aparılmağa başladı.

Amerikada ərəb lobbisi Ərəb-İsrail münaqişəsinin tənzimlənməsi və Fələstin probleminin çözülməsi istiqamətində iş aparır. 2000-ci ildən etibarən isə beynəlxalq terrorizmdə onlara qarşı edilən ittihamların və ərəb ölkələrinə qarşı yeridilən siyasətin yumşaldılmasıyla da əsas yer ayıran ərəb lobbisi fəaliyyətini tənzimləməyə başladı.

90-cı illərin əvvəllərinə qədər ərəb lobbisinin fəaliyyətində qazanılan bir-neçə uğurun adını çəkmək olar. 1975-ci illərdə konqresdə onların aktiv fəaliyyəti nəticəsində İordaniyaya hava hücumundan müdafiə (HHM) sistemi "XAN"-ların Misirə Hərbi nəqliyyat tipli "Herkules" - s130 təyyarələrini və Səudiyyə Ərəbistanına "Sandunider", "Mavriki" raketlərinin satılması layihəsi qəbul olunmuşdur. Yaxın Şərq bölgəsində vəziyyətin kəskinləşəcəyi barədə nüfuzlu yəhudi lobbisinin ölkə prezidenti Forda göndərdiyi etiraz məktubu cavabsız qalmadı. Ford öz hüquqlarından istifadə edərək layihəni dayandıra bilməsə də orada bir sıra dəyişikliklər etdi: "XAN" sisteminin müdafiə məq-

sədilə istifadə edilməsi razılığını aldı. "Herkules" c130-un sayını 20-dən 6-ya, raketlərin isə sayı 1000-dən 850-yə yendirdi.

Bu qələbədən sonra ərəblər antisemit mövqeyi ilə tanınan "Ağların Milli Sosialist partiyası", "Lobbi azadlığı" hərəkatları ilə əməkdaşlığa başladılar. Bundan əlavə YUNESKO-da 1964-78-ci illərdəki fəaliyyətdə də ərəblər yəhudiləri sıxışdırmışlar. Burada bir sıra antiyəhudi qoşunların qəbul edilməsi Papa VI Pavelin, İngiltərə və ABŞ-ın hökumət dairələrinin narazılığına səbəb oldu. Onlar YUNESKO-nu antisemitlikdə ittiham edirdilər. Daha sonra 1974-cü ildə Beynəlxalq Əmək Təşkilatı İsraili irqçi siyasət yeritməsində ittiham edən sənəd qəbul etməsi, BMT Baş Assambleyasında sionizmin - rasistlərə bərabərləşdirən 9379 - saylı qətnamənin qəbul edilməsində ərəb diaspor və lobbisinin qələbələrinə aid etmək olar.

Bu məğlubiyyətlərlə barışmayan yəhudi diasporu ərəblər arasında olan yüksək statuslu ərəblərin olmaması, onlar arasında olan dini, siyasi, ideoloji fikir ayrılıqlarından məharətlə istifadə edərək diasporda parçalanma yaratdı. Zamanla ərəb lobbisi öz gücünü itirməli oldu.

Amerikada ərəblərin say etibarı ilə 90-cı illərin əvvəllərinə qədər azlıq təşkil etməsi, onların ictimaiyyətə çətinliklə adaptasiya olması, onlar arasında müxtəlif satım fikir ayrılıqlarının olması, ərəb taunların az olması fəaliyyətində çətinliklər yaradır. İctimaiyyətdə ərəblərlə-yəhudilərə münasibətdə aşağıdakı fikirlər mövcuddur:

**Amerikalıların çox hissəsinin yəhudilər kimi Bibliyaya inanması ( İslam bir çox amerikalı üçün yaddır).**

**Avropada güc sisteminin bölünməsi (Avropanın bir çox dövləti ərəbləri dəstəkləyir).**

**İsrailin siyasi sisteminin demokratik mahiyyət daşıması (ərəb dövlətlərin çox hissəsi monarxiya üsul-idarəlidir).**

**İsrailin Amerika ilə müttəfiq olması (ərəblər etibarsız dostlar imici formalaşdırıblar).**

**Amerikalıların yəhudilərə bir qurban kimi baxmaları (ərəblər öz neft silahları ilə Amerika iqtisadiyyatının istismar edirlər).**

Ərəblər siyasi cəhətdən aktiv olmasalar da, mədəni, informasiya cəhətdən daha fəaldırlar. Ərəb dünyası barədə Amerikada mifik, ekzotik məlumatlar var. Misir, İraqda olan möcüzəli əsrarəngiz tarixi abidələr, sənədlər, amerikalıları bu ölkələrə turist səfərlərinə getməyə cəlb edir. Səddam Hüseyni hakimiyyətinə qədər Amerikalılar İraqa səyahəti çox sevirdilər.

"1001" gecə və digər ərəb nağılları Amerikada ən çox sevilən kitablar və cizgi filmləri və kinofilmlərdir. Ərəb mahnıları ilə pop, rok və digər musiqi





sətirlərinin remik edilməsi dəb halın alıb. Son zamanlar ərəb musiqili gecələri daha intensiv xarakter alıb. Son zamanlar ərəb musiqili gecələri daha intensiv xarakter alıb. İnternetdə ərəb saytlarının sayının artması, orada çoxsaylı məlumatların müxtəlif dillərdə olması informasiyada onlara müsbət mövqe qazandırır. Qədim ərəb əlyazmaları Amerikalı tədqiqatçıların xüsusi marağındadır. Onlar tez-tez tərcümələr edərək ərəb tarixini Amerikada oxunulmasına şərait yaradırlar. Şərq ornamentləri varlı adamların evlərinin əsas bəzəyidir.

Müxtəlif səpkili Ərəb Kütləvi İnformasiya Vasitələri KİV-lərin fəaliyyəti də diqqətəlayiqdir. Ərəb dünyasında baş verən proseslər, Yaxın Şərq xəbərləri, Fələstin problemi ərəb KİV-də işıqlandırılır. Ərəb ictimai-siyasi xadimləri müsahibələri KİV-də dərc olunur və yayımlanır. Amerikalılar arasında tez-tez sosioloji sorğularla onlar ərəblərə olan mövqeləri diqqət altında saxlayırlar.

Ərəb TV və radioları ilə dini, siyasi, ədəbi, mədəni verilişlər verilir. Ərəb dünyası ilə yanaşı Amerikanın müasir yeniliklərini yayımlayan TV və radiolar ərəb diasporunda baxılan kanallar içərisindədir. İslam barədə verilişlər daha çox sevilələrə aiddir.

Hal-hazırda Amerikada çox sayda ərəb KİV-ləri fəaliyyət göstərir. Bunlar içərisində daha populyar olanları aşağıdakılardır:

Qəzetlərdən "Fokus", "Vice", "Arabic News", "Al Zaman", jurnallardan "Al-vafor", "Arab Times", "M. E. EcoromicSurvey" radiolardan "BBC Arfbic News", "Arabianniguts", "Radio channellin Amerike", "Arfb Voice of Chicago", TV kanallardan "MBC TV", "ANA TV", "ART America" - və s. adların çəkmək olar. Bu KİV orqanları gündəlik həftəlik və aylıqdır. Düzdür, onların tirajı və yayım dairəsi çoxsaylı və geniş olmasa da onları oxuyan təbəqə daim qəzetlərlə təmin olunurlar. Bu oxucular içərisində adi fəhlədən tutmuş şimallı ərəblər də var.

KİV orqanlarından başqa Amerikada ictimai, mədəni, informasiya və siyasi-iqtisadi fəaliyyətlə məşğul olan diaspor təşkilatları da var. Bu cür təşkilatlar öz ətraflarında müxtəlif təbəqəli ərəbləri toplaya biliblər. Daxili maliyyə fondları olan diaspor təşkilatları imkanlı ərəblərlə yanaşı ərəb dövlətləri tərəfindən maliyyələşirlər. Fəaliyyətinə və üzvlərinin sayına görə əsasən aşağıdakı diaspor təşkilatlarının adın çəkmək olar:

**1. Amerika Ərəblərinin Milli Assosiasiyası (NAAA)** - 1972-ci ildə Vaşinqtonda təsis olunub. Federal lobbi qanununa əsasən qeydiyyatdan keçən yeganə ərəb təşkilatı olan NAAA - ən böyük təşkilatlardan biri hesab olunur. 1990-cı ilə qədər kimin büdcəsi 1 milyon dollar olan Assosiasiyanın əsas fəaliyyət istiqaməti lobbiçilikdir. Ərəb-İsrail münaqişəsi və Fələstin problemində ərəblərin haqlı mövqedə olmasını təbliğ edən NAAA - Amerikanın xarici siyasətinə təsir etməyə çalışır. Amerika və Ərəb ölkələrinin rəsmi dairələrində dostları olan NAAA hərbi, iqtisadi və mədəni sahələrdə Amerika və ərəb

dövlətləri arasında olan münasibətləri gücləndirmək istəyir. Amerikanın bir çox ştatlarında filialları olan NAAA - bu gün də öz fəaliyyətini davam etdirməkdədir.

2. **Ərəb-Amerikan İnstitutu (CAAI)** - 1985-ci ildə Cames Zoğbi rəhbərliyilə yaradılan təşkilat lobbiçilik və təbliğatçılıq fəaliyyəti ilə məşğul olur. Ərəblərin problemlərini müxtəlif təbəqələrdə gündəmə gətirən AAI - Amerika ərəblərinin hüquqi, mədəni, siyasi, iqtisadi maraqlarını müdafiə edir. Daha çox ərəblərini seçkilərdə aktiv rol oynamasına çalışan AAI hər həftə görüşlər keçirir. Həftəlik və aylıq bülletenlər nəşr edən AAI-nin bir çox şəhərlərdə şöbələri var.

3. **Ərəb-Amerika Komitəsi (AAC)** - 1980-ci ildə yaradılmış komitə əsas məqsəd kimi qarşısına lobbiçilik və təbliğatçılıq qoymuşdur. Lobbi təşkilatı kimi qeydə alınmamasına baxmayaraq, AAS Amerikanın siyasi və iqtisadi dairələrində böyük nüfuzu var. 25.000. 35.000-nə yaxın üzvü olan AAS tez-tez təbliğat xarakterli konfrans, forum və digər tədbirlər keçirir. Ərəb diasporunun müxtəlif təbəqələri içərisində üzvləri olan AAS - media orqanları nəşr edir.

4. **Amerikalı-Ərəb İrqi Ayrıseçkiliyə Qarşı Komitə:** - ADS - 1980-cı ildə Ceym Abruzek tərəfindən yaradılan ADS ərəb amerikalalarının hüquqlarının müdafiəsilə məşğul olur. Eyni zamanda lobbiçilik və təbliğatçılıq istiqamətində iş aparmaqla ərəblər barəsində Amerikada müsbət rəy qazandırmağa çalışır. Bir çox ştatlarda filiallara malik olan ADS ərəblər arasında əlaqələndirici kimi çıxış edir. KİV orqanlarına malik olan ADS ərəblər arasında əlaqələndirici kimi çıxış edir. KİV orqanlarına malik olan ADS-in ABŞ və Ərəb dövlətlərində nüfuzu var.

5. **Amerika-İslam Əlaqələri Mərkəzi - (CAIR)** - Vaşinqtonda yaradılan CAIR-in əsas məqsədi İslam barədə əsl həqiqətlərin Amerikada tanınılmasına çalışır. İslamın sonuncu din olduğunu təbliğ edən Mərkəz dini kitablar nəşr edir, verilişlər təşkil edir. İslamla bağlı müxtəlif səpkili tədbirlər keçirən Mərkəz diasporda nüfuza malikdir. Dini bayramlar təşkil edən Mərkəz ziyarət səfərlərilə də məşğul olur.

Bunlardan başqa Amerikada "Federation of Ramalbon", "Pales tine Society ob USA" və s. noirbkfnkflısyadların çəkmək olar. Əsas aparıcı təşkilatlar Ərəb-Amerikan təşkilatları sədrləri Mərkəzində birləşiblər. Bu diaspora fəaliyyətin vahid mərkəzdən idarə olunması üçün edilib. Amerikada səmərəli iş aparmaq üçün mərkəz ətrafında birləşən diaspor təşkilatları bir çox məsələlərin həll edilməsində həmrəylik göstərirlər.

Müasir dövrdə Amerikada ərəblərin durumu yaxşılardan hesab olunur. Bir tərəfdən yəhudi diasporunun antiərəb fəaliyyəti, bir tərəfdən ərəb dünyasında baş verən proseslər, bir tərəfdən də islam dininə edilən təzyiqlər onların mövqeyinə təsir edir.

11 sentyabr 2001-ci il hadisələrindən sonra ərəblər barədə fikirdə terrorçular kimi tanınırlar. 11 sentyabr dərhal sonra onlar Amerikada ərəb diasporunun terrorizmi pisləməsi barədə verdiyi bəyanatlara ölkə prezidenti Corc Buşun aparıcı şəxslərlə görüşməsinə baxmayaraq, onlar daim nəzarətdədirlər. 2002-ci ilin sonunda qəbul edilən yeni mühacirət qanuna əsasən 16 yaşından yuxarı Amerikaya gələn ərəb qeydiyyata mütləq düşməli, barmaq izi verməlidir. Bununla tam nəzarət altına düşən ərəblər iş yerləri tapmaqda və təhsil müəssisələrində çətinliklərlə üzləşirlər.

Bütün bunlardan sonra ərəblər daha kompakt halda yaşamağa üstünlük verir, bir-birlərinə dəstək verirlər. İslam ənənələrinə daha ciddi riayət edilməyə başlanıb. Onlar tez-tez keçirilən görüşlərdə problemlərin müzakirəsinə düzgün qiymət verməyə çalışırlar.

Son zamanların diqqət mərkəzinə və müzakirə obyektinə çevrilən ərəb diasporu bütün çətinliklərə baxmayaraq yaşayır və fəaliyyət göstərir

## ƏDƏBİYYAT

1. Baha Abu Laban "An olive branch on the Familly tree, the arabs in Canada" Toronto, 1980
2. "The 1998; Canadian and World Encylopedia" Toronto 1998
3. Nabreed Soltoun "History of the Canadian-Arab Freindship Society" Ontario, 1998
4. "Миграции и мигранты в мире капитала" Киев 1990
5. Aida Nasan "Stories of early Arab presence in American (Part I)", Californiya, 2000
6. Karen Rignae "Bulding on Arab-American Community in Deraborn", Michigan, 1999
7. Louise Cainker "The histori of Arab immigration in the US ", Chicago, 2000
8. Michael W.Suleyman "Arabs in America" Washington, 1999
9. "Arab americans" -www.reanline.org
10. Alan Y.Cigler "Interest group politics" Washington, 1998
11. Сергунин А.А "Апарат президента по связам с Конгрессом и внешная политика" Нижни Новгород, 1990
12. "The Israel and Arab lobbies" - www.us-Israel.org
13. "Arab media and Radio - TV in US" - www.allied-media.com
14. Tayyar Ari "Amerikanınsiyasal yapsı, lobiler ve dis politika", Ankara 1992
15. "Arab - American antidicrimination Committee" www.ads.org
16. "Councilion American Islamic Relations" - www.sair.org





## HİND DİASPORU

İnsanlıq tarixinin ayrılmaz tərkib hissəsi olan mühacirət prosesi əhalisinin sayına görə dünyada Çindən sonra ikinci yerdə olan Hindistandan da yan keçməmişdi. Dünyanın 120-dən çox ölkəsində məskunlaşan hind mühacirlərinin diaspor formalaşdırması, təşkilatlanması, siyasi-ictimai fəaliyyəti müxtəlif çətinliklərlə üzləşib. Bu çətinliklərə baxmayaraq Hind diasporu yaradılmış və aktiv fəaliyyət göstərən etnik diasporlar içərisində lider yerlərdən birini tutmuşdur.

Hind diasporunun təməlini qoyan mühacirət prosesini tədqiqatçılar 3 əsas dövrə ayırmışlar.

1. Qədim dövrdən başlanan və orta əsrlərə qədər davam edən mühacirət.
2. Müstəmləkə dövründə olan müacirət.
3. 1947-ci ildən bu günə qədər davam edən mühacirət.

***1. Qədim dövrdən başlanan orta əsrlərə qədər davam edən mühacirət.***

Hind mühacirət prosesi qədim dövrlərə təsadüf edir. Eramızdan əvvəl də Hindistanın Asiya və Avropanın bir neçə dövlətləri ilə əlaqələri olub. Hind mühacirlərinin kütləvi şəkildə digər ölkələrə köçməsi Buddanın ölümündən (e.ə.483) sonra başlanıb. Buddanın tələbələri və ardıcılları qonşu dövlətlərə təbliğat məqsədilə mühacirət edir və Buddizmin yayılmasına çalışırdılar. Mərkəzi və Cənubi Asiyada mühacirlərin ideoloji təbliğatının uğurlu nəticəsinə hind krallarının əsas xarici siyasətinə buddizmin yayılması aid olundu.

E.ə. 268-239-cu illərdə Buddizmin yayılması üçün mühacirlərin getdikləri ərazilərə İran, Çin, İndoneziya, Yunanıstan daxil idi. Tarixi məlumatlara görə hindlilər Efiopiyada və cənubi Afrikada da məskunlaşmış idilər. Yunan tarixçiləri Yunanıstan və Hindistan arasında ticarət əlaqələrin olmasını qeyd edirlər. Hind tacirləri Yunanıstana mirvari, ipək və ədviyyatı satış üçün gətirirdilər. Ticari məqsədilə Yunanıstana gələn hindlilərin əksəriyyəti bu ölkədə qalıb işləyirdi.

Çin, Birma, Yava adası, Kombocaya iqtisadi səbəblərlə gələn hindlilər bu ölkələrdə yaşayır, öz mədəniyyətlərini, milli adət-ənənələrini, din və dilini təbliğ etməklə məşğul olurdular. Bu ölkələrdə Hind diasporunun təməlini qoyan hindlilər digər bölgələrə passiv olsa da mühacirət edirdilər. Hindistanı tərk edib digər bölgələrdə yaşamaq qədim yazılarla qadağan olduğundan hindlilərin çoxu vətənə qayıtmalı olurdu. Məşhur Venetsiya səyyahı Marko Polo əsərlərində Mozambik və Cənubi Afrikada hind icmaları ilə rastlaşdığını qeyd edir.

I-VII əsrlər arası Asiyanın bəzi dövlətlərində öz mədəniyyətlərini və dinlərini güclü təbliğ edən hindlilərin icmaları barədə məlumata qədim yazılarda rast gəlinir. İndoneziya, Əfqanıstan, Ərəbistana gələn hindlilər barədə tarixi məlumatlar var.

XVIII əsrdən etibarən Hindistan uğrunda Fransa, Böyük Britaniya, Hollandiya və Portuqaliyanın apardıqları mübarizə nəticəsində bu ölkəyə nəzarəti Böyük Britaniya ələ keçirə bildi. Hindistanın Britaniya müstəmləkəsinə çevrilməsi bir müddət hind mühacirlərinin dayandırılmasına səbəb oldu.

*2. Müstəmləkə dövründə olan müacirət.*

XIX əsrin əvvəllərindən başlayaraq 1932-ci ilə qədər davam edən müstəmləkə dövrü mühacirət kütləvi şəkildə dünyanın müxtəlif bölgələrində baş verib. Bu illər arası 28 milyondan çox hindli ölkəni tərk edib digər bölgələrinə, xüsusilə Britaniya imperiyasının müstəmləkələrinə köçüblər.

Tədqiqatçılar müstəmləkə dövrü mühacirlərini iki hissəyə ayırırlar:
- Müqavilə əsasında işləmək üçün xaricit dövlətlərə edilən mühacirət;
- Sərbəst halda tacirlərin, ziyalıların və s. etdikləri mühacirət.

XIX əsrin əvvəllərindən dünyada baş verən ictimai-siyasi proseslər nəticəsində inkişaf etmiş dövlətlərdə qul əməyi və ticarəti rəsmən qadağan olunması iri plantasiyalarda işçi qüvvəsinə ehtiyacın yaranmasına səbəb oldu. Britaniyada 1807-ci ildə qul və ticarətin ləğv olunmasına baxmayaraq bu müstəmləkələrdə 1833-cü ildə qüvvəyə mindi. 1808-1820-ci illər arası isə Britaniya zorla hindlilərin Cənubi Afrikada yerləşən plantasiyalarda işləməsi üçün köçürülməsin həyata keçirtdi. 13 il ərzində minlərlə hindli yaşadıqları ərazilərdənköçürülüb Cənubi Afrikada ağır işlərdə qul kimi işlədildi.

Britaniya müstəmləkələrində 1933-cü ildən sonra zəncilərin iş yerlərini tərk etməsi səbəbilə plantasiyalarda ucuz işçi qüvvəsi kimi hindlilərdən istifadə olunması qərara alındı. Böyük ərazilərə malik olan Britaniya imperiyası ilk əvvəllər irlandlar və şotlandları işə götürürdülər. Lakin Avropa işçi mühacirlərinin Asiya, Amerika və Afrika iqliminə uyğunlaşa bilməməsi onlar arasında xəstəliklərin artmasına səbəb oldu.

Bu hadisə plantasiya sahiblərinin maraqlarına daxil olmaması səbəbilə onların Kuba və Latın Amerikası plantatorları kimi Asiya regionuna diqqət yetirməsinə şərait yaratdı. Çin, Yapon və Koreya və Flippinlilərin Amerika qitəsilə kütləvi əmək mühacirətin Britaniyanın Hindistana maraqlarının yönəldilməsinə səbəb oldu. Hindlilərin hər cür iqlimə və iş şəraitinə dözümü olması, eyni zamanda az əmək haqqı ilə razılaşmaları Britaniya hökumətini qane edirdi.

1833-cu ildən sonra Hindlərin əmək xarakterli mühacirəti üçün geniş şərait yaradan Britaniya hökuməti onların digər ərazilərə köçürülməsi məqsədilə yeni müqavilə sistemi tərtib etdi. KANQANİ (tamil dilində xaricdə işləyən) adlanan müqavilə sisteminin əsas şərtləri aşağıdakılardır:

***Hindlilər yalnız tanıdıqları ailələrə əmək xarakterli mühacirət etməli idilər;***





**Hindlilər işləyəcəkləri plantasiyalarda sahiblərinə sədaqətli olmalı idilər;**

**Hindlilər işlədikləri plantasiyalarda yaşamalı və sahiblərinin razılığı olmadan yaşayış yerlərini tərk etməməlidirlər;**

**Müstəqil işçilərdən fərqli olaraq hindlilər daha az əmək haqqı ilə razılaşmalı idilər;**

**Müqavilənin müddəti 5 illik idi və müqaviləni pozan hindli ona veriləcək cəzaya razı olmalı idi.**

KANQANİ müqaviləsini imzalamamışdan öncə hindli həkim nəzarətindən keçməli, daha sonra məhkəmə qarşısında and içməli idi. Xəstə və qocalar, qadınlar işə götürülmürdülər. Çox az qadına ailəsilə birgə ölkəni tərk etmək icazəsi verilirdi.

1844-cü ildə qüvvəyə minən və 1920-ci ilin yanvarın 1-ə qədər davam edən KANQANİ sistemi nəticəsində 2 milyondan çox hindin ölkəni tərk edib başqa dövlətlərdə məskunlaşmışdılar. Hindlilər kompakt halda Karib hövzəsi dövlətləri, Kanada, ABŞ, Cənubi Afrika, Asiyanın bəzi dövlətlərində məskunlaşmaqla bu dövlətlərdə hind diasporunun təməlini qoymuşdular. Bu dövlətlərdə hindlilər ayrı-ayrı sahələrdə çalışırdılar Seylon və Şri-Lanka çay plantasiyalarında, Ficidə pambıq tarlalarında, Malaziyada Kauçuk istehsal edən müəssisələrdə, Surinamda meşə təsərrüfatında, Antil adalarında kofe və şəkər çuğunduru sahələrində işləyən hindlilər bir-birilə sıx əlaqə saxlamaları bu ölkələrdə diasporun formalaşmasını sürətləndirirdi. Bu dövlətlərin iqtisadi inkişaf etməsində mühüm rol oynayan Hind diasporları arasında demokrafiq inkişaf onların çoxalmasına səbəb olurdu.

Əmək xarakterli mühacirətdən fərqli olaraq sərbəst halda Avropaya, Amerikaya mühacirət edən ziyalılar, siyasətçilər, biznesmenlər əsasən ictimai işlərdə çalışmaqla elm və təhsilə maraq göstərirdilər. Onların arasından seçilənşəxslər Britaniya hökumətini mühacirlərin hüquqlarının qorumamaqda ittiham edirdilər. İmperiya qanunverici məclisində çıxış edən siyasətçi Qopal Krişna Qokhelin çıxışı hind diasporu tərəfindən rəğbətlə qarşılandı. Bu çıxışın məzmunu belə idi:

"Britaniyanın tətbiq etdiyi müqavilə sistemi bir çox cəhətlərinə görə qanunsuz hesab olunmalıdır. Tanımadıqlarıölkələrdə onlara yad olan dildə danışan insanlarla ünsiyyət qurmağa məcbur edilən hindlilər öz zəngin mədəniyyətlərini, milli adət-ənənələrini, dillərini unutmağa məcbur edilirdilər. Bu isə *onların əzablarını* daha da artırırdı".

Fransada 1846 və Hollandiyada 1873 gü ildə qul alverinin və ticarətinin ləğv olunması onların da müstəmləkələrində ucuz işçi qüvvəsinə ehtiyac yaranmasına səbəb oldu. Fransa və Hollandiya Britaniya ilə hindlilərin onların ərazilərinə əmək mühacirəti etməsi barədə anlaşma imzalanmasından sonra

müstəmləkə dövrünün inkişafı böyük mühacirət dalğasının yaranmasına səbəb oldu.

Hind mühacirlərinin sayının xarici dövlətlərdə artması diasporun qüvvətlənməsinə səbəb oldu. Zamanla hindlilər digər sahələrə maraq göstərməyə başladılar. Ticarətdə daha çox uğurlar əldə edən hindlilər diasporun təşkilatlanmasına kömək oldu. Cənub-Şərqi Asiyada hindlilərə məxsus ticarət obyektləri digər etnik qruplardan daha çox idi.

1920-ci ilə qədər ailəsini tərk edən hindlilərin 16% yüksək elita, 32%-i mütəxəssislər, qalanları isə işçilər idilər. Bu səbəbdən də xarici dövlətlərdə Hind diasporunun formalaşması asanlıqla baş verirdi. Lakin asanlıqlara baxmayaraq təşkilatlanma passiv idi. Britaniya hökumətinin onların hüquqlarının müdafiəsi üçün verdikləri qərarların heç bir qüvvəsi olmaması onların sıxışdırılmasına səbəb olurdu.

I Dünya müharibəsində hindlilərin Britaniya hərbi qüvvələrində xidmət etməsi Almaniya və onun müttəfiqlərinin müstəmləkələrində olan hind diasporlarının təzyiqlərə məruz qalması ilə nəticələndi. Müharibədən sonra 1940-cı illərə qədər hindistandan mühacirət intensiv halda davam etdi. Lakin ölkədə başlanan milli-azadlıq mübarizəsi I və II Dünya müharibəsi diasporda müəyyən narazılıqlar yaratdı. Ancaq 1947-ci ildə Hindistanın müstəqillik əldə etməsindən sonra diasporla Hindistan arasında münasibətlərin yeni mərhələləri başlandı.

3. 1947-ci ildən bu günə qədər davam edən mühacirət.

Hindistanın müstəqillik əldə etməsindən sonra xarici siyasətdə xeyli dəyişiliklər etdi. Beynəlxalq aləmdə tanınmasında mühüm rol oynayan hind diasporu dövlətinin dirçəldilməsi istiqamətində mühüm işlər görüldü.

Daxili siyasətdə mühacirət prosesini tənzimlənməsi dünyanın müxtəlif bölgələrinə yeni mühacirət dalğasının başlanmasına şərait yaratdı. Yeni mühacirət dalğasına hərtərəfli köməklik göstərən hind diasporu 1960-cı illərə qədər etnik iqtisadiyyatının inkişaf etdirilməsində mühüm rol oynamışdı. 1947-60 cı illərdə 100-dən çox dövlətdə hind diasporunun olmasına baxmayaraq 14 dövlətdə onların fəaliyyəti daha fəal idi. 60-70-ci illərdə hind mühacirətinin intensiv şəkildə digər dövlətlərə xüsusilə 14 dövlətə köçməsi diasporun qüvvətlənməsinə səbəb oldu.

1900-1950-ci illərə qədər hind mühacirəti fəsil və yarımfəsil xarakteri daşımasına və onların 90%-nin kişilərin təmsil etməsinə baxmayaraq 60-cı illərdən sonra mühacirət prosesində dəyişikliklər yarandı. 10 il içərisində mühacirətin 30%-nın qadınlar təşkil etməsi diasporda nigah hadisələrinin artmasına səbəb oldu. Nəticədə demokrafiq inkişaf hind diasporunun tərkibini genişləndirirdi.





1970-ci ildən sonra Yaxın Şərqdə neft hasilatının artması hind mühacirətinin kütləvi şəkildə bu ölkələrə köçməsinə səbəb yaratdı. 1970-90-cı illər arası Yaxın Şərqdə hindlilərin sayı 1,4 milyona yaxın idi. Səudiyyə Ərəbistanı, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Toparda Hind diasporunun əksəriyyəti neft mədənlərində çalışırdılar. Yaxın şərqdə Hind diasporunun 60%-ni müsəlmanlar təşkil edir. Hind diasporunun Yaxın Şərqdə fəaliyyəti sırf iqtisadiyyatla bağlı olduğundan onların siyasi fəaliyyəti passivdir. Hind diasporunun xırda burjuaziya və qara fəhlə siniflərinə aid olması onların siyasi fəaliyyətlə məşğul olmalarında çətinliklər yaradırdı. Hindlilər bu səbəbdən digər dövlətlərdə olan hindlilərlə zəif əlaqə qurmuşlar. Hindistan isə onların müdafiəsin tam təmin edə bilmir.

1980-82-ci illər arası hind mühacirətin əsasən tələbələr təşkil edirdi. Onların çoxu oxumaq məqsədilə getdikləri ölkələrdən geri qayıtmaq barədə fikirləşmirdilər. 90%-ni gənclər təşkil edən hind mühacirətin diacpor daxildə yeniləşməyə səbəb oldular. Bu ildən etibarən Hindistan rəsmən Hind diasporuna olan münasibətini tamamilə dəyişdi. Artıq diasporun Hindistanın xarici siyasətinin ayrılmaz tərkib hissəsi hesab edən ölkə rəsmiləri müxtəlif tədbirlər həyata keçirməyə başladı. İlk əvvəllər öncə Xarici İşlər Nazirliyi diasporla iş qurdusa, 2000-ci ilin 2 sentyabrında yaradılan Diasporla İş Üzrə Dövlət Komitəsi geniş səlahiyyətlər əldə etdi. Diasporla İş Üzrə Dövlət Komitəsi əsasın aşağıdakı istiqamətdə işlər görməyi planlaşdırır:

**Hind mənşəli əcnəbilərin və xaricdə yaşayan hindlilərin statusunun rəsmən təsdiqlənməsi;**

**Hind diasporunun maraqlarının müdafiəsi məqsədilə qanun və qərarlar qəbul etmək;**

**Hind diasporunun bütün cəhətlərini tədqiq etmək;**

**Hindistanın sosial, siyasi, iqtisadi sahələrdə inkişaf etdirilməsində diasporun rolunun və yerinin müəyyənləşdirilməsi;**

**Hind diasporunun varlı təbəqəsinin ölkə iqtisadiyyatına investisiya qoyulmasını təmin etmək.**

Hind diasporu Dövlət Komitəsinin yaradılmasını böyük sevinclə qarşılamaqla hərtərəfli əlaqələr qurulmasında maraqlı olduğunu bildirmişdir. Hind diasporu Dövlət Komitəsinin bütün təkliflərinə aşağıdakı tədbirlər həyata keçirilməsindən sonra razılaşacaqlarını elan etmişdir:

- Hindistanda ikili vətəndaşlıq statusunun tətbiq olunması;
- Dövlət səviyyəsində Hind diasporunun hüquqlarının müdafiəsi;

- Ölkə iqtisadiyyatına kapital qoyulması üçün müəyyənm güzəştlərin verilməsi.

Hind diasporunun tanınmış üzvləri arasında son zamanlar "əgər Hindistan diaspordan nə isə tələb edirsə, onda diasporun maraqlarına uyğun olan addımlar atmalıdır" fikri dolaşmaqdadır.

2001-ci ilin statistikasına görə dünyanın 150-dən çox ölkəsində məskunlaşan hindlilər aktiv fəaliyyət göstərən etnik qruplardan hesab olunur. Ancaq sayca üstünlüyü hindlilər bir neçə dövlətdə təşkil edirlər.

*Malaziyada* hind mühacirlərinin məskunlaşması I əsrə təsadüf edir. Bu əsrdən başlayaraq ölkənin arxitektura, incəsənət və mədəniyyət həyatında mühüm rol oynayan hindlilər İslam dini Asiya regionunda yayımlana qədər aktiv diaspora malik idilər. Hindlilərin bir hissəsinin İslam dinini qəbul etməsindən sonra diasporda parçalanma və assimlasiya prosesləri gücləndi.

XIV-XV əsrdə Malaziyada Maloka dövlətinin yaradılmasından sonra Hind diasporunun fəaliyyəti iqtisadı və diplomatik sahələrdə güclənməyə başladı. Digər dövlətlərlə Malokanın əlaqələrinin qurulmasında hind tacirlərinin rolu böyük idi və onlar ölkədə böyük ticarət mərkəzi yaratdılar.

1311-ci ildə Malaziyanın Portuqaliya və Hollandiya arasında bölüşdürülməsi nəticəsində Hind diasporunun mövqeyi xeyli zəiflədi. Hind tacirləri Malazaiyanı tərk edib digər dövlətlərə mühacirət etməli oldular. XVIII əsrə isə Hollandiya hökumətinin hindlilərin Malaziyaya buraxılmaması üçün verdiyi sərəncam diasporda narazıçılıq yaratdı. Lakin onların sıxışdırılması etiraz çıxışlarının başlanmasını əngəlləyirdi. 1824-cü ildən sonra Malaziyanın İngiltərə müstəmləkəsinə çevrilməsi hindlilərin bu ölkəyə yeni mühacirət dalğasının başlanmasına səbəb yarandı.

XIX əsrdə Malaziyada kənd təsərrüfatı sahəsində işçi qüvvəsinə yaranan ehtiyac Britaniya hökumətini məcbur etdi ki, Hindistandan işçiləri Malaziyaya köçürtsün.

1930-cu ildə dünyada baş verən ictimai-siyasi proseslər və iqtisadi böhran Malaziyada da təsirini göstərdi. Hindlilərin bir hissəsi Malaziyanı tərk edib inkişaf etmiş dövlətlərə köçməsi diasporun zəifləməsinə səbəb oldu. Kənd təsərrüfatında çalışan hindlilər Malaziyanın iri şəhərlərinə köçərək maddi vəziyyətlərini yaxşılaşdırmaq məqsədilə ticarətlə məşğul olması iri burjaziyanın maraqlarına daxil idi. Kompakt halda birləşən hindliləri idarə etmək daha asan idi.

II Dünya müharibəsindən sonra Malaziyada başlanan milli-azadlıq mübarizəsində Hind diasporu mühüm rol oynamaqla inqilabi qüvvələrə maliyyə yardımı göstərirdi. 1960-cı ildə müstəqillik əldə edən Malaziyada Hind diasporu digər etnik qruplar kimi geniş səlahiyyətlər əldə etdi. Malaziya hökuməti isə hindlilərin assimlasiyasına çalışırdı və bu səbəblə onların vətəndaşlığa götürülməsində olan problemləri yığışdırmışdı.





1970-ci ildən sonra Hind diasporu Malaziyada milli adət-ənənələrinin, mədəniyyətlərinin aktiv təbliğatına başladı. Assimlasiyadan qorunmaq məqsədilə hindlilər vətənləri ilə əlaqəni itirmişdilər. Onların təşkilatlanaraq ölkənin siyasi həyatında iştirakında Hindistan maraqlı olduğundan diaspora maliyyə köməkliyi göstərirdi. 1980-ci ildən başlayaraq Malaziyaya başlanan yeni mühacirlərin əsasını ziyalı təbəqəsi təşkil edirdi.

Onların fəaliyyətinin nəticəsində Malaziyada hind dilində məktəblər, qəzet və jurnalların sayı artdı. Müasir dövrdə Malaziyada öz etnik kimliyini qoruyub saxlayan Hind diasporu siyasi-ictimai və iqtisadi fəaliyyəti ilə seçilən etnik qrup hesab olunur. Hindlilərin 80%-i işlə təmin olunublar. Onların 24%-nəmütəxəssilər daxildir.Hind diasporunun Malaziyada texnologiyasının inkişaf etdirilməsində son zamanlar aktivlik göstrərlər.

Qədim zamanlardan *Şri-Lankaya* mühacirət edən hindlilərin buraya ilk gəlişi e.ə. V əsrə təsadüf edir. Lakin bu əsrdə hindlilərin az zaman içərisində assimlasiya olunması Şri-Lankada hind icmasının yaranmasını əngəllədi.

XIII əsrdən etibarən Şri-Lankaya başlanan hind mühacirətinin yeni dalğası ölkəni iqtisadi sahələrinin inkişafına çalışırdı. XVIII əsrə qədər Şri-Lankada aktiv etnik diaspora çevrilən hindlərin fəaliyyəti barədə tarixçilərin əsərlərində rast gəlinir. XIX ildən başlayaraq Şri-Lankanın ictimai-siyasi həyatında rolu artan Hind diasporuna imperiya dövlətləri köməklik göstərirdilər. Onlara verilən səlahiyyətlərdən istifadə edən hindlilər Şri-Lanka mallarının Asiya bazarına çıxışını təmin edirdi.

*1921-ci ildən Britaniyanın Şri-Lankada yaratdığı yeni şəraitlə razılaşmayan hindlilərin əksəriyyəti ölkəni tərk etməli oldular.*

*Şri-Lankaya zorla köçürülən hindlilər ağır işlərə cəlb olunurdular. Onların etirazları isə amansızlıqla yatırılırdı.*

1948-ci ildə Şri-Lankanın müstəqillik əldə etməsi Hind diasporunun fəaliyyətinə ciddi təsirlər göstərdi. Hindlilərin Şri-Lanka vətəndaşlığına götürülməsi onların siyasi-ictimai fəaliyyətində dönüşlər yaradan qanunların qəbul edilməsi hökumətin atdığı ilk addımlar idi. İngilislərə qarşı aparılan milli-azadlıq mübarizəsində həlak olan hindlilər üçün heykəl qoyulması, onların adının əbədiləşdirilməsi Hind diasporuna göstərilən münasibətin bariz nümunəsi idi.

Şri-Lankada hind mətbuatı və ictimai birliklərin sayı artmağa 1960-cı ildən sonra başladı. Assimlasiya olunmaqlarına baxmayaraq Hind diasporu vətənlə əlaqəni itirmir. Bu müasir dövrdə də özünü açıq-aşkar göstərir. Şri-Lankada 90-cı illərdən sonra geniş səlahiyyətlər əldə edən Hind diasporunun siyasi fəaliyyəti güclənib. Şri-Lanka və Hindistan arasında münasibətlərin

yaxşılaşdırılması və inkişaf etdirilməsində də Hind diasporu mühüm rol oynayır.

Amerika qitəsində yerləşən ***Antil adaları Yamayka, Trinad və Tobaqa, Qayana*** hindlilərin məskunlaşdıqları ilk dövlətlər hesab olunur. Antil adaları dövlətlərin içərisində Qayanaya 1836-cı ildə 396 nəfər hindli plantasiyalara işləmək üçün gəlmişlər.

Antil adalarının əsas işçi qüvvəsinə çevrilən hindlilərin 1900-cü ildən sonra diaspor formalaşdırılmasına səbəb bu adalara mühacirətin aşağıdakı amillərə görə zəifləməsi idi:

- Antil adalarına köçən hindli 10 illik işləmək barədə müqavilə imzalamalı idilər.
- Geri qayıtmaq istəyənlər öz xərcləri hesabına bilet almalı idilər.

XX əsrin əvvəllərindən başlayaraq formalaşmaqda olan diasporun əsas rəhbərliyi iri burjaziyanın əlində idi. Hindlilərin birləşməsinə nail olan iri burjaziya adaların iqtisadi-siyasi həyatında fəaliyyətlərini gücləndirdilər. I Dünya müharibəsindən sonra bütün sahələrdə nüfuzu artan Hind diasporu elm və təhsil sahəsində ciddi uğurlar əldə etdi. Təşkilatlanması sürətlə gedən diasplrda fikir ayrılıqları yalnız dini zəmində baş verir. Antil adalarında dini missionerliklə məşğul olan Kanada missionerlərinin nüfuzunun Hind diasporunun varlı təbəqəsində artması hindlilərin 20%-dən çoxunun xaçpərəstliyi qəbul etməsinə şərait yaratdı. Missionerlərin digər etnik diasporlardan fərqli olaraq Hind diasporunda fəaliyyətinin güclü olmasına şərait yaradan aşağıdakı amillər idi:

**Missionerlər diasporda hind dilinin qorunub saxlanmasında və təbliğatında mühüm rol oynaması.**

**Hindli uşaqlar üçün pulsuz məktəblərin açılması (1900-ci ildən kolleclər də açıldı).**

**Hind ziyalılarının missionerlər ətrafında birləşməsi.**

Ancaq fikir ayrılıqları diasporun fəaliyyətinə ciddi təsirlər göstərmirdi. 1897-ci ildə təsis olunan "Hindlilərin Mmilli Assosasiyası"Antil adalarında yaşayan bütün hindlildərin maraqlarını müdafiə edirdi. XX əcrin ortalarından sonra Antil adalarında Hind diasporuna məxsus birliklərin sayı xeyli artdı.

Antil adalarında II Dünya müharibəsindən sonra yaranan müstəqil dövlətlərin Hind diasporunun fəaliyyəti daha da aktivləşdi. Maddi vəziyyətdən yaxşılaşan Hind diasporunun əksər hissəsi ABŞ-a mühacirət etməsinə baxmayaraq Antil adalarında onların biznesləri mövcuddur.





Antil adalarında hindlilər sayca üstünlük təşkil edirlər. Xüsusən Yamaykada hindlilər ölkə əhalisi 1/3 hissəsini təşkil edir. Bu öz növbəsində diasporun gücünü göstərir.

Avropada da hindlilərin aktiv fəaliyyət göstərən diasporları var. Xüsusilə İngiltərə və Hollandiyada sayca üstünlüyə malik olan hindlilər eyni zamanda digər Avropa dövlətlərində də məskunlaşmışlar.

***İngiltərədə*** hindlilər 2002-ci ildə bu ölkəyə gəlişlərinin 310 illiyini qeyd etdilər. İngiltərəyə XVIII əsrdən mühacirət edən hindlilər əsasən ziyalı və iş adamları təbəqəsinə daxildilər. Müstəmləkə illərində İngiltərədə hindlilərin aktiv fəaliyyət göstərən vətənpərvərlər mərkəzi digər etnik diasporlarla və sosial-demokrat qüvvələrlə sıx əlaqə qurmuşdur. Hindistanda başlanan milli-azadlıq mübarizəsinə yardım göstərən Mərkəz Avropada yaşayan digər hindliləri birləşdirməklə məşğul idi.

1960-cı ildən sonra İngiltərəyə axını güclənən hind mühacirləri diasporun aparıcı qüvvəsinə çevrildilər. Təşkilatı işlərində fəallıq göstərən yeni mühacirlər İngiltərədə orta səviyyədə yaşayırlar. Müasir dövrdə İngiltərə-Hindistan əlaqələrinin inkişaf etdirilməsi istiqamətində iş aparan Hind diasporu eyni zamanda lobbiçiliklə də məşğul olur. Əsasən bank, texnologiya və kommersiya sahələrində çalışan İngiltərə hindlilərin maddi vəziyyətləri yaxşı təmin olunub.

***Hollandiyada*** da Hind diasporu siyasi-ictimai cəhətdən aktivdirlər. 1969-cu ildən sonra Hollandiyaya mühacirəti güclənən hindlilər Avropanın bu demokratik ölkəsində əsasən biznes sahələrində çalışırlar. Amsterdam, Roterdam və Haaqada kompakt halda yaşayan hindlilər Hollandiyanın iqtisadi-ictimai həyatında özünəməxsus yeri vardır.

***Amerika Birləşmiş Ştatlarında*** Hind diasporunun formalaşması, təşkilatlanması və siyasi-ictimai fəaliyyəti çətinliklə baş verib. Amerikanın bütün ştatlarında məskunlaşan hindlilərin digər Asiya diasporlarından fərqli olaraq nə hind məhlələri, nə də sərt qayda-qanunları vardır. Amerikadakı Hind diasporu digər dövlətlərdə fəaliyyət göstərən diasporları ilə birləşdirici rol oynayır.

ABŞ-a ilk gələn hindli Hindistanın Mədrəs əyalətinin sakini idi. O Massaçusets ştatında 1790-cı ildə məskunlaşmışdı. 1800-ci ildən sonra hind mühacirləri dəstə-dəstə köçməyə başladılar. Bu ildən etibarən adət-ənənələrini araşdıran assosiasiyalar və birliklərі yaradılmağa başlandı. "Boston Bronmin" və "Punbit" assosiyaları ilk yaradılan birliklər idi.

Amerikada hindlilər barədə məlumat 1820-ci ildə verilir. Lakin o zamanlar ölkədə mühacirlər sənədləşdirmədiklərindən onlar qeydiyyata alınmamışlar. 1859-61-ci illərdə aparılan rəsmi sənədləşmədə ABŞ-da 8 hindlinin yaşadığı qeyd olunurdu. Onların 6-sı 1831-ci ildə 4 iyunla bağlı keçirilən tədbirlərdə iştirak etmişlər.

1880-ci ildən sonra hindlilərin ABŞ-a mühacirəti intensiv xarakter alı. Əsasən ticari məqsədli olan mühacirət nəticəsində ABŞ-da Hindistan ipəyi və ziynət əşyalarına tələbat artağa başladı. Hind ədviyyatı, meyvə və tərəvəzləri Amerikada böyük maraqla qarşılanmışdı. Hindistan barədə əfsanələr Amerikada dolaşması ölkədə yaşayan hindlilərin diaspor formalaşdırmasına şərait yaratdı.

**Hindli mühacirətlərin məskunlaşdıqları ərazilərin yerli sakinləri qovularaq tropik meşələrə qovulduqlarındanintiqam hissinin onlarda güclü olması. Bu səbəbdən də yerli sakinlər onların evlərində yaşayan hindlilər və digər etnik qrpulara qarşı amansız mübarizə aparırdılar.**

**Hindlilər çalışdıqları plantasiyalarda zəncilləri əvəz etdiklərindən onlara qul kimi rəftar edilirdi. Buna görə də hindlilər təşkilatlana bilmirdilər.**

**Hindlilərin bir hissəsinin ingilis, bir hissəsinin fransız və digər hissəsinin Hollandiya müstəmləkələrində məskunlaşmaları onların Amerikada mədəni, iqtisadi, siyasi və etnik inkişafına ciddi təsir göstərməsi.**

Lakin Amerikada ilk məskunlaşan hindlilərin ictimaiyyətə adaptasiyası, diaspor formalaşdırması aşağıdakı səbəblərə görə çətinliklərlə üzləşirdilər.

1893-cü ildə Nyu-York və San-Fransiskoda açılan "Rama" krişnanın missiyası adlı dini cəmiyyət Amerikada hindlilərin diasporda birləşməsi üçün təşkilatlığa başladı. Cəmiyyət qısa zamanda bu şəhərlərdə yaşayan hindlilər arasında əlaqənin yaradılmasına və birgə fəaliyyət göstərməsinə nail oldu.2

1895-1900-cu illər arası ABŞ-a mühacirət edən hindlilər Pəncab və Sikh əyalətlərindən olanlar idilər. Onların əsas məqsədi pul qazanmaq və vətənə geri dönmək idi. Vətənlərdə başlanan quraqlıq, aclıq və Britaniya hökumətinin təyin etdiyi ağır vergilər onların Amerika və Kanadaya mühacirət etməsinə səbəb idi ki, onlar burada qara fəhlə işləməyə lazım bilirdilər. Plantasiya sahibləri az əməkhaqqı ilə işləməyə razı olan hindliləri işə götürməyə üstünlük verirdilər. Onların dözümlü və sözəbaxan olmaları sahibkarlara sərf edirdi. Bu isə digər etnik qruplar, xüsusilə Avropada olan mühacirlər tərəfindən narazılıq hissi ilə qarşılanırdı.

Hindlilərin Amerikada sayının kəskin surətdə artması həmkarlar ittifaqlarının maraqlarına uyğun gəlmədiyindən onlar 1905-07 ci ildə digər etnik mühacirlər kimi hindlilərin ölkəyə buraxılmasını qadağan edilməsi üçün kampaniyaya başladılar. 1907-ci ildə Oreqon, Vaşinqton, Everet və Billinhem şəhərlərində hindlilərə qarşı kütləvi etiraz çıxışları basqınlar, təzyiqlər nəticəsində bu şəhərlərdən onların köçürülməsi başlandı.





İrqi ayrı seçki birliklərin, tədbirlərin qanlı nəticələr verdi. 1911-ci ildə Benlinhem şəhərində hindlilərin yaşadıqları rayonlara edilən basqın 410 hindlinin ölümünə və yaralanmasına, 500-dən çoxunun isə həbsi ilə nəticələndi. Polisin gözü qarşısında baş verən qanlı hadisələr hökumət tərəfindən ciddi qəbul edilmirdi. İrqi ayrı seçki birliklərlə əlbir olan güc orqanları bütün günahları hindlilərin üstünə atırdılar.

Yaponlara və Koreyalılara qarşı yaradılan Liqa 1909-cu ildən "Asiyalıların çıxarılması Liqasına" çevrildi. Liqa Qərb ştatlarında başlatdığı anti-hind kampaniyasını bütün ştatlarda yaya bildi. Bu səbəbdən də ölkənin aparıcı mətbuat orqanları indusların (hindlilər ABŞ-da bu cür adlanırdılar) Amerika üçün əsl təhlükə olduğunu təbliğ etməyə başladılar. Ağ evə və Konqresə ölkənin həmkarlar ittifaqlarından hindlilərin ölkəyə buraxılmasını qadağan edən qanunun qəbul edilməsi üçün məktublar göndərməyə başladılar.

1910-cu ildə Kanadaya hindlilərin buraxılmaması üçün verilən qərardan sonra ABŞ-da ucuz işçi qüvvəsinə olan ehtiyac artdı. Dəmir yol çəkilişində və kənd təsərrüfatında işləmək üçün mühacirət problemilə məşğul olan Komissiya hindlilərin ölkəyə gətirilməsi üçün müvafiq tədbirlər gördü. Nəticədə ölkədə hindlilərin sayı ikiqat artdı. Buna etiraz olaraq Liqa Komissiyaya qarşı başladığı mübarizə 1911-ci ildə onların qələbəsilə nəticələndi. Hindlilərin Amerikada vəziyyəti daha da pisləşdi. Hind diasporunda demokratik proseslərin sürətlə inkişafı ölkədə onlara qarşı münasibətin gərginləşməsinə səbəb yaratdı. Eyni zamanda Hind diasporunun torpaq icraiyyə götürüb düyü tarlaları yaratmaları yerli fermerlərin maraqlarına daxil deyildi. Diasporda torpaq sahibkarlarının artması diasporun formalaşma prosesini gücləndirirdi.

Lakin 1913-cü ildə əcnəbiləri üçün "torpaq sahibkarlığı" qanunun qəbul edilməsi diaspora da öz təsirini göstərdi. 1914-cü ildə konqresmen Denver Corc Konqresə hindlilərin ölkəyə daxil olmasını qadağan edilməsi üçün layihəni qəbul edilməsi üçün təqdim etdi. Layihədə 350 milyon vətəndaşı olan Hindistanın Amerika mədəniyyətini istismar etməkməqsədilə hindlilərin ölkəyə göndərdiyi qeyd edilirdi.

1916-cı ildə Avropa və Asiyadan olan mühacirlərin Amerikaya daxil olmasında kvota qoyan qanun layihəsi qəbul edildi. 1924-cü ildə isə rəsmi olaraq mücahidlərin ölkəyə buraxılması qadağan edildi. 1927-ci ildə isə hindlilərin ölkə vətəşdaşlığı ləğv olundu.

1926-46-cı illər arası isə Hind diasporunun onlara qarşı olan haqsızlıqları aradan götürülməsi üçün lobbiçiliyi ilə yadda qalmışdır. Hind lobbisi 1935-ci ildən sonra öz gücünü göstərə bildi. Bu il hindlilər "arzuolunmaz əcnəbilər" siyahısından çıxarıldı. 1940-cı ildə onların ölkəyəburaxılmasına razılıq verildi. 1944-cü ildən siyasi aktivlik göstərən Hind diasporu "Amerikanın Hindli Liqası", "Hindistanın azad olunması üçün Milli Komitə" və s. təşkilatlar vasitəsilə ictimaiyyətdə özlərinə müsbət rəy qazana bildilər. 1946-cı ildə isə "Sansler

Lus" qanununun qəbul edilməsi isə hind lobbisinin uğuru idi. Qanuna görə, hindlilər Amerikaya müəyyən şərtlərlə sərbəst daxil ola bilərdilər.

II Dünya müharibəsi illərində Hindistanın Asiya regionunda nüfuzunun artması Amerikanın bu ölkəyə maraqlarının artmasına şərait yaratdı. Ölkə daxilində Hind diasporu vasitəsilə Hindistana nəzarət etməyə nail olan Amerika hökuməti hindlilərə müəyyən sahələrdə güzəştə getməyə məcbur oldu. Məhz "Sansler Lui" qanununun qəbul olunmasında Amerika xarici siyasət orqanlarının rolu böyük idi. Bu hadisədən sonra sosial proqramlarda hindlilərin rolu artdı.

1952-ci ildə ABŞ prezidenti Harri Trumen tərəfindən mühacirət qanunlarının liberallaşdırılması üçün başlanan iş 1965-ci ildə Lindon Conson tərəfindən həyata keçirildi. 1965-ci ildə Amerikada yeni mühacirət qanunun qəbul edilməsi dünyanın müxtəlif bölgələrindən ölkəyə mühacirət prosesinin artmasına şərait yaratdı.

3. 1965-ci ildən müasir dövrə qədər davam edən mühacirət

Bu ildən etibarən ABŞ-a hind mühacirətinin ən böyük dalğası başlandı. Yeni mühacirlərin əksəriyyəti ziyalılar, iş adamları və səadət axtaran gənclər idilər. Onların Amerikaya adaptasiyası daha asan baş verdi. İri şəhərlərdə kompakt halda birləşən yeni mühacirlər Hind diasporunun aparıcı qüvvəsinə çevrildilər. Onların assmlasiyası sürətlə getsə də, din və dil amili birləşdirici rolunu artırırdı. 70-ci illərdə ABŞ-a köçən hindlilərin əsas məqsədi təhsil almaq idi. Onlar digərlərindən fərqli olaraq diasporda passiv qüvvə hesab olunur. Diasporda yeni fikirlər irəli sürməyə çalışan 70-ci illərin mühacirləri hind milli adət-ənənələrinə riayət etməyi köhnə fikir hesab edirdilər.

Lakin onlar arasında Amerikada musiqi, incəsənət və ədəbiyyat sahələrində tanınanlar da az olmadı. Elm və təhsil sahəsində uğurlar əldə edən 70-ci illərin mühacirlərinin çoxu tibb və texnologiya sahələrinə də mühüm irəliləyişlər etdilər.

1980-1990-cı illər arası Amerikaya mühacirət edən hindlilərin çoxu geri qayıtmaq barədə düşünmürdülər. Onlar Amerikaya assimlasiya olunmaq üçün gəlmişlər. Biznes və kompüter texnologiyası sahələrində böyük uğurlar əldə edən hindlilər vətənlə sıx əlaqə saxlayır, ikitərəfli əlaqələrin qurulmasında müsbət işlər görürlər. Hindistanın beynəlxalq aləmdə nüfuzunun artmasına yardımçı olan 80-ci illərin mühacirləri demoqrafik inkişafa fikir vermirlər.

90-cı illərdən sonra Hind diasporu ABŞ siyasi həyatında rolunu artırmağa başladı. Ölkənin bütün ştatlarında Demokrat Partiyasının təbliğatını aparan Hind diasporunun 80% bu partiyanın üzvləridir. 2000-ci il seçkilərində Alber El Qorun seçki kampaniyasına 3 milyon dollardan çox pul ayıran Hind diasporu Senat və Konqresdə aktiv fəaliyyət göstərən lobbiyə malikdir.





Müasir dövrdə hindlilər kompakt halda Kaliforniya, Nyu-Cersi, İlliyonis və Nyu-Yorkda məskunlaşıblar. Kaliforniyanın əhalisinin 23%-ni təşkil edən hidlilər Amerikanın bütün ştatlarında ingilis və hind dillərində Kütləvi İnformasiya Vasitələrinə malikdir. Hal-hazırda ABŞ-da yüksək tirajla nəşr olunan mətbu orqanları və sevilən, dinlənilən və baxılan radio və televiziya kanalları aşağıdakılardır:

"NAVAYO TIMES", "Indian Tirvune" və s. qəzetləri, "American Indian Yournal", "Grow Indiana" və s. jurnalları, "Musie of India", "American Indian Radio" və s. radio "Kerola TV", "Wern TV" və s. televiziya kanalları.

KİV-lərdən başqa Hind diasporu aktiv fəaliyyət göstərən ictimai birliklərə də malikdir. Amerikanın bir çox ştatlarında fəaliyyət aktiv olan ictimai birliklərdən aşağıdakılar daha populyardır:

1. **Asiya Hindlilərinin Assosasiyaları Federasiyası** - 1983-ci ildə Ohayo ştatında təsis olunub. Ətrafında bir çox diaspor təşkilatların birləşdirən Federasiya əsasən təhsil, mədəni tədbirlər keçirtməklə məşğul olur. Amerikaya yeni köçən hindlilərin ölkəyə adaptasiya olunmasına yardımçı olan Federasiya digər etnik diasporlar ilə sıx əlaqə saxlayır.

2. **Ümumdünya Hind mənşəli Amerikalılar Assosiasiyası** - ABŞ-da Hindistan, Mavriki, Trinidad və Tobaqo, Surinam, Fici və s. ölkələrdən olan hindliləri ətrafında birləşdirən Assosiasiyanın əsas fəaliyyət istiqaməti hind mədəniyyətinin və ədəbiyyatının təbliğ olunması, biznes sahəsində uğur qazanmaq istəyən həmvətənlərinə yardımçı olmaqdır. Dünyanın bir çox ölkələrində fəaliyyət göstərən varlı hindlilər və onlara məxsus şirkətlərlə əlaqəsi olan Assosiasiya lobbiçiliklə də məşğul olur.

3. **Hind Tələbələr Assosiasiyası** - 1954-cü ildə Texasda yaradılan Assosiasiyanın ətrafında gənclər toplanıb. Elm, təhsil və təbliğatçılıq işi ilə məşğul olan Assosiasiya Amerika hindliləri arasında Ana dilin qorunub saxlanmasında mühüm rol oynayır. Amerikada təhsil alan gənclərin işlə təmin olunmasına yadımçı olur.

4. **Amerika Hindlilər Assosiasiyası** -1975-ci ildə təsis olunan Assosiasiya diasporda milli adət-ənənələrinin qorunub saxlanılması və təbliğatı ilə məşğul olur. Assosiasiyanın digər diaspor birlikləri ilə sıx əlaqəsi var. Maliyyəsi iri burjaziya tərəfindən ödənilən Assosiasiya Amerikada tez-tez mədəni tədbirlər həyata keçirir.

5. **Amerika Hindlilərinin Milli Assosiasiyası** - 1982-ci ildə təsis olunub. Amerikada fəaliyyət göstərən bütün Hind diaspor birliklərini birləşdirməyə nailolan Assosiasiya Konqresdə lobbiçiliklə məşğul olur. Hind varlı təbəqəsi tərəfindən himayə olunan Assosasiya Amerika-Hindistan münasibətlərinin inkişaf etdirilməsini vacib hesab edir.

Adları çəkilən təşkilatlar və assosiasiyalardan başqa ABŞ-da "Amerika Hinlilərinin Vətənpərvər Assosiasiyası" , "Amerikada Hind Mədəniyyət Mərkəzi", "Amerikada Hind Mərkəzi" və s. birliklərdə fəaliyyət göstərir. Diasporda təbliğatçılıq və birləşdirici faktları uğurla həyata keçirən ictimai birliklərin ətrafında Amerika hindlilərinin 20%-i toplanıb.

Müasir dövrdə Amerikada hindlilərin sayı 1,6 milyondan çoxdur. Amerika hindlilərinin əksəriyyəti mütəxəssis, mühəndis, proqramçı, həkim və tədqiqatçılardır. Orta səviyyəli etnik diasporlar hesab olunan Hind diasporunda birləşdirici amillər çoxluq təşkil edir. Əsasən iri şəhərlərdə yaşayan hindlilər digər etnik diasporlar ilə sıx əlaqə saxlayır, etnik kimliklərini qoruyub saxlayır və hərtərəfli fəaliyyət göstərirlər. Amerika hindliləri qarışıq nigaha az-az girirlər. Evlənmək istəyən gənc mütləq Vətənə getməli və oradan qız almalıdır. Assimlasiyaya uğramalarına baxmayaraq Hind diasporunda vətən hissləri çox güclüdür. Milli adət-ənənələrə riayət edilir. Amerikalaşdırma siyasəti onlarda da özünü büruzə verir. 2000-ci ildən sonra Hindistan rəsmi olaraq xaricdə yaşayan vətəndaşlarını müdafiə etməli, onların maraqlarını müdafiə etməsi diasporda ciddi dəyişikliklər yaradacağı gözlənilir.





## ƏDƏBİYYAT


1. Yagat Motwai and Martin Gosine "Global Indian Diaspora: Yesterday, Today and Tomorrow" New-York. 1993
2. "The Indian Diaspora" - Nyderabad. 1995
3. Emigration from India during the pre modern period - www.uohyd.erenea.in
4. П.М.Шастико: "Сто лет бесправия" (положение индейцев в Южно-Африкансом союзе, 1860. 1960), М 1963.
5. "The Indian Diaspora" - www.ahtq.net
6. А.Д.Дриздо: "Индейцы и пакистанцы за рубежом" М.1976
7. Gupta Anirudho "Indian overseas: potterns, Myth ond Conceptions" Neyderabad 1994
8. Anderew Й.Maryinski"WS olesne ведрови Лудов" Krakow, 1966.
9. Briks S.C. "International Migration and developemet in the Arab Region" Genewa 1980
10. Modern Indian diaspora" - www.wohyol.ernet.in
11. Exrectation of the Indian diaspora" www.ariworid.com
12. Abra Kan George "Indians in South East Asia and Singopure Exrerinese" New-York 1999
13. Moses Scenarine "The Persiston of Caste and Anti-Gaste Resistance India and the Diaspora" New-York2000
14. "Проблемы внутренней и втешней политики Индии"М.1983
15. History of Indians in US-www.itihaas.com
16. B.Melenholy "Asians in Amerika" Pensilvania, 1972
17. «Страны и народы Востока» N XIV М. 1972
18. Bobby Srikoyaschkor "An Historicalpresrictive of Americans of Asian Indian 1790-1997"Pensilvania 1999
19. С.И.Лукев "Индия и США-Межгосударственные отношения" М. 1982
20. Aleyandro Portes and Ruben G Pumbeant "Immigrant America A portrait" Kaliforniya 1996
21. The Indian Media - www.asian-mediaguide.com
22. Vinoyoe «A political history of asian indians in the US» Philadelphia 1999

## İRLAND DİASPORU

Dünyanın müxtəlif dövlətlərinə səpələnən İrland mühacirlərinin formalaşdıqları, ictimai-siyasi baxımdan aktiv hesab olunan diaspor yaratmaları digər Avropa diasporlarından fərqli inkişaf xüsusiyyətinə malikdir. Məskunlaşdıqları ölkələrdə qısa zaman ərzində adaptasiya alan İrland mühacirləri əsas aparıcı rola malikdilər.

Bu gün İrland diasporu əvvəlki illərdən, xüsusən 70-80-ci illərdəki kimi siyasi-ictimai, aktivlik göstərməmələrinə baxmayaraq elmi-təbliğat və informasiya istiqamətində çox güclüdürlər. Son zamanlar İrland tarixini, milli-azadlıq mübarizəsini, İrland mühacirlərinin diaspor formalaşmasını, Böyük aclıq illərini, Olster problemlərini və s. mövzular əhatə edən elmi-publisistik kitabların nəşrinin çoxalması ilə mübahisə doğuran məsələlər ortaya çıxıb. Bu səbəbdən də kitabda İrland diasporunu təsdiq edərkən, İrlandiya tarixinə diqqət yetirilib.

İrlandiya tarixi qədim dövrlərə təsadüf edir. Eramızdan əvvəl IV əsrdə İrlandiya ərazisində Kelt tayfaları məskunlaşmışlar. Zamanla Keltlər onlara qədər olan bu ərazilərdə yaşayan tayfaları assimlasiya etməyə başlayıblar. Assimlasiyaya uğramamaq üçün yerli əhalinin bir hissəsi qonşu dövlətlərə köçüb getməli olurdu. Tədqiqatçılar İrland mühacirlərinin başlanğıcını bu tarixdən götürürlər.

Kelt tayfalarının 795-ci illərə qədər hakim olduğu İrlandiyaya normandlar bu tarixdən etibarən tez-tez basqınlar etməyə başladılar. 1014-cu ildə uzun çəkən müharibənin sonuncu nöqtəsi Klantarfc yaxınlığında oldu. İrlandlar həlledici döyüşdə qələbə qazandılar.

Lakin bu qələbə sevinci uzun çəkmir. 1169-cu ildə İngilis-nermand feodallarının dəstəyin alan İngiltərə kralı II Henri İrlandiyanın bir hissəsini ələ keçirtdi. Peyl adlı müstəmləkənin ərazidə yaranması kütləvi şəkildə İrland mühacirətinin başlanmasına səbəb oldu.

XVI əsrin sonu XVII əsrin əvvəllərində Peylə daxil olmayan Munster, Olster və Len Sterin bir hissəsinin də ələ keçirilməsi İrlandiyanın 85%-nin İngiltərə tabeçiliyinə keçməsinə səbəb oldu. İrlandiyada muxtar parlament olmasına baxmayaraq bütün daxili və xarici siyasət kralın əlində idi.

Ölkədə katalik təriqətinin güclü olması protestantların mühacirət etməsinə səbəb olurdu. 1787-ci ildən 1805-ci ilə qədər İrlandiyanı tərk edənlərin çox hissəsini onlar təşkil edirdi.

İngiltərə hökuməti isə İrlandiyanın tamamilə assimlasiya olunmasını qarşısında məqsəd qoymuşdur. Bu səbəbdən də ingilis dilinin İrlandiyanın dövlət dilinə çevrilməsi prosesi güclənirdi. Tədricən Gel dilini üstünlüyən ingilis dilində artıq 1822-ci ildə İrlandiyanın 85%-i danışırdı. Ana dilinin qorunmasına çalışan xaricdə yaşayan irland mühacirləri formalaşmaqda olan diasporlarında dil kursları açmışlar. Hətta XIX əsrin 50-ci illərində ABŞ-da Gel dilində "Ayriş Amerika" qəzeti nəşr olunurdu. Bu və digər tədbirlərə baxmayaraq ingilis dili İrlandiyada tamamilə Gel dilini üstələdi.2





1793-cü ildə İngiltərənin Fransa ilə müharibəyə başlaması İrlandiyanın İngiltərənin ərzaqla təminatçısına çevirdi. İrlandların İngiltərə ordusunda vuruşması ilə yanaşı ölkə əhalisi gecə-gündüz ordunu ərzaqla təmin etməkdən ötrü çalışırdılar. Ölkənin kənd təsərrüfatının tamamilə İngiltərəyə xidmət etməsinin əleyhinə dəfələrlə etiraz çıxışlarının alınmasına baxmayaraq İrland feodallarının təzyiqi ilə nəticəsiz qalırdı.

İrlandiyanın taxıl ehtiyatlarının İngiltərə nəzarətində olması alternativ qida məhsulu kimi kartofun əkini xeyli gücləndi. Əhali kartof vasitəsilə dolanır və ticarət edirdi. Lakin bu çox uzun çəkmədi. 1845-ci ildə İrlandiyada kartofa azot çatışmamazlığından düşən "Pfritet" xəstəliyi bu cür zərər çəkilməsi nəticəsində 1845-50-ci illər arası İrlandiyada "Böyük Aclıq illəri", "Böyük kartof aclığı" kimi tarixə düşmüş hadisədən 5-6 il ərzində 1,5 milyon əhali məhv oldu. İrladiyanın 20%-i əhalisinin ölümünə səbəb olan bu illər ölkədə kütləvi mühacirət prosesinin başlanmasına səbəb yaratdı.

İngiltərənin taxıl ehtiyatının irlandlarla verməməsi kartofa dəyən zərər və eyni zamanda ölkəni bürüyən digər xəstəliklər ölkənin əhalisini digər dövlətlərə mühacirətini gücləndirdi. İrlandiya tarixində ən böyük mühacirət dalğası hesab olunan bu illər ərzində 2 milyondan çox irland Amerika, Avstraliya, İngiltərə, Kanada və s. ölkələrə mühacirət etdilər.

1851-55-ci illər arası ölkədə aclığın qarşısının alınması və xəstəliklərin yoxa çıxmasına baxmayaraq, mühacirət prosesinin qarşısı alına bilmirdi. İrlandiya xəstəliyi - (İngilislər katrof aclığını bu cür adlandırırdılar) - nəticəsində 1911-ci ildə ölkədə 4,4 milyon sakin qalmışdır ki, onların da sayı günü-gündən azalırdı.

1916-cı ildə dünyada baş verən ictimai-siyasi proseslər nəticəsində İrlandiyada milli-azadlıq mübarizəsi gücləndi. 1919-cu ildə Dublində İrlandiya müstəqilliyi və İrlandiya Respublika Ordusunun yaranması elan edildi. Diasporun yardımı və burjaziyanın maliyyəsi sayəsində milli-azadlıq mübarizəsi xeyli gücləndi. 1921-ci ildə İngiltərə ilə siyasi müqavilənin imzalanması ölkəyə dominion statusunu verdi. 1949-cu ildə isə İrlandiya öz müstəqilliyini elan edib dünya birliyinin bərabərhüquqlu üzvü oldu. 1961-ci ildə isə ölkədə mühacirət prosesi xeyli zəiflədi. Diasporun vətən ilə sıx əlaqəsinin qurulması xaricdə yaşayanlardan geri dönənlərin sayını artırırdı. 70-80-ci illərdə isə Olster problemi üstündə İngiltərəyə qarşı dünyanın müxtəlif dövlətlərində İrland diasporunun güclü kampaniyaları başladı. Bunun müsbət nəticələrinin olmasına baxmayaraq bu gün üçün diaspor daha bu işlə ciddi maraqlanmır. Demək

olar ki, müasir İrland diasporunun sırf iqtisadi maraqlar güdməsi nəticəsində onların mövqeyi zəifləyib.

İrland diasporu demək olar ki, dünyanın 80% ölkəsində fəaliyyət göstərir. Amerika, Avstraliya, Argentina, Kanada, Cənubi Amerika ölkələri, Avropa dövlətləri, Asiya və Afrikanın bəzi dövlətlərində məskunlaşan İrlandlar sayca üstünlüyü və fəaliyyətcə aktivliyi aşağıdakı dövlətlərdə xüsusilə seçilir.

***AVSTRALİYA*** - "Botanik körfəz" və "Yerdə cəhənnəm" kimi XVIII-XIX əsrlərdə adlandırılan Avstraliya kəşf olunduqdan sonra İngiltərə buranı öz müstəmləkəsinə çevirdi. Uzaqda yerləşən və sakit bir guşə olan Avstraliyadan XIX əsrin sonlarına qədər İngiltərə sürgün edilmişlər adası kimi istifadə edirdi. Müxtəlif cəmiyyətlərdə ittiham olunan canilər, üsyankarları, əxlaqsız qadınların geri qayıtması çətin olan Avstraliyaya sürgün edən İngiltərə bir növ problemləri həll edirdi. Xüsusən Böyük Britaniyada üsyankar şotlandları və irlandları "Yerdə cəhənnəm"ə sürgün göndərən İngiltərə onları burada ağır işlərə cəlb edirdi.

1788-ci ildə Avstraliyanın ilk Avropalı sakinləri olan 750 Böyük Britaniya vətəndaşlarının çox hissəsini irlandlar təşkil edirdi. Yeni Cənubi Uelsin (Sidney) ilk qubernatoru kapitan Artur Fillipin rəhbərliyi altında Avstraliyaya gətirilən irlandların əksəriyyətin cinayətkarlar, əxlaqsız qadınlar təşkil edirdi.

Viktoriya, Yeni Cənubi Uels və Kvislendə məskunlaşan irlandlar fermer təsərrüfatında çalışırdılar. Baxmayaraq ki, müxtəlif peşə sahibləri olan bu irlandlar bu sahədə çoxlu uğurlar əldə etmişlər. İcma halında məskunlaşdıqları şəhərlərdə irlandların diaspor formalaşdırmaları "Böyük Aclıq" illəri nəticəsində Avstraliyaya axını güclənən İrland mühacirətindən sonra baş verdi.

Xüsusilə katolikrahibləri Avstraliyada mövqeyinin güclənməsi diaspor formalaşması prosesini gücləndirdi. Missioner kimi Avstraliyaya gələn katolik rahiblər yerli əhalini özlərinə tərəf çəkirdilər. Avstraliyada irlandların nüfuzu və mövqeyi yerli aborigenlərin onlarla əlaqəyə girməsindən sonra daha da artırdı. Bu səbəbdən də XIX əsrin ortalarında Avstraliyada təşkilatlanmış İrland diasporunun olmasını tarixçilər qeyd edirlər. Kilsə ətrafında birləşən irlandlar Avstraliyada yüksək vəzifələrə çəkilmirdi. İctimaiyyətlə iş aparmaq istiqamətində güclü olan irlandlar eyni zamanda inqilabçı əhval-ruhiyyəni burada da büruzə verirdilər.

1807-ci ildə Avstraliya qubernatorunun İngiltərəyə yazdığı məktubda o, irlandlar barədə aşağıdakıları bildirmişdir:

- İrlandların Avstraliyaya göndərilməsinin qarşısı mütləq alınmalıdır. Burada da Avropada olduğu kimi İrlandlar Respublika mövqelərini açıq-aşkar göstərirlər. Onlar tapşırılan işlərdən boyun qaçırmaqla yanaşı müstəqillik tələb edirdilər.





1851-ci ildə Edqard Horreyvs adlı bir nəfərin Sidney yaxınlığında olan Mankeri çayından qızıl külçəsi tapması dünyaya yayıldı. Bu Avstraliyaya dünyanın müxtəlif ölkələri ilə yanaşı İrlandiyadan qızıl axtaranlarla yanaşı mühacirət dalğası başlanmasına səbəb oldu. Kompakt halda Avstraliyaya yeni köçən irlandlar burada formalaşmaq prosesi keçən diasporda fəallıq göstərirdilər.

İrlandlar Avstraliyada digər bir sahə, ölkənin əsas gəlir mənbəyi olan fermer təsərrüfatında özlərini bacarıqlı işçi kimi göstərməklə yanaşı imkanlı irlandlar bura kapital qoydular. Qoyun otarılması, dərisinin aşılanması, yunun satışı, əkinçilik ixracı ilə məşğul olan irlandlar iqtisadi cəhətdən güclənirdilər.

1901-ci ildə Avstraliya Federasiyasının yaradılmasından sonra İrland diasporu 3 ildən bir seçilən parlament və yerli seçkilərdə aktivliklərini artırdılar. 1929-1949-cu illər arası Avstraliyada hakimiyyətdə olan 7 baş nazirdən 6-nın irland mənşəli olması onların Avstraliyadakı güclü mövqeyindən xəbər verir. Avstraliya futbolunun və digər idman sahələri ilə yanaşı iqtisadiyyatın müəyyən sahələrinin inkişaf etməsindən irland diasporu əvəzsiz xidmət göstərmişdir.

Müasir dövr üçün İrland diasporu Avstraliyada 10 əsas aparıcı etnik diasporlardan hesab olunur. Avstraliya əhalisinin 40%-ni irlandlar və irland mənşəlilər təşkil edir. Ölkədə ictimai-siyasi istiqamətdə aktiv fəaliyyət göstərən İrland diaspor təşkilatları ətrafında irlandlar birləşmişlər. İqtisadi cəhətdən yaxşı təmin olunan Avstraliya irlandları vətənlərinə hər il maliyyə yardımı göstərirlər. İrlandiyada öz növbəsində digər dövlətlərdə olduğu kimi Avstraliyadaskı diasporuna istənilən səviyyədə dəstək verir. Xüsusilə səfirlik və konsulluqları vasitəsilə İrland diasporu ilə əlaqə saxlayan İrlandiya tez-tez onların ölkəyə gəlişinə şərait yaradır.

Avstraliyada irlandlar güclü mövqeyə malik olmalarına baxmayaraq onların bir hissəsinin Avstraliya vətəndaşlığı yoxdur. Yerdə Cəhənnəmin "Yerdə Cənnətə" çevrilməsində əsas rol oynamış irlandlar irland pasportu daşımağı özlərinə fəxr hesab etməklə yanaşı ölkənin vətəndaşlığına çox da can atmırlar. Avstraliya rəsmiləri və vətəndaşları İrland diasporunun bu mövqeyini qəbul edir və onlara dəstək verirlər.

***YENİ ZELLANDİYA*** - Bu ölkəyə irlandların gəlişi XVIII əsrə təsadüf edir. İlk irlandlar tacirlər, fermerlər və Avstraliyadan qaçan cani və inqilabçılar idilər. 1847-52-ci illərdən başlayaraq isə Yeni Zellandiyaya irland mühacirəti kütləvi xarakter aldı. "Böyük Aclıq" illərində irlandların sığınacaq və yaşayış yerinə çevrilən Yeni Zellandiya şəhərlərinə əsas gələnlər qadınlar idilər. Uestlend, Okslend irlandların kompakt halda məskunlaşdıqları şəhərlər idi.

Artıq XX əsrin əvvəllərində irlandlar Yeni Zellandiyada formalaşmış diaspora malik idi. Ölkə müstəqillik əldə etdikdən də sonra irlandlar ictimai-siyasi fəallıqlarına görə digər etnik diasporlardan seçilirlər. Yeni Zellandiyada

yüksək dövlət postlarında irəli çəkilən İrland diasporu Con Edvard Fi Baş nazir seçildikdən sonra bu proses daha da gücləndi.

Müasir dövrdə Yeni Zelandiya əhalisini 15%-in təşkil edən irlandlar fəal diaspora malikdirlər. Ölkəni iqtisadi dirçəlişində rol oynayan irlandların ictimai-siyasi təşkilatlarıaparıcı mövqeyə malikdirlər.

***<u>İNGİLTƏRƏ</u>*** - İrlandların qonşu İngiltərəyə mühacirəti qədim dövrlərə təsadüf edir. 937-ci ildə İngiltərədə İrland icması olması barədə arxiv məlumatlarında rast gəlinir. 1247-50-ci illərdə isə İngiltərədə İrland küçəsi var idi ki, buranın əsas sakinləri irlandlar idilər. Bu illərdə İngiltərədə öz diasporlarını formalaşdıran irlandlar məskunlaşdıqları dövləti bütün sahələrində çalışırdılar.

Diasporda əsas aparıcı mövqeyə malik olan irland orta burjaziyası İngiltərə və İrlandiya arasında ticarət əlaqələr qurmağa çalışırdılar. Kralın yanında mövqe qazanmaq məqsədilə sırf iqtisadi işlər görən diaspor nümayəndələri gənc irlandların təhsil almasına yardımçı olurdu.

Lakin XVI əsrə qədər bu diaspor çox da güclü mövqeyə malik deyildi. Tarixçilərin çoxu İrland diasporunun formalaşmasının başlanğıcın bu əsrdən götürürlər.XVI əsrə qədər İngiltərədə İrland musiqisi, milli adət-ənənələri, bayramları diasporda çox da populyar deyildi. Ancaq XVI əsrdən baxmayaraq adları sadalananların təbliğatına diqqət yetirən diaspor ictimai-siyasi fəaliyyətə başladı.

İngiltərə kralı İrland diasporunun formalaşmasına xüsusi diqqət yetirirdi. İrland zədaganlarının və varlı adamlarının diasporda birləşməsi kraliçanın maraqlarına daxil idi. O, diasporu nəzarətdə saxlayır və onların inqilabi fikirdən daşındıra bilirdi.

Bununla "Üsyankar İrlandiya"-nı lidersiz qoya bilən Kral diasporu iqtisadi maraqlar güdməyə məcbur edirdi. Kralın yanında hörmət qazanma və öz kapitallarını qoruyubsaxlamaq məqsədilə diaspor nümayəndələrinin əksəriyyəti bilərəkdən assimlasiya olunurdular.

1870-ci ildən başlayaraq İngiltərədə İrland diasporunun siyasi fəaliyyəti daha da aktivləşdi. Onların İrlandiyanın düşdüyü ağır böhrandan çıxması və "Böyük Aclıq"da İngiltərə rəsmilərini ittihamı açıq şəkildə bildirilirdi.Diasporun bu cür çıxışlarının qarşısını almaq məqsədilə İngiltərə rəsmiləri müəyyən güzəştlərə getməli oldu. Seçkilərdə irlandlara müəyyən hüquqlar verildi. Torpaq sahələrinin genişləndirmək və s. bu güzəştlərə daxil idi.

1916 -cı ildə İrland üsyanı, 1919-cu ildə İrland Respublikası ordusunun yaradılması İngiltərə rəsmilərinin 1921-ci ildə İrlandiyaya dominnon statusu verməsinə məcbur etdi. 1949-cu ildə İrlandiyanın müstəqillik əldə edilməsində diasporun xüsusi rolu var idi. Müasir dövrədə İrland diasporu burada olster probleminin həll olunması istiqamətində iş aparır. Ölkə əhalisinin 1/4 hissəsi-





nin təşkil edən irlandlar İngiltərənin müxtəlif istiqamətlərində inkişaf etməsində aktiv iştirak edirlər. İrland mənşəli ziyalılar, həkimlər, biznesmenlər diasporda xüsusi hörmətə malik olmaqla ölkədə öz vətənlərinin layiqli təmsil edirlər. Ancaq assimlasiya prosesləri diasporda öz təsirini göstərməkləyanaşı onların fəaliyyətini passivləşdirir. Siyasi proseslərdən kənarda duran İrland diasporu İngitərədə elm və iqtisadiyyat məsələlərində daha çox iş görürlər.

İngiltərə və İrlandiya arasında münasibətlərinin normallaşdırılması, diasporun hüquqlarının müdafiəsi məqsədilə Xüsusi Komitə (NFC) yaradılıb. Komitə İngiltərəyə leqal və qeyri-leqal mühacirətin normallaşdırılması, irlandların sosial durumunun yaxşılaşdırılması, diasporun müəyyən problemlərinin həll edilməsini və s. istiqamətində iş aparır. Komitə eyni zamanda İngiltərədə müəyyən nüfuza malik olan irlandlardan fəxri konsul seçilməsində də aktivlik göstərir.

Avropanın digər dövlətlərində də İrland diasporları mövcuddur. Fransa, İtaliya, Skandinaviya ölkələrində irlandlar fəallıq göstərirlər. Bu dövlətlərdə İrland diasporu yalnız sosial-iqtisadi maraqlar güdürlər. Mədəni və elmi tədbirlər vasitəsilə diasporun fəaliyyəti Avropa dövlətlərində nəzərə çarpır. İrlandlar içərisindənziyalılar və digər peşə sahibləri Avropa dövlətlərində də uğurlar qazanıblar.

Lakin İrland diasporu çoxsaylı məskunlaşdıqlarına və aktiv fəaliyyətlərinə görə Amerika qitəsində daha çox fərqlənirlər.

***<u>AMERİKA QİTƏSİ</u>*** - Cənubi və Mərkəzi Amerika ölkələrinə ilk irlandların gəlməsi barədə dəqiq məlumat yoxdur. Lakin 1991-ci ildə Dublində keçirilmiş İrlandiya Genoloji Konqresində tədqiqatçılar ilk irlandların bu qitəyə gəlişini 1520-ci ilə aidetmişlər. 3 irlandlı Amerika qitəsinə səadət axtaran gəmilərdə olublar.

"Yeni Dünya" kəşf olunduqdan sonra buraya əsasən Avropa mühacirləri ilk zamanlar daha çox köçməyə başlamışlar. Paraqvay, Argentina, Braziliya irladların daha çox mühacirət etdikləri ölkələr idi. Xüsusən irland katolikləri "Yeni Dünyada" missionerlik fəaliyyəti aparmaqdan ötrü bir çox çətinliklərə baxmayaraq bura köçürdülər.

Amerika qitəsinə daha tez adaptasiya olan irlandlar qısa zaman içərisində öz icmalarını yaradırdılar. Yerli əhali içərisində nüfuzlu adamlara çevrilən irlandlar bütün sahələrdə üstünlüklər göstərdilər.

1555-ci ildə Paraqvayda müstəmləkə əleyhinə ilk üsyana rəhbərlik edənlərdən birinin Nikolos Kolman adı irlandın olması, onların inqilabçı əhval-ruhiyyəsinin güclü olmasını göstərir.

İrlandlar digər avropalılardan fərqli olaraq Amerika qitəsində daha asanlıqla ictimaiyyətdə nüfuz qazanmaqla yerli əhalinin özlərinə inam, etibarını qazanırdılar. Bu səbəbdən də müstəmləkə dövlətləri hərbi və təbliğat işlərində irlandlara daha çox üstünlük verirdilər. 1787-ci ildə irlandiyalı Ambrauz o

Hiqqins (Böyük Visse Roy) Çilinin qubernatoru ilə yanaşı Perunun vitsequbernatoru olması, onların aktivliyinin bariz nümunəsidir. Digər dövlətlərdə də irlandlar yüksək vəzifələrdə çalışırdılar.

İrlandlar Cənubi və Mərkəzi Amerikanın siyasi, iqtisadi və sosial həyatında mühüm rol oynayıblar. XVIII əsrin əvvəllərindən başlayaraq isə burada müstəqillik əlcyhinə başlanan milli-azadlıq hərəkatlarında yerli əhali ilə bərabər irlandlar da fəal iştirak edirdilər. Paraqvay və Çilinin müstəqillik bəyannaməsinin hazırlanmasında və digər dövlətlərin müstəqilik istiqamətlərində apardıqları işdə aparıcı rol oynayan irlandlar bu proseslərin sonunda diaspor formalaşdırmağa başladılar.

Təşkilatlanma işləri aparan irlandlar müxtəlif istiqamətdə fəaliyyət göstərən birliklər yaratdılar. Bu dövlətlərin aparıcı dövlət xadimləri olan irlandların vasitəsilə güzəştlər əldə edən diaspor əlində kapital cəmləməyə başladı. Müasir dövrdə isə Cənubi və Mərkəzi Amerikada İrland diasporu sayılıbseçilənlərdən hesab olunur. İrland mənşəli və irladlar məmur, həkim, elm xadimi və s. vəzifələrdə üstünlük təşkil edirlər. Onlara məxsus ictimai birliklər isə bu dövlətlərin ictimai-siyasi həyatında xüsusi rol oynayırlar.

Cənubi və Mərkəzi Amerika dövlətləri içərisində İrland diasporunun sayca üstünlüyə və aktiv fəaliyyətinə görə Argentina seçilir.

***ARGENTİNA*** - İrlandiya mühacirlərinin bu dövlətə gəlməsi öz başlanğıcını 1536-cı ildən götürür. Bu ildə Buenos-Ayres şəhərində Con və Tomas Farel adlı iki irland qeydiyyata düşmüşdü. İspaniya və Portuqaliya müstəmləkə rəhbərliyi altında irlandların bu ölkəyə gətirilməsi XVII əsrdən daha çox kütləvi xarakter almağa başladı. Argentinaya mühacirət edən irlandların əksəriyyəti ruhanilər, məmurlar və əsgərlər təşkil edirdi. Xüsusən izueitlər bu ruhanilər içərisində üstünlük təşkil edirdi. Lakin kütləvi şəkildə irland mühacirətinin Argentinaya köçüşü 1820-30-cu illərə təsadüf edir. Mühacir irlandlar əsasən kənd təsərrüfatı sahələrində çalışırdılar. Onların bu sahədə mütəxəssis olmaları onlara olan ehtiyacı artırırdı.

Zamanla irladların yerli əhali arasında nüfuzunun günü-gündən artması müstəmləkə rəhbərliyini onlara qaşrı münasibətinin dəyişməsinə səbəb oldu. Bu səbəbdən də onlar irlandları Argentinanın meşəli hissələrinə sürgün etməklə yerli əhali üzərində nəzarəti itirməmək istəyirdilər.

Bu prosesin qarşısını irlandların çalışdıqları sahələrdə əvəzedilməz olması ala bildi. Müstəmləkə rəhbərləri şəhər və rayonlarda işlərin lang getməsini görüb öz mövqelərini dəyişməli oldular. İrlandların şəhərlərə geri qaytanlaraq icma yaratmalarına şərait yaratdılar. İcmalar yarandıqlan sonra onların ölkənin ictimai-siyasi həyatında iştirakının artması diaspor formalaşması proseslərin sürətləndirdi. Kənd təsərrüfatının inkişaf etməsində əvəzsiz xidmətləri, ölkə iqtisadiyyatının inkişaf etməsində irlandların xüsusi rolu Argentina





rəhbərliyinin onlara güzəştə getmələrinə şərait yaratdı. İrland diasporunun nümayəndələri hökumət işində irəli çəkilməyə başlayan ölkə rəhbərliyi onların hüquqlarını artırdı. Seçki sistemində aktivlik göstərdiklərinə görə onların namizədləri daha çox seçilirdilər.

İrland məktəbləri, kilsələri, xəstəxanaları tikilişi çoxaldı. Argentinada İrland diasporunun mətbuatın sayı artmağa başladı. "Standart", "Cənub Xaçı" və s. qəzetlərin. "Encuentru" mərkəzi İrland diasporunun formalaşdırma prosesinin sona çatmasında və təşkilatlanmasında mühüm rol oynayıblar.

Diaspor nümayəndələri XX əsrin əvvəlindən müasir dövrə qədər Argentinanın tanınmış xadimlərinə çevrilirdilər.İrland ziyalıları, tibb işçiləri, alimləri Argentinanın inkişafında xüsusi rol oynayıblar. Müasir dövrdə İrland diasporu Argentinada 3 əsas diaspordan hesab olunur. İrlandlar müxtəlif peşələrdə çalışır. ölkə ictimai-siyasi həyatında fəal iştirak edirlər. Argentinada aktiv hesab olan ictimai birliklərə malik olan diaspor tez-tez mədəni, elmi tədbirlər həyata keçirirlər. Argentina və İrlandiya arasında münasibətləri normallaşdırmağa çalışan İrland diasporu öz fəaliyyətini genişləndirməkdədir.

Dünya dövlətləri içərisində İrland diasporu sayca üstünlüyə malik olduğu yeganə dövlət Amerika Birləşmiş Ştatlarıdır. Bu dövlətdə İrland diasporu ən aktiv fəaliyyətə malikdir. ABŞ-da İrland diasporu ən çox uğurlar əldə etmiş diasporlardan hesab olunur.

***AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI*** - Bu dövlətə 1633-cü ildə ilk irlandların gəlməsini tarixçilər bildirirlər. İngiltərənin "Yeni Dünya"da müstəmləkə qurması məqsədilə buraya göndərdiyi ekspedisiyalarda dindar irlandlar da var idi. Onlar missioner kimi burada yerli əhalini xristinanlışdırmalı idilər. Lakin ilk missionerlərin fəaliyyəti yerli əhali və ingilis zabitləri tərəfindən narazılıqla qarşılanması onların Verginiyadan qovulması ilə nəticələndi. Missionerlər Karib adasına köçərək burada ilk icmalarını yarvtdılar.

1651-ci ildən başlayaraq ingilis kralının fərmanına əsasən İrlandiyada inqilabçı fikirli şəxslərin zorla ABŞ-a, Avstraliyaya sürgünü başladı. 1654-cü ilə qədər 6400 irland bu dövlətlərə göndərilib.

XVIII əsrin əvvəllərində Kraliça Yelizavetanın dövründə İrlandiyada daha çox ərazi əldə edilməsinə başladı. Bu fəaliyyət nəticəsində yüzlərlə irland hər şeylərini itirikdən sonra çıxış yolunu Amerikaya mühacirət etməkdə görürdü. 1718-1723-cü illər və 1736-1777-ci illər arası Amerikaya İrland mühacirəti kütləvi xarakter almış idi.

Bu mühacirlər əsasən Bostonda məskunlaşırdılar. İrlandlar məskunlaşdıqları ərazilərdə missionerlik fəaliyyəti ilə məşğul olur, ictimaiyyətə adaptasiya olur və ağır işlərdə çalışırdılar. İrlandların çalışqanlığını 1826-cı ildə jurnalistlərdən biri qeyd etmişdir: Amerikada Respublika quruculuğunun 3 əsas inkişaf qüvvəsi var:

**Hidroenerji sahəsinin genişlənməsi;**
**Buxar maşınlarının inkişafı;**
**İrland işçi qüvvəsinin gücü.**

Bu işdə ən ağır işlər irlandların üzərinə düşür. Çünki onların rolu daha vacibdir.

1820-30-cu illərin statistikasına görə 10 il ərzində Amerikaya mühacirət edən 151274 min mühacirin 44%-ni irlandlar təşkil edirdi. Məhz bu mühacirət nəticəsində Amerikada katolok məzhəbinin təbliğatı geniş yayılmağa başlandı. 1830-cu ilə qədər Amerikada katolik məzhəbinə 25 min sitayiş edirdisə, bu ildən onların sayı 318 minə çatdı.

Yerli əhali arasında irlandların nüfuzunun güclü olması, onların ictimaiyyətdə asanlıqla adaptasiya olması nəticəsində onlar müxtəlif sahələrində daha tez irəli çəkilirdilər. Polis sistemi, plantasiyalar və atçılığın inkişaf etdirilməsində peşəkar olduqlarından irlandlar bu sahələrdə çoxluq təşkil edir di.Katolik kilsələrinin sayının artması səbəbilə irlandların diaspor formalaşdırmalarında böyük rol oynadı. Kaliforniya, Virciniya, Boston İrland diasporunun formalaşdığı ştatlar idilər.

1845-ci ildə başlanan "Böyük Aclıq" illəri zamanı irland mühacirlərinin kütləvi şəkildə axın etdiyi Amerikada 1854-cü ildə onların sayı 2 milyona çatdı.

İlk zamanlar irlandlar çəkdikləri acılar səbəbilə yerli əhali onları mehribanlıqla qarşılayırdılar.Lakin zamanla irlandların bacarıqlı işçilər kimi irəli çəkilməsi həmkarlar ittifaqlarının onlara münasibətinin dəyişməsinə gətirib çıxartdı.

Amerikaya mühacirət edənlərin əksəriyyətinin kəndlilər olmasına baxmayaraq onlar daha çx iri sənaye şəhərlərində məskunlaşırdı. Buralarda isə zamanla irlandlar adi işçilərdən sahibkara çevrilirdi.

Peddilərin (İrlandların ləqəbi müqəddəs Patrik adının qısaldılmış forması irladlar arasında daha çox geniş yayılmış ad) Amerikada ictimai-siyasi proseslərdə iştirakı onlar üçün uğurla davam edirdi.

Amerika müstəqilliyinin əldə edilməsində onların rolunun danılmaz olduğunu döyüşlərdə fəal iştğirakının və istiqlaliyyət bəyannaməsini imzalayanlardan 13-nün irland olmasının danmayan həmkarlar ittifaqları onların iş yerlərində irəli çəkilmələrinin əleyhinə idilər. Xüsusən XIX əsrin 50-60-cı illərində Amerikada yol çəkilişində və kanalların üzəldilməsində irlandların aktiv rol oynaması mətbuatda tez-tez işıqlandırılırdı. İrlandlar onlarla bərabər çalışan digər etnik diasporlardan fərqli olaraq zəhmət haqqı kimi pul əvəzinə xırda ərazi əldə edirdilər. Bunun nəticəsində diasporun bu illərdə tabeliyində geniş ərazilər var idi. Bu ərazilərlə yanaşı iri şəhərlərdə "irland məhlələri".





"irland rayonları" yaranırdı. Çikaqoda ilk yaranmış irlandtaun "Dublin" irland məhəlləsində yaşayanların əksəriyyəti çalışqan insanlar idilər. Xüsusən o illərdə Amerikada imkanlı ailələr evlərində irland qadınlarını qulluqçu kimi götürməsi dəb idi.

Bu məhlələrdə isə qadınlar çoxluq təşkil etdiyindən onların işə götürülməsi daha asan idi.

Bu kimi hallar Amerikada bu illər ərəfəsində etnik diasporlara qarşı başlanan etiraz çıxışları irlandlardan, onların iş yerlərində əvəzedilməz olması ilə yan keçmədi. Xüsusilə irlandlar və italyanlara qarşı kəskin çıxışlar edən məşhur ixtiraçı Morze onların ölkəyə mühacirətinin qarşısının alınmasını tələb edirdi. Çıxışlarının birində Morze bildirmişdi:

- "Avropanın monarx dövlətləri birgə halda öz vətəndaşlarını Amerikaya mühacirətə göndərməkdə əsas məqsəd kimi ölkəmizin respublika sistemini məhv etməkdir".

Morze və tanınmış şəxslərin Avropa mühacirlərinə olan münasibəti yerli əhalini ruhlandırırdı. Bu səbəbdən də XIX əsrin 50-ci ilində Amerikada "Know Nothings" - "Bilməzlər" adlı yaranan hərəkatın bu cür adlanması isə onlar arasında hökm sürən qayda ilə əlaqəli idi. İrlandlara qarşı edilən hər hansı bir hadisədən sonra hərəkat üzvlərindən ələ keçənlərin yalnız hər hansı bir hadisədən sonra hərəkat üzvlərindən ələ keçənlərin yalnız bir cavabı var idi. "Bilmirəm". Bu səbəbdən də "Bilməzlər" adlanan hərəkatın ölkədə tərəfdarı çox idi. Rəsmi dövlət orqanları və bəzi polislər tərəfindən dəstəklənən hərəkatın onlara qarşı etdiklərindən irlandlar Çin və digər diasporlar kimi qoruna bilmirdilər. Passiv halda müqavimət göstərən irlandları dəstəkləyən digər etnik diasporları buna sövq edən "Boardinq house's" - "Sərhəd evləri" silsiləli otel-mehmanxana sisteminin irlandların nəzarətində olması idi. Amerikaya yeni gələn mühacirlərin ucuz qiymətə qaldıqları "Sərhəd evləri"nin gəlirinin artması varlı irlandların meydana çıxmasına şərait yaratdı.

Demokrat Partiya tərəfdarları olan və seçkilərdə baş verənlərə baxmayaraq aktiv iştirak edən İrland diasporuna münasibət bu səbəbdən və zamanla dəyişirdi. Öz namizədlərini şəhər və rayonların qanunverici və icraedici orqanlarına seçilməsinə nail olan diaspor günü-gündən qüvvətləndirirdi.

Ölkədə polis və yanğınsöndürmə sistemində ütünlük təşkil edən irlandlar bu sahədə əvəzedilməz idilər. İrlandların aktiv fəaliyyətinin bir nəticəsi də ətrafında zəhmətkeş insanların birləşdiyi "Əmək qüvvələri ordeni"-nin yaradılması oldu.

1870-79-cu illərdə Daniel O, Kennelin Amerikada təməlini qoyduğu İrland diasporunun siyasi fəaliyyəti XX əsrin əvvəllərindən daha da gücləndi.

İrland diasporunun assimlasiya prosesinin sürətlənməsinə baxmayaraq onlar öz fəaliyyətlərini gücləndirirdilər. Dil baxımından tamam assimlasiya

olan İrland diasporunda yaşlı təbəqənin Gel dilini qorumaq cəhdləri nəticəsiz qaldı.

Lakin bütün bunlara baxmayaraq irlandlar vətənlə bağlılığını itirmir. Milli adət-ənənələrini, musiqilərini, mədəniyyətlərini unutmur, bunlarla əlaqəli tədbirləri tez-tez həyata keçirirdilər. XX əsrin əvvəllərindən isə Amerikada İrland günü və digər milli bayramlarla yanaşı hər il 17 martda "Müqəddəs Patrik günü"nün keçirilməsi ənənəvi xarakter aldı.

1920-40-cı illər arası Amerikada İrland diasporunun fəaliyyəti bir o qədər də nəzərə çarpacaq deyildi. Lakin II Dünya müharibəsindən sonra irlandların siyasi fəaliyyətininq güclənməsi nəticəsində yüksək dövlət postlarında onların irəli çəkilməsi başlandı. Con Kennedi, Riçard Nikson və s. irland mənşəli Amerika prezidentləri irlandların siyasi aktivliyinin bariz nümunəsi idi. Xüsusilə Karib böhranı kim münaqişənin yatırdılması və s. fəaliyyətinə görə daha çox yadda qalan Con Kennedi irland diasporuna və İrlandiyaya ayrıca diqqət yetirirdi. 1963-cü ildə tarixi vətəni İrlandiyaya səfər edən Con Kennedi ilə İrlandiya lideri Eamon Valero görüşünü tarixi hadisə adladırırlar.

1960-cı illərdən sonra Amerikada etnik diasporların lobbi fəaliyyəti gücləndi. Bu ildə isə artıq irland lobbisi aktiv fəaliyyəti göstərirdi. 1970-ci illərdə isə İrland lobbisi konqres və senatda bir nömrəli hesab olunurdu. Lobbiləri isə maliyyələşdirən XIX ərin əvvəllərində yaradılmış "Fenon qardaşlığı" birliyi və 1929-cu ildə təsis edilən "Torpaq liqası" idi.

Olsterdə 1960-cı ildən sonra balanan kütləvi təzyiqlər, repressiyaların qarşısının alınması, ingilis hökumətinin geri çəkilməsi üçün irland lobbisi Konqres və Senatda fəaliyyətlərini genişləndirdi. "İrlandların Qədim Ordeni" və "İrlandiya mühacirəti üzrə Amerika İrland Komitəsi" Konqres, Senat və Amerikanın bütün ştatlarının qanunverici orqanlarda lobbiistlərinin sayının artırırdılar.

1978-ci ildə İrland lobbisi "İrlandiyaya sülh" başlığı forumu Amerikada geniş miqyasda həyata keçirtdilər. 1979-cu ildə Konqresdə sayı 104-ə çatan lobbistlər İngiltərə əleyhinə olan qərar çıxarmasına nail oldular. Böyük Britaniyanın kral polisi üçün alınacaq silah yardımının qarşısının alınması üçün çıxarılan qərar onların qələbəsi idi. Bu silahlar xüsusən Olsterdəki polislər üçün nəzərdə tutulmuş idi.

İrland diasporunun və lobbisinin qüvvətlənməsinə Ronald Reyqanın Amerika prezidenti seçilməsi oldu. "Kapitoli təpəsində" xeyli canlanma yaradan bu hadisədən sonra İngiltərə öz lobbisini gücləndirməyə məcbur oldu.

1980-ci illərin ortalarından başlayaraq İrlandiya lobbisinin mövqeyi ölkədə zəifləməyə başladı. Buna səbəb dünyada baş verən ictimai-siyasi proseslər nəticəsində yeni yaranan müstəqil dövlətlərin lobbi-mexanizminin və diasporlarının güclənməsi idi. Regional münaqişələrlə başı qarışan aparıcı lobbistlər Olster probleminə çox ciddi fikir vermirdilər.





90-cı illərin əvvəllərindən etibarən isə İrland diasporu artıq siyasi yola deyil elmi və təbliğatçılıq yolu ilə öz mövqelərini gücləndirməyə başladı. Bu məqsədlə dünyanın müxtəlif bölgələri ilə yanaşı ABŞ-da diaspor təşkilatlarının və Kütləvi İnformasiya Vasitələrinin sayı artmağa başladı. Digər ölkələrdəki diasporların birləşdirilməsi istiqamətində iş aparmağa başlandı.

İrland diasporuna məxsus Kütləvi İnformasiya Vasitələri içərisində aşağıdakılar daha populyardır:

Qəzetlər: "The Irish Echo"; "The irish Times Online" və s.

Jurnallar: "İrish Amerika magazine", "Virtuoe Ireland"və s.

Televiziya və Radio kanalları: "RTE online", "Irish Radio", "Out of Ireland TV", "USA irish net World" və s.

Bunlardan əlavə Amerikada aktiv fəaliyyət göstərən diaspor təşkilatları da var. Bu təşkilatlar ictimai-siyasi, mədəni, elmi və iqtisadi fəaliyyətlərlə məşğul olurlar.

1. **İrland Milli Fraksiyası** - 1974-cü ildə təsis edilib. Amerkanın bir çox ştatlarında filialları olan fraksiyanın təsisçisi "Şinfeyni"- "Biz özümüz" partiyasıdır. Əsas fəaliyyət istiqaməti Amerika irlandlarının hüquqlarının müdafiəsidir. Onların müstəqil olaraq öz müqəddaratlarını təyin etməsinin əsas prinsip kimi götürən Fraksiya KİV orqanlarına malikdir.

2. **İrlandiya Fondu** - 1976-cı ildə yaradılan fonld Amerikada yaşayan irlandlar içərisində maliyyə toplanması ilə məşğul olur. Yığılan məbləği İrlandiyaya və Olnsterə göndərən Fond Amerikada imkansız irland ailələrini maliyyələşdirir. Amerikanın bütün ştatlarında filialları olan Fond aktiv fəaliyyət göstərir.

3. **Amerika - İrland Tarixi Cəmiyyəti** - 1897-ci ildə bünövrəsi qoyulan cəmiyyət 1940-cı ildən sonra fəaliyyətini genişləndirib. Dünyanın bir çox ölkəsində və Amerikanın müxtəlif ştatlarında filialları olan cəmiyyət əsasən elmi, mədəni və ictimai işlərlə məşğul olur. Cəmiyyət tez-tez musiqili-ədəbi görüşlər təşkil edir.

4. **Amerika-İrland Ticarət Palatası** - Qeyri-hökumət təşkilatı kimi yaradılan Palata Amerika-İrlandiya ticari-iqtisadi əlaqələrin qurulması istiqamətində iş aparır. Palata əldə olunan gəlirin əsas hissəsini İrlandiyanın inkişaf etməsinə xərcləyir. Palata öz fəaliyyəti üçün Amerika və İrlandiyanın tanınmış siyasətçiləri və ictimai xadimlərinin dəstəyin alır. İrlandiyaya investisiya qoyulmasının təminatçısı olan Palata öz fəaliyyətini genişləndirməkdədir.

5. **İrlandiya Amerika Dostluq Assosiasiyası** - Bostonda yaradılmışolan Assosiasiyanın əsas məqsədi Amerika və İrlandiya dostluq əlaqələrinin inkişaf etməsidir. ABŞ-a yeni mühacirətə gələn İrlandların yaşayış və işlə təmin

edilməsində yardımçıdır. ABŞ-ın müxtəlif şəhərlərində filialları olan Assosiasiya İrland diasporunda nüfuza malikdir.

**6.İrland Mədəniyyət Mərkəzi** - 1989-cu ildə Bostonda İrland və Amerikalılar tərəfindən təsis edilib. İrland mədəniyyətini, milli-alət ənənələrini, musiqisini Amerikada təbliği ilə məşğul olan Mərkəz bu məqsədlə tez-tez tədbirlər keçirir. Mərkəz Amerikada zəngin ktabxanaya və muzeyə malikdir.

Bu təşkilatlar diaspor içərisində nüfuz sahibi olmaqla ictimaiyyət tərəfindən müsbət qarşılanır. Amerikalılar üçün irland milli geyimləri, adət-ənələri, musiqisi xüsusi maraq kəsb edir.Qədim irland geyimləri olan saçaqlı plaş (qolsuz üst geyimi), yun şalvar, qadın geyimləri saçaqlı plaş və qısa kitel (alt köynəyi) XVI əsrdə ingilis hökuməti tərəfindən qadağan edilməsi səbəbinə son zamanlar onların muzeylərdə olması amerikalıların buraya axınının gücləndirib. Düzdür, hazırda İrlandiyada və diasporda xalq geyimləri ilə əlaqəli ənənə ciddi surətdə mövcud olmasa da, xalq musiqisi və rəqsləri mühüm əhəmiyyətə malikdir. Bunların təbliğatı xüsusi olaraq geniş yayılıb.

Müasir dövrdə İrland diasporu dünyanın ən böyük diasporlarından hesab olunur. Bütün sahələrdə çalışan İrlandlar öz iş yerlərində əvəzedilməz qüvvə hesab olunur.Amerikanın inkişaf etməsində irladların xüsusi və əhəmiyyətli rolu olmuşdur. Bu səbəbən də keçmişlərini unutmayan amerikalılar İrland diasporuna müsbət münasibət bəsləyirlər.

İrlandlar assimlasiya olunmalarını baxmayaraq Vətənlə əlaqələrin itirmirlər. Bəzi irlandlar öz maliyyə vəziyyətlərinin mühacirətdə yaxşılaşdırdıqdan sonra vətənlərinə geri dönürlər.

İrladlar üçün daim bir şüar mövcuddur: "Mən daim İrlandiyanı müdafiə edəcəm!"





## ƏDƏBİYYAT


1. Lawrence Y.Mccaffey «The irish diaspora in America" Wasington 1984
2. Pobert E. Kennedy "The Irish Emigration Marriage and Ferrility" los Angeles 1973.
3. «Emigration» -www.clare.irish-roots.net
4. История Ирландии: Краткий курс - wwv.tematya.py
5. L.B.Krivdii "Odin Avstralyskiy qod" M. 2000
6. Micahael Caffey. "The Irish": (in countries other than Iriland) New-York 1999
7. Irish Abrod -www.Iriland-inforonion.com
8. Gulermo Moclouchlin "The Forgoten peorle the Irish in Argentine and other South American countres" Buenos Aires 1999.
9. Irish reorle in USA - www.srartcaus-Schoo.net.
10. "Американский ежегодник" M. 1984
11. Богина. А.А. "Иммигрантское население США" M. 1976
12. Jourаl "Managment" Vol 2. N-1. 1999
13. Ч.А.Геевский, С.А.Червонная "Национальный вопрос в общественно политической жизни США" M.1985
14. Irish Media links - www.elic.organd www.aihs.org
15. "I.C.U.S.A." - www.Iccusa.org
16. "The Irish American Partnarship"- www.irishar.org
17. "Irish Cultural Center" www.Irishcultural.org

## KOREYA DİASPORU

Dünyanın 160-a yaxın ölkəsində məskunlaşan Koreya mühacirləri Asiya regionundan olan etnik diasporlar içərisində siyasi və iqtisadi aktivliyinə görə fərqlənən unikal diaspora malikdir.

Koreyalılar öz vətənlərini XX əsrə qədər təsadüfi hallarda tərk edirlər. II əsrdən etibarən passiv halda başlayan Koreya mühaciəti yaxın Asiya dövlətləri: Çinə, *Hindistana*, Yaponiyaya baş verirdi. Milli adət-ənənələri ilə sıx bağlı olan koreyalılar bu dövlətlərdə işləmələrinə baxmayaraq mütləq vətəninə dönməyi və doğma yerlərdə ömürlərini başa vurmağı özlərinin müqəddəs borcları hesab edirdilər. Bu səbəbdən də XX əsrə qədər digər dövlətlərdə Koreya diasporunun formalaşması baş verməyib.

XVII əsrdə Koreya hökuməti ölkə daxilindən başqa bir dövlətə mühacirət etməyi rəsmən qadağan etdi. Dövlət rəsmiləri Koreyanın siyasi, iqtisadi və hərbi cəhətdən qüvvətlənməsi üçün bu addımı atmalı oldular. 100 il ərzində Koreyanı yalnız yüksək vəzifəli dövlət xadimləri rəsmi səfərlə əlaqəli tərk edə bilərdilər.

Lakin ölkənin düşdüyü ağır iqtisadi böhran hökumətin qadağaları götürməsinə səbəb oldu. 1876-cı ildə ölkədən çıxışı qadağan edən qanun qüvvədən düşdü.

Ağır vergilər, işsizlik səbəbilə 1870-1890-cı illər arası Koreyanı tərk edib qonşu dövlətlərə mühacirət edənlər maliyyə vəziyyətlərinin yaxşılaşdırıb geri dönmək barədə fikirləşirdilər. Sırf iqtisadi səbəbli mühacirət prosesi intensiv olaraq Rusiyanın Uzaq Şərq regionuna və Çinin Mancuriya ərazisinə davam edirdi. 1890-cı illərdən sonra Yaponiya, Cənubi Şərqi Asiya dövlətlərinə mühacirət edən koreyalılar məskunlaşdıqları ölkələrə daha tez adaptasiya olunurdular.

Koreyalıların məskunlaşdıqları ölkələrdə onlara müxtəlif cür yanaşırdılar. Rusiyada ilk zamanlar onlara ehtiyatla yanaşsalar da, zamanla onların qanunlara riayət etməsi nəticəsində münasibət yaxşılaşdı.

Çində isə koreyalılara yaxşı kənd təsərrüfatı işçiləri kimi hörmət edilirdi. Mancuriya iqliminə tez alışan koreyalılar bu torpaqlarda bacarıqlı işçi kimi özlərini sübut etməsi səbəbilə onlara Çin hökuməti xeyli güzəştlərə getməli oldu. Yaponiyada isə koreyalılara yaxşı şəraitin yaradılmasına səbəb bu dövlətin Koreya yarımadasına olan geosiyasi maraqları idi. Cənubi-Şərqi Asiyada və Hindistanda koreyalılar yaxşı sənətkar kimi tanınırdılar.

Amerika, Avstraliya və Avropa qitələrinə isə Koreya mühacirəti 1905-ci ildən sonra kütləvi xarakter almağa başladı. 1905-ci ildən sonra başlanan mühacirət siyasi xarakter daşıyırdı. Amerika barədə Yaponiya və Çində işlə-





dikləri zaman eşidən koreyalılar vətənə geri dönəndən sonra"Yeni Dünya"ya mühacirət edirdilər.

Koreya Xarici İşlər Nazirliyinin 2001-ci il məlumatına görə dünyanın 160-a yaxın ölkəsində 8.4 milyondan çox koreyalı yaşayır. Koreyalıların sayca ütünlük təşkil etdikləri ölkələr Çin, ABŞ, Yaponiya, Rusiya, Avstraliya, Meksika hesab olunur.

Adları çəkilən dövlətlərdə aktiv fəaliyyət göstərən Koreyadiasporu bu dövlətlərin sosial, siyasi, iqtisadi və mədəni həyatlarında mühüm rol oynayır. Koreya diasporu dedikdə məhz adları sadalanan dövlətlərdəki koreyalılar nəzərdə tutulur. Düzdür, Asiya və Avropada da koreyalılar məskunlaşıblar. Lakin bu regionda məskunlaşan koreyalılar çox aktiv fəaliyyət göstərmirlər. Bu passivlik nəticəsində isə Avropa və Asiyanın digər dövlətlərində diaspor formalaşdıra bilməyən koreyalılar bu reginlara mühacirəti 1950-ci illərdən sonra başladığından burada onlar siyasi fəaliyyətlə məşğul olmuşlar. İqtisadi səbəblə Avropaya mühacirət edən koreyalıların bu regionda sayı azlıq təşkil edir. Aşağıda adları qeyd olunan dövlətlərdə Koreya diasporunun fəaliyyəti aktivliyinə görə seçilir:

***Yaponiyaya*** Koreya mühacirəti IV-VII əsrlərdən başlanıb. O zamanlar Yaponiyaya köçən koreyalılar qısa zamanda ölkəyə adaptasiya olunurdular. Yaponiya və Koreya mədəniyyətlərinin bir-birlərinə yaxın olması koreyalıların yaponlar tərəfindən assimlasiyası tezliklə başa çatmışdı. Bu əsrlərdə Yaponiyaya köçən koreyalıların elm sahəsində bacarıqlı və uğuları barədə məlumatlara o zamanların dini mənbələrində rast gəlinir.

Yaponiyaya Koreya mühacirətinin ikinci böyük dalğası 1899-cu ildən sonra başlandı. Yaponiya hökuməti Koreya yarımadasında siyasi maraqları olduğundan koreyalıların ölkəyə daxil olması üçün geniş şərait yaratmışdır. Onların assimlasiyası isə hökumət maraqlarına daxil idi. Bu maraqlara aşağıdakılar daxildi:

**Yaponiyaya köçüb gələn koreyalıların əsasən inqibalçılar olması səbəbilə onların neytrallaşdırılması və gələcəkdə Koreyaya nəzarətdə problemlərin aradan götürülməsi.**

**Koreyalıların tərk edib köçdükləri ərazilərdə yaponların yerləşdirməklə Koreyanın yaponlışdırılması.**

1920-ci ildən sonra Yaponiyada Koreya diasporuna olan münasibət dəyişdi. Koreyalıların Yaponiyada sayının gündən-günə artması ölkədə narazıçılıqların yaranmasına səbəb oldu. 1923-cü ildə Tokioda koreyalılarla baş verən toqquşma nəticəsində yüzlərlə koreyalı öldürülmüşdür. Ancaq bu Koreya diasporunun güclənməsini əngəlləmirdi.

II Dünya müharibəsi illərində isə Yaponiyaya zorla köçürülüb hərbi zavodlarda işləməyə məcbur edilən koreyalılara yaponlar qul gözülə baxırdılar. Müharibədən sonra da koreyalılara münasibət dəyişmədi. Koreyalıların Yaponiya vətəndaşlığına götürülməsində ciddi əngəlliklər 1990-cı ilə qədər qüvvədə idi. Bu illər arası Yapon ailələri koreyalılar ilə qohum olmağa pis baxırdılar. Bu səbəbdən də koreyalılar vətənə geri dönməyi bu ölkədə qalmaqdan üstün tuturdular.

Lakin 1990-cı ildən sonra koreyalıların bu ölkədə mövqeyi güclənməyə başladı. Siyasi-ictimai aktivlik nəticəsində Koreya diasporu Yaponiyada nüfuz qazanırdı. Yaponiyada yaşayan müasir koreyalılar elm və təhsilə daha çox maraq göstərirlər. Bilərəkdən assimlasiya məruz qalan koreyalılar ciblərində Koreya pasportu olmasına baxmayaraq özlərini Yaponiya vətəndaşı hesab edirlər.

Koreya diasporunun ən çox sayına görə yerləşdikləri ölkə Çin Xalq Respublikasıdır. Koreyalıların Çinə mühacirəti V əsrdən başlayaraq passiv halda XVII əsrə qədər davam etdi. XVII əsrdən Çinin idarəçiliyini ələ götürən Mancuriya koreyalıların ölkəyə daxil olmasını qadağan edən qanunlar qəbul etdi. 1872-ci ildən sonra Mancuriyada kənd təsərrüfatı sahəsində mütəxəssislərə ehtiyac səbəbilə koreyalılar ölkəyə buraxılmağa başlandı.

1920-ci ildən başlanan iqtisadi böhran Çində işsizliyin yaranmasına, və koreyalıların Mancuriyada torpaq sahəsi və iş yeri əldə etməsində çətinliklərlə üzləşməsinə səbəb yaratdı. İqtisadi böhran Çinə Koreya mühacirətini passivləşdirirdi.

İqtisadi böhrana baxmayaraq Çin eyni zamanda 1905-ci ildən etibarən siyasi xarakter alan Koreya mühacirətinin əsas mərkəzi idi. 1800-1925-ci illər Koreya mühacirətinin ən geniş miqyasda davam etdiyi Çində müvəqqəti Koreya hökuməti yaradıldı.

Diasporla birgə Koreyanın azad olunması uğrunda mübarizə aparan müvəqqəti hökumət Çin hökumətindən hər cür dəstək alırdı. Çində koreyalıların kompakt halda məskunlaşdıqları ərazi Yenbyan dairəsi idi ki, 1952-ci ildə muxtariyyat statusunu qazandı.

Müasir dövrdə Çində Koreya diasporuna mehriban münasibət bəslənilir. Koreya diasporuna məxsus qəzet və jurnallar yüksək tirajla nəşr olunur. Koreya orta məktəbləri Çinin bir çox şəhərlərində fəaliyyət göstərir. Çində koreyalıların assimlasiyası çox ləng surətdə gedir. Buna səbəb isə koreyalıların kompakt halda yaşaması, Koreya mədəniyyətinə bağlılığı, dilin qorunub saxlanması, milli adət-ənənələrin təsirinin güclü olmasıdır. Çində koreyalıların 40%-i holə də kənd təsərrüfatı sahələrində çalışırlar.

Çin vətəndaşlarının müxtəlif bölgələrdə mühacirəti nəticəsində boş qalan iş yerlərinə koreyalıların götürülməsi, onlara olan mehriban münasibətin





bariz nümunəsidir. Çin iqtisadiyyatında və ictimai həyatında mühüm rol oynayan Koreya diasporu xırda sahibkarlar kimi ticarət şəbəkələri ölkənin bütün regionlarında fəaliyyət göstərir. Koreya diaspor təşkilat və birlikləri Çində müxtəlif istiqamətlərdə işlər görürlər. Çində mövcud olan Koreya diasporu digər diasporlardan fərqli olaraq birləşməyə, təşkilatlanmağa daha çox meyillidir.

Koreya diasporunun sayca üstünlük təşkil etdikləri dövlətlərdən biri də ***Rusiyadır.*** Rusiyaya ilk Koreya mühacirəti 1863-cü ildə Cənubi Ussuriya əyalətinə qeyri-leqal köçən 13 ailə ilə başlanmışdır. 1865-ci ildən isə Rusiyaya Koreya mühacirəti kütləvi xarakter aldı. Rusiyaya axını güclənən Koreya mühacirləri kompakt halda Yakutiya, Primorye, Saxalin və s. ərazilərində məskunlaşdılar.

Rusiya imperiyasının ərazisinin genişləndirilməsi istiqamətində yeritdiyi siyasət nəticəsində ölkənin sərhədləri Koreya sərhədlərinə çatdı. Primoriye bu siyasət nəticəsində Rusiyanın tabeçiliyinə keçəndə bu ərazidə koreyalılar hələ məskunlaşmış idi. Primoriyenin Koreya iəl həmsərhəd olması koreyalıların 1864-cü ilin yanvarından bu ərazidə məskunlaşması başlandı. 1869-cu ildə isə Koreya mühacirətinin birinci böyük dalğası Primoryeyə köçdü.

1910-cu ildən etibarən Rusiya ərazisinə Koreya diasporunun formalaşması başa çatdıqdan sonra təşkilatlanma istiqamətində işlər görülməyə başlandı. Aktiv fəaliyyət göstərən etnik diasporlardan biri hesab edilən Koreya diasporu Rusiyada həyata keçirən sosial-siyasi proqramların aktiv iştirakçıları idilər. Rusiya qanunlarına ciddi surətdə riayət edən Koreyalılar zaman-zaman Uzaq Şərq bölməsini tərk edib inkişaf edən iri şəhərlərə köçürdülər. Rusiyanın Avropa hissəsində sayı xeyli artan koreyalılara yerli əhalitərəfindən mehriban münasibət göstərilirdi.

II Dünya müharibəsi ərəfəsində və 1937-ci ilin hadisələri zamanı koreyalılara münasibət xeyli dəyişdi. Ölkəni bürüyən repressiya dalğası koreyalılardan da yan keçmədi. 1937-ci idə yüzlərlə koreyalılar yaşadıqları ərazilərdən zorla köçürülərək Sovetlər Birliyinə daxil olan Respublikalara, əsasən Qazaxıstan və Qırğızıstana sürgün edildilər.

II Dünya müharibəsindən sonra Koreya diasporunun müəyyən bir hissəsi köhnə yerlərinə qayıtdılar. Sürgün edildikləri yerlərdə birləşən koreyalıların diasporda təşkilatlanması 1988-ci ildən sonra başlandı. Koreyalılar Sovet vətəndaşlığına götürülməsində olan əngəlliklər aradan götürüldü.

Rusiyada və Sovetlər Birliyinin dağılmasından sonra yaranan müstəqil respublikalarda Koreya diasporu təşkilatlanmış halda fəaliyyət göstərməyə başladı. Müasir dövrdə Koreya diasporu Rusiyada öz aktivliyinə görə seçilir. Onlara məxsus dövrü mətbuat ruslar tərəfindən rəğbətlə qarşılanır. Koreya diaspor birlikləri ictimai-mədəni işlər istiqamətində gördüyü işlərdə hökumət tərəfindən dəstəklənir.

*__Avstraliyada__* da Koreya diasporu sayca üstünlük təşkil etsə də, bu, passiv xarakter daşıyırdı. 1963-cü ildə Avstraliyada mühacirət hüququ liberallaşdırıl dıqdan sonra Koreya diasporu yeni gələn mühacirət dalğası sayəsində formalaşaraqvə təşklatlandı.

Avstraliyada müasir dövrdə 1 milyona yaxın koreyalı yaşayır. Xırda biznes sahəsində uğurlar əldə edən Koreya diasporu fəal olaraq ölkənin ictimai-siyasihəyatında özünəməxsus yerləri vadır. Bu ölkədə 7 ən fəal fəaliyyət göstərən etnik diaspordan biri hesab olunan Koreyadiasporu hüquq, maarifçilik, mədəni və s. fəaliyyətlə məşğul olan müxtəlif assosiasiya və birliklərə məxsusdur.

Koreyalıların mühacirət etdikləri dövlətlərdən biri də *__Meksikadır.__* 2000-ci ilin məlumatına görə Meksikada koreyalıların sayı 1 milyondan çoxdur. Bu isə ölkədə Koreyadiasporunun güclü olmasını göstərir.

Meksikaya Koreya mühacirləri XX əsrin əvvəllərindən gəlməyə başlayıblar. Lakin 1963-cü ilə qədər onların fəaliyyəti sırf iqtisadi işlərlə əlaqəli idi. 1963-cü ildən sonra Meksikaya Koreya mühacirətinin axının güclənməsi ölkədə Koreyadiasporunun fəaliyyətinin güclənməsinə səbəb oldu.

Müasir dövrdə Koreya diasporu tikinti, fermer, təsərrüfatı və xırda biznes sahəsində uğurlar qazanıblar. Əsasən Meksikanın Şimal hissəsində kompakt halda məskunlaşan Koreya diasporu hökumət tərəfindən verilmiş bir çox güzəştlərə malikdirlər.

Dünya koreyalılarının 1,2 fizinin məskunlaşdıqları ərazi Mərkəzi və Cənubi Amerika hesab olunur. Əsasən Kosta-Rika, Venesuella, Çili, Argentina da üstünlük təşkil edən Koreya diasporunun fəaliyyəti iqtisadi-biznes xarakteri daşıyır və bu fəaliyyət çox aktiv hesab olunur. Bu səbəbdən də bu dövlətlərdə Koreya diasporu formalaşmasına baxmayaraq təşkilatlanma prosesi keçməyib.

Koreya diasporusayına görə Çindən sonra ikinci ütünlük təşkil etdiyi dövlət *__Amerika Birləşmiş Ştatlarıdır.__* ABŞ-a ilk koreyalı mühacirlər 1883-cü ildə Havayda şəkər plantasiyalarında işləmək üçün gəliblər. 1888-ci ildən isə iqtisadi xarakterli Koreya mühacirətinə siyasi səbəblərin də daxil olması nəticəsində Havayda Koreya diasporunun ilkin formalaşması başlandı.

Koreyalıların ucuz işçi qüvvəsi kimi Havayda sayının artması diasporlarının təşkilatlanmasına səbəb oldu. Əsasən Şimaldan olan Koreyalılar maliyyə vəziyyətlərini düzəltmək üçün Havaya gəldikdə artıq ABŞ-da anti-Asiya çıxışları başlanmış idi. Ümumi maraqların müdafiəsi və birgə hərəkət etmək istiqamətində birləşdirici faktorlaraxtaran Koreya diasporueyni zamanda Yapon diasporu tərəfindən təzyiqə məruz qalırdı. ABŞ-da Koreya diasporu birləşdirici faktorlar kimi dini və qeyri-dini əsaslara söykənməyə başladılar.

1. ***Qeyri-dini birləşmə özü də iki hissəyə bölünürdü:***





Tonghoe - qədim Koreya kənd icması əsasında formalaşıb. Ümumi rəhbərliyə tabe olan birləşmə növü kimi diaspor arasında daha çox yayılıb. Tonghoe-lərdə ümumi rəhbərlik plantasiyalarda çalışan koreyalıların sahibkarlar ilə danışıqlar aparmasına, ictimaiyyətə adaptasiya olanmasına, diaspor daxili münasibətlərin normallaşdırılmasına, qadına, böyüyə, kiçiyə hörmət edilməsinə və s. nəarət edirdi. rəhbərlik tərəfindən qoyulan şərtlərə əməl etməyən koreyalılar pul və ya əlavə iş saatı kimi cəza növləri ilə üzləşirdilər.

Qardaşlıq - Diaspor daxili münaqişələrin yaranmasına səbəb olan birlikdir. 50-60 koreyalının cəmləşdiyi qardaşlıq birliklərinə daxil olanlar birbirlərindən fərqlənmək üçün bədənlərinə xüsusi tatuirovka döydürürdülər. Əcnəbilərdən qorunmaq məqsədilə yaranan qardaşlıq birlikləri arasında tez-tez liderlik uğrunda münaqişələr baş verirdi.

2. ***Dinim birləşmə:***

ABŞ-a ilk mühacirət edən koreyalıların əksəriyyəti xaçpərəstlər olduğundan onlar məskunlaşdıqları ərazilərdə digər həmvətənləri içərisində missionerlik fəaliyyəti aparırdılar. 1903-1918-ci illər arası Amerika koreyalıları yapon disaporunun təzyiqlərindən və ictimaiyyətə adaptasiya olunmaqda çətinlik çəkməmək üçün onların 1/3 hissəsi xaçpərəstliyi qəbul etməli oldu. Amerikanın xaçpərəst sakinləri arasında özlərinin nüfuzunu qaldırmaq və himayə olunmaq məqsədilə də bu addımı atan koreyalılar hökumət tərəfindən müəyyən güzəştlərə malik idilər.Koreyalıların xaçpərəst dininin qəbul etməsinin aşağıdakı səbəbələri var idi:

**Tonghoe və Qardaşlıq kimi birliklərin onların hüquqlarının tam olaraq müdafiə edə bilməməsi;**

**Məskunlaşdıqları ərazilərdə və çalışdıqları plantasiyalarda özlərinə rəğbət qazanmaq.**

**Xaçpərəstliyi qəbul edənlərə verilən sosial güzəştlər.**

Xaçpərəstliyi qəbul edən koreyalıları birləşdirmək üçün kilsə tərbiyəvi, təhsil, metodik və s. vasitələrə əl atırdı. 1920-ci ildən sonra tam formalaşan və təşkilatlanan Koreya diasporu na nəzarət etmək üçün kilsələr arasında narazılıq baş verməsi və siyasi fəaliyyətə başlaması diasporun onlara olan etibarının azalmasına səbəb oldu.

1965-ci ildən sonra isə kilsə diasporda yenə birləşdirici amil rolunu oynamağa başladı. Ölkəyə gələn yeni mühacirlərin dayaq nöqtəsinə çevrilən kilsələr aralarında münaqişələrə son qoyaraq diaspor arasında maarifləşdirmə işi ilə məşğul olmağa başladılar. Koreya milli adət-ənənələrinin himayədarı kimi özünü tanıdan kilsələr Koreya dilini, tarixini, ədəbiyyatını, mədəniyyətini təbliğ edilməsi və qorunub saxlanması üçün nəzdlərində məktəb və mərkəzlər açmalı oldular. Koreya dilində dövrü mətbuat, bülleten, kitab nəşr etdi-

rən kilsə koreyalılar arasında ingilis dilinin öyrənilməsi istiqamətində də çalışır.

Bu cür birləşdirici amillərlə yanaşı Havaydakı koreyalılar Seula müraciət edərək dövlət tərəfindən müdafiə olunmaq məqsədilə Havayda Koreya konsulluğunun açılmasını tələb etdilər. Lakin protektorat haqqında Yaponiya ilə 1907-ci il 17 noyabr müqaviləyə imza atan və maliyyə imkanları olmayan Koreya hökuməti Havayda Yapon konsulluğuna bu işi görmək üçün həvalə etdi. Yaponiyanın Koreyanın xarici siyasəti ilə nəzarəti diasporun etiraz çıxışlarını səbəb oldu. Bu səbəblərdən də Havaydakı koreyalılar Yaponiya protektorluğuna etiraz əlaməti olaraq vətənlərinə geri qayıtmağa başladılar. Lakin plantasiya sahibləri ilə imzalanmış müqaviləyə görə geriqayıtmaq xərclərini özləri ödəməli olduqlarından yalnız koreyalıların müəyyən hissəsi Koreyaya qayıda bildi. Bu səbəbdən də Havayı tərk edib Amerikanın digər ştatlarına köçən Koreyalılar Yaponiya nəzarətindən qaçmağı planlaşdırırdılar.

1903-cü ilin 3 yanvarında ilk koreyalılar Havayı tərk etdilər. Amerkanın Sakit okean sahəlləri boyunca yerləşən ştatlarda məskunlaşaraq öz fəaliyyətlərini burada davam etdirirdilər.

Amerikanın iri şəhərlərində məskunlaşan koreyalılar əsasən dəmir yol kampaniyalarında və sənaye sahələrində çalışırdılar. Bir qrup koreyalılar isə kənd təsərrüfatı sahələrinə maraq göstərirdi və bu sahədə öz bacarıqlarını sübut etməklə digər diasporlar üçün rəqibə çevrilirdilər.

Əsasən Los-Anceles, San-Fransisko, Sokramento kimi şəhərlərdə sayca çoxluq təşkil edən koreyalılar qədim Yaponiyavə Koreya ənənəsi olan "şəkillə evlənmə"dən istifadə edərək Koreyadan qız gətirib Amerikada evlənirdilər. Bu ənənəyə əsasən evlənmək istəyən gənclərin əvvəlcə bir-birlərinə şəkilləri göstərilirdi. Hər iki tərəfin razılığı əsasında toy edilirdi.

Bu qədim ənənəni Amerikada davam etdirən Koreya diasporuartıq "şəkillə evlənmə" kampaniyası nəticəsində yüzlərlə koreyalı qız ABŞ-a köçməsinə yardımçı oldu. Bu kampaniya ABŞ Federal Komissiyası tərəfindən rəsmən qadağan olunana qədər davam etdi.

Bu qoyulan qadağa Amerikada təhsil almaq istəyən gənclərə şamil olunmurdu. Təhsil almaq istəyən gənclərin Amerikaya gəlişi sərbəst idi və onlar müəyyən güzəştlərə malik idilər. Amerikada təhsil alandan sonra onların 70% burada qalıb işləməyə, 30% isə Koreyaya geri dönməyi planlaşdırırdı. Yaponiyanın ABŞ-da qalan koreyalı tələbələri geri qaytarmaq cəhdləri isə boşa çıxırdı.

1905-1906-cı illərdə Asiya diasporlarına qarşı başlanmış etiraz çıxışları koreyalılardan da yan keçmədi. Rəsmi olaraq "Arzuolunmaz əcnəbilər" siyahısında olmasada onlara qarşı münasibət bəlli idi. 1908-ciildə San-Fransiskoda





irqi-ayrıseçkiliklə məşğul olan Asossasiyaların iclasında qəbul edilən rəsmi sənəddə deyilirdi:

- Koreyalılar hələ problem sayılmır. Ümumi sayı 12 min olan koreyalılardan mini qadındır. Bu səbəbdən də onların sayının artması ehtimalı azdır.

Koreyanın Yaponiya protenkturluğuna keçməsindən sonra koreya diasporu Yaponiya tələbəsi kimi sıxışdırılması başlandı. 1907-ci il 14 mayda yapon mühacirlərini ölkəyə daxil olması miqdarının azaldılması koreyalılara da şamil olundu.

Amerikanın Qərb ştatlarında koreyalıların ölkəyə daxil olmasının qadağan edilməsi və ölkədən çıxarılması üçün asoşsasiyalar yaradıldı. "Sarı təhlükə" hesab olunan koreyalıların da ABŞ-dan çıxarılması kampaniyası bütün Amerikanı bürüdü. Amerikanın həmkarlar ittifaqlarının Asiya diasporlarına qarşı başladıqları çıxışları, 1919-cu ildə Ali Məhkəmənin "onların monqolid irqinə aid olmaları sarı təhlükənin yayılmasının səbəbidir" qərarının qəbul etməsindən sonra məsələ daha da qızışdı. 1924-cü ildə Yapon mühacirlərilə birgə koreyalıların ABŞ-a buraxılmaşı rəsmən qadağan edildi.

Bu ildən sonra ABŞ-a yalnız diplomatlar və tələbələr daxil ola bilərdilər. Tələbələrin sayı isə günü-gündən artırdı. II Dünya müharibəsi illərində Koreya diasporu Yaponiya təəbəsi kimi qəbul edildiyindən hökumət tərəfindən sıxışdırılması başlandı. Perl-Horbor hadisəsindən sonra ölkə daxilində "düşmən əcnəbilər" kimi koreyalılar ağır təzyiqlərə məruz qalırdılar. Havayda Koreya diasporu yerli hökumət tərəfindən sıxışdırılması ağır şərtlər əsasında baş verirdi. Havay qubernatoru Yapon diasporunda olduğu kimi koreyalılardan tanınmaq üçün "qara rəngli xüsusi nişan" daşımağı tələb etməklə onların müdafiə xarakterli işlərdə iştirakını və yaşayış yerlərini dəyişmək kimi qadağalara əməl etməyə məcbur edirdi. Koreyalıların ictimai yerlərdə görünməsi qadağan idi.

ABŞ-da onlara qarşı yeridilən siyasətin haqsız olduğunu sübut etməyə çalışan Kkoreya diasporu onların Yaponiya təəbəsi kimi qəbul edilməsinin əleyhinə çıxışlara başladı.

Məktub və digər kampaniyalara başlayan koreyalılar Amerika orduları tərkibində Avropada faşizmə qarşı vuruşur, müdafiə xarakterli işlərdə çalışır və tez-tez kütləvi tədbirlər keçirirdilər. Belə tədbirlərdə əllərində Amerika və Koreya bayraqlarını tutan koreyalılar Yaponiya əleyhinə çıxışlar edirdilər.

"Mən Amerikalıyam". "Koreya Amerika ilə birgə qələbəyə doğru" və s. şüarlarla koreyalılar Tokio nəzarətindən çıxmağa çalışırdılar.

1942-ci ildə koreyalılar "Düşmən əcnəbilər" siyahısından çıxarıldılar. Ədliyyə Nazirliyinin bu qərarından sonra koreya lobbisi fəaliyyətini gücləndirdi. II Dünya müharibəsindən sonra konqresdə koreya lobbisinin ölkəyə Koreyadan mühacirətin qadağan olunması üçün qəbul edilmiş qərarı ləğv etməsi öz bəhrəsini verdi. 1952-ci ildə koreya mühacirləri kvota əsasında öl-

kəyə daxil ola bilərdilər. İldə 100 nəfər nəzərdə tutmuş kvotanın ildən-ilə sayı artırırdı.

Koreyalılara qarşı hökumət tərəfindən münasibətin dəyişməsinə baxmayaraq bir çox ştatlarda olan qadağalar 1965-ci ilə qədər qüvvədə qaldı. Koreyalılar 1965-ci ilə qədər torpaq almaq, icarə götürmək və 36 növ işdə çalışması hələ də əngəllənirdi.

1965-ci ildə Amerika Birləşmiş Ştatlarında mühacirət qanunları liberallaşdırdı. Bundan sonra Amerikaya dünyanın müxtəlif bölgələrindən etnik mühacirlərin axını gücləndi. Koreya mühacirətinin sayının sürətlə artması Amerika Statistika Departamentinin onlar üçün ayrı hesabat dəftəri ayırmasına səbəb yaratdı. Koreya mühacirətinin demoqrafik hesabatı, analizi və proqnozları hər ild dərc olunurdu. 1965-ci ildən Amerikaya başlanan yeni Koreya mühacirət dalğası Çikaqo, Nyu-York, Loş-Anceles şəhərlərini əhatə edirdi. Bu şəhərlərdə kompat halında məskunlaşan koreyalılar sosial-iqtisadi proqnozlarda aktiv iştirak edirdilər. İlk böyük koreataunlar (koreya məhlələri) - bu şəhərlərdə yaradılmışdır. Amerikada Koreya diasporunun mərkəzi hesab olunan Los-Ancelesdəki "Balaca Seul" - Korea -taunu ən böyük koreyil məhləsidir. "Balaca Seul"da koreyalılara məxsus hüquq firmaları, ticarət obyektləri, Restoranlar, sənətkar ofisləri fəaliyyət göstərir. Çayntaunlardan fərqli olaraq koreyataunlar da sərt qayda-qanunlar yoxdur. Ümumi rəhbərlik milli-adət ənənələrin qorunub saxlanılmasına nəzarət edir. Burada koreyalılar bir-birlərilə intensiv əlaqə qurur, hüquqlarının müdafiəsinin professional notarius formalarına həvalə edirlər. Buranın sakinləri çox varlı olmasalar da şəxsi avtomobillərinin sayına görə digərlərindən fərqlənirlər. "Balaca-Seul"da çoxsaylı assosasiya və təşkilatlar, kilsələr koreya diasporunda mədəni maarifçilik işlərilə məşğul olurlar. Koreyataunda dövrü mətbuat həm ingilis, həm də koreya dillərində nəşr edilir. İngilis dilinə gec adaptasiya olunan koreyalılar koreyataunlarda doğma dillərində danışırlar.

Amerikaya ilk dəfə gələn koreyalılar burada heç bir çətinlik çəkmirlər. Onlar koreyataunlarda işləmək, qalmaq və dil öyrənmək kimi şəraitlə təmin olunurlar. Diaspor içərisində imkanlı şəxsləryeni mühacirlərə maliyyə yardımı göstərirlər. Təhsil almaq istəyənlər isə böyük güzəştlərə malikdirlər.

Koreyataunların sakinlərilə Amerikanın yerli əhalisi arasında tez-tez milli adət-ənənələrin qorunub saxlanılması üstündə münaqişələr baş verir. Amerika ictimaiyyəti üçün koreya dili, mədəniyyəti yad olduğundan koreyalıların assimyasiyası sürətlə gedir. İngilis dilinin onlar tərəfindən zəif bilməsi assimlasiyaya mane olmasına baxmayaraq kilsələr onlara köməklik göstərir.400-dən çox Koreya kilsəsi ABŞ-da fəaliyyət göstərir və onlar koreyalıların ictimaiyyətə adaptasiyasına yardımçı olurlar. İntellektual baxımdan asiyalılar içəri-





sində seçilən koreyalıların assimlasiya olunması ölkə rəhbərliyinin maraqlarına daxildir.

Müasir koreyalıların əksəriyyəti 1965-ci ildən sonra Amerikaya gələnlərdir. Onların vətəndə qohum-əqrəbalarının qalması səbəbilə koreya ilə sıx əlaqə saxlanılmasınınbaşlıca səbəbidir. Amerika koreyalıların müəyy kənd təsərrüfatı sahələrinə maraq göstərir. Əsasən tibb və ticarət sahələrində çalışmağa üstünlük verən koreyalılar bu məqsədlə xüsusi kurslar keçirirlər.

Xırda sahibkarlığın Koreya diasporunda üstünlük təşkil etməsi Koreya burjuaziyasının yaranmasına səbəb olmuşdur. Cənubi və Şimal koreyalılar burjuaziya yaradılmasından sonra bir-birlərilə münaqişələrə başladılar. Açıq-aşkar olmasa da onlar arasında olan ədavət müəyyən problemlərin həlli zamanı özünü göstərir. Cənublular şimallılardan fərqli olaraq daha intellektualdırlar. Onların 80%-i xırda sahibkarlardır, onlara məxsus ticarə obyektləri digər məhlələrdə də fəaliyyət göstərir. Digər diasporlarla rəqabət aparan cənublular zəngin məhlələrdə fəaliyyət göstərən yeganə etnik diaspor hesab olunur. Şimalıların əksinə olaraq cənublular ictimaiyyətə daha gec adaptasiya olunurlar. Milli adət-ənənələrə ciddi riayət edən cənublular vətənlə intensiv əlaqə qurmaqla elm-təhsilə daha çox maraq göstərirlər.

Cənubi koreyalıların 65%-i ali təhsillidirlər. Onlar Amerikada bütöv Koreya ideologiyasının yaradıcılarıdırlar. İki Koreyanın birləşdirilməsini təbliğ edən cənublular vahid cəbhədən çıxış etmək üçün şimaldan olanlar ilə danışıqlar aparırlar. Amerika kəşfiyyat orqanlarını onları dəstəkləməsi şimallıların narazıçılığı ilə qarşılandığından onlar arasında ümumi razılıq yoxdur.

Amerikada koreya diasporu siyasi cəhətdən daha çox fəaldır. Müxtəlif sahələrdə işlər görən Koreya diasporu çoxlu Kütləvi İnformasiya Vasitələrinə (KİV) sahibdir. Müasir dövr üçün Koreya diasporuna məxsus "Korea Post", "Korea Times" və s. qəzetləri, "Korean Yournal", "Korean Weeckly" və s. jurnalları dərc olunur. "Radio Korea", "Radio Ceoul" və s. radio və "Korean TV", "Korean Channel" və s. televiziya kanalları Amerikada yayımlanır.

Bu KİV orqanları diaspor içərisində təbliğatçılıq işilə məşğul olurlar. Amerika ictimaiyyətində Koreya diasporuna müsbət imic qazandıran KİV-lər Amerika ictimaiyyəti və hökuməti tərəfindən rəğbətlə qarşılanır. Koreya diaspor birlikləri müxtəlif istiqamətlərdə fəaliyyət göstərirlər. Aşağıda adları sadalanan birliklər Amerikada daha çox aktivdirlər:

1. **Koreya Milli Assosasiyası** - 1945 -ci ildə yaradılıb, əsasən koreya Amerika münasibətlərinin normallaşdırılmasına çalışır. ABŞ-ın bir çox şəhərlərində filialları var. Demokratiya, insan hüquqları sahəsində koreyalıların maarifləşdirilməsinə çalışan assosasiya kitablar, bülletenlər dərc etdirib diaspor arasında yayır.

2. **Cənubi Kaliforniyada Koreya Assosiyası** - 1968-ci ildə yaradılan Assosasiya burada fəaliyyət göstərən ən böyük təşkilatlardandır. 70 min üzvü

olan Assosasiya yüksək vəzifəli koreyalılar tərəfindən dəstəklənir. Bir neçə xeyriyyə fonduna sahib olan Asossasiya imkansız koreyalılara maddi köməklik göstərir. Xırda sahibkarların dayağı hesab olunan Assosasiya maliyyə cəhətdən güclü təmin olunub.

3. **Amerikada Koreya problemlərini öyrənən Assosasiya** 1974-cü ildə təsis edilib. Amerikada Koreya diasporunun sosial, iqtisadi, siyasi, hüquq, elmi, mədəni vəs. problemlərini araşdıran Assosasiya bu sahələrdə maarifləşdirici işlərlə məşğul olur. Bu istiqamətlərdə komitələr yaradan Assosasiyanın digər ştatlarda şöbələri var.

4. **Koreyanın Demokratik Birləşdirilməsi Milli Assosasiyası** - 1970-ci illərdə yaradılıb. Əsas fəaliyyət istiqaməti Cənubi və Şimali Koreyanın demokratik yolla birləşdirilməsi üçün diaspor arasında iş aparmaqdır. Bütöv Koreya ideologiyasının təbliğ edən Assosasiyanın bir çox şəhərlərdə filialları fəaliyyət göstərir. Tez-tez konfrans və seminarlar keçirən assosasiyanı digər diaspor təşkilatları içərisindən də dəstəkləyənlər var.

5. **Amerika-Koreya Dostluq və İnformasiya Mərkəzi** - 70-ci illərdə təsis edilən Mərkəz, Koreya yarımadasında vəziyyətin normallaşdırılması üçün Amerikada lobbiçiliklə məşğul olur. İri şəhərlərdə şöbələri olan Mərkəz Amerika və Koreya rəsmiləri ilə tez-tez görüşlər təşkil edir.

Adları sadalanan birliklərdən başqa Amerikada "Amerikanın Koreya Dostluq Assosasiyası", "Koreya Mədəniyyəti, Cəmiyyəti" və s. təşkilatlar da fəaliyyət göstərir.

Müasir dövrdə Amerikada Koreya diasporunun ictimai dairələr tərəfindən assimlyasiya olunması prosesi sürətlə gedir. Burada yaşayan gənc koreyalılar qarışıq nikaha üstünlük verirlər. Bu isə onların professional koreya əldə etməsinə təkan verir. Son illər isə Koreya taunlardan gənc nəsilin köçməsi prosesi başlanıb ki, onlar iri binalarda və zəngin məhlələrdə yaşamağa üstünlük verənlərdir. Kilsəyə gedən koreyalılar zamanla da bu vərdişdən əl çəkirlər. İngilis dilində danışmağı sevən koreyalılar ailədə ana dildə danışmağa az vaxt ayırırlar. Sosial-iqtisadi həyatda isə onlar daha fəaldılar ki, bu da onların yerli əhali tərəfindən sevilməsinə şərait yaradır.





## ƏDƏBİYYAT

1. Yoonin Yin «North Korean Diaspora" NDRSN Korea Different abroad and in South Korea» Seul. 2001
2. Андрей Панков "Хаотические заметки короеведа" М.1999
3. «Рассы и народы». М. 1974
4. "The Korean Diaspora in China, Yapon, the USA and the former USSR" Chicago 2001
5. Neh-Pahn Park "Narratives of migration from the formation of Korean'Chinese Nationality in the PRC to the Emergence of Korean Chinese migrant in South Korea"Washington. 1996
6. "The Journal of the International Instute"vol 4, N-1, 2001
7. Ким Сын Хва "Очерки по истории советских корейцев" Алма-Ата. 1965.
8. "Корейские Эмигранты в Приморье"www.фegi.ru
9. Koreans living Abroad - www.athfg.net
10. Journal "Devolopement and Society" Vol. 30, N-1, 2001
11. E.N. Севастьянов, И.Е.Корсакова "Позолченное гетто-очерки о жизни в США емигрантов из Китая, Кореии и Японии. М. 1983
12. 120 years of Korean Amerikanhistory www.english. hanthit-bible.org
13. Wayne Peterson. "the Ilse: Frist generation Korean immigration in Havaii. 1903 -1932" Wisconsin. 2000
14. LEE Louren «Korean Americans» New York. 1996
15. Aleyandro Portes and Ruben G.Rumbrant "Imimigrant Amerika:, A Port Pait' Californiya 1996.
17. Б.Е.Чиркин "Дискриминация национальных меншенств в США" М. 1986
18. Maldwin Ailen "Yones American immigration" Chikago. 1992
19. "США Сосиальню Экономическое аспекти иммиграции" М.1987
20. "Korean Media" - www.asianmeadiaguide.com
21. Min Ryonybar "Cought in the Middle: Korean Communites in New York and Los-Angeles" Los-Angeles, 1996

## MEKSİKA DİASPORU.

Dünya diasporları içərisində özünəməxsus yeri olan Meksika diasporunun formalaşmasını, təşkilatlanmasını, ictimai-siyasi fəaliyyətini tədqiq etmək çox çətindir. Meksika diasporu inkişaf təcrübəsinə görə, rəngarəng və dinamikliyinə görə digər diasporlardan seçilir.

Meksika diasporunun fərqli cəhətlərindən biridə, diasporun yalnız Amerika Birləşmiş Ştatlarında təşəkkül tapması, formalaşması və təşkilatlanmasıdır. Cənubi Amerika, Kanada, Avropa və Mərkəzi Amerikadə Meksika mühacirlərinin olmasına baxmayaraq, onlar Amerikadakı kimi geniş şaxəli, aktiv və mütərəqqi diaspor formalaşdıra bilməyiblər. Eyni zamanda bu dövlətlərdə meksikalıların sayı çox da nəzərə çarpan deyildir. Bu dövlətlərdə meksikalıların fəaliyyəti sırf iqtisadi maraqlar, pul qazanmaq üzərində qurulmuşdur.

ABŞ-la Meksikanı bağlayan bir çox səbəblər vardır. Bunlara dil, tarix, ərazi, sərhəd, mədəniyyət, adət-ənənə və s. aiddir. Lakin tarixin gedişi dövründə bu səbəblər arasında müəyyən dəyişiklər baş vermişdir. Tədqiqatçılar Meksika diasporunun ABŞ-da formalaşma prosesini 4 tarixi dövrə ayırırlar:

1. Kolumba qədər olan dövr (1492)
2. İspan-Meksika dövrü (1528-1848)
3. Meksika-Amerika dövrü (1848-1960)
4. Müasir insan hüquqları dövrü (1960 bu günə qədər)

***1. Kolumba qədər olan dövr*** (1492)- Bu dövr əsasən Amerika qitəsinin yerli sakinləri olan hindu tayfaları arasında olan münasibətlər, daxili mühacirət prosesləri ilə yadda qalmışdır. Hindu tayfaları arasında olan münasibətlər əsasən dostluq çərçivəsində davam etməsinə baxmayaraq daha geniş əraziyə sahib olmaq, var-dövlət əldə etmək üçün münaşiqələr də tez-tez baş verirdi. Bu münaşiqələrlə yanaşı bir tayfanın tamamilə məhv edilməsi və əsir götürülməsi ilə nəticələnirdi. Qalib tərəfə isə var-dövlətlə yanaşı geniş ərazilər tabe olurdu. Beləliklə münaşiqələr zamanı bir tayfanın bir yerdən başqa yerə mühacirət etməsi baş verirdi. Çox zaman isə tayfa daxilində müəyyən qruplar yaşadıqları əraziləri tərk edib başqa yerlərə köç edirdilər.

Bu dövr barədə çox tədqiqatlar olduğundan bunu araşdırmağın bu qədər kifayət olduğunu düşünürük.

***2.İspan-Meksika dövrü*** (1528-1848)- 1492-ci ildə Xristafor Kolumbun "Yeni Dünya" kəşf etməsindən sonra Avropanın aparıcı dövlətlərində daha böyük ərazilərə sahib olmaq üçün Amkrikaya tez-tez ekspedisiyalar təşkil edilirdi. Fransa, Portuqaliya, İngiltərə ilə yanaşı dənizdə güclü mövqeyə malik olan İspaniyanın Amerika qitəsindəki ekspedisiyaları yeni dünyada öz





müstəmləkələrin qururdu. 1513-1528-ci illər arası "Yeni Dünyaya" da ekspedisiya rəhbərlərindən Hernando Kortez, Fransisko Vaskez, Xuan Pois Leon, Lukasa Vaskvez və s. adlarını çəkmək olar ki, onların səyi nəticəsində İspaniya Meksikaya nəzarəti ələ ala bildi. İspaniya Meksika ərazisindəyerli əhali arasında dini missionerlik təbliğatı aparmaqla yanaşı, əsgərlərinin hindu qızları ilə nigaha girməyə məcbur edirdi. Nəticədə İspan-hindu qarışıq nigahdan törənən metislərin - meksikalıların sayı durmadan artmağa başladı.Metislərin sayının çoxalmasını görən ispanlar hindu kişilərinə qarşı amansız tədbirlər həyata keçirməyə başladılar. 1800-cü ildən sonra Meksikada yerli hinduların sayı olduqca azaldı. Metis meksikalılar isə nəticədə Meksikanın tam hüquqlu əhalisinə çevrildilər.

1795-ci ildə İspaniya və Amerika Birləşmiş Ştatları arasında dostluq və sərhədlərin müəyyən edilməsi ilə əlaqəli imzalanan müqavilə nəticəsində Meksika-ABŞ arasında sərhədə Missipi çayından götürülürdü.

Meksika İspaniya ağalığına qarşı başlanan milli-azadlıqmübarizəsi nəticəsində 1821-ci ilin avquşt ayında Meksika müstəqilliyini əldə etdi. Lakin müstəqillik əldə etməsinə baxmayaraq Meksikanın problemləri kifayət qədər idi. Fransa və ABŞ-ın Meksikanın malik olduğu böyük ərazilərdə maraqları var ii.

Amerikanın Meksikaya tabe olan Texasda kütləvi şəkildə yerləşməsi nəticəsində Texas tamamilə amerikalaşmaya məruz qaldırdı.

1836-cı ildə ABŞ-ın Texasda yeritdiyi - emprasariya siyasəti nəticəsində burada amerikanlaşmanın güclənməsini görən Meksika rəhbərliyi ABŞ-dan Texasa mühacirəti qadağan etdi. Texas amerikalıları bu fərmana qarşı etiraz çıxışlarına başladıdar və 1845-ci ilə qədər Texasda iğtişaşlar ara vermədi. 1845-ci ildə ABŞ məsələyə rəsmi mövqe bildirərək Texası anneksiya etdi. Bu Meksika və ABŞ arasında diplomatik əlaqələrin kəsilməsi və regionda gərginliyin artması ilə nəticələndi. 1846-cı ilin may ayında ABŞ-Meksikaya qarşı müharibəyə başladı və 1848-ci ilin 2 fevralında Qvadalupe- Hidalqo villasında imzalanan sülh müqaviləsi Meksika üçün ağır nəticələr verdi.

Meksika sahib olduğu böyük ərazini 1/3 hissəsini itirməli oldu. Bu ərazilər Kaliforniya, Texas, Yuta, Arizona, Kolnarado və Nevada ştatları idi.

***3. Meksika-Amerika dövrü*** (1848-1960) - 1848-cı ildə Amerika və Meksika arasında sərhədlər müəyyənləşdirilməsinə baxmayaraq 1924-cü ilə qədər iki ölkə arasında gediş-gəliş əvvəlki kimi qalırdı. Hər iki tərəf sərbəst halda sərhədi keçib bir dövlətdən başqa dövlətə keçə bilirdi. Sərhədlərin açıq olması hər iki ölkə arasında ticari münasibətlərin güclənməsilə yanaşı Meksika mühacirlərinin ABŞ-a axınına səbəb oldu. Bu cür sərbəstlik nəticəsində ABŞ və Meksikada oxşar qəsəbə və şəhərlər yaranırdı. Xüsusilə ABŞ-da meksikalıların çoxluq təşkil etdiyi qəsəbələr iri şəhərlərə çevrilirdi və oxşar şəhərlə-

rin çoxu eyni adlı idi. Məsəl üçün ABŞ-dakı EL-paso şəhəri Meksikanın Duday-Xuarcs şəhərinin tam oxşarı idi.

XIX əsrin sonları XX əsrin əvvəlindən ABŞ-a Meksika mühacirlərinin leqal olaraq ilk böyük dalğası başlandı. Bu mühacirətin kütləvi şəkil almasının aşağıdakı səbəbi var idi:

**ABŞ-ın nəzarətinə keçən ştatlarda plantasiya sahiblərinin ucuz işçi qüvvəsinə olan ehtiyac;**

**Sərhədlərin açıq olması;**

**ABŞ-ın Cənub-Qərb hissəsindəki əkin yerlərində mütəxəssisəolan tələbat;**

**hər iki ölkə arasında olan mədəni, ənənə və adət bağlılığı.**

ABŞ-a başlanan mühacirətin pik nöqtəsinə Kaliforniyada "Qızıl hərisliyinin" başlanması çatdı. Dünyanın müxtəlif dövlətləri ilə yanaşı Meksikadan minlərlə meksikalı Asiya, Avropa; Amerikadan olan mühacir - qızıl axtaranlarla birgə Kaliforniyada "Qızıl hərisliyi" bitənə qədər qaldılar. Lakin bəxti gətirməyənlər sırasına aid olan meksikalılar digərləri kimi ölkənin müxtəlif şəhərlərinə səpələndilər. Ən ağır və əmək haqqı az olan işlərdə çalışan meksikalılar qısa zaman ərzində özlərini bacarıqlı işçilər kimi göstərə bildilər.

1880-1900-cu illər arası diasporlarına qarşı başlanan çıxışları, ölkəyə mühacirət edənlər qarşısında yaranan problemlər ucuz işçi qüvvəsinə olan ehtiyacı yaratdı. Asiya mühacirlərinin onsuz da az əmək haqqı ilə çalışmalarına baxmayaraq sahibkarlar onlardan da aşağı maaşla işləyən qüvvə axtarışlarında idilər. Cənubdan Sakit okeana çəkilən dəmir yol xəttində Asiyalı işçilərin çalışmalarına baxmayaraq rəhbərlik Meksika mühacirlərinə üstünlük verirdilər. Bunu aşağıdakı səbəbləri var idi:

- Meksikalılar hər bir işdə bacarıqlı idilər;
- Onlar yerli iqlimə uyğunlaşmış idilər ki, Amerika meksikalılar üçün yad hesab olunmurdu;
- Meksikalılar daha az əmək haqqı tələb edirdilər.

Bu səbəblərdən də 127.000 meksikalı 1888-1900-cu illərdə Amerikaya iqtisadi xarakterli mühacirət etməli oldular. Nəticədə meksikalılar digər etnik diasporlarla yanaşı yerli işçiləri də hər tərəfdən sıxıdırmağa başladılar.

Deməl olar ki, Cənubdan Sakit okeana çəkilən dəmir yolunun işçilərinin 60%-ni meksikalılar təşkil edirdi. Meksikalıranı ABŞ-dakı vəziyyəti barədə yazıçı Rudolfo Tuiran "ABŞ-da Meksika mühacirlərinin keçmiş və bu günü" kitabında bu cür qeyd edirdi: "Amerikaya mühacirət edib iş axtaran meksikalıların əksəriyyəti professional şaxtaçılar və fermerlər idilər. Lakin ehtiyac onları görə bildikləri işdə deyil, ən ağır işlərdə qul kimi çinlilər və hindlilərlə bərabər səviyyədə qəbul olunmağa məcbur etmişdir".





1910-cu ildən başlayaraq Meksikamühacirlərinin icma halında birləşərək diaspor formalaşdırmaları başlandı. Bu istiqamətdə meksikalılara çin, hind, yapon, irland, yəhudilərin təcrübələri örnək idi. Adları çəkilən etnik diasporların birgə hərəkəti və qorunması meksikalıların birləşməsinə ehtiyac yaratdı. Onları birləşməyə məcbur edən səbəblər aşağıdakı kimi idi.

**Meksikalıların çoxluq təşkil etdiyi yerlərdə dini zəmində yerli əhali ilə aralarında baş verən toqquşmalar. Meksikalılar katolik məzhəbində idilər. Bu isə əhalisinin çox hissəsinin protestant olan Amerikada dini toqquşmaların başlanmasına şərait yaradırdı.**

**Dil problemi - Meksikalılar ispan dilli olduqlarından yerli əhali ilə ünsiyyət yaratmaqda çətinlik çəkirdilər. Amerikalılar vətənlərində ingilis dilində danışmayanlara və dili qavramayanlara qarşı sərt idilər.**

**Meksika işçilərinin bütün sahələrdə digərlərinin üstələməsi. Bu isə həmkarlar ittifaqları və digər diasporların narazılığına səbəb olurdu.**

Lakin Kaliforniya və Texasda kənd təsərrüfatının inkişaf etməsində mühüm rolu olan Meksikalıların diaspor formalaşdırılmasında ciddi əngəlliklər yox idi. Bu ştatlarda qaramala baxılması və torpaq sahələrinin əkilib-becərilməsi, meksikalıların üzərinə düşürdü. Bu səbəbdən də həm hökumət, həm də yerli əhali tərəfindən onlara müəyyən güzəştlər edilirdi. Ancaq meksikalıların sayının durmadan artması müəyyən problemlər yaradırdı və bu hökumət orqanlarında müzakirələrə gətiri b çıxardırdı. Ancaq I Dünya müharibəsinin başlanması müzakirələrin təxirə salınmasına səbəb oldu. 1917-18-ci ildə ABş silahlı qüvvələri tərkibində minlərlə meksikalının döyüşməsinə baxmayaraq ölkə daxilində onlara olan münasibətdə dəyişiklik yaratmadı.

Həmkarlar ittifaqlarının diasporlara qarşı başladıqları mübarizə meksikalılardan da yan keçmədi. İrqi-ayrı seçkilik zəmində də toqquşmalar meksikalıları diasporda formalaşma prosesini gücləndirirdi.

İlk dəfə olaraq Meksika diasporu digər Latın Amerikasından olan diasporlarla birgə ictimai-siyasi fəaliyyət göstərmək məqsədilə "Hüquqların birgə müdafiəsi üçün vətəndaş birliyi" yaratdılar.

1929-cu ildə yaradılan "Latın Amerikası Vətəndaşlar Liqası" həmkarlar ittifaqlarının onlara qarşı başladıqları təzyiq və sıxışdırılma kampaniyasına öz etirazlarını bildirməyə başladı. Liqa hökumət rəsmilərinə göndərdikləri məktublarda, təşkil etdikləri çıxışlarında aşağıdakı tələbləri irəli sürürdülər:

**Latın Amerikasından olan diasporlarla təzyiqlərin dayandırılması;**

**Yüksək maaşlı işlərdə onların ağ dərili vətəndaşlar kimi eyni hüquqa malik olması;**
**İctimai proqramlarda onların iştirakına şərait yaradılması;**
**Assimlasiya prosesinə son qoyulması.**

Lakin onların çıxışları nəticəsiz qalırdı. Bu ölkədə onsuz da problem olan mühacirət prosesini daha çətinləşdirirdi. 1924-cü ildə ABŞ-da mühacirlərin ölkəyə daxil olması rəsmən qadağan edildikdən sonra Meksika Amerika üçün "Qara keçid" rolunu oynamağa başladı. ABŞ-a köçmək istəyən müxtəlif ölkələrdən olan mühacirlər Meksikadan keçid kimi istifadə edərdilər. Bu proses Meksika tərəfindən qeyri-leqal mühacirətin qarşısını alması ilə nəticələndi. Öz vətəndaşlarının da ABŞ-a keçidinə əngəlliklər yarandığını görən Meksika rəsmi olaraq keçidi bağladı.

1929-cu ildə dünyada baş verən iqtisadi böhran Amerikada da öz təsirini göstərdi. Ölkəyə daxili mühacirət prosesinin güclənməsi nəticəsində kənd təsərrüfatında işçi qüvvəsinə ehtiyac yaratdı. Plantasiya sahiblərinin dəvəti ilə Amerikaya yeni mühacirət prosesi başladı. Bu mühacirətin nəticəsində 1930-cu ildə ölkədə yeni etiraz dalğalarının başlamasına şərait yaratdı. Bu il Meksika diasporu Amerikada ən ağır təzyiqlə üzləşməli oldu. Həmkarlar İttifaqlarının başladığı təbliğat öz nəticəsini göstərdi. Həmkarlar İttifaqları sayı 3 milyonu keçən meksikalını Amerika iqtisadiyyatının tənəzülə uğrumasının əsas səbəbkarı hesab edirdi. Onlar bunu meksikalıların az maaşla razılaşmalarını ölkədə işsizliyə səbəb olduğunu iddia edirdilər.

Həmkarlar ittifaqlarının başladıqları təbliğat nəticəsində ölkə rəhbərliyi meksikalıların ölkədən çıxarılması, deportasiya olunması barədə *fərman verdi*. Bəzi ştatlarda, xüsusən Kaliforniyada meksikalıların çoxu xüsusi düşərgələrdə saxlanılmağa başlandı. Düşərgələrdə onlara qarşı rəftar olduqca sərt və amansız idi.

Təqribən 500 mindən çox meksikalı Amerikadan deportasiya olundu. 1930-39-cu illər arası Amerikada Meksika diasporu ölkədə onlara qarşı aspasrılan bu cür rəftarla rastlaşacaqlarını xəyallarına belə gətirə bilməzdilər. Meksikalılar işə götürülmürdü, ictimai yerlərdə görünmək onlara qadağan olunmuşdu. Restoran və kafelərdə onlara xidmət göstərilmirdi. Digər etnik diasporlar da onlardan aralı gəzirdilər. Məktəblərdə, ictimai yerlərdə ispan dilində danışmaq cinayət hesab olunurdu. İctimai birliklər və diaspor təşkilatları sosial proqramlardan uzaqlaşdırılmışdı. Yerli əhali meksikalılarla üz-üzə gəlməkdən çəkinir, rastlaşanda ikrah hissi ilə geri çəkilirdilər.

9 il ərzində Meksika diasporu ictimaiyyət tərəfindən qəbul olunmadı. Bu dövrdə Meksika diasporunun özündə daxilşi çəkişmələr, ikitirəlik, hakimiyyət





uğrunda mübarizə və ən başlıcası özlərini meksikalı kimi tanınmasına etiraz edənlərin sayı artıdı.

Amerikada Meksika diasporunda başverən daxili proseslərə görə onlara müxtəlif münasibətlər bəslənməyə başlandı. Hərə bir cür meksikalıları qəbul etməyə başladı. Bu münasibətlər aşağıdakı kimi idi:

***1. İSPANLILAR*** - Bu termik ispan dilində danışan bütün etrik qruplara şamil olunması və meksika diasporunun 80%-nin məhz bu dildə danışmalarına görə onlara da aid olunur. Meksika diasporunun ana dili kimi ispan dilini Amerikada təbliğ etməsi, bu dildə Kütləvi İnformasiya Vasitələrinə sahib olmaları və ən əsası onların ispan əsilli olmasından irəli gələn bu termin Amerikada tez-tez işlədilir. Meksikalılar və digər Latın Amerikasından olanlara bu terminin şamil olunması etnik ispanlıların narazılığı ilə qarşılanır.Bu səbəbdən də onlar arasında gərginlik olunur. İspanlar meksikalıların onların milli adətənənələrinə, dilinə və mədəniyyətinə yaxın olmalarına baxmayaraq onları amerikalı kimi qəbul edirlər.

***2. LATİNOS*** - Bu termin ABŞ-da Latın Amerikasından olan etnik diasporların hamısına şamil edilir. Bu qitədən olan etnik diasporların ABŞ-la çoxluq təşkil etnələrinəbaxmayaraq ölkədə daha çox latinos kimi meksikalılar qəbul edilir. Buna görə ABŞ-da Meksika diasporunun digərlərindən özünü üstün hesab etməsi tez-tez müşahidə olunur. Meksikalılar latinos kimi tanınmalarına çox zaman öz etirazlarını bildirirlər.

***3. MEKSİKA AMERİKALILARI*** - Bu termin çox zaman Meksika əsilli Amerka vətəndaşlarına şamil olunur. Meksika amerikalıları daha çox asımlasiya olunan, dil və mədəniyyəti baxımından Amerikaya sıx bağlı olanlardır. Amerikanlaşmağa daha çox meyilli olan Meksika amerikalıları digər həmvətənlərdən özlərini üstün, sivil və savadlı hesab edirlər. "Çirkli" və "savadsız" - meksikalı kimi tanınmağın əleyhdarları olan Meksika amerikalıları Meksika diasporunda 38,3%-ni təşkil edirlər.1

***4. ÇİKANOS*** - ABŞ-da yaşayan və əsasən də ölkənin əsas işçi qüvvəsini təşkil edən meksikalılar məhz bu cür kimi ölkədə daha çox tanınırlar. Meksika Amerikalıları termini ilə yanaşı Çikanos termini Amerikada tez-tez işlədilən termindir. Amerikanın ədəbiyyatçıları, tarixçiləri öz tədqiqatlarında Çikakos termininin çox istifadə etdikləri üçün ictimaiyyətdə meksikalılar bu cür tanınır. Meksikalılar özləri Çikanos kimi qəbul edilmələrilə alışdıqlarından bu cür çağırışlarına etiraz etmirlər.

Çikanos termininin yaranması 1930-40-cı illərə təsadüf edir. Amerikaya əmək xarakterli mühacirət edən Meksikalılar özlərini "Mexikanos" kimi təqdim edirdilər. Lakin İspan ləhcəsilə deyilən söz Çikanos kimi tələffüz edildiyindən Meksikalılara Çikanos deyilməyə başladı.

***5. POCO*** - ABŞ-da Meksika diasporuna həqarətlə şamil olunan bu termin onlara qarşı nifrət, qəzəb və ikrah hissi kimi istifadə olunur. Amerikada

XX əsrin əvvəllərindən 50-60-cı illərinə qədər irqçi qüvvələrin Meksikalılara bu cür münasibət göstərməsinə əsas səbəb, onların ingilis dilində danışa bilməməsi, təhsil almağa həvəsləri olmaması və ən ağır işlərdə çalışması idi. Poco ispan sözü olmaqla "Korlanmış" mənasını ifadə edir. Meksikalıların Poco kimi çağırılması diasporda narazılıqlarına səbəb olsada, onların bir çoxu bu cür təhqirdən qurtarmaqdan ötrü bilərəkdən assimlasiya olunur, diaspordan uzaqda yaşayır, aktivlik göstərmirdilər. Məhz diasporda İspanlı, latinos. Meksika amerikalıları termini Poco kimi tanınmamaqdan ötrü yarananmış idi. Lakin zamanla meksikalıların Amerikanın ictimai-siyasi həyatında rolunun artması diasporun formalaşması və təşkilatmasını sürətləndirdikcə Poco termini daha az istifadə edilməyə başladı. Müasir dövrdə Poco termin demək olar ki, istifadədən yığışdırılmasına baxmayaraq bəzi ştatlarda hələ də qalınaqdadır.

1940-cı ildən başlayaraq ABŞ-da Meksika diasporunun formalaşmasının yeni mərhələsi başladı. Birgə hərəkət etməyin, müdafiə olunmağın, vahid mərkəzdən idarə olunmağın əhəmiyyətli olduğunu qəbul edən Meksikalılar diasporlarının genişləndirilməsinə ciddi fikir verməyə başladılar. Əsasən ziyalı təbəqəsinin aktiv olduğu diasporda formalaşma prosesində əsas qüvvəsi 40-cı illərdən başlanan "Braçero" əmək mühacirət prosesinin iştirakçıları təşkil edirdi. "Braçero"- əlləri ilə işləyən-mənasını verməklə Amerikanın kənd təsərrüfatında Meksika və Amerika arasında razılaşdırılmasının müqavilə əsasında Amerikaya köçən Meksikalılara deyilirdi. Amerikaya II Dünya müharibəsi illərində başlanan və 60-cı illərə qədər davam edən "Braçero" -sistemi nəticəsində 4 milyondan çox meksikalı mühacirət etmişdir. II Dünya müharibəsi illərində "Braçero"ların zəhməti nəticəsində Amerika iqtisadiyyatı inkişaf etmiş və ölkə dünyada aparıcı yerə çıxmışdır. Plantasiya sahibləri və yerli əhali çalışırdılar. "Braçero"lar Amerikada daha çox pul qazanır, ev və digər avadanlıqlarla təmin olunurlar. Onlar ölkə vətəndaşlığına digərlərindən daha asanlıqla qəbul olunurdular. 1950-ci ildən sonra Meksika diasporuna münasibət dəyişməyə başladı. Bu onların təşkilitlanmasına şərait yaratmaqla sosial proqramlarda meksikalıların iştirakını aktivləşdirirdi. Amerikanın iri şəhərlərində olan Meksika məhəllələri - Mexikotaunlarda həyat daha da canlanırdı. Artıq onlar ikinci növ etnik qrup kimi qəbul edilməsinə son qoyulmasını kəskin olaraq tələb edirdilər. Meksika diasporunun Amerikada başladıqları birgə ən böyük işə onların tələblərin qəbul edilməsi üçün təşkil etdikləri kompaniyalar, etiraz çıxışları daxil idi. Meksika diasporunun irəli sürdüyü tələblər aşağıdakı kimi idi:

1. Meksikalıların bütün sahələrdə yerli əhali kimi eyni hüquqa malik olmasının qəbul edilməsi;
2. Onların təhsil alması üçün müvafiq şəraitin yaradılması.





Meksika diasporunun başladıqları kampaniya 1967-ci ildə öz müsbət nəticəsini göstərdi. Amerika tarixində ilk dəfə olaraq hər hansı bir etnik qrupun problemlərinin həll edilməsi üçün komitə yaradıldı. 1968-ci ildə Meksika məktəblərində iki ingilis və ispan dillərində dərslərin aparılması üçün forman imzalandı. Yerli sosial-proqramlarda meksikalıların iştirakına şərait yaradılması üçün bir sıra tədbirlər proqramı tərtib olunu. Bunlardan 16 bəndlik proqram - daha effektli nəticələr vermişdir. Meksikalıların ictimai-siyasi fəaliyyətinə geniş imkanlar yaradıldı.

1970-ci ildən sonra Meksika diasporunun iqtisadi rolu ölkədə güclənməyə başladı. Daxili bazarın inkişaf etməsi və xarici ticari əlaqələrin güclənməsində əhəmiyyətli rol oynayan Meksika diasporu eyni zamanda qeyri-leqal biznesin güclənməsində iştirak edirdilər. Bu problemlərin həlli ilə yanaşı 1970-80-ci illər arası Amerikaya mühacirət edən gənc nəslin tərbiyəsi Meksika diasporunu narahat edən məsələ idi. Digər tərəfdən diaspor gücləndikcə daxildə müxtəlif fikirli qanadlar arasında narazılıqlar açıq-aşkar hiss olunurdu. Bu qanadlar aşağıdakı kimidir:

1. Mühafizəkar qanad - Amerikada ağ dərili vətəndaşlar kimi meksikalıların da eyni hüquqa malik olmasını müdafiə edirdi. Bütün sahələrdə bərabər-hüquqluluq prinsipinin əsas götürülməsin tələb edən mühafizəkarlar çıxış yolunu assimlasiya olunmaqda görürlər. Bundan sonra tam Amerika vətəndaşı kimi qəbul olunacaqlarına əmin olan bu qanad əvvəlki nəsillərin başlarına gələn hadisələrin bir daha təkrar olunacaqlarından ehtiyat edirdilər.

2. Burjua-liberal qanad - Amerikada meksikalıların hüquqlarının müdafiəçisi olan qanad irqi-ayrıseçkiliyin aradan götürülməsini tələb edirlər. Bütün insanların demokratik prinsiplər əsasında eyni hüquqa malik olmasını bildirən burjua-liberal qanad Meksika diasporunun birgə hərəkət etməsini vacib hesab edir.

3. Radikal demokratik qanad - Amerikada Meksika diasporunun güclü formalaşmış və təşkilatlanmış qüvvəyə çevrilməsində əsas yolun milli adət-ənənələrin, tarixi unudulmamasında görürlər. Doğma vətənlə daha sıx əlaqə saxlamaqla milliliyini qoruyub saxlanacağını iddia edən bu qanad assimlasiyadan qaçmaq lazım olduğunu, bir-birinə hörmətlə yanaşmasını vacib hesab edir.

1990-cı ildən sonra ABŞ-a başlanan yeni Meksika mühacirəti hesabına diaspor getdikcə qüvvətlənirdi. Bu qüvvətlənmə prosesi ölkədə aşağıdakı fikirlərin yaranmasına gətirib çıxartmışdır.

**Meksika diasporunun ölkə siyasətinə və ictimai proseslərinə təsiri güclənmişdir.**

**Ölkəyə gələn mühacirlərdən 10-dan 2-ni meksikalılar təmin edir.**

**Meksika diasporu təhsilə maraq göstərmədiklərindən onların ticari və kənd təsərrüfatı sahələrindəki mövqeyi güclənməkdədir.**

**Meksikalılar Amerikanın bütün ştatlarında məskunlaşmışlar.**

**Meksika diasporu Amerika iqtisadiyyatının ayrılmaz tərkib hissəsidir.**

**Meksika diasporu digər diasporlardan daha çox demokratiya problemi yaradır.**

1990-2000-ci illər arası Meksika ABŞ-dan diasporuna münasibətdə xeyli dəyişikliklər etdi. 1990-cı ildə Xarici İşlər Nazirliyində xüsusi proqram qəbul edildi. Comundiadez Mexicanas el Exteranyero - Xaricdəki meksikalılar və icmalar üçün proqram - adlanan bu proqramda əsas iştiakçıları ölkədən kənarda fəaliyyət göstərən 500-dən çox Meksika icması idi. Proqram nəticəsində ümumi diaspor fondu yaradıldı. Fondun əsas gəliridiaspordan gəlirdi və maliyyə Meksika lobbisinin güclənməsinə, filialların yaradılmasına, milli adət-ənənələrin təbliğ olunmasına, ideoloji iş aparılmasına, müxtəlif səpkili tədbirlərin təşkil edilməsinə xərclənirdi. Bu proqramla Meksika xarici siyasətində diaspora böyük yer və diqqət ayrılırdı. Güclü Meksika lobbisinin təşkili Meksika diasporunun qarşısında qoyulan əsas məqsəd idi.

ABŞ-da isə son zamanlar yeni-yeni güclənən Meksika lobbisi qarşısında qoyulan məqsədlərin öhdəsindən uğurla gəlir.

- ABŞ-ın Meksika diasporuna münasibətin dəyişdirilməsi;
- Qeyri-leqal mühacirət prosesinin tənzimlənməsi;
- Meksikaya hərbi, iqtisadi və siyasi dəstək verilməsi;
- Amerika Meksika arasında iqtisadi münasibətlərin gücləndirilməsi;
- Qeyri-qanuni hesab olunan narkotik alverinin qarşısının alınması.

Meksika diasporu isə ölkə ilə əlaqələrin gücləndirilməsində maraqlıdır. Diasporun aparıcı xadimləri səfirliklər və konsulluqları vasitəsilə Meksikaya tez-tez səfərlər edir, səmərəli görüşlər keçirirlər. ABŞ-dakı Meksika diasporu aşağıdakı tədbirlərin təşkilatçılığını tez-tez edirlər.

- Amerika və Meksika gəncləri arasında tanışlıq və dostluğun qurulması
- Hər kiki ölkənin yerli futbol kulubları arasıda oyunların keçirilməsi
- Meksikalı müəllimlərin ABŞ-da məktəblərdə dərs keçməsini maliyyələşdirmək





- ABŞ-a mühacirət etmək istəyən və edənlərin hüquqi maarifləndirilməsi və müdafiəsi
- ABŞ-da Meksika mədəniyyət günlərinin keçirilməsi, sərgilərin, konfrans və müxtəlif tədbirlərin keçirilməsi
- Səhiyyə sahəsində qarşılıqlı əməkdaşlığın yaanması və s.

ABŞ hökumət dairələrində Meksika diasporunun güclənməsində maraqlı olan şəxslər lobbiçilik işində onlara dəstək verirlər. Meksikalıların səsini qazanmaqdan ötrü bir çox siyasətçilər diasporla əməkdaşlıq edirlər. Meksika diasporunun bu səbəbdən ictimai-siyasi aktivliyinin güclənməsi ölkədə artan onlara məxsus kütləvi informasiya vasitələri, ictimai və siyasi birliklərin sayının artmasında görmək olar.

Müasir dövrdə ABŞ-da Meksika diasporuna məxsus "El Clarin", "Ambito Financero", "El Dia", "The Porocaderet" qəzetləri, "Diario los Americas", "Contacto maqazine", "Chicano online" jurnalları, "TV Arteca", "Mexican TV", "Radio Mexicano", "El Mexico" televiziya və radio kanalları daha populyardır.

Bunlarla yanaşı diaspora məxsus ictimai-siyasi birliklərdən isə aşağıdakılar daha aktivdir:

1. **Nyu-Yorkun Tepeyak Assosiasiyası -** 1992-ci ildə təsis olunub. Amerikanın müxtəlif şəhərlərində 40-a yaxın filialları var. Əsas fəaliyyət istiqaməti mədəni, ədəbi-bədii tədbirlərin keçirilməsi elmi görüşlərin, simpoziumların təşkilidir. Diasporda böyük nüfuzu olan Assosiasiyanın əsas üzvlərin ziyalılar, iş adamları, ictimai xadimlər təşkil edir. Amerikanın dövlət orqanlarında əlaqələri olanAssosiasiyanın Meksikada da nüfuzu var.

2. **Çikako Kütləvi İnformasiya Vasitələri Assosiasiyası-** 1972-ci ildə Los-Ancelesdə yaradılıb. ABŞ-da Meksika diasporuna məxsus qəzet, jurnal, televiziya və radio kanalları ətrafına birləşdirən Assosasiya onların hüquqlarının müdafiəsi və maliyyələşməsini təmin edir. Amerikanın bir çox ştatlarında şöbələri olan Assosasiyanın Meksika və Amerikada böyük nüfuzu var.

**3.Amerika-Meksika Mədəniyyət Fondu** - 1991-ci ildə təsis edilib. Amerika və Meksika mədəniyyətinin, incəsənətinin təbliğilə məşğul olur. Müəyyən iqtisadi problemləri maliyyələşdirən fond Meksika və Amerika mədəniyyətini təbliğ edir, tez-tez tədbir və görüşlər təşkil edir.

4. **Meksika-Amerka Hüquqi Müdafiə və Maarifləndirmə Fondu** - 1968-ci ildə Texasda təsis olunub. Əsas fəaliyyət istiqaməti təhsil, elm, mühacirət, dil və s, istiqamətdə təbliğat işi aparan fondun Amerikanın bir çox ştatlarında filialları var. Meksika gənclərinin təhsil **alması istiqamətində məktəblər açan fondun ABŞ-dan hökumət dairələrində sıx əlaqələri var.**

**5. Amerika Meksikalıları Araşdırma Mərkəzi -** 1979-cu ildə yaradılan Mərkəzin ABŞ-da yaşayan meksikalıların problemlərini tədqiq etməklə onla-

rın işlə təmin olunması ilə məşğul olur. Meksikalıların ABŞ-a adaptasiya olunmasına yardımçı olan mərkəz tez-tez konfrans və simpoziumlar təşkil edir.3

6. **Amerika Meksikalılarının Mühəndislər və Alimlər Birliyi** - 1978-ci ildə yaradılan birlik Amerikada yaşayan meksikalı riyaziyyatçılar, tarixçilər, mühəndislər və s. üzrə alimlərin hüquqlarının müdafiəsi ilə yanaşı, onların işlə təmin olunması, əsərlərinin çap olunmasını maliyyələşdirməkdir.

Müasir dövrdə ABŞ-da Meksika diasporu Amerika hökumətitərəfindən yaradılan əlverişli şəraitə baxmayaraq daha gec assimlasiya olunan diasporlardan hesab olunur. Buna əsas səbə onların kampakt halda yaşamaları, ispan dilində danışmaları və ölkə ictimaiyyətinə adaptasiyasının ləğv etməsidir.

Son məlumatlara görə meksikalıların daha çox məskunlaşdıqları Kaliforniya ştatı və Los-Ancels şəhəridir. Los-Ancelsdə ən böyük Mexiko-taun yerləşir. Meksikalılar və amerikalılar arasında dini zəmində münaqişələr baş verir. Mexsikalıların katolik, amerikalıların çoxunun protestant olması münaqişələrin əsas səbəbidir. Ancaq buna baxmayaraq meksikalıların Amerika üçün etdikləri unudulmur. Onlara münasibət əvvəlki kimi sərt deyil. Meksika diasporunun ABŞ-da siyasi dairələrdə tərəfdarı çoxdur.

Meksikalıların iqtisadi sahədə çalışmaları tez-tez müşahidə olunsa da, onların ictimai-siyasi fəaliyyəti günü-gündən aktivləşir. Diasporun tərkibi ilə Amerikaya axını güclənən mühacirət prosesi nəticədə genişlənməkdədir. Düzdür, Meksika diasporunun da digər etnik diasporlar kimi problemlərin çox olmasına baxmayaraq zamanla bunlar aradan götürülür.





## ƏDƏBİYYAT


1. Kathy Escamilla "Incorrorating Mexican Amerikan history and Culture into the Sosial Studies Classroom".Denver. 1996
2. «History of Hispanic American immigration» Texas, 1994
3. Mexican history- www.service-memory.edu
4. "Национальные процеси в США" М. 1923
5. А.А.Баграмов "Иммигранты в США" М.1956
6. History of Mexican immigraton in the US - www.fas.hadward. edu.
7. Y.Samorra and. P.U.Simon "A History of the Mexican Amerikan People" Colorado 1995
8. Скрозникова В.А. "Дискриминация испаноязычного население США" М.1979
9. R.Acuna "History of Chicanos" New-York 1988
10. Carlos Congzoles Cuticeres "Fostering identies Mexicans Ratations with its diaspora" New-York. 1999
11. С.А.Червонная "Массовые движение социального протеста в США" М.1976
12. Yorge Durand "The New Era of Mexican immigration to the US" Pensilvania 1998
13. "Mexicians Americans" - www.columbia.edu
14. Pobert Smith "Mexican immigrants the Mexican state and the trans national Practice of Mexican Politics and membership" Columbia1999
15. Журналь "Международная политика" N: 9 2001
16. Mexican media -www.latinvester.com
17. Mexican magazine - www.public.state.edu
18. Mexican gruno televisa -www.тvasres.com
19. Assosation Tereyac de New-York- www.tepeyac.org
20. The US - Mexico Fund for Cultűre - www.fidemexuso.org.mx
21. Maldef www.maldef.org
22. Center For US: www.usmaxus.edu
23. The Society of Mexican American Engineers and scienty sts www.nmsu.edu

## YAPON DİASPORU

Dünya diasporları içərisində xüsusi yeri olan Yapon diasporunun formalaşmasının zəngin və maraqlı tarixi var. Dünyanın müxtəlif dövlətlərində məskunlaşan Yapon mühacirlərinin diaspor yaratmaları bir çox çətinliklərlə baş verib. Digər Asiya diasporlarından fərqli olaraq daha çox assimlasiyaya məruz qalan yapon diasporu daim Yaponiya tərəfindən dəstəklənməsi, maliyyələşməsi, məskunlaşdıqları dövlətlərdə sosial-iqtisadi, siyasi fəaliyyəti, hadisələrə soyuqqanlı yanaşması onların digərlərindən fərqləndirmişdir.

Yapon diasporunu formalaşdırmış mühacirlərin Yaponiyanı tərk edib müxtəlif dövlətlərdə məskunlaşması XII-XIII əsrlərə təsadüf edir.XV-XVII əsrlərdə Yapon ticarət gəmilərində Cənubi-Şərqi Asiya regionuna, Çinə, Rusiyaya və Hindistana tez-tez səfərləri nəticəsində Yapon tacirləri, dənizçiləri və fəhlələri bu regionlarda qalıb yaşamalı olublar.. Onlar yapon diasporunun təməlini bu dövlətlərdə qoyan şəxslər hesab edilirlər. Lakin onların siyasi-sosial fəaliyyətinin passiv olması diasporun möhkəmlənməsinə əsas səbəb idi.

XVII əsrdən başlayaraq Yaponiyada hakimiyyəti ələ alan Tokuqova seyqunluğu ölkənin hərbi-iqtisadi, siyasi gücünün möhkəmləndirilməsi, daxili çəkişmələrin aradan götürülməsi və ölkənin mərəkzləşdirilməsi məqsədilə Yaponiyada mühacirət prosesinin qadağan edilməsi barədə qanunlar qəbul etdi. XIX əsrin ortalarına qədər ciddi surətdə verilən qanunlara rayət edilirdi. Lakin XIX əsrin ortalarından etibarən ölkədə başlayan iqtisadi xarakterli mühacirət prosesi kütləvi şəkildə Amerika qitəsinə, Avstraliya, Rusiya, Çin, Hindistan və Cənubi-Şərqi Asiya dövlətlərinə başlandı.

Çin, Koreya, Cənubi-Şərqi Asiya dövlətlərində siyasi maraqları olan Yaponiya bu dövlətlərdəki diasporları ilə intensiv iş aparırdı. Onların siyasi fəaliyyətilə məşğul olmasını maliyyələşdirən Yaponiya bu əraziləri imperatora tabe edilməsinə çalışırdı. Yapon diasporunun çoxsaylı və aktiv olduqları dövlətlər aşağıdakılardır.

***Rusiya*** - Bu dövlətə Yapon mühacirət tarixi başlanğıcını 1695-ci ildə Danbey adlı yaponun bir neçə dostu ilə gəlməsindən götürür. Onların Rusiyada yaxşı qarşılanması 1700-ci ildən etibarən yaponların bu dövlətə mühacirətinin kütləvi xarakter almasına səbəb yaratdı. Rusiyada Yapon mühacirlərinə olan hörmət onların diaspor formalaşdırmalarını sürətləndirdi. Lakin diaspor kimi siyasi fəaliyyəti passiv olan yaponlar "etnik iqtisadiyyat"la məşğul olurdular. XVIII əsrdə Rusiyada artıq yapon məktəbləri fəaliyyət göstərirdi. Rusiya və Yaponiya arasında müharibələr baş verməsinə baxmayaraq bu ölkədə yapon diasporu kütləvi təzyiqə məruz qalmayıb.

Müasir dövr üçün Rusiyada Yapon diasporu Primoriye, Kamçatka, Saxalində yerləşib. Bu ərazilərdə yapon diaspor mədəniyyət mərkəzləri, təşkilatları fəaliyyət göstərir. Rusiya-Yaponiya arasında münasibətlərin normallaşdırılması istiqamətində iş aparan yapon diasporu Rusiyanın sosial-ictimai həyatında xüsusi rolu var.





***Avstraliya və Okeaniyada*** yapon diasporu aktiv fəaliyyət göstərir. Əsasən Okeaniyada yapon diasporu yerli əhali ilə qaynayıb-qarışıb. Onlar ilə sıx təmas quran yaponlar qarışıq nigaha girməklə bu adaların vətəndaşlarına çevrilirlər.

Avstraliya və Okeaniyaya yapon mühacirləri XVI əsrdən köçüblər. Yapon pirat gəmiləri, tacirləri, balıqçıları bu ərazilərə tez-tez səfərlər edirlər. Avstraliya və Okeaniyanın iqtisadiyyatının inkişaf etməsində mühüm rol oynamış yapon diasporu bu dövlətlərin kənd təsərrüfatı mallarının Asiya bazarına çıxışını təşkil edirdi. Yapon diasporunun sayəsində Asiya bazarına çıxış əldə edən Avstraliya və Okeaniya iş adamları eyni zamanda bu ölkələrdən mühacirət prosesini təmin edirdilər.

***Avropa*** qitəsinə də yapon mühacirəti passiv şəkildə olsa da baş verirdi. Avropanın inkişaf etmiş dövlətlərinə - Fransa, İngiltərə, Almaniyada məskunlaşan yapon mühacirləri saylarının az olması və intellektual şəxslərin olmaması nəticəsində bu dövlətlərdə diasporların formalaşdıra bilmədilər. İtaliya, Avstraliya, Macarıstan kimi dövlətlərə çıxış əldə edən diasporlar kimi özlərini sübut edə bilmədilər. Avropadan isə Amerika qitəsinə asanlıqla keçən yaponların yol xərcləri az çıxırdı.

***Latın Amerikası və Şimalı Amerikaya*** Yaponiyadan mühacirət çox dinamik halda baş verirdi. Latın Amerikasında, Boliviyada, Argentina, Paraqvay, Çilidən fərqli olaraq Braziliya, Peru, Meksika və Kubada yaponlar üstünlük təşkil edirlər. Bu dövlətlərin sosial-iqtisadi, siyasi həyatında mühüm rol oynayan Yapon diasporunun xüsusi yeri var.

***Kubaya*** XX əsrin ilk onilliklərindən gəlməyə başlayan yapon mühacirlərinin ilk dalğası əsasən şəkər plantasiyalarında işləyirilər. Sonradan gələn yapon mühacirləri tacirlər olduğundan Kubada yaponlara məxsus tiarət şöbəkələri yaradıldı.

Kubada XX əsrin ortalarından başlayan iqtisadi böhran səbəbilə yaponlar şəkər plantasiyalarını tərk edib iri şəhərlərə köçdülər. Bu şəhərlərdə digər sahələrdə işləməyə başlayan yaponlar diasporlarını formalaşdırırdılar. Kuba təsərrüfatı mallarının Yaponiya və Asiya bazarlarına ixrac edirdi.

Müasir dövrdə yapon diasporu Kubada çox aktiv fəaliyyət göstərir. Ölkədə heç bir çətinliklərlə üzləşməmələrinə baxmayaraq yaponlar ABŞ-a köçməyi zaman-zaman həyata keçirirlər.

***Meksikada*** yapon mühacirləri XIX əsrin sonlarında məskunlaşıblar. Kənd təsərrüfatı sahələrində işləyən yaponlar iri şəhərlərə köçdükdən sonra diasporlarını formalaşdırmağa başladılar. Meksikaya yaponların əksəriyyəti könüllü olaraq gəlməmişlər. Meksikadan dəhliz kimi istifadə edən qeyri-leqal

yapon mühacirləri ABŞ-a köçməyi planlaşdırırdılar. Lakin bir çox səbəblər nəticəsində ABŞ-a sərhəd rayonlarda yaşamağa məcbur olan yaponlar yerli əhalinin onlara rəğbətinin mənfi olması səbəbilə diasporlarını təşkilatlandırırlar. Yaponlar Meksikada bilərəkdən assimlasiya məruz qaldıqlarını bu gün etiraf edirlər. Meksikada çox ciddi qəbul edilməyənlərin yapon diasporu əsasən Meksika-Yaponya iqtisadi münasibətlərin qurularaq, inkişaf etdirilməsi istiqamətində iş aparır. Meksikada maliyyə cəhətdən yaxşı təmin olmayan Yapon diasporunun nümayəndələri Vətənə geri dönməyə üstünlük verirlər.

Yapon mühacirətinin ***Peruya*** axını 1890-99-cu illəri əhatə edir. Digər latın Amerikası dövlətlərindən fərqli olaraq yaponlar Peruya daha tez adaptasiya olunublar. Yapon mühacirətinin Peruya axının qarşısının alınması məqsədilə 1936-cı ildə onların ölkəyə daxil olunmsını əngəlləyən qanun qəbul edildi. Lakin 1958-ci ildə qanuni qüvvədən düşməsindən sonra yapon mühacirəti Peruya kütləvi xarakter aldı.

Peruda yapon diasporunun 1940-cı ildən sonra siyasi formalaşma başlandı. Özlərinin müdafiəsi məqsədilə Peruda yapon diasporu anklavlar yaratmışlar. Zaman keçdikcə yaponlara artan rəğbət səbəbilə anklavlar ləğv olundu.

Yapon mənşəli Peruluların ictimai-siyasi sahədə fəaliyyəti geniş xarakter aldı. Siyasi sahədə aktivlik göstərən yapon diasporunun müxtəlif siyasi birlik və partiyaları fəaliyyət göstərir. Yapon diasporunun siyasi aktivliyinin bariz nümunəsi yapon mənşəli perulu Alberto Fuximoranın ölkə prezident seçilməsidir.

Peru iqtisadiyyatının inkişafında mühüm rol oynayan Yapon diasporu bu gün geniş imkanlara malikdir. Yapon mədəniyyətini, adət-ənənələrini təbliğ edən cəmiyyət və təşkitaltar müxtəlif qəzet və jurnallar dərc etdirir. Yapon məktəbləri və elmi tədqiqat mərkəzləri Peruda aktiv fəaliyyət göstərir.

***Braziliyada*** xüsusi etnik qrup statusu alan Yapon diasporu bu ölkədə müxtəlif sahələrdə fəaliyyət göstərməsi üçün bir çox səlahiyyətlərə malikdir. 1908-ci ildən Braziliyaya köçən yapon mühacirləri digər dövlətlərdən fərqli olaraq burada elə ilk günlərdən rəğbətlə qarşılanmışdır. 1910-cü ildə artıq təşkilatlanmış və formalaşmış yapon diasporu bu günə qədər Braziliyada ictimai-siyasi sahələrində mühüm rol oynayır. Braziliyanın Yapon diasporu yeganə etnik diasporudur ki, yüksək maaş alan kateqoriyaya başçılıq edir. 1940-1952-ci illər arası Yapon diasporunun mövqeyi xeyli zəifləməsinə baxmayaraq 1953-cü ildən etibarən əvvəlki aktivliklərini bərpa etmişdir.

Hal-hazırda Braziliyada sayı bir milyonu ötüb keçən yaponlar əsasən bank, maliyyə, iqtisadi, sosial, ictimai-siyasi sahələrdə çalışırlar. Braziliya-Yaponiya iqtisadi əlaqələrinin möhkəmləndirilməsi istiqamətində mühüm işlər görən yapon diasporu güclü lobbi şirkətlərinə sahibdir. Braziliyada Yapon diasporu rəsmi dövlət orqanları tərəfindən dəstəklənir.





Şimali Amerikada yaponlar əsasən Kanada və ABŞ-da güclü diaspora malikdir. Bu dövlətlərdə yapon diasporlarının məskunlaşması, həyatı çox keşməkeşli və çətin olub. 1965-ci ilə qədər Amerika və Kanadaya adaptasiya olunmasında bir çox çətinlikləri dəf edən yapon diasporu bu gün üçün ən güclü diaspor hesab olunur.

***Kanadaya*** ilk yapon mühacirəti barədə məlumat 1877-ci ilə təsadüf edir. 1877-1914-cü illər arası 10.000 yapon mühaciri Kanadada (o zamanlar Britaniya Kolumbiyası adlanırdı) qeydə alınmışdır. Əsasən balıqçılıq, kənd təsərrüfatı sahələrində çalışan yaponlar qazandığı pulları vətənlərində qalmış ailələrinə, qohumlarına göndərirdi. Zaman keçdikcə ailələrini Kanadaya gətizdirən yaponlar iri şəhərlərdə məskunlaşmağa başladılar.

Müasir dövrdə Kanada Yapon diasporu maliyyə cəhətdən yaxşı təmin olunub. Bank sistemində və ticarət sahəsində çalışan yaponlar bir çox təşkilat və cəmiyyət yaratmışlar. Diasporla sıx bağlı yapon lobbisi Kanada-Yaponiya ticarət əlaqələri qurulmasını və inkişaf etməsində əhəmiyyətli rol oynayır. Kanada da istehsal sahəsini inkişaf etdirən Yapon diasporu hər il Yaponiya hökumətindən maliyyə yardımı alırlar.

***Amerika Birləşmiş Ştatlarında*** digər ölkələrdən fərqli olaraq sayca üstünlük təşkil edən yapon diasporunun formalaşması, təşkilatlanması acı xatirələrlə bağlıdır. Yapon dipasporu aşağıdakı xüsusiyyətlərinə görə digər diasporlardan xeyli fərqlənir:

**ABŞ-dakı yapon diasporunun təməlini bu ölkəyə gələn ilk mühacir dalğasının deyil, daha sonradan gələn mühacirlərin qoyması;**

**Yapon mühacirlərinin I Dünya Müharibəsindən əvvəl ABŞ-a ailəvi köçməsi nəticəsində sosial strukturlarda möhkəmlənməsi;**

**Yapon mühacirlərinin mərkəzləşmiş dövlətdən gəlməsi, onlar arasında birliyin güclü olması və maddi-mənəvi cəhətdən yaxşı təmin olunması.**

**Yüksək inkişaf etmiş dövlətin təmsilçiləri olması səbəbilə Amerikanın soaial-siyasi və iqtisadi reallıqlara tez uyğunlaşması;**

**Yapon diasporunun daimi Tokionun dəstəyini görməsi**

ABŞ da Yapon diasporu yeganə etnik diaspor hesab olunur ki, onların Amerikada məskunlaşması müxtəlif nəsil dalğalarına bölünür. Hər bir nəsil dalğasının özünəməxsus spesifik cəhətləri vardır. Bu nəsil dalğaları aşağıdakılardır:

1. ***İSSEY (İSSEİ)***-lər (Hərfi tərcümədə ilk mühacirlər. Yapon mühacirlərinin ilk nəsil dağası olan İsseylər Yaponiyada anadan olub Amerikaya mühacirət edənlər hesab olunur.

Amerikaya ilk mühacirət edən İsseylər əsasən sadə insanlardır. Amerika və Yaponiya mədəniyyəti ilə sıx bağlı olan İsseylər bu günə qədər hüquqi cəhətdən Yaponiya vətəndaşı hesab olunurlar. İsseylər Yapon diasporunun

təməlini qoya bilməsələr də, bu ölkədə adaptasiyanı asanlıqla keçə bildilər. İqtisadi maraqlar onların siyasi fəaliyyətini passivləşdirmişdir. Bağçılıq, ev işləri sahəsində bacarıqlı işçi kimi qəbul edilən İsseylər ilk zamanlar Amerikada qalmaq fikirləri güdmürdülər. Əfsanəvi ölkə hesab etdikləri Amerikaya pul qazanmaq və geri dönərək ailələri üçün yaxşı həyat şəraiti qurmağı planlaşdıran İsseylər Amerikaya gəldiklərində eşitdiklərinin həqiqət olduğunun canlı şahidləri olurdular. Pul qazanmaqdan ötrü çox işləmək lazım olduğunu görən İsseylər ağır iş şəraitinə uyğunlaşması uzun zaman çəkdiyindən onların yalnız 20%-i geri qayıda bildi. Assimlasiyaya məruz qalması isə İsseylərin Amerikalaşdırırdı.

2. ***NİSSEY (NISSEI)lər***. Amerikada anadan olub Amerika mədəniyyəti tərəfindən assimlasiya olunan yapon mühacirətininikinci nəsil dalğası. Yapon diasporunun baniləri hesab olunurlar. Sakit amerikalı hesab olunan Nisseylər Amerikada Yapon diasporuna qarşı törədilmiş 2 haqsızlığın canlı iştirakçılarıdır. Yapon diasporunun nəsil dalğaları içərisində sayca üstünlük təşkil edən Nisseylərin 50%-i diasporun aktiv qanadı olsa da, yerdə qalan 50%-dən 30%-i bilərəkdən assimlasiyaya məruz qalır. 10%-ilə diasporla əlaqə saxlamır, qohumlardan, tanışlardan uzaqda yaşayırlar. 10%-i isə diasporla əlaqə saxlasalar da, fəaliyyətləri passivdir.

Xaraktercə ən zəif nəsil dalğası hesab olunan Nisseylər Yaponiyaya geri qayıtmağı fikirləşmirlər. Onlar özlərini Amerika vətəndaşı kimi digərlərindən daha çox üstünlüklə sahib olduqlarını iddia edirlər.

3. ***KİBEY (KIBEI)-lər***. Amerikada doğulub, Yaponiyada təhsil alıb Amerikaya geri dönən Kibeylər Yapon diasporunun nəsil dalğasıları içərisində spesifik qrup hesab olunur (Hərfi tərcümədə - Ki-bei - geri qayıdan - Kibeylər Yapon diasporunda özlərini digər nəsil dalğalarından Yaponiyada təhsil almalarına və çılğınlıqlarına görə fərqlənirlər. O biri nəsil dalğaları Kibeylərin bu cəhətlərinə görə onlara çox ciddi yanaşmırlar. Kibeylər Amerika mədəniyyəti tərəfindən assimlasiya məruz qalmağın əleyhinə olmaqla Yapon mədəniyyəti və dilini təbliğ edilməsini Kibeylər özlərinin mənəvi borcları hesab edirlər.

Kibeylərin 20%-i isə Yaponiyadan gələndən sonra kənd təsərrüfatı sahələrində valideynlərinə kömək etməyə üstünlük verir. Ancaq bütün nəsil dalğaları Kibeyləri iki dünyanı - Amerika və Yaponiyanın birləşdirici qüvvəsi kimi qəbul edirlər.

4. ***SANSEY (SANSEI)-lər***. Sakit Amerikalılar. Yapon diasporunun 3-cü nəsil dalğası olan Sanseylər Amerika mədəniyyəti tərəfindən assimlasiya olunmasına baxmayaraq Vətən həsrəti - hissləri onlar içərisində daha çox hiss olunur. Nisseylərin nəvələri olan Sanseylər digər nəsil dalğaları içərisində maliyyə cəhətdən yaxşı təmin olunanlardır. O biri nəsil dalğalardan fərqli ola-





raq kənd təsərrüfatı sahəsindən uzaqda iri şəhər və rayonlarda yaşamağa üstünlük verən Sanseylər valideynlərinin qarşılaşdıqları əzab-əziyyətlərə rastlaşmaq istəmirlər. Yaponiyanı ikinci vətən hesab edən Sanseylər üçün əsas Vətən Amerikadır. Amerika vətəndaşı kimi Sanseylər bütün qanunlara riayət edir, sosial-ictimai proqramlarda iştirak edir və Yaponiyaya tez-tez turist səfərlərinə gedirlər.

**YONSEY (YONSEI), QOSEY (GOASEI)**-lər ardıcıl olaraq Yapon diasporunun 4-cü və 5-ci nəsil dalğalarıdılar. Bu nəsil dalğaları arasında müxtəlif fərqlər və oxşarlıqlar var. İsseylər özlərini əsl Yapon və Amerikan xüsusiyyətlərilə, Nisseylər Amerikalı olmalarına, Kibeylər təhsili olmalarına, Sanseylər tam amerikalı olmalarına baxmayaraq Yaponiyanı unutmamalarına görə bir-biriləri arasında fərqlər yaradırlar.

Amerika Birləşmiş Ştatlarına Yapon mühacirətinin gəlməsi barədə dəqiq məlumat Havay adalarına təsadüf edir. Hələ o zamanlar Amerikanın ərazisi hesab edilməyən Havayda geniş plantasiya sahibləri adaların daxili və xarici siyasətinə təsir edə bilirdilər. Məhz onlar öz plantasiyalarında işləmək üçün ucuz işçi qüvvəsi kimi Asiya regionuna üstünlük verirdilər.

1868-ci ildə Havaylı biznesmen Eyqunc Van Red şəkər plantasiyalarında çalışmaq üçün 150 yaponu "Scioto Üokohata" gəmisində gətirtdi. Özlərini qısa zaman ərzində yaxşı işçi kimi göstərən yaponlar 1870-80-ci illərdə digər Asiya regionundan olan etnik diasporlara qarşı edilən təzyiqlərdən kənarda qaldılar.

Bağçılıq, ev işləri kimi sahələrdə yaxşı işçi hesab olunan yaponlara ehtiyac artırdı. 1894-cü ildə artıq 30 min yapon Havayda işləyirdi.

1898-ci ildə Havay ABŞ-a anneksiya edildikdən sonra Havay və Yaponiya arasında bağlanmış müqavilələr qüvvədən düşdü. Havaydan Amerikanın digər ştatlarına sərbəst keçən yaponlar kənd təsərrüfatı sahələrində çalışmağa başladılar.

Amerikanın digər ştatlarında məskunlaşan yapon mühacirəlri barədə məlumat 1870-ci il siyahıya alınmada qeyd olunurdu. Ölkədə 55 yaponun yaşaması rəsmi mənbələrdə bildirilirdi. 1880-ci ildən sonra sayı xeyli artan yapon mühacirləri ABŞ-a huosaya olardı (çinli mühacirlər) - bir qədər sonra gəlibər. Amerikada əsasən Sakit okean sahilləri boyunca və Kaliforniya ştatında yerləşən yaponlar Havaydan fərqli olaraq yüksək qazanc əldə edirdilər. Bağban və ev qulluqçuları kimi özlərini tanıdan Yapon işçilərinə Amerikada ehtiyac yox idi. Çinlilərdə başlanan təzyiqlər zamanı yaponlar və koreyalılar federal komissiyanın arzuolunmaz şəxslər siyahısında yox idilər.

Anti-Çin qanununun qəbul edilməsindən sonra ucuz işçiyə olan ehtiyac səbəbilə yaponların Amerikaya mühacirəti gücləndi. 1906-1908-ci illərdə artıq 40 min yaponun ABŞ-da yaşaması barədə siyahılaşmada qeyd olunmuşdu.

Digər Asiya regionundan olan etnik diasporladan fərqli olaraq Yapon diasporu kütləvi təzyiqlərə aşağıdakı səbəblərə görə məruz qalmadılar:

- Anti-yapon çıxışlarının gec başlanması;
- Etiraz çıxışlarına yaponların daha kəskin reaksiyası;
- Yapon diasporu Yaponiyanın rəsmiləri tərəfindən dəstəklənməsi.

1884, 1894 və 1904-cü illərdə ABŞ və Yaponiya arasında Amerika vətəndaşlarının Yaponiyaya və Yaponiya vətəndaşlarının Amerikaya gediş-gəlişini tənzimləyən bir sıra müqavilələr imzalandı. Hər iki tərəf 1977-ci ilə qədər müqavilənin yerinə yetirilməsinə diqqətlə nəzarət edirdi.

1906-cı ildən Asiya diasporlarına qarşı başlanan etiraz çıxışları Yapon diasporundan da yan keçmədi. 1907-ci ildə Həmkarlar İttifaqları yapon işçilərinə olan tələbatın artdığını gördükdən sonra açıq-aşkar onları sıxışdırmağa başladılar. Mühacirlər problemlə məşğul olan Federal Komissiyaya məktublar göndərən Həmkarlar İttifaqları yapon diasporunun da arzuolunmaz əcnəbilər siyahısına salınmasın tələb etməyə başladılar. Anti-yapon çıxışları bütün ştatları əhatə etdikdən sonra Yapon diasporu kütləvi etiraz çıxışlarıyla üzləşməli oldu. Yapon diasporunun Amerikadan qovulması məqsədilə ştatlarda müxtəlif siyasi birliklər yaradılırdı. Yaponların ölkə üçün əsl təhlükə olması barədə yazılar qəzetlərin manşetinə çıxarılırdı.

"Yaponlar ağların ağıllarını oğurlayırlar", "Yapon qadını Amerika qadını üçün əsl təhlükədir", "Yaponlar Amerikanı işğal etmək istəyirlər" və s. kimi başlıqlı yazılarla qəzetlər ictimaiyyət arasında yaponlarla olan münasibəti kəskinləşdirirdi. Qəzetlərin bu başlıqlı yazıları verilməsində əsas rolu olan Həmkarlar İttifaqları istədiklərinə nail olmaqdan ötrü müxtəlif vasitələrə əl atırdılar".

Bu cür çıxışlara baxmayaraq Amerikaya Yapon mühacirlərinin axını davam edirdi. 1907-ci ildə yapon və koreyalıların ölkəyə daxil olmasını əngəlləyən fərmanın verilməsi diasporla yanaşı Yaponiyanın da narazılığına səbəb oldu.

1908-ci ildə ABŞ və Yaponiya arasında imzalanmış "Centlmen razılaşmasına görə ABŞ-a aşağıdakı tələblərə cavab verən yaponlar buraxıla bilərdi:

- ABŞ-a gələnlərin yapon diasporunda qohumları olmalı idi;
- "Ölkəyə gələn yaponlar yalnız kənd təsərrüfatı sahəsində işləməli idi.

Yapon mühacirləri ölkədə başlanan kütləvi təzyiqlərdən qorunmaq məqsədilə çinlilər kimi müdafiə xarakterli anklavlar yaratmağa başladılar. "Balaca Tokio", "Balaca Osaka" kimi yapon məhlələri bütün ştatlarda yaradıldı.

1906-cı ildə ilk yaradılan Yapontaun Yapon diasporunun sıx cəmləşdiyi "Balaca Tokio" idi. Bu cənubi Kaliforniyada yerləşirdi və burada Yapon diasporunun hüquqi və sosial müdafiəsi ilə yanaşı Tanomaşi adlanan xüsusi yar-





dım sistemində fəaliyyət göstərirdi. Tanomaşi sisteminə görə Amerikada iş qurmaq istəyən yapon üçün diaspor müəyyən miqdarda pul ayırdı. Digər sistemə görə imkanlı yapon iş adamı kasıb bir ailənin himayədarlığın edirdi.

Yapon budda məbədləri bu cür sistemlərin səbəbkarı olmaqla diaspor içərisində milli adət-ənənələrin qorunub saxlanmasının təminatçısı idi.Diasporda böyük nüfuza malik olan budda məbədlərinin daxilində yapon dili kursları, mədəniyyət və adət-ənənələri təbliğ edən mərkəzlər fəaliyyət göstərir.

Yapontaunlarında diasporun siyasi-sosial formalaşması sürətlə gedirdi. Diaspordaxili birləşdirici faktların üstünlüyü onların birgə fəaliyyət göstərməsinin səbəbkarı idi. Yerliçilik prinsipi üzərində qurulmuş Kendzinaki (KEN)lər Yaponiyanın müxtəlif regionlarından gələnlərin birləşdirici faktoru idi. Kenlərin müsbət cəhətləri çoxdur. Bunların biridə icmadaxili münaqişələrin yoxluğudur.

Zamanla kənd təsərrüfatı sahəsindən qovulan yaponlar yapontaunlarda məskunlaşırdılar. 1913-çü ildə əcnəbilər üçün torpaq qanununa əsasən etnik diasporlar sahibkar ola bilmirdilər. Torpaq almaq və icarə götürmək hüququndan məhrum olan yaponlar San-Fransisko, Denver, Sietl, Los-Anceles kimi iri şəhərlərə köçürdülər. 1920-1940-cı illər arası icarədar yaponların 70%-i iri şəhərlərə köçmüşdür.

1919-1924-cü illər arası Yapon diasporuna qarşı etiraz çıxışlarının artması ölkə konqresində müzakirələrin artmasına səbəb olurdu. Nəhayət, 1924-cü ildə Amerika konqresində yapon "mühacirlərinin ölkəyə daxil olmasını qadağan edən" Conson Red aktı qəbul etdi. Bu Akta əsasən bu günə qədər ABŞ və Yaponiya arasında imzalanmış müqavilələrin qüvvədən düşdü. Aktdan sonra yaponların ictimai yerdə görünməsini, sosial proqramlarda iştirakının əngəlləyən bir sıra fərmanlar da qəbul edildi.

1925-1940-cı ilə qədər Amerikada Yapon diasporuna olan münasibət zamanla dəyişirdi. Sakitcə öz işləriлə məşğul olan yaponlar siyasi fəaliyyətlə demək olar ki, məşğul olmurdular. 1940-ci ildə Amerikada yaponların sayı 127.000 min idi ki, onların əksəriyyəti sakit okean sahilləri boyunca. oreqon, kolifornıya ştatları və Vaşinqtonda məskunlaşmış idi. 122. min yapon diasporunun 48%-i Amerikada anadan olanlar idilər. Qanunla onların digər Amerika vətəndaşlarının hüquqlarına bərabər hüquqları olmalı idi. Lakin buna ciddi fikir verilmirdi.

Amerikada Yapondiasporunun həyatında ciddi dönüş 1941-ci ilin 7 dekabrında Yaponiya hərbi-hava qüvvələrinin ABŞ-ın Sakit okeanda Perlharbor körfəzində yerləşən donanmasını və Havay adalarının hərbi bazalarına etdiyi basqından sonra yarandı. Basqın nəticəsində 9 hərbi gəmi, 8 tanker və 100-ə yaxın təyyarə məhv edilmişdir. Bunun ardınca Yapon ordusu Flippinini, Malaziya, Quam və Uyek bazasını ələ keçirib İndoneziyaya daxil olmağa başladı.

Perl-Harbor hadisəsindən dərhal sonra Amerikada Yapon diasporuna münasibət kəskin surətdə dəyişdi. Düşmən əcnəbilər siyahısına daxil olan yapon diasporunun ölkədən çıxarılması barədə kütləvi çıxışlar başlandı. Perl-Harbor hadisəsindən 2 gün sonra 2 min yapon həbs edildi.

1941-ci ilin 13 fevralında konqresmen və senatorlar prezident Ruzveltə məktub göndərərək strateji ərazi hesab olunan şəhərlərdən yaponların evuakasiya olunması barədə qətnamə qəbul etməyi tələb etdilər.

19 fevral 1941-ci ildə Ruzvelt 9066 saylı fərman imzalayıb müdafiə nazirliyinə tapşırıq verdi ki, strateji şəhərlərdən yaponlar köçürülərək hərbi düşərgələrdə yerləşdirilsin.

Vaşinqton, Oreqon və Kaliforniya ştatı strateji ərazilər elan edildi. 21 mart 1941-ci ildə konqres prezident fərmanına əməl etməyənlərin cinayətkar hesab olunması barədə qanun qəbul etdi. 10 hərbi düşərjə yaradıldıqdan sonra yaponlar ora köçürdülər. Hərbi düşərgələr aşağıdakılar idi:

1. Kaliforniya şatatı: -Mansanar və Tuli Leyke düşərgələri;
2. Arizona ştatı: -Po-stoi və Xiro miri düşərgələri;
3. Aydaho ştatı Mi: - Nidokc düşərgəsi
4. Veyminq ştatı: - Hart-Mauntine düşərgəsi;
5. Yuta ştatı: - Topaz düşərgəsi;
6. Arkanzas ştatı: - Rouer və Çerome düşərgələri.

Amerika Dövlət Departamenti ölkədaxili yaponların düşərgələrə köçürülməsilə yanaşı Kanada və digər Amerika dövlətlərindən yaponların düşərgələrə köçürülüməsi üçün diplomatik danışıqlar aparırdı.

Tez-tez hərbi düşərgələrdə yaponların kütləvi etiraz çıxışları baş verirdi. Xüsusilə alman və italyanlardan fərqli olaraq yaponların daha çox sıxışdırılması çıxışların əsas səbəbi idi. Düşərgədən və digər ştatlardan yaponlar könüllü olaraq Afrikada faşizmə qarşı vuruşurdular. Yaponlardan ibarət olan 142 və 100 saylı hərbi qruplar Amerika ordusu içərisində igidliyinə görə on çox orden və medal qazanmışdı.

Müharibə sona çatdıqca hərbi düşərgələr bir-bir bağlanırdı. 1945-ci ilin avqustunda 6 və 9-da Xirosima və Naqasakiyə atom bombası atıldıqdan sonra Yaponiya təslimçilik aktını imzaladı. Sonuncu düşərgə 1946-cı ildə prezidentin fərmanı ilə bağlandı.

Amerika müharibədən sonra ictimaiyyət Yapon diasporuna qarşı törətdiyi haqsızlıqları dərk etməyə başladı. 1948-ci ildə hərbi düşərgələrə köçürülən yaponlara dəyən mənəvi zərər həcmi 400 milyon dollar olan maddi ziyanın ödənilməsi barədə fərman imzalandı. Lakin 38600000 dollar ödənildi. Buna baxmayaraq Yapon diasporu bununla razılaşaraq öz köhnə işlərinə qayıdaraq onları unutmağa çalışırdılar.





1952-ci ildə Konqres 1924-cü ildə yaponların ölkəyə daxil olmasını əngəlləyən qanunun qüvvədən düşməsi barədə qərar imzaladı. Bu qərarın qəbul edilməsindən sonra Amerikaya yapon mühacirlərinin yeni dalğası başlandı. Yeni İsseylər adlanan yeni dalğa Yaponiyanın müharibədən sonra üzləşdiyi iqtisadi səbəblərlə əlaqəli olaraq ABŞ-a köçmüşlər. Yeni İsseylər artıq Amerikanın formalaşan diasporları ilə əlaqə qurur, onların acı taleyi ilə yaxından maraqlanırdılar. Lakin Yapon diasporu ABŞ-dakı digər diasporlardan fərqli olaraq özləri barədə danışmağı xoşlamır, onlara qarşı törədilmiş haqsızlıqlarla barışan yaponlar öz sakitçilikləri ilə seçilirlər. Digərləri kimi səsli-küylü etiraz aksiyalar, kampaniyalar. KİV-də populist çıxışlar etməyən yaponlar problemləri soyuqqanlıqla qarşılayır və professional səviyyədə həll edirlər.

Amerika Yapon diasporuna qarşı törətdiyi haqsızlıqların unudulmasına çalışır. Bir çox məsələlərdə onlara güzəştə gedir və ictimaiyyətə adaptasiya olunmasına geniş şərait yaradır. Biznes sahəsində yaponlar aktivliklərini göstərərək iri şirkətlər və inhisarçı birliklər yaratdılar. Etnik iqtisadiyyatla məşğul olmayan Yapon diasporu Amerika ictimaiyyəti tərəfindən aşağıdakı vasitələrlə daha tez assimlasiya olunur:

- Qeyri-yaponlarla nigah əlaqəsi;
- Yaponiya ilə əlaqələrin kəsilməsi.

Assimlasiya olunmasına baxmayaraq Yapon diasporu hələ də anti-yapon çıxışlarının bir də təkrarlanacağından qorxurlar. Bu səbəblə diaspor daxilində milli-adət ənənələrin rəhbərliyi hələ də hiss olunur.

Amerikada Yapon diasporunun himayədarı ölkə iqtisadiyyatında və daxili bazarında uğurla inkişaf edən yapon böyük biznesidir.

Yapon iş adamları sahib olduqları iri şirkətlərə əsasən yaponları işə götürür. Məhz onların maliyəsi nəticəsində Yapon diasporu müxtəlif Kütləvi İnformasiya Vasitələrinə mətbəə və nəşriyyatlara sahibdir. (KİV), ABŞ-da Yapon diasporu "Asahi Shimbun", "Üaran Times", "Tokyo Weekly" və s qəzetlər, "Üaran Echo", "The Weeklyrost" jurnallar nəşr etdirir. Yapon və ingilis dillərində "Live-Radio Net" "Radio Üaran" radio kanalları Yapon diasporu barədə məlumatları ABŞ-da yayılmasında böyük rol oynayır.

Bunlarla bərabər Amerikada Yapon diasporuna müxtəlif təşkilatlar, cəmiyyətlər və assosiasiyalar məxsusdur. Sosial-iqtisadi və mədəni-maarifçilik istiqamətdə iş aparan bu birliklər aşağıdakılardır:

1. **Amerika Yaponlarının Vətəndaş Liqası** - 1970-ci ildə təsis olunub. Əsas fəaliyyət istiqaməti Amerikanın ictimai həyatına yaponların adaptasiyasını təmin etməkdir. Bir çox iri şirkətlər tərəfindən maliyyələşən liqanın 40 mindən çox üzvü var. Liqa ABŞ yaponlarının hüquqlarını müdafiə edir, yaranan problemlərin aradan götürülməsinə çalışır.

2. **Yapon-Amerika Dostluq Komissiyası** - ABŞ-da Yapon Fondunun himayəsi altında yaranıb və yapon dilinin assimlasiya olunmasının qarşısını alınması ilə məşğul olur. Yapon dilini təbliğ edən komissiya Yaponiya Xarici İşlər Nazirliyi və qeyri-hökumət təşkilatları ilə sıx əlaqəsi var. Amerikanın bir çox ştatlarında filialları fəaliyyət göstərir. Yapon dili ilə əlaqəli bir çox kitablar nəşr etdirib.

**Elm və təhsil sahəsində diaspora kömək;**

**Biznes forumlar təşkil etmək;**

**Mədəni tədbirlər keçirmək;**

**Yapon dilinin təbliği;**

**ABŞ və Yaponiya əlaqələrinə aid olan seminar, konfrans, simpozium və müxtəlif görüşlər keçirtmək.**

3. **Yapon-Amerika Cəmiyyətləri Milli Assosasiyası** - 1960-cı ildə Amerikada fəaliyyət göstərən 9 yapon diaspor təşkilatlarının birləşməsi nəticəsində yaradılıb. Amerikanın bütün ştatlarında şöbələri olan assosiasiyanın əsas fəaliyyət istiqamətinə daxildir:

Assosasiyanın tərkibi günü-gündən genişlənir. Assossiyaa bir neçə KİV orqanına sahibdir.

4. **Qərbi Kaliforniyada Yapon Cəmiyyəti** - 1905-ci ildə yaradılıb. Əsas fəaliyyət istiqaməti yaponların hüquqi müdafiəsi və maarifləndirilməsidir. 10 minə yaxın üzvü var. Yapon gənclərinin ali məktəblərə daxil olmasına köməklik göstərir. Təhsil və mədəniyyətlə əlaqəli müxtəlif tədbirlər hər ay keçirən cəmiyyətin diasporda böyük nüfuzu var.

5. **Şərqi Kaliforniyada Yapon-Amerika cəmiyyəti** - 1960-cı ildə təsis edilən cəmiyyət Amerika-Yaponiya əlaqələrinin möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərir. 10-mindən çox üzvü olan cəmiyyətin yapon bankları ilə sıx əlaqəsi var. Üzvlərinin əksəriyyəti bank işçiləri, biznesmenlər, tacirlər olan cəmiyyət yapon fondu ilə əməkdaşlıq edir.

Adları çəkilənlərdən əlavə Amerikada "Yapon cəmiyyəti "Yapon Dostluq Assosiasiyası", "Amerikanın Yaponiyalı dostları" və s. birliklər də fəaliyyət göstərir.

Yapon diasporunun müasir dövrdə əsasını ziyalılar, biznesmen və sənətkarlar təşkil edir. Sosial-iqtisadi və mədəni həyatında mühüm rol oynayan Yapon diasporu siyasi fəaliyyətlə passiv məşğul olur. Diasporun maraqlarını siyasi dairələrdə "Nissey lobbi" şirkəti təmsil edir. Yapon inhisarçıları ilə sıx əlaqəsi olan "Nissey lobbi" şirkəti əssən biznes maraqlarının müdafiəçisidir. Konqresdə ərəb lobbisi ilə əlaqələri olmasısəbəbi ilə Yəhudi lobbisinin narazıçılığı ilə qarşılanan *Nissey lobbi onları neytrallaşdırmaqla* məşğuldur. Konqresdə Nissey lobbi əsasən aşağıdakı problemlərin həll edilməsi ilə məşğuldur:





**Yapon koorparasiyalarına Yaponiya tərəfindən edilən siyasi-iqtisadi dəstəyə qarşı bu ölkədə narazıçılıqların aradan götürülməsi;**

**ABŞ-a Yaponiyadan idxal məsələlərində olan çətinlikləri həll etmək;**

**Amerika iqtisadiyyatına Yapon kapital qoyuluşunu təmin etmək;**

**Texnologiya sahəsində üstün olan yapon mallarının bazarda liderliyini qoruyub saxlamaq;**

**Yapon biznesmenlərinin ABŞ maliyyə sisteminə təsirini gücləndirmək;**

**Yapon turistlərinin ABŞ-da təhlükəsizliyini təmin etmək;**

**Perl-Harbor hadisəsinin bir daha təkrar olmayacağını Amerika ictimaiyyətini inandırmaq;**

**Yapon dənizçilərinin hüquqlarının müdafiəsi və s.**

Amerikanın müasir həyatında Yapon diasporunun özünəməxsus yeri vardır. İşgüzar etnik diaspor *kimi* özünü sübut edən Yapon diasporu Amerika ictimaiyyəti üçün daha yad hesab edilmir. Sosial-iqtisadi proqramlarda aktiv iştirak edən Yapon diasporu əsasən bank-maliyyə və texnologiya sahələrində çalışırlar.

Yapon diasporu arasında birləşdirici faktorların çox olmasına baxmayaraq son zamanlar daxili çəkişmələr hiss olunur. Yapon diasporunun bir hissəsi Amerikada onlara qarşı haqsızlıqların bir daha törədilməyəcəyinə inanır və ictimaiyyətə adaptasiya məsələlərində onlara əngəl olan anklavların aradan götürülməsini tələb edirlər. Onlar Yapon ədəbiyyatı və mətbuatıyla yanaşı Amerika ədəbiyyatı və mətbuatını oxumağın tərəfdarlarıdır. Yapon adətənənələrinin köhnəldiyini iddia edən bu qrup digər diasporlardan olan şəxslərlə nigah əlaqəsinə girməyi zəruri hesab edir. Yaponiyanın lazımi qədər qüdrətli dövlət olduğunu bildirən bu qrup "etnik iqtisadiyyatla"-deyil özlərini maddı rifahlarını yaxşılaşdırmağı vacib sayır.

Diaspor daxilində digər bir qrup isə 1924 və 1941-ci ilin hadisələrinin bir daha təkrarlayacaqlarından qorxaraq anklavların vacibliyini bildirirlər. Xirosima və Naqasaki hadisələrinin unudulmasını tələb edən bu qrup yapon milli adət-ənənələrinin qorunub saxlanmasını zəruri hesab edir.

Diasporun başqa bir qanadı isə Amerika ictimaiyyətitərəfindən assimlasiya olunmağın tərəfdarı olmaqla eyni zamanda yapon milli adət-ənənələrinə hörmətlə yanaşmağı zəruriliyini bildirir. Yaponiya ilə əlaqələrin möhkəmləndirilməsini vacib hesab edən bu qrup siyasi fəaliyyətlə məşğul olmağı da tələb edir.

Bu cür fikir ayrılıqlarının olmasına baxmayaraq ABŞ-da ən güclü diaspor hesab olunan Yapon diasporu digər dövlətlərdə öz qüdrətini qoruyub saxlamaqdadır.

## ƏDƏBİYYAT

1. Evelya Nakons Grenn "Issei, Nisse, Warbside-three generations of JapaneseAmerican women and domestic service" Philadelphiya .1996
2." Япония - Вопросы истории" М.1959
3. Japan diaspora in the world - www.japomonline.org
4. "Рассы и народы" - М.1982
5. Долгучин А.А, Мельников И.А "Планета Иммигрантов" М 1990
6. JapanImmigrant in Kanada - www.japan.com
7 Е.П.Севастьянов И.Е, Корскова "Позолоченное гетто- очерки о жизни в США емигрантов из Китая, Кореии и Японии" М. 1983
8. The Issei - www.us-japon.org
9. THe Nissei -www.kent.weldnet.edu
10. The Kibei – www.us-kibei.org
11. The Sansei - www.ukans.edu
12. V.E.Çirkin "Diskriminaüiə naüionalğnıx menşenstv v SŞA" M.1998
13. Страны и народы: Америка обший обзор (Северная Америка) М. 1980
14. "Рассы и народы" - М.1976
15. А.А.Баграмов "Иммигранты в США" М. 1957
16. Brief historyoverview of Japonase emigration 1868-1980 - www.haje.com
17. "Интернирование Американские Японцев – www.referent.run
18. "The history Jaronase Immigration" - www.braunboard.org
19. США- Социальню экономические аспекти имиграпии - М.1982
20. "Japan Media"www.headlinesport.com
21. Дух Ямото: -"В прошлом и настоящем". М. 1999
22. "National Assosation of Yapan American Sosiets"www.us-japan.org
23. American Sosietes - www.hawai.com





## YUNAN DİASPORU

Yunanlar və yaxud onların özlərini adlandırdıqları Ellinlər dünyanın ən qədim xalqlarından biridir. Ellinlər fəal xalq olaraq dünya mədəniyyətinə, arxitekturasına, elminə və s. sahələrinə böyük zənginliklər qoyublar. Əfsanəvi Zevs, Herakl, Aristotel, Homer, Prometey, Esxil, Sofokl, Aristofen və s. şəxsiyyətlərin vətəni olan Yunanıstan eyni zamanda hərbi yürüşlərilə də tarixdə izlər qoyublar. Yunanlar əsrlər öncə başladıqları hərbi yürüşlər zamanı dünyanın müxtəlif bölgələrinə səpələnmiş və burada öz icmalarını yaratmışlar. Zamanla bu icmalar diaspora çevrilmişdir.Bu səbəbdən də beynəlxalq münasibətlər sisteminin ayrılmaz tərkib hissəsi olan diaspor termini də onların dilindən yaranmışdır.

Ellin dünyası, Homerin adlandırdığı "Ellas"- mərkəzi Yunanıstan, Epir, Frakiya və Makedoniyanı əhatə edirdi. Bu ərazidə həyat əlamətləri eramızdan əvvəl daş dövrə təsadüf edir. Zamanla sivilizasiyalı inkişaf dövrü başlandıqca onların məskunlaşma dairəsi də genişlənirdi. Məşhur Yunan polis (şəhərdövlətləri)ləri Sparta, Afina, Arqos, Fivv, Korinf yarandıqca yunanların mühacirət prosesləri güclənirdi.I

Makedoniyalı İsgəndərin dövründə (e.ə. 336-323) yunanlar dünyanı fəth etmək üçün onun rəhbərliyi altında Asiyaya yürüşə başladılar. Bu yürüşlər zamanı çoxsayda yunan Mərkəzi Asiyada, Qafqazda, Kiçik Asiyada qalmalı oldular. Onların burada əllərində olan torpaq sahələrində öz qohum-əqrabaları ilə yaşayırdılar.

Zamanla polis-şəhərlər arasında başlanan mübarizə nəticəsində Ellin dünyası zəiflədi. Nəticədə bura daxil olan dövlətlər və ərazilər nəzarətdən çıxdı.

VIII əsrdən başlayaraq yunanlar kütləvi şəkildə İtaliya, Rusiya, müasir Ukrayna ərazilərinə mühacirət etməyə başladılar. İtaliya ərazisində "Böyük Ellas" məhəllələrinin yaranması Yunan diasporunun bu dövrdəki mövqeyindən xəbər verir.

XV əsrə qədər Bizans imperiyası tərkibində olan yunanların mühacirəti yalnız dini-missionerlik xarakter daşıyırdı. Yunan rahiblərinin qonşu dövlətlərə xristian dinin yaymaq məqsədilə etdikləri mühacirət burada əvvəlcədən formalaşmış icmaların güclənməsinə təkan verdi.

Ancaq XV əsrdən etibarən Osmanlı imperiyasının Avropaya doğru zəfərli yürüşləri səbəbilə yunanlar mühacirət prosesini gücləndirməli oldular. Osmanlı imperiyası tərkibindəki olan ərazilərini qoyub Rusiya, Qafqaz, Krım, Odessaya köçən yunanlar bu ərazilərdə say etibarilə artırdılar.

XVIII əsrin sonları XIX əsrin əvvəllərində Osmanlı imperiyasının zəifləməsi səbəbilə Böyük Britaniya Yunanıstanı ələ keçirtdi. Bu işdə xüsusi rolu

olan Britaniyadakı Yunan diasporu aktivlik göstərmişdir. Onlar Yunanıstan dövlətinin yaradılmasına çalışırdılar.

1821-ci ildən başlayaraqAvropa dövlətlərinin Osmanlı imperiyasını daxildən parçalamaq üçün apardıqları mübarizə nəticəsində 1829-cü ildə Yunanıstan dövləti yarandı. 1832-ci ildə Prussiya şəhzadəsi Otto Yunanıstan monorxiyasına rəhbərlik edirdi. 1834-cü ildə Afina Yunanıstanın paytaxtı elan edildi.

Yunanıstana Rusiya, Fransa, Böyük Britaniya, Prussiya kimi dövlətlərin mövqeyinin müsbət olmasında xüsusi köməyi olan Yunan diasporu idi. Bu dövlətlərdə güclü mövqeyə malik olan yunanlar Yunanıstanın dirçəldilməsi istiqamətində hər tərəfli köməklik göstərirdilər.

I Dünya müharibəsindən sonra Yunanıstan diasporun və hökumətin bütün səylərinə baxmayaraq Avropanın inkişaf etmiş dövlətləri sırasına daxil ola bilmədi. Ölkədə isə iqtisadi böhran səbəbilə Amerika və Avropa dövlətlərinə mühacirət edənlərin sayı artırdı. 1922-ci ildən başlayaraq yunanlar Afrika qitəsinə də köçürdülər.

İngilisdilli dövlətlərə daha tez adaptasiya olunan yunanlar bir çox sahələrdə çətinliklər görmürdülər. Onlar öz milli adət-ənənələrini təbliğ etməklə və ictimai həyatda aktivlik göstərməklə özlərinə müsbət rəğbət qazanırdılar. Yunan diasporunu ictimaiyyətdə mövqeyini qoruyub saxlamaqda əsas işi kilsə görürdü.

1967-74-cü illərdə Yunanıstanda hökumət çevrilişi yunan ziyalılarınan və digərlərinin Avstraliya, ABŞ, Sovetlər Birliyi, Kanadaya mühacirət etmələrinə səbəb oldu. 1970-ci illərdən sonra güclü hesab olunan Yunan diasporu öz lobbiçilik fəaliyyətini genişləndirirdi.

Müasir dövrdə Yunan diasporu dünya diasporları içərisində güclü və aktivlərdən biri hesab olunur. İnformasiya və maliyyə sahələri istiqamətində Yunan diasporu liderlərdən hesab olunur.

Böyük Britaniya və Fransadakı yunanlar varlı və kosmopolit Avstraliya və ABŞ-da sosial cəhətdən güclü. Almaniyada sahibkar, bəzi Afrika və Avropa dövlətlərində ictimai sahədə aktiv, Rusiyada dini və imkanlı şəxslər hesab olunur.

1990-cı ilin əvvəllərindən başlayaraq Yunanıstan diaspora qarşı yeritdiyi siyasətdə dəyişiklik etməli oldu. Yunanıstan diasporunun iri dövlətlərdəki olan gücünü və mövqeyini dövlətin xarici siyasət prinsiplərinə daxil etdi. Buna görə diasporun maraqlarına daxil olan bir sıra tədbirlər həyata keçirdi. 1996-cı ildə xaricdə yaşayan yunanları əlaqələndirmək məqsədilə Xaricdə Yaşayan Yunanlar Şurası (SAF) yarandı. Əsas məqsəd Yunan diasporunun mərkəzləşdirilməsi və əlaqələndirilmək olan Şura əsas şüar kimi "Ana Vətən", "Ellin dünyası"nı götürmüşdür. Yunan lobbisi kimi güclü bir qüvvəni





nəzarət edən Yunanıstan diaspor da birliyin qorunması məqsədilə kilsədən istifadə edir. Kilsələrdə tez-tez diaspor nümayəndələrilə görüşlər keçirən Yunanıstan rəhbərliyi problemlərin əksəriyyətini həll edə bilir.

Son dövrdə Yunan diasporu məskunlaşdığı ölkələrdə öz fəaliyyətini genişləndirməkdədir. Bir çox sahələrdə aparıcı mütəxəssislər olan yunanlar orta və iri burjaziya sinfinə aiddir. Diasporun müəyyən hissəsini assimlasiya olunmasına baxmayaraq milli adət-ənənələr, musiqi və mədəni varlıqları unutmayan Yunan diasporu informasiya təbliğatçılığında uğurlar əldə edirlər. Yunan diasporunun vətənlə sıx əlaqəsi olması üçün Yunanıstanda bir çox işlər görülür. Hətta hətta Omeqa Vilbis adlı gənc müğənninin diaspora həsr etdiyi "Diasrora"-adlı mahnısı və eyni adlı albomunu misal göstərmək olar.

Bu gün üçün dünyanın müxtəlif dövlətlərində məskunlaşan yunanların həyat və formalaşma təcrübəsi tədqiqatçılar tərəfindən öyrənilir, araşdırılır. Ukrayna, Rusiya, Kanada, Avstraliya, ABŞ və s. dövlətlərdə çoxsaylı Yunan diasporları barədə tədqiqat əsərləri maraq kəsb edir. Bizim ölkəmizdə Yunan diasporunun bu dövlətlərdə formalaşma tarixinin maraqlı olacağını nəzərə alıb aşağıdakıları sizlərə təqdim edirik:

***- Ukrayna -*** Bu ölkədə yunanların sayı 300 mindən çoxdur. Əsasən onlar Krım, Odessa, Mariopolda çoxluq təşkil edirlər. Yunanıstandan Ukraynaya ilk mühacirlər eramızdan əvvəl gəlməyə başlamışlar. Əsasən Qara dəniz sahilində yerləşən Odessa yunanların çoxluq təşkil etdiyi şəhər hesab olunur. Qədim yunan mühacirləri burada öz icmalarını yaradıblar. Lakin Odessada onların diaspor formalaşdırması XVII əsrdən etibarən başlanıb. Hacıbəy qalasında (1791-ci ildə Rus-Türk müharibəsinin nəticəsi olaraq Rus müqaviləsi imzalandı. Müqaviləyə əsasən Hacıbəy qalası rusların tabeçiliyinə keçir. 1795-ci ildə isə qala Odessa adını alır)-yunanlar daha çox məskunlaşması səbəbi buranın Rusiyaya tabe olması idi. 1794-cü ildə Odessada Yunan icması say etibarı ilə çoxluq təşkil edən etnik qrup hesab olunurdu.

Bu ildənbaşlayaraq yunanlar Odessanın ictimai həyatında fəal iştirak etməyə başladılar. Yunan icmasında təşkilatnanmanın başlanması diaspor formalaşmasına təkan verdi. Yunanıstanın azadlığı məqsədilə burada birliklər güclənməyə başladı. "Feliki Etriya"Vətənpərvər Cəmiyyəti rus hökuməti tərəfindən dəstəklənirdi. Cəmiyyətin üzvləri maliyyə yardımı toplayır. Osmanlılar əleyhinə təbliğat işi ilə məşğul olurdular.

Ukraynanın Sovetlər Birliyinin tərkibi illərində Yunan diasporu passiv fəaliyyət göstərirdi. Lakin Ukrayna müstəqillik əldə etdikdən sonra Yunan diasporu öz fəaliyyətini genişləndirirdi. Xüsusən 1994-cü ildə Yunanıstan və Ukrayna arasında diplomatik münasibətlərin qurulmasından sonra Yunan diasporuna diqqət xeyli artdı. Ukraynadakı Yunan diasporu Yunanıstan və Ukrayna əlaqələrinin möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli rol oynamağa başladı. "Yunan İcmaları Federasiyası" və "Xaricdə Yaşayan Yunanlar Şura-

sı"- Ukraynada diaspora qayğını artırmağa başladı. Yunan məktəbləri, kilsələri, klubları, mərkəzlərinin sayı artmaqla onlara maliyyə yardımı da artırılmağa başlandı.

Yunan milli adət-ənənələrini, musiqisini, mədəniyyətini təbliğ edən verilişlər, mətbuat orqanlarının sayı artmaqla Ukraynada bu sahələrdə tədbirlər keçirilir. Ukraynada yunan mədəniyyəti günlərinin keçirilməsi ənənəvi xarakter aldı. Yunanıstan Prezidenti və Xarici İşlər Nazirinin Ukraynaya səfər etməsi, diasporla görüşməsi onların mövqeyinin güclənməsinə səbəb oldu. "Ukrayna Ellinləri", "Kollektivist" qəzetlərinin tirajı artdı. Yunan diasporunun fəaliyyətini əks etdirən digər Kütləvi İnformasiya Vasitələri (KİV)-nin sayı çoxaldı.

Yunanıstanın Ukraynaya maliyyə yardımı göstərməsi, eyni zamanda diaspora da şamil olunurdu. Bunun nəticəsi olaraq Yunan diasporu Ukraynada xeyriyyəçilik işləri ilə də məşğul olur. Yunan gəncləri Yunanıstanda təhsil almağa üstünlük verdiklərindən onlara şərait yaradan Yunanıstan Ukraynada aktiv iş aparır. Yunanıstanın qayğısı və himayəsi nəticəsində Ukraynadakı Yunan diasporu günü-gündən güclənir.

***Kanada*** - Bu ölkəyə ilk Yunan mühacirlərinin gəlməsi dörd yüz il öncəyə təsadüf edir. İspan donanmasının üzvü oldan bu şəxslər Kanadanın Qərb sahillərində məskunlaşmışlar. Lakin Kanadadaonların sayının az olması və eyni zamanda bu yunanların passivliyi burada Yunan icması yaradılmasının əsas səbəbi idi. 1850-ci illərin əvvəllərindən başlayaraq yunanlar Kanadada daim yaşamaq məqsədilə bura mühacirət etməyə başladılar. Əsasən dənizçilər olan bu yunanlar öz vətənlərinə geri qayıtmaq barədə fikirləşmirdilər. Ancaq onlar bura başqa ölkələrdən gəldikləri üçün yunan kimi qeydə alınmadıqlarından 1900-cü ilin siyahıya almasında Kanadada 39 yunanın olması bildirilirdi.

1900-1911-ci illərdə Yunanıstan və Türkiyə arasında gedənmüharibə səbəbilə 2.000 yunan iqtisadi və müharibədə iştirak etməmək səbəbilə Kanadaya köçdülər. Burada 1920-ci ilin əvvəllərinə icmaların yarada bilən ictimaiyyətə adaptasiya olur, qarışıq nigaha üstünlük verirdilər.

Kanadadayunanlar əsasən iri şəhərlərdə məskunlaşırdılar. Monreal, Toranto, Vankvuer yunanların çoxluq təşkil etdikləri şəhərdir. Burada icma halında yaşayan yunanlar diaspor formalaşmanı 1920-ci ildən sonra başladılar. Əvvəllər ofisiant, fabrik işçisi, xırda biznes sahələrində çalışan yunanlar Kanadanın iqtisadiyyatının dirçəlməsində də rol oynayırdılar. 1906-cı ildə kilsə yunan icmasında rəhbərliyi ələ aldıqdan sonra icmadaxili münaqişələrini həll etməyə başladı. İcmadaxili monarxist və demokratik fikirli şəxslərin birləşdirməyə nail olan kilsə maliyyə, nigah, mübahisələrin həll edilməsi mərkəzinə çevrildi.





I Dünya Müharibəsi illərində yunanların ingilis dilində danışmaması, Yunanıstanın Almaniya ilə əlaqəsi, Kanadada onlara türklər, almanlar, ukraynlar kimi "Düşmən əcnəbilər" kimi qəbul edilməsinə səbəb oldu. Yunan diasporuna məxsus müəssisələri, dükanlar, ticarət köhkləri bağlanır, iş yerlərində onlar sıxışdırılırdı. Lakin bu Yunan diasporunun parçalanmasına gətirib çıxartmadı. İngilis dilini öyrənməyə başlaması yunanlara olan narazıçılıqların aradan götürülməsinə səbəb oldu.

1930-cu ildə Kanada faktiki olaraq öz qapılarını mühacirlərin üzünə bağladı. II Dünya Müharibəsinə qədər davam edən bu qadağa illərində Yunan diasporu tamamilə formalaşma prosesin keçdi. Təşkilatlanması isə bu qadağanın götürülməsindən sonra başladı.

1946-49-cu ildə Kanadaya mühacirət edən 100.000 nəfər Yunan diasporunun fəaliyyətində dəyişikliklər yaratdı. Bu ildən başlayaraq hissə-hissə asimlasiya olunan Yunan diasporunda bu proseslərin qarşısı alındı. Milli adət-ənənələrə ciddi fikir verməyə başlayan yunanlar elm, təhsilsahələrinə maraqlarını artırdı. Seçkilərdə iştirakını aktivləşdirən Yunan diasporu öz namizədlərini irəli sürməyə başladılar.

Diasporun əsas aparıcı təşkilatı olan "Yunan Kanada Mədəniyyət Cəmiyyəti" ətrafında bir çox diaspor təşkilatların birləşmişdir. Eyni zamanda Yunanıstan və Kanada arasında hərtərəfli əlaqələrin inkişaf etməsində xüsusi rol oynayan Yunan diasporu ölkədə fəal etnik diasporlardan hesab olunurdu. 1996-cı ilin siyahıya alınmasına görə Kanadada 203.354 yunan yaşayır. Onlar hüquq, tibb və ticarət sahələrdə daha çoxluq təşkil edir. Yunan diasporunun KİV-ləri iki dildə nəşr olunur. Kanadada dövlət vəzifələrində də çalışan yunanlar lobbiçilik sahəsində də güclülərdən hesab olunur. Serb, erməni, rus diasporları ilə sıx əlaqədə olan Yunan diasporu və lobbisi anti-türk fəaliyyətinə görə tanınıllar. Bir çox sahələrdə isə yunanlar fəallıq göstərməsilə Kanadada mövqe sarıdan güclülüyünü qoruyub saxlayır.

***Avstraliya*** - Yunan diasporu öz fəallığına və sayına görə Avstraliyada seçilən etnik diasporlardan biri hesab olunur. Bura 1827-ci ildə gələn yunanlar I Dünya Müharibəsinə qədər Avstraliyada diqqətə çarpacaq dərəcədə fəal deyil idilər. Lakin 1945-ci ildən bu ölkəyə başlanın kütləvi yunan mühacirət nəticəsində diaspor formalaşması başlandı. 1982-ci ilə qədər kütləviliyin qoruyan mühacirət prosesi Yunan diasporunun tam təşkilatlanması, formalaşmasına səbəb oldu. Bu illər ərzində 239.723 yunan Avstraliyanın müxtəlif şəhərlərində məskunlaşdı. Diasporun 47%-nin Melburnda olması burada onların aktivliyindən xəbər verir. Ümumi sayı 85% olan yunan Avstraliya vətəndaşlığın qəbul etmişdir.Diasporun 49%-ni Avstraliyada anadan olan yunanlar təşkil edir.

Yunanlar II Dünya Müharibəsindən sonra Avstraliyanın iqtisadi və sosial həyatında xüsusi rol oynayırlar. Avstraliya vətəndaşlığına baxmayaraq yu-

nan dili diasporun əsas ünsiyyət vasitəsidir. 53 KİV orqandan 38% yunan dilində, 62%-i isə ingilis və Yunan dillərində nəşr olunur. Diaspora məxsus 29 radio dalğasının 86%-i yunan dilində yayımlanır. Bu Avstraliyada yeganə dilini bu günə qədərqoruyub saxlayan etnik diasporlar tituluna yunanların sahib olmasına şərait yaradıb. Burada hətta "yunan dili ingilis dilini üstələməkdədir" fikri yayılmışdır.

Yunan musiqili gecələrin, mədəni tədbirlərin, forum və konfransların, foto sərgilərin, milli bayramların tez-tez keçirilməsi yerlilərin marağı ilə qarşılanır. YunanıstanAvstraliyadakı yunanlara xüsusi diqqət verir. Avstraliyada diasporla intensiv görüşlər keçirən Yunanıstan hökuməti Avstraliya ilə əlaqələrin iqtisadi və turizm sahəsində inkişaf etməsində marağını göstərir.

Yunanlar Avstraliyada seçkilərdə aktiv iştirak edir və bütün ölkələrdə olduğu kimi anti-türk mövqeyini gizlətmir. Diaspora məxsus ictimai təşkilatlar və birliklər burada qanunverici məclisdə lobbiyə malikdir. Avstraliya hökuməti isə öz növbəsində yunan və türk diasporları arasında münasibətləri tənzimləməyə çalışır. Avstraliyada Yunan-diasporu müasir dövrdə öz mövqeyini gücləndirməkdədir.

***Rusiya*** **-** Rusiya və Yunanıstan arasında əlaqələrin qədim tarixi var. Qədim zamanlardan yunanlar o zamanlar burada mövcud olan knyazlıqlara, şəhərlərə mühacirət edirdilər. Ancaq bu əlaqələr barədə tam məlumat Kiev Rus Dövlətinin vaxtına təsadüf edir. Yunanların xristianlığı yaymaq məqsədilə bura köçmələri nəticəsində ilkin yunan icmaları Rusiyanın şimal hissəsində yarandı.

1453-cü ildə Bizans imperiyasının parçalanmasından sonra yunanlar kütləvi halda Rusiyaya köçürdülər və burada güclü mövqeyə malik idilər. Yunan rahiblərinin Çar Sarayında nüfuzu Yapon icmasının mövqeyini gücləndirirdi. Kremldə qədim yunan dili və tarixi kitab və əlyazmaların saxlaması yunanların mövqeyindən xəbəb verir. Kremldə və digər ali yerlərdə yunanların güclü mövqeyə sahib olması səbəbilə onlar dövlətin xarici siyasətinə təsir edə bilirdilər.

1801-06-cı illərdə Rusiyada yunan məhlələrinin sayı artmağa başladı. Xerson, Tavri onların çoxluq təşkil etdikləri şəhərlərdən idi. Lakin 1817-ci ildə Rusiya Çarı I Aleksandr ölkədə apardığı islahatlar səbəbilə etnik İcmaların hüquqlarını azaldan qanunlar imzalayır. "Rus təbəliyi" olmayan şəxslərin sıxışdırılması Rusiya mühacirət prosesinin zəifləməsinə səbəb oldu. Bu yunanlardan da kənarda qalmadı. Yunanlar XVIII əsrin sonlarına qədər Rusiya mühacirət prosesini zəiflətdi.

XIX əsrin əvvəllərindən etibarən Rusiya yenidən güclənən yunan mühacirət Valkov, Volqoqrad şəhərlərində məskunlaşmaqla diaspor formalaşmanın ilkin mərhələsinə başladılar. Bu proseslərin gedişində Rusiyada başqa dövlətlərdən olan yunanlar da aktiv iştirak edirdilər. Rumundilli, Rus dilli, Tatardilli və s. yunanlar icmadaxili parçalanmanın qarşısını almağa çalışırdılar. Rusiyada yunanlar əsasən taxılçılıq, balıqçılıq, bitkiçilik sahələrində çalışırdı. Yerli əhali ilə qaynayıb qarışan yunanların tədbirlərində onlar aktiv iştirak edirdilər. 1859-cu ildən başlayaraq Yunan diasporu Rusiyanın ictimai-siyasi həyatında rolunu gücləndirməyə başladı. Bu ildə Mariopolda yunan məhəlləsinin yaranması, hüquq işçilərinin tənzimlənməsi məqsədilə yunan məhkəməsinin,məktəblərinin yaradılması diasporun mövqeyini gücləndirirdi.





Yunan sahibkarlarının sayı da artmağa başladı. Ziyalıların diasporda rəhbərliyi ələ alması birləşmə proseslərini gücləndirirdi. Hökumət işlərində yunanların çalışması diaspora geniş fəaliyyət imkanı açırdı. Diasporda elm və təhsilə maraq artmağa başladı. Ziyalıların təkidi ilə gənclər Rusiyanın ali məktəblərində təhsil alırdılar. Rus ordusunda yunan zabitləri nüfuz qazanmağa başladılar.Diaspor Rusiyada seçki hüququ qazandıqdan sonra öz namizədlərini də irəli sürdülər.

I və II Dünya müharibələri ərəfəsində Rusiyada yunan diaşporunun mövqeyi ölkədə baş verən ictimai-siyasi proseslər səbəbilə bir qədər zəiflədi. Lakin 1967-74-cü illər arası Yunanıstanda baş verən hadisələr ölkə rəhbərliyini diaspora olan münasibətini dəyişdi. Solçu yunanların ölkədən qovulması məqsədilə sovet rəhbərliyi yunanları öz ailəsində qəbul edilməsinə səbəb yaratdı. Bu tarixdən etibarən diaspor Sovet rəhbərliyi tərəfindən öz məqsədi üçün işlədilən vasitəyə çevrildi.

Yunanıstana təzyiq etmək məqsədilə diaspora diqqət yetirən Sovet rəhbərləri Qərb üsul-idarəsinin yanlış olduğunu təbliğ edirdi.

1990-cı illərin əvvəllərində Sovetlər Birliyinə aşkarlığın başlanması səbəbilə Yunan diasporu azad hərəkət etmək imkanı əldə etdi. Təşkilatlanmağa başlayan Yunan diasporu 1991-ci ildəSovetlər Birliyində yaşayan yunanların I Qurultayını keçirdi. Qurultayda Sovetlər Birliyində yaşayan 350.000 yunanın iştirak etməsi bildirildi ki, bunlardan çoxu Rusiyada yaşayır.

Müasir dövrdə Yunan diasporu Rusiyada nüfuzlu mövqe tutur. Əsasən Krasnodar, Stavropol, Soçi, Peterburq şəhərlərində çoxluq təşkil edən yunanlar ictimai işlərdə aktiv fəaliyyət göstərir.33 diaspor təşkilatının fəaliyyət göstərdiyi Rusiyada ən aktivlərdən Stavropoldakı "Yunan İctimai Birliklər Assosasiyası", Krasnodardakı "Yunan Birliklər Assosiasiyası" hesab olunur. Rusiyada Ekvksinos Pontos və s. KİV orqanları fəaliyyət göstərir. Yunanıstan-Rusiya Ticarət Palatası Yunan diasporu ilə sıx əlaqə saxlayır.

Rusiyada Yunan diasporu tez-tez kütləvi, musiqili, mədəni və ədəbi tədbirlər keçirir.Festivallar, sərgilər, forumlar da Rusiya-Yunanıstan arasında əlaqələrin inkişaf etməsində yardımçı olur. Yunan məktəbləri klubları mədəniyyət mərkəzləri də çoxluq təşkil edən Rusiyada Yunan diasporu digər diasporlar ilə də əlaqələr qurmuşdur.

***Amerika Birləşmiş Ştatları*** -Dünyanın aparıcı dövləti olan Amerikada Yunan diasporu yəhudi, erməni, irland, çin diasporundan sonra ən güclü diaspor hesab olunur. Yunan diasporu güclü lobbisi vasitəsilə Amerikanın xarici və daxili siyasətinə təsir edə bilir. ABŞ-da Yunan diasporunun 4 əsas inkişaf dövrü var:

1. Kütləvi mühacirət dövrü (1890-1920);
2. Yunan diasporunun formalaşma və təşkilatlaşma dövrü (1920-1940);
3. Həmrəylik dövrü (1940-1965);
4. Müxtəliflik dövrü (1965-bu günə qədər)

Amerikadaya mühacirət edən ilk yunanlar burada ömürlük məskunlaşma barədə fikirləşmirdilər. Onlar bura pul qazanmaq, vətənlərinə geri dönmək və özlərinə Yunanıstanda yaxşı həyat qurmaq məqsədi güdürdülər. Əsas kapital toplamaq barədə düşünən yunanlar üçün geri dönmək ənənəvi xarakter almışdı.

ABŞ-a Yunanların ilk gəlməsi, "Yeni Dünya" kəşf olunması illərinə təsadüf edir. Bu ölkəyə ilk dəfə olaraq Teodoros, Petros, Kretos, Con Qrieqo adlı dənizçilər idilər. Onlar məşhur səyyah Xristofer Kolumbun gəmisində "Yeni Dünya"nı kəşf edənlər içərisində idilər. Daha sonralar Ferdinand Magellan və digər Avropa ekspedisiya gəmilərinin tərkibində yunan dənizçiləri tez-tez bu qitəyə gəlirdilər. Yunanlar da bu ölkənin kəşf olunmasında öz sözlərini deyiblər.

"Apostolos Valerianos" ləqəbi ilə tanılan Cuana de Fuki adlı yunan dənizçisi Britaniya Kolumbiyası adlanan Kanada və Vaşinqton ştatını ayıran körfəzi kəşf etmişdir.

1768-ci ildə Korsika, Siciliya, Smirnadan olan yunan və italyan ailələri 6 gəmidə Amerikada məskunlaşmışlar. 1.406 nəçfərdən ibarət olan mühacirlərin Floridada məskunlaşmasının əsas səbəbi aşağıdakıdır:

1765-ci ildə tanınmış ingilis həkimi Endryu Trunbao "Yeni Dünyada" Floridada 20.000 akr. torpaq sahəsini hökumət tərəfindən hədiyyə adılır. Trunbold yunan həyat yoldaşının şərəfinə onun anadan olduğu "Smirna" şəhəri adlandırdığı bu ərazidə əsasən yunanların çalışması məqsədilə yuxanda sayı göstərilən yunanları buraya köçürür. Lakin buranın iqlimi, ətrafın bataqlıq olması, tropik həşərəatlar səbəilə yunanların həyatı dözülməz idi. Bu səbblə də onlar zamanla tələf olurdular. Tək onların məskunlaşmasından keçən 3 ay ərzində 450 nəfər ölmüşdü. 10 il ərzində buradakı yunanların çoxunun tələf olması 1779-cu ildə Smirna koloniya tamamilə bağlandı. Yerdə qalanlar isə qonşu şəhərlərə və koloniyalara köçürüldü.

Bu hadisə səbəbilə 1820-ci ilə qədər Amerikada yunanların mühacirəti passiv hal aldı. Lakin 1822-ci ildə Amerika missionerlərinin Yunanıstandan





çox sayda uşaq və gənclərin ölkəyə gətirilməsi səbəbilə yunan icmasının sayı artdı. 1890-1900-cu ilə isə ABŞ-a yunan qadınlarının mühacirəti baş verdi. Onlar əsasən iqtisadi səbəblərlə Amerikaya köçürdülər. Bu qadınların çoxu pul qazanıb, özlərinə cehiz almaq və vətəndə istədikləri şəxslərə ərə getmək məqsədilə çox işləyir və ağır zəhmətə qatlanırdılar.

1900-1920-ci illər arası yeni mühacirət dalğası ABŞ-a yayıldı. Bu yunanların çoxu Çikaqo şəhərində məskunlaşdılar. Tarixçilər ABŞ-da yunan diasporunun formalaşmasında mühüm amil kimi bu illərdə baş verən mühacirət prosesini götürürlər. Bu dövrdə 350 000 yunan Amerikaya köçmüş idi. Çikaqoda ilk yaranın "Yunantaun" və "Delta" adlı yunan məhlələri diaspor yaradılması istiqamətində ilk addım idi.

Bu mühacirlərin çoxu kənd təsərrüfatı işçiləri olmasına baxmayaraq onlar başqa sahələr üzrə çalışmağa başladılar. Onlar milli bayramlarına, musiqili-mədəni tədbirlərinə görə yerlilərin maraqların cəlb etdilər. Restoranlar, çörək və şirniyyat dükanları onlara olan münasibəti dəyişirdi. Yunanların ixtirası meyvəli dondurma az zaman içərisində amerikalıların sevimli şirniyyatına çevrildi.

Yunanların Amerikada ingilis dili məktəblərində təhsil almalarına baxmayaraq öz dillərini qoruyub saxlamaqla təbliğ etməsi diasporda olan birliyi göstərirdi.

Yunan dilli məktəblərin açılması diasporun əldə etdiyi uğurlardan idi. 1908-ci ildə Müqəddəs Üçlük Kilsəsinin rəhbərliyi ilə Çikaqoda ilk yunan məktəbi açıldı. Burada yunan tarixi, dili, ədəbiyyatı və s. dərsləri iki dildə - ingilis və yunan dillərində aparılırdı.

1908-1924-cü illər arası Balkanlarda baş verən hadisələrə əlaqəli eyni zamanda Amerikada öz xoşbəxtliyini tapa bilməyən bəzi yunanlar vətənə geri dönməli oldular. Amerikada aşağı səviyyəli işçilər kimi qalmaqdansa, vətənlərinə geri dönüb əvvəlki işlərində çalışmağı üstün tutan bu yunanlar Amerikaya bir daha qayıtmağı fikirləşmirdilər.

Amerikada etnik mühacirlərin ölkəyə daxil olması qanunla qadağan olan illərdə yunanlar teatr, şaxta, restoranlarda işləyirdilər. I Dünya Müharibəsi illərində yunanlara mövqe dəyişdi. Bir çox ştatlarda yunanlar arzuolunmaz etnik bir qrup kimi qəbul edilməyə başladı. Onlar işdən qovulur, ictimai yerlərdə görülməsi qadağan edilirdi. Hətta Amerika restoranlarının bəziləri qapılarında bu məzmunda elan asırdılar:

"Təmiz amerikalı: Simovul və yunanların daxil olması qəti qadağandır".

Yunanlara qarşı olan anti münasibət səbəbilə onlar yeganə istinad mərkəzi kimi kilsəyə toplaşmaq və problemlərini müzakirə etmək ənənəsinin bünövrəsini qoydular. Kilsənin məsləhətilə təşkilatlanmağa qədər bu proses davam etdi və bu ildə Amerikada mühacirət prosesində islahatlardan sonra onlar aktiv fəaliyyətə başladılar.

1965-ci ildən etibarən ABŞ-a mühacirət edən yunanların əksəriyyətini savadlılar və mütəxəssislər təşkil edirdi. 1965-76-cı illər arası ABŞ-a mühacirə edən 75.969 yunan burada formalaşmış diasporun əsas qüvvəsinə çevrildi. İntellektual, təhsil və s. sahələrdə mütəxəssis olan bu dalğanın nümayəndələri diasporda nüfuz sahiblərinə çevrildilər. Yapon lobbisinin yaranması isə diasporun aktiv fəaliyyətinin nəticəsi idi. İlk əvvəl Demokratiya və Sivil Cəmiyyət ideyaları ilə yaranan yunan lobbisi sonradan anti-türk münasibətinə görə tanınmağa başladı.

2 milyondan çox yunanların əksəriyyətinin Demokratik Partiyası tərəfdarı olması səbəbinə müxtəlif hökumət orqanlarında onların tərəfdarları var. Yunan diasporu və lobbisinin əsas fəaliyyəti aşağıdakı prinsiplər üzərində qurulmuşdur:

**Kiprin yunan hissəsinə mı aliyyə yardımının ayrılması. İlk yardım 1974-cü ildə 25 milyon dollar həcmində edilib və hər il yardım edir.**

**1974-cü ildə Türkiyəyə iqtisadi və hərbi yardımın qarşısının alınmasına nail olduqdan sonra hər vasitə ilə belə cür qərarların qəbul olunmasının qarşısının alınması.**

**1980-ci ildə Türkiyəyə hərbi yardımın qarşısının alınmasından sonra bu kimi müzakirələrdə öz sərt mövqeyini bildirmək.**

**Şimali Epir məsələsində Albaniyanın mövqeyinin zəifl ədilməsi.**

**Makedoniyanı daim nəzarətdə saxlamaq.**

**.Türkiyədə insan hüquqların pozulması, milli azlıqların sıxışdırılması və s. kimi təbliğat aparmaq.**

ABŞ-da Yunan diasporunda rəhbər mövqe tutan kilsə əsrin əvvələrindən başlayaraq diasporu idarə etməkdədir. Yunanıstan xarici siyasətinə təsir etmək qüvvəsinə malik olan kilsənin razılığı olmadan diaspor heç bir ciddi addım ata bilməz. Kilsə yunan fondlarının nəzarətdə saxlayır, biznesmen yunanlarla əlaqə saxlayır, iri yunan şirkətlərinə istiqamətlər göstərir. Yunan dilini assimlasiyadan qorunmasında əsas rol oynayan kilsə milli adət-ənənələrinə riayət edilərək qorunmasını diaspor qarşısında şərt kimi qoymuşdur.

Amerikada Yunan diasporu müxtəlif istiqamətlərdə fəaliyyət göstərir. Yunanıstana tez-tez maliyyə yardımı göstərən diaspor təbliğat işinə ciddi fikir verir. Müxtəlif KİV orqanlarına malik olan diaspor bu istiqamətdə çoxlu maliyyə sərf edir. ABŞ-dakı aşağıdakı KİV orqanları daha populyar və çox tirajlıdır.

Qəzetlərdən: "The Greek Sto", "TheNEUENIC Times", "Orthadox News'of Amerika", jurnallardan: "Odissey", "Greek Amerikan madazine", "Status", radio dalğalardan "Radio Gold",





"Fm 101,6, TV kanallardan "Anti TV", "Mega TV" və s.

Bunlardan başqa Amerikada Yunan diasporunun maraqlarını qoruyan və işləri aparan muxtəlif tipli təşkilatlar və birliklər fəaliyyət göstərir. Ölkə rəhbərliyi və Yunanıstan tərəfindən rəsmən tanılan aşağıdakı təşkilatların adlarını çəkmək olar.

1. **CNAN Federasiyası** - Bu federasiya əsrin əvvəllərində yaranıb. Yaranında əsas məqsədi ABŞ-a yeni gələn mühacirlərə kömək etmək, mədəni tədbirlər həyata keçirmək olanfederasiya 1974-cü ildən etibarən öz fəaliyyətini genişləndirdi. Amerikanın bir çox ştatında filiallarını yaradan, federasiya Kipr problemlərinin Yunanıstan xeyrinə həll edilməsi istiqamətində də iş aparmağa başladı. Federasiyanın aparıcı qüvvəsi olan gənclərlə birgə ölkədə tez-tez ədəbi-mədəni gecələri təşkil edir.

2. **Kolaroda Ellin - Amerika Mədəniyyət Assosiasiyası** - Yunan tarixi, ədəbiyyatı, mədəniyyəti, musiqisini təbliğ etmək məqsədilə yaradılmış assosiasiya Amerika Yunanıstan arasında əlaqələrin inkişaf etməsində mühüm rol oynayır. Yunan gənclərini ölkə ictimaiyyətinə adaptasiya olunmasında yardımçı olur. ABŞ-da kütləvi tədbirlər keçirən assosiasiyanın ətrafında bir neçə ictimai birliklər toplanıb.

3. **Amerikan Yunan Proqressiv Təhsil Assosiasiyası (ANEPA)** - Böyük Yunan diaspor təşkilatlarındanhesab olunan ANEPA beynəlxalq ictimai birlik kimi fəaliyyət göstərir. Kanada, Avstraliya və Yunanıstanda filialları olan ANEPA - 1922-ci ildə Atlantada təsis edilib. Yunanların assimlasiya olunmasının qarşısının alınması məqsədilə yaradılan assosiasiya mədəni, elmi, tarixi tipli təşkilatları ətrafında birləşdirib. Xəstəxanalar, kilsələr, məktublar və s. tikililəri maliyyələşdirən assosiasiya eyni zamanda lobbiçiliklə məşğul olur. ANEPA - güclü maliyyəyə malikdir.

4. **Yunan-Amerikan İttifaqı** - Təbliğatçılıq işi ilə məşğul olan ittifaq yunan dilini, mədəniyyətini, ədəbiyyatını, tarixini təbliğ etmək məqsədilə yaradılmışdır. Bir çox şəhərlərdə şöbələri olan ittifaq CD, DVD, Video və Audio kassetlər, KİV orqanlarından istifadə etməklə ictimai rəydə Yunanıstana və yunanlara müsbət imic qazandırmağa çalışır. Əsasən ətrafında gəncləri toplayan ittifaq elm və təhsil sahəsinə ciddi fikir verir.

5. **Amerika Ellin İnstitutu - (ANI)** Yunan diasporunun 3 əsas aparıcı təşkilatlarından biri hesab olunur. Lobbiçilik və təbliğatçılıq işlərilə məşğul olan ANI 1974-cü ildə təsis edilib. ABŞ və Yunanıstanda çox sayda filialları olan ANI hər iki dövlətin hakimiyyət orqanları ilə sıx əlaqələri var. Müxtəlif KİV orqanları olan ANI ətrafında yunan diasporunun bütün təbəqələrini birləşdirmişdir. ANI - Amerikada güclü mövqeyə malikdir.

6. **Amerika Elmin İnstitutunun Xalqla Əlaqələr Komitəsi - ANIPAC**

Yunan diasporunun əsas işçi təşkilatı olan ABŞ-ın ANIPAC - Ellin İnstitutun tərkibində yaradılmış və ölkənin bütün şəhərlərində filiallara malikdir.

Komitə güclü maliyyə fonduna sahib olmaqla ətrafında Yunan diasporunun bütün təbəqələri ilə yanaşı onlar üçün çalışan xarici lobbi şirkətlərində birləşdirib.

Komitə yaranan zaman 5 milyon dollara malik idi. Lakin xəmi 1 il içində 200 milyon dollar əlində cəmləşdirə bilən komitə kilsə ilə birgə Yunan diasporuna nəzarət edir. İcraedici qurum kimi aktiv fəaliyyət göstərən komitə erməni, serb, rus və digər diasporlarla əməkdaşlıq edir.

Bunlardan başqa "Afina qrupu", "Yunan Mədəniyyət Mərkəzi" və s. təşkilatlarda aktiv fəaliyyət göstərirlər. Əsasən lobbiçilik və mədəni təbliğatla məşğul olan bu təşkilatlar vahid mərkəzdən idarə olunurlar.

Müasir dövrdə ABŞ-dakı Yunan diasporunda Amerikanlaşmada özünü göstərir. Yunan gəncləri Amerika yaşayış tərzinə tam uyğunlaşmışlar. Yunanıstanın xarici siyasətinin burada amerikanlaşmanın qarşısını almaq cəhdləri kilsənin apardığı işlər kimi çox zaman boşa çıxır. Bunun qarşısını almaq məqsədilə diaspor Amerikada anadan olan gənclərin Yunanıstana tez-tez turist səfərlərini təşkil edir. Ailədə yunan dilində danışmağın əleyhinə çıxan gənclər böyüklər ilə az-az görüşlər keçirirlər.

Ancaq bütün bulara baxmayaraq Yunan diasporu öz gücün və mövqeyin qoruyub saxlamaqdadır. Kilsə faktorunun diasporda hələ də güclü təsirə malik olması Yunan diasporunun parçalanmasının və assimlasiya olunmasının qarşısını alır.





## ƏDƏBİYYAT


1. В.В.Кондратьев "Греция" М.1963
2. The Hellenic world - www.helas.org
3. MichelDeon "Greek history " - Paris. 1998.
4. "Greece in theworld" - www.hri.org
5. Lsaian Bauman "New World" New-York1976
6. George Prevelakis "State and diasrora in the context of Qlobalisation" Paris1998
7. К.Г.Авгидипис "Прогрессивная Греческая Эмиграция" Киев 1982
8. Журнал "Русская мысль" N: 4337, 19 октября 2000
9. Газета "Еллини Украины" N: 1-12 1999
10. A Historyof Greek emigration to Canada - www.whiterenerictures.com
11. "Greek diasrorain theCanada" www.diaspora.net
12. Kon Vatskals "From the Islands - the historyof Greek Community of Darwing" Darwin. 1999
13. "Рaсcы и народы" N:18, M.1998
14. "Греция и Россия"www.grek.ru
15. Konstantine Aruanitorulos "The Dynamics of The Greek American Diasrora and the Greek Lobby in Washington: Evalution and Recomendation" Athens 2002.
16. " Greek Immigration in the United States" New-York, 2000.
17. Leonidas G.Porulous"Brief history of Hellenism in Florida" - www.web.classics.edu
18. "Emmigration and assimlation Nights from the Collection" Chicago, 1999.
19. Maria Doulis "Greek emigration to the United States" New-York, 2000.
20. Alan Cigler "Interest grour rolitics" New-York, 1998
21. Tayyar Ari. "Amerikanın siyasal yapısı lobiler ve dis politika" Ankara.1992
22. The Greek media - www.hri.org and www.hellas-tamu.edu
23. "Chian federation" - www.chian.org
24. Nellenic Amerikan Culrural Assosiation of Colorado - www.hrcac.org
25. The AmericanNellenic Educational Progressive Association - www.anepa.org
26. The NellenicAmerican Union www.hau.org

## ÇİN DİASPORU

Son məlumatlara görə dünyanın 140 ölkəsində 60 milyona yaxın çinli yaşayır ki, onlar Çin diasporunun tərkibini təşkil edirlər. Bunların 21 milyonu Tayvanda, 6 milyonu Honkonqda, 7 milyonu İndoneziyada, 5 milyonu Malaziyada, 3 milyonu Sinqapurda, 1 milyona yaxını isə Filippində, 13 milyonu ABŞ və s. ölkələrin payına düşür. Tək Kaliforniyanın şimalında statistikaya əsaslanaraq əhalinin onda birinin Çinli olması faktını söyləmək olar.

Dünyanın müxtəlif bölgələrində firmalaşan Çin diasporu qüdrətli diasporlara xas olan iki əsas xüsusiyyəti özündə cəmləşdirib: Diasporun təməlini Çini tərk edən mühacirlərin qoyması və hal-hazırda diasporun əksəriyyətini məskunlaşdıqları ərazidə təbii-bioloji yolla artan Çinlilərin təşkil etməsi.

Çin diasporu barədə araşdırma aparmaq çox çətindir. Çox zəngin adət-ənənəyə malik olan Çin diasporu qapalı həyat tərzi keçirdiyindən onların formalaşma istiqamətində apardıqları işlər barədə məlumatlar azlıq təşkil edir.

Çin mühacirət tarixi qədim dövrlrə təsadüf edir. Passiv halda olsa da Çin mühacirləri yaxın ərazilərə mühacirət etmiş və məskunlaşıblar. Min sülaləsinin idarəçiliyi dövründə (1368-1644) Çin mühacirələribuna baxmayaraq əldə olan mənbələr əsasında bu qüdrətli diasporu öyrənmək mümkün olub. Cənub-şərqi Asiya regionuna, Ərəb Şərqinə və hətta Afrikaya mühacirət ediblər.

XIX əsrin 60-cı illərindən sonra Çində mühacirət prosesi kütləvi xarakter daşımağa başladı. Sosial, iqtisadi və siyasi səbəblər Çin mühacirətinin çoxtərəfli v mürəkkəb olmasına əsas yaratdı. Bu ildən etibarən Çin mühacirləri kütləvi halda Cənub-şərqi Asiya regionuna, Avstraliya, Yaponiya, Amerika qitəsinə və s. ərazilərə köçməyə başlayıblar. Məskunlaşdıqları ərazilərdə bir-birlərilə sıx əlaqə quran-çinlilər qədim adət-ənənəyə söykənərək sıx halda birləşmişlər. Bu birləşmələrlə diaspora çevrilən Çinli mühacirlər assimlyasiyaya məruz qalmamaq üçün müxtəlif vasitələrdən istifadə edirdilər.

Diaspor formalaşdırmaqlarına baxmayaraq çinli mühacirlr doğma vətənlərilə əlaqəni itirmirdilər. Yerli əhali ilə qaynayıb-qarışmaları ilə paralel olaraq, doğma dillərini qoruyur, öz mədəniyyətlərini təbliğ edir, ailə prisipləri əsasında bir-birləri ilə sıx əlaqə qurur, qədim Çin adət-ənəsinə üstünlük verirdilər. XX əsrin ortalarına qədər Çin diasporunun nümayəndələri məskunlaşdıqları ərazilərdə vəfat etmiş qohum-əqrabalarının doğma torpaqlarında dəfn edilməsi üçün cənazələri Çinə göndərirdilər.

Huasayoalar - Çinli mühacirlrin çoxsaylı məskunlaşdıqları region Cənub-şərqi Asiyadır. Bu regionda Çin mühacirləri əhalinin ayrılmaz hissəsi hesab olunur. Cənub-Şərqi Asiya regionunda Çin diasporunun formalaşması regiona Çindən əsrlər boyu mühacirət prosesinin dinamikliyi ilə yanaşı mühacirlərin bütün sosial sahələrdə aktivliyi sayəsində baş verirdi. XVIII əsrdən etibarən





regionda Çin mühacirlərinin ticarət və sənaye fəaliyyəti genişlənməyə başladı. 1692-ci ildə Filippində, 1750-ci ildə İndoneziyada, 1750-52-ci illər arası isə Tailandda, Vyetnamda, Malaziyada, Honkonqda geniş ticarət şöbələri quran Çinli mühacirlər diaspor nümayəndələri kimi məskunlaşdıqları ərazilərin hökumətləri tərəfindən tanınır və qəbul edilirdi. Böyük Britaniya, Fransa, Portuqaliya və digər dövlətlərlə ticari əlaqələr quran Çin diasporu bu regionda ciddi bir rəqabətlə üzləşmirdilər.

Xüsusilə ***Vyetnamda*** İquen feodal hökuməti dövründə dostluq və praqmatik siyasətlə qarşılaşan Çin diasporu geniş səlahiyyətlərə malik idi. XVIII əsrdən etibarən Vyetnamın daxili bazarının və faydalı qazıntılarının inkişaf etdirilməsində böyük rol oynayan Çin diasporu Fransa kapitalı hesabına bu ölkədə böyük ticari şöbəkə yaratmışlar.

Xırda kapital hesabına varlanan Çin diasporu kənd təsərrüfatı sahəsini nəzarətə götürmüşdülər. Zamanla isə Çin diasporunun mövqeyi Vyetnamda zəifləməyə başlayan kimi, onların çoxu Amerika qitəsinə üz tuturdular.

Cənub-Şərqi Asiya regionuna daxil olan ***Malaziyada*** da Çin diasporu yerli hökumət və əhali tərəfindən böyük rəğbətlə qarşılandıqlarından onların Malaziya iqtisadiyyatının və daxili bazarının inkişafına kapital qoyuluşuna səbəb olmuşdur. Çin işçi qüvvəsi Malaziya faydalı qazıntılarının əldə edilməsi gündəlik tələbat mallarının istehsalında, digər xidmət sahələrində əhəmiyyətli rol oynamışdır.

Malaziya vətəndaşlığını qəbul edən çinlilərin dövlət strukturlarında məmur işləmək hüququ var idi.

Bu dövlətlərlə yanaşı, İndoneziya, Tailand, Filippin və Honkonqun iqtisadiyyatının inkişaf etdirilməsində,dövlətlərarası münasibətlərin qurulmasında, ticari-iqtisadi birliklərin yaradılmasında Çin diasporunun əhəmiyyətli rolu olmuşdur.

Çin diasporunun Yaponiya, Avstraliya və s. ölkələrdə mühüm rolunu da tədqiqatçılar öz əsərlərində qeyd edirlər. Çin diasporunun möhkəmlənməsində və fəaliyyət dairəsinin genişlənməsində 1870-ci ildən sonra Çin dövlətinin xaricdəki vətəndaşlarına qarşı münasibətinin dəyişməsi səbəb olmuşdur.

Bu ilə qədər Çində ölkəni tərk etmiş mühacirlərə "düşmən", "Xain", "üsyankar" kimi yanaşılır və onların qohum-əqrabaları daim nəzarətdə saxlanırdı. Bu səbəbdən də Çinli mühacirlər vətənə dönüşdə onları yalnız ölüm hökmünü gözlədiyini bilirdilər və vətənlə əlaqəni saxlamaqda çətinlik çəkirdilər. Məskunlaşdıqları ərazilərdə Çinli mühacirlər vətənləri tərəfindən dəstəklənmədiklərindən bir çox çətinliklərlə üzləşirdilər.

Lakin 1870-ci ildə Çinin Fransa, Portuqaliya, Böyük Britaniya və bir sıra dövlətlərlə ticari müqavilələr imzalamasından sonra xaricdəki vətəndaşlarının dövlət xarici siyasətində mühüm rolunu dərk etməyə başladılar. Dünyanın müxtəlif bölgələrində olan diasporlarına maliyyə, siyasi və mənəvi dəstək

verməyə başlayan Çin rəsmiləri diasporlarına qarşı törədilən hər hansı bir təzyiq hadisəsindən sonra dövlət səviyyəsində etiraz notaları və bəyanatlar verirdi.

Ancaq o zamanlar beynəlxalq aləmdə Çinin nüfuzunun zəif olması onların verdiyi bəyanata ciddi fikir verilmirdi.

Çin diasporunu digər diasporlardan fərqləndirən cəhətlərdən biri də ondan ibarət idi ki, çinlilər məskunlaşdıqları ərazilərə assosasiyasa, klan, gizli birliklər ətrafında birləşmə kimi zəngin təcrübə gətirmişdilər. Bu cür birləşmənin aşağıdakı formaları var:

1.Klan - Bu cür birlikdə ailə prinsipləri əsas götürülür. Klan üzvləri eyni soyadı daşımalı və qohum-əqrabadan olmalı idi. Klana daxil olanlar daim bir-birlərilə sıx təmasda olmalı, problemləri birgə həll etməli, xaricdə yaşayan digər qohumlarla əlaqə qurmalı, Çinlə əlaqəni itirməməli, qədim adət-ənənəyə riayət etməli idi.

Hal-hazırda dünyanın bir çox dövlətlərində bu-cür klanlar mövcuddur. Klanlar məskunlaşdıqları dövlətdə müəyyən bir ərazini nəzarətə götürür və burada ticari şəbəkələr qururlar. Gələn gəlirlər isə ümumi kapital kimi cəmlənir və problemlərin həll edilməsinə xərclənir.

2. Gizli birliklər - Siyasi, ictimai, kriminal və s. əsaslı bu cür birləşmədə dini-mistik ruh hakimlik edir. Ümumi maraqlı şəxsləri ətrafında toplayan gizli birliklər qədim adət-ənənəyə riayət edir və assimlyasiyaya məruz qalmamaq üçün müxtəlif vasitələrə əl atırdılar.

Mühacirləri öz ətrafında birləşdirməyə nail olan gizli birliklər diasporun təməlini qoyanlar hesab olunur. Əvvəllər bu cür birliklərə tacirlər və kriminal aləmlə bağlı olan şəxslər rəhbərlik edirdisə, zamanla onları hüquqşünaslar və ziyalılar əvəz etdikdən sonra gizli birliklər hörmətli diaspor təşkilatına çevrilirdilər.

İlk gizli birliklər XIX əsrin 60-cı illərində Cənub-şərqi Asiya ölkələrində, Yaponiya və Avstraliyada yaradılmışdır. İlk diaspor təşkilatı isə 1867-75ci illər arası "Kubada Çin-Honkonq birliyi" ABŞ-da "Qardaşlar","İttifaq" - gizli birlikləri idi.

Bu diaspor təşkilatları güclü Çin maliyyəsini əllərində cəmləşdirməklə, Çin mühacirləri arasında vətənə məhəbbət, dilə hörmət, ailəyə sayğı, bir-birlərinə mehriban münasibət bəsləməyi təbliğ edirdilər. Onlardan sonra yaranan cəmiyyətlərin bir çoxu Çin diaspor təşkilatları tərəfindən qoyulan ənənələri bu günə qədər davam etdirlər.

Xeyriyyə Cəmiyyətləri - Əsasən çinlilərin sıx halında məskunlaşdıqları ərazilərdə yaradılan bu cür birliklər ilk dəfə olaraq Amerikada yaradılıb. Xeyriyyə Cəmiyyətləri əsasən bu ölkəyə mühacirət edən çinlilri iş yeri, yaşayış evi, təhsil almaq istəyənlər üçün maliyyə yardımı ilə təmin edirlər. Çinli





mühacirlərin hüquqlarını qoruyan xeyriyyə cəmiyyətləri Çin diasporu arasında hüquqi maariflənmdirmə işləri görürlər. Çin diasporunda qanunverici hüquqa malik olan xeyriyyə cəmiyyəti San-Fransiskoda 6 rayon assosasiyasının birgə yaratdıqları "Altı Kompaniya" cəmiyyəti idi. "Altı Kompaniyaya" Çin burjuaziyası rəhbərlik edirdi. 1965-ci ilə qədər fəaliyyət göstərmiş "Altı kompaniya" - (1901-ci ildən etibarən Birləşmiş Çin Xeyriyyə Assosasiyası adlandırılırdı: və digər Xeyriyyə Cəmiyyətləri Çin diasporunun formalaşmasında böyük rol oynayıblar. Çinlilərə qarşı irqi ayrı-seçkiliyə qarşı mübarizədə birgə hərəkət etməyin banisi hesab olunan Xeyriyyə Cəmiyyətləri Çin millətinə və dövlətinə müsbət rəylər yaranmasına səbəb olublar.

XIX əsrin sonlarından başlayaraq Çinli mühacirlərin Avropa və Asiyanın digər ərazilərinə mühacirəti kütləvi xarakter aldı. Fransa, Portuqaliya, İngiltərə ilə 1870-ci ildə bağlanmış ticari müqavilələr Çinli mühacirlərin bu dövlətlərdə məskunlaşmasının qarşısını alan əngəlliklər aradan götürüldü.Avropada ucuz işçi qüvvəsi kimi Çinlilərə sosial xidmət sahəsində daha çox yer ayrılmışdı. Lakin Avropa və Asiyanın bəzi dövlətlərində sayca çox olmalarına baxmayaraq, Çinlilər təşkilatlanmaq sahəsində passıv idilər. Bu da onların diaspor formalaşdırmalarına ciddi əngəlliklər törədirdi. Siyasi sahədə çox da rol oynamaq istəməyən çinliləri yalnız gəlir əldə etmək üçün çalışırdılar.

Çin diasporunun ən güclü formalaşması ***Amerika Birləşmiş Ştatlarında*** baş verib. Buna səbəb Amerikada Çinli mühacirlərin rastlaşdıqları çətinliklərdən özlərini qorumaq idi.

Amerika qitəsinə ilk mühacirət edən çinlilər əsasən iqtisadi səbəblərə görə ölkələrini tərk edənlər idi və onlar bu qitədə xoşbəxt həyat qurmaq arzulayırdılar. Kubada 1860-cı il məlumatına görə formalaşmış Çin diasporu ölkədə mühüm yer tuturdu. Latın Amerikasının iri dövlətləri Braziliya, Peru, Boliviya, Argentin da çinli mühacirlər olmasına baxmayaraq onlar Meksika və Kubadan fərqli olaraq bu dövlərlərdə diasporlarını ABŞ-dan gec olaraq yaradıblar. ABŞ-da Çin diasporunun fonnaalşmasının zəngin və keşməkeşli tarixi vardır.

ABŞ-a çinli mühacirlərin nə zaman gəldiyi barədə dəqiq məlumat heç bir mənbədə düzgün göstərilmir. Mənbələrə baxdıqda tədqiqatçılar arasında yekdil fikrin olmadığı görünür. Məs: XIX əsr Amerika tarixçisi .BenkrottiniÇinli mühacirlərin ABŞ-a 1571 ci ildə, K.Rayt isə 1787-ci ildə gəldiklərini iddia edirlər. Digər tədqiqatçılar 1685-ci ildə Çin icmalarının Meksikada olması barədə məlumat verirlər.Meksikada Çin diasporu 1787-88-ci illərdə formalaşmış halda fəaliyyət göstərirdi. Tarixçilər 1791-ci ildə Amerikanın Sakit Okean sahillərində çin ticari gəmilərinin gəlməsini qeyd edirlər.1845-ci ildən etibarən ABŞ-a köçən çinlilər faktiki olaraq qul vəziyyətində

idilər. Yeni Dünyada plantasiya sahibkarları ucuz işçi qüvvəsi kimi çinlilərə üstünlük verirdilər.

Tədqiqatçılar çinli mühacirlərin Amerikada məskunlaşması və diaspor yaratmalarını 3 dövrə ayırırlar:

1848-ci ildə Amerika Birləşmiş Ştatlarının qərbində yerləşən Syerra-Nevadada qızıl aşkarlanması "Qızıl hərisliyi"-nə tutulan digər dövlətlərin vətəndaşları kimi çinlilərin ABŞ-a kütləvi şəkildə mühacirətinin başlanmasına səbəb oldu. 1860-cı il məlumatına görə Syerra-Nevadada qızıl axtaranların 82,5 mininin 30,3 mini çinlilər idilər.

"Qızıl hərisliyi" bitdikdən sonra ABŞ-a gələn çinlilərin az bir hissəsi vətənə geri döndü. Qalanları xoşbəxt həyat axtarışı məqsədilə Amerikanın digər ştatlarına yayılırdılar. Çin diasporunun əsası hesab edilən bu şəxslərin 30% varlılar idilər ki, onlar ticari köşklər, camaşırxana, ərzaq mağazaları və restoranlara sahib idilər. Qalanları işçi qüvvəsi kimi şaxtalar, dəmir yollarının çəkilməsi və s. işlərdə qalmışdılar. Zaman-zaman Amerikanın müxtəlif bölgələrinə səpələnən Çinlilər digər işçilər üçün əsl rəqibə çevrildilər.

2. ***1882-1965-ci illər***

Çinlilərin ucuz işçi qüvvəsi kimi üstünlüyü Amerikada digər işçilərin narazılığına səbəb olurdu. Bütün sahələrdə çinlilərin işə götürülməsi ölkədə işsiz qalanların sayının artması ilə nəticələnirdi. Çinlilərə qarşı narazılıq getdikcə son həddə çataraq onlara qarşı açıq-aşkar təqiblərə, çıxışlara səbəb yaratdı. İlk dəfə Kaliforniya ştatının həmkarlar ittifaqları Çinlilərə qarşı kütləvi çıxış etdikdən sonra anti-çin çıxışları bütün ölkəni əhatə elədi. Əmək bazarında Çinlilərə qarşı rəqabət apara bilməyən həmkarlar ittifaqları müxtəlif vasitələrə əl atırdılar.

Çinlilərə qarşı bu cür tədbirlərdən biri dəonlar üzərinə edilən aramsız basqınlar idi. 1871-ci il Los-Anceles, 1880-ci il Delver və 1885-ci ildə Rok Sirinqe şəhərlərində çinlilərə edilən basqınlar daha acınacaqlı nəticələr verdi. Basqınlar zamanı 100-lərlə çinli öldürülmüş və yaralanmışdır. Amerikadakı anti-çin basqınlarında bəzi diasporlar xüsusi aktivliklərinə görə seçilirdilər.

Ölkə daxilindəki bu çəkişmələrin qarşısının alınması üçün ABŞ konqresində anti Çin qanunları müzakirəyə çıxarıldı. Konqresdə də anti-Çin çıxışları ölkə daxilindəki çinlilərin vəziyyətini daha da gərginləşdirdi.

1882-ci ildə Konqesdə anti-Çin qanunu tətbiq edildi və qanuna əsasən ölkəyə çinli mühacirlərin daxil olması 20 illiyə dayandırıldı. Prezident Ç.Artur müddəti 10 ilə endirib qanunu imzaladı.

Lakin bu konqresin son qərarı deyildi. 1888-ci il "Skott" və 1897-ci il "Hiri" qanunları XX əsrin ortalarına kimi çinli mühacirlərin ABŞ-a gəlişinin qarşısını alırdı.





Bu müddət ərzində ABş-a yalnız diplomat, tələbə və sahibkar Çinlilər buraxıla bilərdilər ki, müəyyən tələblərə uyğun olsunlar.

Ölkə daxilində anti-Çin əhval-ruhiyyəsinin artması çinlilərin birləşməsi, təşkilatlanması və formalaşmasının təməlini qoydu. Müxtəlif ştatlardakı çinlilər diasporlarını gücləndirməyə başladılar. Assimilasiya olunma qorxusu və təqiblərdən qorunmaq məqsədilə çinlilər özlərinin ictimaiyyətdən izolə etməyə başladılar.

Çayntaun (Çin şəhəri; Çin məhəlləsinin ABŞ-dakı adı) - Çin milli adət-ənənələrinin, ailə birliyinin rəhbər olduğu məhəllələr birgə müdafiə olunur, bir-birləri ilə daha sıx əlaqə qurur. Assimlyasiyadan birgə qorunan çinlilər diasporlarını təşkilatlandırırdılar. İlk Çayntaunlar San-Fransisko, Vaşinqton, Nyu-York, Los-Ancelesdə yaradılmışdır. Çayntaunlarda 83% çinlilər toplanaraq birləşmişdilər.

Ölkədəki ən böyük Çayntaun San-Fransiskodakı hesab olunur. Şəhərin cənub-şərq hissəsini əhatə edən Çayntaun Asiyadan kənarda yerləşən ən iri çinli icması hesab olunur. 15 küçənin daxil olduğu San Fransisko Çayntaunu müxtəlif peşə sahiblərinin birləşməsi, həmkarlar birlikləri və aktiv fəaliyyət göstərən diasporu ilə digərlərindən xeyli fərqlənir.

Çayntaunlarda fəaliyyət göstərən Çin diasporunun rəhbərliyi ziyalılar, siyasi cəhətdən aktiv olan məmurlar, hüquqşünaslar və tacirlərdi. Milli adət-ənənələrin əsasında fəaliyyət göstərən Çin diasporu xeriyyə cəmiyyətlərinin, gizli birliklərin və klanların ətrafında birləşərək çinliləri idarə edirdi. Təhsil almaq, işləmək istəyənlər üçün köməklik göstərən diaspor ictimaiyyət tərəfindən edilən təzyiqlərdən yaxa qurtarmaq üçün ziyalıların və hüquqşünasların sayının artırılmasına çalışır, elmlə məşğul olmaq istəyənlər üçün pul köməkliyini əsirgəmirdi.

*Çayntaunlardakı restoranlar, ticari köşklər,* ərzaq *məhsulları, Çin mətbə*xi zaman-zaman ictimaiyyət tərəfindən müsbət qarşılandı. Çin ekzotikası amerikalıların çinlilərə münasibətini dəyişdirdi. Amerikada Çin diasporu barədə əfsanələrin ortaya çıxması onlar qarşı marağın artmasına səbəb oldu. Xüsusilə 2 əfsanə ABş-da bu gün də dolaşmaqdadır:

- Çin diasporunun heç bir zaman problemi olmur və olan zaman nəzərə çarpmadan yerindəcə daxildə həll edilir.
- Çin mətbəxinin elmə məlum olmayan ərzaq məhsulları ilə zəngindir.

XX əsrin əvvəllərindən etibarən Asiya regionunda Çinin rolunun güclənməsi, Çində Amerika mallarının baykot edilməsi, ABŞ-da Çin diasporunun nüfuzunun artması öz nəticələrini göstərirdi. Amerikada Çinə və çinlilərə münasibət müsbət istiqamətdə dəyişdi.

1924-43-cü illər arası çinli mühacirlərin kvota əsasında Amerikaya daxil olmasına razılıq verildi. 1943-cü ildə ölkə prezidenti Teodor Ruzvelt anti-Çin

qanun layihəsinin qüvvədən düşürülməsi üçün konqresə müraciət etdi. Çinin II Dünya müharibəsində Yaponiyaya, Koreya və Vyetnama qarşı ABŞ-ın yeritdiyi siyasəti dəstəkləməsi çin diasporunun ölkədə mövqeyini gücləndirdi. 1955-ci ildə Cenevrədə ABŞ və Çin arasında imzalanan müqavilələr çin diasporunun izolədən çıxmasına səbəb oldu. ABŞ-dakı çinlilər razılığa əsasən işədikləri zaman vətənlərinə əngəlsiz dönə, ailələrini Amerikaya gətirə bilərdilər. Ancaq anti-Çin qoşunları 1965-ci ildə ölkə prezidenti L.B.Conson tərəfindən imzalanan yeni mühacirət qanunundan sonra tamamilə qüvvədən düşdü.

3. 1965-ci il və müasir dövr

1965-ci ildə ABŞ-da Çin diasporu rəsmi olaraq heç bir çətinliklə üzləşməmələrinə baxmayaraq ölkəyə çinlilərin daxil olmasında aşağıdakı əngəllər hələ də qüvvədə idi ki, buna görə aşağıdakı kateqoriyaya aid olanlar ABŞ-a buraxılmırdı:

**Amerika vətəndaşlarının qızları və subay oğlanları;**

**Amerikada xarici vətəndaş statusuna sahib olan şəxslərin həyat yoldaşları və övladları.**

**Ziyalılar**

**Amerika vətəndaşlarının evli övladları, qardaş və bacıları**

**Yüksək ixtisaslı işçilər**

**Qaçqınlar**

Ancaq bu əngəlliklərə baxmayaraq Amerikaya mühacirət edən çinlilərin sayı olduqca çox idi. Bu isə çin diasporunun fəaliyyət sahəsinin daha da genişlənməsinə səbəb oldu. Bir çox sahələrdə mütəxəssis yetişdirən çin diasporu mobilliyə və qazanc əldə etməkdən ötrü istənilən işin qulpundan yapışmalarına görə digər diasporlardan seçilirlər. Amerikanın bütün ərazilərində məskunlaşan həmvətənlilərilə əlaqəni itirməyən Çin diasporu 1970-ci ildən başlayaraq siyasi aktivlik göstərir, müxtəlif təşkilatlar yaradır.

Çin adət-ənənələrinin rəhbər olduğu təşkilatlar aktiv fəaliyyət göstərir. ABŞ-Çin münasibətlərinin möhkəmləndirilməsinə çalışır, digər sahələrdə iş görürlər nə Kütləvi İnformasiya Vasitələri (KİV) malikdirlər. ABŞ-da Çin diasporuna malik "Tuannsze bao", "Çind ay bao", "Jen bao", "Daqun bao" və s. qəzetləri, Çayna Ənd As və s. jurnalları, çin və ingilis dillərində radio kanalları, televiziya verilişləri var. Çin tarixini, mədəniyyətini, adət-ənənəsini, dilini təbliğ edən kitablar tez-tez nəşr olunur.

Çin diasporunun siyasi fəaliyyəti 1899-cu ildə "Çin imperiyasında islahatlar assosasiyası" partiyası ilə başlanmasına baxmayaraq 1965-ci ildən sonra onlar geniş səlahiyyətlərə malik halda fəaliyyət göstərməyə başladılar. ABŞ





rəsmiləri tərəfindən tanınan Çin Proqessiv Assossasiyası Sin Xuan (Yeni Çin), Çinin Birləşdirilməsinə Yardım Assosasiyası və siyasi partiyalar bu gün də fəaliyyət göstərirlər.

Siyasi partiyalarla yanaşı çin diasporuna ictimai birliklər, təşkilat və assosasiyalar da məxsusdur. Onlar ölkə ictimaiyyətinə Çinin təbliğ edilməsində fəallıq göstərirlər. Bu təşkilatlar Amerika rəsmi orqanları tərəfindən tanınırənlarla əməkdaşlıq qururlar. Çin naminə lobbiçiliklə məşğul olan diaspor təşkilatlarıÇin tərəfindən də dəstəklənir. Əsasən aşağıdakı təşkilatlar bu gün də ABŞ-da aktiv fəaliyyət göstərirlər.

1. **Çin Mədəniyyət Cəmiyyəti** - ictimai təşkilat kimi San-Fransiskoda yaradılıb. Amerikanın bir sıra ştatlarında filialları var. Əsas fəaliyyət istiqaməti Çin mədəniyyətinin təbliğ edilməsidir. Bu məqsədlə Çində istehsal edilmiş kino filmlərin, çin teatrlarının, müğənnilərinin konsertlərinin Amerikada göstərilməsi tez-tez həyata keçirirlər. Çini təbliğ edən foto qalereyalar, rəsm sərgiləri təşkil edir, qəzet və jurnallar nəşr etdirir.

2. **Çin mənşəli Amerikalılar Ümummilli Assosasiyası** - 1978-ci ildə təsis edilib. Nyu-york, San-Fransisko, Çikaqo, Filadelfiya və s. şəhərlərdə şöbələri var. Çin-ABŞmünasibətlərinin normallaşdırılması, çin mənşəli alim və mütəxəssisləri birləşdirmək əsas fəaliyyət istiqamətidir. Lobbiçiliklə məşğul olan Assosasiya tez-tez seminarlar, konfranslar keçirir, Çin ənənələrinin təbliğatı ilə məşğul olur.

3. **Amerika və Çin xalqlarının dostluq Assosasiyası** - Amerika hökuməti tərəfindən rəsmən tanınır. Əksər ştatlarda filialları var. Əsas fəaliyyət istiqamətinə Çin mədəniyyət və incəsənətinin təbliği, informasiya yayımı və s. daxildir. Çin adət-ənənələri qorunub-saxlanılmasına çalışır.

4. **Amerika-Çin dostluq Assosasiyası** - 1974-cü ildə yaradılıb. Amerikanın bir çox şəhərlərində filialları var. Əsas fəaliyyəti Çinə ABŞ vətəndaşlarının, ABŞ-a Çin vətəndaşlarının gediş-gəlişini tənzimləməkdir. Eyni zamanda lobbiçiliklə məşğul olan ADİA - Çin maraqlarını Amerikada rəsmən müdafiə edir.

5. **Çin mənşəli Amerikalılar Cəmiyyəti** - 1973-cü ildə Vaşinqtonda yaradılıb. İş adamları və ziyalıları ətrafında cəmləşdirən cəmiyyət çinli mühacirlərin Amerikada rəsmi müdafiəçisidir. Amerikada təhsil almaq istəyənlərə köməklik göstərən cəmiyyət siyasi sahədə də fəallıq göstərir.

Bunlardan başqa "Vey Min Qie "(Xalqa Xidmət Cəmiyyəti)", Amerika-Çin Vətəndaşları Assosasiyası" və s. cəmiyyətlər də fəaliyyət göstərir. Bu təşkilatlar çinin diaspor qarşısında aşağıda qeyd olunan vəzifə ilə məqsədlərin həyata keçirməyə çalışırlar.

1. Çin siyasətinin əsas məqsədi olan vətənpərvərlər - vahid ailə prinsipini öndən tutaraq bütün dünya çinlilərini ümumi rəhbərlik altında birləşdirilməsi.

2. ABŞ qanunlarına riayət edilərək yerli əhali tərəfindən assimlyasiya olunmasının qarşısının alınması

3. Amerika-Çin münasibətlərinin normallaşdırılması istiqamətində bütün vasitələrdən istifadə.

Müasir dövrdə Çin diasporunda ABŞ-da digər diasporlardan fərqli olaraq hələ də milli adət-ənənələrin rəhbərliyi hiss olunur. Yerli əhalidən seçilməyə çalışan diaspor nümayəndələri sosial-iqtisadi, ictimai-siyasi, təhsil və sair sahələrdə aktiv fəaliyyət göstərirlər. Əvvəlki illərdən fərqli olaraq çinlilər daha irqi ayrı-seçkiliyə məruz qalmırlar. Çinli gənclər zaman-zaman digər millətdən olan qızlarla ailə qururlar. Amerika vətəndaşı olmaq istəyən gənclər ağsaqqallar tərəfindən qoyulan qayda-qanunlaraqismən riayət edir.

Çin diasporu əvvəllər özlərinin müdafiə məqsədi ilə yaratdıqları baryerlər bu gün özlərinə də maneçilik törədir. İctimaiyyətdə adaptasiyada əngəlliklərlə üzləşən çinlilər sosial proqramlarda passivliklərini hiss edirlər. Çin diasporunun müəyyən hissəsi bilərəkdən asimlyasiya olunmaq üçün Çayntaunlardan köçür. İri binalarda yaşayır, sosial xidmətin bütün sahələrində aparıcı qüvvə olmağa çalışırlar.Həm də bu əfsanələr hələ də açılmamış qalır. Çin diasporu ilə iş isə ÇXR tərəfindən yüksək səviyyədə aparılır, desək yanılmarıq. Ümumilikdə götürsək, ÇXR-in diasporla iş siyasəti 4 əsas prinsip üzərində qurulub.

**a. Tarixi vətənə sevgi və məhəbbət hisslərinin çoxalması və itirilməməsi.**

**b. Xaricdə yaşayan bütün çinlilərin Çinin material və mədəni inkişafı quruculuğunda iştirakını təmin etmək.**

**v. Tayvanın vətən sərhədləri i çərisinə tezliklə qatılması prosesini sürətləndirən işlərə böyük yer ayırmaq.**

**d. Çinin maraqlarını xarici ölkələrdə müdafiə etmək.**

Bu əsas prinsipn və digər konsepsiyaların həyata keçirilməsi Çinin aşağıdakı orqanlarına çiyinlərinə düşür:

*1. Ümumçin xalq nümayəndələri məclisinin xarici çinlilər üzrə komissiyası* -

Xalq Nümayəndələr Məclisinin nəzdində daimi orqan olan komissiya əsasən çin diasporunun problemlərini öyrənmək və xüsusi dövlət qanunlarının işlənib-hazırlanmaq işi üzrə paralel olaraq xaricdə yaşayan çinlilərin hüquqlarını müdafiə etməsi ilə məşğul olur. Çinin dövlət qeyri-hökumət təşkitaları və digər müvafiq orqanları ilə əlaqə quran komissiya əsas təşkilat sayılır.





*2. Çin xalq respublikasının dövlət apparatı yanında xarici çinlilərlə iş üzrə idarə* -İcraedici qanun olan idarə dövlətin diasporla işini hazırlanaraq, aparılması iləməşğul olur. ÇXR-in müvafiq qurumlarının işinə nəzarət edən idarə dövlət konsepsiya və siyasət işinin icrası ilə məşğul olur.

3. *Xaricdən remeqrantlar və Çin diasporunun ümumçin federasiyası* - kütləvi təşkilat hesab olunan federasiya Çin diasporu və mühacirlərlə birbaşa əlaqə quran əsas orqandır. Dövlət siyasətinin xaricdəki çinlilər arasında tətbiq işinə cavabdeh olan federasiya Çinə qayıtmaq istəyən vətəndaşlara hüquq və mənəvi dəstək olur.

Çinin diasporla işi iki əsas istiqamətdə; daxili və beynəlxalq aspektdə qurulub.

Daxili:

1.Xarici çinlilərin sosial müdafiəsi və dövlət sığortası ilə təmin olunması.

2.Milli iqtisadiyyata kapital qoyan xarici çinlilərin investisiya və kapitalının müdafiəsi, ÇXR-ə xaricdən pul köçürülməsinə əlverişli şərait yaratmaq.

3.Xarici çinlilərin ÇXR-in ali və orta məktəblərinə qəbul olunması qohum-əqrəbalarının və özlərini ÇXR-ə sərbəst gəlib-getməsini təmin etmək.

Beynəlxalq:

I. Birləşmək və qarşılıqlı əməkdaşlıq.

II. Diasporun qanuni hüquqlarının müdafiə edilməsinin təmin etmək.

III. Məskunlaşdıqları ölkələrin vətəndaşları ilə dostluq münasibətlərini qurulması.

IV. Tarixi vətənlə əlaqəni itirməyərək Çinin qüdrəti üçün birgə fəaliyyət.

## ƏDƏBİYYAT

1. С.Н.Севастьянов, Н.Е.Корсакова «"Позолоченное гетто" - Очерки о жизни в США эмигрантов из Китая, Кореи и Японии.» Москва.1963.

2."История и культура Китая". Москва 1924

3. О.Р.Лайгнер "Из истории Китайского эмиграционного движение" (Средина XIX - начало XX в) Москва 1992

4. Pierre Georgi "Geopolitigue Des minorites" Paris. 1984

5. Чан Хань "Китайская етническая община во Вьетнаме: проблемы и тенденции эволюции с конца XIX до конца XX в" Москва. 1999

6. SEK Pei Lim "A case study of Chinese diaspora in Malaziya and SouthEast Asia". Pekin 1999

7. В.И.Бирюков "Китайцы в США – и амеркано-китайские отношение совеpеменом этапе". Москва 1963

7. "США Социально экономический аспекти имиграции". Москва.1982

8. Tracy C.I, Tracy D.N "The Chinese diaspora and Mailnland China" San-Fransisko.1996

9. Malduyn Allen «Somes American Immigration» Chicaco1992

10. Баграмов А.А. "Иммигрaнть в США" Москва. 1958

11. Богина Ш.А. "Иммигрантское население США" Ленинград 1974

12. Шамшур О.В. "Золотые двери иммиграции". Что кроется за ними?" Харков 1982

13. "Cninese in USA". www.huaren.org





## RUS DİASPORU

Rus diasporu dedikdə ilk növbədə olaraq dünyanın bir çox ölkəsində formalaşan böyük diasporun tərkib hissəsinə diqqət verilməlidir. Uzun müddət xaricdəki Rus diasporu deyiləndə bura böyük imperiyanın təbəələri olan ukraynalı, belorus, azərbaycanlı, tatar, çuvaş, gürcü, moldavan, polyak, yəhudi və s. etnik xalqlar da daxil olmaqla rusların ümumi icması nəzərdə tutulurdu.Rus təbəələrinə, Sovet vətəndaşları kimi yanaşma hal-hazırda müstəqil olan dövlətlərin diaspor tarixində ciddi əngəlliklər yaradır. Lakin Son illərdə Rusiyanın özündə diaspor mövzusunun tanınmış tədqiqatçıları - MDB ölkələri institutunun direktoru K.Zatulin, Rusiya XİN - Dünya Diasporu bölməsinin rəhbəri T.Poloskova, Rusiya Elmlər Akademiyasının əməkdaşı A.Vişnevski, Geosiyasət Araşdırmalar Mərkəzinin direktoru V.Kolosof, A.Pronin, S.Qardirovski və digərləri Rus diasporu anlayışına etnik ruslar mövqeyindən yanaşmağı məqbul sayırlar.

Bu kitabda Rus diasporunu tədqiq edərkən sırf etnik ruslara aid olan tarixi, siyasi və müasir hadisələrə diqqət verilir. Bununla rus imperiyası və Sovetlər Birliyinə daxil olmuş dövlətlərin diasporlarının ayrıca tədqiq edilməsinə zəmin yaranır.

XVIII əsrin sonu XIX əsrin əvvəllərinə qədər Rus mühacirəti intensiv xarakter daşımırdı. Lakin dünyada baş verən ictimai-siyasi proseslərə Rusiya imperiyasının yaxından qoşulmasından sonra rusların dini, iqtisadi və siyasi səbəblərlə yaxın və uzaq bölgələrə mühacirəti kütləvi xarakter aldı. Pravoslav dinin yayılması, kilsə xadimlərinin anti din çıxışları zamanı könüllü və zorən başlanan mühacirət əsasən balkan ölkələrinə və Şərqi Avropaya idi. Çar dövründə ölkədə iqtisadi vəziyyətlə əlaqəli başlanan mühacirət prosesi Avropa və Amerika ölkələrinə aid idi. Siyasi baxış və mövqelərinə görə ruslar əsas etibarı ilə Avropada məskunlaşırdılar. Lakin zamanla Amerika qitəsinə köçənlərin sayı olduqca artırdı. Rusiya isperiyasının ərazısı genişləndikcə yeni ərazilərə köçən ruslar tarixi-sərhəd dəyişiklikləri nəticəsində geri qayıtmamış, lakinburada səpələnərək yayılmışlar.

1860-80-ci illər arası Rusiya imperiyasının 500 min vətəndaşı xarici dövlətlərə köçürdülər ki, bunların 200 mini ruslar idi. Yaxın və Orta Şərq, Amerika dövlətləri, Avropa, Çin, Yaponiya, Avstraliya, Koreya rusların mühacirət etdikləri əsas dövlətlər idi. Ancaq Balkanlar və Baltikyanı dövlətlərdə rusların artıq bu tarixdə icmaları formalaşmışdı.

İqtisadi və dini mühacirət nəticəsində xarici dövlətlərə köçən ruslar diasporun təməlini qoya bilməsələr də icma halında formalaşa bildilər. Lakin Rus absalyutizminin formalaşdığı dövrdə (XVII-XVIII əsrlər) siyasi mövqelərinə görə intellektual-elita və siyasi xadimlərinin Rusiyadan köçərək rusların çoxsaylı olduqları ölkələrdə məskunlaşması diasporun formalaşmasına təkan

verdi. Ancaq işlər XX əsrin əvvəllərinə qədər passiv halda aparılırdı.Xaricdəki rus icmalarının sosial tərkibi genişləndikcə onların birləşdirilməsi problemlər yaradırdı. Dənizçilər,kəndlilər, fəhlələr, cinayətkarların sayı çoxalması xaricdəki Rus icmaları arasında müxtəlif qanadların yaranmasına səbəb oldu.

Bu kimi qanadların yaranması rusların assimlyasiya olunması prosesini sürətləndirdi. Xüsusilə orta və aşağı silklərə aid olan ruslar məskunlaşdığı dövlətlərə daha tez adaptasiya olunurdu. Assimlyasiya prosesinin bu cürə inkişafına baxmayaraq ruslar içərisində milli ənənə və dil uzun müddət qorunub saxlanıldı. Lakin qarışıq nigah və təbii-bioloji yollaratım yeni rus nəslində assimlyasiyanın daha güclü təsiri hiss olunurdu.Rus diasporunda nəzərə alınacaq bir xüsusiyyət də, diasporun tərkibinin müxtlif zaman ərzində, tarixi-siyasi hadisələr səbəblərlə köçən mühacirlərdən ibarət olunmasıdır. Bu tədqiqatlar 4 dalğaya bölünürlər. Hər mühacirət dalğasının özünəməxsus spesifik cəhətləri, sosial və siyasi statusu, yayılma coğrafiyası vardır. Müxtəlif səbəblər nəticəsində dünyanın bir çox bölgəsinə mühacirət edən rusların mövcud diasporunu aşağıdakı 4 qanadın mühacirləri təşkil edir:

1. *Birinci dalğa bolşevik* çevrilişindən əvvəl və sonra xarici dövlətlərə mühacirət etmiş dvoryanlar, ziyalılar, hərbiçilər və bank sahibləri idilər. "Ağ mühacirət" - adlanan birinci dalğa əsasən Avropa və Çində məskunlaşırdılar. Almaniya,Fransa,Türkiyə, Polşa, Bolqarıstan, Baltikyanı dövlətlər və Çində rus mədəni və dini mərkəzləri yaradan Ağ mühacirlərin təxmini sayı 1,5-2 milyona çatırdı.

**Vətənpərvərlik hissləri - Çar Rusiyasının zadəganlarına xas olan xüsusiyyət.**

**Mühacirət prosesinin təbii reaksiya olduğunu qəbul edərək Vətənə və quruluşa yox, sadəcə müəyyən insanlara şəxsi nifrət.**

**Aid olduqları rus mədəniyyətinin klassik və gözəl cəhətlərinin daşıyıcıları olması səbəbilə qürur hissləri.**

**Vətəndə Sovetlər Birliyi kimi totalitar rejimin hökm sürdüyü dövrdə vətənə hətta turist kimi dönmək üçün real imkanların olmaması.**

Məskunlaşdıqları ölkələrdə yaxşı təmin olunmaqlarına baxmayaraq ağ mühacirlər vətənə nostalji hissləri ilə sıx bağlı idilər. Onların övladları və nəvələri Rus mədəniyyəti və ənənələri ruhunda tərbiyə olunurdu. Rus dili Ağ mühacirlər içərisində tam qoruna bilmədi. Onların nəvələrinin 80% ana dillərini öyrənməyə həvəs göstərmirdi. Birinci dalğanın mühacirlrində uzun müddət aşağıdakı hisslər hökm sürmüşdür:





2. *İkinci dalğaya* II Dünya müharibəsinin başlanmasından tutmuş 1953-cü ilə qədər Sovetlər Birliyini tərk edən mühacirlər aiddir. Bura eyni zamanda müharibə zamanın işğal olunan ərazilərin sakinləri əsir düşərək geri qayıtmaq imkanlarını itirmiş və könüllü olaraq almanlar tərəfə keçib, müharibədən sonra başqa ölkələrə köçən şəxsləri də daxil etmək olar.

II Dünya müharibəsindən sonra - "disrlased rersons" - köçürülən şəxslər içərisində çoxluq təşkil edən Ruslar Fransa, İtaliya, Avstriya və Amerika Birləşmiş Ştatlarında məskunlaşırdılar. Di-Pi adlanan bu şəxslər qaçqın kimi qəbul olunması üçün müvafiq qərar BMT üzvü olan dövlətlərə tapşırıq verildi. Di-Pilərin vətənlərinəgeri dönməsi üçün Sovetlər Birliyinə də müraciət olundu. Lakin onların 70% bu barədə fikirləşmirdilər. Sovet ədəbiyyatında "satqın", "faşist əlaltısı", "xain" kimi adlandırılması onları vətəndə nə gözlədiklərini mühacirlər gözəl bilirdilər. Diasporun əsl qanadı hesab olunan bu şəxslər Sovet rejiminə qarşı narazılıqlarını kəskin bildirirdilər. Elə bu səbəbdən də ABŞ prezidenti Trumenin 1952-ci il 24 mart qərarı ilə "kommunizm əleyhinə mübarizə apardıqları üçün" onlara xüsusi yardım göstərməyə başladı.

Müharibədən sonra Sovetlər birliyinə dönmək istəməyən 800 min Rus diasporlarını formalaşdırmağa başladılar. Ancaq onlar içərisində zadəgan və ziyalı təbəqəsi azlıq təşkil etdiyindən Rus milli kimliyini birinci dalğanın nümayəndələri qoruyub saxlayırdılar.

3. *Üçüncü dalğanı*, rus diasporunun ideoloji-siyasi cəhətdən formalaşmasının təməlini qoyanlar hesab edilirlər. 1960-88-ci illəri əhatə edən bu mühacirət prosesi siyasi xarakter kəsb etdiyindən xaricdəki Rus diasporunun təşkilatlanması və lobbiçilik fəaliyyətinəilk başlayan şəxslər bura aid idi.

Dissdent kimi ölkədən zorla və könüllü çıxan şəxslər məskunlaşdıqları ölkələrdə əvvəlki mühacirət qanadlarının nümayəndələrilə birgə Rus diasporunun təşkilati-siyasi bazasını yaratmağa başladılar. 100 minə yaxın ziyalı-elit təbəqəsinə mənsub olan300 min Rus mühaciri içərisndə seçilməklə Qərbdə böyük nüfuz qazandılar.

Üçüncü dalğanın nümayəndələri əvvəlkilərdən fərqli olaraq senzuraya rayət etmirdilər. Kommunizm əleyhinə kəskin çıxışlar edən bu şəxslərin nəşr etdiyi media orqanları və kitabları hər iki tərəfdə populyarlıq qazandı.

1975-ci il Helsinki aktının qəbul olunmasından sonra "insan hüquqları", "mühacirət etmək hüququ", "yaşayış yerini müstəqil özüntəyinetmə" kimi anlayışlar beynəlxalq hüquq normalarına daxil olundu. Bu akta qoşulan Sovet Birliyi ölkədən mühacirət edilməsi üçün olan senzuranı yığışdırması rejim əleyhdarlarının ölkədən çıxıb getməsinə şərait yaratdı.

Rus diasporunda siyasi fəaliyyətin aktivləşməsində böyük rolu olan üçüncü dalğanın nümayəndələrinin bir hissəsi Sovet rejimi dağıldıqldan sonra vətənə geri dönədərk burada yaşamağa üstünlük veriblər.

4. *Dördüncü dalğa* 1990-cı ilin əvvəllərindən başlayaraq indi də davam etməkdədir. Bu dalğanı tədqiqatçılar əsasən iqtisadi səbəblərlə əlaqələndirirlər. Bu da əsassız deyildir. Yeni mühacirlər olan bu şəxslər öz iqtisadi və maddi durumlarını yaxşılaşdırmaqdan ötrü inkişaf etmiş dövlətlərə köçürlər. Rusiyada hökumət böhranı zamanı çətinliklərlə üzləşən yeni mühacirlər hal-hazırda vətənə geri qayıtmaq barədə düşünmürlər. Bu dalğanın bir hissəsi bilərəkdən assimlyasiya olunmaq məqsədilə xarici dövlətlərə köçərək diaspor işində iştirak etmək istəimrlər. Marginal vəziyyətə düşən yeni mühacirlər "rus kökünü" və "rus mədəniyyəti"ni unutmaq istəmələrinə baxmayaraq ictimaiyyətə çətinliklə adaptasiya ola bilməmələri onların bu işini əngəlləyir.

Yenidənqurma dövrünün mühacirlərinin sosial tərkibi və çalışdıqları işlər də rəngarəngdir. Amerika, Kanada, Avropa ölkələrində qabyuyandan tutmuş ali məktəb müəllimi, biznesmen, incəsənət işçisi kimi çalışan yeni mühacirlər diasporda sosial-psixoloji çətinliklər çəkirlər. Rəyi soruşulan bu şəxslərin 80% vətəni sevdiklərini, lakin heç bir zamangeri dönməyəcəklərini bildirmişlər.

Rus diasporunun müəyyən hissəsində Sovetlər Birliyi dağıldıqdan sonra müstəqillik əldə etmiş Respublikalarda formalaşmışdır. Lakin bunların formalaşması könüllü əsasda deyil, məcburi xarakter daşıyır.İstər-istəməz sərhədlərin dəyişməsi nəticəsində yaşadıqları əraziləri tərk etməyərək vətənə qayıtmayan bu şəxslər diaspor formalaşdırmışlar.

**Rus mədəniyyətinin tarixi abidələrinivə xatirələrin qorunması**

**Kitabxana, muzey və arxiv fondlarını qoruyub saxlamaq**

**Bədii, ədəbi, musiqi mədəniyyətlərinin nümunələrini saxlamaq və təbliğ etmək.**

**Konkurs, sərgi, forum, müxtəlif səpgili görüşlər keçirməklə Rus mədəniyyəti və milli ənənələrini təbliğ etmək.**

**Yaşadıqları ölkələr işə tarizi vətənləri olan Rusiya ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi**

**Rus dilini qoruyub saxlamaq və təbliğ etmək**

**Rus diasporunu hörmətli ictimai-siyasi qüvvəyə çevirməklə ona beynəlxalq status qazandırmaq.**

**Gənc nəslin vətənpərvər ruhda böyüdülməsi**

Hal-hazırda xaricdəki Rus diasporu aşağıdakı istiqamətlərdə fəaliyyət qurub:

Rusiyanın özündə rus diasporuna diqqət 1995-ci ildən artırılıb. Bu tarixdən etibarən müxtəlif qərar və fərmanla xaricdəki rusların hüquqları müdafiə olunurdu. 1995-1999-cu illər arası bu istiqamətdə atılan addımlar təşkilatı





struktur yarada bilmədi. Rusiya XİŞ-i, Dövlət Duması, Nazirlər Kabineti və Prezident aparatında xüsusi şöbələr rus diasporu ilə iş aparır. Rusiyanın maraqlarının müdafiəçi rolunda çıxış edə biləcək diasporun tam Rusiya dövləti ətrafında birləşdirilməsi ciddi əngəlliklər yaradır

1999-cu ilin 17 mayında "Xaricdə yaşayan ruslara münasibətdə Rusiya Federasiyasının dövlət siyasətinin əsas istiqamətləri" haqqında dövlət qanunun qüvvəyə minməsinə baxmayaraq diasporşünaslar burada boşluğun olduğunu bildirdilər.

Bu qanun layihəsində əsasən aşağıdakı istiqamətdə dövlət səviyyəsində Rusiyada iş aparılır:

**Siyasi-hüquqi və informasiya tədbirləri.**

**Diplomatik tədbirlər**

**İqtisadi tədbirlər**

**Sosial və mədəni tədbirlər**

***Rus diasporunun yayılma coğrafiyası***

Baltikyanı ölkələrdə Rus diasporu: - Burada rus diasporu IIDünya Müharibəsindən sonra formalaşıb. 1990-cı ilin əvvəllərində isə buradakı Rus diasporu bir neçə qrupdan ibarət olaraq bu günə qədər öz tərkibini saxlamaqdadır.

1. Bu qrupa daxil olan əsl etnik rusların məskunlaşma tarixi XIX əsrin sonlarına təsadüf edir. Rus diasporunun bu qanadı öz milli-mədəni kimliyini qoruyub saxlayaraq, Rus dilində sərbəst danışırlar.

2. Rus yaradıcı zadəganlarının çoxluq təşkil etdiyi bu qrup hissə-hissə mühacirət prosesi nəticəsində formalaşıb. Lakin azsaylı olmalarına baxmayaraq, böyük nüfuz sahibi olan qrup yüksək ixtisaslı mütəxəsisslərdən ibarətdir. Elitar qrup olan bu qrupa yerli əhalinin böyük hörməti var.

3. Bu qrupun tərkibi mühəndislər, həkimlər, müəllimlər, elmi-tədqiqat mərkəzlərinin əmək adamları daxildir. Bu qrup da zadəgan ziyalılardan təşkil olunmaqla ictimaiyyət arasında sevilirlər.

4. Dördüncü qrup yeni texnologiyalar üzrə yüksək ixtisaslı mütəxəssislərdənibarət olmaqda Baltik dövlətlərinin rəhbərliyinin təşəbbüsü ilə buralarda məskunlaşıblar.

Estoniya, Latviya və Litvada rus diasporunun fəaliyyəti ictimai-elmi sahədə daha aktivdir. Estoniyada Rus diasporuna münasibət ehtiyatla aparılır. Rusiya ilə sərhəd problemi olan Estoniya bir neçə dəfə burada Rus Diasporu Birləşmiş Xalq Partiyası təsis ediblər. Litvada isə ruslar siyasi fəaliyyətlə məşğul olmurlar. Riqada isə rusların sayı digər Baltik şəhərlərində çoxluq təşkil edir.

***Rumuniya*** - Burada rusların məskunlaşması XVIII əsrdən başlayaraq kütləvi xarakter alıb. 1992-ci ildə rusların sayı burada 40 minə çatırdı. Yassı, Vasuliy, Bakey, Qolas, Tuluca, Buxarestdə çoxluq təşkil edən rus diasporu

əsasən kənd təsərrüfatı ilə məşğul olur. Burada 1990-cı ildə Rus-lipovanlar Birliyi yaradılıb. Əsas məqsəd kimi Birlik Ruminiyada etnik rusların hüquqlarını müdafiə etmək və vahid mərkəz ətraflrında birləşdirməkdir. Dobrucanın 11,2% əhalisini təşkil edən Ruslar Ruminiyada bir o qədər də aktiv deyillər.

***Polşa*** - Burada Rus diasporunun sayı 10 minə yaxın olar. Buradakı ruslar əsasən Suvanka, Sokolova, Plotçino. Olesko, Belostoka və s. şəhərlərdə məskunlaşıblar. Polşa rusları öz milli kimliklərini qoruyub saxlamaqdadırlar. Ana dillə sığ bağlı olan Rus disaporunda assimlyasiya prosesi güclənməkdədir. Provoslav rus gəncləri katolik polşa qızları ilə nigaha girib iri şəhərlərə köçürlər.

***Avstraliya-Yeni Zelandiya-*** Bu dövlətlərdə Rus mühacirlərinin məskunlaşması XX əsrin əvvəllərinə təsadüf edir. Sidney, Melburn, Dandenonqedə çoxluq təşkil edən rus diasporunun fəaliyyəti passivdir. Burada müxtəlif peşə sahibləri olan ruslar tez-tez ədəbi gecələr təşkil edirlər. Yeni Zelandiyada dini və milli kimliklərini qoruyub saxlayan rus diasporunun sayı 10 minə yaxındır. Vellinqton, Oklendə çoxluq təşkil edən rusların kilsəsi, məktəbi və rus icması mərkəzi fəaliyyət göstərir.

***Azərbaycan*** - Rusiya imperiyasının Qafqaza işğalçı siyasəti nəticəsində Azərbaycan rus mühacirləri üçün yeni mərkəz oldu. Rus mərkəzi hakimiyyəti tərəfindən təqib olunan malakanlar, duxobarlar və pyidestyatniklər də axışıb Azərbaycana gəlirdilər. Bu səbəbdən də Azərbaycan Zaqafqaziya həmişə rus icmasının sayına görə aparıcı yer tutub.

Artıq 1960-cı ildə Azərbaycandakı rusların sayı 350 minə çatmış idi. Rus diasporu formalaşdıqca rus dili də geniş inkişaf tapırdı. Bakıda çoxluq təşkil edən rus diasporou Serorovski, Bayıl və Razində toplaşıblar. Hal-hazırda Azərbaycanda rus mədəniyyət mərkəzi, rus dram teatrı, slavyan institutu, rus provoslav kilsəsi, rus dilli məktəblər fəaliyyət göstərir.

Rus diasporunun nümayəndəsi M.Zavelin millət vəkilidir. Burada hərtərəfli təmin olunan rus diasporu yerli əhalilə mehriban münasibətdədir. Azərbaycanlılar və ruslar arasında nigah əlaqələri tez-tez baş verir. Rus dilində proqramlar, kino və teatrlar Azərbaycanda yayımlanır. Azərbaycan-Rusiya münasibətlərində ölkəmizdə olan rus diasporunun vəziyyəti müzakirə olunmuş və Zaqafqaziyada yalnız Azərbaycanda rus diasporunun yaşayış mərkəzi yüksək qiymətləndirilmişdir.

Hal-hazırda Fransa, Almaniya, Çin, Latın Amerikası, Şərqi Avropa, Balkanlar və digər dövlətlərdə rus diasporları fəaliyyət göstərir. Lakin Amerika Birləşmiş Ştatlarında rus diasporunun sayı, geniş masştablı fəaliyyəti, məskunlaşma tarixi digərlərindən fərqlənir.

***Amerika Birləşmiş Ştatları*** - Amerika qitəsini kəşf edilməsində İspaniya, Portuqaliya, İngiltərə, Hollandiya və Fransa ilə yanaşı Rusiyanın da





xüsusi rolu olmuşdur. Asiya tərəfdən Amerika qitəsini kəşf edən ruslar 1732-ci ilin 11 avqustunda bura daxil olan İvan Feodorov və Mixail Qvozdev idi. Daha sonra 1741-ci ilin iyun ayında "Yeni Dünya"da məşhur Vitus Berinq və Aleksey Çirkovun ekspedisiyası Amerikanın Şimal-Qərb sahillərinin müəyyən hissəsini və Aleut adalarının bir çoxun kəşf etmişlər.

Amerikanın mərkəzi hissəsində məskunlaşan ilk ruslar barədə müxtəlif fikirlər var. 1760-70-ci illər arası bir dəstə rus dənizçisi Amerika vətəndaşlığın almaq üçün hökumətə müraciət edib. Bir faktda isə 1737-ci il Rus-Amerika kampaniyasının verdiyi məlumata əsasən Amerikada 11.022 rus var idi ki, onların əksəriyyətini dənizçilər, tacirlər təşkil edirdi.

Rusların Amerika İstiqlaliyyət müharibəsində İngiltərə və Fransaya qarşı vuruşması faktları hələ də Amerika arxivlərində qalır. Amerikaya Rus mühacirəti kütləvi xarakteri XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf edir. 1890-1914-cü illərdə Amerikaya ağ mühacirlər bura könüllü olaraq köçürdülər. Onlar burada işləyib pul qazanmaq və imkan düşsə vətənə qayıtmaq barədə düşünürdülər. Lakin bu zaman ruslara münasibət bir o qədər də yaxşı deyildi. Ancaq 1918-23-cü illərdə bolşevik çevrilişindən sonra gələn yeni rus mühacirlərinə münasibətdə ictimaiət dostluq mövqeyində idi. Di-Pilər, üçüncü dalğanın mühacirləri Amerikada dövlət səviyyəsində qayğı göstərilirdi. "Kommuniz qaçqınları" - adlandırılan Di-Pilər birdən-birə düşdükləri mühitə adaptasiya ola bilmirdilər. Sosial-mədəni öyrəşmə prosesin keçən rus mühacirləri 3 istiqamətdə Amerika ictimaiyyətinə adaptasiya olmağa çalışırdılar:

I. Amerika mədəniyyətini tezliklə qəbul etmək və assimlyasiya olunmaq.

II. Amerika mədəniyyətini rədd edərək, öz milli kimliklərin və mədəniyyəti qorumağa çalışırdılar.

III. Hər iki mədəniyyəti qorumaqla əsl Amerika rüsuma çevrilmək.

1940-cı ilin məlumatına görə 33 min rus kənd təsərrüfatı rayonlarında məskunlaşmışlar. Mərkəzi Qərb ştatlarında Rusdiasporu formalaşaraq yalnız iqtisadi işlə məşğul olurdular. Onların ukraynalılarla birgə əkdikləri "Kubinka", "Arnautka", "Krımçatka" - dən növləri Amerikada geniş tələbata malik idi. Rus diasporu burada provoslav dinini təbliğ etmək məqsədilə missionerlik də edirdi. Malakan və duxobarlar isə Amerikanın iri şəhərlərində məskunlaşaraq öz icmalarını qurublar. Çikaqodan 800 mil aralıda Su-Siti Koloniyası yerləşir. Buranın 80%-in təşkil edən ruslar zamanla diasporların formalaşdıraraq Su-Sitinin inkişaf etməsində xüsusi rol oynayıblar. Dəmir yolunun çəkilişindən başqa bütün bütün işlərdə çalışan ruslar milli ənənələrini burada saxlamaqla, bayramları xüsusi təntənə ilə qeyd edirlər. Rusların adət-ənənələrinə maraqla yanaşan yerli əhali zamanla ruslarla qarışıq nigaha girirdilər.

Rus provoslav kilsəsi 1990-cı ilə qədər hər 3 əlaqəni,onların sosial strukturlaşmasında yaxından iştirak edirdi. İri rus icmaları Nyu-York, Boston, Filadelfiya Pittsburq, Klivlend, Detryot, Çikaqo, Los-Anceles, San-Fransiskoda yarandı. Bu şəhərlərdə rus məhlələri, dükanları, hüquq firmaları yaradaraq diaspor işində aktivləşmə başlandı. Rus kişiləri ingilis dilini öyrənməyə üstünlük verdikləri halda milli ənənələrin qoruyucuları olan qadınlar rus dilini məişətdə istifadə edir və övladlarını ana dilinə öyrədirlər. Lakin zamanla yeni mühitə uyğunlaşan qadınlar amerikanlaşaraq köhnə ənənələri unudurdular.

Amerika məktəblərində oxuyan rusların övladları valideynləri kimi iki dilin - rus və ingilis dillərinin daşıyıcıları deyildilər. Hal-hazırda birinci və ikinci dalğanın ardıcılları rus dilində çətin danışır və ya tamamilə rus dili onlar üçün yaddır.

İlk əvvəllər rus qadınlarının az olması səbəindən ruslar digər slavyan qruplarla - polyak, ukraynalı və s. ilə nigaha girdiklərindən müasir rus diasporunda etnik müxtəliflik var.

Rus diasporunda həmvətənlərə edilən kömək nəticəsində yüzlərlə gənc ali təhsil alaraq özlərinə karyera qura biliblər. Çox zaman amerikanlaşan övladlarla Rus kimliyini qoruyub saxlayan valideynlər arasında münaqişələr baş verir. Valideynlərini köhnə fikirlikdə ittiham edən övladlar evləri tərk edib müstəqil yaşayır və diaspor işinə ciddi fikir vermirlər. Bəzi hallarda yeni rus nəsli öz mənsubiyyətini danaraq "amerikalı" olmalarını fəxrlə bildirirlər.

Rus diasporunun yeni dalğalarını yaxına buraxmayan ilk mühacirlərin nəvə-nəticələri Rusiyaya belə gəlmək istəmirlər. Bir çox rus diasporşünası bunu əsl faciə hesab edərək onlarla ciddi işləməyi vacib hesab edirlər.

Amerikada Rus diasporunun formalaşmasında isə üçüncü dalğanın mühüm rolu barədə yuxarıda qeyd etmişdik. Məhz bu dalğanın apardıqları məqsədyönlü iş nəticəsində təşkilatlanma və siyasi fəaliyyət Amerikada xeyli sürətləndi. Rus lobbisi zəif olsa da fəaliyyətə başladı. Sovetlər Birliyinə qarşı yaranmış Rus lobbisi 1990-cı ildən sonra öz fəaliyyət sahəsini dəyişməsi nəticəsində əvvəlki dəstəklərini itirib. Bu gün üçün Rus lobbisinin fəaliyyətini passiv halda görmək olar.

Rus diasporunda aparıcı yerdə olan ziyalı və elm xadimlərinə Amerikada geniş imkanlar yaradılıb. Hətta Rusiyadan "Beyin axını" planı əsasında xeyli alim Amerikaya yaşamağa dəvət alıb.

Amerikada ruslar əsasən bir-birlərinə yaxın halda yaşayırlar. Manhettendə 96-cı küçədə yerləşən Rüstaunda rus ənənələri hiss olunur. Bu rus taunlarda əsasən inqilabdan sonra Amerikaya köçən mühacirlər yaşayırlar. Rüstaunun sakinləri elektrik, işıqçı, qaraj işçisi, şvetsar və digər vəzifələrdə çalışırlar. Buranın sakinləri rus mediasını oxuyur, rus kabel kanallarına baxır, rus





restoranlarında yemək yeyirlər. Diasporun əsas nümayəndələri rus taunların sakinləridir.

Birləşmiş Ştatlarda Rus diasporunun assimlyasiya olunmayaraq öz milli kimliklərini qorunub saxlanılmasında rus dilli Kütləvi İnformasiya Vasitələrinin xüsusi rolu var. Bu KİV orqanlarında Rus diasporunda və Rusiyada baş verən proses və hadisələr barədə məlumatlar verilməklə rusların həyat tərzinə böyük diqqət verilir.

ABŞ-da populyar olan KİV orqanlarından aşağıdakıların adını çəkmək olar:

'Qəzetlərdən "Panorama", "Vzqləd", "Russkaə jizñ", "Mı i Amerika", "Kontakt", jurnallardan "Fakt", "The Russian", "Russkaə Amerika"

KİV orqanlarından əlavə ABŞ-da diaspor təşkilatları mədəni, dil və digər sahələrdə öz fəaliyyətlərini aktivləşdiriblər. Amerika hökuməti tərəfindən rəsmən tanınan bir neçə diaspor təşkilatı var ki, onlar iki tərəfli əlaqələrin inkişaf etməsində yaxından iştirak edirlər. Rus diasporu nəticəsində fəaliyyətinə və üzvlərinin sayına görə aşağıdakı təşkilatlar seçilir:

1. **Birləşmiş Rus Pravoslav Klubları** - 1927-ci ildə təsis olunub. 13 ştatda şöbəsi olan təşkilatın əsas fəaliyyətinə təbliğbat və dini görüşlər daxildir. Xeyriyyə, mədəni, ictimai işlərlə əlaqədar tez-tez müxtəlif görüşlər keçirən təşkilat bülleten nəşr edərək diasporda yayır.

2. **Tolstoy adına Fond** - Birləşmiş Ştatlarda 6 regional şöbəyə malik olan Fond diasporda böyük nüfuza malikdir. Sovetlər Birliyindən və Rusiyadan son zamanlar köçən rus mühacirlərilə sıx əlaqəli olan Fond rusların Amerikaya adaptasiya olunmasına yardımçı olur.

3.**San-Fransiskoda Rus Mərkəzi** - 1939-cu ildə təsis olunan mərkəzin zəngin kitabxanası və muzeyi var. Ağ mühacirlərin nəvə-nəticələrini ətrafında birləşdirən Mərkəz "Russkaə jizñ" jurnalını himayə edir. Mərkəz mədəniyyət-incəsənət sahəsində fəaliyyət göstərir.

4. **Amerika Ruslarının Konqresi** - 1973-cü ildə yaradılmışdır. Konqres birinci və ikinci dalğanın nümayəndələri tərəfindən təsis olunub. 30 ştatda bölməsi olan Konqres rus mədəni irsinin qorunub saxlanılması, rusların hüquqi-siyasi hüquqlarının qorunması, onların maraqlarını müdafiə etməyi qarşısına məqsəd qoyub. Amerika və Rusiya arasında ikitərəfli əlaqələrin inkişaf etməsi üçün çalışan Konqres digər diaspor təşkilatları ilə əlaqədar qurulmuşdur.

Adları çəkilən əsas təşkilatlardanbaşqa Birləşmiş Ştatlarda "İmperiya Orden İttifaqı "Ümumi Kazak Birliyi", "Rus skautlar Birliyi" və digərlərinin adını çəkmək olar.Göründüyü kimi, rus diaspor təşkilatları digər etnik diasporlardan fərqli olaraq siyasi fəaliyyətlə az məşğul olurlar. Əsasən iqtisadi, sosial, mədəni və dini işlərlə fəaliyyət göstərən diaspor təşkilatlarının lobbiçilik üçün strukturu yoxdur.

Bu gün Amerika ruslarının qarşısında iki əsas vəzifə: Rus dilinin qorunub saxlanılması və assimlyasiya olunmamaq durur. Rus diasporunun rəhbərliyi bu barədə tədbirlər görməsinə baxmayaraq rus gənclərinin amerikanlaşmasının qarşısını almaq mümkün deyil. Rusiyanın özündədövlət və elm səviyyəsində ciddi olaraq səhvlərə yol verilməsinə baxmayaraq müsbət işlər də görünməkdədir. Son 8 ildə diaspor problemini tədqiq edən alimlərin sayının Rusiyada artması xaricdə yaşayan rusların vəziyyətinə diqqət yetirilməsini göstərir. Amerikadakı Rus diasporunun etnik-mədəni irsinin qorunub saxlanılmasında kilsə ilə yanaşı məşhur rus şair və yazıçıların adının fetişləndirilməsi də xeyli kömək edir. Puşkin, Qoqol, Tolstoy, Çexov və digər məşhur şəxslərin adı xaricdə yaşayan hər bir rus üçün məna daşıyır. Rus diasporunun zamanla dünyanın aparıcı diasporu sırasına daxil olmasına geniş şans və imkanlar var.





## ƏDƏBİYYAT


1. "Этнографические обозрение". N 6 1982
2. «Русские» - М.1993
3. Джон Гиел "Беседь в изгинание". М.1991
4. Журнал "Русская Америка".- N2-3, М.1999
5. Журнал «Диаспоры». N2-3. 1999
6. Диаспоры менаяшемся мире - www.glasnet.ru
7. Федеральный закон о государственном политике РФ в отношении Соотечественников зарубежом. М.1999
8. Журнал "Свободная мысль" XXI" N10, 2002
9. Русская Строобрядеская диаспора в странах дальнего зарубежие-www.sturoob.ru
10. Sosial siyasi problemlər toplusu. N5. B-2000
11. И.К.Бахховитинов "Россия открывает Америку" 1932 1799. М-1991
12. В.П.Петров "Русские в истории Америки" Владивосток 1968
13. Журнал: "США-Канада - Экономика, политика, культура."N9,2001
14. А.А.Баграмов "Иммигранты в США" М.1956
15. Г.Б.Башкырова, Ф.Б.Василиев "Путешествие в Русскую Америку". М-1990
16. Russan Organization in USA: www.russian-amerika.org
17. Т.Полоскова "Современные диаспоры: Внутриполитические и международные аспекты"М.1999
18. Филиппов С.В. США:иммиграция и гражданство, политика законодеятельства"М.1971

# NƏTİCƏ

XX əsrin əvvəllərindən ta bu günə qədər xüsusilə intensiv şəkildə davam edən xalqların tarixi inkişafının səviyyəsi, və istiqamətlərilə sıx bağlı olan mühacirət prosesinin özünün say-demoqrafik və kəmiyyət göstəriciləri baxımından həqiqətən də böyük diaspora malik olan Azərbaycan Respublikası, Azərbaycan diasporu və ümumilikdə diaspor anlayışı hansı baxış sistemi əsasında aydınlaşdırılmasında çətinlik yaratmış və bu barədə məlumatsızlıq üstünlük təşkil edir. Diaspor icmaları, onların problem və çətinlikləri, sayı, tərkibi, müsbət və mənfi cəhətləri, üstünlük və çatışmazlıqları, diaspor-dövlət münasibətdəki mövqeləri, fəaliyyət və təşəbbüsləri, ictimai-siyasi baxışları və s. mühüm məsələlər barədə solğun obyektiv analitik xarakterli elmi nəzəri informasiyadan əslində məhrum olunmuş vəziyyətdədir. Diasporun öyrənilməyə başlanılması dünya dövlətlərinin öz diasporları ilə bağlı gördüyü işlər diaspor vasitəsi ilə iri dövlətlərin siyasi kursunu dəyişməklə dövlətin xarici siyasət sahəsindəki görmədiyi işi diaspor vasitəsi ilə həyata keçirilməsi təcrübəsindən bizdə də öyrənilməyə başlanması, diaspora doğru dövlət tərəfindən atılacaq bütün addımlar dövlət diaspor münasibətlərini normalaşdıra bilər. Bu isə hər iki tərəf üçün arzunan bir addım olmaqla diasporumuzun işini ciddi bir təkan kimi qiymətləndirmək olar. Bu gün nəhəng bir diaspora malik olan Azərbaycan Respublikası bu günə qədər müəyyənləşdirə bilməyib ki, xaricdə diasporumuzu formallaşdıran həmvətənlərimizdən nə tələb edir və onlara nə təklif edə bilər. Ümumdünya səviyyəsində Azərbaycan dövləti diaspora necə münasibət bəsləyir?

Geopolitik məkanda və bizim üçün əhəmiyyətli olan dövlətlərdə məskunlaşan diaspordan informasiya, mədəni, iqtisadi, siyasi və s. məqsədlərlə istifadə edilməlidir. Azərbaycanlıların qabaqcıl və vətənpərvər intellektual təbəqəsi tərəfindən milli maraqlarımızın ayrı-ayrı elementləri kimi, diasporu həm daxildən, həm də öz dövlətləri ilə möhkəm şəkildə yaxınlaşdırıb birləşdirən ortaq (müştərək) milli mənafe nöqtələri kimi dərk olunmalıdır.

Beynəlxalq münasibətlər sistemi diasporu özündə siyasi, mədəni, cəmiyyətlər, birliklər və s. birləşdirən institutlaşmış funksional tərkib kimi qəbul edir. Hər bir dövlət qarşısında diasporu etnomədəni fenomen kimi saxlanılması məqsədi qoyaraq siyasi funksiya kimi də ondan istifadə etməkdə diasporun tarixi vətənləri ilə əlaqələrinin möhkəmləndirilməsi strategiyasının formalaşdırır. Dövlət mütləq diaspor ilə işləməlidir, baxmayaraq ki, rəsmi surətdə proqram və konsepsiya yoxdur. Ermənistan, İsrail, Çin və bir çox dövlətlərin ABŞ-ın dövlət səviyyəsində xarici siyasətinə təsir etmək qüvvəsi yoxdur, ancaq qeyri-rəsmi olaraq diaspor vasitəsi ilə buna təsir edə bilər və edir. Bunun üçün diaspora daxil olan sosial, maliyyə, ideoloji və dini strukturların fəaliyyətinin genişlənməsi və güclənməsi xüsusi əhəmiyyət daşıyır. Dövlət diasporla bağlı iki cür siyasət yeridə bilər.

1) Elə siyasət yeridə bilər ki, bu siyasət nəticəsində diaspordan əsər-əlamət qalmaz. Misal olaraq Rusiya ilə yaxın olan Finlandiyadan etnik rusları göstərmək olar. Buradakı ruslar tam assimilyasiyaya məruz qalmış və bunun qarşısını Rusiya ala bilməmişdir.

2) Diaspor anlayışını ümumiləşdirilmiş bir məfhum kimi məhz mahiyyətini, probleatik tərəflərini, daha çox məhz tarixilik prinsipləri nöqteyi-nəzərindən izah edərək diaspordan etimoloji yanaşma üsulu vasitəsi ilə istifadə edə bilər.

Dövlət-diaspor münasibətlərinin güclənməsinin bir çox mühüm faktorları vardır və bu faktorlar diaspor siyasətində əsas götürülməsi və vacib olan həmin birləşdirici faktorlar əsasən aşağıdakılardır.

Vahid milli mədəniyyət amili. Müstəqil dövlətçilik və milli-siyasi azadlıq amili. Tarix, din, kültür və soykökü birliyi (eyniyyti) aimli. Demokratiya və insan haqları (o cümlədən milli huquqlar) uğrunda mübarizə, eləcə də milli zülmə və avtoritarizmə qarşı müqavimət amili. Milli faciələrin məhz diasporda öz faciələri kimi qarşılanıb həmrəyliyin açıq şəkildə ifadə olunması amili. Dövlətlərin mənəvi himayədarlığına daim ehtiyac amili və s.

Bunların müqabilində isə adını çəkdiyimiz destruktiv ayrıcı amillər, məsələn, vətəndaşlıq asılılığının olmaması, yəni öhdəsizlik, məlumatsızlıq və informasiya boşluğu dövlətinə dərindən bələd olmamaq faktoru, fərqli sosial-siyasi təcrübə və dəyərlərin mövcudluğu faktoru və s. çox-çox zəif və ötəri görünür.

Bəs Azərbaycan diasporu hansı problemlərlə üz-üzə qalıb? Əlbəttə, bunun aydınlaşdırılması çox vacibdir və indinin özündə də işin özündə aşkar olan bir çox problemləri vardır.

**Ciddi milli mədəniyyət və dil böhranı - bu cür kültür böhranı hallarının mövcud olmasının əlamətidir ki, xaricdəki həmvətənlərimizin böyük əksəriyyətinin Azərbaycanın mədəniyyəti, tarixi, dili, ədəbiyyatı, incəsənəti və varlığı haqqında geniş məlumatı yoxdur.**

**Mühüm problemlərdən biri də diasporumuzun Azərbaycan və buradakı proseslər barədə həm analitik, həm də cari informasiya kanallarından məhrum olmalarıdır. Bu isə diasporun çevikliyini, operativliyini və özünəinamını azaldır, əvəzində isə qeyri-müəyyənlik hallarını və tərəddüdlərini gücləndirir.**

**Üçüncü problem ikmi diasporumuzun müəyyən bir təbəqəsinin sağlam milli şüur və milli dövlətçilik təfəkkürü defisiti ilə üzləşməsini göstərmək olar. Onların bir çoxu dilemmalar qarşısında qalmışdır və öz mövqelərini hələ də konkretləşdirə bilməyiblər.**

**Dördüncü mühüm problem isə bütün diasporlarda nəzərə çarpan klassik icmadaxili konfliktlərlə bağlıdır. Azərbaycan diasporunda olan belə konfliktlər iki formada mənəvi-psixoloji atmosferin ziddiyyətli olması və şəxsiyyətlər və qruplararası münasibətlərin problemlərinin ön planda dayanması şəkilində təzahür edir. Ümumi dövlətçilik işi naminə mütləq Azərbaycan diasporunda olan liderlik uğrundakı kəskin rəqabət hallarının yığışdırılması lazımdır.**

Azərbaycan diasporunun qarşısında duran milli-ictimai fəaliyyət və təşəbbüslərin gücləndirilməsi iki əsas məqsədə - həm özünütanımaq, milli kökünə və milli varlığına sahib olmaq, azərbaycançılıq məfkurəsini mənimsəmək, həm də Azərbaycanı başqalarına tanıtmaq və onu xaricdə təbliğ etmək məqsədlərinə xidmət edir. Bu təşəbbüslərin indiyə qədər dünya diasporlarının təcrübəsinə nəzər yetirsək, bizim üçün də əhəmiyyətli olan 5 əsas forması müşahidə edilir:

- Xaricdə mədəni-kütləvi tədbirlərin keçirilməsi.
- Maarifçilik və təbliğatçılıq işinin gücləndirilməsi, kütləvi anti-Azərbaycan dairələrinin xüsusi ilə ermənipərəst qüvvələr və s. qrupların bizim ölkəmizə qarşı yönəlmiş ideoloji-siyasi hücum və təzyiqlərinin neytrallaşdırılması və belə qüvvələrə qarşı əks-kəskin təzyiq və ideoloji-siyasi cəbhənin açılması.
- Qarabağda davam edən ədalətsiz müharibəyə qarşı etiraz əlaməti olaraq Qərb ölkələrinə siyasi etiraz aksiyalarının təşkili aə bu müharibənin aparılmasında ermənilərin təcavüzkarlığının isbata yetirilməsi.
- Azərbaycana humanitar yardımın təşkili - bu məqsədlə güclü Azərbaycan lobbisinin yaradılması konqresin biabırçı və ölkəmizin siyasi və iqtisadi maraqlarına zidd olan "Azadlığa yardım aktına 907-ci əlavənin" ləğvi istiqamətində Bakı-Vaşinqton əlaqələrinin bütün parametrlər üzrə tərəqqisini genişləndirərək, Azərbaycan-ABŞ münasibətlərindəki sezilən boşluğu doldurmaq və ikitərəfli əlaqələr tapmaq və bütövlük gətirilməsinə çalışmaq. Bu məqsədlə aşağıdakı vasitələrdən mütləq istifadə edilməlidir.

A) ABŞ-da Azərbaycan diasporu və lobbisini formalaşdırmaq soydaşlarımızın ictimai-siyasi fəallığı və mütəşəkkilliyinin artırılması istiqamətində əməlli tədbirlərin görülməsi. ABŞ-da respublikamızı müdafiə edə biləcək güclü neft lobbisinin yaradılmasına xüsusi diqqət verilməlidir.

B) ABŞ-ın güclü yəhudi diasporu və lobbisi ilə sıx əlaqələrin qurulması istiqamətində konkret addımlar atılmalıdır. Bu məqsədlə keçmiş Azərbaycan





yəhudilərinin və onların işgüzar adamlarının ölkəmizə marağının artması istiqamətində müəyyən güzəştlər edilməlidir.

S) Respublikamızda professional diplomat kadrlarının və diaspor və lobbi sahələri üzrə güclü mütəxəssislərin hazırlanması və onlara bu işdə geniş imkanların verilməsi.

Beləliklə, Azərbaycanın üzləşdiyi böyük problemlərin beynəlxalq səviyyədə həll olunması və dünyanın bir çox dövlətləri, xüsusi ilə ABŞ-la sıx əməkdaşlıq və perspektivdə müttəfiqlik münasibətlərinin qurulması yolunda kifayət qədər nəhəng bir qüvvə olan diasporumuzdan yüksək səviyyədə istifadə edilərək onun Azərbaycan dövləti faktoruna doğru yönəldilməsi vacibdir.

## ƏLAVƏ 1
## Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Bu il ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisə – Azərbaycanın dövlət müstəqilliyinin 10-illik yubileyi geniş qeyd olunur. Azərbaycan Respublikası Prezidentinin 20 mart 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümünə həsr edilən tədbirlər planı təsdiq olunmuş və onun həyata keçirilməsi üçün ölkəmizin bütün guşələrində əməli işlər aparılır. Azərbaycanın onillik müstəqil inkişaf yolunun təhlilinə həsr olunmuş elmi simpozium və konfranslar keçirilir, bu müddət ərzində əldə olunmuş nailiyyətləri əks etdirən sərgilər, kinofilmlər nümayiş etdirilir, çap məmulatı hazırlanır, müxtəlif kütləvi tədbirlər təşkil edilir.

Bütün obyektiv çətinliklərə, bu və ya digər problemlərə baxmayaraq, tarixi baxımdan olduqca qısa bir müddət – on il ərzində xalqımızın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunub möhkəmləndirilməsi, demokratik hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin yaradılması, ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi sahələrində qazanılmış nailiyyətlər Azərbaycanın intensiv inkişaf dövrünə qədəm qoymasına imkan yaratmışdır. Bu gün qətiyyətlə demək olar ki, Azərbaycanda artıq sosial-iqtisadi inkişafın yeni mərhələsinin möhkəm təməli qoyulmuş və ölkəmiz müstəqil inkişaf yolu ilə inamla irəliləyir. Azərbaycan müstəqil dövlət kimi bütün dünyada tanınır və dünya birliyində öz layiqli yerini tutur. Müstəqilliyimiz sarsılmaz, dönməz xarakter almışdır.

Müstəqil inkişaf yolunda atılmış hər bir uğurlu addım, əldə edilmiş hər bir qələbə xalqımızı azad, müstəqil Azərbaycanın xoşbəxt gələcəyinə dərin nikbinlik və böyük inamla baxmağa rühlandırır, ona yeni güc, qüvvət verir. Azərbaycan Respublikasının hər bir uğuru dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bütün həmvətənlərimizin də qəlblərində böyük qürur və iftixar hissi doğurur. Bütün dünya azərbaycanlılarının əcdadlarının məskəni, tarixi vətəni olan Azərbaycan soydaşlarımızın daim diqqət mərkəzindədir.

Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı vardır. Müstəqil Azərbaycan Respublikası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımıza





doğma atalıq duyğuları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirə bilmələri üçün onlara lazımi imkanların yaradılmasına səy göstərir.

Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hal-hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

Öz doğma yurdunda yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənləri ilə həmişə maraqlanmış, onlarla əlaqələr yaratmaq arzusu ilə yaşamışlar. Lakin keçmiş sovet dövlətinin qadağaları bu arzunun həyata keçirilməsinə imkan verməmişdir. Sovet rejiminin zəifləməyə başladığı 80-ci illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 16 dekabr 1991-ci il tarixli qərarı ilə həmin səylərin böyük əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Sonra bu bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etdi. Beləliklə, 1991-ci ildən etibarən Azərbaycanda hamımız üçün əziz bir bayram olan 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü təntənə ilə qeyd olunur. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasət sahələrində fəaliyyəti, əldə etdiyi uğurlar bütün dünya azərbaycanlılarının milli şüurunu, özünüdərkini, ana torpağı Azərbaycana bağlılığını günü-gündən möhkəmləndirir. Azərbaycan icmalarının ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən cəmiyyətləri, klub və dərnəkləri soydaşlarımızın və həmvətənlərimizin təşkilatlanması, səylərinin birləşdirilməsi, onların fəaliyyətinə məqsədyönlü xarakter verilməsi yolunda faydalı iş aparır, məskunlaşdıqları ölkələrdə Azərbaycanı daha yaxından tanıtmaq üçün müxtəlif tədbirlər görür. Bu qurumlar bir-biri ilə, habelə Azərbaycan Respublikasının hökumət və qeyri-hökumət təşkilatları ilə əlaqələr

yaradır, əməkdaşlıq etməyə səy göstərirlər. Müstəqil Azərbaycan Respublikası isə bütün dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün öz üzərinə düşən tarixi missiyanı yerinə yetirməyə çalışır. Həmin yolda bu vaxta kimi atılmış addımların nəticələrinin təhlili göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, müstəqil Azərbaycan Respublikasının həyatının müxtəlif sahələrində meydan çıxan problemlərinin həllində onun fəal iştirakının təmin edilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına xidmət edən mütəşəkkil, sanballı bir qüvvəyə çevrilməsi yolunda hələ çox iş görülməlidir. Belə bir işin məqsədyönlü və uğurlu yerinə yetirilməsi isə ilk növbədə həmin sahədə toplanmış təcrübənin hərtərəfli müzakirə və təhlil edilib müvafiq strateji proqramın hazırlanmasını tələb edir.

Xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi zərurətini nəzərə alaraq qərara alıram:

2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirilsin.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi məqsədilə işçi qrupu yaratsın, iş planı hazırlayıb təsdiq etsin və onun yerinə yetirilməsinə nəzarət etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 may 2001-ci il**





ƏLAVƏ 2

## Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası

| | | |
|---|---|---|
| 1 | **Heydər Əliyev** | Azərbaycan Respublikasının Prezidenti |
| 2 | **Ramiz Mehdiyev** | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri |
| 3 | **Hacıbala Abutalıbov** | Bakı Şəhər İcra Hakimiyyətinin başçısı |
| 4 | **Vasif Talıbov** | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri |
| 5 | **Hidayət Orucov** | Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri |
| 6. | **Yusif Hümbətov** | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| 7 | **Fatma Abdullazadə** | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri |
| 8 | **Əli Həsənov** | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri |
| 9 | **Novruz Məmmədov** | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri |
| 10. | **Əli Abbasov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 11. | **Bəxtiyar Vahabzadə** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 12. | **Cəlal Əliyev** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 13. | **Əli Əhmədov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 14. | **İlham Əliyev** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 15. | **Maqsud İbrahimbəyov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 16. | **Nazim İbrahimov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 17. | **Zəlimxan Yaqubov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 18. | **Anar Rzayev** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 19. | **Sabir Rüstəmxanlı** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 20. | **Səməd Seyidov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 21. | **Abutalıb Səmədov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 22. | **Mayis Səfərli** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |

| | | |
|---|---|---|
| 23. | **Nizami Xudiyev** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 24. | **Nizami Cəfərov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 25. | **Gültəkin Hacıyeva** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 26. | **Elçin Əfəndiyev** | Azərbaycan Respublikası Baş nazirinin müavini |
| 27. | **Xələf Xələfov** | Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |
| 28. | **Rafiq Əliyev** | Azərbaycan Respublikasının Dini İşlər Üzrə Dövlət Komitəsinin sədri |
| 29. | **Mahmud Kərimov** | Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti |
| 30. | **Budaq Budaqov** | Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru |
| 31. | **Cəmil Əliyev** | Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda kafedra müdiri, Respublika Milli Onkoloji Mərkəzinin direktoru |
| 32. | **Yaşar Qarayev** | Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun direktoru |
| 33. | **Ağamusa Axundov** | Azərbaycan Milli Elmlər Akademiyası İctimai və humanitar elmlər bölməsinin akademik-katibi |
| 34. | **Abel Məhərrəmov** | Bakı Dövlət Universitetinin rektoru |
| 35. | **Havar Məmmədov** | Azərbaycan Texniki Universitetinin rektoru |
| 36. | **Gülçöhrə Məmmədova** | Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru |
| 37. | **Kamal Abdullayev** | Bakı Slavyan Universitetinin rektoru |
| 38. | **İsa Həbibbəyli** | Naxçıvan Dövlət Universitetinin rektoru |
| 39. | **Yaqub Mahmudov** | Bakı Dövlət Universitetinin professoru |
| 40. | **Siyavuş Kərimi** | Azərbaycan Milli Konservatoriyasının rektoru |
| 41. | **Nəbi Xəzri** | xalq şairi |
| 42. | **Əkrəm Əylisli** | xalq yazıçısı |
| 43. | **Vaqif Səmədoğlu** | xalq şairi |
| 44. | **Afaq Məsud** | Yazıçı |
| 45. | **Firəngiz Əlizadə** | bəstəkar |
| 46. | **Vaqif Mustafayev** | kinorejissor |
| 47. | **Mehdi Mehdiyev** | Qarabağ Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri |
| 48. | **Sevil Əliyeva** | "Sevil" Qadınlar Məclisinin sədri |
| 49. | **Elmira Süleymanova** | "Qadın və İnkişaf" Mərkəzinin prezidenti |
| 50. | **Arif Əliyev** | "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri |
| 51. | **Azay Quliyev** | Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti |
| 52. | **Cəfər Cəfərov** | BMT-nin Qeyri-Hökumət Təşkilatları üçün resurs və təlim mərkəzinin koordinatoru |
| 53. | **Etibar Babayev** | "Space" teleşirkətinin prezidenti |





| | | |
|---|---|---|
| 54. | **Namiq Abdullayev** | Olimpiya çempionu |
| 55. | **Zemfira Meftahəddinova** | Olimpiya çempionu |
| 56. | **Səttar Mehbalıyev** | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri |
| 57. | **Tomris Azəri** | ABŞ, Amerikanın Azərbaycan cəmiyyətinin prezidenti |
| 58. | **Piruz Xanlı** | ABŞ, "Azərbaycan internəşnl" jurnalının naşiri |
| 59. | **Natiq Atakişiyev** | Meksika, Kuarnavaka Universitetinin professoru, Meksika Elmlər Akademiyasının üzvü |
| 60. | **Şahrux Məzhəri** | Britaniya-Azərbaycan Türkləri Cəmiyyətinin başkanı |
| 61. | **Şirin Məlikova** | Paris Beynəlxalq Diplomatiya Akademiyasının əməkdaşı, filologiya elmləri doktoru |
| 62. | **Qulam Rza Təbrizi** | Böyük Britaniya, Edinburq Universitetinin professoru |
| 63. | **Mustafa Alınca** | Fransa, Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin sədri |
| 64. | **Qulam Abyar** | Fransa-Azərbaycan ticarət palatasının baş katibi |
| 65. | **Səttar Mahmudi** | Azərbaycan Federasionu - İsveç təşkilatının xarici əlaqələr üzrə sədri |
| 66. | **Cavad Dərəxti** | İsveç, Dünya Azərbaycanlıları Konqresi idarə heyətinin sədri |
| 67. | **Seyfəddin Altaylı** | TRT-nin əməkdaşı |
| 68. | **Nüsrət Delbasten** | Almaniyadakı Azərbaycan Cəmiyyətləri Federasiyasının sədri |
| 69. | **Rza Talibi Dəryani** | Almaniya, Azərbaycan forumunun idarə heyətinin üzvü, professor |
| 70. | **Əşrəf Heybətov** | Almaniya, Bakı Mədəniyyət Mərkəzinin sədri |
| 71. | **Səid Kazımi** | Kanada-Azərbaycan Ticarət Palatasının prezidenti |
| 72. | **Esmira Əsədova** | Kanada-Azərbaycan Ticarət Palatasının üzvü |
| 73. | **Səttar Piran** | Avstriya, Azərbaycan Mədəniyyət Cəmiyyətinin sədri |
| 74. | **Allahyar Caved** | Norveç-Azərbaycan Kültür Ocağının üzvü |
| 75. | **Kərim Rismankar** | Danimarka- Azərbaycan kültür dərnəyinin idarə heyətinin sədri |
| 76. | **Mehmet Yıldız** | Azərbaycan Belçika Dostluq Cəmiyyətinin prezidenti |
| 77. | **Calal Qaragöz** | Hollandiya-Azərbaycan-Türk Mədəniyyət Cəmiyyətinin sədri |
| 78. | **Nürəddin Turan** | İsveçrə, Azərbaycan Cəmiyyətinin sədri |
| 79. | **Cəfər Keşvəri** | Finlandiya, Vaasa Universitetində doktor-mühəndis |
| 80. | **Ulduzxan Əhmədov** | Latviya, "Azəri" Cəmiyyətinin sədri |
| 81. | **Mahir Həmzəyev** | Litva Azərbaycanlıları Cəmiyyətinin sədri |

| | | |
|---|---|---|
| 82. | **Niyazi Hacıyev** | Estoniya, Azərbaycan icmasının fəxri sədri |
| 83. | **Əhməd Qeybi** | Avstraliya, Azərbaycan Cəmiyyətinin prezidenti |
| 84. | **Mehman İsmayılov** | Moldova, Azərbaycan Konqresinin sədri |
| 85. | **Valeh Hacıyev** | Orbeliani adına Tbilisi Dövlət Universitetinin kafedra müdiri, professor |
| 86. | **İmir Məmmədov** | Gürcüstan Dövlət Dəftərxanası Regional Xidmət İdarəsinin rəis müavini |
| 87. | **Natiq Bağırov** | Belarus-Azərbaycan Cəmiyyətinin prezidenti |
| 88. | **İsmayıl Məmmədov** | Özbəkistan-Azərbaycan mədəni mərkəzinin sədri |
| 89. | **Firidun Səfərov** | Azərbaycan və Özbəkistanın xalq artisti |
| 90. | **Müseyib Novruzov** | Qazaxıstanın Turan Konqresinin prezidenti |
| 91. | **Akif Allahverdiyev** | Qırğızıstanda Azərbaycanlılar Assosiasiyasının prezidenti |
| 92. | **Tofiq Hüseynov** | Tacikistan, sahibkar |
| 93. | **Məmməd Əliyev** | Ümumrusiya Azərbaycan Konqresinin prezidenti |
| 94. | **Şakir Göyüşov** | Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, Ulyanovsk "Nizami" cəmiyyətinin sədri |
| 95. | **Rahib Abbasov** | Rusiya Federasiyasının əməkdar həkimi, professor, Çoxprofilli ümumi terapiya və peşə xəstəlikləri klinikasının direktoru |
| 96. | **Söyün Sadıxov** | Rusiya Federasiyası, Azərbaycan Milli Mədəni Muxtariyyatının sədri |
| 97. | **Azər Kərimov** | Çexiya, professor |
| 98. | **Svetlana Abdullayeva** | Macarıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri |
| 99. | **Əbdüllətif Bəndəroğlu** | İraq, "Yurd" jurnalının redaktoru |
| 100. | **Tofiq Mirzəyev** | İsrail, rejissor |
| 101. | **Oqtay Əfəndiyev** | Ukrayna Azərbaycanlıları Konqresinin sədr müavini |
| 102. | **Mikayıl Ələkbərov** | Ukrayna Sahələrarası İdarəetmə İnstitutunun prorektoru, Beynəlxalq Kadrlar Akademiyasının akademiki |

ƏLAVƏ 3

Dünya azərbaycanlılarının Əlaqələndirmə Şurasının idarə Heyəti

| | | |
|---|---|---|
| 1. | **Mahmud Kərimov** | Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, İdarə Heyətinin sədri |
| 2. | **İlham Əliyev** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 3. | **Xələf Xələfov** | Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |





| | | |
|---|---|---|
| 4 | **Anar Rzayev** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 5 | **Nizami Cəfərov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 6 | **Hidayət Orucov** | Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə dövlət müşaviri |
| 7 | **Əli Həsənov** | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri, İdarə Heyəti sədrinin müavini |
| 8 | **Əli Əhmədov** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 9. | **Kamal Abdullayev** | Bakı Slavyan Universitetinin rektoru |
| 10 | **Azay Quliyev** | Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti |
| 11. | **Cəfər Cəfərov** | BMT-nin Qeyri-Hökumət Təşkilatları üçün resurs və təlim mərkəzinin koordinatoru |
| 12 | **İsa Həbibbəyli** | Naxçıvan Dövlət Universitetinin rektoru |
| 13. | **Tomris Azəri** | ABŞ, Amerikanın Azərbaycan Cəmiyyətinin prezidenti, İdarə Heyəti sədrinin müavini |
| 14. | **Seyfəddin Altaylı** | TRT-nin əməkdaşı |
| 15. | **Məmməd Əliyev** | Ümumrusiya Azərbaycan Konqresinin prezidenti, İdarə Heyəti sədrinin müavini |
| 16. | **Valeh Hacıyev** | Orbeliani adına Tbilisi Dövlət Universitetinin kafedra müdiri, professor |
| 17. | **Nüsrət Delbasten** | Almaniyadakı Azərbaycan Cəmiyyətləri Federasiyasının sədri |
| 18. | **Şirin Məlikova** | Paris Beynəlxalq Diplomatiya Akademiyasının əməkdaşı, filologiya elmləri doktoru |
| 19 | **Qulam Rza Təbrizi** | Böyük Britaniya, Edinburq Universitetinin professoru, İdarə Heyəti sədrinin müavini |
| 20. | **Səttar Mahmudi** | Azərbaycan Federasionu-İsveç təşkilatının xarici əlaqələr üzrə sədri |
| 21. | **Mikayıl Ələkbərov** | Ukrayna Sahələrarası İdarəetmə İnstitutunun prorektoru, Beynəlxalq Kadrlar Akademiyasının akademiki |
| 22 | **İsmayıl Məmmədov** | Özbəkistan-Azərbaycan mədəni mərkəzinin sədri |
| 23 | **Müseyib Novruzov** | Qazaxıstanın Turan Konqresinin prezidenti |

ƏLAVƏ 4

**"Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

—qüvvədə olan qanunvericilik aktlarının "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

—Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

—Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsində nəzərdə tutulmuş xaricdə yaşayan azərbaycanlılara və onların təşkilatlarına maddi yardım edilməsi məqsədi ilə yaradılan dövlət fondlarının vəsaitlərindən istifadə qaydalarını müəyyən etsin;

—həmin Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

—öz səlahiyyətləri daxilində "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

—Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqani səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

—həmin Qanunun 6.4-cü və 9.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

-həmin Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi həyata keçirir.

**Heydər ƏLİYEV.**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri 21 fevral 2003-cü il.**





**Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Bu Qanun xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsədi və prinsiplərini və bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən edir.

Maddə 1. "Xaricdə yaşayan azərbaycanlılar anlayışı"

1.1. Bu Qanunun məqsədləri üçün "xaricdə yaşayan azərbaycanlılar" dedikdə, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və özünü azərbaycanlı hesab edən aşağıdakı şəxslər başa düşülür:

1.1.1. Azərbaycan Respublikasının vətəndaşları və onların övladları;

1.1.2. əvvəllər Azərbaycan SSR-nın və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş şəxslər və onların övladları;

1.2. "Xaricdə yaşayan azərbaycanlılar anlayışı həmçinin bu Qanunun 1.1.1. və 1.1.2-ci maddələrində göstərilmiş kateqoriyalara aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü azərbaycanlı hesab edən şəxslərə və onların övladlarına da şamil olunur.

Maddə 2. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin məqsədləri

2.0. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin məqsədləri aşağıdakılardan ibarətdir:

2.0.1. beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, eləcə də müvafiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla, xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə və onların öz milli özgünlüyünü qoruyub saxlamasına və inkişaf etdirməsinə kömək göstərmək,

2.0.2. xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının dövlət orqanları, eləcə də qeyri-hökumət təşkilatları ilə sıx əlaqələr qurmasına və inkişaf etdirməsinə, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında informasiya almasına şərait yaratmaq;

2.0.3. xaricdə yaşayan azərbaycanlıları Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və suverenliyinin qorunmasına və möhkəmləndirilməsinə, iqtisadi, sosial və mədəni inkişafına, cəmiyyətin və dövlətin siyasi həyatına, habelə Azərbaycan Respublikası ilə digər dövlətlər arasında qarşılıqlı surətdə faydalı münasibətlərin qurulması və inkişaf etdirilməsinə cəlb etmək;

2.0.4. beynəlxalq hüquq normalarına və müvafiq dövlətlərin qanunvericiliyinə uyğun olaraq, xaricdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətlər və ictimai birliklər yaratmaq hüququnun həyata keçirilməsinə yardım göstərmək.

Maddə 3. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin prinsipləri

3.1. Azərbaycan Respublikası xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətini həyata keçirərkən beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə, o cümlədən insan hüquq və azadlıqlarına hörmət və digər dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanır.

3.2. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti Azərbaycan Respublikasının daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir.

Maddə 4. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin əsasları

4.1. Azərbaycan Respublikası onun vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlıların hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

4.2. Azərbaycan Respublikasının vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının ərazisində yaşayan Azərbaycan Respublikası vətəndaşları ilə bərabər hüquqlara malikdir və bərabər vəzifələr daşıyırlar.

4.3. Azərbaycan Respublikası digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan azərbaycanlılarla bütün sahələrdə əlaqələrin saxlanmasına və inkişaf etdirilməsinə kömək göstərir, onların əsas hüquq və azadlıqlarının müdafiəsi üçün müvafiq tədbirlər görür.

4.4. Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinin I hissəsinə uyğun olaraq, digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının ərazisində olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.

Maddə 5. Xaricdə yaşayan azərbaycanlılarla bağlı vətəndaşlıq məsələləri

5.1. Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin ərazisində yaşaması Azərbaycan Respublikası vətəndaşlığının xitamına səbəb olmur.

5.2. Digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikası vətəndaşlığını əldə etməsi və Azərbaycan Respublikası vətəndaşlığına bərpa edilməsi qaydası "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.





5.3 Azərbaycan Respublikası vətəndaşlığına qəbul edilməsi barədə vəsatət qaldıran xaricdə yaşayan azərbaycanlı müvafiq dövlət rüsumunu ödəməkdən azad edilir.

Maddə 6. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının iqtisadi və sosial siyasəti

6.1 Xaricdə yaşayan azərbaycanlılarla bağlı iqtisadi sahədə dövlət siyasətinin reallaşması məqsədi ilə Azərbaycan Respublikasının dövlət orqanları aşağıdakı tədbirləri həyata keçirir:

6.1.1. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən kommersiya təşkilatları ilə xaricdə yaşayan azərbaycanlıların kommersiya təşkilatları arasında əməkdaşlığı təşviq edir;

6.1.2. xaricdə yaşayan azərbaycanlıların iştirak etdiyi birgə müəssisələrin yaradılmasına kömək göstərir;

6.1.3. xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının iqtisadiyyatına investisiya qoymaları və Azərbaycan Respublikasının ərazisində sərbəst surətdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün əlverişli şərait yaradır.

6.2. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardım göstərə bilərlər.

6.3 Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsədləri üçün, xaricdə yaşayan azərbaycanlılara maliyyə yardımı edən fiziki və hüquqi şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq vergi, gömrük güzəştləri və digər güzəştlər verilə bilər.

6.4. Təbii fəlakətlər, ekoloci və digər qəzalar baş vermiş yerlərdə yaşayan azərbaycanlılara Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada humanitar yardım göstərilə bilər.

Maddə 7. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının mədəniyyət, dil və təhsil siyasəti

7.1. Azərbaycan Respublikasının dövlət orqanları xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin və dilinin qorunub saxlanmasında və inkişaf etdirilməsində, öz ana dilində təhsil almaq imkanının həyata keçirilməsində yardım göstərir və bu məqsədlə zəruri tədbirlər görür.

7.2. Azərbaycan Respublikasının dövlət orqanları digər dövlətlərdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətləri ilə hərtərəfli əməkdaşlıq həyata keçirir.

7.3. Xaricdə yaşayan azərbaycanlılara öz mədəni, elmi və informasiya tələbatını ödəmək üçün Azərbaycan Respublikasının digər dövlətlərdə olan elm və mədəniyyət mərkəzlərindən istifadə etmək imkanı verilir.

7.4. Xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin qoruyub saxlanmasında və inkişaf etdirilməsində yardım məqsədilə Azərbaycan Respublikasının dövlət orqanları aşağıdakı tədbirləri həyata keçirir:

7.4.1. xaricdə yaşayan azərbaycanlıların mədəniyyət mərkəzlərinə, mədəni-maarif təşkilatlarına, kitabxanalarına, arxivlərinə, muzeylərinə, teatrlarına, musiqi ansambllarına və digər yaradıcı kollektivlərinə yardım göstərir;

7.4.2. xarici ölkələrdə Azərbaycan dilində fəaliyyət göstərən məktəblərin tədris-metodik və maddi-texniki təminatına və inkişafına, eləcə də həmin məktəblər üçün kadrların hazırlanmasına yardım göstərir;

7.4.3. xaricdə yaşayan azərbaycanlıların mədəni irsinin öyrənilməsinə kömək göstərir;

7.4.4. xaricdə yaşayan azərbaycanlılara öz ana dilini qoruyub saxlamaqda, ana dilinin öyrənilməsinə, təhsil almaq və informasiya əldə etmək üçün bu dildən istifadəyə şərait yaradılmasında kömək göstərir;

7.4.5. xaricdə yaşayan azərbaycanlıların Azərbaycan tarixini və Azərbaycan mədəni irsini öyrənməsinə şərait yaradılmasında onlara kömək göstərir;

7.4.6. xaricdə yaşayan azərbaycanlılara Azərbaycan Respublikasında təhsil almaq, elmi və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq üçün güzəştli şərtlərlə yardım göstərir.

Maddə 8. İnformasiya sahəsində xaricdə yaşayan azərbaycanlılara kömək göstərilməsi

8.0. Azərbaycan Respublikasının dövlət orqanları xaricdə yaşayan azərbaycanlılara informasiya sahəsində kömək məqsədi ilə aşağıdakı tədbirləri həyata keçirir:

8.0.1. xaricdə yaşayan azərbaycanlılara ana dilində informasiya almaqda və yaymaqda, informasiya vasitələri yaratmaqda, müvafiq xarici dövlətlərlə Azərbaycan Respublikası arasında informasiya əlaqələrinin qurulmasında və inkişaf etdirilməsində yardım göstərir;

8.0.2. xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasəti haqqında və yaşadıqları dövlətlərdə azərbaycanlıların vəziyyəti haqqında informasiyanın yayılmasını təmin edir;

8.0.3. Azərbaycan Respublikasından ana dilində televiziya, radio, dövri mətbuat, internet və digər vasitələrlə informasiyanın yayılması üçün zəruri şərait yaradır;

8.0.4. xaricdə yaşayan azərbaycanlıların məlumatlandırılmasını həyata keçirən Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq maliyyə və maddi-texniki vəsaitlər verir;





8.0.5. xaricdə yaşayan azərbaycanlılara məxsus olan kütləvi informasiya vasitələrinə yardım göstərir;

8.0.6. diaspora ilə işin təşkil olunması və aparılması sahəsində digər ölkələrin təcrübəsinin öyrənilməsinə və tətbiq olunmasına yardım göstərir.

Maddə 9. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikası dövlət orqanlarının fəaliyyətinin maliyyələşdirilməsi

9.1. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikası dövlət orqanlarının fəaliyyəti dövlət büdcəsindən maliyyələşdirilir. Bu vəsaitlərdən istifadə qaydaları Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

9.2. Azərbaycan Respublikasının yerli özünüidarə orqanları xaricdə yaşayan azərbaycanlılarla bağlı həyata keçirdikləri tədbirlərin maliyyələşdirilməsi üçün zəruri olan vəsaitlərin həcmini və onlardan istifadə qaydalarını müstəqil müəyyən edir.

9.3. Xaricdə yaşayan azərbaycanlılara və onların təşkilatlarına maddi yardım edilməsi məqsədilə dövlətin, fiziki və hüquqi şəxslərin ödəmələri hesabına təşkil olunan dövlət fondları və ya ictimai fondlar yaradıla bilər. Dövlət fondlarının vəsaitlərindən istifadə qaydaları Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

9.4. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının və digər dövlətlərin fiziki və hüquqi şəxslərinin xeyriyyəçilik fəaliyyəti həvəsləndirilir.

Maddə 10. Xaricdə yaşayan azərbaycanlılarla bağlı monitorinqin aparılması

Azərbaycan Respublikasının müvafiq İcra hakimiyyəti orqanı xaricdə yaşayan azərbaycanlıların vəziyyəti haqqında informasiyanın toplanmasını, təhlilini və qiymətləndirilməsini və bu məqsədlə xüsusi məlumat bankının yaradılmasını təmin edir.

Maddə 11. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası dövlət orqanlarının vəzifələri

Azərbaycan Respublikasının dövlət orqanları öz səlahiyyətləri daxilində bu Qanunda göstərilmiş tədbirləri həyata keçirirlər.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**
**Bakı şəhəri, 27 dekabr 2002-ci il.**

# DÜNYA DİASPORALARI

*İÇİNDƏKİLƏR*

1. Diaspor nəzəriyyəsi .......... 7
2. Azərbaycan diasporu .......... 28
3. Yəhudi diasporu .......... 160
4. Türk diasporu .......... 176
5. Erməni diasporu .......... 190
6. Ərəb diasporu .......... 218
7. Hind diasporu .......... 231
8. İrland diasporu .......... 246
9. Koreya diasporu .......... 260
10. Meksika diasporu .......... 272
11. Yapon diasporu .......... 284
12. Yunan diasporu .......... 297
13. Çin diasporu .......... 310
14. Rus diasporu .......... 321
Nəticə .......... 332
Əlavələr .......... 336

**Əliyev Zaur. Dünya diasporları** (nəzəriyyə və təcrübə)

Kitabın çapına məsul:**Əli Salmanov**
Korrektorlar:**Aynur Tağıyeva**
**Aytən Əliyeva**

Yığılmağa verilmişdir: 10.12.2004.
Çapa imzalanmışdır: 15.05.2005.
Şərti çap vərəgi 22, Formatı 60x90 1/16.
Tiraj 500

e-mail: zaur_azerbaijani@yahoo.com

"Qismət mətbəəsində
ofset üsulu ilə çap edilmişdir.